# AZƏRBAYCAN RESPUBLİKASI 1991-2001

2001
1421

T3(2A)
A99

# AZƏRBAYCAN RESPUBLİKASI
# 1991-2001

85786

80381

XXI
YNE
Bakı - 2001

ARXİV

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

T3(2A)7 + Ф3(2A)

Müəlliflər: Abdullazadə Fatma,
Ələsgərov Fuad,
Əlirzayev Əli,
Əliyev Şahin,
Əsədov Əli,
Həsənov Əli,
Xəlilov Səlahəddin,
Qafarov Tahir,
Mahmudov Yaqub,
Məmmədov Novruz,
Rəhimov Mayıl.

Kitab fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevin ümumi redaktəsi altında çapa hazırlanmışdır.

**Azərbaycan Respublikası 1991-2001.** – B.: XXI–Yeni Nəşrlər Evi, 2001. – 360 s.

A $\frac{0805000000-26}{080-01}$

© XXI–YNE, 2001.

***Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyinə həsr olunur***

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN ONUNCU İLDÖNÜMÜ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

*Bu il Azərbaycan xalqının həyatında əlamətdar tarixi hadisə – Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 10 ili tamam olur. 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü – müstəqil inkişaf dövrü başlandı.*

*Azərbaycan Respublikasının öz dövlət müstəqilliyini əldə etməsi keçmiş SSRİ-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi idi. Bu obyektiv tarixi gerçəklik SSRİ-nin dağılmasına, Kommunist Partiyasının tarix səhnəsindən çəkilməsinə və nəticə etibarilə müttəfiq respublikaların hər birinin müstəqil dövlətə çevrilməsinə gətirib çıxartdı. Bunun ardınca yeni müstəqil dövlətlərin, eləcə də Azərbaycan Respublikasının dünya ölkələri, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınması beynəlxalq hüquq normalarının qanuni təzahürü oldu.*

*Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir. Müstəqillik yoluna qədəm qoymuş Azərbaycan Respublikasının da qarşısında yeni tarixi inkişaf mərhələsində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, əhalinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi taleyüklü, mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasət kursunun hazırlanıb həyata keçirilməsini və bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.*



*Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə heç bir iş aparılmadı. Müstəqil Azərbaycan dövlətinin keçdiyi yeni mərhələdə ölkənin iqtisadi, siyasi maraqları, təhlükəsizliyi, ərazi bütövlüyünün təmin olunması ilə bir araya sığmayan daxili və xarici siyasəti müstəqil dövlətçiliyə, onun sonrakı taleyinə ağır zərbələr vurdu. Azərbaycanda Ermənistanın təcavüzü ilə yanaşı daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və ölkənin daxilində qızğın hakimiyyət çəkişməsi başlanmışdı.*

*Bu dövrdə hökumətin daxili və xarici siyasətini xarakterizə edən əsas cəhət aydın, ardıcıl və prinsipial bir kursun olmaması idi. Dövlət idarəçiliyi vahid bir konsepsiya və sistem əsasında deyil, məsul vəzifə sahiblərinin qrup maraqlarını ifadə edən təsadüfi bəyanatlar, əksər hallarda bir-birini inkar edən, ziddiyyətli və emosional çıxışlar üzərində qurulurdu. XX əsrdə xalqımızın gərgin əməyi ilə yaradılmış qüdrətli iqtisadi potensial amansızcasına dağıdıldı, milli sərvətlər talan edildi. İctimai-siyasi həyatda, iqtisadiyyatda hərcmərclik, bir qarışıqlıq, "dövlət reketi" hökm sürürdü. Belə düşünülməmiş və səriştəsiz siyasət milli və vətəndaş qarşıdurmasının kəskinləşməsinə, hakimiyyətin ölkə daxilində öz nüfuzunu itirməsinə gətirib çıxartdı. Nəticədə, 1993-cü ilin yayında Azərbaycan dövlətçiliyi böhran və məhvolma təhlükəsi qarşısında qaldı, ölkə vətəndaş müharibəsi və parçalanma həddinə çatdı. 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkanlardan yaranmış müstəqil dövlətimiz səriştəsiz siyasət nəticəsində süquta uğramaq təhlükəsi ilə üz-üzə qaldı. Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, hətta müstəqilliyimiz üçün təhlükə törədən bir çox təzahürlərin əmələ gəldiyi bir dövr kimi səciyyələndirilə bilər.*

*1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Hakimiyyət vakuumu aradan götürüldü, baş qaldırmış separatçı qüvvələr, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət ilə xalqın birliyi, yekdilliyi təmin edildi.*

*Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq üçün təxirəsalınmaz vəzifələrdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan müharibəsi ilə bağlı qəti addımlar atılmasından ibarət idi. Milli Ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı. Cəbhə bölgələrindəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. 1994-cü ilin mayında atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq bir müddət ərzində davam etmiş hərbi əməliyyatlar dayandırıldı, münaqişənin dinc yolla aradan qaldırılması üçün ilkin şərait yarandı.*

*Müharibənin dayandırılması, ölkədaxili vəziyyətin nizamlanması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, regionda qonşu dövlətlərlə yaranmış gərginliyin aradan qaldırılması və münasibətlərin normal məcraya salınması Azərbaycanın müstəqil dövlət kimi yaşaması və sonrakı inkişafını şərtləndirən amillərdən oldu.*

*Azərbaycan daxildə yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ona münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktlarını imzaladı. Ölkənin çoxsaylı sosial-iqtisadi problemlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilməyə başlandı.*

*Azərbaycanda başlanmış bu işlər dövlətçiliyimizin əleyhinə olan daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərildi. Azərbaycan dövlətinin qətiyyəti, bütün xalqın qızğın dəstəyi ilə bu təhlükəli cəhdlərin qarşısı alındı. Görülmüş tədbirlər nəticəsində Azərbaycanda zor gücünə, silahlı dəstələrdən istifadə etməklə hakimiyyətə gəlmək ənənəsinə son qoyuldu. Azərbaycan dövləti keyfiyyətcə yeni bir mərhələyə daxil oldu, dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq üçün ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edildiyi ölkəyə çevrildi. 1995-ci ilə qədər bəzi sahələrdə bir sıra müsbət dəyişikliklər əldə edilsə də, ölkədə bütün istiqamətlərdə geniş miqyaslı islahatların ardıcıl şəkildə həyata keçirilməsi məhz tam ictimai-siyasi sabitliyin təmin edilməsindən sonra mümkün oldu.*



*1995-ci il noyabrın 12-də müstəqil respublikamızın ilk Konstitusiyası qəbul olundu və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirildi. Müstəqil Azərbaycan Konstitusiyası ölkəmizdə yeni dövlət quruculuğu üçün, dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modeli üçün hüquqi əsas yaratdı. Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması baxımından tariximizin ən məhsuldar dövrünün təməli qoyuldu.*

*Ölkədə demokratik islahatlar kursu müəyyən edildi və bu istiqamətdə ardıcıl iş həyata keçirilməyə başlandı. Azərbaycanda demokratik dövlət yaradılması üçün yeni iqtisadi sistemin formalaşması, iqtisadiyyat sahəsində demokratik islahatların həyata keçirilməsi zərurəti ön plana çəkildi. Bazar iqtisadiyyatının formalaşması üçün müvafiq hüquqi bazanın yaradılması yolunda böyük iş aparıldı. Torpaq və aqrar islahatlar haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı, əhalinin sosial müdafiəsini təmin edən mühüm qanunvericilik aktları qəbul edildi. İqtisadi islahatların dərinləşməsində həlledici rol oynayan özəlləşdirmə prosesi sürətləndirildi. Bu sahədə görülmüş ardıcıl iş sayəsində kiçik özəlləşdirmə başa çatdırıldı, ölkədə ticarət, ictimai iaşə və bütün xidmət obyektləri demək olar ki, artıq sahibkarların əlində cəmləşdi. Orta və iri sənaye müəssisələrinin özəlləşdirilməsi başlandı.*

*İstehsalda yaranmış geriləmə hallarının qarşısı bazar iqtisadiyyatına keçid istiqamətində görülən məqsədyönlü tədbirlər sayəsində alındı, ölkədə makroiqtisadi sabitlik təmin olundu. Həyata keçirilən tədbirlər nəticəsində sənaye istehsalında artım meylləri yarandı. Sənayenin, demək olar ki, bütün sahələrində, o cümlədən neft və qaz, neft və neft-kimya, metallurgiya, maşınqayırma, tikinti materialları, yüngül və yeyinti sənayesi sahələrində, habelə sənayenin qeyri-dövlət sektorunda ciddi irəliləyiş əldə edildi.*

*Ölkədə torpaq islahatının həyata keçirilməsi, torpağın xüsusi mülkiyyətə verilməsi, kolxoz və sovxozların əmlakının özəlləşdirilməsi digər sahələrlə müqayisədə kənd təsərrüfatında islahatların daha sürətlə aparılmasına imkan yaratdı. Bu sahədə əldə edilmiş müsbət dəyişiklikləri dəstəkləmək, meydana çıxan problemləri aradan qaldırmaq məqsədilə xüsusi qanun və fərmanlar qəbul edildi.*

*Aqrar sektorun, torpaq vergisi istisna olmaqla, digər vergilərdən beş il müddətinə azad edilməsi, büdcəyə olan vergi borclarının silinməsi, yanacağın güzəştli satışı və digər tədbirlər kənd təsərrüfatı istehsalına əhəmiyyətli təsir göstərdi.*

*Gənc müstəqil dövlət, xüsusən Azərbaycan kimi xarici təcavüzə, böyük dağıntılara və itkilərə məruz qalmış ölkə müstəqilliyə nail olduqdan sonra iqtisadiyyatını öz daxili imkanları hesabına vaxtında inkişaf etdirə bilməzdi. Bu baxımdan Azərbaycana xarici investisiyanın cəlb olunması əsas məqsədlərdən biri idi. İqtisadi yüksəlişin həlledici şərti hesab olunan investisiya qoyuluşu sahəsində mühüm nailiyyətlər əldə olundu. Kapital qoyuluşunun artmasında ölkəmizə xarici kapital axını həlledici rol oynayır. Ölkə iqtisadiyyatına böyük həcmdə xarici investisiya yönəldilmişdir. Xarici investisiya qoyuluşunda "Əsrin müqaviləsi" və ondan sonrakı neft kontraktları mühüm rol oynayır. Azərbaycanda yalnız neft sektoruna deyil, iqtisadiyyatın digər sahələrinə xarici investisiya qoyuluşu xeyli artmışdır. Hazırda Azərbaycanda adam başına düşən xarici investisiyanın həcmi Müstəqil Dövlətlər Birliyi məkanında ən yüksək göstərici hesab olunur.*

*Azərbaycan dövlətinin neft strategiyasının işlənib hazırlanması və ardıcıl surətdə həyata keçirilməsi ölkəmizin əldə etdiyi nailiyyətlərin ən əsasıdır. Bu sahədə bir çox faydalı sazişlər imzalanıb, işlər görülmüşdür. Müstəqil neft strategiyasının həyata keçirilməsi vasitəsilə Azərbaycan dünyanın bir çox ölkələrinin diqqətini, marağını özünə cəlb etmişdir. Azərbaycanın neft strategiyası ölkəyə həm iqtisadi inkişaf üçün əlverişli şərait yaradıb, həm də dünyanın bir çox dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa imkan veribdir. Ümumiyyətlə, Azərbaycanın neft strategiyası və bu sahədə həyata keçirilən məqsədyönlü tədbirlər nəinki mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyət kəsb edir. Bu da Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına və dövlət müstəqilliyinin möhkəmlənməsi işinə xidmət edir.*

*Aparılan islahatların sosial yönümü və əhalinin sosial müdafiəsi tədbirləri dövlətin iqtisadi siyasətində mühüm yer tutur. Əmək haqqının artırılması barədə dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artmışdır. Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması hər vaxt dövlətin diqqət mərkəzində olmuşdur. Ölkənin sosial-iqtisadi imkanları yaxşılaşdıqca və büdcənin mədaxili artdıqca müvafiq olaraq bu istiqamətdə tədbirlər həyata keçiriləcəkdir.*



*Bu gün Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır. Bu, iqtisadiyyatın daha yüksək templə inkişafının təmin edilməsi, ölkədə işsizliyin azaldılması, əhalinin rifahının yaxşılaşdırılması, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiya edilməsi yolunda mühüm mərhələ olacaqdır.*

*Azərbaycan Respublikası demokratik inkişaf yolu ilə inamla irəliləyir. Ölkəmizdə bunun üçün zəruri olan təsisatlar və hüquqi baza artıq formalaşmışdır. Dövlət quruculuğu sahəsində aparılan islahatlar dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında gerçəkləşməsini təmin etdi. Respublikada müxtəlif yönlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyət göstərməsi, çoxsaylı mətbuat orqanlarının sərbəst çıxması, özəl televiziya və radio kanallarının öz verilişlərini efirə çıxarması və sairə kimi hallar Azərbaycanda siyasi plüralizm, fikir azadlığı, demokratiya abhavasının hökm sürməsinin konkret əyani nəticələridir. Vicdan və söz azadlıqları, şəxsiyyətin toxunulmazlığı, əsas insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi, tolerantlıq mühitinin bərqərar olması əsl vətəndaş cəmiyyətini formalaşdırmaq üçün atılmış mühüm addımlardır. Məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara, o cümlədən İnsan Hüquqları üzrə Avropa Konvensiyasının tələblərinə uyğun yenidən qurulması məqsədilə aparılan islahatlar hüquqi dövlət quruculuğunun uğurla həyata keçirilməsi, ölkəmizdə insan hüquqlarının təmin edilməsi və qorunması üçün böyük əhəmiyyət kəsb edir.*

*Sosial-iqtisadi sahələrdə, dövlət quruculuğunda, insan hüquqları və azadlıqlarının təmin edilməsi yolunda qazanılmış uğurlarla yanaşı Azərbaycan dövlətinin yeritdiyi məqsədyönlü siyasət sayəsində digər istiqamətlərdə də əldə edilmiş mühüm nailiyyətlər ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycanın silahlı qüvvələri qüdrətli bir orduya çevrilib və ölkəni hərbi təcavüzlərdən qoruyacaq qədər güclənib, inkişaf edibdir. Müstəqil respublikamızın nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi onun beynəlxalq*

*mövqeyinin möhkəmləndirilməsinə, dünya ölkələri içərisində öz layiqli yerini tuta bilməsinə əlverişli şərait yaratmışdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi işinə xidmət edən xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu əsaslar üzərində faydalı əlaqələr qurmaq və inkişaf etdirmək istiqamətində ardıcıl şəkildə aparılır. Azərbaycan dövlətçiliyi möhkəmlənib, günü-gündən güclənməkdədir.*

*On il tarixi baxımdan böyük müddət deyildir. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır.*

*Azərbaycanın dövlət müstəqilliyinin onillik yubileyinin ölkəmizin ictimai-siyasi həyatında böyük, əlamətdar hadisə olduğunu nəzərə alaraq və eləcə də Azərbaycan Respublikasının on il ərzində keçdiyi müstəqil inkişaf yolunda əldə etdiyi nailiyyətlərin təhlili və təbliğini gücləndirmək məqsədilə qərara alıram:*

*1. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ölkəmizdə geniş qeyd olunsun.*

*2. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onillik yubileyi ilə bağlı tədbirlər planı təsdiq edilsin.*

*3. Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsini təmin etsin və bu fərmandan irəli gələn digər məsələləri həll etsin.*

***Heydər Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 mart 2001-ci il*



## ÖN SÖZ

Yenicə qədəm qoyduğumuz XXI əsrin, üçüncü minilliyin ilk ilinin ay və günlərinin zirvəsindən artıq tarixə qovuşmuş XX əsrə nəzər salarkən bir daha əmin oluruq ki, həmin əsr istər nailiyyətləri, istərsə də məhrumiyyətləri ilə bəşəriyyətin həyatında nə dərəcədə fövqəladə rol oynamışdır. Belə ki, başa vurduğumuz yüzillik bəşəriyyətin yaddaşına həm sürətli elmi-texniki tərəqqi, imperiyaların süqutu ilə yeni suveren dövlətlərin yaranması, demokratiyanın inkişafı, sülh, sabitlik və əmin-amanlıq naminə göstərilən səylərlə, həm də iki dünya müharibəsində tökülmüş saysız-hesabsız nahaq qanlarla, uzun illər davam etmiş "soyuq müharibə"nin doğurduğu gərginliklə, kütləvi qırğın silahlarının yaradılması və yayılması nəticəsində Yer üzündə həyatın mövcudluğu üçün təhlükə ilə möhkəm həkk olunmuşdur.

Azərbaycan xalqının da taleyində XX yüzilliyin ayrı yeri var. Yeni dünya ilə ayaqlaşması baxımından bu əsr xalqımızın həyatında böyük nailiyyətlərlə zəngindir. Ən yaxın keçmişə nəzər salarkən yüzilliklərin və hətta minilliklərin qovuşuğunda çalxantılı zamanının dalğaları qoynunda bütün əzəməti ilə yeni bir Azərbaycan gözlər önündə canlanır.

Yeni minilliyin və yeni yüzilliyin ilk ili isə Azərbaycan xalqının həyatında bir də onunla əlamətdar sayılır ki, bu il ölkəmizin tarixinin ən yeni mərhələsinin başlandığı dövrün – dövlət müstəqilliyinin on yaşı tamam olur. On il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə öz tarixinin ən yeni çağına qədəm qoydu. Sovetlər Birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş elədiyi imkanlar nəticəsində xalqımız XX yüzillikdə artıq ikinci dəfə idi ki, müstəqillik bayrağını qaldırırdı. Bu, siyasi tariximizin XX əsrdəki ikinci parlaq səhifəsi idi. Çoxları elə güman edirdilər ki, sovetləşmə xalqları milli mənlik duyğusundan məhrum etmiş, onlara şanlı tarixi keçmişlərini unutdura bilmişdir. Lakin 1920-ci ildə mövcud tarixi şəraitin doğurduğu qarışıqlıqlar içərisində itirilən milli dövlətçiliyin əsrin sonlarında

yenidən bərpası xalqımızın varlığında milli azadlıq ruhunun hər zaman yaşadığından xəbər verirdi. Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü başlandı. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibi oldu. Artıq on ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır.

Tarixi baxımdan böyük bir müddət olmayan bu zaman kəsiyi yaşanmış sarsıntılar və problemlər, əldə edilmiş nailiyyətlər və uğurlar, həyata keçirilmiş işlər baxımından bir neçə onillik, bəlkə də bir əsrlik yola bərabər sayıla bilər. Bunu şərtləndirən əsas amillərdən biri onunla bağlıdır ki, müstəqilliyin əldə edilməsi ilə ölkə adətən qat-qat daha ağır və mürəkkəb problemlə – müstəqilliyin qorunması problemi ilə üzləşir. Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında da dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin milli maraqlara uyğun həlli, ölkə əhalisinin təhlükəsizliyinin və rifahının təmin edilməsi kimi mühüm tarixi vəzifələr dururdu. Bütün bunlar isə ardıcıl, məqsədyönlü, düşünülmüş daxili və xarici siyasətin həyata keçirilməsini tələb edirdi.

Keçilmiş on illik müddətə nəzər salarkən ölkəmizin müstəqil inkişaf dövrünün bu mühüm vəzifələrin yerinə yetirilməsi baxımından üç əsas mərhələyə bölündüyünü açıq-aşkar görmək olar. Birinci mərhələ 1991-1993, ikinci mərhələ 1993-1995-ci illəri, üçüncü mərhələ isə 1995-ci ildən sonrakı illəri əhatə edir.

1991-1993-cü illəri əhatə edən **birinci mərhələ** Azərbaycanın müstəqil dövlətçilik maraqları ilə üst-üstə düşməyən, bir çox hallarda isə onlara zidd olan qeyri-ardıcıl, səriştəsiz siyasətin aparılması, hakimiyyət uğrunda kəskin çəkişmələr, silahlı mübarizə ilə, özbaşınalıq və anarxiyanın hökm sürməsi, iqtisadiyyatın dağıdılması, ölkənin maddi sərvətlərinin vəhşicəsinə talan edilməsi ilə səciyyələnir. Həmin dövrdə hakimiyyətdə təmsil olunan qüvvələrin yeritdiyi siyasətin məqsəd və məramları müxtəlif olsa da, son nəticədə Azərbaycanın müstəqilliyi üçün eyni dərəcədə təhlükəli idi. Əgər Mütəllibov hakimiyyəti ziddiyyətli daxili və xarici siyasət yeridərək dövlət idarəçiliyini Moskvanın diktəsi ilə aparmağa və hər şeyi SSRİ-nin bərpa olunmasına tabe etməyə çalışırdısa, 1992-ci ilin may-iyun aylarında hakimiyyəti ələ keçirmiş Cəbhə-Müsavat birliyi beynəlxalq siyasətin obyektiv reallıqlarına, Azərbaycan xalqının maraqlarına zidd, məqsəd və məramı aydın olmayan, dövlət üçün xüsusi təhlükə törədən siyasət yeridirdi. Həmin mərhələ



bütövlükdə Azərbaycanın müstəqillik tarixinin ən ziddiyyətli, ziyanlı və təhlükəli dövrü hesab edilə bilər. 1991-1993-cü illərdə Azərbaycanın səriştəsiz rəhbərliyinin ayrı-ayrı qrupların və şəxslərin mənafeyinə xidmət edən siyasəti müstəqil Azərbaycan dövlətinə elə ağır zərbələr vurdu ki, onların neqativ nəticələrinin aradan qaldırılması sonrakı illərdə çox böyük və gərgin iş görülməsini tələb etdi. Bəzi nəticələr isə indiyə qədər də öz mənfi təsirini bu və ya digər şəkildə göstərir.

Müstəqil dövlətçilik tariximizin **ikinci mərhələsi** 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyinin baş verməsi ilə başlanır. Bu mərhələdə ilk növbədə hakimiyyət vakuumu aradan qaldırıldı, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı, ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı, Azərbaycan dövlətçilinə, onun müstəqillinə, ərazi bütövlüyünə qəsdlər edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edilərək cəzalandırıldı. Milli Ordunun formalaşdırılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi sayəsində cəbhədəki vəziyyətdə kəskin dönüş əldə edildi və nəticədə 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olundu. Azərbaycanla qonşu dövlətlər arasında yaranmış gərginlik aradan qaldırıldı və ölkəmizin xarici dövlətlərlə münasibətləri normal məcraya salındı. Müharibənin dayandırılması, daxili vəziyyətiin nizama salınması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi Azərbaycanın müstəqil dövlət kimi yaşaması və sonrakı inkişafı üçün möhkəm zəmin yaratdı, beynəlxalq aləmdə ölkəmizə inam və marağın artmasına səbəb oldu. Belə bir şəraitdə "Əsrin müqaviləsi" adlandırılan ilk neft kontraktlarının imzalanması, ölkə həyatının bütün sahələrində köklü dəyişikliklərin və islahatların həyata keçirilməsi üçün işlər başlandı. Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması və dövlət quruculuğu prosesi böyük vüsət aldı. Bunun isə əsasını müstəqil Azərbaycanın 1995-ci ilin noyabrında qəbul etdiyi ilk Konstitusiyası və parlament seçkiləri təşkil etdi. Ölkəmizdə zorakılıq, silah işlətmək yolu ilə hakimiyyətə gəlmək praktikasına birdəfəlik son qoyuldu. 1993-1995-ci illər müstəqil Azərbaycan Respublikasının bütün sahələr üzrə intensiv inkişafının möhkəm təməlini qoyan bir mərhələ kimi tariximizə daxil oldu.

Müstəqillik tariximizin ən məhsuldar dövrü 1996-cı ildən bu günə qədər davam edən **üçüncü mərhələsidir**. Müstəqil dövlə-

timizin daxili və xarici siyasətinin əsas istiqamətlərinin müəyyən edilməsi, Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması, bazar iqtisadiyyatına keçid yolunda görülən məqsədyönlü tədbirlər nəticəsində ölkədə makroiqtisadi sabitliyin təmin olunması, istehsalda artım meyllərinin güclənməsi, ölkəmizin milli maraqlarını qorumağa qadir olan ordunun yaranıb möhkəmlənməsi, dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, faydalı əlaqələrin qurulub inkişaf etdirilməsi, əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması üçün təsirli tədbirlərin həyata keçirilməsi, demokratik vətəndaş cəmiyyətinin bərqərar edilməsi yolunda ciddi addımların atılması və təcrübəli siyasətçi və dövlət xadimi Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə ölkəmizin müstəqil inkişaf yolunda əldə edilmiş digər nailiyyətlər bu mərhələnin başlıca göstəriciləridir. Diqqətinizə təqdim olunan bu kitabda geniş və hərtərəfli şərh olunan həmin nailiyyətlər bir vaxtlar idealda, indi isə gerçəkdə var olan müstəqil Azərbaycanın sabahına, müstəqilliyimizin "sarsılmaz, dönməz, əbədi" xarakter aldığına inamı daha da gücləndirir.

Həmin nailiyyətlər isə ilk növbədə ona görə əldə edilmişdir ki, XX əsrin sonunda Azərbaycan xalqı öz müstəqil dövlətini yenidən bərpa edə bilmişdir və xoşbəxtlikdən bu dövlətin başında, onun idarəçiliyinin sükanı arxasında məhz Heydər Əliyev kimi dahi şəxsiyyət və böyük dövlət xadimi durmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır", – deyərkən məhz bu başlıca amilin XXI əsrdə xalqımızın xoşbəxt gələcəyinin təmin olunmasında mühüm rol oynayacağını bir daha nəzərə çatdırmağı vacib bilmişdir. Müraciətin ardınca isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 mart 2001-ci il tarixli fərmanı və bu münasibətlə bağlı tədbirlər planının təsdiq edilməsi bir daha göstərdi ki, dövlət başçımız bu məsələnin əhəmiyyətini olduqca yüksək qiymətləndirərək Azərbaycanın dövlət müstəqilliyinin onillik yubileyinin ölkəmizin ictimai-siyasi həyatında böyük, əlamətdar hadisə olduğunu vurğulamaqla yanaşı, Azərbaycan Respublikasının on il ərzində keçdiyi müstəqil inkişaf yolunda əldə etdiyi nailiyyətlərin təhlili və təbliğinə də xüsusi diqqət yetirir.

Azərbaycan Respublikasının onuncu ildönümünə həsr olunmuş yubiley nəşri – "Azərbaycan 1991-2001-ci illərdə" kitabı da



çapa hazırlanarkən məhz həmin çox xeyirxah, eyni zamanda olduqca önəmli bir məqsədə nail olmaq nəzərdə tutulmuşdur. Bu məqsəd isə ondan ibarətdir ki, ilk əvvəl Vətənimizin qədim tarixi, zəngin dövlətçilik ənənələri, milli-mənəvi dəyərləri, ədəbiyyatı və incəsənəti, elmi, təhsili və sair barədə oxucuya ümumi şəkildə yığcam – ensiklopedik xarakterli məlumat verməklə onun bu sahədəki bilgilərini bir daha təsəvvüründə canlandırmasına kömək etmək, bunun ardınca isə son 10 ildə – müstəqilliyimiz dövründə keçdiyimiz tarixi yolun, xüsusən 1993-cü ildən sonra əldə etdiyimiz uğurların təhlili və ümumiləşdirilməsi əsasında respublikamızın bütün sahələrdə nail olduğu indiki yüksək səviyyə barədə ən yeni məlumatlarla onu tanış etməkdir. Ən doğru qiyməti hörmətli oxucu özü versin. Son 10 ildə bizim qazadıqlarımızla yanaşı, itirdiklərimiz də az olmamışdır və çox təəssüf ki, həmin itkilərə 1991-1993-cü illərdə – ölkədə hakimiyyət boşluğu hökm sürdüyü dövrdə yol verilmişdir və indi də bəzi problemlərin həllinə nail olunmaması məhz həmin dövrdə buraxılmış kobud səhv və nöqsanların nəticəsidir. Respublikanın indiki rəhbərliyi, şəxsən Prezident Heydər Əliyev bu problemləri həll etmək üçün öz səylərini bir an olsun azaltmasa da, hətta beynəlxalq səviyyədə ədalətli mövqeyimizə dəstək qazansa belə, işi axıra çatdırmaq yolunda hər dəfə yaradılan süni maneələr son anda əldə olunmuş razılıqların təxirə salınmasına səbəb olmuşdur. Kitabda oxucu bütün bunlar barədə ona lazım olan obyektiv məlumatı ala biləcəkdir. Bir sözlə, kitabda müstəqil dövlətimizin son onillik tarixinin obyektiv işıqlandırılması müəlliflərin daim diqqət mərkəzində olmuşdur.

Yubiley nəşrinin hazırlanmasında XX əsr Azərbaycan tarixinin mərhələləri barədə Heydər Əliyev tövsiyələri əsas kimi götürülmüşdür.

Kitab 3 hissə və 12 fəsildən ibarətdir.

*"Azərbaycanın dövlətçilik tarixindən"* adlı birinci hissədə ən qədim zamanlardan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı 1918-ci ilin mayınadək olan dövr, Azərbaycan Xalq Cümhuriyyəti dövrü və sovet hakimiyyəti illəri ayrıca fəsillər kimi verilmişdir.

*"Azərbaycanın müstəqilliyinin bərpası və qorunub saxlanması uğrunda mübarizə"* adlı ikinci hissədə SSRİ-nin dağılması ərəfəsindən başlayaraq 1995-ci il mart dövlət çevrilişi cəhdinədək ölkəmizdə baş verən ictimai-siyasi hadisələr üzərində geniş dayanılmışdır. Bu hissədə 1991-ci ilin oktyabrından sonra

ölkədə hökm sürən siyasi hərc-mərclik və hakimiyyət mübarizəsi şəraitində Milli Qurtuluş hərəkatının başlanması, Heydər Əliyevin hakimiyyətə qayıdışı və həmin hadisənin dövlətçiliyimizin qorunub saxlanmasında xilaskarlıq missiyası haqqında ətraflı bəhs olunmuşdur.

Üçüncü hissə *"Müstəqil dövlət quruculuğunun əsas istiqamətləri"* adlanır və 6 fəsildən ibarətdir. Bu hissədə hüquqi dövlət quruculuğu, iqtisadi və sosial inkişaf, Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması, milli təhlükəsizlik və Azərbaycanın xarici siyasət fəaliyyəti, milli-mənəvi inkişaf, sağlamlıq və ətraf mühitin mühafizəsi məsələləri ilə bağlı materiallar dərc edilmiş, həmin sahələrdə oxucuları düşündürən suallara ətraflı cavablar verilmişdir.

Əminik ki, Azərbaycanın 10 illik dövlət müstəqilliyinin yubiley nəşri geniş oxucu kütləsi tərəfindən razılıqla qarşılanacaq, ölkəmizin son 10 illik müstəqil inkişaf yolunun dinamikasına bələd olmağa səy göstərən hər bir ziyalı və bütövlükdə Azərbaycan tarixini öyrənmək istəyənlər üçün dəyərli vəsait rolunu uğurla yerinə yetirəcəkdir.



# I HİSSƏ

# AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏN

## I FƏSİL

## AZƏRBAYCAN DÖVLƏTÇİLİYİ ƏN QƏDİM ZAMANLARDAN İLK DEMOKRATİK RESPUBLİKANIN YARANMASINADƏK

85186

XX yüzilliyin sonunda yenidən müstəqilliyə qovuşmuş Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir.

Tarixi Azərbaycan torpaqları müasir sivilizasiyanın inkişafa başladığı ən qədim mədəniyyət mərkəzlərindən biridir. Azərbaycan xalqı öz torpaqlarında zəngin və çoxşaxəli mədəniyyətlə yanaşı dövlətçilik ənənələri də yaratmışdır.

Xalqımızın ulu babalarının yaşadığı tarixi Azərbaycan torpaqları ən qədim sivilizasiyaların ayaq açıb yeriməyə başladığı Xəzər-Aralıq dənizi regionuna daxil idi. Azərbaycan xalqının təşəkkülündə iştirak etmiş qədim etnoslar bu regionda yaranmış qədim mədəni mühitin, o cümlədən Şumer-Babil mədəniyyətinin formalaşmasında, həmçinin bütövlükdə Yaxın və Orta Şərqin hərbi-siyasi həyatında, qədim dövlətçilik tarixində çox mühüm rol oynamışlar. Bunu ölkəmizdə və xaricdə aparılan elmi axtarışlar, xüsusən də arxeoloji qazıntılar çox aydın sübut edir.

Azərbaycan ərazisi bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edən arxeoloji abidələrlə son dərəcə zəngindir. Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma (Naxçıvan) mağaralarında, habelə başqa abidələrdə aşkar olunan arxeoloji tapıntılar, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış Aşöl dövrünə aid qədim insanın – Azıx adamının (Azıxantrop) çənə sümüyü Azərbaycanın ibtidai insanların formalaşdıqları əraziyə daxil olduğunu sübut edir. Bu nadir tapın-

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

tıya görə Azərbaycan ərazisi "Avropanın ən qədim sakinləri" xəritəsinə daxil edilmişdir.

Dünyanın ən qədim insan məskənlərindən biri olan Azərbaycanın əhalisi hələ qədim daş dövründən (paleolit) başlayaraq yüksək mədəniyyət yaratmışdır. Orta daş dövrü (mezolit) və yeni daş dövrlərində (neolit) Azərbaycan əhalisi oturaq həyata keçmiş, əkinçilik, maldarlıq, müxtəlif sənət sahələri ilə məşğul olmağa başlamışdır. Azərbaycan ərazisindəki mədəni-iqtisadi tərəqqinin təsir dairəsi getdikcə genişlənməkdə idi. E.ə. IV minilliyin sonu – III minillikdə təşəkkül tapmış Kür-Araz mədəniyyəti Cənubi Qafqazın digər regionlarına, Şərqi Anadoluya və Şimali Qafqaza da yayılmışdı.

Arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri, xüsusilə taxıl qalıqları, əkinçiliklə bağlı əmək alətləri və məişət avadanlığı, müxtəlif növ sənətkarlıq məhsulları azərbaycanlıların dünyanın ən qədim oturaq mədəniyyət yaratmış xalqlarından biri olduğunu göstərir.

Azərbaycanlılar həm də dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır. Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu – III minilliyin əvvəllərindən başlayaraq yaranmışdı. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycanla Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı.

Fəal xarici siyasət yeridən ən qədim Azərbaycan dövlətləri öz torpaqlarını xarici təcavüzlərdən uğurla qoruyurdular. Qədim Azərbaycan tayfa birliyi olan Qutilər hətta özlərinin qüdrətli qonşuları olan Akkad dövlətini məğlub etmiş, öz dövlətlərinin sərhədlərini İran körfəzinə qədər genişləndirmiş, bu ərazidə yüz ilə qədər bir müddət ərzində hökmranlıq etmişdilər. Onlar özlərindən asılı hala saldıqları Akkad və Şumerin dövlət idarəçiliyi qaydalarından faydalandıqları kimi qədim Azərbaycanın mütərəqqi idarəçilik mədəniyyətini də həmin ölkələrə yaymışdılar.

Zaman keçdikcə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da yüksəlmiş, ölkə ərazisində yeni daha kamil dövlətlər yaranmışdır. Eramızdan əvvəl I minillikdə – bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında Manna, İskit (Skit, Skif) şahlığı, Atropatena və Albaniya kimi qüvvətli dövlətlər mövcud



olmuşdur. Onlar Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsində, ölkənin iqtisadi-mədəni, etnik-siyasi tarixində, eləcə də vahid xalqın təşəkkülü prosesində mühüm rol oynamışlar.

Ənənəvi Azərbaycan dövlətçiliyinin davamı olan və eramızdan əvvəl I minilliyin əvvəllərində meydana gələn Manna dövləti təkcə Azərbaycanın deyil, eləcə də dünyanın dövlətçilik mədəniyyəti tarixində mühüm yer tutur.

Manna bütün regionda baş verən hərbi-siyasi hadisələrdə yaxından iştirak edir, Azərbaycan torpaqlarını ələ keçirməyə çalışan qüvvətli qonşularına – Aşşur və Urartu dövlətlərinə qarşı uğurla mübarizə aparırdı. Aşşur və Urartu təcavüzünə qarşı mübarizədə o zaman Azərbaycanda məskunlaşmış iskitlər (skiflər) və kimmerlər də fəal iştirak edirdilər.

Manna hökmdarları irsi və qeyri-məhdud hakimiyyətə malik idilər. Lakin buna baxmayaraq onlar ölkəni ağsaqqallar şurasının köməyi ilə idarə edirdilər ki, bu da Azərbaycanın dövlət idarəçiliyi sahəsində qədim məşvərət mədəniyyətinə malik olduğunu sübut edir. Yurdumuzun cənub bölgələrində üç yüz ilə yaxın bir müddət ərzində davam etmiş və qüdrətli qonşularının aramsız hücumlarına duruş gətirmiş Manna Azərbaycanda ən qədim zamanlardan başlayaraq güclü dövlətçilik ənənələrinin mövcud olduğunu sübut edən çox qiymətli tarixi faktdır.

Eramızdan əvvəl VIII əsrin sonu – VII əsrin əvvəllərindən başlayaraq Azərbaycanın hərbi-siyasi tarixində kimmerlər və iskitlər, həmçinin iskitlərlə eyni kökdən olan saklar və massagetlər mühüm rol oynamağa başladılar. "Tarixin atası" Herodotun (e.ə. V əsr) öz şəxsi müşahidələrinə əsaslanan məlumatları da bunu sübut edir. Herodotun yazdığına görə, iskitlər at südü ilə qidalanırdılar; iskitlərlə qohum olan massagetlər də onlar kimi geyinir və onlara bənzər həyat sürür; yeganə bir allaha – Günəş allahına sitayiş edir, göydə sürətlə hərəkət edən Günəş allahına Yerdə ən sürətli canlıdan – atdan qurban verirdilər.

İskitlər Mannadan şimaldakı Azərbaycan torpaqlarında qüdrətli İskit şahlığı yaratmış, ölkə ərazisində vahid xalqın təşəkkül prosesində iştirak etmişdilər. İskit-Massaget hökmdarları da Azərbaycan torpaqlarını yadelli təcavüzlərdən uğurla müdafiə etmişdilər. Massaget şahlığı o dövrün ən qüdrətli imperiyalarından biri olan İran-Əhəməni imperiyasını ağır məğlubiyyətə uğratmışdı. Yaxın və Orta Şərqdə geniş işğallar həyata keçirmiş Əhəməni hökmdarı II Kir Azərbaycanın cənub torpaq-

larını zəbt etdikdən sonra ölkəmizin şimalını da ələ keçirməyə cəhd göstərmiş və bu məqsədlə Massaget hökmdarının dul qadını Tomirisə izdivac təklif etmişdi. Lakin II Kirin hiyləsini başa düşən, Vətən torpağının şərəfini və ölkənin müstəqilliyini uca tutan Tomiris İran hökmdarının təklifini rədd etmiş, Günəş allahına and içərək özündən qat-qat güclü olan yadelli qoşunlarını e.ə. 530-cu ildə darmadağın etmişdi. "Məğlubedilməz" Kirin özü də bu döyüşdə öldürülmüşdü. Midiya imperiyası, Lidiya, Babilistan kimi qüdrətli dövlətləri aradan qaldıraraq, Parfiya torpaqları da daxil olmaqla, Mərkəzi Asiyadan Misir hüdudlarına qədər çox geniş əraziləri ələ keçirmiş və bütün bu işğallara görə "Böyük Kir" ləqəbi qazanmış II Kir üzərində bu qələbə Azərbaycan dövlətçiliyi tarixinin ən şanlı səhifələrindən biridir.

İskit şahlığı dövründə Azərbaycan mədəniyyəti ilə Avrasiyanın çox geniş ərazilərinə yayılmış iskit mədəniyyəti arasında qarşılıqlı əlaqə üçün də əlverişli şərait yarandı. Qədim Azərbaycan mədəniyyəti daha da inkişaf etdi və zənginləşdi. Arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət nümunələri, habelə Azərbaycan ərazisində İskit-sak-massaget dövründən qalmış çoxlu yer adları buna parlaq sübutdur.

Yaxın və Orta Şərqdə çox mürəkkəb hərbi-siyasi hadisələrin cərəyan etməsinə, qonşu dövlətlərin təbii sərvətlərlə çox zəngin olan və hərbi-strateji baxımdan olduqca böyük əhəmiyyət kəsb edən Azərbaycan torpaqlarını ələ keçirmək cəhdlərinə baxmayaraq, dövlətçilik ənənələrimiz davam etməkdə və zənginləşməkdə idi. Odur ki, nə Əhəməni-İran imperiyasının uzun sürən işğal rejimi, nə də Makedoniyalı İsgəndərin yürüşləri Azərbaycanın qədim dövlət idarəçiliyi mədəniyyətini məhv edə bilmədi.

Makedoniyalı İsgəndərin ölümündən dərhal sonra Azərbaycan dövlətçiliyi yenidən dirçəldi. Ölkəmizin cənub torpaqlarında Atropatena, şimalında isə Albaniya dövlətləri meydana gəldi. Azərbaycanın bütün tarixi torpaqları bu iki yerli dövlətin tərkibində cəmləşdi.

Atropatena dövləti ölkənin cənub vilayətlərini əhatə edirdi. Burada müstəqil Azərbaycan dövlətçiliyinin dirçəlişi əslində hələ İsgəndərin Şərqə yürüşündən xeyli əvvəl baş vermişdi. Süquta uğramış keçmiş Midiya imperiyasının digər əraziləri ilə birlikdə ayrıca satraplığa çevrilmiş Azərbaycanın cənub torpaqlarını əhəməni satrapı Atropat hələ Əhəmənilərin hakimiyyəti dövründə müstəqil surətdə idarə edirdi. Azərbaycanın bu hissəsi o zaman Midiya-Atropatena, Kiçik Midiya və ya Atropatın adı ilə Atropat Midiyası, bəzən də Atropatiya və ya Atropatena adlanırdı.



Uzaqgörən siyasətçi və məşhur sərkərdə olan Atropat III Daranın İsgəndərə qarşı çıxardığı Əhəməni qoşunlarının ön dəstələrinə əsas zərbə qüvvəsinə başçılıq edirdi. Bu qüvvələr əsasən Azərbaycanın şimal və cənub torpaqlarından toplanmış hərbi dəstələrdən ibarət idi. III Daraya qalib gəldikdən sonra Atropatın sərkərdəlik istedadına və hərbi-siyasi nüfuzuna bələd olan İsgəndər onunla toqquşmaq fikrindən daşındı və Azərbaycan hakimi ilə yaxınlaşmağı daha üstün tutdu. Beləliklə, Makedoniyalı İsgəndərin işğalları Azərbaycandan yan keçdi. Sonralar Atropat Makedoniya hökmdarı ilə bu yaxınlaşmanı daha da dərinləşdirərək onun ən yaxın adamlarından biri ilə qohumluq əlaqəsi yaratdı və nəhayət, bütün Şərqdə ilk dəfə olaraq, Atropatenanı yunan-Makedoniya asılılığından azad olmuş ilk müstəqil dövlətə çevirdi.

Müstəqil dövlətçilik ənənələrinin dirçəlişi Azərbaycanın cənub rayonlarında iqtisadi və mədəni həyatın bütün sahələrində böyük yüksəlişə səbəb oldu. Qüdrətli Atropatena dövləti bütün regionun beynəlxalq münasibətlərində mühüm rol oynayır, Qafqaz, Volqaboyu, Orta Asiya, Hindistan, Kiçik Asiya, Mesopatomiya, Qara dəniz və Aralıq dənizi hövzələri ölkələri ilə geniş ticarət əlaqələri saxlayırdı. Daxili ticarətdə dövlətin öz pulları mühüm rol oynayırdı.

Şərq və yunan dövlət sistemləri arasındakı qarşılıqlı əlaqələr Atropatenada idarəçilik mədəniyyətinin də yüksəlişinə müsbət təsir göstərirdi. Ölkədə yunan dilindən geniş istifadə olunması, başqa sahələrlə yanaşı, hüquq normalarının da təkmilləşməsinə səbəb olurdu. Dövlət idarəçiliyi qaydaları daha da təkmilləşirdi.

Azərbaycanın, həmçinin Qədim Şərqin və Yunanıstanın dövlət idarəçiliyi ənənələrindən bəhrələnən Atropatena hökmdarları öz hakimiyyətlərini daha da qüvvətləndirə bildilər. Nəticədə Atropatena Parfiya və Selevki dövlətlərinə qarşı mübarizədə öz müstəqilliyini qoruyub saxlaya bildi, ölkənin ərazisinə soxulmuş Roma qoşunlarını parfiyalılarla birləşərək darmadağın etdi. O zaman Atropatena qoşunları bütün regionda ən güclü hərbi qüvvələrdən biri hesab olunurdu. Roma təcavüzkarları ilə döyüşə Atropatena 40 min piyada və 10 min süvari çıxarmışdı. Yaxın və Orta Şərqdə çox mühüm hərbi-siyasi qüvvə olan Atropatena dövləti ilə Roma imperiyası arasında geniş əlaqələr yaranmışdı. Roma imperiyası özünün şərq siyasətində Atropatenaya xüsusi əhəmiyyət verirdi. Atropatena elçiləri Romaya

gedib imperator Oktavian Avqustla (e.ə.27-e.14) diplomatik danışıqlar aparmışdılar.

Ölkənin şimalında meydana gələn Albaniya dövlətinin sərhədləri Dağıstanın cənubu (Dərbənd və ətrafları ilə birlikdə) da daxil olmaqla Baş Qafqaz dağlarından başlayaraq cənubda – Araz çayına qədər, qərbdə isə Göyçə gölü hövzəsi, Qabırrı (İori) və Qanıx (Alazan) çaylarının yuxarılarından başlayaraq şərqə doğru Xəzər dənizinədək uzanıb gedən Azərbaycan torpaqlarını əhatə edirdi. Bu qüdrətli Azərbaycan dövlətinin paytaxtı əvvəllər Qəbələ, sonra isə Bərdə (V əsrdən sonra) şəhərləri idi.

Albaniya dövründə Azərbaycanın şimal torpaqlarında maddi və mənəvi mədəniyyət daha da inkişaf etmişdi. Bu dövrdə elmi ədəbiyyatda alban əlifbası adlanan Azərbaycan əlifbası yaradılmış, məktəblər açılmışdı. Ölkədə mühüm ticarət və sənətkarlıq mərkəzi olan 30-dan çox şəhər vardı. Şimalla Cənubun, Şərqlə Qərbin qovşağında yerləşən və müxtəlif etnosların, dinlərin, mədəniyyətlərin qarşılaşıb təmasa girdiyi Albaniyada özünəməxsus və zəngin mədəniyyət formalaşmaqda idi. Bu, dövlətin həyatında mühüm rol oynayırdı. Aya, Göyə, Günəşə sitayişlə yanaşı xristianlıq da yayılmaqda idi. Müstəqil Alban kilsəsi dini cəhətdən birbaşa Romaya tabe idi.

Albaniya dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəlmişdi. Alban hökmdarları ölkənin dünyəvi və dini başçısı idilər. Onlar, eyni zamanda, qanunlar verir, ölkənin hərbi qüvvələrinə başçılıq edirdilər. Dövlətin hərbi qüvvələri 80 min nəfəri (60 min piyada, 22 min süvari) aşmışdı.

Albaniya hökmdarının sarayında məşvərət şurası fəaliyyət göstərirdi. Məşvərət şurasına və ruhani yığıncaqlarına Albaniya hökmdarlarının özləri rəhbərlik edirdilər. Atropatena kimi Albaniya dövlətinin də öz pulları vardı. Öz dövrü üçün möhkəm və mükəmməl dövlət idarəçiliyi sisteminə malik olan Albaniya dövləti ölkənin müstəqilliyi üçün təhlükə törədən Parfiyaya və Roma imperiyasına qarşı uğurla mübarizə aparmışdı. Ölkəyə müdaxilə edən Roma imperiyasının qoşunları Alban cəngavərləri tərəfindən dəfələrlə ağır məğlubiyyətə uğradılmışdı. Roma imperiyası Albaniyanın hərbi-siyasi qüdrəti ilə hesablaşmağa məcbur olmuş, iki ölkə arasında qarşılıqlı əlaqələr yaranmışdı. Atropatena kimi Albaniya elçiləri də Romaya gedib imperator Oktavian Avqustla danışıqlar aparmışdılar.

Albaniya hökmdarı, görkəmli dövlət xadimi Cavanşir ölkəni ələ keçirməyə çalışan Bizans, Sasani, Xilafət və Xəzər imperiyaları kimi qüdrətli qonşulara qarşı müdrik, uzaqgörən və çevik



xarici siyasət yeritmiş, özünün sərkərdəlik məharəti və döyüş şücaəti ilə ölkənin müstəqilliyini qoruyub saxlaya bilmişdi.

Yaxın və Orta Şərqdə mühüm hərbi-siyasi və mədəni təsir gücünə, region ölkələri ilə sıx qarşılıqlı münasibətlərə malik olan Albaniya Aralıq dənizi hövzəsi ölkələri ilə, o cümlədən Roma imperiyası ilə də geniş əlaqələr saxlayırdı. İlk mənbələr, o cümlədən arxeoloji qazıntılar zamanı aşkar olunmuş zəngin maddi mədəniyyət nümunələri Albaniya dövründə Azərbaycanın şimal torpaqlarının xarici ölkələrlə geniş əlaqələr saxladığını sübut edir. Yaxın və Orta Şərq ölkələrini Xəzər xaqanlığı və Şərqi Avropa ilə birləşdirən beynəlxalq ticarət yollarının Albaniyadan keçməsi ölkənin xarici ticarət əlaqələrinə müsbət təsir göstərirdi.

Eramızın əvvəllərində ölkəmiz öz tarixinin ən ağır sınaq dövrlərindən biri ilə qarşılaşdı: III əsrdə Azərbaycanı Sasani-İran imperiyası, VII əsrdə isə Ərəb xilafəti işğal etdi. İşğalçılar ölkəyə İranın və Ərəbistanın içərilərindən çoxlu iran və ərəb mənşəli əhali köçürüb gətirdilər. Gəlmə əhali mühüm hərbi-strateji əhəmiyyətə malik olan məntəqələrdə və ən məhsuldar torpaqlarda yerləşdirildi. Onlara geniş imtiyazlar verildi.

Lakin bütün bunlar Azərbaycanın qədim dövlətçilik ənənələrini məhv edə bilmədi. Azərbaycan xalqının təşəkkülü prosesi davam etdi. Uzun tarixi dövr ərzində Azərbaycanın bütöv halda həmin imperiyaların tərkibində olması nəticəsində, ölkənin bütün bölgələri arasında daxili əlaqələr, ilk növbədə ticarət əlaqələri genişləndi. Azərbaycanın şimal və cənub, şərq və qərb bölgələri arasında etnik-siyasi və mədəni birliyin yaranması yolunda mühüm irəliləyiş baş verdi. Bu dövrdə Tanrıya sitayiş – tanrıçılıq hələ başqa dini görüşləri sıxışdırıb tamamilə aradan qaldıra bilməmişdi. Zərdüştilik, atəşpərəstlik, Günəşə, Aya, Göyə, ulduzlara, torpağa, suya və s. sitayiş davam etməkdə idi. Ölkənin şimalında – Albaniya ərazisinin bəzi yerlərində xristianlıq yayılmaqda idi.

VII əsrdə islam dininin qəbul olunması ilə Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri baş verdi. Ölkədə dini birliyin yaranması bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, əlaqələrin genişlənməsinə səbəb oldu.

Bununla belə, təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq islamın prinsiplərinə zidd olduğu üçün ərəb fütuhatları dövründə Albaniyanın xristian əhalisi islam dininin təsir dairəsindən kənarda qaldı. Beləliklə, ölkədə dini ayrılıq baş verdi: çoxluq təşkil edən və ölkənin bütün ərazisinə yayılmış olan müsəlman əhali; bir də, azlıq təşkil edən və əsasən Şimali Azər-

tənəzzülündən sonra – IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə imperiyaların rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Səfəvilər, Qacarlar və başqa sülalələrin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, ölkəmizin və xalqımızın hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. Bəhs olunan dövrdə Azərbaycan dövlətləri Yaxın və Orta Şərqin beynəlxalq münasibətlərində, hərbi-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Avropa – Şərq münasibətlərində də çox fəal iştirak edirdilər.

Azərbaycanın böyük dövlət xadimi Uzun Həsənin (1468-1478) hakimiyyəti illərində Ağqoyunlu dövləti bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrildi. Azərbaycanın dövlətçilik mədəniyyəti daha da inkişaf etdi. Uzun Həsən bütün Azərbaycan torpaqlarını əhatə edən güclü mərkəzləşdirilmiş dövlət yaratmaq siyasəti yeridirdi. O, bu məqsədlə xüsusi "Qanunnamə" hazırlatmışdı. Uzaqgörən dövlət xadimi ölkənin iqtisadi qüdrətini artırmaq üçün xəzinəyə vergi ödəyən əhalinin vəziyyətini yaxşılaşdırmağa, oturaq təsərrüfat sahələrini inkişaf etdirməyə, dövlət məmurlarının özbaşınalığına və iri tayfa başçılarının hərbi-siyasi müstəqilliyinə son qoymağa çalışırdı. Uzun Həsən məmləkətdə məzhəb ayrılığının baş verəcəyini və bunun dövlətin qüdrətinə, ölkənin etnik-siyasi birliyinə mənfi təsir göstərəcəyini irəlicədən görürdü. Buna görə də bacısını Şeyx Cüneyd Səfəviyə, qızını isə Şeyx Heydər Səfəviyə verməklə məmləkətdə yaxınlaşmaqda olan məzhəb parçalanmasının qarşısını almağa, ağqoyunlularla səfəvilər arasında barışıq yaratmağa çalışırdı. Dünya hərb sənətində baş verən dəyişiklikləri diqqətlə izləyən görkəmli sərkərdə güclü nizami ordu yaratmağa çalışır, muzdla xidmət edən piyada qoşunların sayını artırır, odlu silahlar istehsalına başlamaq və güclü artilleriya



yaratmaq üçün hazırlıqlar görürdü. Bu məqsədlə o, İtaliyadan toptökən ustalar və hərbi mütəxəssislər dəvət etmişdi. Görkəmli dövlət xadimi elmin, maarifin inkişafına xüsusi diqqət yetirirdi. O, dövrün ən qabaqcıl alimlərini öz sarayına toplamışdı. Hökmdarın şəxsi kitabxanasında 60-a qədər alim çalışırdı. Uzun Həsən sarayında dövrün görkəmli alimlərindən ibarət elmi məclis fəaliyyət göstərirdi. Böyük hökmdar Qurani-Kərimi azərbaycancaya çevirtdirmiş, dövrün görkəmli elm adamı Əbu Bəkr Tehraniyə "Kitabi-Diyarbəkriyyə" adlı oğuznamə yazdırmışdı. Uzun Həsən dövründə Azərbaycanın Şərq-Qərb əlaqələrindəki rolu daha da artmışdı. Azərbaycanın ənənəvi əlaqələr saxladığı Şərq ölkələrindən başqa Avropa dövlətləri ilə də geniş diplomatik münasibətlər yaratmışdı. Uzun Həsən dövründə Azərbaycan elçiləri Venesiya Respublikası, Papalıq, Neapol krallığı, Albaniya, Macarıstan, Polşa, Almaniya, Burqundiya hersoqluğu, Kipr, Rodos, Trabzon imperatorluğu, Böyük Moskva knyazlığı ilə, həmçinin bir çox qonşu Şərq ölkələri hökmdarlarının saraylarında diplomatik danışıqlar aparmışdılar. Xarici ölkələrlə aparılan danışıqlarda Uzun Həsənin anası – o zaman bütün Şərqdə yeganə qadın diplomat olan Sara Xatun mühüm rol oynayırdı. Təbrizdə – Uzun Həsən sarayında Venesiya Respublikasının daimi səfirliyi fəaliyyət göstərirdi. Azərbaycan Şərqlə Qərb üçün ümumi maraq doğuran beynəlxalq problemlərin həllində mühüm rol oynayırdı.

XV əsrin sonu – XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Uzun Həsənin nəvəsi görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirə bildi. Paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti – Səfəvi dövləti meydana gəldi. Səfəvilərin hakimiyyəti dövründə Azərbaycanın dövlət idarəçiliyi mədəniyyəti daha da yüksəldi. Azərbaycan dili dövlət dilinə çevrildi. Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar, daxili və xarici siyasət nəticəsində Səfəvi dövləti Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi. Geniş ərazili Səfəvi imperiyasını idarə etmək üçün mükəmməl dövlət idarəçiliyi mexanizmi yaradıldı. Səfəvi hökmdarları dünyəvi hakimiyyətlə yanaşı, dini hakimiyyəti də ələ keçirdilər. Bununla, mərkəzi hakimiyyət daha da qüvvətləndirildi. Şah sarayında Ali məşvərət məclisi və ya Ali səltənət şurası ("Məclisi-əla") fəaliyyət göstərirdi. Mərkəzi və yerli idarə orqanlarının işini tənzimləyən mükəmməl bir

bürokratik sistem yaradılmışdı. Ölkə ərazisindəki bütün məhkəmə işlərinə Ali divan nəzarət edirdi. Səfəvi hökmdarlarının, xüsusən Şah Abbasın keçirdiyi islahatlar nəticəsində Səfəvilərin hərbi qüvvələri dünyanın ən qüdrətli ordularından birinə çevrilmişdi. Səfəvilərin hakimiyyəti illərində bütün Yaxın və Orta Şərqdə Azərbaycan dilinin rolu daha da artdı. Səfəvi sarayına gəlmiş xarici ölkə elçiləri ilə diplomatik danışıqlar da Azərbaycan dilində aparılırdı.

Ağqoyunluların xarici siyasət xəttini davam etdirən Səfəvilərin hakimiyyəti dövründə də Azərbaycan Qara dəniz və Aralıq dənizi hövzəsi ölkələrindən başlamış uzaq İngiltərə və Skandinaviyaya qədər bir çox Avropa dövlətləri ilə diplomatik əlaqə saxlayırdı. Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Məhəmməd Xudabəndə, Şah Abbas və b. Azərbaycan hökmdarlarının saraylarında çoxsaylı Qərb diplomatları Səfəvi dövləti ilə sıx qarşılıqlı əlaqələr yaratmaq üçün danışıqlar aparmışdılar. Azərbaycan Ağqoyunlular dövründə olduğu kimi, Səfəvilərin hakimiyyəti zamanında da Şərqlə Qərb arasındakı qarşılıqlı əlaqələrdə mühüm rol oynamaqda davam edirdi.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi Nadir şah (1736-1747) keçmiş Səfəvi imperiyasının sərhədlərini daha da genişləndirdi. Bu böyük hökmdar 1739-cu ildə Dehli də daxil olmaqla Şimali Hindistanı da ələ keçirdi. Lakin onun bu geniş ərazidə qüdrətli mərkəzləşdirilmiş dövlət yaratmaq planları baş tutmadı.

Nadir şahın ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğradı. Hələ Nadir şahın sağlığında ikən azadlıq mübarizəsinə qalxan və müstəqilliyə can atan Azərbaycan torpaqlarında yerli dövlətlər yarandı. Beləliklə, XVIII əsrin II yarısında Azərbaycan xırda dövlətlərə – xanlıqlara və sultanlıqlara parçalandı. Ölkənin hərbi-siyasi tənəzzül dövrü başlandı. Azərbaycanın qədim dövlətçilik ənənələrini yaşatmağa çalışan ayrı-ayrı xanlar bütün ölkəni yenidən vahid dövlət çərçivəsində birləşdirməyə çalışsalar da, bu, heç bir nəticə vermədi. Siyasi pərakəndəlik daha da dərinləşdi. Bununla Azərbaycanı işğal etməyə çalışan yadelli təcavüzkarların əlinə çox əlverişli bir fürsət düşdü.

XVIII əsrin sonunda Azərbaycan sülaləsi olan Qacarlar (1796-1925) İranda hakimiyyətə gəldilər. Qacarlar vaxtı ilə onların ulu babaları qaraqoyunluların, ağqoyunluların, səfəvilərin və nəhayət Nadir şahın hakimiyyəti altında olmuş bütün əraziləri, o cümlədən Azərbaycan xanlıqlarını yenidən mərkəzi hakimiy-



yətə tabe etmək siyasəti yeritməyə başladılar. Beləliklə, Qacarlarla Cənubi Qafqazı işğal etməyə çalışan Rusiya arasında uzun sürən müharibələr dövrü başlandı. Azərbaycan iki böyük dövlət arasında qanlı müharibələr meydanına çevrildi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən Azərbaycan iki imperiya arasında bölüşdürüldü: Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatıldı.

Rusiya Cənubi Qafqazda özünə dayaq yaratmaq üçün Azərbaycan torpaqlarına, xüsusən Qarabağın dağlıq rayonlarına, İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisi köçürdü. Türkiyə ilə həmsərhəd olan Qərbi Azərbaycan torpaqlarında – keçmiş İrəvan, Naxçıvan xanlıqlarının ərazisində süni surətdə və xüsusi məqsədlə "Erməni vilayəti" yaradıldı. Bununla Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyuldu. Bundan əlavə, Rusiya 1836-cı ildə müstəqil Alban kilsəsini ləğv etdi və onu qriqorian kilsəsinin tabeçiliyinə verdi. Bununla Azərbaycanın qədim əhalisi olan xristian albanların qriqorianlaşdırılmasına daha əlverişli şərait yaradıldı, ermənilərin azərbaycanlılara qarşı yeni ərazi iddialarının əsası qoyuldu. Rusiyadan Azərbaycana xristian əhalisinin köçürülməsinə də diqqət artırıldı. Məqsəd Cənubi Qafqazda, xüsusən Azərbaycanda xristian amilinin rolunun gücləndirilməsindən ibarət idi.

Azərbaycanın cənub torpaqlarında da eyni cür siyasət həyata keçirilirdi. Çox çəkmədən, müstəqil yaşamaq ənənələrinə malik olan Azərbaycan xalqının həm şimalda, həm də cənubda azadlıq mübarizəsi gücləndi. Nəticədə, əvvəllər Azərbaycana yiyələnmək üstündə öz aralarında qanlı müharibələr aparmış Rusiya və İran dövlətləri Azərbaycan xalqının azadlıq mübarizəsinə qarşı və ölkəmizin yenidən birləşməsinə yol verməmək məqsədilə bir-birinin etibarlı müttəfiqinə çevrildilər. Bütün bunlara baxmayaraq, Azərbaycan xalqı Rusiya ağalığına və Qacarlar İranının şahlıq rejiminə qarşı istiqlal mücadiləsini dayandırmadı, özünün müstəqil dövlətini yaratmaq üçün dəfələrlə üsyan qaldırdı, ölüm-dirim savaşına qalxdı.

Birinci dünya müharibəsi dövründə Azərbaycan xalqı həm şimalda, həm də cənubda öz milli dövlətçilik ənənələrini dirçəltmək üçün zəmin yaratdı. Bakıda hakimiyyəti ələ keçirən S.Şaumyanın daşnak-bolşevik hökuməti 1918-ci ilin martında azərbaycanlılara qarşı dəhşətli soyqırımı həyata keçirdi. 1918-ci il mayın 28-də Şimali Azərbaycanda Şərqdə ilk demokratik

respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Cənubi Azərbaycanda isə müstəqil və demokratik Azadıstan dövləti ("Azadıstan məmləkəti") quruldu (1920). Şeyx Məhəmməd Xiyabani Azadıstan Milli hökumətinin başçısı oldu. Hər iki Azərbaycan dövlətinin ərazisində geniş milli-demokratik islahatlar keçirilməsinə başlandı. Beləliklə, Birinci dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edən Azərbaycan xalqı həm şimalda, həm də cənubda özünün qədim dövlətçilik ənənələrini yenidən dirçəldə bildi, müstəqil yaşamağa layiq və qadir xalq olduğunu bir daha sübuta yetirdi. Avropa ölkələrində olduğu kimi Azərbaycanda da parlamentli respublika tipli demokratik idarəçilik qaydalarının tətbiq olunmasına başlandı. Bu, Azərbaycan xalqının çox böyük tarixi nailiyyəti idi.



# II FƏSİL

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – ŞƏRQDƏ İLK PARLAMENTLİ RESPUBLİKA

### (1918-ci il may – 1920-ci il aprel)

Bəşəriyyət tarixinin ən dəhşətli müstəmləkə rejimlərindən olan çar Rusiyası da Azərbaycan xalqının dövlətçilik ənənələrini məhv edə bilmədi. Əsarət altına salınmış xalqların milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridən Rusiya imperiyası Cənubi Qafqazı bu siyasətin ən dəhşətli qanlı qırğın meydanına çevirmişdi. Bu qəddar siyasətin son məqsədi Cənubi Qafqazı azərbaycanlılardan "təmizləmək", bütün maneələri aradan qaldırıb rahatca isti dənizlərə çıxmaq, bununla da Rusiyanın tarixi arzusuna – Hindistana yetişmək niyyətinə nail olmaq idi. Məhz bu məqsədlə də imperiyanın ayrı-ayrı yerlərindən Azərbaycan ərazisinə müxtəlif mənşəli əhali köçürülüb gətirilir, yerli əhali isə müxtəlif üsullarla sıxışdırılır, öz tarixi torpaqlarından qovulurdu. Həmin qanlı siyasəti daha uğurla həyata keçirmək üçün erməni-müsəlman qırğınları törədilirdi. Bir sözlə, Azərbaycan çar Rusiyasının müstəmləkəçilik siyasətinin sınaq meydanına çevrilmişdi.

XX yüzilliyin əvvəllərində Rusiya imperiyası dərin hərbi-siyasi və iqtisadi böhrandan xilas olmaq üçün islahatlar dövrünə qədəm qoyduqda Azərbaycan ziyalıları hələ 1905-ci ildən başlayaraq, başqa tələblərlə bərabər, ölkənin bütün xalqlarının imperiyanın mərkəzi hakimiyyət orqanlarında təmsil olunmasını, yerli idarəçiliyə və məhkəmə orqanlarında fəaliyyətə cəlb olunmasını tələb edir, bu sahədə ayrı-seçkiliyin, məhdudiyyətin aradan qaldırılması uğrunda mübarizə aparırdılar. Azərbaycanın görkəmli şəxsiyyətləri Əlimərdan bəy Topçubaşov, Şəmsi Əsədullayev, Əhməd bəy Ağayev, Ədil xan Ziyadxanov, Əli bəy Hüseynzadə və bir çox digər milli ruhlu Azərbaycan ziyalıları bu hərəkatın önündə gedirdilər.

Heç də təsadüfi deyil ki, Rusiya imperiyasının bütün türk-müsəlman əhalisini çarizmə qarşı birləşdirmək və bu məqsədlə vahid siyasi təşkilat yaratmaq ideyası da məhz Azərbaycanda doğulmuşdu. 1905-ci ildə Ümumrusiya müsəlmanlarının Nijni-

Novqorodda keçirilmiş I qurultayında "Rusiya imperiyasında türklərin vəziyyəti və problemləri"nə həsr olunmuş əsas məruzə ilə məhz Azərbaycanın nümayəndəsi Əlimərdan bəy Topçubaşov çıxış etmişdi. Yeni yaradılmış Ümumrusiya Müsəlmanları İttifaqının ("İttifaqi-Müslimin") Nizamnamə və Proqramının yazılmasında da azərbaycanlı nümayəndələr fəal iştirak etmişdilər.

Mürəkkəb və çətin şəraitdə aparılan gərgin mübarizə nəticəsində Azərbaycanın tanınmış ziyalıları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Tağı Əliyev, Əsədulla bəy Muradxanov 1906-cı ildə Rusiyanın ilk parlamentinə – I Dövlət Dumasına deputat seçilmişdilər. Xalqımızı Rusiya parlamentində təmsil edən yüksək təhsil görmüş bu ziyalıların ikisi ixtisasca hüquqşünas idilər: Əlimərdan bəy Topçubaşov Peterburq Universitetini, İsmayıl xan Ziyadxanov isə Moskva Universitetinin hüquq fakültəsini bitirmişdilər. Rusiya Dövlət Dumasının ən böyük fraksiyalarından birinə – Müsəlman fraksiyasına sədr Əlimərdan bəy Topçubaşov seçilmişdi. Azərbaycanlı deputatlar Duma tribunasından çıxış edərək Rusiya imperiyasının Cənubi Qafqazda yeritdiyi milli qırğın siyasətini, xalqımıza qarşı yol verilən ayrı-seçkiliyi, köçürmə siyasətini, bütöv bir xalqın hüquqsuzluğunu, kölə halına salındığını bütün açıqlığı və kəskinliyi ilə tənqid edir, yalnız azərbaycanlıların deyil, bütün Rusiya müsəlmanlarının mənafeyini müdafiə edirdilər.

II Dövlət Dumasının üzvləri Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Mustafa Mahmudov, Məhəmməd ağa Şahtaxtinski və Zeynal Zeynalov da, öz sələfləri kimi, çarizmin bütün sahələrdə, o cümlədən dövlət idarəçiliyində yeritdiyi milli və dini ayrı-seçkilik siyasətinə kəskin etirazlarını bildirirdilər.

Azərbaycandan olan deputatların bütün Rusiyanın müsəlman əhalisinin hüquqsuzluğuna qarşı kəskin çıxışları və bunun güclü oyadıcı təsirinin çarizmi vahiməyə salması, başqa səbəblərlə yanaşı, I və II Dövlət Dumalarının buraxılmasında az rol oynamamışdı. Məhz buna görə də III Dumaya seçkilər zamanı müsəlman əhalisinin yaşadığı Mərkəzi Asiya, Sibir və digər regionlar seçki hüququndan məhrum edilmiş, Bakıya isə öz nümayəndəsini irəli sürmək hüququ verilməmişdi. Elə həmin səbəbə görə də, əvvəlkilərdən fərqli olaraq, III Dövlət Dumasında bütün Cənubi Qafqazın müsəlman əhalisini yalnız bircə nəfər deputat Xəlil bəy Xasməmmədov təmsil edirdi. IV Dövlət Dumasında isə bütün Cənubi Qafqaz müsəlmanlarının yeganə nümayəndəsi Məmməd Yusif Cəfərov idi.



Rusiyanın dövlət dumalarına seçilmiş azərbaycanlı deputatların demək olar ki, hamısı cəmiyyətimizin ən qabaqcıl nümayəndələri idilər. Duma deputatları Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov peşəkar hüquqşünaslar idilər. Məhəmməd ağa Şahtaxtinski isə Sorbonna Universitetinin dinləyicisi olmuş, Leypsiq Universitetinin fəlsəfə fakültəsini bitirmişdi.

Beləliklə, Birinci dünya müharibəsinin gedişində "xalqlar həbsxanası" olan Rusiya imperiyasının dağılması üçün real tarixi şərait yaranarkən Azərbaycan xalqı həm qədim dövlətçilik ənənələrinə, həm də ən müasir idarəçilik mədəniyyətinə yiyələndiyi üçün müstəqil dövlət halında yaşamağa hazır idi.

Ölkənin Qacarlar sülaləsi tərəfindən idarə olunan və İran şahlığının tərkibində qalmış cənub rayonlarından fərqli olaraq Şimali Azərbaycan Rusiya ağalığı dövründə Rusiyanın və Rusiya vasitəsilə Qərbin yeni – demokratik dövlət quruculuğu ənənələri ilə – parlament mədəniyyəti ilə yaxından tanış ola bilmişdi. Azərbaycan ziyalılarının mühüm bir hissəsi, o cümlədən, Əlimərdan bəy Topçubaşov başda olmaqla peşəkar hüquqşünaslar Rusiyanın dövlət dumalarında zəngin parlamentçilik təcrübəsi qazanmışdılar. Onlar nifrət etdikləri və qəddar milli müstəmləkə zülmünün hökmranlıq etdiyi Rusiya mütləqiyyətindən tamamilə fərqlənən, bütün hüquq və azadlıqların hökmran olduğu demokratik respublika sistemi yaratmağa hazır idilər. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin demokratik dövlət yaratmaq ideyaları onların hələ Rusiya dövlət dumalarında fəaliyyət göstərdikləri dövrdə formalaşmışdı. Buna görə də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentli respublika kimi formalaşması tarixi reallıqdan doğurdu. Çarizmin devrilməsindən sonrakı hadisələrin real inkişafı da işi buna doğru aparırdı.

1917-ci ilin fevralında Rusiyada Romanovlar mütləqiyyəti devrildi. Monarxiya rejimi aradan qaldırıldıqdan sonra hakimiyyətə gələn Müvəqqəti hökumət Cənubi Qafqazın idarəçiliyi üzrə Xüsusi Komitə yaratdı. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrındakı hakimiyyət çevrilişi nəticəsində Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar Petroqrada və Moskvaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini, başqa sözlə Zaqafqaziya Parlamentini yaratdılar.

Zaqafqaziya Seymində Müsəlman Fraksiyasını Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi

Qafqazın bir milyondan çox müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyası, faktiki olaraq, Zaqafqaziya Müsəlman Şurası, daha doğrusu Zaqafqaziya Müsəlman Parlamenti funksiyasını yerinə yetirirdi.

Maraqlı və eyni zamanda qanunauyğun hal idi ki, dövlət dumalarında olduğu kimi, Zaqafqaziya Seyminin də ən fəal üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin istər daxili, istərsə də xarici siyasət sahəsində kəskin milli mənafe ziddiyyətlərinin olması Zaqafqaziya Seymi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti hökumətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və ertəsi gün – mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

Mayın 27-də Seymin Müsəlman Fraksiyasının, yəni Zaqafqaziya Müsəlman Şurasının (faktiki olaraq Zaqafqaziya Müsəlman Parlamentinin) üzvləri ayrıca iclaslarını keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası, daha doğrusu Azərbaycan Parlamenti elan etdi. Bununla, əslində Azərbaycanda ilk parlament yarandı və ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. 1918-ci il mayın 27-də keçirilən həmin iclasda Azərbaycan Milli Şurasının Rəyasət Heyəti və sədri seçildi. Məmməd Əmin Rəsulzadə Milli Şuranın sədri oldu.

Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. Həmin iclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Usubbəyov, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacinski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudin bəy Köçərli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın İSTİQLAL BƏYANNAMƏSİNİ qəbul etdilər.

İstiqlal Bəyannaməsi bütün müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə, ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun – parlamentli respublikanın yaradılacağından xəbər verirdi. Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsində deyilirdi:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyətə malik olduğu kimi, Cənub-Şərqi Zaqafqaziyanı əhatə edən Azərbaycan da tam hüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququ təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradır.

6. Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət durur.

Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi:

Fətəli xan Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri;

Xosrov Paşa bəy Sultanov – hərbi nazir;

Məmməd Həsən Hacınski – xarici işlər naziri;

Nəsib bəy Usubbəyov – maliyyə naziri və xalq maarif naziri;

Xəlil bəy Xasməmmədov – ədliyyə naziri;

Məmməd Yusif Cəfərov – ticarət və sənaye naziri;

Əkbər Ağa Şeyxülislamov – əkinçilik naziri və əmək naziri;

Xudadat bəy Məlik Aslanov – yollar naziri və poçt-teleqraf naziri;

Camo bəy Hacınski – dövlət nəzarətçisi.

Beləliklə, Birinci dünya müharibəsinin gedişində və Romanovlar mütləqiyyətinin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, özü də bu dəfə parlamentli respublika formasında dirçəldi.

Gənc Azərbaycan dövləti son dərəcə mürəkkəb şəraitdə yaranmışdı. Bakıda hakimiyyəti S.Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik güruhu ələ keçirmiş və Azərbaycanın əhalisinə

qarşı dəhşətli soyqırımına başlamışdı. Çar generalları tərəfindən silahlandırılmış erməni quldur dəstələri Şərqi Anadolunun və Qərbi Azərbaycanın əhalisinə qarşı qanlı qırğını – soyqırımını davam etdirirdilər. Azərbaycan xalqının cəlladları olan Şaumyan və Andronik əlbir fəaliyyət göstərirdilər. Azərbaycan xalqı fiziki cəhətdən məhv edilmək təhlükəsi qarşısında idi. Neft Bakısını ələ keçirməyə çalışan xarici qüvvələr arasındakı rəqabətlə yanaşı bütün Cənubi Qafqaz üçün yeni təhlükə – bolşevik Rusiyasının təcavüzü təhlükəsi yaxınlaşmaqda idi. Azərbaycan xalqı öz tarixinin ağır yolayrıcında qalmışdı: ya Milli qurtuluş, ya da ki, məhv edilərək Cənubi Qafqazın siyasi xəritəsindən tamamilə silinib götürülmək. Azərbaycanı müstəqil dövlət elan etmiş Cümhuriyyət xadimləri məhz belə bir mürəkkəb tarixi şəraitdə çıxış yolu tapmağa çalışırdılar.

1918-ci il iyunun 16-da Milli Şura və hökumət özünün fəaliyyət mərkəzini Gəncəyə köçürdü. Ölkədə yaranmış real vəziyyəti nəzərə alan Azərbaycan Milli Şurası iyunun 17-də Gəncədə iki mühüm qərar qəbul etdi: öz fəaliyyətini müvəqqəti olaraq dayandırdı; bütün hakimiyyəti (həm qanunvericilik, həm də icra hakimiyyətini) Müəssislər Məclisi çağrılanadək Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış yeni – ikinci Müvəqqəti hökumətə həvalə etdi. Hökumətin tərkibi belə idi: Nazirlər Şurasının sədri Fətəli xan Xoyski; nazirlər – Məmməd Həsən Hacınski, Nəsib bəy Usubbəyov, Əlimərdan bəy Topçubaşov, Behbud ağa Cavanşir, Xəlil bəy Xasməmmədov, Xosrov Paşa bəy Sultanov, Xudadat bəy Rəfibəyov, Xudadat bəy Məlik-Aslanov, Ağa Aşurov, Əbdül Əli bəy Əmircanov, Musa bəy Rəfiyev.

Azərbaycan Milli Şurası çətinliklə əldə olunmuş istiqlalın itirilməsindən ehtiyat edərək o zaman həm də qərara almışdı ki, qısa müddət ərzində Müəssislər Məclisi çağırılmalıdır və o vaxta qədər Fətəli xan Xoyski hökuməti hakimiyyəti öz əlində saxlamalı, heç kimə güzəştə getməməlidir. Azərbaycan Milli Şurası, eyni zamanda, Fətəli xan Xoyski hökumətinin hüquq və səlahiyyətlərini də konkret şəkildə müəyyənləşdirmişdi. Hökumət Azərbaycanın dövlət müstəqilliyini, mövcud siyasi azadlıqları ləğv edə bilməzdi və aqrar məsələ, həmçinin bunun kimi digər mühüm məsələlər barədə inqilabi qanunları dəyişdirmək hüququna malik deyildi. Qalan məsələlərdə isə hökumətə müstəqil hərəkət etmək səlahiyyəti verilirdi. Müvəqqəti hökumət altı aydan gec olmayaraq Müəssislər Məclisi çağırmalı idi.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin ilk Parlamenti Azərbaycan Milli Şurası özünün ilk addımlarını atmağa başladı.



Azərbaycan Milli Şurasının 1918-ci il mayın 27-dən iyunun 17-dək davam edən və 20 gün sürən ilk fəaliyyəti dövründə cəmi 7 iclası keçirildi və bu iclaslarda başlıca olaraq iki mühüm qərar qəbul edildi: birincisi – Azərbaycanın istiqlalı elan olundu və İstiqlal bəyannaməsi qəbul edildi; ikincisi – Gəncədə Fətəli xan Xoyski başda olmaqla ilk Azərbaycan hökumətini formalaşdırdı və 1813-cü ildən sonra ilk dəfə olaraq Azərbaycanın müstəqil idarə olunmasına başlandı. Azərbaycanda respublika quruluşu yaradıldı.

1918-ci il iyunun 17-də hakimiyyətə gələn Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çox ağır bir beynəlxalq və daxili şəraitdə, faktiki olaraq, soyqırımı taleyi yaşayan Azərbaycan xalqını tarixin ən ağır qanlı burulğanından çıxarmaq məsuliyyətini öz üzərinə götürməli oldu. Təcili olaraq müstəqil Azərbaycanın dövlət quruculuğuna başlandı. Hökumət yaranmış vəziyyətdən çıxmaq üçün ilk günlərdəncə qəti tədbirlərə əl atdı. İyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olundu. İyunun 24-də qırmızı parça üzərində ağ aypara və ağ səkkizguşəli ulduz təsvir olunan bayraq azad Azərbaycanın dövlət rəmzlərindən biri kimi qəbul olundu. İyunun 26-da Müsəlman hərbi korpusu ayrıca Azərbaycan Korpusuna çevrildi və həmin korpusun komandirinə general rütbəsi verildi. Diviziya komandiri səlahiyyətlərinə malik olan Azərbaycan Korpusunun komandiri hökumətin xüsusi tapşırığını yerinə yetirməyə başladı ki, bu da faktiki olaraq Azərbaycan silahlı qüvvələrinin yaradılması demək idi. İyunun 27-də Azərbaycan dili dövlət dili elan olundu. Dövlət quruculuğu daha da genişləndirildi. Məktəblər milliləşdirildi. Yeni müəllim kursları və məktəblər açıldı. Yelizavetpol və Qaryaginin tarixi adları bərpa olunaraq yenidən Gəncə və Cəbrayıl adlandırıldı. Milli orduya səfərbəylik keçirildi. İyul ayının 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratmaq barədə qərar qəbul olundu. Komissiya Birinci dünya müharibəsi dövründə bütün Cənubi Qafqaz ərazisində türk-müsəlman əhaliyə qarşı törədilən soyqırımı vəhşiliklərini və onların əmlakının talan olunması məsələlərini araşdırıb cinayətkarları məhkəmə məsuliyyətinə cəlb etməli idi. Hökumətin bu qərarı ilə, əslində, müstəqil Azərbaycanın milli təhlükəsizlik sisteminin yaradılmasının əsası qoyuldu. Bundan əlavə, hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün də bir sıra mühüm tədbirlər görüldü. Avqustun 11-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan

Xalq Cümhuriyyətinin vətəndaşlığı haqqında fərman verildi. Lakin Fətəli xan Xoyski hökumətinin başlıca vəzifəsi ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətraflarını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi.

1918-ci il sentyabrın 15-də ağır döyüşlərdən sonra Qafqaz İslam Ordusu Azərbaycan xalq könüllü dəstələrinin köməyi ilə Bakını ələ keçirdi. Şəhər S.Şaumyanın bolşevik-daşnak rejimindən sonra hakimiyyəti ələ keçirmiş menşevik-daşnak tör-töküntülərindən "Sentrokaspi diktaturası"ndan təmizləndi.

1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu. Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyət dairəsi genişləndi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrində quruculuq işləri daha da genişləndirildi. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına sadiq qalan Fətəli xan Xoyski hökuməti, eyni zamanda, Müəssislər Məclisinin çağırılması üçün hazırlıq görməyə başladı. Bu məqsədlə xüsusi komissiya yaradıldı: Milli Şuranın 1918-ci il 17 iyun tarixli qərarından hələ 6 ay keçməməsinə, daha doğrusu hökumətin təkbaşına hakimiyyəti davam etdirmək imkanı olduğu halda, Fətəli xan Xoyskinin təşəbbüsü və müraciətinə əsasən 1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası yenidən fəaliyyətə başladı. Hökumətin sədri Fətəli xan Xoyskinin təklifi ilə Azərbaycan Milli Şurası Müəssislər Məclisi çağırmaq işini öz üzərinə götürdü.

Azərbaycan Milli Şurasının 1918-ci il noyabrın 19-da Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə keçirilən iclasında Azərbaycan parlamentçiliyi tarixinin çox mühüm qərarları qəbul olundu. O zaman Azərbaycan Xalq Cümhuriyyətinin fövqəladə dərəcədə çətin və mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti son dərəcə demokratik inkişaf yolu tutdu. 19 noyabr tarixli həmin iclasda qeyd olundu ki, Azərbaycanın əhalisi yalnız azərbaycanlılardan ibarət olmadığı üçün Azərbaycan Milli Şurasında qeyri-millətlər də təmsil olunmalıdır, daha doğrusu Azərbaycan ərazisində yaşayan bütün millətlər parlamentdə təmsil olunmalıdır. Azərbaycan Milli Şurasının tərkibi ölkə əhalisinin (2 mln. 750 min nəfər) hər 24 min nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 nəfərdən



ibarət olmalı idi. Onlardan 80 nəfər azərbaycanlıları, 21 nəfər erməniləri, 10 nəfər rusları, 1 nəfər almanları və 1 nəfər yəhudiləri təmsil etməli idi. Sayları çox az olduğu üçün, parlament seçkilərində iştirak etmək hüquqları olmadığı halda, gürcülər və polyaklar da hərəsinə bir deputatla parlamentdə təmsil olunmalı idilər.

Azərbaycan Milli Şurasının 19 noyabr 1918-ci il tarixli iclasının qərarına əsasən hələ 1917-ci ilin sonlarında Ümumrusiya Müəssislər Məclisinə seçilmiş 44 nəfər azərbaycanlı nümayəndə birbaşa yeni yaradılacaq parlamentin tərkibinə daxil edilirdi. Azərbaycanlılardan – qalan 36 deputat və başqa millətlərin nümayəndələri yenidən seçilməli idi. Yeni Parlamentin formalaşdırılması 1918-ci il dekabrın 3-də başa çatdırılmalı idi.

Göründüyü kimi, 1918-ci ilin Mart soyqırımından hələ vur-tut yarım il keçməsinə baxmayaraq Azərbaycan parlamentində 21 nəfər erməni nümayəndəsinin iştirakına yol açılırdı. O zamankı tarixi şəraitdə atılan bu addım Azərbaycan xalqının demokratik təbiətinə, insan haqlarına nə qədər dərin hörmətlə yanaşmasına parlaq sübutdur.

Parlament demokratiyamızın bu parlaq faktı Məmməd Əmin Rəsulzadənin yeni parlamentin çağırılması ilə bağlı olaraq 1918-ci il noyabrın 29-da xalqa etdiyi müraciətdə də əks olunmuşdu: – "...bizə fəlakət və səfalətdən başqa bir şey verməyən ədavət və ixtilafı bir tərəfə qoyaq. Tarix hamımızı bir yerdə yaşamaq məcburiyyətində qoyub. Yeni başlayan həyatın təbii məşəqqətlərini asanlıqla çəkmək üçün yaşayışımızı aqil və insani əsaslar üzərində quraq, bir-birimizi sevək, ehtiram edək. Milli və məzhəb fərqlərinə baxmayaraq, bütün Azərbaycan vətəndaşları bir vətənin övladlarıdır. Ümumi vətəndə müştərək həyatlarını qurmaq və öz səadətlərinə birlikdə yetişmək üçün onlar bir-birlərinə əl uzatmalı və yardım etməlidirlər".

Məmməd Əmin Rəsulzadə Azərbaycan əhalisinə müraciətdə bildirirdi ki, azlıqda qalan millətlərin və məmləkətin vilayətlərinin də nümayəndələri təmsil olunacaq yeni parlament yurdumuzun sahibi olacaq, onun müqəddəratını həll edəcək. O, həmçinin hökuməti formalaşdıraraq onun mənafeyini müdafiə edəcək.

1918-ci il dekabrın 7-də saat 13.00-da Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbinin binasında (hazırda Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun yerləşdiyi bina) Azərbaycan Parlamentinin təntənəli açılışı oldu. Bu, bütün Şərqdə o dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlament idi.

Parlamentin açılışında Azərbaycan Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə geniş təbrik nitqi söylədi. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Paris sülh konfransına yola düşmüş Əlimərdan bəy Topçubaşov səfərdə olduğu üçün parlamentin fəaliyyətinə H.Ağayev rəhbərlik etdi. Parlamentin ilk iclasındaca Fətəli xan Xoyski hökumətinin istefası qəbul edildi və yeni hökumətin təşkil olunması qərara alındı. Yeni hökumətin təşkili yenidən Fətəli xan Xoyskiyə tapşırıldı.

1918-ci il dekabrın 26-da Fətəli xan Xoyski parlamentdə öz proqramı ilə çıxış etdi və yeni hökumətin tərkibini təsdiq olunmağa təqdim etdi. Parlament hökumətin proqramını qəbul edərək Fətəli xan Xoyskinin yaratdığı hökumətə etimad göstərdi.

Azərbaycan Parlamentinin fəaliyyətə başladığı dövrdəki tariximizin çox mühüm ibrət dərslərindən biri də budur ki, Cümhuriyyət xadimlərinin, bütün xalqımızın ilk Azərbaycan Parlamentində ermənilərə 21, ruslara isə 10 yer ayırmasına baxmayaraq, onlar Parlamentin açılışında iştirak etmədilər. Bakıda fəaliyyət göstərən Rus Milli Şurası Azərbaycanın öz müstəqilliyini elan etməsilə "Vahid və bölünməz Rusiya"nın parçalanmasına yol açdığı üçün "Azərbaycanın Rusiyadan ayrılması" faktını tanımadı və Azərbaycan Parlamentini baykot etmək barədə qərar qəbul etdi. Lakin Azərbaycanda yaşayan rus-slavyan əhalisinin təzyiqi ilə sonralar Rus Milli Şurası həmin qərarı ləğv etməyə məcbur oldu.

Həmin dövrdə Azərbaycanın müstəqilliyi ilə barışa bilməyən ermənilər də Rus Milli Şurasını müdafiə etdilər və iki aydan çox müddət ərzində Parlamentin iclaslarında iştirak etmədilər.

Bundan əlavə, ölkədə ali hakimiyyəti öz əlində cəmləşdirmiş və sayı 100 nəfərə çatmayan Parlamentdə 11 fraksiya və qrupun fəaliyyət göstərməsi də olduqca mürəkkəb daxili və beynəlxalq şəraitdə müstəqil dövlət quruculuğuna ciddi əngəl törədirdi. Ayrı-ayrı fraksiya və qruplar bir çox hallarda özlərinin məhdud fraksiya və qrup mənafelərini ümummilli mənafedən üstün tuturdular. Məsələn, Parlamentin sosialist bloku "yoxsulların mənafeyini müdafiə etmək" pərdəsi altında, müntəzəm olaraq, Azərbaycanın Sovet Rusiyasına birləşdirilməsini təbliğ etmiş, Sovet Rusiyasında diplomatik nümayəndəlik açılması barədə qərar qəbul edilməsinə nail olmuş, nəhayət, Qızıl Ordunun ölkəyə müdaxiləsinə tərəfdar çıxmışdı ki, bu da mahiyyətcə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı pozuculuq işi aparmaqdan başqa bir şey deyildi.



Bununla belə, Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti öz *fəaliyyəti ərzində, o cümlədən 17 aylıq aramsız fəaliyyəti* dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə, qəbul etdiyi yüksək səviyyəli qanunvericilik aktları və qərarları ilə Azərbaycan dövlətçiliyi tarixində, xüsusən də parlament mədəniyyəti tarixində dərin və zəngin iz qoymuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə parlamentçilik tariximiz iki dövrə ayrılır: birinci dövr – 1918-ci il mayın 27-dən noyabrın 19-dək davam etmişdir. Altı aya qədər davam edən bu müddət ərzində Azərbaycan Milli Şurası adı ilə fəaliyyət göstərən və 44 nəfər nümayəndədən ibarət olan ilk Azərbaycan Parlamenti çox mühüm tarixi qərarlar qəbul etmişdi. İlk Parlamentimiz 1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyini elan etmiş, ölkənin idarə olunmasını öz üzərinə götürmüş və tarixi İstiqlal Bəyanaməsini qəbul etmişdir. Azərbaycan Milli Şurasının o zaman çox mürəkkəb və həlledici bir tarixi məqamda Tiflisdə – Qafqaz canişininin iqamətgahında elan etdiyi İstiqlal Bəyannaməsi Azərbaycan demokratiyası və parlamentarizm ənənələri tarixinin ən parlaq hüquqi sənədi olaraq bu gün də öz tarixi və praktiki əhəmiyyətini saxlamaqdadır. Milli Şura dövründə Azərbaycan Parlamentinin təsis toplantısı ilə birlikdə cəmi 10 iclası keçirilmişdir. İlk iclas – 1918-ci il mayın 27-də Tiflisdə, son iclas – 1918-ci il noyabrın 19-da Bakıda keçirilmişdir. Mayın 27-də Azərbaycan Milli Şurası təsis olunmuş, iyunun 17-də isə fəaliyyətini müvəqqəti dayandırıb, 6 aydan gec olmayaraq Müəssislər Məclisi çağırılmaq şərti ilə, bütün qanunverici və icraedici hakimiyyəti Müvəqqəti hökumətə vermişdi. Xalq Cümhuriyyəti hökuməti 1918-ci il sentyabrın 17-də Bakıya köçdükdən sonra Azərbaycan Milli Şurası noyabrın 16-da öz fəaliyyətini yenidən bərpa etmişdi. Noyabrın 19-da Azərbaycan Milli Şurası həmin il dekabrın 3-də Müəssislər Məclisinin – geniş tərkibli Azərbaycan Parlamentinin çağırılması haqqında qanun qəbul etdi və öz fəaliyyətini dayandırdı. Beləliklə, Azərbaycan Parlamenti öz fəaliyyətinin bu dövründə, daha doğrusu Milli Şura dövründə Tiflisdə, Gəncədə və Bakıda fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin parlamentçilik tarixində ikinci dövr və ya Bakı dövrü *1918-ci il dekabrın 7-dən 1920-ci il* aprelin 27-dək – cəmi 17 ay davam etmişdir. İlk iclas – 1918-ci il dekabrın 7-də, son iclas – 1920-ci il aprelin 27-də keçirilmişdir. Bu dövrdə Parlamentin cəmi 145 iclası olmuşdur. Bütün bu iclaslarda Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti İstiqlal Bəyannaməsinin müəyyən etdiyi prinsiplərə sadiq qala-

raq və konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü təmin etmək və müstəqilliyini qoruyub saxlamaq, insan haqları və azadlıqlarının dolğun təmin olunduğu ən müasir hüquqi-demokratik dövlət yaratmaq məqsədi daşıyan çox mühüm qanunlar və qərarlar qəbul etmişdi. Bütün bu qanunlar və qərarlar, nəticə etibarilə, hakimiyyətin üç qolunun – qanunvericilik, icra və məhkəmə orqanlarının formalaşdırılmasına yönəlmişdi.

Birinci dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Qeyd olunmalıdır ki, Parlamentin bu sahədə qəbul etdiyi qanun və qərarların müzakirəsində Parlament üzvləri, bir qayda olaraq, həmrəylik və yekdillik nümayiş etdirirdilər.

Çox mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan Cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin, səhiyyənin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində müxtəlif pillədən olan məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısa müddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. Bu baxımdan Parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunu xüsusi qeyd etmək lazımdır. Milli universitetin açılması Cümhuriyyət xadimlərinin doğma xalq qarşısında çox mühüm tarixi xidməti idi. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, Cümhuriyyət ideyalarının yaşamasında və xalqımızın yenidən müstəqilliyə qovuşmasında Bakı Dövlət Universiteti misilsiz rol oynadı.

Ölkədə elm və təhsilin inkişafına xüsusi diqqət yetirən Cümhuriyyət hökuməti və Parlamenti bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə xüsusi səy göstərirdi. Bu zaman Azərbaycan Parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etmişdi. Bu işə nə qədər böyük əhəmiyyət verildiyi ondan görünür ki, Parlament xaricə göndəriləcək gəncləri müəyyən etmək üçün Məmməd



Əmin Rəsulzadənin başçılığı ilə beş nəfərdən (Mehdi bəy Hacınski, Əhməd bəy Pepinov, Qara bəy Qarabəyov, Abdulla bəy Əfəndiyev) ibarət xüsusi müsabiqə komissiyası yaratmışdı. Komissiyanın qərarına əsasən ali təhsil almaq üçün 45 nəfər Fransa, 23 nəfər İtaliya, 10 nəfər İngiltərə, 9 nəfər Türkiyə ali məktəblərinə göndərilmişdi. Rusiyada oxumaq üçün seçilmiş 13 nəfər gənc orada vətəndaş müharibəsi getdiyi üçün təhsil almağa gedə bilməmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və hökuməti ölkənin başının üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq üçün gənc respublikanın beynəlxalq aləmdə tanınması üçün də böyük iş aparırdı. Bununla bağlı olaraq Cümhuriyyət Parlamenti 1918-ci il dekabrın 28-də parlamentin sədri Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Paris sülh konfransına xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etmişdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimi Əlimərdan bəy Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail olsa da, XI Qızıl Ordunun Şimali Azərbaycanı işğal etməsilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı.

Azərbaycan Parlamentinin və Cümhuriyyət hökumətinin fəaliyyətinin çox mühüm hissəsini daim özünə cəlb edən məsələlərdən biri də yaxın qonşularla münasibətlər və sərhəd məsələləri olmuşdur. Aparılan çox gərgin işdən sonra Gürcüstanla münasibətlər nizama salınsa da, Ermənistan hökumətinin böyük ərazi iddiaları üzündən Azərbaycan – Ermənistan münasibətlərini normal məcraya yönəltmək mümkün olmamışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qonşu İranla da bir sıra saziş və müqavilələr imzalanmış və həmin sənədlər Parlamentdə təsdiq olunmuşdur.

Cümhuriyyət dövründə Azərbaycanda parlamentçilik ənənələri getdikcə möhkəmlənir və inkişaf edir, ən müasir parlament mədəniyyəti formalaşırdı. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə ümumiyyətlə 155 parlament iclası keçirilmişdir ki, bunun da 10-u Azərbaycan Milli Şurasının (27 may – 19 noyabr 1918-ci il), 145-i isə Azərbaycan Parlamentinin fəaliyyət göstərdiyi dövrdə (7 dekabr 1918-ci il – 27 aprel 1920-ci il) olmuşdur.

Parlamentin müzakirəsinə 270-dən çox qanun layihəsi çıxarılmış, onlardan 230-a yaxını qəbul olunmuşdu. Qanunlar qızğın və işgüzar fikir mübadiləsi şəraitində müzakirə edilir, özü də

yalnız üçüncü oxunuşdan sonra qəbul olunurdu. Parlament qanunlarının hazırlanması, müzakirəsi və təsdiq olunmasında 11 fraksiya və qruplara mənsub olan millət vəkilləri iştirak edirdilər. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 11 komissiyası vardı. Parlamentin fəaliyyəti xüsusi olaraq bu məqsəd üçün hazırlanmış nizamnamə – "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" əsasında idarə olunurdu.

Beynəlxalq hüquq normalarını tapdalayan sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qızıl Ordu hissələrinin qanlı döyüş əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiya tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, ən qəddar müstəmləkə və repressiya rejimləri belə Azərbaycan xalqının azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir.

Azərbaycan xalqının tarixində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti, eyni zamanda, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

Azərbaycan Xalq Cümhuriyyəti özünün siyasi quruluşuna, həyata keçirdiyi demokratik dövlət quruculuğu tədbirlərinə, həmçinin qarşısına qoyduğu məqsəd və vəzifələrə görə də Avropanın ənənəvi demokratik respublikalarından heç də geri qalmırdı.



## III FƏSİL

## AZƏRBAYCAN SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət"ində XX əsr Azərbaycan dövlətçiliyi tarixini 4 əsas dövrə bölmüşdür.

**Birinci dövr**, XIX əsrin sonundan başlayıb 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinə qədər davam etmişdir. Bu dövr ölkədə baş verən mürəkkəb ictimai-siyasi proseslərin Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə, ilk növbədə isə milli dirçəlişin, milli oyanışın, milli ruhun yüksəlməsinə səbəb olması və müstəqil dövlət qurmaq üçün münbit zəmin yaradılması ilə səciyyələnir.

**İkinci dövr**, çar Rusiyası dağıldıqdan sonra ölkəmizin ilk dəfə dövlət müstəqilliyi əldə etdiyi, yəni Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və fəaliyyət göstərdiyi dövrdür (28 may 1918 – 28 aprel 1920).

**Üçüncü dövr**, 1920-1991-ci illəri əhatə edən sovet hakimiyyəti dövrüdür.

**Dördüncü dövr,** SSRİ-nin süqutu ərəfəsində 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə başlanmışdır və bu gün də uğurla davam etməkdədir.

XX əsr tariximizin düzgün olaraq dövrləşdirilməsindən də göründüyü kimi, haqqında danışacağımız üçüncü dövr keçən əsrin çox hissəsini – 71 illik bir dövrünü əhatə edir.

Dövlət başçımız həmin dövrü haqlı olaraq belə səciyyələndirir: "...bu dövr çox mürəkkəb, ziddiyyətli dövr – bir tərəfdən hakim rejimin repressiyaları, xalqımızın ənənələrinə, mənəviyyatına göstərilən təzyiqlər, məhrumiyyətlər və məhdudiyyətlər, ikinci tərəfdən isə eyni zamanda xalqımızın böyük inkişaf yolu olmuşdur".

Qeyd edək ki, sovet hakimiyyəti dövründə Azərbaycan dövlətçiliyi müstəqillik baxımından da həmişə eyni vəziyyətdə olmamış, ayrı-ayrı illərdə öz məzmun və formasına görə bir-birindən əsaslı surətdə fərqlənmişdir. Yeni Sovet Rusiyası ordusu tərəfindən işğal edilən Azərbaycanın artıq beynəlxalq

birlik tərəfindən de-fakto olaraq *tanınmış müstəqilliyi* 1920-1922-ci illərdə Rusiyanın milli mənafeləri üçün faydalı olduğuna görə qismən qorunub saxlanmışdı. Bu illərdə Rusiya ilə Azərbaycan arasında hərbi-iqtisadi müqavilə imzalanmış, respublikamızın paytaxtında xarici ölkələrin nümayəndəlikləri, o cümlədən Rusiyanın konsulluğu fəaliyyət göstərmişdi. Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində aparılan işlər, 1921-ci ilin mayında Azərbaycan SSR-in ilk Konstitusiyasının qəbul edilməsi, Moskva (1921) və Qars (1921) müqavilələri, Genuya konfransı (1922) Azərbaycanın bu illərdə yeritdiyi uğurlu daxili və xarici siyasətin təzahürləri sırasında sayıla bilər. 1920-ci ilin 1-7 sentyabr günlərində Bakıda 37 ölkədən gəlmiş nümayəndələrin iştirakı ilə öz işini davam etdirən Şərq xalqlarının birinci qurultayı həm də Azərbaycanın müstəqilliyinə ehtiramın nümayişi idi. Lakin "bolşeviklər Şərq ölkələrinin yeni inqilabi dəyişikliklərə can atmaq arzusunda olmadıqlarını gördükdən sonra, öz siyasi *məqsədləri naminə* Azərbaycanın müstəqilliyinin qorunub saxlanması ideyasından əl çəkdilər" (Heydər Əliyev). Azərbaycanın müstəqilliyi ideyasının aradan qaldırılması, yox edilməsi üçün ən müxtəlif üsul və vasitələrə əl atıldı. 1922-ci ilin martında Cənubi Qafqazın üç respublikasının (Azərbaycan, Gürcüstan, Ermənistan) vahid dövlətdə – Zaqafqaziya Sovet Sosialist Respublikaları Federativ İttifaqında (ZSSRFİ) birləşdirilməsinə nail olduqdan və bununla da Azərbaycanın müstəqilliyinə ağır zərbə endirildikdən sonra belə Rusiya Sovet hökuməti bununla kifayətlənməyərək hətta vahid sovet ittifaq dövləti tərkibində də Azərbaycanın müstəqilliyinin *az-çox saxlandığından narahat olub bu dəfə onu tamamilə ləğv* etmək üçün qondarma "beynəlmiləlçilik" bayrağı altında daha məkrli yollar axtardı.

Nəhəng sovet təbliğat maşınının 9 aylıq gərgin fəaliyyətindən sonra 1922-ci il dekabrın 10-da Bakıda keçirilən I Zaqafqaziya Sovetlər qurultayında ZSSRFİ-ni Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) ilə əvəz etmək haqqında qərar qəbul edildi. Vahid qanunvericilik, icra orqanları olan bu dövlətin yaradılması ilə Azərbaycanın dövlət müstəqilliyinə bu dəfə daha sarsıdıcı zərbə endirildi. 1922-ci il dekabrın 30-da SSRİ-nin yaranması isə Azərbaycanın müstəqilliyinə son qoydu. O, *SSRİ-nin atributlarına uyğunlaşdırılan bir sıra dövlət atribut*larını – bayraq, gerb, himn və konstitusiyasını qoruyub saxlasa da, bir çox sahələrdə özünün beynəlxalq hüququn subyekti olmaq statusunu itirdi.



*Əlbəttə, milli mənlik şüuru qanına hopmuş igid və qeyrətli* Vətən övladları, ilk növbədə isə, çar Rusiyası irticası dövründə belə özlərinin milli qürur hissini çəkinmədən bildirmiş qabaqcıl ziyalılarımız milli müstəqilliyin tam itirilməsi faktı və yeni hakimiyyətin həyata keçirdiyi və xalqın adət-ənənələri ilə uyuşmayan tədbirləri ilə barışa bilməzdilər. Ona görə də ölkədə güclənməkdə olan totalitar rejim belə insanlara qarşı əsl repressiya tədbirlərinə əl atdı:

"20-30-cu illərin repressiyaları on minlərlə insanın həyatını məhv etmişdir. On minlərlə azərbaycanlı yurdlarından uzaq yerlərə sürgün olunmuşdur. Onların hüquqları pozulmuş, var-yoxları əllərindən alınmış, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mənəvi irsə böyük zərbələr vurulmuşdur" (Heydər Əliyev). Repressiya illərində təkcə güllələnənlərin sayı 50 min nəfərdən çox olmuş, 100 min nəfərdən artıq insan Sibirə və Qazaxıstana sürgün edilmişdi.

Bununla yanaşı, 20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş, elektrik stansiyaları tikilmiş, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatı dirçəldilmişdi.

Azərbaycan ellikIə savadlanmış, ölkədə orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi genişlənmişdir. Artıq ikinci dünya müharibəsi ərəfəsində Azərbaycanda 4 mindən çox ibtidai və orta məktəb, 16 ali məktəb var idi. 1938-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı yaradıldı. 1940-cı ildə ölkədə 18 teatr fəaliyyət göstərirdi.

İkinci dünya müharibəsində faşizm taununa qarşı mübarizə Azərbaycan xalqını da ciddi sınaqlar qarşısında qoydu. Xalqımız bu müharibədə həm döyüş meydanlarında, həm də, "arxa cəbhə"də əsl şücaət və qəhrəmanlıq nümunələri göstərdi. Müharibə başlanandan keçən qısa müddətdə respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızı cəbhəyə getmişdi. Azərbaycan diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdilər. Azərbaycandan 130-a qədər adam Sovet İttifaqı Qəhrəmanı adına, 30 nəfər azərbaycanlı döyüşçü *Şöhrət ordeninin hər üç dərəcəsinə layiq görüldü.* 170 mindən çox azərbaycanlı əsgər və zabit SSRİ-nin orden və medalları ilə təltif edildi. Tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov isə iki dəfə Sovet İttifaqı Qəhrəmanı adını almışdır.

sadiyyatın sənaye bazasının genişləndirilməsi və müasirləşdirilməsi xətti yeridilməyə başlanmışdı ki, bunun da nəticəsində bir tərəfdən Azərbaycanın iqtisadi potensialı qat-qat güclənmiş, digər tərəfdən isə respublikanın əvvəlcədən formalaşmış xammal bazası yönümü dəyişdirilmişdi.

70-ci illərdə və 80-ci illərin əvvəllərində yaradılmış çoxsaylı sənaye müəssisələri, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələri respublikanın iqtisadi infrastrukturunu köklü surətdə dəyişdirdi, onun aqrar yönümlü respublikadan daha çox sənaye yönümlü respublikaya çevrilməsinə zəmin hazırladı. Bakıda, Azərbaycanın digər şəhərlərində və rayon mərkəzlərində çoxlu sənaye istehsalı sahələri yarandı.

Ölkənin iqtisadi həyatında mühüm rol oynayan Bakı kondisionerləri zavodu, "Ozon" Elmi-İstehsalat Birliyi, Elektron Hesablayıcı maşınlar zavodu, Dərin özüllər zavodu, Azərbaycan DRES-i, Sumqayıt Kompressor zavodu, üst trikotaj fabriki, Bakı tikiş və ayaqqabı fabriki, Gəncə əlvan metallar emalı zavodu, Naxçıvan şüşə qablar zavodu, Əli-Bayramlı məişət cihazları zavodu və s. yüzlərlə digər iri sənaye obyektləri 70-ci illərin Heydər Əliyev iqtisadi siyasətinin diqqətəlayiq bəhrələridir. Bu siyasətin nəticə miqyasını dərk etmək üçün aşağıdakı rəqəmlərə diqqət yetirmək kifayətdir: əgər 1970-ci ilə qədər Azərbaycanda cəmi 233 iri və orta sənaye müəssisəsi fəaliyyət göstərirdisə, təkcə 1970-ci illər – 1980-ci illərin ikinci yarısında 213 iri və orta sənaye müəssisəsi inşa edilərək istifadəyə verilmişdi; 1945-ci ildən 1970-ci ilə qədər olan dövrlə nisbətdə 70-ci illər ərzində daha çox məhsul istehsal olunmuşdu.

Azərbaycan sənayesinin inkişafında müəyyənedici amillərdən biri də elmi-texniki tərəqqinin nailiyyətlərinin geniş tətbiq edilməsi olmuşdur. 1971-1985-ci illər ərzində 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdı; 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmışdı; istehsalın texnoloji proseslərini idarə etmək üçün 94 avtomatlaşdırılmış sistem işə salınmışdı. 1985-ci ildə sənayedə 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 komplektləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi fəaliyyət göstərirdi.

Azərbaycanın ənənəvi təsərrüfat sahələrinin – aqrar bölmənin sürətli inkişafı, respublikanın əlverişli üstünlüklərindən bacarıqla istifadə edilməsi 70-ci illərin iqtisadi strategiyasının mühüm tərkib hissələrindən biri olmuşdur. Əsası 1969-cu ildə qoyulan və məqsədi aqrar sahəni sürətlə irəliyə aparmaqdan



ibarət olan həmin strateji xətt çox qısa vaxtda öz bəhrələrini verməyə başladı. Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1481 min tona çatdırıldı. Üzümçülüyün inkişafı çox gəlirli sahə olan şərabçılığın yüksəlişinə güclü təkan verdi ki, bunun da nəticəsində respublikamız ixrac etdiyi çeşidli şərablardan böyük mənfəət götürməyə başladı.

1970-80-ci illərin birinci yarısında pambıqçılıq sürətlə inkişaf etdi və pambıq istehsalına münasibət kökündən dəyişdi. Nəticədə pambıq istehsalı 1970-ci ildəki 335,6 min tondan artaraq 831,2 min tona çatdı. 1982-ci ildə pambıqçılarımız artıq bir milyon ton pambıq istehsalı uğrunda çalışırdılar.

Göstərilən illərdə bağçılıq-bostançılıq sahələrində güclü artım müşahidə edilirdi. Meyvə-tərəvəz istehsalının 1970-ci ildəki 410 min tondan 1982-ci ildə 850 min tona yüksəlməsi məhz həmin sahənin inkişafına yetirilən böyük diqqət sayəsində mümkün olmuşdu. Bu yüksəliş digər bölmələrin bütün sahələrində də baş vermişdi.

Bu illər ərzində milli gəlirin ümumi həcmi 2,5 dəfə artmışdı. Respublikada sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı iki dəfə, xalq istehlakı mallarının istehsalı isə üç dəfə artmışdı. Həmin 14 ildə istehsal olunmuş sənaye məhsulları öz həcminə görə, əvvəlki 50 ildəkinə bərabər olmuşdu. Kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq, o cümlədən əmək məhsuldarlığı iki dəfədən artıq çoxalmışdı.

Həmin illərdə xalq təsərrüfatının inkişafına 21,3 milyard rubl vəsait cəlb olunmuşdu ki, bu da əvvəlki əlli illə müqayisədə 1,5 dəfədən də artıq idi. İki milyondan çox adam öz yaşayış şəraitini yaxşılaşdırmışdı.

Göstərilən illərdə respublikamız üçün gərəkli yüksək ixtisaslı kadrlar hazırlığına böyük əhəmiyyət verilmiş, bu sahəyə olan ehtiyacı ödəmək üçün Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin 170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmiş, gənc azərbaycanlı oğlanların ali hərbi məktəblərə cəlb olunması işinə xüsusi diqqət yetirilmişdi. Bütün bunlar Azərbaycanın gələcək inkişafı üçün qüdrətli kadr potensialının formalaşmasına böyük təsir göstərmişdi. Bir sözlə, 70-80-ci illərdə bütün zəruri işlər görülmüşdü ki, gələcəkdə müstəqillik şəraitində Azərbaycan özünü təmin etməyə qadir olsun. Təsadüfi deyildi ki, SSRİ dövlətinin dağılması ərəfəsində aparılan təhlillər göstərmişdi ki, keçmiş

SSRİ-də yalnız iki respublika tam müstəqil olaraq öz iqtisadiyyatını idarə edə bilər: Rusiya Federasiyası və Azərbaycan. Azərbaycanın sovet dövründə inkişafının ən bariz nəticəsi elə bu olmuşdu ki, həmin dövrdə, xüsusən 1969-1982-ci illərdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdı.

1920-1991-ci illərdə Azərbaycanın iqtisadiyyatı ilə yanaşı təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Dünyəvi teatr, müasir məktəb və demokratik mətbuatın yaranmasının bünövrəsi XIX əsrdə qoyulsa da, məhz bu 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, qadınların hüquqlarının qorunması və sosial-iqtisadi həyatda fəal iştirakı təmin olunmuş, onlarla teatr açılmış, kino sənəti inkişaf etmiş, minlərlə qəzet və jurnal nəşr olunmuşdu.

Beləliklə, bütün məhrumiyyətlərə, ayrı-ayrı illərdə xalqın milli-mənəvi dəyərlərinə sağalmaz yaralar vurulmasına baxmayaraq, Azərbaycanda sovet hakimiyyəti illərində, xüsusilə 1969-1982-ci illərdə müdrik siyasi rəhbərlik sayəsində həyatın bütün sahələrində əldə etdiyimiz nəhəng potensial XX əsrin sonunda yenidən qovuşduğumuz müstəqillik şəraitində respublikamız üçün çox gərəkli oldu.



# II HİSSƏ

# AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ QORUNUB SAXLANMASI UĞRUNDA MÜBARİZƏ

## I FƏSİL: SSRİ-nin DAĞILMASI VƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN BƏRPASI

### § 1. SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

Sosialist inqlabından sonra Azərbaycanın taleyi yenə də Rusiyanın taleyi ilə sıx surətdə bağlı idi. Rusiyada, bütövlükdə keçmiş SSRİ ərazisində və dünya sosializm sistemində gedən ictimai-siyasi proseslər isə cəmiyyətin obyektiv inkişaf qanunauyğunluqlarından irəli gəlməyən ehkamçı fəlsəfəyə və ideya qaynaqları kənardan götürülmüş ideologiyaya əsaslandığından, həmişə yuxarıdan nəzarət altında, hərbi maşının gücü və vahiməsi ilə həyata keçirilirdi. Belə böyük miqyaslı ictimai prosesləri öz təbii axarından fərqli istiqamətə yönəltmək əlavə enerji, böyük daxili gərginlik tələb edirdi. Ona görə də SSRİ ancaq dəmir rejim şəraitində, böyük iradəli xarizmatik bir liderin rəhbərliyi ilə yaşaya bilərdi. Liberal siyasət, fikir plüralizmi, demokratik meyllər avtoritar rejimlə bir araya sığa bilməzdi.

İ.V.Stalinin vəfatından sonra cəmiyyət nisbətən sərbəst nəfəs almağa başladı. Dəmir rejim bir qədər zəiflədi. İdeoloji təqiblər davam etsə də, formasını dəyişdi və yaradıcı təfəkkür üçün müəyyən hüdud daxilində meydan açıldı. Lakin qorxu hissinin azalması cəmiyyətdə neqativ hadisələr üçün də meydan açmış oldu. Rejimin mahiyyəti ilə ona uyğun gəlməyən yeni təzahürlər, hadisələr arasındakı ziddiyyət əvvəlki ictimai inkişaf tempinin aşağı düşməsinə səbəb oldu. 70-ci illərin axırları, 80-ci illərin əvvəllərində SSRİ-də sonralar "durğunluq dövrü" adlandırılan bir dövr yaşandı. Bu dövr tənəzzül meqamlarının tərəqqi

məqamlarını üstələməsi ilə səciyyələnirdi. Bütün ölkə miqyasında iqtisadiyyat inkişafdan qalmış, reqressiv proseslər başlanmışdı. "Yenidənqurma" əməliyyatı da əslində məhz bu durğunluq dövrünün nəticələrini aradan qaldırmağa yönəldilmişdi.

Lakin həmin dövrdə Azərbaycan tarixini vərəqləyərkən paradoksal vəziyyətlə qarşılaşmış oluruq. Bütün ölkə miqyasında inkişafın ləngidiyi və bir sıra sahələrdə hətta tənəzzül getdiyi bu dövr Azərbaycanda ancaq sürətli inkişaf və dirçəliş dövrü kimi səciyyələnə bilər. Bəs necə ola bilmişdi ki, Azərbaycan ölkə miqyasında gedən bu mənfi proseslərdən bir növ kənarda qalmış, əksinə, iqtisadiyyatın demək olar ki, bütün sahələrində: sənayedə, kənd təsərrüfatında, şəhərsalma və tikintidə, elm və mədəniyyətdə böyük uğurlar qazanaraq sürətli inkişaf yolunu tuta bilmişdi?

Mərkəzləşmiş sovet iqtisadi sistemində qalmaqla yanaşı belə avtonom mövqe tutmaq və ümumi xəstəliklərdən, durğunluq bəlasından özünü qorumaqla bərabər, daxildə belə inkişaf potensialı arayıb tapmaq çox çətin ağla gələn bir iş idi.

Üstündən 20 il keçdikdən sonra tam və hissə arasındakı bu uyğunsuzluq, bu mənzərənin paradoksallığı daha qabarıq şəkildə nəzərə çarpır, lakin onu mümkün edən səbəblər də üzə çıxır, o vaxt bizim üçün müəmmalı görünən bir çox qaranlıqların üzərinə indi işıq düşür. Bu mənada "tarix hər şeyi öz yerinə qoyur" (Heydər Əliyev). Getdikcə daha aydın görünür ki, ümumi durğunluq kontekstində tərəqqi paradoksunu şəxsiyyətin müstəsna rolundan başqa heç bir amillə izah etmək mümkün deyil. Çünki indi sovet milli siyasətinin iç üzü ortaya çıxdıqdan sonra bəlli olur ki, SSRİ məkanında Azərbaycana başqalarına nisbətən ancaq daha pis bir aqibət hazırlana bilərdi. Bir türk respublikasının irəli çıxması, sürətlə tərəqqi etməsi Mərkəzin siyasəti, dəsti-xətti ilə heç cür uyğunlaşmırdı.

Deməli, kimsə Mərkəzin siyasətindən, ümumi meyllərdən, qanunauyğunluqlardan kənara çıxırdı, kimsə tabunu pozurdu, kimsə axının əksinə üzürdü. Həm də dərin qatlarda, gözə görünmədən üzürdü.

Hər dəfə aşkarda axın istiqamətində, alt qatda isə ikiqat sürətlə axına qarşı üzmək üçqat enerji, qeyri-adi güc və iradə tələb edir. O vaxt bu gücün bizə haradan gəldiyini çoxları dərk etmirdi. O vaxt bunu dərk etmək çətin idi. Hər bir hadisə, hər bir insan ömrü, xalq, ölkə ancaq zaman və məkan kontekstində, öz genetik kökləri və daxil olduğu əlaqələr sistemində öyrənilə bilər. Baş verən prosesləri infrastruktursuz, makromühiti, atmosferi öyrənmədən qiymətləndirmək mümkün olmadığı kimi, onlara kiçik zaman intervalında, ancaq həmin dövrün meyarları ilə düzgün qiymət vermək də mümkün deyil. Ona görə də biz o vaxt Azərbaycanda sürətli inkişafa normal bir hal kimi baxırdıq və hər yerdə belə olduğunu zənn edirdik. SSRİ miqyasında qərarlaşmaqda olan tənəzzül meyli ideoloji mülahizələrlə örtbasdır edilir, həqiqi vəziyyət əhalidən gizlədilirdi. Bunlar yalnız 80-ci illərin ikinci yarısında aşkarlanmağa başladı. Onda da durğunluqdan istisnalar olduğunu, Azərbaycanın 70-ci illərdə bu meyldən kənarda qaldığını qeyd etmək ölkənin siyasi rəhbərliyinə sərf etmədiyindən yenə açıqlanmadı. (O vaxt bəyan edilən "aşkarlıq" da əslində məqsədyönlü bir aşkarlıq idi).

Yeni ölkə rəhbərliyi – M.S.Qorbaçov hakimiyyəti durğunluq illərini təhlil edərkən Azərbaycanın istisna təşkil etdiyini görməyə bilməzdi. Lakin məhz bunu gördüyünə görə, bu istisnanın "günahkarının" daha nələr edə biləcəyini anlayaraq onu təcili olaraq rəhbərlikdən uzaqlaşdırmaq qərarına gəldi və təkcə vəzifədən uzaqlaşdırmağın kifayət etmədiyini bilərək onu yüksəlmiş olduğu böyük nüfuz zirvəsindən də salmaq planı işlənib hazırlandı. Çox təəssüf ki, imperiya paytaxtında Heydər Əliyevə qarşı hazırlanan siyasi sui-qəsdin əsl səbəbini, məğzini anlamaq o dövrdə asan deyildi və Azərbaycanda da bu kampaniyaya qoşulanlar tapıldı. Daha doğrusu, bilərəkdən bu kampaniyada iştirak edənlər satqınlar, bilmədən qoşulanlar isə sadəlövhlər və əqidəsizlər idi. Bütövlükdə xalq və ilk növbədə onun həqiqi ziyalı elitası isə bu xəbərdən sarsıldı və bunu hətta milli faciə kimi qəbul etdi. Ona görə yox ki, xalq Kremldə gedən və bəlkə də dünyanın gələcək taleyinə təsir edəcək böyük siyasi oyunların əsl mahiyyətindən xəbərdar idi. Sadəcə ona görə ki, xalq Heydər Əliyevi sevirdi, onunla fəxr edirdi, bu dəyişikliyin gələcək ağır nəticələrini öz fəhmi, intuisiyası ilə duyurdu.

Sovet rejiminin xüsusiyyətlərini dərindən bilən, rus dilində ən mahir natiqlərdən biri kimi tanınan, öz milli dili və mədəniyyəti ilə yanaşı rus dilini və mədəniyyətini də qiymətləndirməyi bacaran və öz işgüzarlığı ilə əvvəlki rəhbərliyin etimadını qazanaraq ölkənin ən nüfuzlu rəhbərləri sırasına daxil olan, Siyasi Büroda da nəzəri və əməli keyfiyyətləri ilə hamıdan seçilən, yüksəkdə dayanan bir adamın qəlbində Azərbaycan sevgisi gəzdirməsi Mərkəzin siyasətinə uyğun gəlmirdi.

Kremldə oturan bir adam üçün bu həddindən artıq böyük cəsarət idi. Bunu bağışlamaq olmazdı. Kim də bağışlasa, ermənipərəst M.S.Qorbaçov bağışlaya bilməzdi. Onun şəxsən

Heydər Əliyevə qarşı heç bir iddiası olmasa da, bütövlükdə millətə qarşı iddiası var imiş. Bu mövqeyin bir şəxsə deyil, onun simasında Azərbaycana qarşı mövqe olduğu sonralar, "Qarabağ problemini" dəstəkləyərkən üzə çıxdı və 20 Yanvar qırğını zamanı özünü tam açıqlığı ilə göstərdi. Bundan xeyli əvvəl Azərbaycanda böyük üzümçülük, şərabçılıq təsərrüfatı darmadağın edilərkən çoxları sadəlövhlüyündən bunun həqiqətən antialkoqol kampaniyası olduğuna inanırdı. Bu kampaniyanın əslində həm də milli-siyasi mülahizələrlə bağlı olduğu da sonralar aydınlaşdı. Mərkəzin Azərbaycan haqqında hazırladığı riyakar planların həyata keçirilməsi də "Dağlıq Qarabağ" kartı hələ ortaya atılmamışdan bir neçə il əvvəl Heydər Əliyevə qarşı kampaniya ilə başlandı.

Mərkəz Azərbaycanla bağlı buraxdığı "səhvləri düzəltməyə" başladı. Azərbaycanın o vaxtkı zəif rəhbərliyi də Siyasi Büro səviyyəsində gedən proseslərin məğzini anlamadan Kremlin çaldığı yeni havaya uyğunlaşmağa çalışdı. Bu yeni musiqinin leytmotivi isə Azərbaycanı 70-ci illərdə keçmədiyi durğunluq mərhələsindən keçirmək idi.

SSRİ miqyasında durğunluq tendensiyasından xilas olmaq üçün axtarışlar getdiyi, rəsmən aşkarlıq, plüralizm, demokratiya və s. elan olunduğu, yerlərdə müstəqilliyin artması üçün şərait yarandığı bir vaxtda Azərbaycanda yenidən əks bir meyl özünü göstərdi. Bütün ölkə durğunluqdan xilas üçün yollar axtararkən Azərbaycan özünün durğunluq dövrünü yaşamağa başladı.

Lakin Azərbaycan 70-ci illərdə və 80-ci illərin əvvəllərində artıq elə bir səviyyəyə çatmışdı ki, bu səviyyədə qalmaq özü də bir nailiyyət sayıla bilərdi. Bu illərdə yaradılmış sənaye müəssisələri, ən müasir texnologiyaya əsaslanan istehsal sahələri respublikanın iqtisadi infrastrukturunu köklü surətdə dəyişdirdi. Bakı Kondisionerləri Zavodu, "Ozon" Elm-İstehsalat Birliyi, Elektron Hesablayıcı maşınlar Zavodu, Dərin Özüllər Zavodu, Azərbaycan DRES-i, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj Fabriki, Bakı Tikiş və Ayaqqabı Fabriki, Gəncə Əlvan Metallar Emalı Zavodu, Naxıvan Şüşə Qablar Zavodu, Əli-Bayramlı Məişət Cihazları Zavodu və s. yüzlərlə digər iri sənaye obyektləri Heydər Əliyev iqtisadi siyasətinin diqqətəlayiq bəhrələri idi. Həmin dövrdə bir çox zavod və fabriklər, o cümlədən neftayırma və neftmaşınqayırma zavodları da, demək olar ki, tamamilə yenidən qurulmuşdu. Bütün bunlar, habelə respublikanın mədəni-mənəvi inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər Azərbaycanın gələcəkdə müstəqil mövcudluğu



üçün kifayət qədər güclü zəmin yaratmışdı. Azərbaycanın paytaxtı Bakı şəhərində mötəbər məclislər, beynəlxalq konfranslar keçirmək üçün möhtəşəm saraylar ucaldıldı ki, bunlar da müstəqil dövlətçilik üçün zəruri maddi baza idi. Lakin 80-ci illərin ikinci yarısında mərkəzi rəhbərlik Azərbaycanın qalxmış olduğu bu yüksək səviyyə ilə heç cür razılaşa bilmirdi.

SSRİ-nin dağılacağını və respublikaların müstəqilləşməsi şansını hamıdan əvvəl görən imperiya rəhbərliyi türk respublikalarının sovet dövründə əldə etdikləri iqtisadi və mədəni-mənəvi potensialı zəiflətmək üçün geniş miqyaslı tədbirlər həyata keçirməyə başladı. "O illərdə – 80-ci illərin ortalarında biz ayrı-seçkiliyə məruz qalırdıq. Mən həm Azərbaycanı, həm də Orta və Mərkəzi Asiyanın bəzi digər respublikalarını nəzərdə tuturam.

İndi məhz bunu xatırlamağa lüzum var ki, o illərdə xalqların, o cümlədən Özbəkistan və Azərbaycan xalqlarının milli azadlığı və dövlət müstəqilliyi üçün şərait yetişməyə başlayan vaxtlarda son dərəcə çox əngəllər törədilirdi. 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzün başlanması da, nəinki Ermənistandakı ayrı-ayrı millətçilərin və özgə ərazisini ələ keçirməyə can atan şəxslərin əməlləri idi, həm də böyük bir siyasətin – artıq baş vermiş müsbət proseslərə maneçilik törətməyə yönəldilmiş siyasətin bir hissəsi idi" (Heydər Əliyev). Mərkəzin belə məqsədyönlü imperiya siyasəti millətlərin azadlığa çıxmaq, dövlət müstəqilliyi əldə etmək şansına qarşı yönəldilmişdi.

İctimai-iqtisadi tərəqqinin müəyyən bir mərhələsində insanların milli şüurunun istər-istəməz formalaşması, xüsusən birləşdirici amil olan kommunist ideologiyasının böhranı şəraitində imperiya üçün böyük təhlükə idi. Vahid "sovet milləti" yetişdirmək cəhdlərinin boşa çıxdığı artıq aydın idi.

Hələ sosialist sisteminin dağılması ehtimalı çox az olan vaxtlarda, əksinə, Moskvanın dünya kapitalizm sistemini dağıtmaq üçün planlar hazırladığı vaxtlarda SSRİ-nin milli tərkibi haqqında bir sıra proqnozlar Qərb dünyasını narahat edirdi. Bu, ilk növbədə, SSRİ daxilində türk xalqlarının (başqa variantda islam amilinin) xüsusi çəkisinin artması idi. Hələ nə qədər ki, söhbət yalnız əhalinin miqdarından gedirdi, bu fakt o qədər də qorxulu görünmürdü. Çünki həm iqtisadi potensialına görə, həm də intellektual, mədəni-mənəvi aspektlərdə geri qalmış xalqların çoxluğu siyasi müstəvidə ciddi bir amil kimi qiymətləndirilə bilməzdi. Lakin elə ki, SSRİ məkanındakı türk xalqlarının sosial-

iqtisadi, intellektual və mədəni-mənəvi inkişafı nəzərə çarpacaq bir səviyyəyə qalxdı və iş o yerə gətirdi ki, onların nümayəndələri Siyasi Büroya üzv seçildilər və hətta SSRİ hökumətinə başçılıq etməyə başladılar, onda bu amilin ciddiləşdiyinə şübhə yeri qalmadı.

İndi çoxları SSRİ-nin dağılmasını M.S.Qorbaçovun müstəsna xidməti kimi qiymətləndirir. Lakin əslində SSRİ imperiyasının milli-siyasi müstəvidəki daxili ziddiyyətləri ondan xeyli əvvəl – ilk baxışda nəzərə çarpmayan bir hadisə ilə üzə çıxmağa başladı. Bu hadisə türk oğlunun ölkə rəhbərlərindən biri seçilməsi idi.

80-ci illərin ortalarında Heydər Əliyev fenomeni elə bir miqyas kəsb etmişdi ki, bu böyük ölkəni ən yaxşı idarə edə biləcək şəxsin məhz Heydər Əliyev ola biləcəyinə artıq şübhə yeri qalmamışdı. Bunu o vaxt SSRİ-nin ən məşhur siyasi xadimləri də etiraf edirdilər. Andrey Qromıko Çernenkodan sonra Baş Katib vəzifəsinə kimin real namizəd olması barədə öz oğlu ilə səmimi söhbətində demişdi: "Bizim Siyasi Büroda ancaq üç adam nisbətən cavandır – Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən onun kənd təsərrüfatı, çox sürətlə inkişaf etmişdir. Əliyev – gözəl təşkilatçıdır, təmiz və abırlı adamdır. Amma təəssüf ki, onun namizədliyi istisna olunur...

– Milliyyətinə görəmi?

– Bu məsələdə hə. Milliyətinə görə." (Anatoliy Qromıko. "Andrey Qromıko. V labirintax Kremlya. Vospominaniya i razmışleniya sına". M., 1997, s. 86)

Rus millətçiliyi o vaxt Heydər Əliyevin ölkə başçısı olmasına yol vermədi.

M.S.Qorbaçovun hakimiyyətə gəlişi və eklektik ideoloji və dövlətçilik sistemi yaratmaq təşəbbüsləri daxili ziddiyyətlərin daha tez üzə çıxmasına səbəb oldu. 80-ci illərin ikinci yarısında sovet imperiyasının iqtisadi, siyasi və mənəvi həyatında böhranqabağı vəziyyət yaranmışdı. İstehsalın artım sürəti, səmərəliliyi, əməyin məhsuldarlığı durmadan aşağı düşürdü. Mövcud üsul-idarənin mənəvi dayağı olan ehkamçı kommunist ideologiyası iflasa uğramışdı. Milli respublikalarda milli özünüdərk, hüquqların tapdalanmasına, sərvətlərin talan olunmasına etiraz əlamətləri güclənməkdə idi.

İqtisadi iflasın başlıca səbəbi "sosialist iqtisadi modeli"nin səmərəsizliyi, adamlarda mülkiyyətə sahiblik hissinin, bazar rəqabətinin olmaması idi. Güclü inzibati-amirlik üsul-idarəsi iqtisadi tərəqqini buxovlayırdı. Daha xammal istehsal edən milli



uсqarların istismarını gücləndirmək kimi ənənəvi vasitələrlə də iqtisadi geriliyi aradan qaldırmaq mümkün deyildi. Buna külli miqdarda yeni investisiyalar tələb olunurdu. Böyük hissəsi hərb maşını tərəfindən udulan milli gəlir bu tələbi artıq ödəyə bilmirdi.

SSRİ-nin iflası mühüm xarici səbəblərlə də şərtlənirdi. Məlumdur ki, SSRİ çox böyük çətinliklə də olsa kapitalist və sosialist sistemləri arasında hərbi paritet yaratmağa nail olmuşdu. Lakin dünyanın demokratik ölkələri SSRİ-yə qarşı qüvvələrini birləşdirirdilər. Ümumdünya antikommunist liqasının fəaliyyəti genişlənmişdi.

80-ci illərin ikinci yarısında Kommunist Partiyası növbəti dəfə Sovet imperiyasını mövcud böhranqabağı vəziyyətdən xilas etmək üçün bir sıra cəhdlər göstərdi. M.S.Qorbaçov 1985-ci ilin martında Sov.İKP MK-nın baş katibi vəzifəsini tutduqdan sonra imperiyanı iflasdan xilas etmək məqsədi ilə Sov.İKP MK-nın həmin il çağırılmış aprel plenumunda "iqtisadi və sosial-mədəni tərəqqini sürətləndirmək konsepsiyası"nı irəli sürdü. Sovet cəmiyyətində elmi-texniki tərəqqini, maddi-texniki bazanı inkişaf etdirmək, istehsal münasibətlərini təkmilləşdirmək, bütün siyasi, ictimai və ideoloji təsisatlar sistemini fəallaşdırmaq, "insan amilinin rolunu yüksəltmək" üçün təşəbbüslər edildi. Tezliklə əməyin təşkili, təsərrüfat hesabını təkmilləşdirmək, çoxukladlı iqtisadiyyatı, eləcə də icarə sistemini, kooperasiyanı inkişaf etdirmək, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlar üçün imkanlar yaratmaq haqqında qanunlar və qərarlar qəbul olundu. Lakin onların tətbiqi üçün münasib şərait yox idi. Əvvəlki direktiv aktlar kimi bu qanun və qərarlar da gözlənilən nəticəni vermədi. Təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqları özlərinə qaytarılmadan iqtisadiyyatı dirçəltmək qeyri-mümkün idi. İqtidar bunu dərk edirdi. Lakin partiya elitasının üç qrupu – mühafizəkarlar, yenilikçi partokratlar və öz dünyagörüşləri ilə Avropa sosial-demokratlarına yaxın islahatçılar arasında gedən gərgin mübarizə əsaslı islahatları ləngidirdi.

## § 2. Dağlıq Qarabağ münaqişəsi və ictimai-siyasi böhranın dərinləşməsi. Qanlı Yanvar

SSRİ rəhbərliyində ölkənin taleyi ilə bağlı fikir ayrılıqları olsa da, milli respublikalara və əyalətlərə münasibətdə daha çox yekdillik var idi. Məqsəd hətta ictimai-iqtisadi sistem və dövlət idarəçiliyinin üsulları dəyişilsə də, imperiyanın ərazi bütövlüyünü qorumaq idi. Moskva mərkəzdənqaçma qüvvəsini zəifləmək üçün ənənəvi "parçala, hökm sür" siyasətindən daha geniş istifadə edir, milli münaqişələri qızışdırır, xalqlar arasında qanlı nifaq salırdı. Kreml mühüm coğrafi-siyasi ərazi olan Azərbaycanı və bütün Zaqafqaziyanı əldə saxlamaq üçün uydurma "Dağlıq Qarabağ problemini" qızışdırdı. Sovet imperiyasını dağıtmaq üçün milli münaqişələr törətməyi mühüm vasitə hesab edən Qərb dövlətləri də bu işdə fəal iştirak etdilər. Avropa Parlamenti 1987-ci ilin iyununda erməni "genosidi" qurbanlarına xatirə günü təsis etdi. Avantürist erməni jurnalisti daşnak Zori Balayanın Azərbaycan xalqını təhqir edən, tarixi saxtalaşdıran "Ocaq" kitabı da Azərbaycan və erməni xalqları arasında nifaq salmaqda müstəsna rol oynadı.

1987-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifələrdən uzaqlaşdırılması onlarda niyyətlərinə çatmaq ümidini artırdı. Ermənilərin hərəkətləri daha davakar, həyasız xarakter aldı. Erməni millətçilərinin tələbi ilə Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla torpaq sahəsi Ermənistana "bağışlandı". Bu, xalqda böyük narazılıq yaratdı. Respublikanın başçısı Kamran Bağırov xalqın narazılıq çıxışlarını hərbçilərin köməyi ilə susdurdu. Erməni təxribatçıları Bakıda Opera və Balet Teatrını üç dəfə yandırdılar, şəhər nəqliyyatında partlayışlar törətdilər. Bu terrorçu aktların icraçıları həbs olunsa da, artıq nifaq düşmüşdü. Milli münaqişə getdikcə alovlanırdı.

1987-ci ilin oktyabrında Yerevanda "Qarabağ komitəsi" deyilən təşkilatın ilk açıq mitinqi keçirildi. Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə M.S.Qorbaçovun əshabələrindən olan A.Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Hərəkata yenə də bir qrup millətçi erməni ziyalıları arxasından kommunist-daşnaklar, Ermənistan KP liderləri, DTK agentləri rəhbərlik edirdilər. Moskvada ermənilərin "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş aparırdılar. Sovet imperiyası tənəzzül edərkən fəallaşmış erməni millətçilərinin ilhamçısı təkcə Moskva deyildi. Erməni millətçi-sosialist Daşnaksütun partiyasının 1985-ci ilin dekabrında Afinada keçirilən XXII qurultayı sərsəm "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırmışdı. "Qarabağ Komitəsinin" Azərbaycan SSR-də, xüsusən DQMV-də uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı bu millətçi təşkilatların bilavasitə köməyi ilə "Krunk" (Durna) adı altında açıq fəal mübarizəyə başlamışdı. Dağlıq Qarabağ erməniləri arasında Ermənistanla birləşmək uğrunda "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. Ona "55-lər komitəsi" adlı xüsusi orqan rəhbərlik edirdi.

İki xalq arasında milli ədavətin ilk qurbanları bu dəfə də Ermənistanda öz dədə-baba yurdunda yaşayan Azərbaycan türkləri oldular. Azərbaycanlıların qovulması kampaniyası başlandı. Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı, 1986-cı ildə Ermənistanın Qafan və Mehri rayonlarında bu cinayətkar dəstələrin əməllərindən yaxa qurtaran ilk qaçqınlar Azərbaycana pənah gətirdilər. Onlar əsasən Sumqayıt şəhərində və onun ətrafındakı məntəqələrdə məskunlaşdılar. 1988-ci il fevralın 19-da Yerevanda antitürk mövqeli mitinq keçirildi. "Ermənistanı türklərdən təmizləməli", "Ermənistanda ancaq ermənilər yaşamalıdır" və s. millətçi şüarlar irəli sürüldü. Erməni vandalları fevralın 21-də Yerevanda qalmış son məscidi də dağıtdılar. Vedibasarda Azərbaycan türklərinə qarşı terror 1988-ci ilin əvvəllərində daha da genişləndirildi. Kəndlər talan olunurdu. Qız-gəlinlər, ağsaqqallar təhqir edilirdi. Heç yerdən köməyi olmayan, döyülmüş, alçaldılmış dörd min nəfərə qədər adam ev-eşiyini atıb böyük çətinliklə, piyada, ayaqyalın-başıaçıq qarlı dağ keçidləri ilə Azərbaycana gəlməyə məcbur oldular. Bu zülm da cəzasız qaldı. DQMV-dəki erməni millətçiləri bundan ruhlanaraq daha fəal zorakılıqlar və siyasi aksiyalar təşkil etdilər. 1988-ci ilin əvvəlindən Stepankertdə erməni əhalisi ardı-arası kəsilməyən kütləvi mitinqlər, nümayişlər keçirməyə başladı. Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası Azərbaycan SSR Ali Sovetinə DQMV-nin statusuna baxılması haqqında müraciət qəbul etdi.

Moskva münaqişəni daha da qızışdırırdı. Sov.İKP MK Siyasi Bürosunun Bakıya gəlmiş üzvü sərhədləri dəyişdirməyin yolve-

rilməzliyindən danışsa da, Yerevana gedən üzvü DQMV-dəki separatçılığa haqq qazandırırdı.

Erməni millətçiləri SSRİ və Azərbaycan SSR konstitusiyalarının məlum maddələrinin əleyhinə çıxarkən və nümayişkaranə surətdə separatçılıq və terrorçuluq mövqeyində dayanarkən nəyə ümid bəsləyirdilər? Heç şübhəsiz, mərkəzi rəhbərliyin himayəsinə, Kremlin beynəlxalq hüquqa və qanunlara sayğısızlıq göstərməsinə, SSRİ-də hüquqi dövlət əvəzinə avtoritar rejimin mövcudluğuna... Axı stalinizm dövründə və "durğunluq" illərində mərkəzi rəhbərliyin özünü qanunlardan və insan hüquqlarından yüksəkdə tutması, "yenidənqurma" dövründə ümumiyyətlə qanunlara qeyri-ciddi münasibət nəticəsində müqəddəs, toxunulmaz, mümkün olmayan heç bir şey yox idi. Rəhbərlik qanunları necə istəsə elə də pozurdu və bunun üçün heç kim cəza almırdı. Stalin dövründə bir sıra millətlərə qarşı ayrı-seçkilik və deportasiya tədbirləri həyata keçirilmiş, bir millətin başqa milləti sıxışdırmasına, torpaqlarını zəbt etməsinə dəfələrlə şərait yaradılmışdı. O cümlədən erməni millətçiləri müxtəlif bəhanələrlə (məsələn, xaricdən köçən erməniləri yerləşdirmək adı ilə) azərbaycanlı əhalinin böyük bir qismini dədə-baba yurdundan kütləvi surətdə sürgün etmiş, onların yerini zəbt etmişdilər. Daha sonra guya mübahisəli olan bəzi Azərbaycan torpaqları müxtəlif yollarla ələ keçirilmişdi. Bu cür haqsızlıqların mümkünlüyünə artıq adət etmiş, "dişində şirə qalmış" erməni millətçiləri "yenidənqurma" şəraitində açılmış imkanlardan istifadə edərək bütün beynəlxalq və daxili vasitələri işə salmaq, dövlətə hər yolla təzyiq göstərmək vasitəsilə özlərinin qanundan və ədalətdən kənar işğalçılıq niyyətlərinə çatmağa cəhd göstərirdilər.

Erməni ekstremistlərinin hər vasitə ilə aranı qızışdırması, məsələlərin sakit şəraitdə müzakirə edilməsinə mane olması, dövlətimizə xarici və daxili təzyiqin hər cür eybəcər vasitələrindən istifadə etməsi – öz "ədalətli" tələblərinin yerinə yetirilməsi üçün bu qədər tələsiklik, hövsələsizlik göstərməsi nə ilə bağlı idi? Məgər haqlı tələb səbr və təmkinlə, əsaslı surətdə irəli sürülsə, iğtişaşlarsız və təzyiqlərsiz yerinə yetirilə bilməzdimi? Erməniləri tələsdirən nə idi?

Bəlkə DQMV-də ermənilərin həyat şəraiti pis idi, sosial-iqtisadi inkişaf səviyyəsinə görə çox geri qalmışdılar və bu şərait daha artıq dözülməz bir həddə çatmışdı? Bəlkə onları öz dillərində danışmaq, öz milli mədəniyyətlərini inkişaf etdirmək imkanından məhrum etmişdilər və ya bu istiqamətdə onlara qarşı sanksiyalar tətbiq olunmuşdu?



Xeyr, tədqiqatlar göstərdi ki, bütün bu iddialar və ehtimallar əsassızdır. Əksinə, nisbətdə götürəndə, bir sıra mühüm sahələrdə DQMV-nin sosial-iqtisadi göstəriciləri həm Azərbaycanın, həm də Ermənistanın müvafiq göstəricilərindən yüksək idi. Əlbəttə, sosializmin ümumi problemləri vilayətdə də iz qoymuşdu. Lakin ölkə üçün səciyyəvi olan çatışmazlıqlardan və nöqsanlardan bütün ölkə ilə birlikdə, ümumi yenidənqurma prosesində xilas olmaq problemin daha təbii həll yolu deyildimi? Buna baxmayaraq, DQMV-də vəziyyəti ələ almış millətçi qrupların xüsusi təşkilatçılığı sahəsində elə bir haray salınmışdı ki, onların həqiqətən də kim tərəfindənsə bərk sıxışdırıldığını, çıxılmaz ağır vəziyyətdə qaldığını güman etmək olardı. Həm də haray salan təkcə DQMV vətəndaşları deyildi. Onların "acınacaqlı" vəziyyətindən "birdən-birə xəbər tutmuş və bu vəziyyətin dözülməzliyindən riqqətə gəlmiş" ermənistanlı soydaş-həmfikirlər daha böyük səs-küy qaldırır və "dara düşmüş" vilayət ermənilərini xilas etmək üçün həyəcan təbili çalırdılar. Bu hay-küy, bu həyəcan səsi Dağlıq Qarabağ erməni əhalisinə, sonra isə dünyanın bütün ermənilərinə və ermənipərəst qüvvələrə təlqin edildi və ekstremistlər bundan istifadə edib, öz çıxışlarını xalqın tələbi kimi qələmə verməyə çalışdılar.

Xüsusi ustalıqla yaxşı düşünülmüş plan əsasında yaranmış belə vəziyyət, heç şübhəsiz, partiya və hökumətin diqqətini cəlb etdi və problemi geniş surətdə, daha böyük kontekstdə təhlil etməyə aman vermədiklərinə görə, "təcili xilas tədbirləri" görülməyə başlandı. Bu istiqamətdə ilk addım Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin Dağlıq Qarabağın sosial-iqtisadi və mədəni inkişafına yönəldilmiş qərarı oldu. Etiraf etmək lazımdır ki, bütün ölkə miqyasında sosial-iqtisadi vəziyyətin ağır olduğu, müəssisələrin və bütövlükdə regionların təsərrüfat hesabına keçməsinin planlaşdırıldığı bir şəraitdə vəziyyəti orta inkişaf səviyyəsindən yaxşı olan bir regiona ümumittifaq fondundan 400 mln. manat məbləğində yardım ayrılması açıq-aşkar güzəşt idi. Lakin bu güzəştli addım heç kimin gözləmədiyi halda tərs effekt yaratdı. Ayrılan pul da başqa səmtə yönəldildi. Erməni ekstremistlərinin necə deyərlər, ayaqları yer tutdu. Yaxşı uydurulmuş hay-harayın, qaragüruhçuluğun ilk nəticələrindən ürəklənərək daha çox səs-küy salmağa, daha böyük tələblər irəli sürməyə başladılar.

Moskvanın və Azərbaycan rəhbərliyinin respublikanın suveren hüquqlarının tapdalanmasına qəti etiraz etmədiyini görən Azərbaycan xalqı böyük həyəcan içində idi. Kortəbii mitinqlər,

etiraz nümayişləri olurdu. Fevralın 24-də Dağlıq Qarabağ vilayətinin Əsgəran rayonunda ermənilərin iki nəfər azərbaycanlını öldürməsi, 19 nəfəri isə yaralaması vəziyyəti daha da gərginləşdirdi.

Erməni millətçiləri xarici ölkələrdə kök salmış lobbilərinin dünyanın əsas informasiya mərkəzlərinə təsir imkanlarından istifadə edib, beynəlxalq ictimaiyyəti aldatmağa, öz istilaçılıq niyyətlərinə haqq qazandırmaq üçün ermənilərin "cəfakeşliyi", azərbaycanlıların isə "vəhşi, quldur, qaniçən" olması haqqında yalan təsəvvürlər yaratmağa, münaqişənin guya dini mahiyyət daşıdığını, hansısa qlobal xristian-islam qarşıdurmasının tərkib hissəsi olduğunu göstərməyə çalışırdılar. Öz qeyri-insani əməllərinə haqq qazandırmaq, habelə azərbaycanlıları gözdən salmaq məqsədi ilə ermənilər böyük sensasiya yaradacaq dəhşətli bir faciə törətməyi planlaşdırırdılar. Bunun üçün ən münasib yer Sumqayıt şəhəri hesab olunurdu. Son iki ildə, xüsusən 1988-ci ilin yanvar-fevral aylarında Ermənistandan zorla qovulmuş dörd min nəfərdən çox qaçqın buraya – qohumlarının yanına pənah gətirmişdi, milli iğtişaşa təhrikçilik üçün münasib şərait yaranmışdı.

Sumqayıt aksiyası dəqiq plan üzrə həyata keçirildi: varlı ermənilər əmlakını, əmanət kassalarındakı pullarını götürüb şəhəri tərk etdilər. Hər an milli toqquşma baş verə biləcək şəhərdə həmin günlərdə milisə nəinki odlu silah, heç adi dəyənək də gəzdirməyə icazə verilmədi. Fevralın 28-ə keçən gecə şəhərə xüsusi hərbi hissə gətirilmişdi. Onlar hadisələrin plan üzrə həyata keçməsinə bir növ nəzarət edir, şərait yaradırdılar. Şəhərdə vəziyyət DTK-nın tam nəzarəti altında idi. Sifarişlə törədiləcək faciəni lentə almaq, elə səhəri gün hay-küylə bütün dünyaya çatdırmaq üçün əsas cinayətlərin baş verəcəyi yerlərdə əvvəlcədən tele, foto-operatorlar yerləşdirilmişdi.

Azərbaycanın suveren hüquqlarının tapdanmasına, Ermənistanda azərbaycanlıların genosidinə qarşı kortəbii çıxışlar Sumqayıtda fevralın 20-dən başlanmışdı. Təhrikçi qüvvələr, cinayətkar elementlər vəziyyətdən istifadə edərək hüquq-mühafizə orqanlarının qarışmazlığı və razılığı şəraitində ehtirasları qızışdırırdılar. Fevralın 27-də böyük mitinq oldu. Səhəri gün erməni talanları başlandı. Şəhər rəhbərliyinin ordu hissələrindən istifadə edib cinayətlərin qarşısını almaq tələbi cavabsız qaldı. İlk cinayət hərəkətlərini özünü azərbaycanlı kimi qələmə verən "paşa" ləqəbli erməni təxribatçısı E.Qriqoryan törətdi. Təsir altına düşmüş cinayətkarlara erməni ünvanlarını Qriqoryanın arvadı əldə edib vermişdi. Qriqoryan özü şəxsən beş erməni öldürmüşdü. DTK-nın və erməni millətçilərinin törətdiyi bu faciə nəticəsində şəhərdə 32 nəfər, o cümlədən 26 nəfər erməni və 6 nəfər azərbaycanlı öldürülmüş, 200 mənzil qarət olunmuş, onlarla ictimai bina, avtobus, şəxsi maşınlar yandırılmışdı. Azərbaycanlılar içərisində emosional affekt vəziyyətində cinayət törədənlər olmuşdu. Lakin erməniləri evlərində gizlədən, onları ölümdən xilas edənlər daha çox idi.

Bu faciə kimə lazım idi? Onu kim təşkil edə bilərdi? Vaxt keçdikcə daha çox aydın olur ki, Sumqayıt hadisəsi erməni ekstremistlərinin göydə axtardığı fürsət idi ki, yerdə əllərinə düşmüşdü. Nəhayət ki, əl tutmaq üçün yer, istinad üçün real fakt, sənədli materiallar əldə edildi. Şəhərin hadisə baş verəcək yerlərində qabaqcadan hazırlanmış böyük bir təşviqat mexanizmi işə düşdü və xeyli dərəcədə şişirdilmiş məlumatlar qısa bir vaxtda dünya ölkələrinə yayıldı. Həm erməni, həm də Azərbaycan xalqı yas tutduğu bir məqamda DTK ilə əlaqəyə girib öz murdar planlarını həyata keçirən erməni ekstremistlərinin sevinci yerə-göyə sığmırdı. Millətin sıxışdırılmasına dair heç bir dəlil-sübut olmadan hay-küy qaldırmış, vəziyyəti gərginləşdirmiş və nəhayət, buna "əsas verən" bir fakt əldə etmişdilər. Düzdür, elm çoxdan sübut edib ki, səbəb nəticədən sonra gələ bilməz. Lakin buna çarə tapmaq bütün dünya miqyasında mütəşəkkil surətdə fəaliyyət göstərən təcrübəli erməni millətçilərinin əlində çox da çətin iş olmadı. Doğrudan da, səbəbiyyat zənciri tərsinə çevrildi və xarici radiostansiyalar, SSRİ-nin bir sıra mətbuat orqanları və mərkəzi televiziya Sumqayıtdakı ekstremal-psixoloji iqlimi şərtləndirmiş olan cinayətlərdən – azərbaycanlılara qarşı bu vaxta qədər törədilən planlı fitnəkarlıqlardan bir kəlmə də söhbət açmadan, Sumqayıt hadisəsini erməni hərəkatının və separatçı tələblərin səbəbi kimi qələmə verməyə çalışdılar. 21 mart 1988-ci il tarixli "Pravda" qəzetində çap olunmuş "Emosiya və zəka" adlı sanballı məqalə istisna olunmaqla, heç bir informasiya vasitəsi hadisələrin real səbəblərini və əsl mahiyyətini izah etməyə təşəbbüs göstərmədi. Hadisələr ümumi kontekstdən çıxarılmış halda təsvir olunur və bu zaman istər-istəməz subyektivliyə, birtərəfliliyə yol verilirdi.

Sumqayıt hadisələrindən sonra Ermənistanda hökumətin və "Qarabağ hərəkatı" liderlərinin mütəşəkkil surətdə təşkil etdiyi qanlı antitürk hərəkatı genişləndi. Bu işdə yaxşı silahlandırılan erməni qeyri-formal hərbi birləşmələri fəal iştirak etdilər. Martın 10-dan Yerevandan cənubda Mehmandar azərbaycanlı kəndi-

nin 4 sakini qətlə yetirildi. Martın 25-də Ararat rayonunun azərbaycanlı kəndlərində 100-dən çox ev talan edilib yandırıldı, əhalisi qovuldu. Mayın ortalarında Yerevan yaxınlığındakı Azərbaycan kəndlərinə yenidən basqın edildi. Şirazlı kəndinin 880 nəfər sakini SSRİ-Türkiyə sərhədinə qaçıb orada sığınacaq tapdılar. İyunun 20-də Ararat rayonunun daha beş azərbaycanlı kəndinin 10 minə qədər sakini silahlı erməni quldurlarından yaxa qurtarıb onlara qoşuldu. Erməni faşistləri Quqark rayonunda daha dəhşətli faciələr törətdilər. 1988-ci ilin noyabrın sonu, dekabrın əvvəllərində bu rayonda 70 nəfər azərbaycanlı qətlə yetirilmişdi. Rayonun təkcə Gözəldərə kəndində 21 nəfər, o cümlədən 6 qadın və 3 körpə öldürülmüşdü. Ermənistanda Azərbaycan türklərinin genosidi hətta burada baş verən dəhşətli zəlzələdən (7 dekabr) sonra belə dayanmaq bilmədi.

Təbii fəlakətə düçar olmuş qonşusuna ilk kömək əlini Azərbaycan uzatdı. Dekabrın 8-də Bakıdan 80 peşəkar xilasedici, 28 güclü avtokrandan ibarət mexanikləşdirilmiş dəstə Spitaka yola düşdü, onlar təkcə ilk günlər 63 nəfəri ölümdən xilas etdilər, uçqunlar altından 320 meyid çıxartdılar. Dekabrın 11-də Azərbaycandan zəlzələ zonasına İL-76 təyyarəsində köməyə gedən 78 nəfər, o cümlədən 50 nəfər azərbaycanlı və başqa millətlərin nümayəndələri Leninakan yaxınlığında "qəzaya uğradı". 77 nəfər həlak oldu. Lakin erməni millətçiləri azərbaycanlılara qarşı qanlı əməllərinə yenə də son qoymadı. Nəticədə Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı. Onların son nümayəndələri – Nüvədi kəndinin əhalisi 1991-ci il avqustun 8-də bir gün içində rus əsgərlərinin köməyi ilə Ermənistandan qovuldular.

Beləliklə, Ermənistanda azərbaycanlıların genosidi və deportasiyası başa çatdı. 1988-1991-ci illərdə Ermənistandakı 185 azərbaycanlı kəndindən, habelə digər yaşayış məntəqələrindən 230 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı, çoxlu mal-qara talandı. 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, bədən əzaları kəsildi, gözləri çıxarıldı.

Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin SSRİ-nin rəhbərliyi, habelə müvəffəqiyyətlə aldadılmış dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağ separatçılarının əl-qolunu daha da açdı. Moskva Azərbaycanın qanuni ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyən ermənilərin tələblərini öz torpaqlarını, konstitusiya hüquqlarını qorumaq üçün ayağa qalxmağa məcbur olmuş Azərbaycan xalqının tələbləri ilə eyniləşdirmək, nəticədə kompromis axtarmaq kimi riyakar mövqe tuturdu. Qorbaçovun 1988-ci il fevralın 23-də hər iki xalqa müraciəti, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin "1988-1995-ci illərdə Azərbaycan SSR-in DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" 1988-ci il 24 mart, habelə SSRİ Ali Soveti Rəyasət Heyətinin mövcud ixtilafları hər iki xalqın mənafeyinə uyğun şəkildə həll etmək haqqında 1988-ci il 18 iyun tarixli qərarları vəziyyətdən real çıxış yolları göstərə bilməzdi, çünki reallığa, obyektiv əsaslara söykənmirdi.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 mart 1988-ci il tarixli qərarı ilə "Krunk" cəmiyyəti xalqlar arasında nifaq salmaq kimi yolverilməz bir fəaliyyətdə günahlandırılıb rəsmən qadağan edilsə də, yenə fəal iş aparırdı. İyunun 21-də DQMV xalq deputatları sovetinin sessiyası vilayətin Ermənistan SSR-ə verilməsi məsələsini azərbaycanlı deputatların iştirakı olmadan müzakirə edərək müvafiq qərar qəbul etdi. Azərbaycan SSR Ali Sovetinin sessiyası bunun qeyri-qanuni olduğunu bildirdi. Ermənistan SSR Ali Soveti isə yenə kobudcasına Azərbaycanın daxili işlərinə qarışaraq vilayəti öz tərkibinə qəbul etmək haqqında qərar qəbul etdi.

Xankəndində (Stepanakertdə) tətil və nümayişlər ara vermirdi. Sentyabrın 18-də ermənilər azərbaycanlıların yaşadığı Xocalı kəndinə hücum etdilər. Qanlı toqquşma oldu. Sentyabrın 21-i və oktyabrın 18-də Xankəndində azərbaycanlıların, Şuşada isə buna cavab olaraq ermənilərin evləri, avtomobilləri yandırıldı. 1988-ci il noyabrın 24-də Ermənistan ərazisindən Qubadlı rayonunun Eyvazlı, Qədirli və Davudlu sərhəd kəndlərinə hücumlar edildi. Eyvazlı kəndi tamamilə yandırıldı.

"Vəziyyəti nizama salmaq üçün" SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycanın hüquqlarını kobud surətdə pozaraq, 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-də xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. Ermənipərəst A.Volskinin başçılığı ilə birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyətləri dayandırıldı. XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə, onu Azərbaycana bağlayan əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşdirilməsinə şərait yaratdı. DQMV-də və onunla qonşu olan Şaumyan və Xanlar (indiki Goranboy rayonunun bir hissəsi) rayonlarının ərazisində silah, sursat cəbbəxanaları yaradıldı. Ermənistandan DQMV-nin Mardakert (indiki Ağdərə)

rayonundakı gizli təyyarə meydanına silah və sursat daşınırdı. Azərbaycanlılardan isə adi ov silahları da alınırdı. SSRİ Nazirlər Sovetinin 6 may 1989-cu il tarixli qərarı ilə DQMV-dəki idarə və müəssisələr Azərbaycan SSR-in tabeliyindən çıxarıldı. İyunun 13-dən XİK-in tam imkan yaratdığı şəraitdə azərbaycanlıların yaşadığı məntəqələrin blokadasına başlandı. Sovet Ordusunun köməyi ilə silahlı erməni quldurları – "saqqallılar" iyulda Xankəndindən bütün azərbaycanlıları (14 min nəfər) qovub çıxartdılar. Avqustun sonlarında isə azərbaycanlılar bir hissəsi qırıldıqdan sonra Cəmilli, Həsənabad və Daşbulaq kəndlərini tərk etməyə məcbur oldular.

Azərbaycanın demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda XİK-i ləğv etdi. Vilayətin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırıldı. Lakin yenə də Mərkəz tərəfindən qəti tədbir görülməməsi erməniləri yeni təhrikçi hərəkətlərə şirnikdirirdi. Ermənistan SSR Ali Soveti dekabrın 1-də "Ermənistan SSR və Dağlıq Qarabağı birləşdirmək haqqında" qərar qəbul etdi. Xankəndində Ermənistan bayrağı qaldırıldı, təsərrüfat idarələri və müəssisələr Ermənistanın nazirlik və baş idarələrinə tabe edildi. Vəziyyət daha da gərginləşdi. Azərbaycanda Moskvanın siyasətinə qarşı etiraz dalğaları gücləndi.

1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti DQMV və ətraf rayonlarda fövqəladə vəziyyət elan etdi. SSRİ Nazirlər Soveti 1990-cı il mayın 22-də Muxtar Vilayətin iqtisadiyyatını idarə etmək hüququnu yenidən Azərbaycana qaytardı. Respublika təşkilat komitəsi, hərbi komendatura, xüsusi təyinatlı milis dəstələri vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin mühasirəsini yarmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistandan buraya silah və sursat daşınmasının qarşısını almaq üçün tədbirlər görüldü. 1990-cı ilin yanvar-iyun aylarında vilayətin 43 yaşayış məntəqəsində 67 xüsusi əməliyyat aparıldı və silahlar quldurlardan alındı.

Lakin Ermənistandan Azərbaycan ərazisinə silahlı basqınlar edilirdi. Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tutur, dəmiryolçuları, sərnişinləri qətlə yetirirdilər. 1990-cı ilin fevral-may aylarında erməni faşistləri Naxçıvanın Kərki kəndinə basqınlar edib 320 sakini oradan qovdu və kəndi ələ keçirdi. Bu əməliyyatlarda sovet ordusunun



əsgərləri və zabitləri də iştirak edirdilər. Azərbaycan ərazisi Ermənistandan raket atəşinə tutulurdu. 1990-cı il martın 24-də gecə üç erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Bağanıs-Ayrım kəndinə hücum etdilər. Kənd əhalisindən yeddi nəfəri, o cümlədən iki qadını və ikiaylıq körpəni öldürüb yandırdılar.

Bütün bunlar hakimiyyət böhranının, Moskva canişini və onun aparatının respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi. Mərkəz bununla barışa bilmirdi. Yanvarın əvvəllərindən başlayaraq respublikada müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirildi. SSRİ müdafiə naziri Yazov gizli şəkildə Gəncəyə gəlmiş, vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin təklifləri də nəzərə alınmaqla "Tayfun" (Tufan) adlı qanlı əməliyyat planı hazırlanmışdı.

Ermənilərin təhrikçilik hərəkətləri, Azərbaycanın sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar isə getdikcə artırdı. Yanvarın 12-də Ermənistan SSR-dən 500 nəfər silahlı quldur, 20 vertolyot Xanlar rayonunun Quşçu kəndinə hücum edib dinc əhaliyə divan tutmuş, onlarla sakini, qocaları, qadınları, uşaqları vəhşicəsinə öldürmüşdü.

Bütün bu hadisələrə müxtəlif vasitələrlə münasib şərait yaradan Moskva öz istəyinə nail olmuşdu. Əhali Azərbaycan Xalq Cəbhəsinin 6-7 yanvar 1990-cı il konfransında yeni seçilən İdarə Heyətində üstünlük təşkil edən liberalların deyil, radikalların arxasınca gedirdi. Yanvarın 12-də radikallar Milli Müdafiə Şurası (MMŞ) təşkil etdilər. Respublikanın təhrikçi rəhbərliyi də gəncləri MMŞ-nin köməyi ilə milis hissələrinə cəlb edib, silahlanmağa, müəssisələrdə fəhlə drujinaları təşkil etməyə çağırırdı.

AXC-ni dağıtmaq, xalq hərəkatını boğmaq üçün ən münasib vaxt yetişmişdi. Həmin dövrdə Bakıda milli azadlıq hərəkatı, kommunist rejiminə və imperiya əleyhinə çıxışlar dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanırdı ki, bu da Kremlə öz məkrli siyasətini həyata keçirməkdə mane olurdu. Xalq hərəkatının imicini aşağı salmaq, reputasiyasına xələl gətirmək lazım idi. Buna görə də Sumqayıt ssenarisinə bənzər bir ssenari hazırlanmışdı. Yenə də yerli milis tərk-silah edilmiş və mənəvi-psixoloji cəhətdən kütləşdirilmiş, Mərkəzdən daxili qoşun hissələri gətirilmişdi. Vəziyyətə Moskva nəzarət edirdi. Azərbaycanlıların əli ilə təxribatlar törətmək, siyasi aksiyaları milli müstəviyə yönəltmək, öz beynəlmiləlliyi ilə şöhrət tapmış Bakıda milli qırğın törətməklə beynəlxalq ictimai rəyi məqsədyönlü surətdə

dəyişmək və Bakı əhalisinə qarşı planlaşdırılmış cəza tədbirlərinə "haqq qazandırmaq" ssenarisi həyata keçirilirdi.

Beləliklə, Bakıda Sumqayıt ssenarisi artıq hazır idi və hər şey bir qığılcıma bənd idi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq ermənilərə qarşı hüquqazidd hərəkətlər baş verdi. Ayrı-ayrı dəstələrin azğın əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olmadı. AXC İdarə Heyəti öz bəyanatında bu cinayətləri qətiyyətlə pislədi, onların səbəblərini göstərdi və qeyd etdi ki, AXC humanizm, demokratiya, insan hüquqlarının müdafiəsi prinsiplərinə əsaslanır. Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapmışdılar. Bu işdə AXC üzvləri xüsusi fəallıq göstərmişdilər. Qanunazidd hərəkətlərin qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alındı. MMŞ özünümüdafiə dəstələri şəhərə tam nəzarət edirdilər. Xalqa tutulacaq divana hüquqi don geyindirilməsi üçün fövqəladə vəziyyət elan olunması planlaşdırılmışdı. Ə.Vəzirov yanvarın 14-də Azərbaycan KP MK bürosunda müzakirə etdikdən sonra qeyri-qanuni olaraq özünün çağırdığı Azərbaycan SSR Ali Soveti sessiyasında DQMV və zərurət olarsa ona bitişik rayonlarda və sərhəd boyunda fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi haqqında qərar qəbul edilməsinə nail oldu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciəti əsasında SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görsün. Lakin respublika hökuməti iflic vəziyyətində idi.

İmperiya respublikada hakimiyyət böhranından, bəzi bölgələrdə olduğu kimi, Bakıda da sovet hökumətinin devriləcəyindən, beləliklə, Azərbaycanı itirəcəyindən qorxub Bakının ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. MMŞ-nin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında əhali yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzüb barrikadalar qurdu, piketlər təşkil etdi. Yollarda 26 iri maneə yaradıldı. Şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmalarının yolu kəsildi.



Şəhərin hərbi komendantlığı həmin günlərdə, buna heç bir ehtiyac olmadığı halda, rusdilli əhalini, ilk növbədə hərbi qulluqçuların ailələrini Azərbaycandan köçürməyə başladı. Guya bu onların təhlükəsizliyi üçün edilirdi. Əslində isə məqsəd Bakıya qoşun yeridilməsinin vacibliyi haqqında beynəlxalq ictimaiyyətdə yəqinlik yaratmaq idi.

Moskvanın Bakıya göndərdiyi emissarların – SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenkonun AXC-nin radikal və liberal qanadlarının nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri müsbət nəticə vermədi. Yanvarın 17-dən Azərbaycan KP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Ermənistanın Azərbaycana ərazi iddialarına son qoyulsun, imperiyanın Bakı ətrafında yığdığı qoşunlar Dağlıq Qarabağa, daima basqınlara məruz qalan sərhəd bölgələrinə göndərilsin. Mitinqçilər xalqa xəyanətdə təqsirkar bildikləri respublika partiya, dövlət və hökumət başçıları üçün simvolik dar ağacları qurmuşdular. Ayaz Mütəllibov, Vaqif Hüseynov, Müslüm Məmmədov siyasi meyidə çevrilmiş Ə.Vəzirovun yerinə Moskvalı ağalarından xeyir-dua almaq üçün mübarizə apardıqları vaxt "yuxarılara" əli çatmayan başqa kommunist hakimiyyət hərisləri xalq hərəkatından istifadə etməyə çalışırdılar. Mitinqdə iştirak edənlər də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə öz namizədlərini irəli sürürdülər. Moskvanın təyin etdiyi canişinin istefası tələbi qəti rədd edildi. A.Girenko açıqca bildirdi ki, respublika rəhbərliyini Sov.İKP MK-nın deyil, kütlələrin dəyişməsi yolverilməzdir.

Başqa bölgələrdə də vəziyyət gərgin idi. 11 rayonda izdihamlı mitinqlər keçirilirdi. Mərkəz Naxçıvanda da xalqa divan tutmaq məqsədi ilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Lakin bütün cəhdlərə baxmayaraq, o, buna nail ola bilmədi. Xalqın tələbi ilə Naxçıvan MSSR Ali Soveti yanvarın 19-da Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi.

**Qanlı Yanvar.** Moskva özü yerli əlaltılarının fəal köməyi ilə radikallaşmağa məcbur etdiyi xalqa divan tutmaq üçün münasib şərait yarada bildi. 1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədi ilə qoşunlardan istifadə etmək niyyəti, heç kəsə aman verilməyəcəyi elan edil-

mədi. Fövqəladə vəziyyətin başlanma vaxtı gizli saxlanıldı. Fövqəladə vəziyyətin, komendant saatının vaxtında elan edilməsi Moskvanın qanlı planlarını poza bilərdi. Ona görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin radikallar adamlara "silah", "kömək gələcəyi" haqqında yalan vədlər verir, onları sonacan barrikadaları tərk etməməyə çağırırdılar.

Piketçilər Moskvanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahdan güclü atəşə tuturdular. Adamların gizlənməsi üçün bir sıra yerlərdə elektrik stansiyalarının işçiləri küçə fənərlərini söndürmüşdülər. Lakin qaçıb müxtəlif sığınacaqlarda gizlənən adamlar döyüş texnikasındakı projektorların köməyi ilə tapılır, atəşə tutulurdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyidləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıya və respublikanın digər yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü. Evlər yandırılmış, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. "Bakı əməliyyatı"nda, əsasən, yanlışlıqla bir-birini atəşə tutmaq halları ilə əlaqədar 25 nəfər hərbi qulluqçu ölmüş, 283 nəfər yaralanmışdı.



Fövqəladə vəziyyət haqqında fərman yanvarın 20-də saat 7-də elan olunmuşdu. Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı. Azərbaycanda yüksək vəzifə sahibi olanlar xalqa kömək etmək, ona arxa olmaq əvəzinə vəzifə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Bir sıra qabaqcıl ziyalılar yanvarın 20-də Akademiyada etiraz mitinqi keçirdilər. Ziyalıların səsini boğmaq, onları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan iki görkəmli elm xadimi, professor işə gedərkən tankın altına salınıb məhv edildi.

Hərbi hökumət gərginliyi bir qədər yumşaltmaq üçün həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi. Xalq deputatları – şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Ali Sovet sədrindən fövqəladə sessiya çağırılmasını, hadisəyə qiymət verilməsini tələb etdilər. Bəxtiyar Vahabzadə radio ilə xalq deputatlarına müraciət etdi. Yanvarın 21-22-də deputatların üçdə birinin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Moskvanın kimi birinci katib təyin edəcəyini gözləyən yüksək vəzifə sahibləri, bu sessiyanın işində, demək olar ki, iştirak etmədilər, hətta onu qeyri-qanuni yığıncaq adlandırdılar. Deputatların bir qismi baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdı. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etirazlarını bildirdilər. Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini şəhərdən çıxarmaq barədə qərar qəbul olundu. Lakin Moskva bu qərara əhəmiyyət vermədi.

Xalq vahimə içində idi; o, qanına bulanmış, alçaldılmış, təhqir olunmuşdu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır günlərdə xalqla olduğunu bildirdi, 20 yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin, doğma oğlunun onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Bakı, bütün Azərbaycan, fövqəladə vəziyyətə baxmayaraq, yanvarın 22-də şəhidlərlə vidalaşdı. Şəhər matəm libası gey-

mişdi. Respublikada üç gün matəm elan olunmuşdu. "Azadlıq" meydanında böyük matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində iki milyona qədər adam iştirak edirdi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Küçələrdə, Azərbaycan KP MK binasının divarlarında "Qorbaçov cəlladdır!", "Rədd olsun Sov.İKP!", "İşğalçılar, rədd olub gedin!" və s. şüarları yazılmışdı. Partiya biletlərindən tonqallar qalanırdı.

Şəhidlər şəhərin ən uca yerində – Dağüstü parkda dəfn edildilər.

Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Qanlı qırğına etirazını bildirmək üçün Bakı buxtasına gəlmiş "Xəzərneftdonanması"nın gəmiləri burda hərbi gəmilər tərəfindən mühasirəyə alınaraq güllələnmiş, onlarla dənizçi dövlət çevrilişi cəhdinin iştirakçısı kimi həbs olunmuşdu.

Sovet hökumətinin xalq tərəfindən devrildiyi bölgələrdə ordunun köməyi ilə kommunistlərin hakimiyyəti yenidən bərpa olundu. Ordu Lənkərana yeridildi. Hələ yanvarın 18-də bu rayonda partiya komitəsi və yerli hökumətin fəaliyyəti bərpa edilmişdi. Xalq Cəbhəsinin radikal qanadına mənsub silahlı qrup İstisu meşəsinə çəkildi. Yanvarın 26-da meşəyə desant salındı. Döyüşdə beş nəfər öldürüldü, bir neçəsi həbs edildi.

Moskva gizlincə respublikadan qaçmış Ə.Vəzirovun yerinə hakimiyyət uğrunda mübarizədə bütün vasitələrdən istifadə edərək qalib gəlmiş Ayaz Mütəllibovu yanvarın 24-də Azərbaycan KP MK-nın birinci katibi seçdirdi.

İmperiya, onun yerli əlaltıları istədiklərinə nail oldular. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. Milli Müdafiə Şurası dağıdıldı, bir çox fəal cəbhəçilər həbs olundu. AXC-nin seçkilərdə demokratik yolla hakimiyyətə gəlməsi kimi real imkan aradan qaldırıldı.

Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin erməni daşnakları ilə birgə apardıqları antitürk siyasətinin, türk soyqırımının tərkib hissəsi idi. İmperiyanın Qazaxıstanda (Alma-Atada), Özbəkistanda, DQMV-də tökdüyü qanlara daha 117 şəhid, yüzlərlə yaralanmış azərbaycanlının qanı əlavə olundu.

Lakin imperiya qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi. Əksinə, özünün dayağı olan kommunist partiyasını, sovet hökumətini xalqın gözündən daha da saldı, bəzilərində "yenidənqurma"ya olan ümidi puça çıxardı, təsdiq etdi ki, imperiya üçün xalqların ləyaqəti, respublikanın suverenliyi heç



nədir. Qanlı Yanvar günləri on minlərlə kommunist partiya biletini cırıb atdı, yandırdı, qaytardı.

Əgər Qanlı Yanvara qədər Azərbaycan xalqının bəzi qüvvələri respublikanın suverenliyini SSRİ daxilində mövcud siyasi və iqtisadi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtarırdısa, bu hadisə sübut etdi ki, suverenliyin yeganə yolu sovet imperiyasından çıxmaq, dövlət müstəqilliyini bərpa etməkdir. Etiraz hərəkatı Meydan dağıdılandan sonra demokratik hərəkata çevrilmişdisə, Qanlı Yanvar milli azadlıq hərəkatının yüksəlməsinə səbəb oldu.

1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. O, ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd xətti boyu fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, onu müdafiə etmək üçün xüsusi milis dəstələri yaradıldı. Bu zaman SSRİ silahlı qüvvələri SSRİ-nin saxlanmasına münasibət haqqında 17 mart ümumittifaq referendumunda iştirak etməyən Ermənistana "dərs vermək", habelə Azərbaycandakı kommunist rejimini dəstəkləmək üçün erməni silahlı dəstələrinə köməyi xeyli azaltdı. 1991-ci il mayın əvvəllərində Çaykənd və Martunaşendə pasport rejimi yoxlanıldı və hərbiləşdirilmiş erməni birləşmələri tərksilah edildi. İyulun əvvəllərində Goranboy rayonunun Azadkənd, Sarısu, Manaşid, Erkeç və Buzluq kəndlərində erməni silahlı quldurlarının dayaq məntəqələri dağıdıldı. Erməni əhali öz razılığı ilə bu bölgələrdən köçüb getdilər. Lakin ermənilər sərhəd zonalarındakı Azərbaycan kəndlərinə basqınlardan əl çəkmirdilər. Avqustun 18-22-də erməni hərbi hissələri rusların köməyi ilə, vertolyotlar və ağır texnikadan istifadə etməklə Qazax rayonuna hücuma keçdi. Bağanıs-Ayrım kəndi dağıdıldı, dinc əhaliyə işgəncələr verildi. Erməni hərbi hissələrinin Zəngilan, Qubadlı vəLaçın rayonu kəndlərinə də hücumları ara vermirdi. Bu vaxt Qubadlı rayonunun Yuxarı Cibikli kəndinə erməni quldurları basqın etmişdilər. Əhali mərdliklə müqavimət göstərdi, 20 erməni quldunu məhv edildi. Burada olan Sovet Ordusu dəstəsi, demək olar ki, seyrçi mövqe tutmuşdu. Təkcə ukraynalı Oleq Babak əliyalın azərbaycanlılara kömək etdi və qəhrəmanlıqla həlak oldu. Ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Can üstündə olan imperiya milli münaqişəni daha da dərinləşdirdi. Lakin onun iflası günü-gündən yaxınlaşırdı. İmperiya-

nın pəncəsindən xilas olmağa çalışan xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat qəbul olunması ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. Bu münaqişə Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan açıq-aşkar təcavüzkar müharibəyə çevrildi.



## § 3. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması

Uzun illər əsarətə, var-dövlətinin talanmasına, milli və dini hisslərinin təhqir olunmasına, hüquqlarının tapdalanmasına dözmüş xalqın səbr kasası artıq dolmuşdu. Köhnə idarəçilik mexanizminin dağıdılması, yeni mexanizmin isə hələ yaradılmaması ilə əlaqədar imperiyanın düşdüyü ümumi böhran gündən-günə dərinləşirdi. Xalqın güzəranı pisləşirdi. Belə bir şəraitdə SSRİ-nin dağılma prosesinin qarşısını almaq üçün mərkəzçi qüvvələr milli münaqişələri daha da qızışdırır, antitürk, antiislam siyasətini genişləndirirdilər. Azərbaycan mühüm coğrafi-siyasi məkanda yerləşdiyindən, imperiyanın türk xalqları ilə Türkiyə arasında körpü olduğundan əsas zərbə hədəfi olmuşdu. Ermənistanda və Dağlıq Qarabağda azərbaycanlıların soyqırımını törətmək, Azərbaycanı parçalamaq, bu yolla bütün Qafqazda ağalığı saxlamaq siyasəti həyata keçirilirdi.

Xalq Azərbaycanı parçalamaq cəhdlərinə, ermənilərin Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı münasibətini əvvəllər Mərkəzi Komitəyə, rəhbərlərə etiraz teleqramları, məktublar göndərməklə, imzalar toplamaqla bildirirdi. Daha sonra kütləvi çıxışlar başlandı. İlk etiraz mitinqi 1988-ci il fevralın 19-da Bakıda keçirildi. Martın 16-da Azərbaycan Elmlər Akademiyasında etiraz mitinqi oldu. Ermənistanda azərbaycanlıların soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da universitetin qarşısında "Yurd" təşkilatının fəal iştirakı ilə böyük mitinq oldu. Mitinqçilər şəhərin baş meydanına – Lenin adına meydana (indiki "Azadlıq") toplandılar. Burada davam edən mitinqdə görkəmli ziyalılar çıxış edərək xalqı, rəhbərləri respublikanın hüquqlarını müdafiə etməyə çağırdılar. Mitinqçilər mərkəzdən və respublika rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə qəti cavab tələb edirdilər. Respublikanın başqa şəhərlərində də mitinqlər keçirilirdi. Ermənipərəst Moskvada sözü keçməyən respublika rəhbərliyi xalqın ciddi narazılığını nümayiş etdirib ağalarına təsir göstərmək istəyirdi və belə mitinqlərin keçirilməsinə mane olmurdu. Lakin kortəbii etiraz hərəkatının böyüyüb bu milli münaqişəni törədən rejimə, onun respublikadakı canişininə qarşı ümumxalq hərəkatına çevrilməsinə yol verməməyə çalışırdı.

Moskva 1988-ci ilin mayında Azərbaycandakı canişinini dəyişdirib, xalqın psixologiyasını, adət-ənənələrini, köklü maraqlarını yaxşı bilməyən Əbdürrəhman Vezirovu qəsdən hakimiyyətə gətirmişdi. Noyabrın 15-də Bakıda Universitetin qarşısında, səhəri gün Elmlər Akademiyasının böyük dairəvi zalında və M.Ə.Sabir adına bağda "Yurd" təşkilatının təşəbbüsü ilə mitinqlər keçirildi. Noyabrın 17-də səhər nümayişçi dəstələr milisin canlı maneələrini yararaq Universitet, Akademiya, Politexnik, İqtisad institutları qarşısından M.Ə.Sabir adına bağa, oradan isə Azadlıq meydanına gəldilər. Meydanda mitinqçilərin tələbləri oxundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar həyata keçirilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Sovetinin sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblər idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi. Axşam hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələblər yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər. Meydanda liderliyi leytenant Şmidt (indiki Səttərxan) adına zavodun gənc fəhləsi Nemət Pənahov ələ aldı. Burada "Moskvanın fitnələri", "Suverenlik", "Azadlıq" sözləri eşidilməyə başlandı. Bundan Moskvaya təzyiq edib respublikada hakimiyyəti ələ keçirmək istəyən qüvvələr istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvanda dövlət orqanlarının binasına hücum edilmişdi. Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq həlak olmuşdu. Bunları bəhanə edərək hökumət noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq etdi.

Xalqın narazılığı gündən-günə daha da artırdı. Nümayişçilər Meydana Azərbaycan SSR-in oraq-çəkicli bayrağı ilə gəlmişdi, burada isə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı qaldırıldı. Hər gün yüz minlərlə adam küçələri qapayan tankların, əsgərlərin arasından keçərək səngimək bilməyən Meydana axışırdı. Çox vaxt mitinqçilərin sayı milyona çatırdı. Gecələr Meydanda qalanmış tonqalların kənarında minlərlə adam qalırdı.

Artıq xalq mitinqlə mümkün olan nəticəni əldə etmişdi. İndi təşkilatlanmaq, mübarizəni başqa demokratik vasitələrlə davam etdirmək lazım idi. Lakin o vaxt respublika rəhbərliyinin səriştəsizliyi və satqınlığı, habelə xalq hərəkatına salınmış nifaq nəticəsində ümumxalq maraqlarını müdafiə etmək və Moskvanın məkrli siyasətinə qarşı milli birlik nümayiş etdirmək mümkün olmadı.

Mitinqçilərin sayı getdikcə azalır, Meydanın mühasirə həlqəsi daralırdı. Dekabrın 3-də mitinqçilərdən Meydanı tərk etmək tələb olundu. Mitinqçilərin çoxu dağıldı. Dekabrın 4-də gecə hərbçilər hücum edib Meydanı zorla boşaltdılar, burada gecələyən mitinqçiləri həbs etdilər.

Meydan dağıdıldıqdan sonra bir neçə gün Bakıda və respublikanın başqa şəhərlərində etiraz tətili və nümayişlər keçirildi. Həmin günlər təkcə Bakıda 14,5 min fəhlə və qulluqçu tətil etmişdi. Astarada yerli əhali etiraz əlaməti olaraq şosse yolunu kəsmiş, yüklərin daşınmasına mane olmuşdu.

Meydan Azərbaycan xalqına qarşı Dağlıq Qarabağ ilə bağlı Moskvanın yürütdüyü haqsız siyasətə etiraz bildirən xalq hərəkatının birinci – kortəbii mərhələsinin zirvəsi idi. Meydan xalqda özünə inam yaratdı, ona ümummilli mənafe uğrunda birləşmək bacarığı aşıladı. Xalq artıq təşkilatlanmağın, vahid cəbhədə birləşməyin vacibliyini dərk etdi.

Xalq başa düşdü ki, Moskvanın təyin etdiyi respublika rəhbərləri onun mənafeyini müdafiə etmir. Xalqın mənafeyini yalnız özünün hakimiyyətə gətirdiyi rəhbər müdafiə edə bilər. Bununla yanaşı, hansı yolla olursa olsun, xalqın etimadını qazanıb hakimiyyət iştahasına düşənlər çoxaldı. Respublikanın nüfuzlu, tanınmış ziyalılarının xalq hərəkatına rəhbərlik etməsinə yol verməmək üçün hakim dairələr, xüsusi idarələr dəridən-qabıqdan çıxır, xalqın labüd təşkilatlanmasının siyasi təcrübəsi və səbatı nisbətən az olan şəxslərin ətrafında baş verməsinə şərait yaradırdılar.

Siyasi fəaliyyət təcrübəsi olanlar, xüsusən görkəmli siyasətçi, dövlət xadimi Heydər Əliyev ciddi təqib olunur, onun və tərəfdarlarının xalqla birləşməsinə hər vəchlə maneçilik törədilirdi. Xalq Azərbaycanın üzləşdiyi ciddi problemləri həll etməyə qadir siyasətçinin Heydər Əliyev olduğunu görür və onun yenidən respublika rəhbərliyinə qayıtmasını arzulayırdı. Minlərlə adam mitinq və nümayişlərə, xüsusən münaqişə zonasında və ətraf rayonlarda, Heydər Əliyevin portretləri ilə çıxırdılar. Təkcə Yevlax şəhərində 1988-ci ildə vətənpərvər gənclərin təşkil etdiyi nümayiş və izdihamlı mitinqdə 20 minədək adam iştirak etmişdi. Nümayişçilər Heydər Əliyevin yenidən hakimiyyətə qaytarılmasını tələb edirdilər. Belə nümayiş və

mitinqlər iqtidarı, onun moskvalı ağalarını çox narahat edirdi. Xalq Azərbaycanın SSRİ daxilində iqtisadi və mədəni suverenliyi uğrunda mübarizə aparır, qanunlara hörmət olunmasını tələb edirdi.

1989-cu il iyunun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Konfransda Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. Əbülfəz Əliyev AXC-nin sədri oldu.

O dövrdə AXC geniş sosial bazaya malik idi, siyasətdə radikal, liberal, həm də barışdırıcı mövqe tutanları birləşdirirdi. Cəbhə demokratik mərkəziyyət prinsipindən imtina etmişdi. Yuxarı təşkilatların qərarları üzvlər üçün yalnız məsləhət xarakteri daşıyır, tədbirlərdə iştirak könüllü sayılırdı. Cəbhə daxilində plüralizm, ən müxtəlif fraksiyaların yaradılması nəzərdə tutulurdu. AXC sədri təmsilçilik funksiyası daşıyırdı, onun hətta səs vermək hüququ yox idi. Hələ demokratiya mədəniyyəti olmayan cəmiyyətdə belə bir ifrat demokratik nizamnamə ilə çox mürəkkəb siyasi şəraitdə xalqa rəhbərlik edə biləcək güclü təşkilat yaratmaq mümkün deyildi. Yuxarı dairələrdə hakimiyyət uğrunda mübarizə aparan qüvvələr bundan məharətlə istifadə edərək, "öz adamlarını", xüsusi idarə agentlərini bu təşkilata yerləşdirdilər. Respublikada fövqəladə vəziyyət şəraitində iyun-sentyabr aylarında keçirilən kütləvi mitinq və tətillər "yuxarılarda" hakimiyyətə gəlmək istəyənlərin ssenariləri üzrə baş vermişdi.

İmperiya sadiq əlaltısı Vəzirovun əli ilə hərəkatı boğmağa çalışırdı. Tələbələrin kütləvi mitinqlərdə mütəşəkkil iştirakının qarşısını almaq üçün dərslərin başlanması oktyabrın 2-ə keçirilmişdi.

Sentyabrın 2-də respublikanın, demək olar ki, bütün şəhərlərində izdihamlı mitinqlər təşkil olundu. İki gün sonra ümummilli tətil başlandı. Bakıda şəhərin normal həyat fəaliyyətini təmin edən müəssisə və texnoloji rejimi işi dayandırmağa yol verməyən neftayırma qurğularından başqa bütün müəssisələr, habelə dəmiryolçular tətilə qoşuldu. Ayın 5-də Şimali Qafqaz dəmir yolunda hərəkət tam dayandı, imperiyanın cənub rayonlarının təsərrüfatına böyük ziyan dəydi. Təkcə Azərbaycan sənayesində 13 milyon manatlıq məhsul istehsal olunmadı. Sentyabrın 6-da mitinqçilər öz tələblərinə respublika rəhbərliyinə "istefa" tələbini də əlavə etdilər. Bundan sonra AXC və Azərbaycan KP MK arasında danışıqlar başlandı. Tələblərin ödəniləcəyi barədə razılıq əldə olundu. AXC və Azərbaycan KP MK arasında saziş protokolu imzalandı. Sentyabrın 15-də Azərbaycan SSR Ali



Sovetinin növbədənkənar sessiyası çağırıldı. Sessiya DQMV XİK-in ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilə bilməsini nəzərdə tutan dəyişikliklər edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul etdi.

Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının ittifaq qanunlarından üstünlüyü və onun SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanunu qəbul etdi. Bu, xalqda qələbə əhval-ruhiyyəsi yaratdı. Noyabrın 25-də keçirilən mitinq və burada ümumi tətil elan olunması Moskvanı DQMV Xüsusi İdarə Komitəsini ləğv etməyə məcbur etdi. Noyabrın 28-də bu komitə buraxıldı.

Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı. AXC-nin bu vaxta qədər buraxılan bülleteni əvəzinə dekabrın 4-də "Azadlıq" qəzeti kütləvi tirajla nəşr olunmağa başladı. Azərbaycan Xalq Cəbhəsi artıq kütləvi təkşilata çevrilmişdi. Onun sıralarında 300 minə qədər üzv və tərəfdar birləşmişdi.

Azərbaycan Xalq Cəbhəsi real siyasi qüvvə idi. Onun qarşıdakı seçkilərdə (mart ayında keçirilməsi nəzərdə tutulurdu) qələbə çalaraq hakimiyyətə gələcəyinə şübhə yox idi. Sosioloqların fikrincə, seçkilərdə AXC səslərin 80-90 faizini toplaya bilərdi. Xalq Cəbhəsinin hakimiyyətə gəlməsi suverenlik haqqında Azərbaycan SSR qanununa ardıcıl əməl olunması, ən başlıcası, respublikanın öz qanunlarının SSRİ qanunlarından üstünlüyünün, iqtisadi müstəqilliyinin təmin edilməsi demək olardı. 1989-cu ilin payızından başlayaraq AXC liderlərinin türkçülüyə meyllərini açıq ifadə etmələri də Moskvanı çox ciddi narahat edirdi. Mərkəz belə bir təşkilatın hakimiyyətə gəlməsinə heç vəchlə razı ola bilməzdi. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov Əbülfəz Elçibəyə verdiyi "Sizin məqsədiniz nədir?" sualına "demokratik seçkilər aparmaq" cavabı aldıqda demişdi: "Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır". Buna görə də, liderləri "radikallar"a və "liberallar"a bölüb xalq hərəkatını daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə kommunistlərin qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı. Əsas vasitə xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu

zorakı hərəkətlərə şirnikdirmək idi. Ə.Vəzirov AXC rəhbərləri ilə görüşündə açıqca demişdi: "Gücünüzü göstərin, sizinlə hesablaşaq". AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu "tələyə" düşdülər. AXC Məclisinin birinci sessiyasında (27-28 oktyabr 1989-cu il) cəbhə daxilində "radikallar" və "liberallar" arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı. "Radikallar" AXC İdarə Heyətinin "liberal" üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirdilər. Onlar AXC-nin yeni rəhbər orqanları seçiləcək fövqəladə konfransının keçirilməsini tələb etdilər. Xalq Cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün liberallar müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı. Onun səlahiyyətini yerinə yetirən əsasən radikallardan ibarət müvəqqəti təşkilat qrupu seçildi. Bu, radikalları daha da fəallaşdırdı. Bir çox bölgələrdə əsl ikihakimiyyətlilik yaranmışdı: Kommunist Partiyasının və Xalq Cəbhəsinin hakimiyyəti. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlirdi.

1989-cu il dekabrın 8-dən Cəlilabadda fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqa silah qaldırmadı, onun tərəfinə keçdi. Vəziyyəti "nizama salmaq üçün" dekabrın 27-də rayona gətirilən milis dəstələri həbslər keçirməyə başladı. Qəzəblənmiş əhali hücum edib rayon partiya komitəsinin, milisin binalarını dağıtdı, rəhbərləri döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralanmışdı. Dekabrın 29-da burada "xalq hökuməti" fəaliyyətə başladı. Müvəqqəti təşkilat komitəsi və Milli müdafiə şurası yaradıldı.

Başqa rayonlarda hadisələr əsasən dinc yolla inkişaf edirdi. Sabirabad, Ağcabədi və Naxçıvanda hakimiyyət orqanları Xalq Cəbhəsi ilə kompromisə gedərək, idarəetmə məsələlərində bəzi problemlərin müştərək həllinə nail ola bildi, qarşıdurmanın güclənməsinə, qan tökülməsinə yol vermədi. 1989-cu ilin noyabr-dekabr aylarında Sabirabad və Ağcabədi rayonlarında xalq hərəkatı rayon partiya komitələri birinci katiblərinin istefası ilə nəticələndi. Naxçıvan MSSR-də də belə oldu.

Xalq Cənubi Azərbaycanda – İran İslam Respublikasında yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələrin, gediş-gəlişin bərpa olunması tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdi. İkiyə bölünmüş xalqın bu təbii arzusunun boy atmasına dünyada ayrı salınmış xalqların rəğbətlə qarşılanan birləşmə hərəkatı, Avropada Berlin divarının sökülməsi də mühüm təsir etmişdi.



Naxçıvan MSSR kimi aztorpaqlı ərazidə xeyli münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbristanlığa və ziyarətgahlara da getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər.

1989-cu ilin dekabrında Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar yandırılmışdı. Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, cənublu qan qardaşları ilə əlaqə saxlanmasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə edilmədi.

İmperiya azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət qazandıra bilərdi. Buna görə də sərhədçilərə adamlara müqavimət göstərməmək əmri verilmişdi.

Dekabrın 31-də saat 13-də Araz çayı boyu 137 km Sovet-İran sərhədində həyəcanlar başladı. Sərhəd qurğuları dağıdıldı. Hər iki tərəfdən sərhədə toplaşanlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə sərhədində həyəcanlar oldu. Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı. Əhali cənublu qan qardaşları ilə görüşdü.

1990-cı il yanvarın 11-də gecə Lənkəranda rayon partiya komitəsi, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirə olundu, partiya komitəsinin, hakimiyyət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti müdafiə komitəsi təsis olundu. Yanvarın 12-də xalqa divan tutmaq üçün mexanikləşdirilmiş hərbi hissələr Lənkərana göndərildi. Lakin qonşu Salyan, Sabirabad, Kürdəmir rayonlarında əhali qoşun keçəcək yolda canlı sipər yaratdı.

SSRİ-ni labüd iflasdan iqtisadi və siyasi islahatlarla xilas etmək, xalqları bir-birinə qarşı qoymaqla mərkəzdənqaçan qüvvələri zəiflətmək üçün "yenidənqurma" müəlliflərinin həyata keçirdiyi tədbirlər səmərəli olmadı. Əksinə, bu, imperiyada ümumi böhranı, ittifaqın dağılma prosesini sürətləndirdi. Milli ucqarlarda müstəmləkə boyunduruğuna qarşı mübarizə aparan qüvvələr daha da yetkinləşdi.

**Qanlı Yanvar.** Azərbaycan xalqı "Qanlı Yanvar"dan böyük dərs aldı, fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, qarşıya mövcud reallıqlar daxilində həll edilməsi mümkün olan məsələlər qoymağa, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə baş-

ladı. Mütəşəkkil şəkildə qırx günlük ümumrespublika etiraz tətili keçirildi. Kənd əhalisinin yaxından köməyi ilə tətil edən fəhlələrə müntəzəm maddi və mənəvi yardım göstərildi. Tətil imperiyaya yarım milyard rubldan çox iqtisadi ziyan vurdu.

Lakin tarixin bu məsuliyyətli dövründə AXC artıq xalqa rəhbərlik edə bilmədi. Onun siyasi cəhətdən uzaqgörməyən və öz ambisiyalarından çıxış edən bəzi liderləri qarşıdakı parlament seçkilərində yer almaq üçün iqtidarla razılığa gəldilər. Belə ki, bir qrup ziyalının "75-lərin bəyanatı" adlı müraciətindən "təsirlənən" iqtidar və AXC liderləri mayın ortalarında görüşüb Məşvərət Şurası yaratdılar.

Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 19-da, Məşvərət Şurasında əvvəlcədən əldə olunmuş razılığa əsasən, prezident vəzifəsi təsis etdi və Ayaz Mütəllibovu bu vəzifəyə seçdi.

İqtidar da bir sıra güzəştlərə getdi. Demokratlara qarşıdakı seçkilərdə deputat yerləri vəd olundu. 21 may tarixli fərman ilə 28 may 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün Azərbaycan dövlətçiliyinin bərpası günü elan edildi. Həmin gün demokartik qüvvələr Azərbaycan Respublikasının üçrəngli bayrağını keçmiş Azərbaycan parlamenti binası üzərində yenidən qaldırdılar. Fövqəladə vəziyyət olsa da, Bakıda, habelə Gəncədə və respublikanın başqa şəhərlərində 28 may münasibəti ilə mitinqlər, nümayişlər keçirildi. Lakin bütün bu nümayişkaranə tədbirlərə baxmayaraq, Azərbaycan xalqı Xalq Cəbhəsi liderlərinin qeyri-ardıcıl mövqeyini görüb onlardan uzaqlaşdı. Tezliklə bu təşkilatın üzvlərinin sayı 3 dəfəyə qədər azaldı. Xalqın böyük bir hissəsi bütün ümidini Heydər Əliyevə bağlamışdı. Azadlıq uğrunda xalq hərəkatının əsl lideri Heydər Əliyev idi.

Qanlı Yanvar hadisələrindən sonra xalqın öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxan imperiya Heydər Əliyevə qarşı repressiya planları hazırladı və həyata keçirməyə çalışdı. Respublika rəhbərləri də hər vəchlə onun Azərbaycana qayıtmasına mane olurdular. Tarixin bu məsuliyyətli və çətin, lakin şərəfli dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya gəldi. Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Lakin iqtidar, ondan hakimiyyət bölgüsü gözləyən sol müxalif qüvvələr Höydər Əliyevin Bakıda qalmasına hər cür manee törətdilər və o, doğma diyarı olan Naxçıvana getməli oldu. Heydər Əliyev iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə



görüşlər keçirdi. Heydər Əliyev xalqı, azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırırdı.

İyul ayından Azərbaycan SSR xalq deputatları və yerli xalq deputatları Sovetləri deputatları seçkiləri üzrə seçki kampaniyası başlandı. İyulun 28-də respublika demokratik qüvvələrinin forumu keçirildi, 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi demokratik blok ("Demblok") yaradıldı. Seçki komissiyalarına cəbhənin və başqa ictimai təşkilatların nümayəndələri də salındı. Seçkilər alternativ əsasda keçirilirdi. 360 Azərbaycan SSR xalq deputatı mandatını almağa 1200 nəfər namizəd irəli sürülmüşdü. Seçkilər sentyabrın 30-da keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. Kommunistlərin qüvvələri səfərbər etməsi, habelə fövqəladə vəziyyət, repressiyalar seçkilərin nəticəsinə ciddi təsir göstərdi. Azad və ədalətli rəqabət təşkil etmək mümkün olmadı. Qeyri-demokratik olan seçki qanununun özünü də rəhbər dairələr biabırçı şəkildə pozurdular. Bu yolla onlar seçkilərin nəticələrini saxtalaşdırırıb parlamentdə yerlərin çoxunu kommunistlərə verdilər. "Demblok"un cəmi 30 nümayəndəsi xalq deputatı seçildi.

İqtidarın və Xalq Cəbhəsi liderlərinin başı hakimiyyət, vəzifə uğrunda mübarizəyə qarışdığı bir vaxtda Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik edirdi. O, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi. Heydər Əliyev müdrik, uzaqgörən siyasəti ilə xalqın azadlıq mübarizəsini istiqamətləndirdi. 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin onun sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 yanvar hadisəsinə düzgün siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı respublika rəhbərləri Vəzirovun, Mütəllibovun və b. günahkar olduqlarını qeyd etdi, xalqa kimlərin ona rəhbərlik etmək istədiyini göstərdi.

Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasındakı çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etdi, böhranın, habelə Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar

Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etdi. Onun çağırışını hakim dairələr qulaqardına vursa da, xalq ruh yüksəkliyi ilə qarşıladı. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu.

**Kommunist rejiminin süqutu. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası.** Respublikada kommunist rejimi hələ yaşayırdı. Lakin onun arxalandığı partiya artıq daxildən parçalanmağa başlamışdı. 1990-cı ilin əvvəllərindən SSRİ Konstitusiyasının 6-cı maddəsini ləğv etmək şüarı altında demokratik hərəkatın genişləndiyi vaxt partiya daxilində müxtəlif cərəyanlar əmələ gəlmişdi. Azərbaycanın rəhbər kommunistləri, demək olar ki, "Sov.İKP-də demokratik platforma"nın mövqeyində dururdular. "Demokratik platforma" kommunizmə çatmaq üçün inzibati-amirliyin tədricən demokratik metodlarla əvəz olunmasını vacib bilirdi. Lakin respublika kommunistləri içərisində SSRİ-də qurulmuş eybəcər cəmiyyətin sosializmlə heç bir əlaqəsi olmadığını bildirən, marksizm mənbələrindən öyrənməyə qayıtmağa təkid edən "Sov.İKP-də marksist platforması" mövqeyində dayananlar da var idi. Hətta onların bir qrupu hələ 1989-cu ilin yayında təşkilatlanmış, "Hümmət" adlı dərgi buraxaraq öz məqsədlərini elan etmişdilər. Bu qrup idarəçilikdə yol verdikləri ciddi qüsurlara – rüşvətxorluğa, yerliçiliyə, cəmiyyəti böhrana saldıqlarına görə kommunist rəhbərləri tənqid edir, bütün kommunistləri xalqın xoşbəxt gələcəyi uğrunda mübarizə aparmağa çağırırdı.

Hakimiyyəti əlində saxlamağa çalışan Qorbaçov "mühafizəkarlar"ı bir növ neytrallaşdırmaq, hakim dairələrdə mübarizəni səngitmək üçün "SSRİ-nin taleyi" məsələsini ortaya atdı. Azərbaycanda demokratik qüvvələr, öncə Heydər Əliyev milli respublikaların müstəqilləşməsinin qarşısını almağa yönəlmiş bu siyasəti ifşa etdi, xalqı SSRİ-nin saxlanmasına münasibət üzrə referendumda iştirak etməməyə çağırdı. Lakin 1991-ci il fevralın 5-də Azərbaycan parlamentində "demblok"un ciddi təkidli etirazına baxmayaraq, kommunistlər birləşib SSRİ-nin saxlanmasına münasibət üzrə ümumittifaq referendumunda Azərbaycanın iştirak etməsi haqqında qərar qəbul etdilər. Ermənistanın boykot etdiyi referendumda Azərbaycanın iştirak etməsini



Ermənistan-Azərbaycan münaqişəsində Moskvanın mövqeyinin ikincinin xeyrinə dəyişəcəyinə ümid də bu nəticəyə az təsir göstərməmişdi.

Referenduma qanunla nəzərdə tutulmuş iki ay əvəzinə cəmi on gün hazırlıq görüldü. Demokratik qüvvələr fövqəladə vəziyyət şəraitində bu üzdəniraq "ümumxalq səsverməsini" boykot etdi. Naxçıvan MR əhalisi referendumda iştirak etmədi. Referendum martın 17-də keçirildi. Nəticələr saxtaşdırıldı, guya səsvermədə iştirak edənlərin 95 faizi SSRİ-nin saxlanılması lehinə olmuşdular.

Aprelin sonlarında SSRİ prezidenti və referendumda iştirak etmiş 9 respublikanın yüksək vəzifəli şəxsləri Moskva yaxınlığında Novo-Oqaryovodakı prezident iqamətgahında tezliklə yeni ittifaq müqaviləsi bağlanacağı haqqında niyyət protokolu imzaladılar. Təqdim olunan müqavilə layihəsi kompromis xarakterli idi. Müqavilə bağlanandan sonra altı aydan gec olmayaraq ittifaq orqanlarına yeni seçkilər keçirilməsi və bu yolla rəqiblərin siyasi hakimiyyətdən uzaqlaşdırılması nəzərdə tutulurdu. Moskva may-iyun aylarında Goranboyda erməni quldurlarına köməyi azaltmaqla həm Ermənistanı "cəzalandırdı", həm də Mütəllibov rejimini bir qədər populyarlaşdıra bildi. Bundan istifadə edən prezident mövqeyini möhkəmləndirmək üçün ümumxalq prezident seçkilərinə getməyi qərara aldı. Seçkilər sentyabrın 8-ə təyin olundu.

Heydər Əliyev imperiyanın qorunub saxlamasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və Sovet dövlətinə açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi, 1991-ci il iyulun 19-da Kommunist Partiyasından çıxdı. O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına ərizəsində qeyd edirdi: "Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir... bütün bunlar "humanist ideologiyalı" Sovet dövləti üçün adi haldır". Xalq imperiyanın bərpası üçün cəhdlərə onun bu qəti etirazını razılıqla qarşıladı. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi.

Respublika rəhbərlərinin imperiyanı qoruyub saxlamaq istəyən qüvvələrlə əməkdaşlığı ümumxalq narazılığına səbəb olmuşdu. Bu, Naxçıvanda daha aydın təzahür edirdi. 1991-ci il sentyabrın 3-də Naxçıvan MR Ali Məclisi xalqın təzyiqi ilə Heydər Əliyevi, onun dəfələrlə öz namizədliyini geri götürmə-

sinə baxmayaraq, Ali Məclisin sədri seçdi. Naxçıvan MR Ali Məclisi 1991-ci il 4 sentyabr tarixli qərarı ilə prezident seçkilərini Naxçıvan MR ərazisində dayandırdı. Xalqı yolundan döndərmək üçün Azərbaycan rəhbərliyi Naxçıvana ciddi təzyiqlər göstərdi. Muxtar Respublikaya silahlı qüvvələr yeridildi. Daxili İşlər Nazirliyinin bir qrup zabiti, Azərbaycan Parlamenti deputatlarından ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını bu qərarı dəyişməyə məcbur etsin. Lakin xalqın lideri Heydər Əliyev yerli televiziya vasitəsi ilə bəyanat verdi və xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr Muxtar Respublikanı tərk etməlidirlər, əks təqdirdə bütün əhali ayağa qalxacaqdır. İqtidar geri çəkilməyə məcbur oldu. Sentyabrın 7-də Naxçıvan MR Ali Məclisi Naxçıvan Dövlət Müdafiə Komitəsi yaradılması haqqında qərar qəbul etdi. Heydər Əliyev Naxçıvan Dövlət Təhlükəsizlik Komitəsinin Moskva ilə əlaqəli işlədiyini aşkar etdi və Ali Məclis bu təşkilatın fəaliyyətini müvəqqəti dayandırmaq haqqında qərar qəbul etdi. Bu vacib orqanda xain və satqınlardan təmizləmə işləri aparıldı. Bunu iqtidar Muxtar Respublikanı Azərbaycandan ayırmaq cəhdi kimi qiymətləndirdi. Heydər Əliyevin müdrik siyasəti sayəsində Naxçıvan Respublikasında həyat tədricən öz axarına düşməyə başladı. İran hökuməti ilə razılığa əsasən Muxtar Respublikaya bu ölkə vasitəsi ilə ərzaq, yanacaq, sərnişin daşınmasına başlandı. 1991-ci ilin oktyabrında Araz üzərində Türkiyə və Naxçıvan arasında "Həsrət körpüsü" açıldı.

Artıq "Dağlıq Qarabağ problemi" ətrafında birləşən müxtəlif siyasi qruplar bu problemin yalnız Azərbaycan müstəqillik əldə etdikdən sonra həll oluna biləcəyi yəqinliyinə gəlmişdilər. Müstəqilliyin əldə edilməsi yollarını isə onlar müxtəlif cür təsəvvür edirdilər. Etibar Məmmədov AXC-nin IV konfransında ( 26-27 may 1991-ci il) diskussiya açıb milli cəbhə yaratmaq, milli azadlığa demokratiyadan deyil, demokratiyaya milli azadlıqdan gəlmək prinsipini irəli sürdü. İki platforma: birincisi müstəqilliyə doğru insan hüquqlarının aliliyinə zidd olmayan yollarla getməyi vacib hesab edən "liberal-demokratlar"ın, ikincisi isə müstəqilliyə hər bir mümkün, hətta lazım gələrsə, insan hüquqlarına zidd olan yollarla getməyi lazım bilən "millətçi-vətənpərvərlər"in platforması formalaşdı. AXC-nin idarə heyətində artıq fikir birliyi yox idi. Cəbhə daxilində partiyalaşma prosesi başlamışdı. Buna görə də AXC-nin I qurultayında (1991, 13-16 iyul) idarə heyəti buraxıldı. Hələ 1990-cı ilin əvvəllərində Xalq Cəbhəsi üzvləri müxtəlif siyasi partiyaların təşəbbüs qruplarını yaratmışdılar.



Xalq Azadlıq Partiyası, Dirçəliş Partiyası, Azərbaycan Sosial-Demokrat Partiyası, Azərbaycan Milli-Demokrat (Yeni Müsavat) Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və s. siyasi təşkilatlar meydana gəlmişdi. Lakin cəmiyyətdə onların kifayət qədər nüfuzu yox idi. İndi xalqın azadlıq mübarizəsinə rəhbərliyi Heydər Əliyev, parlamentdə müxalifətə rəhbərliyi isə "demblok" yerinə yetirirdi.

İmperiya hakimiyyətinin yuxarı eşelonlarında mühafizəkar qüvvələrin müqaviməti getdikcə güclənirdi. İnflyasiyanın sürətlə artması, əhalinin vəziyyətinin gündən-günə pisləşməsi onların səmərəli fəaliyyəti üçün münasib şərait yaradırdı. 1991-ci ilin iyununda SSRİ Ali Sovetinin gizli iclasında mühafizəkarların liderləri Nazirlər Kabinetinə fövqəladə səlahiyyətlər verilməsini tələb etdilər. Bu, baş tutmadı. İrticanın növbəti hücumu 18-19 avqust dövlət çevrilişi cəhdində təzahür etdi. Onun başçıları Forosda, (Krımda) istirahət edən Qorbaçovu "neytrallaşdırıb", Dövlət Fövqəladə Vəziyyət Komitəsi ("QKÇP") təşkil etdilər və "demokratikləşmə"nin, "yenidənqurma"nın çıxılmaz vəziyyətə saldığı imperiyanı iflasdan qurtarmaq üçün bütün hakimiyyəti öz əllərinə aldılar. Lakin qiymçılar səhv etmişdilər, onlar iri şəhərlərdə demokratik qüvvələrin güclü olduğunu nəzərə almamışdılar. Avqustun 19-da Rusiya prezidenti B.Yeltsinin başçılığı ilə qiyama qarşı bütün demokratik qüvvələr birləşib ayağa qalxdı. Azərbaycanda da demokratik qüvvələr "QKÇP"-nin qanuna zidd fəaliyyətinə qarşı çıxdılar. Lakin respublikanın prezidenti "QKÇP"-ni müdafiə edərək ciddi siyasi səhvə yol verdi.

Rusiyada demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində dövlət çevrilişinin qarşısı alındı. Azərbaycanın hər yerində irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə, mitinqlər başlandı. Naxçıvanda izdihamlı mitinqlər keçirildi. Hərəkatı istiqamətləndirən Heydər Əliyev idi. Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkiləri keçirilməsi, fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edilirdi. Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da saat 13.30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında bəyannamə qəbul etdi.

*"Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Azərbaycan Respublikası Ali Sovetinin BƏYANNAMƏSİ*

Azərbaycan Respublikasının Ali Soveti Azərbaycan xalqının ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək,

1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək,

Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında konstitusiya qanunlarına əsaslanaraq,

Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün məsuliyyətini dərk edərək,

Milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulan bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək,

Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq, Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq,

Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək,

Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək, SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək,

Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabər hüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək,

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olduğunu elan edir".



Azərbaycan xalqının tarixində yeni dövr başlandı.

1991-ci il sentyabrın 5-də SSRİ xalq deputatlarının V qurultayı keçid dövrünün hakimiyyəti haqqında Konstitusiya qanunu qəbul etdi və öz səlahiyyətini respublikaların yüksək vəzifəli şəxslərindən təşkil olunmuş SSRİ Dövlət Şurasına verdi. Lakin respublikalarda, o cümlədən Azərbaycanda bu qərarın həyata keçirilməsinə qarşı ciddi mübarizə başlandı. Heydər Əliyevin sədrlik etdiyi Naxçıvan MR Ali Məclisi 1 oktyabr tarixli qərarı ilə keçid dövrü ittifaq orqanlarında Azərbaycan Respublikasının iştirakını qeyri-mümkün saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini tənqid etdi.

Digər respublikalar kimi, Azərbaycan da SSRİ Dövlət Şurasına öz nümayəndələrini yalnız məşvərətçi səlahiyyəti ilə göndərdi. Yeni ali qanunverici orqan təşkil etmək mümkün olmadı. Respublikalarda dövlət müstəqilliyi uğrunda mübarizə daha da genişləndi.

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etməyə çağırmışdı. Prezident seçkiləri Naxçıvan Muxtar Respublikası ərazisində keçirilmədi. Seçicilərin çoxu seçki məntəqələrinə gəlməmişdi. Lakin nəticələr saxtaşdırıldı və A.Mütəllibov yenidən prezident "seçildi".

Xalqın rəğbətini qazanmağa çalışan birinci katib – prezidentin təşəbbüsü ilə sentyabrın 14-də artıq tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağıraraq özünün buraxıldığını bəyan etdi.

Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Mühafizəkarların cəhdlərinə baxmayaraq, müxalifətin təklifi ilə sessiya Qorbaçovun yeni ittifaq üçün iqtisadi baza yaratmaq məqsədi ilə irəli sürdüyü iqtisadi birlik haqqında vahid müqavilə bağlamaq təşəbbüsünə Azərbaycanın qoşulmasına etirazını bildirdi, Azərbaycanın başqa respublikalarla birtərəfli iqtisadi müqavilələr bağlamasına üstünlük verdi.

Noyabrın 14-də Moskva yaxınlığında Novo-Oqaryovoda yeddi respublikanın, o cümlədən Azərbaycanın rəhbərləri yeni dövlətlərarası birlik – "Suveren Dövlətlər İttifaqı"nı yaratmaq haqqında niyyətlərini bildirdilər. Lakin hazırlanmış müqaviləyə Qorbaçovdan başqa heç kim imza atmadı.

Demokratik qüvvələr düşmənlər tərəfindən müstəqil Azərbaycanı diz çökdürmək üçün təzyiqlərin artdığı şəraitdə iqtidarı

fəaliyyətsizlikdə təqsirləndirir, vətəndaşları hakimiyyətə tabe olmamağa çağırır, qəti tədbirlər görülməsini tələb edirdi. İqtidar artıq dövləti idarə edə bilmədiyini başa düşürdü. AXC nə vasitə ilə olur-olsun hakimiyyətə gəlməyə, iqtidar isə müəyyən güzəştlərlə hakimiyyəti əlində saxlamağa çalışırdı. İqtidarı və AXC-ni yaxınlaşdıran bir mühüm səbəb də vardı: onları xalq içərisində Heydər Əliyevin böyük siyasətə qayıtmasını tələb edənlərin sayının durmadan artması narahat edirdi. Sövdələşmədə AXC səsi az olduğundan sözünü keçirə bilmədiyi parlamenti buraxmağı, paritet əsasda Müvəqqəti Milli Şura yaratmağı, rəhbərliyini əlinə keçirəcəyinə əmin olduğu ordunun yaradılmasını, iqtidar isə belə güzəşt əvəzində sabitlik yaratmaq, yerlərdə möhkəmlənmək üçün təsərrüfatı idarəetmənin təşkili, yerli dövlət və hakimiyyəti idarəetmə orqanlarının yaradılması və ləğvi işində müstəqillik tələb edirdi. AXC Heydər Əliyevin nüfuzundan istifadə etmək üçün ona Milli Şuraya daxil olmağı təklif etmişdi, lakin rədd cavabı almışdı.

Oktyabrın 3-də prezident və demokratik qüvvələrin liderlərinin görüşündə Milli Şura yaradılması haqqında razılıq əldə olundu. Parlamentin üzvlərindən 43 nəfər Ali Sovetin sədr müavini Telman Orucovun rəhbərliyi altında gizli müşavirə keçirib, parlamenti buraxmaq təhlükəsi yaranarsa, prezidentə qarşı birləşməyi qərara almışdılar. Piketçilərin mühasirəyə aldığı parlament binasında oktyabrın 8-də keçirilən Ali Sovetin sessiyasında parlamenti müdafiə edən qüvvələrə ciddi zərbə vuruldu. T.Orucov vəzifəsini itirdi.

Prezident yerlərdə tərəfdarları ilə möhkəmlənmək üçün dövlət hakimiyyət və idarəetmə orqanlarının quruluşunu və fəaliyyətini təkmilləşdirmək adı ilə oktyabrın 18-də rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra hakimiyyəti başçıları vəzifəsi təsis etdi və bu vəzifəyə özünə dayaq hesab etdiyi adamları qoydu. Prezident idarəsi yaradıldı. Dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis olundu. İlk dövlət katibi akademik Tofiq İsmayılov təyin edildi. Lakin nə bu tədbirlər, nə də əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilsə də, dərin inflyasiya şəraitində heç bir real təsirə malik olmayan bəzi sosial güzəştlər A.Mütəllibovun mövqeyini möhkəmləndirə bilmədi. Milli Şura haqqında oktyabrın 30-da qəbul olunmuş Qanun parlamentin bir orqanı kimi nəzərdə tutulan bu şuraya əslində elə bir real səlahiyyət vermədi. Milli Şura 72 nəfər deputatdan təşkil olunmalı idi. Bu, cəmi 30-a qədər səsi olan müxalifətə yenə də üstünlük əldə etməyə imkan vermirdi.



Yuxarı Qarabağda Xocavənd azərbaycanlı kəndinin erməni quldurları tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar vəziyyətlə yerində tanış olmaq üçün gəlmiş bir neçə yüksək vəzifəli şəxsi, o cümlədən Dövlət katibi, daxili işlər naziri, Baş prokuror, habelə SSRİ Müdafiə Nazirliyi nümayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini oradan Ağdama gətirən vertolyotun noyabrın 20-də vurulub salınması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Noyabrın 26-da Ali Sovet Milli Şura haqqında qanuna yenidən baxdı və bu şuranın səlahiyyətlərini məhdudlaşdıran bəzi maddələri dəyişdirdi. Paritet əsasda 25 nəfər "demblok" nümayəndələrindən və 25 nəfər başqa deputatlardan ibarət Milli Şura yaradıldı.

1991-ci il dekabrın 8-də Brest şəhəri yaxınlığındakı "Viskuli" iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərləri "Müstəqil Dövlətlər Birliyi" (MDB) yaradılması haqqında müqavilə bağladılar. "Belovejsk sazişi" adlanan bu müqavilədə SSRİ-nin artıq bir beynəlxalq hüquq subyekti kimi mövcudluğuna son qoyulduğu elan edildi. Brest "üçlüyü" keçmiş SSRİ-yə daxil olan respublikaları da bu birliyə qoşulmağa dəvət etdi. Orta Asiya respublikaları və Qazaxıstan rəhbərləri Türkmənistanın Aşqabad şəhərində görüşüb MDB-yə daxil olmaq niyyətlərini bildirdilər. Dekabrın 21-də Qazaxıstanın Alma-Ata şəhərində Brest "üçlüyü", Aşqabad "beşliyi", Ermənistan, Moldova və Azərbaycan rəhbərlərinin görüşü oldu. Burada SSRİ mövcudluğunun dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında bəyannamə qəbul edildi. Alma-Ata görüşündə Azərbaycan prezidenti bir sıra müqavilələr imzaladı. Lakin Azərbaycan parlamenti onları təsdiq etməkdən imtina etdi.

Azərbaycan Respublikasında dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?"

Səsvermə hüququ olanların 95 faizdən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

1992-ci ilin mayında Milli Məclis Azərbaycan Respublikasının Dövlət himnini (musiqisi Ü.Hacıbəyov, sözləri Ə.Cavad), az sonra üçrəngli bayraq, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət gerbini təsdiq etdi.

Xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb şəraitdə fəaliyyət göstərməyə başlamışdı.

Azərbaycan Respublikasının müstəqilliyini dünya dövlətləri tanıdı. Onu ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya (10 aprel 1992-ci il) və başqa dövlətlər də tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyini artıq 116 dövlət tanıyırdı. 70 xarici dövlət ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradılmışdı. Azərbaycan Respublikası 14 beynəlxalq təşkilata üzv qəbul edilmişdi. O, 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatına, 1992-ci ilin fevralında Türkiyə, İran və Pakistan dövlətlərinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu. Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesini tənzimləyən Helsinki müqaviləsinin Yekun aktına, Yeni Avropa üçün Paris Xartiyasında irəli sürülən prinsiplərə tərəfdar oldu və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) tam hüquqlu üzvləri sırasına qəbul edildi. 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara qoşuldu.

Azərbaycanın Türkiyə, ABŞ, İran, Almaniya, Fransa, Böyük Britaniya və İrlandiya krallığında və b. ölkələrdə səfirlikləri açıldı.



# II FƏSİL

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ DAXİLİ SİYASİ VƏZİYYƏT VƏ HAKİMİYYƏT BÖHRANI (1991 – iyun 1993)

## § 1. Ermənistan-Azərbaycan müharibəsi. Siyasi hərc-mərclik və hakimiyyət uğrunda mübarizə

Əvvəl sovet, sonralar Rusiya hərbi qüvvələrinin köməyi ilə ermənilər Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqelər tutmuş, azərbaycanlıları buradan qovub çıxarmağa başlamışdılar. 1991-ci ilin sentyabrında Yuxarı Qarabağda qeyri-qanuni bir qurum, oyuncaq – Dağlıq Qarabağ Respublikası yaradılmışdı. Hətta 1991-ci ildə referendum keçirilmişdi, erməni icması buna tərəfdar çıxmışdı. Üzdəniraq, oyuncaq "respublikanın" ali sovetinə seçkilər də keçirilmişdi. Həmin il noyabr ayının 26-da Azərbaycan Respublikası DQMV statusunu ləğv etməyə məcbur oldu.

Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən ermənilər daha da azğınlaşdılar. 1991-ci ilin axırında Rusiya ilə Ermənistan arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" bağlandı.

Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" qanun qəbul etmişdi. Bu qüvvələrin ilk hissələri dekabrın 8-də cəbhəyə yola salınmışdı. İlk vaxtlar könüllülük prinsipi əsasında qurulmuş, təcrübəli hərbçiləri az olan orduda ciddi nizam-intizam yaratmaq mümkün deyildi. Hərbi hissələrə müxtəlif siyasi qüvvələrin təsiri böyük idi. Bəzi ictimai təşkilatların, məsələn AXC-nin, hətta ayrı-ayrı şəxslərin hərbi dəstələri vardı. Hərb sənətini mükəmməl bilən komandirlər çatışmırdı. Baş qərargahın işi pis qurulmuşdu. Hərbi hissələrə pozuculuqla məşğul olan satqınlar soxula bilmişdi. Güclü informasiya axınına yol verilirdi.

Orduda korrupsiya baş alıb gedirdi. Hərbi hissələrdən silah, sursat, yanacaq oğurlanır, hətta düşmənə satılırdı. Fərariliyə qarşı ciddi mübarizə aparılmırdı.

Noyabrın 19-da 22 rayon və şəhərdə özünümüdafiə batalyonları yaradılması haqqında əmr verildi. Əslində bu işə oktyabrda başlanmışdı. Qazax, Ağstafa, Ağdam, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Gədəbəy, Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində ərazi özünümüdafiə qüvvələri yaradıldı. Bu batalyonların tərkibi yerli əhalidən formalaşırdı. Bu qüvvələr müvəqqəti hesab olunurdu və sonradan ordu hissələri çağırışçılar hesabına komplektləşdiriləndə könüllülər tədricən ehtiyata buraxılacaqdı. Özünümüdafiə batalyonlarının komandirləri, onların müavinləri rayonların hərbi komissarları tərəfindən seçilir, icra hakimiyyəti başçılarının razılığı ilə təyin edilir və Müdafiə Nazirliyinə təqdim olunurdu. Bu batalyonların komandirləri icra başçılarının müdafiə məsələləri üzrə müavinləri idilər. Özünümüdafiə batalyonlarına rəhbərlikdə ikili tabeçilik kimi yolverilməz bir vəziyyət yaranmışdı. Respublika prezidenti icra başçıları vasitəsilə ordunu əlində saxlamaq istəyirdi.

Yuxarı Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin çoxunda əsasən 1992-ci ilin fevralında yerli əhalidən ibarət özünümüdafiə bölmələri təşkil olunmuşdu. Muğanlı, Əmirallar, Malikli, Günəşli, Orta Güneypəyə, Malıbəyli, Gülablı, Çərəkdar, Xatənbəyli, Tuğ kəndlərində müstəqil hərbi hissələr yaradılmışdı.

Sərhəd rayonlarında müdafiə istehkamları, kəşfiyyat və rabitə şəbəkələri qurulması işi də özünümüdafiə batalyonlarına tapşırılmışdı. Hərbi vəziyyətin kəskinləşməsi ilə əlaqədar sonralar, 1992-ci ilin fevralında Ağcabədi və Beyləqanda da özünümüdafiə batalyonları yaradıldı. Lakin təchizatda, səfərbərlikdə ciddi qüsurlara yol verilirdi. Yerli imkanlar hesabına saxlanılan batalyonların silahla, hərbi işə yaxşı bələd olan zabitlərlə təmin olunması yarıtmaz vəziyyətdə idi. İkili tabeçilik də onların fəaliyyətinə mənfi təsir göstərirdi.

Lazımi döyüş qabiliyyəti, təchizatı olmayan və müdafiə taktikası seçməyə məcbur olan bu yerli özünümüdafiə qüvvələri xeyli dərəcədə yaxşı silahlanmış və təlim görmüş düşmənə qarşı, təbii ki, döyüşə bilmir, tez-tez məğlubiyyətə uğrayırdılar. Formal şəkildə ordu bölmələri təşkil olunsa da, onun nə lazımınca silahı və sursatı, nə də ərzaq və geyimi vardı. Təlim keçirilmirdi, könüllülük prinsipi həddən ziyadə siyasiləşmiş cəmiyyətdə orduya müxtəlif amallı və əqidəli adamların gəlməsinə səbəb olmuşdu. Orduda elə ilk günlərdən xaos yaranmağa



başlamışdı. Müxalif qüvvələr də silahlı qüvvələr yaradılmasına öz səriştəsiz, populist hərəkətləri ilə mane olurdu. Onların tələbləri ilə Parlament silahlı qüvvələri 3 aya yaratmaq üçün vaxt vermişdi. Ə.Elçibəy Prezidentə "Qarabağ problemini həll etmək üçün 20-25 gün" vaxt verilməsini tələb edirdi. Müdafiə Nazirliyini ələ keçirmək istəyən siyasi qüvvələr – Rəhim Qazıyev, Etibar Məmmədov, Fəhmin Hacıyev və b. buraya hərbçinin deyil, mülki şəxsin rəhbər təyin olunmasını tələb edir, piketlər keçirirdilər. Müdafiə nazirlərinin tez-tez dəyişdirilməsi ordu quruculuğuna ağır zərbələr vururdu.

1991-ci il oktyabrın 9-da "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq hərbi obyektləri, silah və texnikanı inventarlaşdırıb müsadirə etmək tələblərinə baxmayaraq, rus hərbçiləri mümkün olan hər bir şeyi respublikadan çıxarmağa, şəxsi adamlara satmağa, məhv etməyə çalışırdılar.

Bu təxribatlardan biri də Səngəçal qəsəbəsindəki aerodromda hərbi vertolyotları yandırmaq cəhdi oldu. Razılığın əksinə olaraq, Sitalçay, Kürdəmir və Dəllərdə yerləşən aviasiya hissələrindən təyyarələr aparıldı, hərbi aerodrom dağıdıldı, qiymətli hərbi cihazlar məhv edildi. Xəzər Donanması gəmilərində də avadanlığa, yerüstü obyektlərin, demək olar ki, hamısına xəsarət yetirilmiş, sökülüb dağıdılmışdı.

Belə bir şəraitdə erməni hərbi hissələri Rusiya qoşununun köməyi ilə azərbaycanlılar yaşayan kəndlərə hücumu genişləndirirdi. Onlar 1992-ci il yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndlərini ələ keçirdilər. Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. Yeni yaranmağa başlayan Azərbaycan ordusunun hissələri, xüsusi təyinatlı milis və özünümüdafiə dəstələrinin müqavimət tədbirləri nizamsızlıq, əlaqəsizlik, satqınlıq üzündən baş tutmurdu. Azərbaycan ordusunun Şuşanın mühasirəsini Daşaltı tərəfdən yarmaq üçün keçirdiyi əməliyyat da tam uğursuzluqla nəticələndi. Satqın bələdçilər bir taqım əsgər və zirehli maşınları minalanmış əraziyə saldılar, ordu böyük tələfat verdi, 33 nəfər həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı.

Fevralın ortalarında düşmən növbəti dəfə Qarabağlı kəndinə güclü hücuma başladı. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər kəndi ələ keçirib onun 92 nəfər müdafiəçisini, 54 sakinini vəhşicəsinə öldürərək silos quyularına atdılar. Qalan əhali əsir götürüldü.

**Xocalı faciəsi.** Hakimiyyət boşluğunun yaranması. Fevralın sonunda Xocalı faciəsi törədildi. Şəhər uzun müddət mühasirədə olmuş, Respublika rəhbərliyinin cinayətkar laqeydliyi üzündən müdafiə işləri lazımınca təşkil edilməmişdi. Xocalı ərazi özünümüdafiə batalyonu heç bir zirehli texnika ilə silahlanmamışdı. Ona Şıx briqadası batalyonunun cəmi 20 nəfərdən ibarət minaatanlar batareyası kömək edirdi.

Fevralın 25-də axşam saat 9-da erməni hərbi birləşmələri, Rusiya ordusunun Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı, xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar uzun müddət mühasirədə olan Xocalıya hücum etdilər. İlk zərbə şəhərin yaxınlığındakı hava limanına vuruldu. Şəhərin müdafiəçiləri azsaylı və pis silahlanmış olsalar da, mərdliklə vuruşdular. Xüsusi təyinatlı milis dəstələrinin komandiri, milis mayoru Əlif Hacıyev döyüşdə xüsusilə fərqləndi. Onun rəhbərlik etdiyi 22 nəfərlik dəstə düşmənin hava limanına güclü hücumlarını üç dəfə dəf etdi. Lakin qüvvələr bərabər deyildi. Ə.Hacıyev vəziyyətin çıxılmaz olduğunu görəndə hava limanının dispetçer məntəqəsini partladaraq düşmən əlinə keçməsinə imkan vermədi. Sonrakı döyüşlərdə igid komandir yaralanıb qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Güclü artilleriya hazırlığından sonra düşmən tankları, zirehli maşınlar şəhərə soxuldu, küçə döyüşləri başlandı. Cəsur komandir Tofiq Hüseynovun rəhbərlik etdiyi batalyonun 150-ə qədər döyüşçüsü qat-qat güclü olan yağı düşmənlə qəhrəmancasına vuruşdular. Tofiq düşmənlə üç gün, üç gecə son nəfəsinədək döyüşdü, yağıları azdırıb onlarca adamın mühasirədən çıxmasına imkan yaratdı. Axırda özü mühasirəyə düşdü. O, düşmənin təslim olmaq tələbinə məhəl qoymayıb son gülləni özünə vurdu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Xocalı döyüşündə yüzlərlə adam həlak oldu, yaralandı, əsir götürüldü, şəhər yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar və uşaqlar şəhərin şimal-şərq istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gecəni ayaqyalın, başıaçıq meşədə keçirən qadınların çoxunu don vurdu, yaralıların bir hissəsi tab gətirməyib öldü. Qalanları səhərisi gün Xocalıdan 6-7 km aralı Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda durmuş erməni faşistləri tərəfindən güllələnib edildilər. Yüzlərlə köməksiz qadın, qoca, uşaq həlak oldu. Xilas olaraq Abdalı-Gülablı kəndinə getməyə çalışan qaçqınları



da düşmən mühasirəyə alıb atəşə tutdu. Çoxları əsir götürüldü. Erməni quldur dəstələri yaralılara işgəncə verir, meyidləri eybəcər hala salır, baş dərisini soyur, qadın və qızları təhqir edirdilər.

Xocalı qırğını XX əsrin ən böyük faciələrindən biri oldu. Rusiyanın imperiyapərəst dairələri Azərbaycanda öz təsirini saxlamaq üçün təxribatlara rəvac verdi. Lakin uzun müddət düşmən əhatəsində qalmış şəhərə lazımi kömək göstərməyən, erməni və rus hərbi birləşmələrinin geniş hücuma hazırlığı haqqında məlumat aldıqdan sonra belə əhalini təhlükəsiz yerlərə köçürmək üçün təcili tədbirlər görməyən respublika rəhbərliyi, habelə hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamağa çalışan siyasətbazlar da bu faciədə günahkar idilər. Xocalı faciəsi ölkədə siyasi gərginliyi daha da artırdı. Ali Sovetin binası qarşısında çoxminli izdihamlı mitinqə toplaşmış xalqın tələbi ilə parlamentin 1992-ci il martın 5-6-da keçirilən fövqəladə sessiyasında Mütəllibov istefa verməyə məcbur oldu.

Hakimiyyətdə boşluq yaranmışdı, onu ələ keçirmək, revanş almaq istəyən qüvvələr siyasi vəziyyəti daha da gərginləşdirməyə çalışırdılar. Parlament spikeri Yaqub Məmmədovun prezident səlahiyyətlərini daşıdığı dövrdə elan olunmuş prezident seçkiləri bu mübarizəni daha da qızışdırmışdı.

Səbr kasası dolmuş xalq Heydər Əliyevin hakimiyyətə qayıtmasına xilas yolu kimi baxır, Konstitusiyanın 121-ci maddəsinin prezident seçilməsi üçün yaş senzi müəyyən edən 2-ci bəndini dəyişməyi tələb edirdi. Mərkəzi Seçki Komissiyasına bu məzmunda minlərlə adamın imzası olan saysız-hesabsız protokollar və müraciətlər daxil oldu. Aprelin 25-dən bu tələblə respublikanın hər yerində piketlər, mitinqlər keçirilirdi.

İctimai bazası zəif olan, lakin cəbhələrdə vəziyyətə əsaslı təsir etmək imkanına malik silahlı dəstələrə arxalanan qüvvələr çəkişməsinin növbəti qurbanı Şuşa və Laçın oldu.

Şuşaya güclü hücum gözlənilirdi. Vəziyyət 1992-ci ilin martında Müdafiə Şurasında müzakirə olunmuşdu. Lakin əməli iş, demək olar ki, görülmürdü. Şəhər uzun müddət mühasirədə qalmışdı. Lazımi silah və sursatlarla təmin olunmurdu. Rusların 336-cı polkunun 180 hərbi mütəxəssisinin ağır texnika ilə birlikdə ermənilər tərəfə keçməsi məlum idi. Şuşanın müdafiəsində isə cəmi 24 ağır texnika dururdu. Düşünülmüş müdafiə planı yox idi.

Milis silahlı qüvvələri komandanlığı ilə ordu hissələri komandanlığı arasında tabeçilik münasibətləri müəyyənləşdirilmə-

mişdi. 1992-ci ilin martında müdafiə naziri vəzifəsini ələ keçirmiş, Rusiyanın imperiyapərəst qüvvələrinin əlində oyuncaq olan Rəhim Qazıyev hakimiyyəti tutmaq, ölkədə hərbi diktatura yaratmaq üçün siyasi vəziyyəti daha da gərginləşdirmək məqsədilə burada vahid komandanlıq yaranmasına mane olurdu.

Bununla yanaşı, ordu zabitlərinin çoxunun hazırlıqsız, nizam-intizamsız olması da uğursuzluqlarda az rol oynamamışdı. Hərbi rabitə bərbad vəziyyətdə idi. Hücum ərəfəsində xeyli döyüşçü qısa müddətli məzuniyyətə buraxılmışdı. Şuşa batalyonunda ştatda 1500-ə yaxın döyüşçü olduğu halda şəhərdə cəmi 500 döyüşçü vardı.

Mayın 7-dən 8-ə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu. Bu hücumda düşmənin 80-ə yaxın T-72 tankı, 6000-ə yaxın döyüşçüsü iştirak edirdi. Ermənilərin tərəfində xaricdən muzdla tutulmuş döyüşçülər də vuruşurdu.

Qəribə burasıdır ki, ermənilərin hücumundan bir qədər əvvəl Azərbaycana məxsus hərbi texnika Şuşadan çıxarılmış, xüsusi milis dəstəsi döyüşçüləri şəhəri tərk etmişdilər. Minalanmış sahələr zərərsizləşdirilmişdi. Mayın 9-da səhər saat 5-də şəhər ətrafında olan postların əksəriyyəti artıq tutulmuşdu. Ön mövqelərdə duran əsgərlər düşmənə qarşı qəhrəmanlıqla vuruşurdular. Lakin şəhərin müdafiəçilərinə köməklik göstərilmədi. Axşama yaxın "köməyə gələn" vertolyot asfalt zavodu yaxınlığında səhvən öz mövqelərimizi atəşə tutdu, bir PDM-i məhv etdi.

"Qayabaşı" adlanan yerdə mövqe tutan müdafiə batalyonunun əskərləri son nəfəsədək vuruşdular. 40 nəfər şəhid oldu. Mühasirəyə düşüb əlacsız qalmış 38 döyüşçü özünü öldürdü. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. 30-40 nəfərdən başqa şəhərdə heç kim qalmamışdı. Axşam onlar da müdafiəni dayandırmağa məcbur oldular. Şuşa süqut etdi. Döyüşlərdə 155 nəfər şəhid oldu, 167 nəfər yaralandı.

Şuşanın süqutu, mayın ortalarında milli hərbi hissələrin Laçını tərk etməyə başlaması siyasi vəziyyəti daha da gərginləşdirdi. Tərəfdarları eks-prezidenti mayın 14-də parlament sessiyasında yenidən öz vəzifəsinə qaytardılar. A.Mütəllibov dərhal ölkədə fövqəladə vəziyyət tətbiqi haqqında fərman verdi.

Lakin demokratik qüvvələr parlamentin 14 may tarixli qərarını konstitusiyaya zidd hesab etdilər və onu yenidən totalitarizmə qayıdış kimi qiymətləndirdilər. Bakıda AXC-nin qərargahı qarşısında etiraz mitinqi başlandı. Rəsmi hökumət isə fövqəladə vəziyyət haqqında qanuna uyğun tədbirlər həyata keçirə bilmədi. AXC-yə tabe olan hərbi hissələr cəbhə bölgələrindən Bakıya gətirilmişdi. Xalq Cəbhəsi Parlamentə öz qərarını ləğv etmək tələbi ilə ultimatum verdi. Ultimatum müddəti qurtarandan sonra mitinqçilər hərbçilərin köməyi ilə Ali Sovetin binasına doğru yürüş etdilər. Yürüşün önündə zirehli texnika gedirdi. Silahlılar "Moskva" mehmanxanası və Ali Sovet binası üstündəki atəş nöqtələrini susdurdular. Toqquşma nəticəsində bir adam öldü, iki nəfər yaralandı. Cəbhə tərəfdarları, demək olar ki, müqavimətsiz Parlament binasına daxil oldular.

Müxalifət qüvvələri respublika teleradio şirkətini, digər mühüm obyektləri, habelə Prezident aparatı binasını ələ keçirdilər. Parlamentin 18 may sessiyasında Xalq Cəbhəsi liderlərindən biri olan İsa Qəmbər Respublika Ali Sovetinin sədri seçildi. Bu sessiyada parlament səlahiyyətinin Milli Məclisə verilməsi haqqında qərar qəbul edildi.

1992-ci il iyunun 7-də Azərbaycan Respublikası Prezidentliyinə seçkilər keçirildi. Respublikanın Prezidenti Azərbaycanın Xalq Cəbhəsinin sədri Əbülfəz Elçibəy oldu.

**Siyasi böhranın dərinləşməsi.** Xalq Cəbhəsinin hakimiyyəti ələ keçirməsi bu təşkilatın daxildən parçalanmasını və zəifləməsini daha da sürətləndirdi. AXC fəlakətinin əsas səbəbi xalqın rifahı naminə cəmiyyəti yeniləşdirmək yollarını göstərən konstruktiv proqramın olmaması, əsasən, populistlərə arxalanıb, ağıllı siyasətçiləri, aparıcı ziyalıları özündən uzaqlaşdırması idi.

Bu zaman siyasət səhnəsinə onlarla yeni partiya və hərəkat atılmışdı. Hələ 1991-ci ilin payızında "Azərbaycan Qarabağa nicat cəmiyyəti", "Azərbaycan islam partiyası", "Vahid Azərbaycan uğrunda mübarizə ittifaqı", "Azərbaycanın Gənc Sosial-Demokratik Təşkilatı", AXC yanında "Gənc Türklər Təşkilatı", 1992-ci ilin yayında "Azərbaycan Milli İstiqlal Partiyası", "Türk Dünyası Birliyi Partiyası", "Çağdaş Turan Partiyası" yaranmış, həmin ilin payızında "Müsavat" partiyasının bərpa qurultayı keçirilmiş, "Yeni Azərbaycan Partiyası" təşkil edilmiş, "Boz Qurd" partiyası fəaliyyətə başlamışdı. 1993-cü ilin yayında "Azərbaycan Demokratik İstiqlal", "Azərbaycan Xalqlarının Bərabərliyi" partiyaları təşkil olunmuşdu.

1993-cü ilin ortalarında respublikada 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyət göstərirdi. Onların arasında xaricdəki soydaşlarla mədəni əlaqələr – "Vətən" cəmiyyəti, Azərbaycan Mədəniyyət Fondu, "İnkişaf" assosiasiyası,

xüsusən onun Z.Tağıyev adına xeyriyyə fondu, "Bakılı" cəmiyyəti, "Bakı incəsənət mərkəzi" və b. seçilirdi. Milli azlıqların ictimai-mədəni-siyasi təşkilatları, o cümlədən "Rus" icması, "Sodrujestvo" cəmiyyəti, "Slavyan Mədəniyyət mərkəzi", "Samur" ləzgi milli mərkəzi, "Avar cəmiyyəti", kürd, tat, tatar, talış və s. icmaları, habelə müxtəlif dini icmalar formalaşmağa başladı.

1992-ci ilin fevralında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası təsis edildi.

Əhalinin təşkilatlanma tələbinin yüksəldiyi belə bir dövrdə meydana gəlmiş siyasi qüvvələrin marağını nəzərə almamaq AXC-Müsavat cütlüyünün ciddi qüsuru idi.

Xalq Cəbhəsi-Müsavat hakimiyyəti dövründə respublikada siyasi və iqtisadi böhran dərinləşdi. İdarəçilik işinə əsasən təcrübəsiz, siyasi cəhətdən qeyri-yetkin adamlar gətirildi. Dövlətçilik dağılmağa başladı.

Hakimiyyəti ələ keçirənə qədər addımbaşı demokratiyadan dəm vuranlar rəhbərliyi müxtəlif siyasi ambisiyalı fərasətsiz siyasətbazlara verməklə güc orqanlarına nəzarəti, demək olar ki, itirmiş, ölkədə qanunsuzluq, hərki-hərkilik daha da dərinləşmişdi. Ən təhlükəli hal orduya rəhbərliyin əldən verilməsi idi. Rəhim Qazıyev ordudan öz məqsədi üçün istifadə etməyə çalışırdı. Daxili İşlər nazirliyini ələ keçirmiş İsgəndər Həmidov öz tərəfdarları hesabına polisin sayını 10 min nəfərdən çox artırmışdı.

"SSRİ hərbi əmlakının bölüşdürülməsi haqqında" 1992-ci il 15 may tarixli Daşkənd müqaviləsinə əsasən 4-cü ordunun silahlarının təhvil verilməsi Azərbaycanın ordu təchizatını nisbətən yaxşılaşdırdı. Operativ-faktiki işlər aparıldı. Bakı Ali Ümumqoşun (1991, 17 dekabr) və Ali Hərbi Dənizçilik məktəbləri (1992, 3 iyun) Müdafiə Nazirliyinə verilmişdi. Bakı Ali Ümumqoşun Komandirləri məktəbi Bakı Ali Birləşmiş Komandirlər məktəbi adlandırıldı. Kiçik hərbi mütəxəssislərin hazırlanması üçün iyunun 1-dən Goran təlim mərkəzi bazası ayrıldı.

Azərbaycan hərbi hava qüvvələri Səngəçalda yerləşən MDB aviasiya hissəsi texniki bazasında yaradıldı. Hissənin texnikası hələ 1991-ci ilin sonlarından çıxarılmağa başlamışdı. Lakin burada xidmət edən azərbaycanlı zabitlərin sayıqlığı sayəsində hissədə olan 9 Mİ-24 vertolyotunun hamısı respublikada qaldı. Sonra MDB ölkələri rəhbərləri müşavirəsinin qərarına əsasən hissənin vertolyotları və texnikası Azərbaycan Müdafiə Nazirliyinə verildi. Fevralın 20-də ilk Azərbaycan aviaeskadrilyası təşkil edildi və həmin gün Azərbaycan tarixinə hərbi hava qüvvələri günü kimi daxil oldu. 1992-ci ilin iyununda bu eskadrilya əsasında ilk aviapolk yaradıldı.

1992-ci il aprelin 7-də Azərbaycan Respublikası hərbi dəniz qüvvələri qərargahı, mühafizə və təminat rotası yaradıldı.

MDB qoşunları komandanlığı hərbi dəniz qüvvələri Baş qərargahı ilə danışıqlar nəticəsində aprelin 15-də "Xəzər donanması qüvvə və vasitələrinin bir hissəsinin Azərbaycan Respublikasına verilməsi şərtləri və prinsipləri haqqında protokol" imzalandı.

Donanmanın qüvvə və vəsaitinin 25 faizi Azərbaycan Respublikasının ixtiyarına keçdi. İyunun 26-da "Bakı" keşikçi gəmisində Azərbaycan Respublikasının dövlət bayrağı qaldırıldı.

Lakin respublikada yenə də Müdafiə Nazirliyi sturukturuna daxil olmayan müxtəlif müdafiə komitələrinə və şuralarına aid çoxlu silahlı dəstələr fəaliyyət göstərirdi.

Düşmənin himayədarları tərəfindən daha yaxşı silahlandırılmasına, təcrübəli hərbçilərə malik olmasına baxmayaraq, Azərbaycanın igid, qeyrətli oğulları qəhrəmancasına döyüşür, ana vətəni son damla qanlarına qədər müdafiə edirdilər. 1992-ci ildə yay hərbi əməliyyatları yeni yaranan Azərbaycan Ordusu üçün müvəffəqiyyətli oldu.

Azərbaycan Ordusu xüsusi təyinatlı polis dəstələrinin köməyi ilə vətən torpaqlarının bir hissəsini düşməndən təmizləyə bildi. 1992-ci il iyunun 12-də Azərbaycan Ordusu Ağdərədə irimiqyaslı hücuma başladı. İyul-avqust aylarında Azərbaycan Ordusunun Tərtər və Ağdam bölgələrinin qəhrəman döyüşçüləri Ağdərə rayonunu, demək olar ki, düşməndən təmizlədi. Goranboy bölgəsinin düşmən əlinə keçmiş torpaqları tam azad edildi. Avqustun əvvəllərində erməni hərbçiləri Başkənd yaşayış məntəqəsindən qovuldu.

Avqust ayında Azərbaycan Ordusunun cənub bölmələri də hücuma keçib ermənilərin Xocavənddəki böyük silah və sursat anbarını partlatdılar. Hərbi hissələr iki tərəfdən hücum edib düşmən əlinə keçmiş kəndləri azad etməyə, Ermənistanla Yuxarı Qarabağ arasındakı "dəhliz"i xeyli daraltmağa müvəffəq olmuşdular. Düşmən ciddi müqavimət göstərir, qanlı döyüşlərdə torpaqlar, yaşayış məntəqələri dəfələrlə əldən-ələ keçirdi.

Azərbaycan Ordusu hərbi hissələrini Yuxarı Qarabağı erməni quldurlarından təmizləmək əməliyyatından yayındırmaq üçün Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının sərhəd bölgələrinə etdiyi güclü hücumlar da müvəfəqiyyətlə dəf olunurdu.

Müstəqil daxili və xarici siyasət yeridən Azərbaycan Respublikasına təzyiq göstərib onu MDB-yə qoşmaq, ordularını yenidən Azərbaycana yeritmək üçün Rusiya artıq açıqca erməni tərəfini dəstəkləməyə başlamışdı. İmperiyapərəst dairələrin əlaltıları olan müdafiə naziri Rəhim Qazıyev və guya onu neytrallaşdırmaq üçün prezidentin korpus komandiri və Qarabağda səlahiyyətli nümayəndə təyin etdiyi, "Milli Qəhrəman" adı verdiyi Surət Hüseynov, hərəsi bir tərəfdən, cəbhədə təxribat işini gücləndirdilər, ordunun müvəfəqiyyətlə gedən əməliyyatları dayandırıldı. Geriləmə başladı. Sentyabrın əvvəllərində Ağdam cəbhəsində böyük strateji əhəmiyyəti olan Abdal-Gülablı, Paprəvənd, Çinli, Yeddixırman yüksəklikləri xəyanət nəticəsində itirildi. Ordu quruculuğuna operativ rəhbərlik etmək üçün 1992-ci ilin sentyabrında Müdafiə Nazirliyində yaradılmış Hərbi Şura da vəziyyəti nizamlaya bilmirdi.

Ermənistanın silahlı qüvvələri 1992-ci il dekabrın 10-da Azərbaycanın Qubadlı və Zəngilan rayonlarına soxulub bir neçə kəndi ələ keçirdi və yandırdı. Eyni zamanda düşmən Tovuz və Gədəbəy istiqamətində hücum etdi. Azərbaycan Ordusu və polis qoşunları onu geri oturda bildi. Cavab olaraq Ermənistan ərazisindəki hərbi bazalar atəşə tutuldu.

Lakin düşmən öz himayədarlarının hərbi köməyi ilə yenidən güclü hücuma keçdi. 1993-cü il fevralın 5-ə keçən gecə Yuxarı Qarabağda Ermənistan ekspedisiya korpusu Rusiyanın 7-ci ordusu 128-ci motoatıcı alayının və muzdla tutulmuş əsgərlərin, əsasən, kazakların iştirakı ilə Ağdərə bölgəsinə hücuma başladı. Ağdam bölgəsinin Şelli və Erki istiqaməti güclü atəşə tutuldu. Canyataq və Gülyataq kəndlərinə düşmən həmləsi gücləndi. Bir az əvvəl Rusiya açıq şəkildə ultimativ formada Azərbaycana bildirmişdi ki, o, ya rus qoşununun köməyindən istifadə edib MDB-yə üzv olmalı, ya da yalnız öz ordusuna arxalanmalıdır. Azərbaycan dövləti bu təklifdən imtina etdi. Qəsbkarlar martın 10-dək Ağdərə bölgəsinin Ağdərə şəhərinə qədər bir çox yaşayış məntəqələrini ələ keçirdilər. Martın axırlarında düşmən həm Ermənistan, həm də Ağdərə tərəfdən Kəlbəcəri güclü atəşə tutdu. Rayonun müdafiəsi təşkil edilməmişdi, əksinə, hərbi bölmə və texnikanın bir hissəsi rayondan çıxarılmışdı. Bu, bir tərəfdən, satqın ordu rəhbərlərinin, ilk növbədə Surət Hüseynovun Rusiya imperiyapərəst qüvvələrinə nökərçilik etməsi, başqa tərəfdən, respublika rəhbərliyinin Kəlbəcərə açıq-aşkar Ermənistan ərazisindən hücum ediləcəyinə inanmamasının nəticəsi idi. Çünki Ermənistan Azərbaycana qarşı müharibə



aparsa da, aşkar şəkildə bunu etiraf etmir, müharibənin guya Dağlıq Qarabağ yaraqlıları tərəfindən aparıldığını iddia edirdi. Bu addım Ermənistanın bilavasitə işğalçı olduğunu sübuta yetirirdi. Lakin böyük dövlətlərin hadisələrə birtərəfli, subyektiv münasibəti və ermənilərin dünya ictimaiyyətini aldatmaq, azdırmaq sahəsində "uğurları" o həddə çatdı ki, Ermənistan açıq-aşkar işğalçılıq addımı atmaqdan da çəkinmədi.

Aprelin 3-də Kəlbəcər düşmənin tərəfindən işğal olundu. Azərbaycan silahlı qüvvələri geri çəkilərkən respublika rəhbərliyinin laqeydliyi üzündən əhalinin hamısını bölgədən vaxtında çıxarmaq mümkün olmadı. 15 min nəfərə qədər sakin erməni faşistlərinin əlinə keçdi. Ermənilər işləyə bilməyən qocaları, uşaqları yerindəcə güllələyirdilər. Evlər, müəssisələr, təsərrüfatlar qarət edilir, mal-qara sürülüb aparılırdı.

AXC-Müsavat iqtidarı, əvvəlki iqtidar kimi, səriştəsiz xarici siyasəti ilə Azərbaycanın beynəlxalq mövqelərini daha da zəiflətdi. Doğrudur, Azərbaycan Respublikası 1992-ci ilin iyununda Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Birliyinin təsisçilərindən biri olmuş, 1992-ci ilin iyulunda 1975-ci il Helsinki Yekun Aktına, 1992-ci il Helsinki sənədinə qoşulmuşdu. 1992-ci ilin yazında ATƏM-in Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün Minsk qrupu təşkil edilmişdi. Mövcud iqtidar isə bu geosiyasi məkanda və respublikanın sərvətlərində marağı olan bütün xarici siyasi qüvvələri nəzərə alıb, qarşılıqlı şəkildə neytrallaşdırmaq əvəzinə məsuliyyətsiz bəyanatlar verir, qonşu dövlətlərlə münasibətləri daha da kəskinləşdirirdi. Azərbaycan Respublikası Rusiya kəşfiyyatçılarının və hərbi diplomatlarının əlində oyuncağa çevrilmişdi. Azərbaycanı Ermənistanı blokadaya salmaqda günahlandıran ABŞ konqresi 1992-ci ilin oktyabrında "Azadlığı müdafiə aktı"na 907 saylı əlavə ilə Azərbaycana dövlət səviyyəsində yardım göstərilməsinə ciddi məhdudiyyətlər qoydu.

Bu hadisələr iqtidarı tam nüfuzdan saldı.

## § 2. Vətəndaş müharibəsi vəziyyəti. Qurtuluş hərəkatının başlanması

Xalq bütün ümidini iqtidarın hər vəchlə hakimiyyətdən uzaqlaşdırmağa çalışdığı Naxçıvan MR Ali Məclisinin sədri, dünyada ağıllı və tədbirli bir siyasətçi kimi tanınmış Heydər Əliyevə bağlamışdı.

Fəaliyyətinin ilk dövründə xalqın azadlıq mübarizəsində iştirak edən AXC Heydər Əliyev tərəfindən dəstəklənirdi. Lakin hakimiyyəti ələ keçirəndən sonra AXC bu böyük şəxsiyyətin xalq içərisindəki nüfuzundan qorxaraq, ona qarşı mübarizəyə başladı.

1992-ci ilin iyunundan Naxçıvan MR-ə elektrik enerjisi verilməsi dayandırıldı, iyul ayından da buraya qatarların hərəkəti kəsildi, Naxçıvan MR blokada vəziyyətinə düşdü.

Heydər Əliyev çox ağır bir şəraitdə Naxçıvan MR-i müvəffəqiyyətlə idarə edirdi. 1992-ci ilin mart ayında S.Dəmirəl ilə görüşüb danışıqlar apardı. Türkiyə Naxçıvana ərzaq, toxum, lazımi avadanlıq göndərdi. Naxçıvan MR Türkiyə elektrik şəbəkəsinə qoşuldu. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında Sədərək-Dilucu "Ümid" körpüsü açıldı. 1992-ci ilin avqustunda Heydər Əliyev İran İslam Respublikasının prezidenti ilə görüşüb Naxçıvanın ehtiyaclarının ödənilməsi ilə bağlı razılaşmalar əldə etdi. Naxçıvanı İranla birləşdirən yeni körpü açıldı. Naxçıvana İrandan elektrik enerjisi verildi.

Heydər Əliyevin rəhbərliyi altında Muxtar Respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı. İqtisadi islahatlar keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı. Hərbi quruculuq məsələlərinə xüsusi diqqət yetirildi. Keçmiş sovet ordusunun bu ərazidəki bütün silahları və texnikası alınıb Milli Ordu hissələrinə verildi.

Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Naxçıvan MR-də hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. 1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsi yerli qurumlarına məxsus silahlı dəstələr Daxili İşlər Nazirliyi binasını, televiziya studiyasını ələ keçirdi. Qiyamçılar televiziya ilə xalqa müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verdilər.



Lakin naxçıvanlılar onları müdafiə etmədilər. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Silahlılar dövlət idarələrindən qovulub çıxarıldı. Naxçıvan MR Ali Məclisinin sessiyası iqtidarın bu respublikanın statusunu ləğv etmək kimi məsuliyyətsiz cəhdini də rədd etdi.

Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördüyü halda iqtidarda olan və olmayan Xalq Cəbhəsi üzvləri, habelə hakimiyyəti itirmiş qüvvələr və onların əlaltıları arasında didişmə, satqınlıq, xəyanət yolu ilə, hətta Azərbaycanın müstəqilliyi bahasına hakimiyyəti ələ keçirmək cəhdləri baş alıb gedirdi. Güc orqanlarına nəzarəti ələ almaq üçün Rəhim Qazıyev və Surət Hüseynovun orduya, İsgəndər Həmidovun Daxili İşlər Nazirliyinə rəhbərlikdən uzaqlaşdırılması siyasi gərginliyi daha da artırdı. Müxalifət-iqtidar qarşıdurması siyasiləşmiş orduya, cəbhədəki vəziyyətə xüsusən mənfi təsir edirdi.

Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan bir qrup zabit "hərbi birlik" yaratmışdı. Onlara Surət Hüseynov rəhbərlik edirdi. 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

Parçalanma prosesi başlanmışdı. Bu vaxt Əlikram Hümbətov ona tabe olan silahlı qüvvələrdən istifadə edib cənub rayonlarında hakimiyyəti ələ almağa, "respublika" yaratmağa çalışırdı. "Ləzgistan dövləti" qurmaq xülyasında olan separatçı "Sadval" təşkilatının silahlı quldurları şimal-şərq bölgəsində təxribatlar törədirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökumət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. İki qardaş üz-üzə dayandı. 709 saylı hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar daha fəal hərəkət etdilər, onlar qan tökmək istəməyən qvardiyaçıları şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər. Qırğında 35 nəfər həlak oldu, 135 nəfər yaralandı. 1200 döyüşçü, habelə respublika prokuroru girov götürüldü. Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar. İyunun 14-də Navahı yaxınlığında ordular üz-üzə dayandı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün oldu. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular.

Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Respublikanın müstəqilliyini əlindən almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr, onların yerli əlaltıları iqtidarın fərasətsizliyindən məharətlə istifadə edir ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışırdılar. Bununla yanaşı xalqın sağlam qüvvələrinə arxalanan Qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında toplaşırdı. Xalqın nümayəndələri, qabaqcıl ziyalılar dəfələrlə Naxçıvana gedib onun yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı – alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişlənirdi.

Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. Yeni Azərbaycan Partiyasının bəyanatında (21 noyabr 1992-ci il) qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial yönümlü iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar uğrunda mübarizə aparmaqdan ibarətdir.

Heydər Əliyev Azərbaycanda yenidən böyük siyasətə qayıtmaq təkliflərini qəbul etməsə də, müdrik məsləhətləri ilə xalqı yaxınlaşan böyük fəlakətdən qurtarmaq üçün iqtidara, siyasətçilərə düzgün yol göstərməyə çalışırdı.

AXC-Müsavat iqtidarı uzun müddət bu məsləhətlərə məhəl qoymayıb öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırdı. Vətəndaş müharibəsi üçün zəmin yarandı. Başlanmış bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

Heydər Əliyev Azərbaycanda vətəndaş müharibəsini dayandırmaq üçün siyasi manevrlər etdi. Gəncədə danışıqlar aparmaqla hərbi müxalifəti neytrallaşdırdı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş



Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Öz siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, ictimai-siyasi pərakəndəlik vəziyyətinə gətirib çıxarmış AXC-Müsavat komandası Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaqdansa, müxalifətə keçdi: bəziləri qaçıb gizləndi, bəziləri fəaliyyətini "dondurdu".

İyunun 17-dən 18-ə keçən gecə Prezident Əbülfəz Elçibəy Bakını gizlicə tərk edib Naxçıvan MR-ə, doğulduğu Kələki kəndinə getdi. Ona dəfələrlə geri qayıdıb ölkəyə rəhbərlik etmək təklif olunsa da, hər dəfə, faktiki olaraq rədd cavabı alındı. Milli Məclis iyunun 23-də prezident səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi.

**Vətəndaş müharibəsinin və ölkəni parçalamaq cəhdlərinin dəf olunması.** Başlanmış vətəndaş müharibəsini dayandırmaq, müxalif tərəflər arasında anlaşma yaratmaq məqsədilə siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik olan Surət Hüseynovu öz sayıq nəzarəti altında saxlamaq məqsədilə Heydər Əliyev onu baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik də ona tapşırıldı. Belə yüksək vəzifələr tutsa da, Heydər Əliyev iqtidarında öz məqsədinə nail ola bilməyəcəyini dərk edən Surət Hüseynov qərargahı Gəncədə yerləşən Səhra-Cəbhə İdarəsi yaratdı, burada sabiq müdafiə naziri Rəhim Qazıyev, iyunun 15-də Lənkəranda hərbi hissələrin köməyi ilə hakimiyyəti devirmiş Əlikram Hümbətovla birlikdə cəbhədə vəziyyəti daha da ağırlaşdırmaq, cəmiyyətdə siyasi çaxnaşma yaratmaq, dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək və Ayaz Mütəllibovu yenidən hakimiyyətə qaytarmaq planları hazırladı və həyata keçirməyə başladı. S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, "xalqın və dövlətin taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürür. Ə.Hümbətov bu bəyanatı alqışladı. Vəziyyəti sivil qaydada nizama salmaq istəyən Heydər Əliyevlə görüşündə öz imkanlarını düzgün qiymətləndirməyib şişirdən, səlahiyyəti xalqdan deyil, bir dəstə silahlı quldurdan almış, "səlahiyyətim avtomatımdır" deyən Ə.Hümbətov davakar-ultimativ iddialar irəli sürdü.

Avqustun 7-də cənub bölgəsində üzdəniraq "Talış Muğan Respublikası" ("TMR") yaradıldığı elan olundu. "Hökumət" təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər. Təbii ki, cavab alınmadı.

Yerlərdə baş vermiş kortəbii mitinqlərdə əhali Hümbətovun quldur dəstəsinin ləğv edilməsini, qondarma "TMR"-i tanımadıqlarını bəyan edirdi. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq, problemin dinc vasitələrlə həllinə üstünlük verdi. Avqustun 13-də o, həmin bölgədən olan xalq deputatları, ziyalılar, ağsaqqallarla görüşdü. Onlar hümbətovçuluğa qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı olan qüvvələrin siyasi oyunu kimi ifşa etdi. S.Hüseynov avqustun 18-19-da Gəncədə Ə.Hümbətovu dost kimi qəbul edib möhkəm dayanmağı məsləhət bildiyi vaxt cənub rayonları əhalisinin etiraz hərəkatı genişlənib avqustun 21-23-də elə miqyas aldı ki, Ə.Hümbətov qaçmalı oldu. Üzdəniraq "TMR" ləğv edildi.

Xalq öz rəhbəri Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da Prezident Əbülfəz Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdilər.

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasda səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçkilər bütün Azərbaycan xalqının Heydər Əliyevə böyük ümidlər bəslədiyini, inandığını bir daha nümayiş etdirdi. Prezident Heydər Əliyev andiçmə mərasimindəki nitqində elan etdi: "Dövlət müstəqilliyini möhkəmləndirmək, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, ölkəmizi müharibə şəraitindən çıxarmaq, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq, onların yaşaması üçün lazımi şərait yaratmaq – bu vəzifələr mənim Prezident fəaliyyətimdə əsas istiqamətlər olacaqdır və mən bunların həyata keçirilməsinə çalışacağam". Heydər Əliyev prezident kimi Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumaq, demokratiyanı inkişaf etdirmək, ölkənin bazar iqtisadiyyatı yolu ilə tərəqqisinə şərait yaratmaq, erməni təcavüzkarlarına qarşı xalqın ədalətli müharibəsini sülh vasitələri ilə başa çatdırmaq, respublikanın ərazi bütövlüyünü bərpa etmək üçün yorulmaq bilmədən çalışdı.

Azərbaycan dövlətçiliyinin bərpa və inkişaf etdirilməsinə, ictimai-siyasi sabitliyin, ərazi bütövlüyünün təmin olunması kimi mürəkkəb işə dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının, ordunun möhkəmləndirilməsindən başlandı.



## III FƏSİL

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİNİN QORUNUB SAXLANILMASI UĞRUNDA MÜBARİZƏ (iyun 1993-1995)

### Müharibədə vəziyyət. Ordu quruculuğu. Düşmən hücumunun qarşısının alınması.

Başıpozuq ordu düşmən dəyirmanına su tökürdü. Əvvəlki iqtidar möhkəm, intizamlı ordu yarada bilməmişdi. Xalq öz ordusuna yadlaşır, fərarilik artırdı. Yenə də torpaqların düşmənə verilməsi ilə ölkədə siyasi böhran yaranacağına, hakimiyyət çevrilişi olacağına ümid edənlərin və hakimiyyəti ələ keçirmək istəyənlərin cinayətkar satqınlığı nəticəsində 1993-cü ilin yayında və payızında Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr vuruldu. Düşmən ölkədəki siyasi böhrandan istifadə edib iyun ayının əvvəllərindən başlayaraq güclü hücuma keçdi. Həm AXC-Müsavat iqtidarı, həm də qiyama hazırlaşan Surət Hüseynova tabe qüvvələr Ağdam cəbhəsindən xeyli hərbi texnika çıxarmışdılar. Daxili qoşun hissəsi Bakının müdafiəsinə göndərilmişdi. Düşmən bundan istifadə edib rayonun Qarqar çayı, Saybalı kəndinə qədər ərazisini işğal etdi.

İyunun 25-dən 26-a keçən gecə nizami silahlı qüvvələr döyüş meydanından çıxarıldı. Cəbhə yerli özünümüdafiə batalyonlarının ümidinə qalsa da, onlar düşmənə layiqincə cavab verirdilər. Lakin iyulun əvvəllərində S.Hüseynova sadiq 709 saylı hərbi hissə Ağdama daxil oldu. Özünümüdafiə batalyonları döyüş əməliyyatlarından kənarlaşdırıldı. Ağdam şəhəri intensiv atəşə tutularkən isə "surətçilər" cavab atəşi açmadılar. Düşmən sürətlə irəliləyirdi. Malıbəylidə güclü döyüşlər gedirdi. Asif Məhərrəmovun ("Fred" ləqəbli) müdafiə batalyonunun döyüşçüləri iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa vuruşdular, lakin kömək olmadığından geri çəkildilər. İyulun 23-də səhər əsasən yerli özünümüdafiə dəstələrinin gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri süqut etdi.

Surət Hüseynova, Əlikram Hümbətova, Rəhim Qazıyevə və Xalq Cəbhəsinə sadiq hərbi hissələrin təxribatı nəticəsində avqustun 25-də Cəbrayıl və Füzuli, avqustun 31-də Qubadlı

rayonları işğal olundu. Mühasirəyə düşmüş Zəngilan rayonu oktyabrın 27-də düşmən əlinə keçdi. Respublika ərazisinin artıq 20 faizi düşmən tapdağı altında qalmışdı. Ermənilər "torpağı viran qoymaq" taktikasına əl atmışdılar. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlil olmuşdu. Qaçqın və köçkünlərin sayı milyonu keçmişdi. Rəsmi məlumata görə, erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq və 255 qoca əsir və girov götürülmüşdü. Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani, amansız rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar. 1991-95-ci illərdə Beynəlxalq Qızıl Xaç Komitəsinin yaxından köməyi ilə 400-dən çox azərbaycanlı əsir geri qaytarıldı. ATƏT tərəfləri əsir və girovları dərhal və qeyd-şərtsiz azad etməyə çağırdı. 1995-ci ilin əvvəllərində tərəflər əsir və girovların "hamının-hamıya" prinsipi üzrə dəyişdirilməsinə razılıq verdilər. 1995-ci ilin aprel-may aylarında Azərbaycan Respublikası birtərəfli qaydada 152 əsir və girovu azad etdi. Ermənistan isə cəmi 22 əsir qaytardı.

İşğal olunmuş ərazilərdən erməni ordularının dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edirdi.

Müdafiə Nazirliyinə tabe olmayan, müxtəlif siyasi ambisiyalı, döyüş qabiliyyəti olmayan, nizamsız hərbi hissələri ləğv etmək, güclü nizami ordu yaratmaq, bunun üçün xalqı ayağa qaldırmaq, birləşdirmək lazım idi. Prezident Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio vasitəsilə xalqa müraciət etdi, onu ölkənin qorunması və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı.

Bütün xalq prezidentin çağırışına ürəkdən qoşuldu. Könüllülərdən ibarət batalyonlar yaradılıb cəbhəyə göndərildi. Noyabr-dekabr aylarında 16,7 min nəfərlik 40 ehtiyat taboru təşkil edildi. Cəbhəyə gedənlərin işlədiyi müəssisələr cəbhəçi ailələrini himayəyə götürürdü. Orduya xalq yardımı genişlənmişdi. Qospitallarda yatan yaralı döyüşçülərə, qaçqınlara qayğı artırdı. Ziyalılar cəbhə bölgələrinə gedib əsgərləri qələbəyə ruhlandırırdılar.

Prezident cəbhə bölgələrində ordunun, əsgərlərin döyüş hazırlığı ilə yaxından tanış olub, konkret tədbirlər müəyyənləşdirdi. Yeni Azərbaycan ordusu yaranırdı. Dövlət Müdafiə Komitəsi təşkil olunmuşdu. Səhra Cəbhə İdarəsi, köhnə başıpozuq hərbi hissələr ləğv edilmiş, əldəqayırma "generallar", siyasi hoqqabazlar, xainlər ordudan uzaqlaşdırıldı. Səmərəli hərbi təlim üçün xüsusi proqramlar hazırlandı, ordunun döyüş hazırlığının yüksəldilməsi işi dövlət rəhbərliyinin ciddi nəzarəti altına alındı. 1994-cü ilin sonunda Milli Ordu sıralarında 54 min əsgər və zabit vardı. Silahlı qüvvələrin maddi bazası xeyli möhkəmlənmişdi. Nəticədə Azərbaycan ordusu düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı. Hətta əks-hücuma keçib bir sıra torpaqları geri qaytardı.

1993-cü il noyabrın ortalarında ermənilər cəbhələrdə intensiv hücuma başladılar, lakin güclü müqavimətə rast gəldilər. Dekabrın ortalarında Beyləqan istiqamətində Milli Ordunun əsgərləri böyük rəşadət göstərdilər. Birinci tabora hücum edən 15 düşmən tankının 7-i məhv edildi. Döyüşçülər əks hücuma keçib 30 km irəlilədilər. Minomyotçuların komandiri Akif Xanalıyev bir döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi. Xankəndi istiqamətində kəşfiyyata getmiş Milli Ordunun kəşfiyyat qrupu qəfildən düşmənlə üzləşsə də, mərdliklə vuruşmuş, ermənilər xeyli itki vermişdilər. Döyüş dostlarını xilas etmək üçün Etibar İsmayılov tankəleyhinə qumbara ilə özünü düşmənə köməyə gələn tankın altına atdı. Tank partladı. Etibar İsmayılov qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Azərbaycan ordusu müvəffəqiyyətli əməliyyatlar nəticəsində 1994-cü il yanvarın 5-də Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi düşməndən təmizlədi. Hücumu genişləndirib Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələrini azad etdi, Çiçəkli dağı və b. strateji yüksəklikləri ələ keçirdi, Kəlbəcər-Laçın yolunun tunelə qədərki hissəsini nəzarət altına aldı. Döyüşlərdə düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycan tərəfinin itkiləri 1-1,5 dəfə az idi.

Ordunun möhkəmlənməsi, NATO-ya tərəf əməli addımlar respublikada müstəqilliyin dönməzliyinə şərait yaradırdı. Bunun qarşısını nəyin bahasına olursa olsun, almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr ermənilərə köməyi daha da artırdılar. 1994-cü ilin fevralında Kəlbəcərdə uğurla başlanan "Murovdağ" əməliyyatı bir qrup zabitin satqınlığı üzündən uğursuzluqla nəticələndi. Rusiya 1994-cü ilin aprelində regionda mövqelərini

qoruyub saxlamaq, qoşunlarını atəş xəttində yerləşdirmək, ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmə hüquqi əsas yarada bilən və Azərbaycan üçün alçaldıcı olan bir saziş layihəsi təklif etdi. Azərbaycanı artıq *Ermənistan tərəfindən bəyənilmiş* bu layihə ilə razılaşmağa məcbur etmək üçün aprelin 10-dan ermənilər bütün cəbhələrdə güclü hücuma başladılar. Azərbaycan ordusu bu dəfə də düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan əsgərləri qalib gəldilər, düşmən 150 əsgər və zabit itirib geri çəkildi. Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri istiqamətində gedən ağır döyüşlərdə düşmənin 200-dən çox canlı qüvvəsi məhv edildi. Lakin ermənilər Ağdam rayonunun daha 18 kəndini, Ağdərə bölgəsinin kəndlərini işğal edə bildilər. Bərdə üçün ciddi təhlükə yarandı. Azərbaycan ordusu buraya əlavə qüvvələr gətirməklə düşmən hücumunun qarşısını aldı və əks hücuma keçib bir neçə yaşayış məntəqəsini geri qaytardı.

Azərbaycan öz suverenliyinə hörmət çərçivəsində qonşu Rusiyanın münaqişəni həll etmək sahəsindəki səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Yuxarı Qarabağın erməni və azərbaycanlı icmalarının niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən də imzalandı.

Azərbaycan Prezidenti Heydər Əliyev cənablarının uğurlu diplomatiyası, Milli Ordunun güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişənin zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.

Respublikanın ərazi bütövlüyünün sülh danışıqları yolu ilə təmin olunması üçün gərgin iş aparıldı. Artıq beynəlxalq problemə çevrilmiş Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu geosiyasi məkanda, onun sərvətlərinin mənimsənilməsində marağı olan aparıcı dünya dövlətlərinin mənafelərini nəzərə alan tarazlıq siyasəti yeridilirdi. 1993-cü il sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinə daxil olmuş Azərbaycan 1994-cü il mayın 4-də NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olmasına xidmət edən "Sülh naminə tərəfdaşlıq" proqramına qoşuldu. Avropa-Atlantika Əməkdaşlıq Şurasına üzv qəbul edildi. Dünya siyasətini müəyyən edən dövlətlər və siyasətçilərlə yaxın əlaqələr yaradıldı. Azərbaycana qarşı informasiya blokadası yarıldı. Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyası tribunasın-



dan Azərbaycan həqiqətlərini bütün dünyaya tanıtdı, bu ölkənin sülhsevər, humanist, demokratik dəyərləri üstün tutduğunu göstərdi. BMT-nin baş katibi Butros-Butros Qali Azərbaycana gəldi. Heydər Əliyev ABŞ, Rusiya prezidentləri ilə görüşdü. İngiltərə, Fransa, Çin, Pakistan, İran, Türkiyə, Almaniya, Polşa və b. ölkələrə səfərlərində bu məsələləri dövlət başçıları ilə müzakirə etdi.

## III HİSSƏ

## MÜSTƏQİL DÖVLƏT QURUCULUĞUNUN ƏSAS İSTİQAMƏTLƏRİ

## I FƏSİL

## HÜQUQİ DÖVLƏT QURUCULUĞU

### § 1. Qanunçuluğun bərpası

Müstəqilliyinin ilk illərində Azərbaycan Respublikası öz tarixinin mürəkkəb dövrünü yaşamışdır. Azərbaycan xalqının suveren dövlətdə yaşamaq arzusu, azadlıq ideallarına bağlılığı onun müstəqilliyinin əleyhinə olan düşmən dairələrin maraqlarına toxunduğundan, onlar xalqı bu yoldan sapdırmaq, onun gələcəyə inamını sarsıtmaq üçün müxtəlif təxribatlardan və digər çirkin vasitələrdən istifadə edirdilər ki, bu da öz növbəsində respublikadakı ictimai-siyasi duruma ciddi surətdə mənfi təsir göstərirdi.

Anarxiya və dağıdıcılıq siyasəti ölkədə baş alıb gedir, ağır iqtisadi vəziyyət, sabitliyi pozmaq istəyən qüvvələrin azğınlığı, birbirinin ardınca həyata keçirilən təxribatlar, dövlət çevrilişi cəhdləri, mütəşəkkil cinayətkarlığın təhlükəli xarakter alması ictimai-siyasi və sosial ziddiyyətlərin kəskinləşməsinə rəvac vermişdi.

Siyasi oyunbazlıq və əvvəlki səriştəsiz rəhbərliyin miras qoyduğu hərcmərclik, özbaşınalıq, qanunlara məhəl qoyulmaması və sair bu kimi təzahürlər dözülməz həddə çatmışdı. Saysız-hesabsız qeyri-qanuni hərbi birləşmələr və əllərdə olan silah-sursat respublikanın kriminogen durumunu xeyli gərginləşdirmiş, bütün əhalidə vahimə və qorxu hissi, sabahkı günə inamsızlıq yaratmışdı.

Bu şəraitdən istifadə edən cinayətkar aləm xeyli qol-budaq atmış, nəticədə respublikada cinayətkarlıq mahiyyətcə daha



təhlükəli olmuş, kəmiyyətcə isə zorakı xarakterli və tamah məqsədi güdən cinayətlər üstünlük təşkil etmişdi.

Cinayətkarlığın dinamikası və strukturunda neqativ meyllər gündən-günə inkişaf etmiş və onun illik artım sürəti əhalinin artım sürəti ilə müqayisədə 10 dəfə çoxalmışdı. 1992-ci ildə ictimai-siyasi vəziyyətin qeyri-sabitliyi, hakimiyyət boşluğu və qanunların işləməməsi nəticəsində cinayətkarlıq 43 faiz artmış və bu da növbəti illərdə kriminogen şəraitə öz mənfi təsirini göstərmişdi.

Residiv cinayətkarlıq, odlu silah işlətməklə törədilən cinayətlər sürətlə artmaqda davam etmişdi. 1988-1993-cü illər ərzində qeydə alınmış qəsdən adam öldürmə, banditizm, quldurluq, soyğunçuluq, terrorçuluq cinayətlərinin sayı xeyli artmışdı.

A.Mütəllibovun hakimiyyəti dövründə dövlət siyasəti səviyyəsinə qaldırılmış terrorçuluq AXC-Müsavat iqtidarı zamanında da davam etdirilmişdi. İctimai mövqelərinə, siyasi baxışlarına və əqidələrinə görə görkəmli ziyalıların kütləvi təqib edilməsi, onlara qarşı sifarişli qətllərin törədilməsi adi hala çevrilmişdi. Tanınmış ziyalı Əjdər Xanbabayevin 1990-cı il may ayının 30-da qətlə yetirilməsi bütün Azərbaycan ictimaiyyətini sarsıtmışdı. Bu terror aktı SSRİ və respublikanın o zamankı rəhbərliyinin və xüsusi xidmət orqanlarının istifadə etdiyi ən çirkin üsullardan biri idi.

Respublikada cinayətkarlığın o dövrdəki vəziyyətini müəyyən edən səbəblərdən biri də bundan ibarət olmuşdu ki, regionlararası və transmilli cinayətkar birliklərin ölkə ərazisində fəaliyyət göstərən kriminal strukturlarla intensiv şəkildə birləşmələri açıq-aşkar müşahidə edilirdi.

Narkotik maddələrlə və onların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər sosial təhlükəli miqyas almışdı. Respublikada kök salmağa və onu özünün ötürücü bazasına çevirməyə can atan beynəlxalq narkobiznesin fəallaşdığı müşahidə olunurdu.

1992-ci ilin ortalarında düşünülmədən elan edilmiş amnistiya da cinayətkarlığın vəziyyətinə son dərəcə mənfi təsir göstərmişdi. Sabiq daxili işlər naziri İ.Həmidovun qanunsuz göstərişləri əsasında, guya döyüş bölgələrinə göndərilməsi məqsədi ilə 700-dən artıq qatı cinayətkar, o cümlədən qatillər, quldurlar, dövlət əmlakını külli miqdarda mənimsəmiş və digər ağır cinayətlər törətmiş şəxslər cəzaçəkmə yerlərindən buraxılmışdı. Minlərlə cinayətkarın məsuliyyətdən azad olunması və azadlıqdan məhrumetmə yerlərindən buraxılması sonrakı illərdə baş vermiş ağır cinayətlərin və təkrar cinayətkarlığın kəskin surətdə artmasına səbəb olmuşdu.

Hüquq-mühafizə orqanları tərəfindən lazımınca dəf olunmayan cinayətkar aləm fəal surətdə silahlanaraq, müasir texnika ilə təchiz olunmuş, mütəşəkkillik və peşəkarlıq sarıdan möhkəmlənən təhlükəli sosial təzahürə çevrilmişdi. Cinayətkarlıqla mübarizədə ön cərgədə dayanmalı olan polis və daxili işlər orqanlarının bu və digər qurumlarına kütləvi surətdə xidmətə qəbul edilmiş, əvvəllər qatı cinayətlər törətmiş şəxslər "boz qurd" adı altında Daxili İşlər Nazirliyinin tərkibində müxtəlif silahlı dəstələr yaradaraq sifarişli qətllər, insanları qanunsuz azadlıqdan məhrum etmə, hədə-qorxu gəlmə, ziyalıları, mətbuat işçilərini döymə və digər zorakı cinayətlər törədirdilər.

Kriminal qruplar dövlət aparatının məsul işçilərini rüşvət və şantaj yolu ilə ələ alıb onları özlərinin hüquqazidd fəaliyyətlərinə cəlb etməyə, onların köməyi ilə hakimiyyət və idarəetmə orqanlarına daxil olmağa və orada yerlərini möhkəmlətməyə can atırdılar.

Respublikanın bəzi şəhər və rayonlarında cinayətkar qruplar maliyyə-kredit orqanlarının, kommersiya strukturlarının, ticarət və məişət xidməti obyektlərinin, idarəetmə mexanizminin mühüm sahələrini öz nəzarətləri altına almaqla onların vasitəsilə cinayət yolu ilə əldə etdikləri kapital və vəsaitləri leqallaşdırırdılar.

Respublikanın ayrı-ayrı regionları faktiki olaraq nüfuz dairələrinə bölünmüşdü. Özünə tabe olan hərbi hissələrə və cinayətkar aləmə arxalanan Surət Hüseynov Gəncəbasarı təsir altında saxlayır, "könüllü" batalyonlar sərhəd və döyüş bölgələrində azğınlıq edir, separatçı əhval-ruhiyyəsini təlqin edirdilər.

Surət Hüseynov narkotik vasitələrin satışından və dövlət əmlakının mənimsənilməsindən əldə etdiyi külli miqdarda vəsait hesabına Azərbaycanı tərk etməkdə olan rus qoşunlarının, Gəncədə yerləşən hərbi hissələrin yüksək rütbəli şəxsləri ilə cinayət əlaqəsinə girərək iri silah alverçilərindən birinə çevrilmişdi. Bu baxımdan Azərbaycan ordusunu təchiz etmək adı ilə dövlət vəsaitini mənimsəyən ən böyük silah alverçisi Rəhim Qazıyevin Surət Hüseynovla cinayət əlaqələri möhkəmlənirdi. Sonrakı digər ağır cinayətlərin törədilməsinə məhz onların silah ticarətində birgə iştirakı səbəb olmuşdu.

Daxili işlər nazirinin müavini R.Cavadov qardaşı – Bakı şəhəri Xətai rayonunun prokuroru M.Cavadovla birlikdə tabeliyində olan XTPD-nin şəxsi heyətini və ayrı-ayrı cinayətkar ünsürləri özlərinin qeyri-qanuni fəaliyyətinə cəlb edərək tamahkar niyyətlərinin həyata keçirilməsi vasitəsinə çevirmişdi.



XTPD-nin üzvləri bu şəxslərin rəhbərliyi ilə müxtəlif ticarət obyektlərini, bazarları, firmaları və şirkətləri, digər kommersiya qurumlarını ələ keçirmək məqsədi ilə iş adamlarına hədə-qorxu gələrək üzərlərinə "haqq" qoymuş, onlara qarşı zorakı cinayətlər törədərək əmlaklarını ələ keçirmişdilər.

Bütün bunlar əhalini qorxuya salır, dövlət orqanlarının normal işini pozur, onların nüfuzuna xələl gətirirdi. Saysız-hesabsız cinayətlər törətmiş, cəzasızlıq şəraitindən istifadə edən cinayətkar dəstə bir müddət sonra hakimiyyətə qarşı sui-qəsd törətməyə, onu devirməyə cəhdlər etdi.

1990-1994-cü illər ərzində respublikada strateji əhəmiyyətli xammalın (neft məhsullarının, əlvan və qara metalın, emal olunmamış dərinin, pambığın və s.) ölkədən qaçaqmalçılıq yolu ilə çıxarılması sahəsində ixtisaslaşan, xarici dövlətlərin və Azərbaycanın vətəndaşlarından ibarət cinayətkar qruplar yaranmışdı. Törətdikləri digər cinayətlərlə yanaşı bu qanunsuz fəaliyyətlə də məşğul olmuş 1995-ci il mart dövlət çevrilişi cəhdinin təşkilatçıları Cavadov qardaşları və başqa cinayətkarlar öz qanunsuz əməllərini həyata keçirmək üçün dövlət orqanlarının ayrı-ayrı vəzifəli şəxsləri ilə cinayət əlaqəsinə girərək, qanunsuz əldə etdikləri xammalı gömrük işçiləri və sərhədçilərin vasitəsilə qeyri-qanuni yollarla ölkədən çıxarırdılar.

Respublikada şəxsiyyətlərarası və qruplararası münaqişələri sifarişlə ayırd edən, muzdla ayrı-ayrı vətəndaşların oğurlanması, onlara işgəncə verilməsi və qətlə yetirilməsini təşkil edən cinayətkar birliklərin təşəkkül tapması və möhkəmlənməsi prosesi aydın görünməyə başlamışdı. Cəzasız qalmasından istifadə edən cinayətkar aləm bir sıra təxribatlar, respublikanın ayrı-ayrı dövlət xadimlərinə, hüquq-mühafizə orqanlarının vəzifəli şəxslərinə və onların ailə üzvlərinə qarşı terror aktları həyata keçirirdi.

Hüquq-mühafizə orqanlarının fəaliyyətinin lazımi səviyyədə təşkil edilməməsi də kriminogen vəziyyətin pisləşməsinə şərait yaradan amillərdən biri olmuşdur. Cinayətlərin profilaktikasında, onların qarşısının vaxtında alınmasında, açılmasında və istintaqın aparılmasında mövcud olan nöqsanlar müqəssirlərin cəzasız qalmasına səbəb olur, onları daha da azğınlaşdırır, hüquqazidd fəaliyyətlərini davam etdirmək və genişləndirmək üçün zəmin yaradırdı.

1990-1993-cü illər ərzində respublikanın prokurorluq, ədliyyə, polis, milli təhlükəsizlik, gömrük orqanlarında kadr siyasəti ciddi şəkildə təhrif olunmuşdu. Ötən illər ərzində bu orqanlara

çoxlu səriştəsiz, təsadüfi və mənəvi cəhətdən natəmiz adamlar qəbul edilmiş, o cümlədən rəhbər vəzifələrə irəli çəkilmişdilər ki, bu da ictimaiyyətin haqlı narazılığına, əhali arasında hüquq-mühafizə orqanlarının nüfuzdan düşməsinə gətirib çıxarmışdı.

Hüquq-mühafizə orqanlarının fəaliyyətinə nəzarətin zəifləməsi nəticəsində daxili işlər orqanlarında cinayətlərin uçotdan gizlədilməsi geniş miqyas almışdı ki, bu da hər şeydən əvvəl respublikada cinayətlərin açılması sahəsində real vəziyyəti ciddi təhrif etmiş, cinayətkarlığa qarşı mübarizə tədbirlərinin hazırlanmasını çətinləşdirmişdi.

Cinayətkarlığa qarşı mübarizənin lazımi hüquqi bazasının yaradılması sahəsində heç bir iş görülmür və o vaxtlar qüvvədə olan cinayət qanunvericiliyi müasir tələblərə cavab verməmdiyindən təcrübi işin zəruri tələbatını ödəmirdi. Bu illərdə ciddi sosial əsaslandırma, elmi təhlil aparılmadan, ictimaiyyətin, o cümlədən alim və mütəxəssislərin rəyi öyrənilmədən Cinayət Məcəllәsinə dəfələrlə əlavələr və dəyişikliklər edilmişdi. Bu da onun daxili-hüquqi əlaqələrində uyğunsuzluğa və cinayət-hüquq sanksiyalarında tarazlığın pozulmasına gətirib çıxarmışdı.

İnsan hüquq və azadlıqlarının kütləvi surətdə pozulduğuna baxmayaraq, vətəndaşların hüquqlarının məhkəmə müdafiəsi təmin olunmurdu.

Ölkədə yaranmış böhranlı vəziyyətin əsası xalqdan uzaq düşmüş olan Əbdürrəhman Vəzirov tərəfindən qoyulmuşdu. SSRİ rəhbərliyi tərəfindən vəzifəyə təyin edilmiş Vəzirov öz fəaliyyətinə Azərbaycan iqtisadiyyatının əsaslarının dağıdılmasından başlamış və bu məqsədlə Moskvadan böyük yoxlayıcılar briqadası gətirmişdi. Bu dəstə tərəfindən aparılan yoxlamalar zamanı yüzlərlə kolxoz və sovxozun, istehsalat və ticarət müəssisəsinin fəaliyyəti iflic vəziyyətinə salınmış, respublikaya böyük iqtisadi ziyan vurulmuş, günahsız insanlar cinayət məsuliyyətinə cəlb olunmuşdular.

Azərbaycan vətəndaşlarının, sadə zəhmət adamlarının qondarma "pambıq işi" adı altında kütləvi surətdə əsassız həbs olunmalarının arxasında ermənipərəst Qorbaçovun düşünülmüş siyasəti və onun icraçıları dururdu. Azərbaycanlıların kütləvi təqibi 1990-cı il 20 yanvar faciəsinin başlanğıcı idi.

1990-cı illərin əvvəlində Azərbaycanda yaranmış vəziyyət, Moskvanın vassalı Ə.Vəzirovun, 20 yanvar faciəsinin əsas səbəbkarlarından biri olan A.Mütəllibovun, sonradan Əbülfəz Əliyev, İsa Qəmbərov, Pənah Hüsenov kimi qondarma meydan



siyasətbazları, yalançı demokratların hakimiyyəti tərəfindən davam etdirilən mahiyyətcə antiazərbaycan, antidövlətçilik siyasətinin məntiqi nəticəsi idi.

Yalnız cənab Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə gəlməsi sayəsində ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amillər ön plana çəkildi, müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmləndirilməsi sahəsində uğurlu addımlar atıldı, cəmiyyətdə hökm sürən hərc-mərcliklərə və özbaşınalıqlara qarşı mübarizənin təməli qoyuldu, ictimai-siyasi sabitliyin bərqərar olunması məqsədi ilə ciddi tədbirlərin həyata keçirilməsinə başlanıldı.

1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişləri cəhdlərinin qarşısının alınması, Surət Hüseynovun, Cavadov qardaşlarının kölgəsi altında, onların başçılıq etdikləri cinayətkar dəstələrin, XTPD kimi dövlət strukturlarına daxil olan bir qurumun qanunsuz hərəkətləri fonunda əl-qol açan digər cinayətkar qrupların və ünsürlərin ifşa olunması və zərərsizləşdirilməsi respublikada bütövlükdə cinayətkarlıqla mübarizənin yeni vüsətdə güclənməsinə təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti 1994-cü il avqustun 9-da "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" fərman imzaladı. Bu fərman ölkədə konstitusiyalı dövlət quruluşunun mühafizəsinə, insan hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunmasına yönəlmiş və cinayətkarlığa qarşı mübarizədə əsaslı dönüş yaratmışdır.

Həmin fərmana əsasən Azərbaycan dövlətinin inkişafına mane olan amillərə qarşı mübarizə metodları və üsulları genişləndirilmiş, cinayətkarlığa şərait yaradan halların aradan qaldırılmasına yönəldilmiş əməli tədbirlər gücləndirilmiş, müvafiq təşkilati və praktiki tədbirlər planlaşdırılmış və uğurla həyata keçirilmişdi.

Bu tədbirlər nəticəsində hüquq-mühafizə orqanları sistemində və digər sahələrdə cinayətkarlarla əlbir olan, təxribatlar törədən, vəzifədən sui- istifadə edən, rüşvətxorluq və bir çox başqa qanunsuz əməllərlə məşğul olan, pozuntulara və əyintilərə yol verən şəxslər müəyyən olunub tutduğu vəzifələrdən kənarlaşdırılaraq məsuliyyətə cəlb olundular.

Azərbaycan Respublikası Prezidentinin bu və digər fərman və sərəncamlarında qarşıya qoyulan vəzifələrin hüquq-mühafizə orqanları tərəfindən müvəffəqiyyətlə həyata keçirilməsi, görülmüş kompleks və çevik əməliyyat tədbirləri 1994-cü ilin

oktyabrı və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması, ölkə Prezidentinin fiziki məhvinə yönəldilmiş sui-qəsdlərin qarşısının alınmasını, onların təşkilatçılarının ifşa olunmasını təmin etmiş, respublikada siyasi qarşıdurma yaratmaq cəhdlərinə qətiyyətlə son qoymuşdu.

Məhz bu illərdə Azərbaycan xalqına, onun Ə.Xanbabayev, A.Cəlilov, Ş.Rəhimov, Z.Bünyadov kimi görkəmli nümayəndələrinə qarşı törədilən cinayətlərin üstü açılmış, onların sifarişçiləri və icraçıları müəyyən edilmiş və cinayət məsuliyyətinə cəlb edilmişlər.

Hakimiyyətsizlik və hərc-mərclik illərində formalaşmış cinayətkar dəstələr, mütəşəkkil silahlı quldur bandaları dağıdılmış, törədilmiş cinayətə görə cəzanın labüdlüyü prinsipi təmin olunmuş, cinayətlərdə iştirak etmiş hər bir şəxs ədalət mühakiməsinə verilmişdir.

Narkotiklərin yayılması və narkomanlıqla mübarizə tədbirləri Azərbaycan Respublikası Prezidentinin bir neçə fərman və sərəncamı ilə ümumdövlət səviyyəsinə qaldırılmış, bu cinayətin qarşısının alınması üçün dövlət proqramları, Milli Məclis tərəfindən müvafiq qanun qəbul edilmiş, təşkilati və digər əsaslı tədbirlər həyata keçirilmişdir.

Cinayətkarlıqla mübarizədə görülmüş işlər nəticəsində *cinayətlərin azalması meyli son illərdə ardıcıl və dönməz* xarakter almışdır. 1992-ci illə müqayisədə 2000-ci ildə qeydə alınmış cinayətlərin sayı 37,8 faiz, o cümlədən cinayət axtarış xətti ilə 39,0 faiz, onların ağır növləri, o cümlədən qəsdən adamöldürmələr 2,5 dəfə, quldurluq və soyğunçuluqlar 3,8 dəfə, oğurluqlar 3,3 dəfə, nəqliyyat vasitələrinin oğurlanması və qaçırılması 10,6 dəfə azalmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində cinayətlərin açılması ildən-ilə yaxşılaşaraq 1992-ci illə müqayisədə 67 faizdən 2000-ci ildə 92,4 faizədək yüksəlmişdir.

Axtarışda olan cinayətkarların tutulması 4,6 dəfə artmışdır. Belə ki, son illər ərzində cinayət məsuliyyətindən yayındığına görə axtarışda olan 20 mindən artıq cinayətkar tutularaq məsuliyyətə cəlb olunmuşdur. Onların arasında Azərbaycan xalqına və dövlətinə qarşı qatı cinayətlər törətmiş Surət Hüseynov, Rəhim Qazıyev, Əlikram Hümbətov, Elçin Əmiraslanov, İlqar Səfixanov, Kəramət Kərimov, Vahid Musayev, Faiq Baxşəliyev, Natiq Əfəndiyev və digərləri vardır.

Ölkədə sabitliyin və vətəndaş sülhünün qorunması üçün ayrı-ayrı cinayətkar qurumların nəzarətində olan külli miqdarda



silah-sursat aşkar edilmişdir. Qanunsuz saxlanılan 21 mindən artıq müxtəlif növ odlu silah, milyonlarla hərbi sursat aparılmış əməliyyat-axtarış və profilaktiki tədbirlər nəticəsində müsadirə olunmuşdur və bütün bunlar odlu silahla törədilən cinayətlərin sayını 7 dəfə azaltmağa imkan vermişdir.

90-cı illərdə mütəşəkkil silahlı dəstələrə qarşı aparılan qətiyyətli mübarizənin ən mühüm nəticələrindən biri də o oldu ki, əvvəlki illərin xofu insanların canından çıxmağa başladı, onlarda qanunun gücünə, hakimiyyətə, dövlətçiliyə inam yarandı. Əvvəllər qorxu və təzyiqlər altında susmağa məcbur olan yüzlərlə vətəndaş törədilmiş cinayətlər barədə dövlət orqanlarına məlumatlarla müraciət etməyə başladılar. Əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində keçmiş illərdə törədilən və açılmamış qalan sifarişli qətllər, adam oğurluqları, işgəncələr və şəxsiyyət əleyhinə olan digər cinayətlər, oğurluq, soyğunçuluq, quldurluq, hədə-qorxu ilə tələb etmə (reket) və mülkiyyət əleyhinə olan digər bu kimi cinayətlər açılmış, təqsirkar şəxslər ədalət mühakiməsinə verilmişlər.

Azərbaycan iqtisadiyyatının düşdüyü çətin vəziyyətdən çıxarılması, bu sahədə yeni iqtisadi münasibətlərin formalaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeritdiyi siyasət və onun nəticələri göz qabağındadır. Bu gün ölkə iqtisadiyyatı əvvəlki illərin böhranından qurtulmuş və tədricən, dönmədən inkişaf yolu ilə irəliləməkdədir. Bu yöndə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biri – iqtisadiyyatın inkişafına mane olan, xalqın əmlakına göz dikən, korrupsiya və rüşvətxorluğa qurşanan ünsürlərə qarşı barışmaz, qətiyyətli və amansız mübarizə aparmaqdır.

İqtisadi sahələrdə törədilən cinayətlərin aşkar edilməsi nəticəsində hərc-mərclik illərində dövlət əmlakının talan olunması, mənimsənilməsi və israf edilməsi ilə bağlı ciddi faktlar aşkar olunmuş, cinayət işləri başlanmış, cinayətkarların əksəriyyətinin yüksək vəzifə sahibləri olmasına baxmayaraq, məsuliyyətə cəlb olunmuşlar. Belə şəxslərdən biri qulluq mövqeyindən istifadə edərək xalqın külli miqdarda əmlakını mənimsəmiş və törətdiyi cinayətlərə görə məsuliyyətdən yayınmaq məqsədi ilə qaçıb hazırda xaricdə gizlənərək özünü "demokratiya carçısı" adlandıran Rəsul Quliyevdir.

Respublikada sabitliyin bərqərar olunması xalqın iqtidara və hüquq-mühafizə orqanlarına inamının artmasına, cəmiyyətdə mövcud olmuş qorxu və cinayətkarlar arasında hökm sürmüş cəzasızlıq əhval-ruhiyyəsinin aradan götürülməsinə səbəb olmuş-

dur. Ayrı-ayrı siyasətbazların milli taleyimizlə pərdəarxası oyunlarına, siyasi anarxiya və eksperimentlərinə son qoyulmuşdur.

Prezident Heydər Əliyevin rəhbərliyi altında aparılmış son dərəcə gərgin fəaliyyət nəticəsində ölkədə cinayətkarlıq cilovlanmış və kriminogen durum tam nəzarət altına alınmışdır.

Bunun nəticəsidir ki, MDB ölkələri arasında Azərbaycan kriminogen durumun vəziyyətinə görə ən sabit olan ölkədir. 2000-ci ildə əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayına görə Azərbaycanda Rusiyadan 11,4, Belarusdan 7,5, Ukraynadan 6,2, Qazaxıstandan 5,4, Moldovadan 5,1 dəfə az cinayət törədilmişdir.

Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyə nail olunması vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə, bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın və sahibkarlığın inkişafına, beynəlxalq iqtisadi və maliyyə sisteminə inteqrasiyaya istiqamət götürən, sosial ədalət prinsipinə əsaslanan demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymağa imkan yaratmışdır.



## § 2. Konstitusiyanın qəbul olunması

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müstəqil Azərbaycanın ilk Konstitusiyası idi. Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmiş və Əsasnaməsi 21 iyul 1919-cu il tarixli qanunla təsdiq edilmiş Müəssislər Məclisini çağırmaq mümkün olmamışdı. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrlə bağlı olmuşdur.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilmiş və Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna gətirib çıxaran dövlət çevrilişini qanuniləşdirmişdir. Azərbaycan SSR Konstitusiyasının 1924-cü il SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Bundan sonra SSRİ-də baş verən ictimai-siyasi hadisələrlə əlaqədar 1927-ci il martın 26-da V, 1931-ci il fevralın 14-də VII və 1935-ci il yanvarın 11-də VIII Ümumazərbaycan Sovetlər qurultaylarında Konstitusiyaya dəyişiklik və əlavələr edilmişdir. Azərbaycan SSR 1936-cı il SSRİ Konstitusiyasına əsasən ZSFSR tərkibindən çıxaraq müttəfiq respublikaya çevrildikdən sonra, onun Konstitusiyası 1937-ci il martın 14-də IX Fövqəladə Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdi və 1936-cı il SSRİ Konstitusiyasına tam uyğun idi. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş sonuncu Konstitusiyası da 1977-ci ildə təsdiq edilmiş SSRİ Konstitusiyasına uyğunlaşdırılması məqsədini daşıyırdı.

Respublikaya o zaman rəhbərlik edən Heydər Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasına Azərbaycan xalqının milli şüurunun qorunmasında və inkişafında mühüm rol oynayan müddəa daxil edildi. Söhbət 1978-ci il Azərbaycan Konstitusiyasının Azərbaycan dilini dövlət dili elan edən 73-cü maddəsinin müddəasından gedir. Analoji müddəa SSRİ-nin tərkibinə daxil olan 15 respublikadan 12-nin Konstitusiyasında öz əksini tapmamışdı.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikası öz müstəqilliyini elan etdikdən sonra da 1978-ci il Konstitusiyası öz

hüquqi qüvvəsini saxlamışdı. 1991-1993-cü illərdə onun mətninə müxtəlif hakimiyyət orqanlarının səlahiyyətlərinin dürüst müəyyən edilməsi ilə bağlı çoxlu əlavələr və dəyişikliklər edilməsinə baxmayaraq, Azərbaycanın SSRİ-nin tərkibində statusunu müəyyən edən 7-ci fəsil hələ də qüvvədən salınmamışdı. Formal olaraq həmin fəsil qüvvədən düşmüş hesab edilirdi, çünki 18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının 4-cü maddəsinə əsasən 1978-ci il Konstitusiyası öz qüvvəsini yalnız Konstitusiya Aktına zidd olmayan hissəsində saxlayırdı. Bununla yanaşı Konstitusiyanın mətnində 7-ci fəslin saxlanılması müstəqil dövlətin həmin zaman konstitusiya quruluşunun tələblərinə etinasızlıq göstərilməsini simvollaşdırırdı.

Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün 1991-ci il fevralın 9-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə yaradılmış 74 nəfərdən ibarət Komissiya heç bir iclas da keçirməmişdi. Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi dövrə qədər və ondan sonra yeni Konstitusiyanın layihəsi hələ də hazırlanmamışdı. Milli Məclisin 6 dekabr 1993-cü il tarixli qərarı ilə 14 nəfərdən ibarət yaradılmış daha bir komissiya yarım il ərzində yeni Əsas Qanunun layihəsini təqdim etməmişdi.

Komissiyanın işini canlandırmaq üçün 1994-cü ilin may ayında onun tərkibi genişləndirilsə də, layihə üzrə iş hələ də başlanmamışdı. Müstəqil dövlətin yeni Konstitusiyasının layihəsinin hazırlanmasının təşəbbüskarı 1994-cü ilin ortalarında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdu. Prezidentin İcra Aparatına Konstitusiya layihəsinin xüsusi komissiyaya baxılmaq üçün təqdim edilməsi barədə dövlət başçısı tərəfindən müvafiq göstəriş verilmişdi. Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsinin hazırlanması üzrə komissiyanın tərkibi Prezident tərəfindən parlamentə təqdim edilmiş və Milli Məclis 1995-ci il mayın 2-də müvafiq qərar qəbul etmişdi.

Azərbaycan Respublikası Prezidentinin sədrlik etdiyi 33 nəfərdən ibarət komissiyanın tərkibinə qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin nümayəndələri ilə bərabər, respublikanın hüquq elmini təmsil edən şəxslər də daxil idilər. Hələ yuxarıda göstərilən Komissiyanın yaradılmasına qədər Azərbaycan Respublikasının Prezidenti layihənin işlənib hazırlanmasına bilavasitə rəhbərlik edirdi, ona görə də yeni Konstitusiyanın layihəsinin hazırlanması üzrə Komissiya yarandığı gün-



dən bir ay əvvəl sənəd üzərində iş başlanmışdı. Daxil olan təklifləri nəzərə almaq məqsədilə layihə üzərində işləmək üçün Komissiyanın qərarı ilə işçi qrup yaradılmışdı. Komissiyanın iclaslarının qrafiki bu orqanın çox gərgin işi haqqında təsəvvür yaradır – yeni Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiya 1995-ci ildə 5 iyun, 26 iyun, 16 avqust, 3 oktyabr, 12 oktyabr, 14 oktyabr, 2 noyabr, 5 və 10 noyabr tarixlərində öz iclaslarını keçirmişdi.

Yeni Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiyanın qərarı ilə layihə ümumxalq müzakirəsi üçün 1995-ci il oktyabrın 15-də dərc edilmişdir. 1995-ci il noyabrın 4-dək olan vəziyyətə görə layihə barədə Komissiyaya 2450 təklif daxil olmuşdu. Təkliflərin bir qismi Konstitusiya layihəsinin 1995-ci il noyabrın 8-də keçirilən referendumdan bilavasitə əvvəl dərc edilmiş axırıncı variantında nəzərə alınmışdı. Ümumxalq müzakirəsinə çıxarılan layihə 199 maddədən, referenduma çıxarılan Konstitusiya layihəsi isə 158 maddədən ibarət idi.

Mərkəzi Seçki Komissiyasının referendum üzrə 20 noyabr 1995-ci il tarixli qərarına əsasən 4 milyona yaxın seçici korpusundan 12 noyabr 1995-ci il tarixli referendumda seçicilərin 86 faizi iştirak etmişdi və səs verənlərin 94.8 faizi yeni Konstitusiyanın qəbulunun lehinə səs vermişdi.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi bir dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetini və hakimiyyətlər bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Konstitusiyaya görə Azərbaycanda hakimiyyətin yeganə mənbəyi xalqdır. Azərbaycan xalqını yalnız onun demokratik surətdə seçdiyi səlahiyyətli nümayəndələri təmsil edə bilər, digər heç kəsin Azərbaycan xalqı adından danışmaq, onun adından müraciət etmək və xalqı təmsil etmək hüququ yoxdur. Konstitusiya ilə müəyyən edilir ki, Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz və hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir. Dövlətin əsaslarını müəyyən edərkən Konstitusiya ilk növbədə hər bir demokratik dövlətin ayrılmaz atributları olan təsisatlara xüsusi yer ayırır. Söhbət insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlətin ali məqsədi olmasından, mülkiyyətin toxunulmazlığına təminat verilməsindən, təbii ehtiyatların yalnız dövlətə mənsub olmasından, Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafi-

əsinin dövlətin xüsusi diqqət mərkəzində olmasından, ailəyə və uşaqlara dövlət tərəfindən qayğı göstərilməsindən və sair bu *kimi məsələlərdən gedir.*

Dünyada çox az konstitusiya tapılar ki, onun maddələrinin üçdə bir hissəsi insan hüquqlarına və onların təminatlarına həsr *edilsin. Azərbaycan Respublikası Konstitusiyasının* 158 maddəsindən 48-i insan hüquqlarına həsr edilib. Konstitusiyaya görə insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və *qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyətinin* borcudur. İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz. Yalnız müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.

Ənənəvi hakimiyyətlər bölgüsü konsepsiyasına uyğun olaraq Konstitusiya müəyyən edir ki, icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur, qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Parlamenti – Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikasının Prezidenti təsisatının ikili hüquqi təbiəti vardır. Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı, o, birinci növbədə Azərbaycan dövlətinin başçısıdır və bu şəkildə bütün Azərbaycan xalqını bütövlükdə təmsil edir və Azərbaycan xalqının vahidliyinin rəmzidir.

Azərbaycanın tarixində ilk dəfə olaraq Azərbaycan Respublikasının Konstitusiyası məhkəmələrin müstəqilliyini təmin edən əsas prinsipləri özündə əks etdirmişdir. Konstitusiyaya görə hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanuna zidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir. Ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya *ailə həyatının məxfiliyini qorumaq zərurətinin mövcudluğunu* müəyyən edir.



Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət *işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.* Məhkəmə icraatı çəkişmə prinsipi əsasında həyata keçirilir. Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə hüququ təmin *olunur. Ədalət mühakiməsi təqsirsizlik prezumpsiyasına* əsaslanır. Azərbaycan Respublikasında məhkəmə icraatı Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq yerin əhalisinin çoxluq təşkil edən hissəsinin dilində aparılır. İşin iştirakçısı olub məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmədə tərcüməçi vasitəsi ilə iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

Naxçıvan Muxtar Respublikasının coğrafi xüsusiyyətləri Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın ümumi sərhədinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb etmişdir. Naxçıvan Muxtar Respublikasının muxtar dövlət kimi quruluşu bütövlükdə Azərbaycan Respublikasının dövlət quruluşundan seçilir. Azərbaycan Respublikası prezidentli respublikadırsa, Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Parlamentinin – Ali Məclisinin sədri Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsidir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Konstitusiyasına görə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

Yerli özünüidarə hər bir demokratik cəmiyyətin ayrılmaz elementidir. Dövlət orqanları bütövlükdə ümumdövlət, ümummilli mənafelərin həyata keçirilməsi ilə məşğul olurlarsa, yerli özünüidarə orqanları ilk növbədə yerli inkişaf mənafelərini təmin edirlər. Bu məqsədlə Konstitusiya seçkili bələdiyyələr sistemini

təsis etmişdir. Bələdiyyələrin səlahiyyətlərinə yerli əhəmiyyətli məsələlərin həlli aid edilmişdir. Eyni zamanda, Konstitusiya müəyyən edir ki, bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri tərəfindən əlavə səlahiyyətlər də verilə bilər. Bu səlahiyyətlərin həyata keçirilməsi üçün bələdiyyə üzrə müvafiq zəruri maliyyə vəsaiti də ayrılmalıdır. Belə səlahiyyətlərin həyata keçirilməsinə müvafiq olaraq qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Konstitusiya quruculuğunda qanunvericilik sisteminə aid müddəaların Konstitusiyaya bilavasitə daxil edilməsi nadir bir haldır. Yalnız bu cür normaların Konstitusiyaya daxil olması ilə qanunvericilik sisteminin stabilliyi və şəffaflığı təmin edilir. Azərbaycan Respublikasının qanunvericilik sisteminə Konstitusiyadan başqa referendumla qəbul edilmiş aktlar, qanunlar, fərmanlar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları daxildir.



## § 3. Demokratik təsisatlar, insan hüquqları və azadlıqları

Azərbaycanda demokratik cəmiyyət qurmaq məqsədi hələ 1991-ci il oktyabrın 18-də qəbul edilmiş, dövlət müstəqilliyi haqqında Konstitusiya Aktında bəyan olunmuşdur. Onda bu çoxlarına asan və tez bir zamanda nail olunacaq bir hədəf kimi görünürdü. Müstəqillik eyforiyasının oyatdığı romantik demokratizm insanları əsassız intizarda qoydu. Vətəndaşlara elə gəlirdi ki, demokratiya onların rifahını təmin edəcək, hər kəsin işi, yüksək maaşı, xoş güzəranı olacaq. Üstəlik, bütün bunlara nail olmaq üçün çox az zəhmət tələb olunacaq.

Belə ümidlərlə hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü səriştəsiz siyasət apararaq, faktiki müharibə vəziyyətində olan və cinayətkarlığın baş alıb getdiyi bir şəraitdə yaşayan cəmiyyətdə, guya demokratik dövlət quruculuğu ilə məşğul idi.

Lakin yalnız Ermənistanın işğalı nəticəsində deyil, həmçinin daxili separatizmin təsiri altında ərazilərinin itirilməsi təhlükəsi ilə üzləşən Azərbaycan cəmiyyəti, getdikcə dərinləşən iqtisadi böhranın məngənəsi altında sıxılaraq, demokratik gələcək haqqında sadəlövh vədlərdən usanmışdı. Belə şəraitdə çoxları anlamağa başladı ki, demokratik dövləti qurmaqdan əvvəl dövlətin özünü qurmaq lazımdır. Dövlət isə sabitlik tələb edir.

Yaxşı məlumdur ki, dağıtmaq qurmaqdan asandır. Sovet rejiminin çökməsi nə qədər zəruri olsa da, bütün təsisatları düşünmədən ləğv etmək, əlaqələri kəsmək və münasibətləri pozmaq öz mənfi təsirini göstərməyə bilməzdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunmuş ərazilərdən zorla çıxarılmış vətəndaşlar, maddi sərvətlərin yaradıcısı olan və iqtisadi böhran nəticəsində iş yerlərini itirmiş insanlar, sovet ideallarının iflasa uğraması nəticəsində məyus olmuş yaşlı nəsil, mənəvi boşluq şəraitində böyüyən gənclər təbii ki, demokratiyanı dəyərləndirmək durumunda deyildilər. Belə olan halda demokratik mühitin yaradılmasından öncə insanlara həyata inamı qaytarmaq lazım idi. Odur ki, 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtmış Heydər Əliyev uzaqgörənliklə düşünülmüş siyasətini ardıcıl olaraq həyata keçirməyə başladı. O, cəmiyyətin inkişaf qanunlarına uyğun olaraq, öncə sabitliyi bərpa etdi, az qala dağılmaqda olan dövləti qorudu və gücləndirdi.

Müstəqilliyimizin on ilinə ötəri nəzər saldıqda, çox əhəmiyyətli bir inkişaf dialektikası aşkar olur: öncə dövlət, sonra möhlət, sonra sərvət. Yəni, əvvəl dövləti yaratmaq, sonra onun müəyyən keçid dövrünü yaşamaq, daha sonra isə dövlətin sərvətlərindən xalqın yararlanması. Heydər Əliyevin hakimiyyətə yenidən gəldiyi gündən gördüyü işlərdə qeyd edilən ardıcıllıq həyata keçirilir.

Demokratiyanı dövlətdən öncə tələb edənlər bir onu anlamırlar ki, demokratiyanı quran da, onu inkişaf etdirən də, qoruyan da dövlətin özüdür. Dövlətsiz demokratiya isə yalnız üç halda mümkündür: ibtidai icma quruluşunda, anarxistlərin təfəkküründə və utopik nəzəriyyələrdə. Müasir dünyada birinciyə qayıdış, ikinci və üçüncü ehtimalların isə gerçəkləşməsi mümkün olmadığından, hər bir xalq demokratiyaya nail olmaq üçün ilk növbədə öz dövlətini qurmalıdır. Azərbaycan xalqı da öz dövlətini qurmaqdadır.

Dövlət quruculuğu çox uzun və ağrılı bir prosesdir. Bu yolda heç kəs itkilərdən və səhvlərdən sığortalana bilməz. Heç kəs zəmanət verə bilməz ki, müəyyən bir müddətdən sonra hər hansı ölkədə demokratiya bərqərar olunacaq. Unutmaq olmaz ki, Azərbaycanın demokratik və inkişaf etmiş bir cəmiyyət olmasını istəməyənlərin də sayı az deyil. Onlar, istər xaricdən, istərsə daxildən ölkəmizdə gedən mühüm islahatlara mane olmaq, azərbaycanlıları demokratiyaya layiq və qadir olmayan bir xalq kimi tanıtmaq istəyirlər. Bu istəyə nail olmağın yolları isə Azərbaycanda sabitliyi pozmaq, etnik qarşıdurma yaratmaq, dini zəmində toqquşmalar təşkil etmək, hakimiyyəti zorla devirmək və sair bu qəbildən olan tədbirləri həyata keçirməkdən ibarətdir.

Azərbaycanı keçmiş SSRİ-nin digər respublikaları, Mərkəzi və Şərqi Avropa ölkələri ilə müqayisə edənlər də bəzən bir şeyi nəzərdən qaçırırlar. Bizdən fərqli olaraq, həmin dövlətlərin ərazisinin 1/5-i işğal olunmayıb, onların 1 milyona yaxın qaçqın və məcburi köçkünü yoxdur. Onlar qanunsuz silahlı birləşmələri tərksilah etmək, dövlət çevrilişlərinin qarşısını almaq zərurəti ilə üzləşməmişlər. Lakin bütün bunlara baxmayaraq, demokratik islahatları ən ardıcıl həyata keçirən ölkələrdən biri məhz Azərbaycandır.

Azərbaycanda baş verən demokratikləşmənin iki vacib xüsusiyyəti vardır. Birinci xüsusiyyət ondan ibarətdir ki, Qərb ölkələrindən fərqli olaraq, Azərbaycanda demokratikləşmə aşağıdan-yuxarıya deyil, əks istiqamətdə gedir. Yəni, əgər Qərbi Avropa dövlətlərində demokratikləşmə xalqın tələbkarlığı nəticəsində baş verirdisə, Azərbaycanda bu proses dövlət təşəbbüskarlığının nəticəsidir. Dövlət idarəetmə üsullarını islah edərək, yeni davranış qaydalarını müəyyən edir və beləliklə, özünün vətəndaşlarla münasibətlərini ikincilərin mənafeləri baxımından qurur. İkinci xüsusiyyət ondan ibarətdir ki, Qərbi Avropa ölkələrinin demokratiyaya doğru uzunmüddətli inkişaf yolundan fərqli olaraq, Azərbaycan bir sıra beynəlxalq təşkilatların tələblərinə riayət edərək həmin inkişaf yolunu daha qısa müddətdə qət etməli olur. Bunun isə həm müsbət, həm də mənfi cəhətləri vardır. Müsbət cəhəti odur ki, Azərbaycan digər dövlətlərin səhvlərini təkrarlamamaq fürsətini əldə edir. Mənfi cəhəti isə odur ki beynəlxalq təşkilatlar vaxtından əvvəl, şəraiti yetişməmiş tədbirlərin görülməsini, cəmiyyətimizin qəbul etməyə hələ hazır olmadığı standartların tətbiq edilməsini tələb edirlər. Üstəlik, bəzi standartların ikili olması dövlətimizə qarşı ayrı-seçkiliyə yol verilməsinə gətirib çıxarır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və onun bilavasitə rəhbərliyi altında həyata keçirilən demokratik, dünyəvi və hüquqi dövlətin qurulmasına yönəlmiş islahatlar dönmədən və ardıcıl davam etdirilir.

Aydındır ki, demokratik təsisatların yaradılması və inkişafı üçün müvafiq zəmin lazımdır. Hər şeydən əvvəl insanların şəxsi təhlükəsizliyi təmin olunmalıdır. Özünü təhlükədə hiss edən insan sərbəst ola bilmir. Buna nail olmaq üçün dövlətimiz nisbətən qısa müddət ərzində bütün qanunsuz silahlı dəstələri ləğv etdi, cinayətkarlığın səviyyəsini əhəmiyyətli dərəcədə azaltdı və beləliklə, əhali üçün dinc şərait və əmin-amanlıq yaratdı. Xüsusi qeyd etmək lazımdır ki, bütün bunlara Azərbaycan dövləti fövqəladə vəziyyət tətbiq etmədən nail ola bildi. Odur ki, qanunları pozmayan vətəndaşlar öz hüquqlarından tam həcmdə yararlana bilirdi.

Təhlükəsiz yaşamaq hüququ təmin olunduqdan sonra vətəndaşlarda hakimiyyətin zorla dəyişdirilməsinin mümkün ola bilməyəcəyinə inam yarandı, demokratik şəraitdə prezident və parlament seçkiləri keçirildi.

Təcrübə göstərir ki, şəxsi və ictimai təhlükəsizlik maddi rifah olmadan çox kövrək olur. Deməli, vətəndaşların sərbəstliyi üçün müvafiq iqtisadi şərait yaradılmalı idi. Bir çox ölkələrin timsalında görmək olur ki, azad bazar münasibətləri olmayan iqtisadi sistem çərçivəsində demokratik təsisatlar yaratmaq ya çox çətindir, ya da heç mümkün deyil.

Sərbəst iqtisadi münasibətlər yaratmaq üçün dövlət özəlləşdirmə siyasətini həyata keçirməkdədir. Bu siyasətin gözlənilən

nəticəsi – özünə güvənən, həyatından razı və dövlətinə tabe vətəndaşlar təbəqəsinin formalaşmasıdır. Yalnız bu tip vətəndaşların əksəriyyət təşkil etdiyi cəmiyyətlərdə tam anlamda demokratik dövlət qurmaq mümkündür.

Azərbaycanda demokratikləşmə prosesi 1995-ci il noyabrın 12-də yeni konstitusiyanın ümumxalq səsverməsi vasitəsilə qəbul edilməsindən sonra sürətləndi. Konstitusiyamızın müqəddiməsində və bir sıra müddəalarında demokratik dəyərlər öz əksini tapmışdır. Burada dövlət hakimiyyətinin yeganə mənbəyinin xalq olması, dövlətin demokratik, hüquqi və dünyəvi olması, idarəçiliyin hakimiyyət bölgüsü əsasında təşkil olunması, insan hüquqları və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi olması kimi təməl prinsiplər təsbit olunmuşdur.

Demokratiya və insan hüquqları bir-biri ilə çox sıx əlaqədədir. Onların əlaqəsi o dərəcədə ahəngdardır ki, demokratiya insan hüquqları, insan hüquqları isə demokratiya olmadan mümkün olmur. Bu baxımdan demokratik təsisatların yaradılması insan hüquqlarına riayət etməklə gerçəkləşir.

Dövlətimizin Əsas Qanununda təsbit edilmiş insan hüquqları və azadlıqları müvafiq beynəlxalq sənədlərdə müəyyən edilmiş standartlara uyğundur. Belə ki, Konstitusiyanın 12-ci maddəsi dövlətin ali məqsədinin insan hüquqlarını təmin etməkdən ibarət olduğunu müəyyən edir. Burada insan hüquqlarının beynəlxalq müqavilələrə uyğun olaraq təmin edilməsi nəzərdə tutulur. Bundan əlavə, Konstitusiyanın 71-ci maddəsi müəyyən edir ki, insan huquq və azadlıqlarına riayət etmək və onları qorumaq bütün hakimiyyət orqanlarının borcudur. Üstəlik, bu hüquq və azadlıqlar birbaşa qüvvədədir, onların həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz və heç bir müddəa onların ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

İnsan hüquqlarının mühüm təminatlarından biri də onların toxunulmaz, pozulmaz və ayrılmaz olmasıdır. Bunun üçün hamı qanun və məhkəmə qarşısında bərabər olmalıdır. Həmin məqsədə nail olmaq üçün isə dövlət hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə onun irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq təminat verir.

İnsan hüquq və azadlıqlarına verilən böyük əhəmiyyətin təzahürü kimi Respublika Prezidenti 22 fevral 1998-ci il tarixli xüsusi fərman imzalamışdır. Həmin fərman Konstitusiyada təsbit



edilmiş insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılması üçün dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir. Onun əsasında 1998-ci il iyunun 18-də insan hüquqlarının müdafiəsi sahəsində dövlət proqramı ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmişdir. Həmin proqram uğurla həyata keçirilir.

Azərbaycan Respublikası dünya dövlətləri birliyinin fəal üzvü olduğunu insan hüquqları üzrə xeyli sayda universal, regional və partikulyar müqavilələrin iştirakçısı olmaqla təsdiqləyir. Burada qeyd etmək lazımdır ki, dövlətimiz müvafiq beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir, onlara məruzələrini təqdim edir və onlardan aldığı tövsiyələrə dürüst əməl edir.

Azərbaycanın beynəlxalq konvensiya və sazişlərə qoşulması ölkəmizdə hüquqi islahatlarla bağlı həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Artıq ölkəmiz son illər ərzində 180-dən artıq belə konvensiyalara qoşulmuşdur. Bu sahədə iş ardıcıl olaraq davam etdirilir.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı yalnız müqavilə öhdəliklərinin yerinə yetirilməsi ilə məhdudlaşmır. Ötən illər ərzində dəvət olunmuş beynəlxalq müşahidəçilər ölkəmizdə keçirilən bütün seçkiləri sərbəst izləyə bilmişlər. Həmin çoxsaylı müşahidəçilər müxtəlif beynəlxalq təşkilatları təmsil edirdilər: Avropa Şurası, BMT, ATƏT, Avropa İttifaqı və sairə. Həmçinin, onların arasında ayrı-ayrı dövlətlərin göndərdiyi nümayəndə heyətləri və qeyri-hökumət təşkilatlarının əməkdaşları da var idi. Bütün bunlar Azərbaycan Respublikasında açıq cəmiyyətin qurulmasına dəlalət edir.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri, şübhəsiz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş bu müstəsna cəza növü, 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv olundu. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 2-ci Protokoluna da qoşuldu. Müqayisə üçün qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında son dəfə ölüm cəzası Xalq Cəbhəsi və Müsavatın hakimiyyətdə olduğu dövrdə icra edilmişdir. Həmin dövrdə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri İsa Qəmbərov 1992-ci il iyunun 16-da ölüm cəzasına məhkum olunmuş 7 nəfərin bağışlanması haqqında vəsatətlərini təmin etməmişdir. Sonradan məlum olduğu kimi, ölüm cəzasına məhkum edilmiş şəxslər barədə İsa Qəmbərovun

fərmanları imzaladığı vaxtda, ümumiyyətlə, Bağışlama Məsələləri Komissiyası mövcud olmamışdır. Belə bir komissiya yalnız 1992-ci il iyulun 12-də yaradılmışdır. Azərbaycan Respublikasının o zamanki Prezidenti Əbülfəz Elçibəy isə 1993-cü il yanvarın 5-də ölüm cəzasına məhkum olunmuş 2 şəxs haqqında bağışlamanın tətbiq edilməməsi barədə fərman imzalamışdır. Hökmlər 1993-cü ilin fevral ayında bu fərmanlar əsasında icra edilmişdir.

Bunun əksinə olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ilin may ayından əfv və amnistiya təsisatları bərpa edilmişdir. Qeyd etmək lazımdır ki, 1996-2001-ci illər ərzində 6 amnistiya aktı qəbul edilmişdir. Bu müddət ərzində amnistiya aktları 63 477 şəxsə tətbiq edilmişdir ki, onlardan 18 895 nəfəri azadlıqdan məhrumetmə yerlərindən azad olunmuşdur. Əfv qaydasında isə 2448 şəxs müxtəlif cəzalardan azad edilmişdir.

Demokratik təsisatların inkişafı üçün birləşmək və fikir azadlıqları çox mühüm rol oynamaqdadır. Görülən bir sıra qanunvericilik və icra tədbirləri nəticəsində bu sahədə də xeyli irəliləyişlərə nail olunmuşdur. Belə ki, siyasi partiyalar, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri haqqında qanunlar beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Bunun göstəricisi olaraq, Azərbaycanda hazırda 39 siyasi partiya, 1350 qeyri-hökumət, o cümlədən 30-a yaxın hüquq müdafiə təşkilatı, 40-dan artıq həmkarlar ittifaqı və 500-dən çox kütləvi informasiya vasitəsi qeydə alınmışdır. Onların hamısı ölkəmizdə sərbəst fəaliyyət göstərir.

Məlumat azadlığının genişləndirilməsi və kütləvi informasiya vasitələrinin işində maneələrin aradan qaldırılması üçün Respublika Prezidenti 1998-ci il avqustun 6-da söz, fikir və məlumat azadlıqlarının təminatı sahəsində əlavə tədbirlər haqqında fərman imzalamışdır. 27 oktyabr 1996-cı ildən fəaliyyət göstərən Mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirrinin mühafizəsi Baş İdarəsi həmin fərmanla ləğv edilərək, AXC-Müsavat hakimiyyəti dövründə vüsət almış senzuraya son qoyuldu. Bununla bütün mətbu və elektron məlumat vasitələri öz fəaliyyətlərində tam sərbəstlik əldə etdilər. Sonradan Mətbuat və İnformasiya Nazirliyinin ləğvi isə dövlətin mətbuat üzərindəki nəzarətini daha da azaltdı.

Demokratik cəmiyyətin formalaşması üçün dini azadlıqlar və etnik azlıqların hüquqları təmin olunmalıdır. Azərbaycanın gələcək inkişafının təməllərindən biri onun çoxkonfessiyalı, çoxmillətli və çoxdilli olmasıdır. Tarixən çoxlu sayda millətlər üçün Vətən olmuş Azərbaycan dövləti heç bir ayrı-seçkiliyə yol vermədən, hər kəsin hüquqlarına imkanı çərçivəsində təminat verir və ictimai həyatda fəal iştirak etməsi üçün şərait yaradır. Buna misal olaraq, ölkəmizdə fəaliyyət göstərən 300-dən artıq dini təşkilatı göstərmək olar.

İnsan hüquqlarının təminatı müvafiq müdafiə mexanizmləri olmadan mümkün deyil. Konstitusiyamız hər kəsə qanunla qadağan olunmamış üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək haqqı verir. Bundan əlavə, hər kəs hüquqlarının pozulması ilə əlaqədar məhkəməyə müraciət edə bilər. Ölkəmizdə aparılmış məhkəmə islahatı, eləcə də yeni qəbul edilmiş prosessual qanunvericilik vətəndaşlarımızın bu hüquqdan istifadə etmək imkanlarını xeyli genişləndirdi.

İnsan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün İnsan hüquqları müvəkkili (ombudsman) təsisatı yaradılır. Bu haqda Konstitusiya qanunu 2001-ci ilin sonunda qəbul ediləcək. Həmin təsisat parlamentlə vətəndaşlar arasında müəyyən vasitəçi rolunu oynayaraq, ikincilərin demokratik sistemin formalaşmasında əhəmiyyətini artıracaq.

Heç bir demokratiya yalnız mərkəzdə bərqərar ola bilmir. Bununla əlaqədar olaraq, Azərbaycanda 1999-cu il dekabrın 12-də uğurla bələdiyyə seçkiləri keçirildi. Bələdiyyələr vətəndaşların yerli özünüidarə təsisatı olmaqla, dövlətdən ayrı, müstəqil şəkildə fəaliyyət göstərirlər.

İnsan hüquqları və demokratiya sahəsində elmi araşdırmalar, analitik tədqiqatlar aparmaq məqsədi ilə Milli Elmlər Akademiyasında İnsan Hüquqları İnstitutu yaradılmışdır. İnstitut fəaliyyət göstərdiyi iki il ərzində demokratik ideyaların təbliği baxımından çox faydalı işlər görmüşdür. Onların sırasında müvafiq məzmunlu kitab və məqalələrin nəşri, seminar və konfransların keçirilməsi, eləcə də qanun layihələrinin hazırlanmasını qeyd etmək olar.

Azərbaycanda demokratikləşmə və insan hüquqlarına riayət istiqamətində aparılan məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq, ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına tamhüquqlu üzv qəbul edilmişdir. Şübhəsiz ki, bu, dövlətimizin üzərinə əlavə öhdəliklər qoyur. Bununla yanaşı, vətəndaşlarımız əlavə müdafiə mexanizminin imkanlarından istifadə edə biləcəklər.

## § 4. Hüquq islahatları

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən və sosialist sistemindən azad olduqdan sonra ölkəmiz demokratik, hüquqi dövlət quruculuğunu özünün inkişaf yolu seçdi. Lakin SSRİ-dən miras qalmış, totalitar rejimə xarakterik olan hüquq sistemi və qanunlar sivil və demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Cəmiyyətin gələcək inkişafı həyatımızın bütün sahələrində olduğu kimi, hüquq sahəsində də islahatların həyata keçirilməsini, tamamilə yeni hüquq və məhkəmə sisteminin formalaşdırılmasını, daha mütərəqqi və demokratik dəyərlərə əsaslanan qanunvericilik bazasının yaradılmasını tələb edirdi.

Yeni hüquq sisteminin bərqərar olması insanların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş, bu da öz növbəsində məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərini müəyyən edərək Azərbaycan dövlətinin ərazisində qanunun aliliyinin təmin edilməsi və azad, müstəqil ədalət mühakiməsinin həyata keçirilməsi üçün şərait yaratmışdır.

Ölkəmizdə hüquq islahatlarının həyata keçirilməsi, o cümlədən məhkəmə-hüquq sisteminin köklü və kompleks qaydada yenidən qurulması üçün hər şeydən əvvəl yeni konsepsiya işlənib hazırlanmalı idi. Bu konsepsiya azad cəmiyyətin formalaşmasına, demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat yaratmalı idi.

Respublikamızda tez bir zamanda, ardıcıl surətdə hüquq islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, hüquq islahatlarının aparılması sahəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə Hüquqi İslahat Komissiyası yaradılmışdır.

Azərbaycanda aparılan hüquq islahatları əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır. Hüquq islahatlarının təməlini isə Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. Konstitusiya həmçinin dövlət fəaliyyətinin və cəmiyyətin inkişafının gələcək modelinin hüquqi əsasını müəyyən edir.



İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə və qanunun aliliyinə nail olmaq üçün məhkəmələrin müstəqilliyinin təmin edilməsi labüddür.

Ölkəmizdə həyata keçirilən hüquq islahatlarının məqsədi və əsas ideyası da məhz bundan ibarətdir.

Hüquq islahatları hər şeydən əvvəl qanunların keyfiyyətinin yaxşılaşdırılmasına və icrasının təmin edilməsinə yönəlmiş kompleks fəaliyyətdir.

Hüquq islahatlarının əsas elementləri qanunların və normativ aktların hazırlanması, hüquqi informasiya sisteminin genişləndirilməsi, məhkəmə və bütövlükdə hüquq-mühafizə sisteminin islahatı, qanunların əhali arasında təbliği və öyrənilməsi kimi mühüm tədbirlərdən ibarətdir.

Hüquq islahatlarının aparılması, əsas insan hüquq və azadlıqlarının və qanunun aliliyinin təmin edilməsi, habelə ölkəmizin Avropa təsisatlarına inteqrasiyası məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" 1996-cı il iyunun 8-də sərəncam imzalamışdır. Həmin sərəncama əsasən Hüquqi İslahat Komissiyasına beynəlxalq standartlara uyğun "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Prokurorluq haqqında", "Bələdiyyələr haqqında" və digər qanun layihələrinin hazırlanması tapşırılmışdı.

Hüquqi İslahat Komissiyası tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının qanunları ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində atılan ilk, lakin çox vacib addım olmaqla müstəqil məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə imkan yaratmışdır.

Konstitusiyanın 130-cu maddəsində Konstitusiya Məhkəməsinin səlahiyyətləri bütövlükdə Konstitusiyanın aliliyinin təmin edilməsinə yönəlmişdir ki, bu da "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 3-cü maddəsinə əsasən məhkəmənin əsas məqsədi kimi qəbul edilir. Həmin məqsədin həyata keçirilməsi üçün Konstitusiya Məhkəməsinə çox geniş səlahiyyətlər verilmişdir.

Ölkəmizdə ilk dəfə olaraq hakimiyyətlərin bölünməsi konsepsiyası, qanunların və normativ hüquqi aktların Konstitusiyaya uyğunluğuna məhkəmə nəzarəti ideyası qəbul edilmişdir.

Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi "Məhkəmələr və hakimlər haqqında" Qanunda inkişaf etdirilərək öz real təminatını tapmış və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaratmışdır.

Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin edilməsinə, vətəndaşların hüquq və azadlıqlarının məhkəmə müdafiəsinin genişləndirilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlmişdir.

Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyəti konstitusiya, mülki, inzibati və cinayət məhkəmə icraatı vasitəsilə həyata keçirilir.

Məhkəmələr tərəfindən çıxarılmış qərarlar Azərbaycan Respublikasının ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır.

Dövlət adından çıxarılmış məhkəmə qərarlarının icrasının məcburiliyinə dair konstitusion normanın real təminatı baxımından "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Qanun böyük əhəmiyyət kəsb edir.

Həmin qanuna əsasən məhkəmə orqanlarının fəaliyyət qaydasını, mülki, iqtisadi mübahisələr və inzibati hüquqpozmalara dair məhkəmə qərarlarının, həmçinin cinayət işləri üzrə azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrasını təmin edən məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti yaradılmışdır.

Cəmiyyətin inkişafı, yeni iqtisadi münasibətlərə keçid prokurorluğun funksiyalarına və statusuna da yenidən baxılmasını zəruri etmişdir. SSRİ dağılanadək prokurorluq hələ 1929-cu ildə yaradılmış vəziyyətdə saxlanılmışdı. Azərbaycan öz müstəqilliyinə nail olarkən bu varisliyi də qəbul etmişdi.

Keçmiş Sovetlər İttifaqında prokurorluq öz mahiyyətinə görə sinfi xarakter daşımaqla, mərkəzləşdirilmiş sistem üzrə qurularaq idarə olunurdu. Prokurorluq orqanları ölkədə, demək olar ki, qeyri-məhdud səlahiyyətlərə malik idi və bu orqan qanunların icrasına nəzarət edilməsi adı ilə bir sıra özbaşınalıqlara rəvac verirdi.

Hakimiyyətlər bölgüsü olmadığı bir şəraitdə prokurorluq hətta məhkəməyə, o cümlədən Konstitusiya Məhkəməsinə aid olan bir sıra funksiyaları da həyata keçirirdi.

Prokurorluqda həyata keçirilən islahatların əsas məqsədi prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət idi.



Prokurorluğun əvvəlki statusu ölkənin gələcək inkişafı ilə uzlaşmırdı. Bununla əlaqədar prokurorluq və digər hüquq mühafizə orqanlarının fəaliyyətini nizama salan, onların statusunu müəyyən edən qanunların hazırlanmasına başlanılmışdı.

Lakin "Prokurorluq haqqında" Qanun layihəsinin hazırlanması və onun qəbulu heç də asan bir proses olmamışdır. Azərbaycan Respublikası prokurorluğu rəhbərliyinin bir qrup mühafizəkar işçiləri sovet dövründən miras qalmış və ölkəmizin inkişafına mane olan geniş səlahiyyətlərini əldən vermək istəmir, hər vəchlə onları qanunun yeni layihəsində də əks etdirməyə çox ciddi səy göstərirdilər.

Məhz bu səbəbdən prokurorluq tərəfindən hazırlanmış və Hüquqi İslahat Komissiyasına təqdim olunmuş layihə keçmiş SSRİ Prokurorluğunun səlahiyyətlərinin hamısını özündə əks etdirən bir sənəd idi.

Yalnız ölkə Prezidenti Heydər Əliyev şəxsən bu məsələ ilə əlaqədar müvafiq göstərişlər verdikdən sonra Komissiyanın işçi qrupu tərəfindən Konstitusiyanın, beynəlxalq hüquq normalarının tələblərinə cavab verən yeni layihə hazırlandı.

Həmin qanun layihəsi Milli Məclisdə müzakirə edilərkən də əsassız bəhanələrlə layihənin qəbul edilməməsi üçün müxtəlif səylər göstərilməkdə idi.

Hər cür müqavimətlərə baxmayaraq, "Prokurorluq haqqında" Qanun, nəhayət ki, 1999-cu ildə qəbul edildi.

Azərbaycan Respublikasının Konstitusiyasında prokurorluq məhkəmə hakimiyyəti fəslinə daxil edilmiş və prokurorluğun funksiyaları xeyli məhdudlaşdırılaraq, vətəndaşların bu orqanların əməkdaşlarının hərəkətlərindən və qərarlarından məhkəməyə şikayət vermək hüquqları müəyyən edilmişdir.

Həmin qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunmuş, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılmışdır.

Bundan əlavə Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş insan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir.

Eyni zamanda prokurorluğun islah-əmək müəssisələrində qanunların icrasına nəzarət funksiyaları da aradan qaldırılmış, prokurorluğun strukturunda mövcud olan və islah-əmək müəssisələrində, nəqliyyatda qanunların icrasına nəzarət edən qurumlar ləğv edilmişdir.

SSRİ-dən qalma və prokurorluq orqanlarına xas olmayan səlahiyyətlərin hamısı yeni qanunla ləğv edilmişdir.

Bu gün prokurorluğun əsas funksiyası ibtidai istintaqa prosessual rəhbərlikdən, təhqiqat və əməliyyat axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarətdən, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirakdan və dövlət ittihamını müdafiə etməkdən ibarətdir.

Qanunda dövlət başçısı, parlament və məhkəmə hakimiyyəti tərəfindən prokurorluğun fəaliyyəti üzərində nəzarət mexanizmi müəyyən edilmişdir.

Keçmiş SSRİ dövründə cəza funksiyalarını həyata keçirən prokurorluq bu gün sözün əsl mənasında qanunun aliliyinin təmin edilməsinə, insan hüquqları və azadlıqlarının müdafiəsinə xidmət edən quruma çevrilmişdir.

"Polis haqqında" Qanunun qəbul olunması hüquq mühafizə orqanları sistemində mühüm yer tutan polisin fəaliyyətini nizama salan qanunvericiliyin əsaslarının yaradılmasına və bu sahədə mövcud olan hüquqi boşluqların aradan qaldırılmasına yönəlmişdir. Vətəndaşların hüquq və azadlıqlarının təminatı, hüquqazidd əməllərdən onların müdafiəsi dövlətin əsas funksiyalarındandır və qanunvericilik bu funksiyaları polis orqanlarının da üzərinə qoymuşdur.

SSRİ dövründə fəaliyyət göstərən milis sovet quruluşuna uyğun, mahiyyətcə sinfi xarakter daşıyan orqan idi və ondan diktatura aləti kimi istifadə edilirdi.

1992-ci ildə hakimiyyətdə olan iqtidar sovet milisinin hüquqi statusunu dəyişmədən və bu orqanın fəaliyyətini nizama salan yeni qanunvericilik bazası yaratmadan iyun ayının 6-da milisin adını polislə əvəz etməklə öz vəzifələrini bitmiş hesab etdi. Şübhəsiz, dövlətin mühüm qurumlarından biri sayılan polisin fəaliyyətinə belə səthi və səriştəsiz münasibət cinayətkarlığa qarşı mübarizədə və sabitliyin bərqərar olunmasında gözlənilən səmərəni verə bilməzdi.

Polisin fəaliyyətinin "Sovet milisi haqqında" reallığımıza və demokratik prinsiplərə cavab verməyən Qanunla nizama salınması və bu qanunun Konstitusiyanın bir sıra müddəalarına, o cümlədən yaşamaq, azadlıq, şəxsi və mənzil toxunulmazlığı hüquqlarına uyğun gəlməməsi təcrübədə xeyli problemlər yaradırdı.



Yeni Qanun bu halların konseptual həllinə imkan yaratdı.

Qanuna görə polisin vəzifəsi Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquqmühafizə orqanı olmaqla insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, dövlətin, fiziki və hüquqi şəxslərin qanuni mənafelərini və mülkiyyətini hüquqazidd hərəkətlərdən qorumaqdan ibarətdir.

Polis öz vəzifələrinə uyğun olaraq ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması və onların açılması, habelə yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətlərində fəaliyyət göstərir. Polisin səlahiyyətləri qanunda dəqiq müəyyən edilmişdir.

Yeni qanunvericilik şəxsin azadlıq, mənzil toxunulmazlığı hüquqlarının məhdudlaşdırılması, fiziki qüvvənin, xüsusi vasitələrin və odlu silahın işlədilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələrini ilk dəfə olaraq dəqiq müəyyən etmişdir.

Polisin fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət etmək hüququ təsbit olunmuşdur.

Əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqi münasibətlərin tənzimlənməsi və əməliyyat-axtarış tədbirlərinin tətbiqində hüquqi təminatlar sisteminin müəyyən edilməsi məqsədilə 1999-cu il noyabrın 11-də "Əməliyyat-axtarış fəaliyyəti haqqında" Qanun qəbul etmişdir.

Bu qanuna görə əməliyyat-axtarış fəaliyyəti insan həyatını, sağlamlığını, hüquq və azadlıqlarını, hüquqi şəxslərin qanuni mənafelərini, dövlət və hərbi sirri, habelə milli təhlükəsizliyi cinayətkar qəsdlərdən müdafiə etməklə həyata keçirilməsinə yönəlmişdir.

Həmin qanunlar "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyası"nın müddəaları nəzərə alınmaqla hazırlanmış və qəbul olunmuşdur.

Hüquq-mühafizə orqanlarında aparılan islahatların fərqləndirici xüsusiyyətlərindən biri də Ədliyyə və Vergilər nazirliklərinə, Dövlət Gömrük Komitəsinə onların statusu nəzərə alınmaqla qanunvericiliklə müəyyən edilmiş işlər üzrə ibtidai istintaqın aparılması səlahiyyətinin verilməsidir ki, bu da cinayət – mühakimə icraatının vəzifələrinin daha dəqiq və vaxtında yerinə yetirilməsinə xidmət edir.

Hüquq islahatları çərçivəsində həyata keçirilən tədbirlərdən biri də "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunmasıdır. Bu qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etmək, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmasına, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə edilməsinə, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaratmışdır.

Avropa Şurası, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti və Dünya Bankının iştirakı ilə hazırlanmış həmin qanun vəkillərin hüquqi statusunu müəyyən edir, ittiham və müdafiə tərəflərinin hüquq bərabərləyini təmin edir, hüquqi müdafiə üzrə konstitusiya ilə müəyyən olunmuş hüquqlara, məhkəmədə ədalətli araşdırma hüququna və vəkilin müstəqilliyinə təminat verir.

Məlum olduğu kimi, penitensiar sistemin (cəzaçəkmə müəssisələrinin) islahatları ölkəmizdə həyata keçirilən geniş miqyaslı islahatlardan kənarda qala bilməzdi. Məşhur "QULAQ" sisteminə xas olan, cəzanı insan şəxsiyyətindən üstün tutan köhnə təfəkkür və stereotiplərin aradan qaldırılması məqsədilə son illər ərzində Azərbaycanda penitensiar müəssisələrin fəaliyyətinin yenidən qurulması üçün hüquqi və təşkilati tədbirlər həyata keçirilmişdir.

SSRİ-nin tərkib hissəsi olmuş Azərbaycanın müstəqil penitensiar sistemi olmamışdır. Bununla əlaqədar beynəlxalq standartlara uyğun, müstəqil penitensiar sistemin yaradılması ən vacib məsələlərdən biri idi. Cəzaçəkmə müəssisələrinin, istintaq təcridxanalarının Daxili İşlər Nazirliyinin tərkibindən çıxarılaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə verilməsi ilə müstəqil penitensiar sistemin əsası qoyulmuşdur. Belə bir təcrübə keçmiş SSRİ respublikaları arasında ilk dəfə Azərbaycanda tətbiq edilmişdir.

Məhz bu addımın atılması penitensiar sistemdə aparılan islahatların başlanğıcı olmaqla, cəzaçəkmə müəssisələrinin idarə olunması baxımından həbs olunmuş şəxslər üçün humanist şəraiti təmin etmək və məhkum olunmuş şəxslərə müasir və mütərəqqi sistem çərçivəsində islah təsiri göstərə bilən ümumi davranış qaydalarının müəyyən edilməsi məqsədilə tətbiq edilmişdir.

Bu tədbirin həyata keçirilməsinin məqsədi cinayət təqibi orqanı ilə təqsirləndirilən və ya məhkum olunmuş şəxs arasında maraqlar toqquşmasının aradan qaldırılmasından ibarətdir.



İslah-əmək qanunvericiliyinin beynəlxalq standartlara və demokratik cəmiyyətin prinsiplərinə uyğunlaşdırılması üçün 2000-ci il iyulun 14-də Cəzaların İcrası Məcəlləsi qəbul olunmuşdur. Məcəllə hazırlanarkən BMT-nin 1955-ci il "Məhkumların davranış qaydalarının minimum standartları", Avropa Şurası tərəfindən qəbul olunmuş "Avropa Penitensiar qaydaları" və digər beynəlxalq aktlar nəzərə alınmışdır.

Azədlıqdan məhrum edilmiş şəxslərin insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə, heç bir ayrı-seçkiliyə yol verilmədən saxlanılması təmin edilmiş, məhbusların hüquqları genişləndirilmiş, penitensiar müəssisələrin islah-təsir sistemində əsaslı dəyişikliklər baş vermişdir.

İslah-təsir sistemi məhbusların cəzadan azad edildikdən sonra cəmiyyətə reinteqrasiya olunmasına, qanunun tələblərinə uyğun hərəkət etmələrinə, həyati ehtiyaclarını öz gücləri ilə ödəmək üçün təcrübə qazanmalarına yönəlmişdir.

Yeni qanunvericiliklə məhbusların hüquqları genişləndirilmiş, şəxsi təhlükəsizlik, vicdan və din azadlıqlarına təminat verilmiş, onların sağlamlığı, tibbi xidmət, sanitar-gigiyena məsələləri və qidalanmaları xeyli yaxşılaşdırılmış, yeni iş yerləri açılmış, ictimai faydalı işlə məşğul olmaq üçün imkan yaradılmış və onlara bir sıra yeni imtiyazlar verilmişdir.

Qanun məhkum olunmuş şəxsin vəkillə senzura olmadan yazışmasına və görüşməsinə, dini etiqad azadlığına, istirahət, dövri mətbuat vasitələrindən və radiodan məlumat almaq hüququna təminat verir, həmçinin cinayət-cəza sisteminin mərkəzi orqanlarına, məhkəmə və digər səlahiyyətli orqanlara bağlı zərfdə ərizə və ya şikayət göndərmək hüququ verir, onun qohumlarla qısa və uzun müddətli görüşlərin vaxtının uzadılmasını nəzərdə tutur.

İslahatlar nəticəsində məhbuslara göstərilən islah təsiri fərdiləşdirilmiş və bu sahədə tədbirlər onların cəmiyyətə, ailə həyatına qayıtmaq, işlə təmin olunmağa kömək edən sosial xidmətlər və ictimai təşkilatlarla əlaqədə həyata keçirilir.

Eyni zamanda Avropa Şurasının tövsiyələrinə uyğun olaraq "Beynəlxalq Qızıl Xaç Komitəsinin azadlıqdan məhrum etmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə" Azərbaycan Respublikasının Hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il iyunun 1-də saziş imzalanmışdır.

Bununla yanaşı, cəza-icra sistemində daxili rejim qaydalarının gücləndirilməsi, nəzarətin və mühafizənin etibarlılığının

təmin edilməsi, penitensiar müəssisələrin əməkdaşları arasında nizam-intizamın, məsuliyyətin, onların peşə hazırlığının artırılması sahəsində xeyli işlər görülmüşdür. Penitensiar müəssisələrə işə qəbul olunan şəxslərin fiziki və mənəvi cəhətdən sağlam olmaları və insanpərvərlik kimi xüsusiyyətləri nəzərə alınır.

Hüquq islahatları zamanı qəbul edilmiş qanunlardan biri də "Notariat haqqında" Qanundur. Notariat fəaliyyəti hüquqi əhəmiyyətli faktların təsdiqi və digər notariat hərəkətlərinin aparılması yolu ilə hüquqi və fiziki şəxslərin hüquqlarının və qanuni mənafelərinin müdafiəsinə yönəlmişdir.

Bu qanun notariat orqanlarının beynəlxalq standartlar səviyyəsində fəaliyyət göstərməsi, həmçinin xüsusi qaydada notariat fəaliyyətinin həyata keçirilməsini nəzərdə tutmuşdur.

Ölkəmizdə yeni məhkəmə sisteminin fəaliyyət göstərməsi üçün qəbul edilməsi zəruri olan qanunlardan biri də Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsidir. Bu məcəllənin 2-3 il ərzində hazırlanması onun üzərində çox gərgin və mürəkkəb iş aparıldığını göstərir. Qanunun hazırlanmasında Avropa Şurasının hüquq məsələləri departamenti və ekspertləri ilə müvafiq məsləhətlər aparılmış və onların tövsiyələri nəzərə alınmışdır.

Qanun beynəlxalq standartlara, Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə tam cavab verməklə yanaşı, son zamanlar qəbul olunmuş digər qanunlarla uzlaşır.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi qanunla cinayət hesab olunan əməli törətmiş hər bir şəxsi ifşa etməyə və cinayət məsuliyyətinə cəlb etməyin mümkünlüyünə, cinayət törətməkdə təqsiri olmayan heç kəsi cinayət prosesini həyata keçirən orqanların vəzifəli şəxslərinin və ya hakimlərin özbaşına hərəkətləri ilə qanunsuz şübhə altına alınmasının, ittiham və ya məhkum etməyin mümkün olmamasına, heç kəsin qanunsuz və ya zərurət olmadan prosessual məcburiyyət tədbirlərinə, insan və vətəndaş hüquq və azadlıqlarının digər məhdudiyyətlərinə məruz qalmamasına yönəlmişdir.

Bu məcəllənin əsas fərqləndirici cəhəti cinayət törətmiş şəxslərin cinayət təqibinin yeni prosedurаlarının müəyyən olunması və cinayət prosesinin bütün iştirakçılarının Konstitusiyada nəzərdə tutulmuş hüquq və azadlıqlarının təmin edilməsidir. Məcəllə həmçinin ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı qeyri-tarazlığı aradan qaldırmışdır. Azərbaycan Respublikasının 2000-ci ildə qəbul olunmuş Cinayət Məcəlləsi də aparılan hüquq islahatlarının mühüm tərkib hissəsidir.



Cinayət Məcəlləsinin vəzifəsi sülhün və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının Konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir. Məcəllə cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyətin, cəmiyyətin və dövlət üçün təhlükəli olub cinayət sayılan əməllərin dairəsini və bu cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir. Məcəllə əvvəlki qanunvericilikdən xeyli fərqlənməklə daha mütərəqqi və təkmilləşmiş normativ hüquqi aktdır.

Azərbaycanda mülkiyyət formalarının bərabərliyinə əsaslanan, yeni iqtisadi münasibətlərə uyğun olan Azərbaycan Respublikasının Mülki Məcəlləsi Almaniya hökumətinin köməyi ilə, Mülki-Prosessual Məcəlləsi isə Azərbaycan hüquqşünasları, Avropa Şurasının mütəxəssisləri və Almaniyanın Texniki Əməkdaşlıq Cəmiyyəti tərəfindən birgə hazırlanaraq Milli Məclisdə qəbul edilmişdir.

Azərbaycan Respublikasının Mülki Məcəlləsi digər şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığına onun iştirakçılarının bərabərliyi əsasında təminat verir, mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, onların hüquqlarını və qanuni mənafelərini müdafiə edir, fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi həyatının və şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qoruyur, mülki dövriyyəni təmin edir, sahibkarlıq fəaliyyətini dəstəkləyir, sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradır.

Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin tələblərinə görə mülki işlər və iqtisadi mübahisələr üzrə ədalət mühakiməsi keçmiş illərdən fərqli olaraq, prokurorun müdaxiləsi olmadan yalnız məhkəməyə aiddir və məhkəmələr tərəfindən qanunla müəyyən olunmuş qaydada həyata keçirilir.

Məcəllə bütün fiziki və hüquqi şəxslərə özlərinin hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədilə məhkəmə müdafiəsindən istifadə etmək hüququna prosessual təminatlar yaradır.

Həm Mülki Prosessual, həm də Cinayət-Prosessual Məcəllələri yeni məhkəmə quruluşuna uyğun olaraq müxtəlif instansiyalı məhkəmələrin arasında yaranmış münasibətləri tənzimləyir, ittiham və müdafiə tərəflərinin, məhkəmə prosesinin digər

iştirakçılarının hüquq və vəzifələrini müəyyən edir, Azərbaycan Respublikasının Konstitusiyası ilə nəzərdə tutulmuş ədalət mühakiməsinin əsas prinsip və şərtlərinin həyata keçirilməsi qaydalarını və prosessual təminatlarını müəyyən edir.

"Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunlar hər kəsin pozulmuş hüquqlarının bərpası üçün iddia ilə təmin olunan kompensasiya hüququnu müəyyən edir.

Hakimlərin və hər an cinayətkarlarla üz-üzə gələn hüquq mühafizə orqanları işçilərinin təhlükəsizliyinin təmin edilməsinin təşkili üçün "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət mühafizəsi haqqında" Qanun qəbul edilmişdir.

Mülki, cinayət və digər işlər üzrə məhkəmə icraatı zamanı keçirilən ekspert tədqiqatlarının obyektivliyini, hərtərəfliliyini və tamlığını təmin etmək məqsədilə "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qəbul olunmuş Qanun bu fəaliyyətin hüquqi, təşkilati əsaslarını və əsas istiqamətlərini müəyyən edir, məhkəmə ekspertizasının təşkili və aparılması zamanı yaranan ictimai münasibətləri tənzimləyir.

Hüquq islahatları çərçivəsində həyata keçirilən qanunvericilik tədbirləri nəticəsində Azərbaycan Respublikasının Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllələri qəbul edilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq yerlərdə özünüidarənin və bələdiyyə işinin təşkili, onların səlahiyyətlərini, bələdiyyələrə seçkilərin keçirilməsini və bələdiyyələrin statusunu müəyyən edən bir sıra normativ hüquqi aktlar, o cümlədən "Bələdiyyələrə seçkilərin qaydaları haqqında", "Bələdiyyələrin statusu haqqında", "Bələdiyyə qulluğu haqqında", "Bələdiyyələrin maliyyə əsasları haqqında", "Bələdiyyələrin nümunəvi nizamnaməsi haqqında", "Bələdiyyə torpaqları haqqında" qanunlar qəbul edilmiş, Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2000-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində bələdiyyələrlə iş və bələdiyyələrə metodiki yardım mərkəzi yaradılmışdır.

1999-cu ilin dekabr ayında ölkəmizdə keçirilən ilk bələdiyyə seçkiləri zamanı 21 mindən artıq bələdiyyə üzvü seçilmiş, 2267 bələdiyyə təşkil olunmuşdur.

Bələdiyyələrin fəaliyyətini nizama salmaq üçün müvafiq təşkilati və digər tədbirlər həyata keçirilmişdir.



Ümumiyyətlə, bələdiyyələrin statusunu və fəaliyyətini nizamlayan 20-dək qanun və əsasnamə qəbul edilmişdir.

Bələdiyyələrlə bağlı qəbul olunmuş qanunlar vətəndaşlara yerli əhəmiyyətli məsələlərin müstəqil və sərbəst şəkildə həll edilməsi hüququnu həyata keçirmək imkanı yaratmışdır.

Ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları korrupsiyaya qarşı tutarlı mübarizə vasitəsinə çevrilmişdir. Ədalətli və səmərəli məhkəmə sisteminin yaradılması dövlət orqanlarının vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə etməsi hallarının qarşısının alınmasında mühüm faktor rolunu oynayır. Elə bu səbəbdən yeni məhkəmə sistemi yaradılarkən iqtisadi mübahisələrə baxılması məqsədilə ölkəmizin tarixində ilk dəfə olaraq yerli iqtisad məhkəmələri, beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikasının iqtisad məhkəməsi və Ali Məhkəmədə iqtisadi mübahisələrə dair məhkəmə kollegiyası yaradılmış, Beynəlxalq arbitraj məhkəməsi haqqında Qanun qəbul edilmişdir.

Son illərdə hüququn, demək olar ki, bütün sahələrini nizama salan yüzlərlə qanunun, həmçinin 20-dək məcəllənin qəbul edilməsi dövlət orqanlarının, o cümlədən məhkəmələrin, ədliyyə və hüquq mühafizə orqanlarının statusunu və fəaliyyət istiqamətlərini müəyyən etməklə hüquqi dövlətin demokratik cəmiyyətdə zəruri olan qanunvericilik bazasını yaratmışdır.

Artıq bəşəriyyət XXI əsrin birinci ilini yaşayır.

Tarixin heç bir dövründə cəmiyyət bugünkü kimi belə iti sürətlə dəyişikliklərə uğramamış, insan faktoru, insan hüquq və azadlıqları günün belə aktual, birinci dərəcəli vacib məsələsinə çevrilməmişdir.

Respublikamızda hüquq islahatları Azərbaycanın tərəqqisi, hər bir vətəndaşın azad cəmiyyətdə yaşaması, hüquqlarının müdafiə olunması, şəxsiyyətin inkişafı naminə həyata keçirilir.

Biz hüquq islahatlarını ardıcıl və dönmədən həyata keçirməklə köhnə qanunlardan yaxa qurtardıq, əvəzində yeni, yüksək ideallara uyğun, mütərəqqi qanunlar qəbul etməklə, insan hüquq və azadlıqlarına təminat verən demokratik, hüquqi, vətəndaş cəmiyyəti qurmaq imkanı əldə etdik.

Dünyada çox az ölkə tapılar ki, belə qısa müddətdə hüquq islahatları sahəsində bu cür nailiyyətlər əldə etmiş olsun.

Deyilənlərin təsdiqi olaraq Avropa ölkələrinin bu sahədəki fəaliyyətinə nəzər yetirmək maraqlı olardı. Belə ki, İtaliyanın yeni Cinayət-Prosessual Məcəlləsinin hazırlanması məqsədilə ölkənin parlamenti 1947-ci ildə xüsusi qanun qəbul etmiş və komissiya onilliklər ərzində məcəllənin bir neçə layihəsini

hazırlamış və nəhayət, 1988-ci ildə, yeni 41 il keçdikdən sonra yeni Cinayət-Prosessual Məcəlləsini qəbul etmişdir.

Qərbi Avropa ölkələrinin mülki məcəllələrindən ən yenisi sayılan Hollandiyanın Mülki Məcəlləsinin hazırlanmasına 1950-ci illərdə başlanılmış və həmin məcəllə 1992-ci il yanvarın 1-də qüvvəyə minmişdir.

Fransanın Cinayət Məcəlləsi üzərində 1974-cü ildə başlanılmış iş 1992-ci ildə Məcəllənin qəbul edilməsi ilə başa çatmışdır. Fransada məhkəmə quruluşunun islahatları isə 20 il müddətində aparılmışdır.

Almaniyanın parlamenti (Bundestaq) 1966-cı ildə cinayət hüququnun islahatı ilə bağlı xüsusi komitə yaratmış və yalnız 1975-ci il yanvarın 1-də yeni Cinayət Məcəlləsi qüvvəyə minmişdir. İsveçin Cinayət Məcəlləsi isə 30 il ərzində hazırlanmışdır.

İnkişaf etmiş həmin Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanın Cinayət-Prosessual və Mülki məcəllələri iki-üç il müddətində hazırlanıb qəbul olunmuş, məhkəmə sisteminin islahatı isə, *demək olar ki, 5 il müddətində başa çatmışdır.*

Hüquq islahatları çərçivəsində qanunlar Avropa Şurasının, digər beynəlxalq təşkilatların mütəxəssislərinin yaxından iştirakı ilə hazırlanmışdır.

Ölkəmizdə hüquq islahatlarının qısa bir müddətdə həyata keçirilməsini və məhkəmə-hüquq sahəsində qəbul edilmiş yeni qanunların keyfiyyətini Avropa ölkələrinin ekspertləri yüksək qiymətləndirmiş, onların demokratik dəyərlərə, Avropa standartlarına, *insan hüquq və azadlıqlarının müdafiəsinə* tamamilə cavab verdiyini təsdiq etmişlər.

Cəmiyyətin sürətlə inkişafı qanunların və bütövlükdə hüquq sisteminin təkmilləşməsini zəruri edir. Müasir dövrdə sosial dəyişikliklər əvvəlki dövrlərdən daha tez-tez baş verir. Hüquq sistemi isə *cəmiyyətdə sosial qoruyucu funksiyaları* həyata keçirərək, həmin sosial dəyişiklikləri sabitliyə, konstruktiv vəziyyətə yönəldir, həyatımızın ən vacib sahələrini əhatə etməklə ictimai inkişafa ciddi təsir göstərir.

Hüquq islahatları çərçivəsində qəbul olunan qanunlar onların nə qədər zəruri və səmərəli olmasını təsdiq etdi və Azərbaycan dövlətçiliyinin azadlıq idealı və hüququn aliliyi prinsipi əsasında formalaşmasına zəmin yaratdı.

*Demokratiya yolu ilə uğurla irəliləyən* müstəqil Azərbaycan Respublikası bu ülvi niyyətlərin bərqərar olunması amalı ilə yaşayır və onların ardıcıl surətdə, mərhələ-mərhələ həyata keçirilməsi istiqamətində öz nailiyyətlərini günbəgün artırır.



### § 5. Müstəqil məhkəmə hakimiyyətinin formalaşması

Məhkəmə islahatının əsas istiqamətləri ölkəmizdə qanunun aliliyinin təmin edilməsi və ədalət mühakiməsinin azad və müstəqil məhkəmə tərəfindən həyata keçirilməsindən ibarətdir.

Ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə son illər ərzində xeyli işlər görülmüş, *müstəqil məhkəmə hakimiyyətinin formalaşmasının və demokratik prinsiplərə* əsaslanan məhkəmələrin yaradılmasının əsası qoyulmuşdur. Respublikamızda aparılan məhkəmə islahatları ölkə başçısının bu sahədə həyata keçirdiyi dövlət siyasətinin məntiqi nəticəsidir.

Məhkəmə-hüquq islahatları konsepsiyasının təməlini təşkil edən Azərbaycan Respublikası Konstitusiyasının 7-ci maddəsində qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyət göstərməsi və öz səlahiyyətləri çərçivəsində müstəqil olmaları təsbit edilmişdir.

Eyni zamanda qanunvericilik digər hakimiyyət qollarının subyektləri tərəfindən ayrı-ayrı funksiyaların yerinə yetirilməsinin qanuniliyinə nəzarət üzrə məhkəmə hakimiyyəti orqanlarına bir sıra səlahiyyətlər vermişdir.

Ölkəmizdə məhkəmələr ədalət mühakiməsi ilə yanaşı həm də yeni səlahiyyətlər kimi məhkəmə nəzarəti funksiyasını həyata keçirir. Belə ki, hər kəsin azadlıq, mənzil və şəxsi toxunulmazlıq hüququnu, şəxsi sirrinin saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və kommersiya sirrini özündə əks etdirən məlumatlar ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi, həmçinin cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və ya qərarları üzərində qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmə nəzarəti həyata keçirilir.

Məhkəmələrə hər kəsin azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq hüququ, şəxsi sirrin, o cümlədən ailə həyatının, yazışmaların, telefon danışıqlarının, poçt, teleqraf və başqa məlumatların saxlanılması hüququnu məhdudlaşdıran hərəkət və qərarlara dair şikayətlərə baxmaq hüququ verilmişdir.

Azadlıq və şəxsi toxunulmazlıq hüququnun təminatı kimi ilk dəfə olaraq qanunvericiliklə həbs olunmuş və tutulmuş hər bir

şəxsin tutulmasının qanuniliyi məsələsinin həll edilməsini məhkəmələrə həvalə etmişdir.

Yeni qanunvericilik cinayət təqibi ilə bağlı hər hansı ayrı-seçkiliyi istisna edir, təqsirsizlik prezumpsiyasına möhkəm təminatlar yaradır.

Beləliklə, ölkəmizdə məhkəmə hakimiyyəti həm qanunverici, həm də icra hakimiyyəti tərəfindən hüquq normalarının, ilk növbədə konstitusion normaların pozulmasının qarşısını alaraq dövlətlə vətəndaş arasında hüquq münasibətlərinin tənzimlənməsində saxlayıcı, tarazlayıcı rol oynayır.

Əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəldilmiş "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 1997-ci ildə qəbul edilməsi və Konstitusiya Məhkəməsinin təşkil olunması hüquqi dövlət qurmaq amalı ilə yaşayan Azərbaycan Respublikasının tarixində mühüm bir hadisə idi.

Bu qanuna əsasən Konstitusiya Məhkəməsinin hakimləri öz səlahiyyətlərini yerinə yetirməkdə müstəqildirlər və yalnız Azərbaycan Respublikasının Konstitusiyasına tabedirlər.

Konstitusion nəzarətin universallığı normativ-hüquqi aktların, demək olar ki, hamısının məhkəmə aidiyyətinə şamil edilməsindən ibarətdir. Bundan əlavə, məhkəməyə Konstitusiyanın və qanunların şərh edilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, Konstitusiyanın müdafiəsinə imkan yaradan digər səlahiyyətlər verilmişdir.

Konstitusiya Məhkəməsinin konstitusion hüquqların müdafiəsi sahəsində mühüm rolu müəyyən edilmişdir. Belə ki, qanunun və ya digər normativ-hüquqi aktın Konstitusiyaya uyğunluğu məsələsinə baxılması hər bir şəxs tərəfindən ümumi məhkəmələrə müraciət etməklə və ya məhkəmə baxışı zamanı iş üzrə tətbiq edilən normativ-hüquqi aktın Konstitusiyanın tələblərinə zidd olması müəyyən edildiyi halda prosesin iştirakçıları tərəfindən qaldırıla bilər. Həmin hüququn təminatı prosessual qanunlarla tənzimlənir.

Azərbaycan Respublikası Prezidentinin Konstitusiya Məhkəməsinin fəaliyyətinin təmin edilməsi ilə əlaqədar imzaladığı fərmana əsasən Konstitusiya Məhkəməsi yüksək statusuna uyğun bina, məhkəmə hakimiyyətinin rəmzləri, hakimlərin xüsusi geyimləri, avadanlıq, rabitə, nəqliyyat, digər zəruri təşkilati-texniki vasitələrlə təchiz olunmuşdur.

Fəaliyyəti ədalət, müstəqillik, kollegial və açıqlıq prinsipləri üzərində qurulmuş Konstitusiya Məhkəməsi təşkil olunduğu



qısa müddət ərzində qanunların şərh edilməsi, onların Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğu və digər məsələlərlə bağlı onlarca işə baxmışdır.

Hüquqi İslahat Komissiyası tərəfindən hazırlanmış vacib qanunlardan biri də "Məhkəmələr və hakimlər haqqında" Qanundur. Bu qanun Avropa Şurasının və Fransa Ədliyyə Nazirliyinin ekspertləri tərəfindən bir neçə dəfə ekspertizadan keçirilmiş və ekspertlərin təklifləri nəzərə alınmaqla 1997-ci ildə parlament tərəfindən qəbul edilmişdir.

Həmin qanunun qəbul edilməsi məhkəmə-hüquq islahatları sahəsində irəliyə doğru atılmış mühüm addım olmaqla müstəqil məhkəmə sisteminin fəaliyyət göstərməsi üçün tutarlı hüquqi baza yaratmışdır.

Qanunla müəyyən edilmişdir ki, Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəlmişdir.

Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsinin və fövqəladə məhkəmələrin yaradılmasının qadağan olunmasına dair bütün demokratik ölkələrin qanunvericiliyində öz əksini tapmış müddəa müstəqil Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində də nəzərdə tutulmuşdur.

Qanunvericilik ədalət mühakiməsinin hakimlərin müstəqilliyinin təmin edilməklə həyata keçirilməsinə təminat verir.

Məhkəmələrin müstəqilliyi hər şeydən əvvəl özünü qanunları tətbiq edən hakimlərin fəaliyyətinə hər hansı müdaxilənin olmamasında göstərir. Məhkəmənin müstəqilliyi həm də ədalət mühakiməsinin düzgün və vaxtında həyata keçirilməsinə təminat verir.

Qanunun tələbinə görə hər hansı bir şəxs tərəfindən və ya hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanunazidd təsir, hədə və müdaxilə edilməsi yolverilməzdir. Hakimlər işlərə heç bir məhdudiyyət qoyulmadan faktlara əsasən qərəzsiz, ədalətlə, qanuna müvafiq və tərəflərin hüquq bərabərliyi əsasında baxırlar.

Hakimlər qərarların qəbul edilməsində də tam müstəqildirlər və bu, hakimlərin müstəqilliyinin əsas şərtlərindən biridir.

"Məhkəmələr və hakimlər haqqında" Qanuna əsasən hakimlərin müstəqilliyi, həmçinin məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi ilə, onların səlahiyyətləri dövründə siyasətsizləşdirilməsi, dəyişməzliyi və toxunul-

mazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının məhdudlaşdırılması ilə, hakimlərin şəxsi təhlükəsizliliyinin təmin edilməsi ilə həyata keçirilir və onlara yüksək hakim adına uyğun maddi və sosial təminatlar verilir.

Hakimlər daxili müstəqilliyə də malik olmalıdırlar. Ədalət mühakiməsinin həyata keçirilməsinin zəruri şərtlərindən biri də məhkəmələrin ədalət mühakiməsini məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan, bütün prosessual tələblərin yerinə yetirilməsinə imkan verən, hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirmələridir. Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır.

Məhkəmələrin müstəqilliyinin təmin olunması üçün qanunvericilik hakimlərin toxunulmazlığına təminat yaradaraq onlara zəruri səlahiyyətlər və bir sıra imtiyazlar vermişdir.

Hakimlər toxunulmazdır və onlar cinayət məsuliyyətinə yalnız qanunda nəzərdə tutulmuş qaydada cəlb oluna bilərlər. Onların səlahiyyətlərinə yalnız qanunda nəzərdə tutulmuş əsaslara və qaydalara müvafiq surətdə xitam verilə bilər. Hakimlərin toxunulmazlığı onların mənzillərinə, xidməti otaqlarına, nəqliyyat və rabitə vasitələrinə, poçt-teleqraf yazışmalarına, şəxsi əmlakına da şamil edilir. Başqa sözlə, hakimlərin şəxsi müstəqilliyinə onların şəxsi təhlükəsizliyi və əmək hüquqlarının müdafiəsi ilə təminat verilir.

Azərbaycan Respublikasında məhkəmə icraatı tərəflərin hüquq bərabərliyi təmin olunmaqla çəkişmə prinsipi əsasında həyata keçirilir.

Respublikamızda ədalət mühakiməsi hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında aparılır və məhkəmələrdə bütün işlərin icraatı açıq şəkildə gedir. Bununla belə qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir.

Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə və yüksək keyfiyyətli hüquqi yardım almaq haqqı təmin olunmuşdur. Qanunda nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Hər kəsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

Məhkəmə qərarlarının qanuniliyi üzərində prokuror nəzarətinin aradan qaldırılması, prokurorun məhkəmədə tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpa edilməsi və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə aidiyyətinin dəyişdirilməsinin qadağan edilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və işlərə qanunvericilikdə nəzərdə tutulmuş hallarda təkbaşına, yaxud peşəkar hakimlərdən ibarət tərkibdə baxılması kimi yeni müddəalar məhkəmə-hüquq sistemində ilk dəfə tətbiq edilir.



Hakimlər öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, eləcə də dövlət tərəfindən təhlükəsizliyinin, mülkiyyətinin qorunması və sosial müdafiə hüquqlarına malikdirlər.

Qanunvericilik hakimlərə geniş hüquqlar verməklə yanaşı onların üzərinə bir sıra vəzifələr də qoyur. Hakimlər ədalət mühakiməsini həyata keçirərkən qanunların tələblərinə dəqiq və dönmədən əməl etməli, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etməli, ədalətli və qərəzsiz olmalı, peşə sirrini və digər məlumatları gizli saxlamalı, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinməlidirlər.

Mövcud qanunvericilik hər kəsin pozulmuş hüquqlarının bərpası üçün məhkəmələrə müraciət etməsinə heç bir məhdudiyyət qoyulmadan imkan yaradır, onların məhkəmələrə etibarının və inamının möhkəmləndirilməsinə təminat verir.

Qəbul olunmuş qanunlar məhkəmə sistemində əsaslı dəyişikliklərin aparılmasına, bu sistemin daha mütərəqqi olmasına, təkmilləşməsinə və müstəqil fəaliyyət göstərməsinə imkan yaratmışdır.

"Məhkəmələr və hakimlər haqqında" Qanunda köhnə məhkəmə quruluşundan tamamilə fərqlənən, beynəlxalq standartlara cavab verən yeni məhkəmə quruluşu nəzərdə tutulmuşdur.

Məlum olduğu kimi, sovet məhkəmə sistemi iki pilləli olmaqla, əlavə olaraq işlərə məhkəmədə nəzarət qaydasında baxılmasını da nəzərdə tuturdu. Ali Məhkəmə həm birinci instansiya, həm də kassasiya instansiyası məhkəməsi funksiyalarını həyata keçirməklə yanaşı qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına nəzarət qaydasında yenidən baxmaq hüququna da malik idi. Sözsüz ki, bir-birinə uyğun olmayan bu funksiyaların Ali Məhkəmədə cəmləşməsi məhkəmə-hüquq islahatlarının konsepsiyasına və ideologiyasına tamamilə zidd idi.

Eyni vəziyyət İqtisad Məhkəməsinin fəaliyyətində də mövcud idi və bu məhkəmə həm birinci, həm də kassasiya instansiyası

məhkəməsi kimi fəaliyyət göstərməklə nəzarət funksiyalarını da həyata keçirirdi.

Mövcud qanunvericilik bu ziddiyyətləri tamamilə aradan qaldırdı və ölkəmizdə Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi məhkəmə piramidasının zirvəsində dayandı.

Hazırda respublikamızda birinci instansiya, apellyasiya və kassasiya instansiyalı, üç pilləli sistem üzrə aşağıdakı məhkəmələr fəaliyyət göstərir: birinci instansiya qaydasında işlərə baxan rayon (şəhər) məhkəmələri, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının Məhkəməsi, hərbi məhkəmələr, Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının Hərbi Məhkəməsi, iqtisadi mübahisələrə dair işlər üzrə yerli iqtisad məhkəmələri, Beynəlxalq müqavilələrdən irəli gələn mübahisələrə dair Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, birinci və apellyasiya instansiya məhkəməsi kimi fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, apellyasiya instansiyası qaydasında işlərə baxan Azərbaycan Respublikasının Apellyasiya Məhkəməsi, Azərbaycan Respublikasının İqtisad Məhkəməsi, kassasiya instansiyası qaydasında işlərə baxan və ali məhkəmə orqanı sayılan Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Üç pilləli məhkəmə sisteminin üstünlüyü ondan ibarətdir ki, bu sistem hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, həmçinin məhkəmə qərarlarından şikayət vermək hüququna təminat verir, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan yaradır. Bu isə öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə zəmin yaradır.

İşlərə üç pilləli məhkəmə sistemi üzrə baxılması həm də onların dəfələrlə müxtəlif instansiyalarda araşdırılmasının qarşısının alınmasına, bununla da süründürməçiliyə səbəb olan, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə, əhalinin məhkəmələrə olan inamının artmasına, dövlətin adından çıxarılan məhkəmə qərarlarının qətiliyinə, mütləqliyinə və onlara hörmətlə yanaşılmasına imkan yaratmışdır.

Məhkəmə xidmətlərinin keyfiyyəti, məhkəməyə hər bir şəxsin müraciət etməsinin mümkünlüyü, məhkəmə sistemindəki çatışmazlıqların aşkar edilməsi, məhkəmə islahatlarının həyata



keçirilməsinin təhlili və məhkəmələrin fəaliyyəti ilə bağlı digər problemlər üzrə Azərbaycan Sosioloji Assosiasiyası tərəfindən 2000-ci ilin iyul-avqust aylarında sosioloji sorğu keçirilmiş və bu prosesdə 1800 nəfər iştirak etmişdir. Sosioloji sorğu zamanı müəyyən olunmuşdur ki, ölkəmizdə əhalinin 24,2 faizi, idarə və müəssisə rəhbərlərinin isə 35,5 faizi məhkəmə xidmətindən istifadə edirlər. Sorğu edilən şəxslərin əksəriyyəti ölkədə fəaliyyət göstərən məhkəmə sistemindən və məhkəmə xidmətinin keyfiyyətindən, səmərəliliyindən və məhkəməyə müraciət etmənin mümkünlüyündən razıdır.

Müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün yeni məhkəmə sisteminin təşkili, məhkəmələrin quruluşunu və hakimlərin statusunu müəyyən edən qanunların qəbul edilməsi ilə yanaşı açıq, ədalətli və effektli ədalət mühakiməsini həyata keçirən layiqli və peşəkar hakimlər korpusunun yaradılması da zəruri şərtlərdən biridir.

Yuxarıda göstərilən sorğu nəticəsində müəyyən olunmuşdur ki, sorğu edilən əhalinin əksəriyyəti məhkəmə orqanları əməkdaşlarının səriştəli, vicdanlı olmasına inanırlar.

Bu baxımdan qanunvericilik hakimliyə namizədlər üçün bir sıra ciddi tələblər irəli sürməklə yanaşı, onların vəzifəyə təyin edilməsinin xüsusi qaydalarını da dəqiq müəyyən etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il dekabrın 1-də "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi ilə əlaqədar tədbirlər barədə fərman imzalamışdır. Bu fərman ölkəmizdə yeni məhkəmə sisteminin yaradılmasında çox böyük əhəmiyyət kəsb etmişdir.

Fərmana uyğun olaraq hakim vəzifələrinə namizədlərin seçilməsi, məhkəmələr və hakimlərlə bağlı digər məsələlərin həyata keçirilməsi üçün qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları ilə qarşılıqlı fəaliyyət göstərən, Azərbaycan Respublikasının Prezidenti yanında Məhkəmə-hüquq Şurası və onun katibliyi yaradılmış, tərkibi və Əsasnaməsi təsdiq olunmuşdur. Bundan əlavə ədalət mühakiməsinin rəsmi emblemi, hakimlərin xidməti vəsiqəsi və xüsusi geyimi haqqında müvafiq qanunlar qəbul edilmişdir.

Əvvəlki illərin təcrübəsindən fərqli olaraq, hakimliyə namizədlərin test üsulu, şəffaf prosedurlar əsasında imtahan və şifahi müsahibə yolu və beynəlxalq müşahidəçilərin iştirakı ilə seçilməsi nəticəsində hakim vəzifəsinə layiq bilinmiş şəxslərin sırasında müxtəlif sahələrdə işləmiş hüquqşünaslar təmsil olunmuşlar.

Yeni hakimlər korpusu müxtəlif qurumlarda çalışan layiqli hüquqşünaslardan formalaşdırılmışdır. Onların 43 faizini əvvəllər hakim işləmiş şəxslər, 16 faizini ədliyyə, 11 faizini prokurorluq orqanlarının əməkdaşları, 10 faizini məhkəmə işçiləri, 6 faizini vəkillər təşkil etmiş, bundan əlavə ali icra və qanunvericilik orqanlarının, daxili işlər və milli təhlükəsizlik orqanlarının əməkdaşları, elmi işçilər, müəllimlər, hərbçilər və digər şəxslər, habelə ölkənin bütün bölgələrindən, xüsusən də işğal olunmuş ərazilərdən olan şəxslər təmsil etmişlər. Hakim seçilmiş şəxslərin 90 faizi Bakı Dövlət Universitetini bitirmiş, 10 faizi isə respublikadan kənarda ali hüquq təhsili almış şəxslərdir. Hakimlərin 14 faizi qadınlardır. Hakimlər sırasında rus, yəhudi, ləzgi, talış, avar və ölkəmizdəki digər milli azlıqların nümayəndələri də vardır. Yaş dərəcəsinə görə hakim korpusu əsasən 40-45 yaş həddində olan şəxslərdən formalaşmış, hakimlərin təqribən 57 faizi təzələnmişdir.

Təyin edilmiş hakimlər Ali Məhkəmənin Plenumunun iclasında Azərbaycan Respublikasının dövlət bayrağı önündə and içmiş və 2000-ci il sentyabrın 1-dən səlahiyyətlərinin icrasına başlamışlar.

Respublikamızda ilk dəfə olaraq hakimlərin demokratik prinsiplərlə, şəffaf prosedur əsasında, aşkarlıq şəraitində, beynəlxalq standartlara uyğun seçilməsi müstəqil məhkəmə hakimiyyətinin formalaşması istiqamətində mühüm addım olmaqla bərabər, həm də tarixi bir hadisədir.

Məhkəmə islahatlarının həyata keçirilməsi nəticəsində ədalət mühakiməsinə hər kəsin maneəsiz müraciət etməsi, qanuna müvafiq qaydada mübahisələrə baxılması üçün şərait yaradılaraq ölkəmizdə müstəqil məhkəmələrin fəaliyyətinə təminat verilmişdir.



# II FƏSIL

# İQTİSADİ VƏ SOSİAL İNKİŞAF

## § 1. Yeni iqtisadi sistemə keçid: iqtisadi siyasətin formalaşması və makroiqtisadi tarazlığın əldə edilməsi

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başlamışdır. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil etmişdir. Lakin müstəqilliyin ilk günlərindən başlayaraq ölkədə baş alıb gedən hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr və səriştəsiz rəhbərlik bu istiqamətdə nəinki dönüş yaratmağa imkan verməmiş, əksinə sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və iqtisadi islahatların aparılması yolunda çoxsaylı əngəllər törətmişdi. Bütün bunların nəticəsi kimi 1991-1993-cü illərdə Azərbaycan Respublikasında müəssisələrin böyük əksəriyyətində istehsal prosesi dayanmış və ya müəssisələr öz gücünün cəmi 15-20 faizi səviyyəsində fəaliyyət göstərmişdi. Həmin illərdə sənayedə illik geriləmə 20-30 faizə, kənd təsərrüfatında – 16-24 faizə, kapital qoyuluşunda 40 faizə çatmışdır. İstehlak mallarının qiymətləri ildə 14-18 dəfə artaraq iqtisadi və sosial sahələrdə dağıdıcı rol oynamışdır. Ölkə iqtisadiyyatını bürüyən tənəzzül və baş alıb gedən inflyasiya əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsinə, onun sosial vəziyyətinin kəskin surətdə pisləşməsinə səbəb olmuşdur.

1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycan Respublikasının rəhbərliyinə gələn Heydər Əliyevin qarşısında çox çətin bir vəzifə dururdu: ölkəni qardaş qırğını təhlükəsindən xilas etmək və hakimiyyət uğrunda silahlı mübarizələrin qarşısını almaq. Yalnız bu problemlərin həllindən və ictimai siyasi sabitlik təmin edildikdən sonra ölkədə dövlət quruculuğu prosesinə başlamaq və iqtisadi islahatları həyata keçirmək mümkün idi. Ölkə rəhbərliyinin və ilk növbədə Azərbaycan Respublikasının

Prezidenti Heydər Əliyevin 1993-1995-ci illərdə uzaqgörən siyasəti və gərgin əməyi nəticəsində ictimai-siyasi vəziyyət normal məcraya salındı və mühüm sosial-iqtisadi problemlərin həllinə başlamaq üçün əlverişli şərait yarandı.

1995-ci ilin əvvəlindən ölkədə demokratik dövlət quruculuğu və bazar iqtisadiyyatına keçid kursu müəyyənləşdirilmiş və onun ardıcıl həyata keçirilməsinə başlanmışdır. Burada strateji istiqamət yeni iqtisadi sistemə transformasiyanı sürətləndirməklə ölkənin təbii ehtiyatlarından və mövcud iqtisadi potensialından istifadənin səmərəsini artırmaq olmuşdur. Bunun üçün iqtisadiyyatın liberallaşdırılması ilə yanaşı keçid dövründə əhalinin sosial müdafiəsinin təmin edilməsi ən ümdə vəzifələr hesab olunurdu. Bu məqsədlə həyata keçirilən xəttin əsasını aşağıdakı prinsiplər təşkil etmişdir:

– müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin yaradılması;

– azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi;

– iqtisadiyyatın sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi;

– iqtisadi münasibətlərdə inhisarçılığın qarşısının alınması və haqsız rəqabətə yol verilməməsi;

– əhalinin rifahının yaxşılaşdırılması və onun sosial müdafiəsinin təmin olunması.

Yuxarıda qeyd olunan prinsiplər əsasında islahatların aparılması hər şeydən əvvəl yeni iqtisadi sistemə keçidin hüquqi bazasının yaradılmasını tələb edirdi. Ona görə də qısa müddət ərzində bu istiqamətdə gərgin iş aparılmış və iqtisadi islahatların hüquqi bazasını təmin edən qanunlar işlənib hazırlanıb və qəbul edilmişdir. Onların içərisində mülkiyyət haqqında, torpaq və aqrar islahatları haqqında, özəlləşdirmə, sahibkarlığın inkişafı, vergi, maliyyə-bank sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, investisiyaların, o cümlədən xarici investisiyaların qorunması, inhisarçılığın aradan qaldırılması və sağlam rəqabətin inkişafı, əhalinin rifahının yüksəldilməsini və sosial müdafiəsini təmin edən qanunlar xüsusi yer tuturdu.

Bu qanunlar ölkə iqtisadiyyatının müxtəlif istiqamətlərində köklü islahatların aparılması üçün şərait yaratdı. Mülkiyyət və dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunlar kütləvi özəlləşdirməyə və sahibkarlığın inkişafına təkan verdi. 1995-1998-ci illərdə dövlət əmlakının özəlləşdirilməsi proqramının yerinə yetirilməsi nəticəsində ölkədə kiçik özəlləşdirmə, demək olar ki, başa çatdı, 28 minədək belə obyekt xüsusi mülkiyyətə



keçdi. Minlərlə ticarət, ictimai iaşə və xidmət obyektlərinin özəlləşdirilməsi bu sahələrdə özəl bölmənin payının kəskin surətdə artmasına səbəb olmuşdur. Hazırda bu sahələrin müəssisələri, demək olar ki, tamamilə özəl iş adamlarına məxsusdur.

Həmin dövrdə eyni zamanda bir çox orta və iri müəssisələr özəlləşdirməyə açılmış və səhmdar cəmiyyətlərinə çevrilmişdi. Bir sıra metallurgiya, maşınqayırma, mebel, tikiş, yeyinti, tikinti, nəqliyyat müəssisələrinin özəlləşdirilməsinə başlanmışdı.

Aqrar bölmədəki islahatlar öz radikallığı və sürəti ilə nəinki Azərbaycan iqtisadiyyatının digər sahələrində aparılan islahatlardan, hətta Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdəki islahatlardan əsaslı surətdə fərqlənərək ölkədə özəl mülkiyyətin formalaşmasında və sahibkarlığın inkişafında xüsusi rol oynamışdır. Qısa müddət ərzində torpağın özəl mülkiyyətə verilməsi, onun üzərində mülkiyyətçinin tam sahiblik hüququnun təmin edilməsi, 2000-ə qədər sovxoz və kolxozun ləğvi, 35 minə yaxın müxtəlif formalı yeni təsərrüfatların yaradılması bu sahənin dinamik inkişafına güclü təsir etmişdir.

İslahatların ilkin mərhələsində iqtisadiyyatın, o cümlədən ticarətin tam liberallaşdırılması sahəsində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət onun dünya iqtisadiyyatına inteqrasiyasını xeyli sürətləndirdi. Xarici investorlara münasibətdə "açıq qapı" siyasətinin tətbiqi, ixrac mallarının kvotalardan və gömrük rüsumlarından azad olunması, idxal mallarına isə maksimum 15 faiz səviyyəsində gömrük rüsumunun tətbiqi ölkədə istehsalın və xarici iqtisadi əlaqələrin miqyasının artmasına kömək etmişdir.

İslahatlara başlanğıc ərəfəsində həyata keçirilən ən mühüm tədbirlərdən biri Azərbaycanın milli valyutasının – manatın dövriyyəyə buraxılmasıdır. 1994-cü ilin əvvəlindən manatın ölkədə yeganə ödəniş vasitəsi kimi istifadəsinə başlanması və xarici valyutalara nisbətən onun məzənnəsinin sabit saxlanılması istiqamətində görülən işlər bütövlükdə maliyyə və bank sisteminin möhkəmlənməsinə böyük dəstək vermişdir.

İqtisadi sistemin yeni münasibətlər əsasında formalaşması və iqtisadi proseslərə dövlətin müdaxiləsinin məhdudlaşdırılması onun bazar iqtisadiyyatı prinsiplərinə uyğun idarəetmə aparatının formalaşması zərurətini yaratmışdır. Bunu nəzərə alaraq bu sahədə köklü islahatların aparılmasına başlanmış, bir çox nazirliklərin və digər dövlət orqanlarının işinin təkmilləşdirilməsi, onların səlahiyyətlərinin və funksiyalarının dəyişdirilməsi, lüzumsuz qurumların ləğvi və yenilərinin yaradılması istiqamətində davamlı iş aparıldı.

1993-1995-ci illərdə ölkədə ictimai-siyasi sabitliyin yaranması sayəsində həyata keçirilən islahatlar iqtisadiyyatda 80-ci illərin sonlarından davam edən geriliyin qarşısını almağa və 1996-cı ildən başlayaraq bir çox sahələrdə, xüsusilə də makroiqtisadi göstəricilərdə irəliləyişin əldə edilməsinə imkan vermişdir. Belə ki, ümumi daxili məhsulun artımı 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə – 5,8 faiz, 1998-ci ildə – 10 faiz, 1999-cu ildə – 7,4 faiz, 2000-ci ildə – 11,4 faiz, 2001-ci ilin altı ayında – 8,4 faiz olmuşdur. Ötən dövr ərzində ümumi daxili məhsul bütövlükdə 52,8 faiz artmışdır ki, bu da MDB məkanında ən yüksək göstəricidir.

Sənaye məhsulunun istehsalında 1997-ci ildən başlayaraq daim artım müşahidə olunur. 2000-ci ildə artım 6,9 faiz, 2001-ci ilin altı ayında isə 5,1 faiz olmuşdur. Demək olar ki, sənayenin bütün sahələrində, o cümlədən neft və qaz, kimya və neft-kimya, maşınqayırma və metal emalı, tikinti materialları sənayesi sahələrində nəzərə çarpan irəliləyiş nəticəsində məhsul istehsalının həcmi çoxalmışdır.

Kənd təsərrüfatında aparılan köklü islahatlar heyvandarlıqda əsaslı dönüş yaratmış, ət və digər heyvandarlıq məhsullarının istehsalı demək olar ki, əhalinin tələbatını təmin edəcək səviyyəyədək yüksəlmişdir. Əgər əvvəllər ölkədə ət və ət məhsullarına olan tələbatın çox hissəsi idxal hesabına ödənilirdisə, hazırda bu problem tamamilə aradan qaldırılmışdır. 1995-2000-ci illərdə ət istehsalı 33 faiz, süd istehsalı 25 faiz, yumurta istehsalı 19 faiz artmışdır. Həmin illərdə iri buynuzlu mal-qaranın sayı 340 min baş artaraq 2 milyon başa, qoyun və keçilərin sayı isə 1442 min baş artaraq 6,1 milyon başa çatmışdır.

Son illər eyni zamanda taxıl, kartof, tərəvəz, meyvə, bostan məhsulları, tütün istehsalında da artım müşahidə olunur. 2000-ci ildə 1995-ci illə müqayisədə taxıl istehsalı 67 faiz, kartof – 3 dəfə, tərəvəz – 84 faiz, meyvə – 47 faiz, bostan məhsulları – 6,2 dəfə, tütün istehsalı 48 faiz artmışdır.

İqtisadi inkişafı təmin edən əsas amillərdən biri kapital qoyuluşunun dinamikasıdır. Belə ki, kapital qoyuluşuna yönəldilən investisiya istehsalın artması ilə yanaşı yeni müəssisələrin, təhsil, səhiyyə, yaşayış və digər sosial obyektlərin tikilib istismara verilməsinə, yeni iş yerlərinin yaradılmasına xidmət edir. Ona görə də Azərbaycan Respublikasının iqtisadi siyasətində investisiyaların, o cümlədən xarici investisiyaların həcminin ildən-ilə artırılması öncül sahələrdən sayılır. Bu siyasətin nəticəsi olaraq 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 33,6 trilyon manat investisiya



yönəldilmişdir. Həmin dövrdə xarici investisiyaların həcmi 5,8 milyard dollar olmaqla ümumi investisiyaların 71 faizini təşkil etmişdir. Onların içərisində 4,6 milyard dollar (və ya 79 faiz) birbaşa investisiya, 1,2 milyard dollar isə maliyyə kreditləri olmuşdur. 1995-2000-ci illərdə ölkəyə daxil olan investisiyaların 57 faizi (və ya 3,3 milyard dolları) neft sənayesinin inkişafında istifadə olunmuşdur.

Azərbaycan Respublikasının iqtisadi siyasətinin öncül istiqamətlərindən biri müstəqil dövlətin neft strategiyasının hazırlanması olmuşdur. Müəllifi Heydər Əliyev olan bu strategiyanın həyata keçirilməsinə 1994-cü ilin sentyabrında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə 6 xarici ölkəni təmsil edən 10 tanınmış neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan bölməsindəki Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında fəaliyyət müddəti 30 il olan müqavilənin imzalanması ilə başlanmışdır. "Əsrin müqaviləsi" adını almış bu müqavilə üzrə aparılan işlər qısa müddət ərzində Azərbaycanın sosial-iqtisadi həyatına müsbət təsir göstərdi.

Beləliklə, iqtisadiyyatın bütün sahələrində aparılan islahatların qısa zaman kəsiyi ərzində verdiyi çoxsaylı müsbət nəticələr bir daha Azərbaycan Respublikası rəhbərliyinin əzmlə həyata keçirdiyi iqtisadi siyasətin düzgünlüyünü sübut edir. Ölkədə makroiqtisadi tarazlığın əldə olunması və sosial-iqtisadi vəziyyətin yaxşılığa doğru dəyişməsi barədə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi nüfuzlu beynəlxalq maliyyə təşkilatlarının rəyləri Azərbaycanın yaxın gələcəkdə iqtisadi baxımdan inkişaf etmiş ölkələr sırasına qatılacağına ümidlə baxmaq imkanı verir.

## § 2. Müstəqil Azərbaycanın neft strategiyası

Neft bəşəriyyətin həyatında misilsiz rol oynayan ən mühüm təbii sərvətlərdən biridir. Onun kəşf olunması, istehsalı və geniş istifadəsi dünyada elmin, texnikanın, iqtisadiyyatın, xüsusilə sənaye istehsalının sürətli inkişafına güclü təkan verərək insan həyatında köklü dəyişikliyin yaranmasına səbəb olmuşdur.

XX əsr mühüm hadisələrlə zəngin olmuşdur. İnqilablar, çevrilişlər, müharibələr, təbii fəlakətlər və sairə xalqların həyatında silinməz izlər qoymuşdur. Lakin qətiyyətlə deyə bilərik ki, müasir dövrü səciyyələndirən, onun simasını müəyyən edən başlıca cəhət elmi-texniki tərəqqinin misli görünməmiş geniş vüsət alması olmuşdur. Demək olar ki, əldə edilmiş bütün elmi-texniki nailiyyətlərin təməlində isə məhz neft durur. Enerji mənbəyi, yanacaq məhsulu kimi nefti əvəz edə biləcək müxtəlif maddələr və üsullar tapmaq yolunda aparılan axtarışlarda bir çox uğurlar qazanılsa da, təbiətin bəşəriyyətə bəxş etdiyi bu olduqca əlverişli xammalın tam ekvivalenti hələ ki, tapılmamışdır.

Neftin dünya iqtisadiyyatının inkişafında oynadığı böyük rol onu ayrı-ayrı ölkələrin daxili və xarici siyasətinin, beynəlxalq siyasətin təsirli amillərindən birinə, mühüm geosiyasi və geostrateji faktora çevirmişdir. Neft mənbələri, neft kəmərləri, neft bazarları uğrunda gedən kəskin mübarizə dünyada qüvvələr nisbətinin formalaşmasına, beynəlxalq siyasətin gedişinə öz güclü təsirini bu gün də göstərməkdədir.

Azərbaycanın neft sərvətləri qədim zamanlardan dünyaya məlum idi. Neftin quyulardan çıxarılması təcrübəsi də uzun əsrlərlə hesablanır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan neft fontan vurmuş və bu hadisə "qara qızıl"ın sənaye üsulu ilə çıxarılmasının başlanğıcı kimi tarixə yazılmışdır.

Azərbaycan 1899-cu ildə neftin çıxarılması və emalı üzrə dünyada birinci yerə çıxmış və o, dünya neft hasilatının yarısını vermişdi. XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesinə xarici kapital axını gücləndi. Burada əsas mövqeləri ingilis, fransız, amerikan, isveç və alman kapitalı tuturdu. Xarici investorlarla yanaşı milli burjuaziya da formalaşmağa başladı.

1918-ci ildə Azərbaycanın müstəqilliyinin elan olunması ilə xalqımız öz tarixində ilk dəfə olaraq öz sərvətlərinin sahibi oldu. Lakin bu tarixi zaman kəsiyində yaranmış geosiyasi vəziyyət



nəticəsində Bakı onun neft sərvətlərini əldə etmək məqsədini güdən müxtəlif qüvvələrin çəkişmə meydanına çevrildi.

Cəmi bir neçə ay hakimiyyətdə olmuş "Bakı kommunası" 1918-ci il iyun ayının 20-də bütün neft sənayesinin milliləşdirilməsi barədə dekret verdi ki, bu da fəaliyyətdə olan neft mədənlərinin işinin tam pozulmasına səbəb oldu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra 1920-ci il mayın 24-də neft sənayesinin milliləşdirilməsi barədə yenidən dekret verildi. Dağıdılmış neft mədənlərinin və zavodların bərpası üçün Bakıya yeyinti məhsulları, xüsusi geyim, avtonəqliyyat, avadanlıq gətirildi. Bununla yanaşı yeni texnika və texnologiyanın tətbiqinin neft sənayesindəki rolu artmağa başladı.

Azərbaycan İkinci dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verməklə cəbhəni yanacaqla təmin edərək alman faşizminin məğlubiyyətə uğradılmasında böyük rol oynadı. Demək olar ki, bu mühərriklər müharibəsində Bakı nefti həlledici amillərdən biri oldu.

1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr məsafədə, o zaman üçün unikal yataq sayılan Neft Daşlarında vuran fontan dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanmasını dünyaya xəbər verdi. Azərbaycan dünya təcrübəsində birinci olaraq açıq dənizdə neft çıxarmağa başladı.

Ölkəmizin ən böyük nailiyyətlərindən biri də dəniz neft-qaz yataqlarının kəşfi və işlənməsidir. 1970-1980-ci illər Azərbaycan neftçiləri tərəfindən dənizin daha dərin sahələrinin mənimsənilməsi ilə səciyyələnmişdir. Məhz bu dövrdə görülən məqsədyönlü tədbirlər nəticəsində neft sənayesi möhkəmlənmiş və onun geniş infrastrukturu yaranmışdır. Azərbaycanda dəniz yataqlarının işlənilməsi üçün qazma qurğuları, dənizdə tikinti işlərini təmin etmək üçün xüsusi gəmilər, texnika və avadanlıq gətirilmiş, Bakı Dərin özüllər zavodu tikilmişdir. Bununla yanaşı neft emalı, neft-kimya sənayesi və neft maşınqayırmasının inkişafında böyük sıçrayış olmuşdur.

Keçmiş Sovet İttifaqının hər yerində yeni neft yataqlarının aşkara çıxarılmasında Azərbaycanın qüdrətli elmi-texniki potensialının mühüm yeri vardır. Təsadüfi deyildir ki, Rusiyanın neft regionları "İkinci Bakı", "Üçüncü Bakı" kimi adlandırılırdı.

Sovet İttifaqının dağılması və ənənəvi istehsal əlaqələrinin qırılması neft və qaz həcmlərinin durmadan aşağı düşməsinə neqativ təsir göstərdi.

Azərbaycan Respublikası 1991-ci il oktyabr ayının 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul olunmasından

sonra o dövrün səriştəsiz hakimiyyət dairələrinin yaramaz fəaliyyəti nəticəsində uçurum qarşısında dayanmışdı. A.Mütəllibov, Müsavat-AXC iqtidarı dövründə həm sosial-iqtisadi, həm də ictimai-siyasi cəhətdən atılan uğursuz addımlar respublika həyatının bütün sahələrində öz mənfi təsirini göstərdi.

Neft sənayesində də illərlə mövcud olan və səlis işləyən istehsalat əlaqələri pozulmuş, sərmayə qoyuluşu ixtisar olunmuş, kəşfiyyat və istismar qazmasının həcmi kəskin surətdə azalmış, nəticə etibarilə isə, neft və qazın hasilatı aşağı düşmüşdü. Maliyyə vəziyyətində, əsas fondların və neft avadanlıqlarının yeniləşdirilməsində böhran son dərəcə dərinləşmişdi.

1987-ci ildən etibarən hasilat 13,8 milyon ton neft və 12,5 milyard kub metr qazdan, 1993-cü ildə 10,3 milyon ton neft və 6,8 milyard kub metr qaza kimi aşağı düşmüşdü və hasilatın illik aşağı düşməsi tempi neft üzrə 7,1%, qaz üzrə isə 13,5% təşkil edirdi. Kəşfiyyat qazmasının həcmi 1970-ci ildəkinə nisbətən 17 dəfə aşağı düşmüş və ya 170 min metrdən azalıb 1995-ci ildə 10 min metr olmuşdur.

Yalnız 1993-cü ildən etibarən xalqın iradəsi, çağırışı və təkidi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyevin gecə-gündüz yorulmadan çalışması, respublikada ictimai sabitlik yaranması yolunda atılan addımların nəticəsində Azərbaycanın siyasi və iqtisadi həyatında mühüm dönüşlərin başlanğıcı oldu. Ölkə rəhbərinin apardığı ardıcıl siyasi kurs, bir çox dövlətlərlə yaratdığı isti münasibət xarici ölkələrin, beynəlxalq aləmin ölkəmizlə qarşılıqlı əlaqələr qurmasına gətirib çıxartdı. Hüquqi, dünyəvi dövlət yaratmaq, iqtisadi islahatlar aparmaq və bazar iqtisadiyyatının prinsiplərini tətbiq etmək, xalqın maddi və mənəvi cəhətdən təmin olunmasını fəaliyyətinin əsas istiqaməti seçən möhtərəm Heydər Əliyev iqtisadiyyatımızın dirçəldilməsi sahəsində böyük işlər gördü.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ildə əsasını qoyduğu və sonrakı illərdə uğurla həyata keçirdiyi neft strategiyası və konsepsiyası çox mühüm strateji əhəmiyyət daşıyan nailiyyətlərdəndir. Bu barədə Prezident Heydər Əliyev belə demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

Prezident Heydər Əliyevin vaxtında gördüyü qəti tədbirlər nəticəsində neft və qaz təsərrüfatının dağılmasının qarşısı



alındı, neft sənayesində canlanma baş verdi və Azərbaycanda neft və qaz hasilatının aşağı düşməsi tempi dayandırıldı. Belə ki, 1996-cı ildə neft hasilatının aşağı düşməsi tempi 0,7%, 1997-ci ildə 0,3% olmuş, 1998-ci ildən isə neft hasilatı sabitləşmişdir. Qaz hasilatının isə aşağı düşməsi tempi 1998-ci ildə 6,3% olmuş, 1999-cu ildə isə tamamilə dayandırılmışdır.

İldən-ilə artan səmərəli tədbirlər nəticəsində neft və qaz yataqlarında qazma işləri bərpa edildi, istismar quyularının qazılmasının həcmi artırıldı, geoloji-texnoloji tədbirlər keçirildi, quyuların sabit iş rejimini təmin etmək məqsədi ilə mövcud kompressor stansiyaları təmir olundu və yenidənqurma işləri aparıldı, yeni istehsalat obyektləri istifadəyə verildi və bununla neft sənayesinin infrastrukturu xeyli möhkəmləndirildi. Ümumiyyətlə, dəniz neft yataqlarında 1994-2000-ci illər ərzində qazmadan 253 yeni quyu mənisənilmiş, fəaliyyətsiz fonddan 652 quyu istismara qaytarılmış, optimal iş rejimini təmin etmək üçün minlərlə texniki və geoloji tədbirlər həyata keçirilmişdir.

Qısa bir zamanda neft emalı sahəsində də böyük müsbət dəyişikliklər əldə olundu. 1994-1995-ci illərdə "Azərneftyağ" İstehsalat Birliyində xarici şirkətlərin köməyi ilə ən müasir texnologiya və yüksək məhsuldarlığa malik iki yeni neft emal qurğusu inşa olunub istismara verilmişdir ki, bu da yüksək keyfiyyətli açıq rəngli neft məhsulları və yağlar üçün lazım olan qısa fraksiyalar alınmasına şərait yaratmışdır. 2000-ci ildə müəssisədə müasir tipli, illik məhsuldarlığı 250 min ton olan yeni bitum qurğusu quraşdırılmışdır.

1996-1998-ci illərdə "Azərneftyanacaq" İstehsalat Birliyində ELOU-AVT-6 neftin ilkin emal qurğusunun istismar olunduğu 20 il ərzində 90%-ə qədər köhnəlmiş əsas texnoloji avandanlığının, cihazlarının, avtomatika, idarətmə vasitələrinin dəyişdirilməsi nəticəsində açıq rəngli məhsulların çıxımının artmasına və eyni zamanda, istehsalın maya dəyərinin azalmasına nail olunmuşdur. 2001-ci ildə isə ELOU-AVT-6 qurğusunda benzinin, kerosinin və dizel yanacağının tənzimlənməsi blokları və yenidən qurulmuş reagent təsərrüfatında naften turşusunun istehsalı qurğusu istismara verilmişdir.

Müstəqil Azərbaycan Respublikasının yeni tarixinə qızıl hərflərlə həkk olunmuş 20 sentyabr 1994-cü il bugünkü və gələcək nəsillərin yaddaşında əbədi yaşayacaqdır. Məhz bu tarixdə möhtəşəm "Gülüstan" sarayında Azərbaycanla Amerikanın "AMOKO", "Yunokal", "Pennzoyl", "Makdermot", Böyük Britaniyanın "Britiş Petroleum" və "Remko", Norveçin "Statoyl" Rusiya-

nın "LUKoyl", Türkiyənin "Türk petrolları", Səudiyyə Ərəbistanının "Delta" şirkətlərinin yaratdığı konsorsium arasında tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft müqaviləsi imzalandı. Sonradan müqaviləyə Yaponiyanın "İtoçu", Amerikanın "Eksson" və "Amerada Hess" şirkətləri də qoşuldu. "Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan dərhal sonra neft-qaz əməliyyatlarının aparılmasının gündəlik idarə edilməsi və əlaqələndirilməsi məqsədilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı.

"Əsrin müqaviləsi" adı ilə indi bütün dünyada tanınmış bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür.

İlkin neft layihəsi üzrə Azəri-Çıraq-Günəşli dəniz yataqlarında nəzərdə tutulan bütün işlər artıq yerinə yetirilmiş, bu işlər çərçivəsində neft sənayesinin infrastrukturu xeyli müasirləşdirilmişdir. 1995-ci ilin yanvar ayından başlayaraq xarici tərəfdaşlarımızın Azərbaycan Dövlət Neft Şirkətinin və Azərbaycan hökumətinin səmərəli əməkdaşlığı nəticəsində təchizat gəmilərinin, borudüzən barjların, kran gəmisinin yeniləşdirilməsi başa çatdırıldı, layihə üzrə bütün müqavilə sahəsində seysmik məlumatlar yığıldı və təhlil olundu, kəşfiyyat quyuları qazıldı. "Çıraq-1" dəniz platformasının tikintisi yekunlaşdırıldı və neft hasil edən ilk quyu qazıldı, platformadan Səngəçaldakı sahil terminalınadək və Neft Daşlarındakı kompressor stansiyasınadək sualtı boru kəmərləri çəkildi. Səngəçalda sahil terminalı tikildi, Bakı-Novorossiysk neft kəmərində yenidənqurma işləri aparıldı və 1997-ci ilin oktyabr ayında bu neft kəməri istismara verildi. "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng dəniz qazma qurğuları istifadəyə verildi. Sanki bu qurğuların adı da rəmzi məna kəsb edir. Bu bir daha təsdiq edir ki, XXI əsrə addımlayan Azərbaycan öz iqtisadiyyatının dirçəlişində öz istiqlalını, öz müstəqilliyini və öz milli köklərini, milli qaynaqlarını uca tutur. Min ton su qatında kəşfiyyat işləri aparmağa qadir olan daha bir yeni dəniz qazma qurğusunun inşasına başlamaq üçün tədbirlər görülür.

1997-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə "Çıraq-1" platformasında ilk neft quyusunun istismara verilməsinin təntənəli mərasimi oldu. Hazırda burada sutkada 17,3 min tona yaxın neft və 3,1



milyon kub metr qaz hasil edilir, işlənmə dövrünün əvvəlindən isə 16 milyon ton neft və 3,4 milyard kub metrdən artıq qaz çıxarılmışdır.

Qeyd etmək lazımdır ki, kontraktın şərtlərinə görə istismar quyularından neftlə birgə çıxarılan səmt qazı dəyəri ödənilmədən bütövlüklə respublikaya verilir.

Qısa bir zamanda Çıraq yatağının sürətlə işlənməyə daxil edilməsi respublika üzrə neft hasilatının artımına səbəb oldu. Belə ki, əgər 1997-ci ildə 9 milyon ton neft hasil edilirdisə, 1998-ci ildə artıq respublika üzrə neftin hasilatı 11,4 milyon ton, 1999-cu ildə – 13,8 milyon ton, 2000-ci ildə – 14,5 milyon tona çatdı.

1999-cu il aprelin 17-də müstəqil Azərbaycan tarixində fövqəladə əhəmiyyətli hadisə baş verdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze və Ukrayna Prezidenti Leonid Kuçmanın iştirakı ilə uzunluğu 850 kilometr və illik buraxılış qabiliyyəti 5 milyon ton olan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi. Çıraq yatağından hasil olunan neftin "Azəri Layt" adı altında Supsa limanından dünya bazarlarına ixrac edilməsinə başlandı.

İlk dəfə olaraq Azərbaycan nefti şimala yox, qərb istiqamətində axmağa başladı.

Bakı-Supsa ixrac neft kəməri layihəsinin həyata keçirilməsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təkidi ilə olmuşdur. Bu layihənin əleyhdarları deyirdilər ki, əgər Bakı-Novorossiysk neft kəməri "Çıraq-1" platformasından istənilən həcmdə nefti nəql etmək imkanına malikdirsə, əlavə neft kəməri nəyə lazımdır, bu neft kəmərinə yüz milyonlarla dollar sərf etməyə ehtiyac varmı?

Lakin real həyat növbəti dəfə Azərbaycan Prezidentinin uzaqgörənliyini, onun hazırladığı siyasi, iqtisadi, kommersiya və digər risklərin dəqiq hesablanmış balansı və Azərbaycanın uzunmüddətli strateji maraqları üzərində qurulmuş çoxvariantlı ixrac strategiyasının əsaslı olduğunu göstərdi.

Beləliklə, 1994-cü il sentyabrın 20-də imzalanmış və müstəqil Azərbaycanın iqtisadi suverenliyini əks etdirən ilk beynəlxalq neft sazişi iqtisadiyyatımızın dinamik inkişafının əsasını qoydu və onun praktiki nəticələri indi göz qabağındadır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli Fərmanına əsasən hər il sentyabrın 20-nin "Neftçilər günü" peşə bayramı kimi qeyd olunması qərara alınmışdır.

Azərbaycanın imzaladığı sazişlərin həyata keçirilməsi nəticəsində respublikamızda xam neftin illik ixrac potensialı 2010-2015-ci illər üçün ən azı 50-60 milyon ton təşkil edəcəkdir və beləliklə, Azərbaycan çıxarılan neftin həcminə görə İngiltərə, Norveç kimi ölkələrlə eyni səviyyədə olaraq dünyanın ən inkişaf etmiş ölkələri sırasında öz yerini tutacaqdır.

Respublikamızda nəinki neft hasilatının eyni zamanda qaz ehtiyatlarının və yaxın zamanda qaz hasilatının sürətlə artırılması üçün əsaslar yaranmışdır. Bu səpkidə aparılan işlərin sırasında ən mühüm hadisə Şahdəniz blokunda zəngin qaz-kondensat yatağının açılması oldu. Şahdəniz yatağının qəti dəyərləndirilməsi sübut etmişdir ki, ehtiyatların potensialı 1 trilyon kub metrdən artıqdır və bununla Şahdənizin dünyamiqyaslı yataq olduğu təsdiq edilmişdir.

Şahdənizdə axtarış-kəşfiyyat işlərinin nəticələri nəinki Azərbaycan üçün, həm də bütün regionun energetika kompleksinin strukturunun inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Digər sahələrdə, o cümlədən dənizdə – Abşeron, Naxçıvan, Alov, İnam, Lənkəran, Kürdaşı və başqa strukturlarda da işlər aparılır.

Ümumiyyətlə, xarici neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır (bunlardan 15-i dəniz, 6-ı isə quru sahələri üzrədir). Xüsusiyyətlərinə görə bu sazişlər üç növə bölünür:

– işlənmə və hasilat (1 saziş);
– bərpa və hasilat (5 saziş);
– kəşfiyyat (15 saziş).

Bütün sazişlər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bilavasitə iştirakı ilə nəinki Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları – Vaşinqton, Moskva, London, Parisin möhtəşəm saraylarında imzalanmışdır.

Nəticədə Azərbaycanın neft-qaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur ki, bu da respublikamızın gələcək inkişafına əsl qarantdır. Bu məbləğdən 4,5 milyard dollar artıq ölkəmizə investisiya şəklində yatırılıb ki, bunun da 3,7 milyardını birbaşa investisiyalar, 800 milyon dollarını isə bonuslar təşkil edir.

Bu amil respublikamız üçün həm iqtisadi, həm siyasi baxımdan böyük əhəmiyyət kəsb edir, dünya iqtisadiyyat birliyinə inteqrasiyasını daha da sürətləndirmək və xarici sərmayələrin cəlb olunmasına yeni imkanlar yaradır. Xüsusilə qeyd olun-malıdır ki, imzalanmış neft müqavilələri Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan sonra qanun qüvvəsinə minir.



Artıq heç kimə sirr deyil ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin neft strategiyasının uğurları ilk növbədə Azərbaycanın bütün neft şirkətləri üçün açıq olması ilə bağlıdır. Həqiqətən də respublikamız müvafiq şərtlər çərçivəsində hər bir neft şirkəti ilə əməkdaşlıq etməyə hazırdır. Neft siyasətimizin hər cür ayrı-seçkilikdən uzaq olması bütün sərmayəçilərə məlumdur. Məhz buna görə də indi müqavilələrin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Təkcə bu ölkələrin adlarını çəkmək kifayətdir: Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Fransa, İtaliya, Norveç, Rusiya, Türkiyə, Yaponiya, Səudiyyə Ərəbistanı, Belçika, Almaniya, İran, İspaniya və Kanada.

Sərmayəçilərlə münasibətdə ayrı-seçkilik qoyulmaması, qarşılıqlı əlaqələrimizin düzgünlüyü, təmizliyi, ədalətli olması Azərbaycan iqtisadiyyatının başqa sahələrinə də sərmayə cəlb olunmasına yardım edir, eləcə də ölkələrimiz arasında siyasi, mədəni əməkdaşlığın genişlənməsinə, Azərbaycana, Azərbaycan hökumətinin siyasi və iqtisadi xəttinə etimadın artmasına, müstəqil Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir.

Azərbaycandakı əməliyyat şirkətlərinə xidmət göstərən xarici şirkətlərin coğrafiyası daha genişdir. Azərbaycanda fəaliyyət göstərən belə şirkətlər arasında 130-dan artıq Böyük Britaniya şirkəti, 110-a yaxın Amerika şirkəti və Norveçdən, Fransadan, İtaliyadan, Almaniyadan, Yaponiyadan, Rusiyadan və digər ölkələrdən gəlmiş neçə-neçə şirkət vardır.

Ölkəmizin neft strategiyasının ən əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarlarına nəql edilməsindən ibarətdir. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafının, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli buraxılış imkanı ildə 50 milyon ton neft, uzunluğu 1730 kilometr olan yeni – Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinin gerçəkləşməsi üçün gərgin işlər həyata keçirilmiş, aparılan danışıqlar uğurla nəticələnmişdir.

Yalnız Respublika Prezidentinin dünyada yüksək nüfuzu, gündəlik diqqəti və rəhbərliyi nəticəsində, Azərbaycanın maraqlarını yüksək səviyyələrdə qoruyub saxlaması və mütəmadi olaraq müxtəlif dövlət başçıları ilə danışıqları sayəsində Azərbaycan neftinin Türkiyəyə nəql olunması məsələləri qısa müddət ərzində həll olundu və bununla bağlı çox əhəmiyyətli hökumətlərarası sazişlər imzalandı.

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul Zirvə toplantısı gedişində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Gürcüstanın Prezidenti Eduard Şevardnadze və Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzalamışlar.

Eyni vaxtda Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti, Qazaxıstan Respublikası və Amerika Birləşmiş Ştatlarının prezidentləri bu layihəni dəstəkləyən "İstanbul Bəyannaməsi"ni imzalamışlar.

İmzalanmış sənədlərin Azərbaycan dövləti üçün xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu sənədlər toplusunu ratifikasiya olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə təqdim etdi. 2000-ci il mayın 26-da Milli Məclis öz iclasında "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri vasitəsilə nəql edilməsinə dair" Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında sazişin və həmin sazişə əlavə edilmiş sənədlərin, "İstanbul Bəyannaməsi"nin və "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Gürcüstan arasında sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyəti arasında Protokolun təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununu qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev elə səhəri gün bu Qanunu imzaladı. Bununla da, Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin həyata keçirilməsi, Azərbaycanın mənafelərinin uzunmüddətli təmin edilməsi, genişmiqyaslı beynəlxalq əməkdaşlığın həyata keçirilməsi, Xəzəryanı regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən növbəti mühüm addım atıldı. 2000-ci il may ayının 31-də Gürcüstan Parlamenti, iyunun 26-da isə Türkiyənin Böyük Millət Məclisi də bu sənədlər toplusunu ratifikasiya etdi.

Dəyəri 2,4 milyard dollar olan bu tarixi layihə üzrə ilkin mühəndis işləri 2000-ci ilin noyabr ayında başlandı və hazırda uğurla davam etdirilir. Məqsəd Əsas İxrac Boru Kəmərinin 2004-cü ilədək tikilib başa çatdırılması və Xəzər nefti ilə doldurulmuş ilk tankerin yola salınmasıdır.



2001-ci il martın 12-də Türkiyənin Ankara şəhərində daha bir qlobal layihə – Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında "Azərbaycanın Təbii Qazının Türkiyə Cümhuriyyətinə Tədarük Edilməsi haqqında" saziş imzalandı, Heydər Əliyev və Türkiyə Prezidenti cənab Əhməd Necdət Sezər tərəfindən təsdiq olundu.

Neft və qaz kontraktları üzrə aparılan işlər artıq keyfiyyətcə yeni, həlledici mərhələyə daxil olmuşdur. Bu, xüsusilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yatağının, habelə "Şahdəniz" kimi dünya miqyaslı qaz yatağının işlənilməsi, "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Boru Kəmərinin və "Şahdəniz" yatağından təbii qazın ixrac boru kəmərinin tikintisi və istismara verilməsi layihələri ilə bağlı məsələlərə aiddir. Ortaya çıxan problemlərin operativ həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 15 may tarixli sərəncamı ilə xüsusi komissiya yaradılmışdır.

Bu layihələrin gerçəkləşdirilməsi yolunda artıq bir çox konkret addımlar atılmışdır. Gürcüstan Prezidenti E.Şevardnadzenin 2001-ci il sentyabrın 29-da Azərbaycana rəsmi səfəri zamanı Cənubi Qafqaz boru kəməri sistemi vasitəsilə təbii qazın Azərbaycan Respublikası və Gürcüstan ərazilərində və onların hüdudlarından kənarda tranziti, nəqli və satışı haqqında Azərbaycan Respublikası ilə Gürcüstan arasında saziş imzalanmışdır.

2001-2004-cü illərdə bu dörd layihənin həyata keçirilməsi üçün 9-13 milyard ABŞ dolları məbləğində sərmayə qoyulacaq, nəticədə neft və qaz hasilatı sürətlə artacaq və dünya bazarlarına ixrac olunacaqdır. Müvafiq olaraq Azərbaycanın gəlirləri də artacaq və bu da ona yaxın illərdə bir çox sosial problemləri həll etməyə, xalqımızın rifahını yüksəltməyə, bütün vətəndaşları layiqli işlə, təhsillə, tibbi və sosial xidmətlərlə təmin etməyə, uğurla fəaliyyət göstərən bazar iqtisadiyyatına malik, inkişaf etmiş və demokratik ölkəyə çevrilmək imkanı verəcəkdir.

Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair sazişlərin həyata keçirilməsindən Azərbaycan Respublikasının əldə etdiyi valyuta və digər vəsaitlərin yığılması, səmərəli idarə və istifadə olunması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli fərmanına uyğun olaraq Dövlət Neft Fondu yaradılmışdır.

Hazırda Dövlət Neft Fondunda 433 milyon ABŞ dollarından artıq vəsait yığılmışdır. Ən vacib, ən mühüm amil isə Neft Fondunu Azərbaycanın gələcək nəsilləri üçün saxlamaqdır. Buna görə də Neft Fondu Azərbaycan Respublikası Prezidentinin nəzarəti altındadır.

Respublikada yaradılmış istehsal potensialı ən yaxın gələcəkdə neft və qaz hasilatının artırılmasının çox böyük perspektivləri, ölkənin əlverişli siyasi vəziyyəti Xəzər bölgəsində Azərbaycanın neft biznesi mərkəzi kimi mövqelərinin möhkəmlənməsi üçün real amillərdir.

1994-cü ildən başlayaraq hər il Bakıda artıq gözəl ənənəyə çevrilmiş "Xəzər neft, qaz, neftayırma və neft kimyası" Beynəlxalq sərgi və konfransı keçirilir. Beynəlxalq neft-qaz sərgiləri, konfransları içərisində Hyuston, Aberdin, Stavanqer şəhərləri ilə bərabər, artıq Azərbaycanın paytaxtı – Bakıda keçirilən "Xəzərneftqaz" sərgisi dünyada özünəməxsus yerini tutmuş və bu sahədə çalışan minlərlə mütəxəssislər və iş adamlarının beynəlxalq görüş yerinə çevrilmişdir.

Hər ölkənin neft siyasətini müəyyənləşdirən əsas amillərdən biri neft və qaz ehtiyatlarıdır. İndi Azərbaycanda bütün kateqoriyalar üzrə karbohidrogen ehtiyatları 4 milyard tondan çoxdur ki, bu da Azərbaycanı dünyanın ən iri neft regionları sırasına çıxarır. Bununla yanaşı qeyd etmək lazımdır ki, respublikanın və onun akvatoriyasının təki Şimal dənizi, Meksika körfəzi, ABŞ və sair məşhur regionlara nisbətən çox az kəşf edilmiş və öyrənilmişdir. Deməli, ehtiyatlarımız qat-qat çoxdur.

Potensial imkanları və atılan əməli addımları nəzərə almaqla deyə bilərik ki, adambaşına düşən ehtiyatların həcminə, cari neft hasilatına və onun emalına görə Azərbaycan bir çox ölkələrdən xeyli yüksəkdə durur. Buna görə də müvafiq məqsədyönlü investisiya siyasəti aparmaqla Azərbaycan ildə 40-50 milyon ton neft çıxarmaq və ildə 25 milyon ton neft emal etmək imkanı qazanaraq dünyanın ən çox inkişaf etmiş ölkələri sırasında olmaq perspektivinə malikdir.

Azərbaycan Xəzər dənizinin nəhəng enerji potenisalını ilk mənimsəyən və regionun inkişafında keyfiyyətcə yeni iqtisadi modeli formalaşdıran, Avropa və Asiya arasında siyasi və ticarət əlaqələrinin genişləndirilməsində, Qafqaz nəqliyyat dəhlizinin inkişafında, İNOQEYT, TRASEKA və digər nəhəng layihələrin gerçəkləşməsində Xəzəryanı və Qafqaz regionunda mühüm rol oynayan bir dövlətə çevrilmişdir.



## § 3. İnvestisiya siyasəti

Müstəqilliyin ilk illərində məlum səbəblər üzündən ağır vəziyyətə düşmüş iqtisadiyyatı böhran vəziyyətindən çıxartmaq üçün Azərbaycan Respublikasının hökuməti tərəfindən həyata keçirilən tədbirlər sırasında investisiya siyasəti xüsusi əhəmiyyət kəsb edir.

Bazar iqtisadiyyatı şəraitində yalnız müasir texnologiyalı müəssisələrdə rəqabətə davamlı məhsul istehsal etməklə daxili və xarici bazarlarda ölkənin mövqeyinin möhkəmləndirilməsinin mümkünlüyünü nəzərə alaraq, məhdud maliyyə imkanlarından səmərəli istifadə etmək və xarici investisiyaları cəlb etməklə iqtisadiyyatı dirçəltmək ən mühüm vəzifə sayılır.

İnvestisiya siyasətinin həyata keçirilməsində həmin illərdə yaradılan hüquqi baza, ilk növbədə qəbul olunan qanunlar (Xarici investisiyaların qorunması, İnvestisiya fəaliyyəti haqqında və s.), eyni zamanda ölkəyə investisiya axınına mane olan bürokratik əngəlləri aradan qaldırmaq məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarları vacib rol oynadılar. Ölkə başçısının xarici ölkələrə səfərləri zamanı yerli iş adamları ilə çoxsaylı görüşlərində Azərbaycanın iqtisadi potensialı barədə verilən geniş məlumatlar və onlara dövlətin adından verilən təminatlar investisiya prosesini əhəmiyyətli dərəcədə sürətləndirdi.

Azərbaycana investisiya axınının güclənməsində dövlət müəssisələri ilə yanaşı özəl müəssisələrə də investisiya qoyuluşunu təşviq edən dövlət proqramlarının hazırlanıb nüfuzlu beynəlxalq maliyyə institutlarına və xarici dövlətlərə təqdim olunması mühüm rol oynamışdır. Neft və qazçıxarma sənayesi istisna olmaqla, iqtisadiyyatın qalan sahələrini əhatə edən bu proqramlarda neft emalı, kimya və neft-kimya, metallurgiya, maşınqayırma, rabitə, yüngül və yeyinti, aqrar sənaye komleksi müəssisələri üstünlük təşkil etmişdir.

Aparılan ardıcıl siyasət 1995-1996-cı illərdən başlayaraq Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşunu sürətləndirmişdir. Xüsusilə xarici investisiyaların həcmi daha çox artmışdır. 1994-cü ilədək Azərbaycana xarici dövlətlərdən demək olar ki, investisiya daxil olmadığı halda, 1995-2000-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyaların 71,4 faizini xarici investisiyalar təşkil etmişdir. Bu vəsaitdən 3,3 milyard dolları

neft və qaz çıxarma sənayesinin, 2,5 milyard dolları isə digər sahələrin inkişafına istifadə edilmişdir.

Azərbaycan Respublikasının iqtisadiyyatına yönəldilən investisiyalar

| **Bütün mənbələr üzrə investisiya qoyuluşları** | **1995** | **1996** | **1997** | **1998** | **1999** | **2000** | **1995-2000-ci illərdə cəmi** |
|---|---|---|---|---|---|---|---|
| mlrd.manat | 2403,4 | 4005,5 | 6755,6 | 7475,5 | 6469,1 | 6448,9 | 33558 |
| mln.dollar | 544,0 | 932,5 | 1694,5 | 1932,2 | 1571,0 | 1441,4 | 8115,6 |
| ondan: **Xarici investisiyalar:** | | | | | | | |
| mlrd.manat | 1657,0 | 2667,5 | 5212,0 | 5695,0 | 4493,0 | 4147,5 | 23872 |
| mln.dollar | 375,1 | 621,0 | 1307,3 | 1472,0 | 1091,1 | 927,0 | 5793,5 |
| Cəmi investisiyalarda xüsusi çəkisi, faiz | 68,9 | 66,6 | 77,2 | 76,2 | 69,5 | 64,3 | 71,1 |
| **Daxili investisiyalar:** | | | | | | | |
| mlrd.manat | 746,4 | 1338,0 | 1543,6 | 1780,5 | 1976,1 | 2301,4 | 9686,0 |
| mln.dollar | 168,9 | 311,5 | 387,2 | 460,2 | 479,9 | 514,4 | 2322,1 |
| Cəmi investisiyalarda xüsusi çəkisi, faiz | 31,1 | 33,4 | 22,8 | 23,8 | 30,5 | 35,7 | 28,9 |

Azərbaycanın zəngin karbohidrogen ehtiyatları ölkəyə xarici investisiyaların cəlb olunmasında həlledici rol oynamışdır. 1994-cü ilin sentyabrında imzalanan iri həcmli müqavilə artıq 1995-ci ildə neft sektoruna 140 milyon dollar məbləğində investisiya qoyuluşunu təmin etmişdir. Sonrakı illərdə investisiyaların artması bu sahədə işlərin genişlənməsinə təkan vermişdir. Onların içərisində Xəzər dənizinin dərinliklərində kəşfiyyat və qazma işlərinin aparılması üçün platformaların, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş", "Koroğlu" kimi nəhəng qazma qurğularının istismara verilməsi, Səngəçal neft terminalının, Çıraq platformasından Səngəçal terminalınadək 178 km uzunluğunda sualtı neft kəmərinin, xam neftlə birlikdə çıxarılan təbii səmt qazınını nəqli üçün 48 km uzunluğunda sualtı qaz kəmərinin, Bakı-Supsa neft kəmərinin tikintisi, Bakı-Novorossiysk neft kəmərinin tam bərpa olunaraq istifadəyə verilməsi və digər işləri göstərmək olar. Bütün bunlar cəmi 2 ildən sonra Azərbaycanın neft sənayesində əsaslı dönüş yaratmağa imkan vermişdir. Neft müqavilələri üzrə aparılan işlər nəticəsində 1997-2001-ci illərdə Xəzər dənizindən hasil olunan 15 milyon tonadək neftin xeyli hissəsi dünya bazarlarında satılmış və ondan Azərbaycan Respublikası 400 milyon dolları adək təmiz qazanc əldə etmişdir.



Yaxın illərdə neft və qaz yataqlarının tam miqyaslı işlənməsinə başlanması, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin və qazın Türkiyəyə ixrac boru kəmərinin vaxtında tikilib istifadəyə verilməsi 2005-ci ildən başlayaraq Azərbaycandan neft və qaz ixracını ildən-ilə artıracaqdır. 2010-cu ildə neft ixracının təxminən 40 milyon tona, qaz ixracının isə 6-8 milyard kub metrə çatdırılması ölkəyə milyardlarla dollar əlavə gəlir gətirəcəkdir.

Azərbaycanda neft sənayesindən sonra ən çox xarici investisiya qoyulan sahə energetika kompleksidir. 1995-ci ildən başlayaraq Yenikənd və Mingəçevir su elektrik stansiyalarının tikintisinə, Bakı 1 nömrəli İstilik Elektrik Mərkəzinin birinci və ikinci bloklarının, Sumqayıt kimya kompleksində İstilik Elektrik Mərkəzinin, "Şimal" DRES-nin yenidən qurulmasına və s. işlərə 600 milyon dollaradək vəsait cəlb edilmişdir. Onilliklər ərzində istismar olunaraq köhnəlmiş istilik elektrik stansiyaları bərpa olunmuş və onların bir çoxunun güclərinin artırılması ölkənin elektrik enerjisinə olan tələbatını tam ödəmək imkanı vermişdir.

Beynəlxalq maliyyə təşkilatlarından və xarici hökumətlərdən çox aşağı faizlərlə alınan kreditlər hesabına Bakı hava limanının tikintisi və orada yeni aeronaviqasiya sisteminin quraşdırılması (dəyəri 68 milyon ABŞ dolları) kimi iri həcmli layihə başa çatdırılmış, Böyük Bakının su təchizatı (dəyəri 93 milyon ABŞ dolları), Baş Mil-Muğan kollektorunun (dəyəri 9,6 milyon ABŞ dolları), Ələt-Qazıməmməd yolunun (dəyəri 30,5 milyon ABŞ dolları) yenidən qurulması işləri davam etdirilmişdir.

Azərbaycan Respublikasının investisiya siyasətində kənd təsərrüfatının inkişaf etdirilməsi xüsusi yer tutur və ona görə də həyata keçirilən layihələrin bir hissəsi bu sahə ilə bağlıdır.

Son illərdə aqrar sektorun inkişafı məqsədilə bir sıra beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurulmuş, Dünya Bankının və Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun maliyyə dəstəyi ilə nümunəvi fermer təsərrüfatlarının yaradılmasına başlanmışdır. İlkin mərhələdə ölkənin 6 rayonunda bu layihənin (dəyəri 28 milyon ABŞ dolları) tətbiqi yaxşı nəticələr vermiş, fermer təsərrüfatlarının təşkilində və məhsuldarlığın artırıl-

masında irəliləyişə nail olunmuşdur. Qazanılan uğurları nəzərə alıb 2000-ci ildən başlayaraq Azərbaycanın daha 30 rayonunda fermer təsərrüfatlarının inkişafına beynəlxalq maliyyə qurumlarından əlavə 100 milyon dollar vəsait cəlb olunmuşdur.

Kənd təsərrüfatının inkişafına yönəldilmiş layihələr içərisində Mil-Muğan kollektorunun və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması işləri də böyük əhəmiyyət kəsb edir. Yenidənqurma işlərinə 1998-ci ildə başlanmış Mil-Muğan kollektorunun bərpası 500 min hektardan artıq suvarılan torpaqların meliorasiya vəziyyətini yaxşılaşdıracaq və ölkənin mərkəzi rayonlarında kənd təsərrüfatı məhsullarının istehsalının artmasına kömək edəcəkdir.

Samur-Abşeron suvarma sisteminin, o cümlədən Xanarx kanalının və su anbarının yenidən qurulması Abşeron yarımadasına, Bakı və Sumqayıt şəhərlərinə verilən içməli suyun miqdarını təxminən 2 dəfə artıraraq, bu şəhərlərdə sənaye müəssisələrinin suya olan tələbatını tam ödəməklə yanaşı, ölkənin şimal zonasında suvarılan torpaqların ümumi sahəsini 30 min hektardan da çox genişləndirmək imkanı verəcəkdir.

1995-2001-ci illərdə Azərbaycanda xarici investorlar üçün cəlbedici sahələrdən biri də rabitə və telekommunikasiya sistemidir. Bu sahənin inkişafı üçün həmin illərdə 180 milyon dollardan çox xarici investisiya istifadə edilmişdir ki, bu da qısa müddət ərzində ölkədə telefon aparatlarının sayının 150,7 min ədəd artmasını təmin etmişdir. Bu illər ərzində xüsusilə mobil telefon sistemi sürətlə inkişaf etmişdir. Onların sayı 180 dəfə artaraq 431 minə çatmışdır. Əhalinin hər min nəfərinə düşən mobil telefonların sayına görə Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında ən irəlidə gedən ölkədir.

Azərbaycana cəlb olunmuş investisiyaların bir hissəsi erməni işğalından azad olunmuş ərazilərdə yaşayış, təhsil, səhiyyə, energetika və digər sosial və infrastruktur obyektlərin bərpasına istifadə olunmuşdur. 1996-2001-ci illərdə bu işlərə sərf olunmuş 50 milyon dollar vəsait hesabına Füzuli, Ağdam, Tərtər, Goranboy rayonlarının və Naxçıvan Muxtar Respublikasının bir sıra kəndlərində 3400 yaşayış evi, 70 məktəb, 42 səhiyyə obyekti tikilmişdir. Eyni zamanda həmin yaşayış məntəqələrində 8,8 milyon dollar məbləğində elektrik ötürücü xətləri və transformator stansiyaları quraşdırılmış, 4.0 milyon dollar məbləğində içməli su təchizatı və 4,5 milyon dollar məbləğində irriqasiya işləri görülmüşdür.

Yuxarıda qeyd olunanlardan əlavə 1995-2001-ci illərdə Bakı şəhərində xarici investisiyalar hesabına çoxlu sayda müasir



tipli yaşayış evləri, mehmanxanalar, idman-sağlamlıq və biznes mərkəzləri və digər obyektlər tikilib istifadəyə verilmişdir.

1995-2001-ci illərdə iqtisadiyyata daxili investisiya qoyuluşunda da xeyli artım müşahidə olunur. Həmin illərdə dövlət büdcəsinin, ayrı-ayrı dövlət müəssisələrinin və iş adamlarının vəsaiti hesabına iqtisadiyyatın bütün sahələrinə 9,7 trilyon manat (2,3 milyard dollar) məbləğində vəsait yönəldilmişdir ki, bu da yüzlərlə kilometr elektrik ötürücü xətlərinin, neft kəmərlərinin və onlardan ayırmaların, rabitə xətlərinin, onlarca avtomat-telefon, yanacaq doldurma və transformator stansiyalarının, müəssisə və istehsal güclərinin, körpülərin, yaşayış evlərinin, mədəniyyət obyektlərinin və inzibati binaların, minlərlə təhsil, səhiyyə, məişət, ticarət və digər xidmət obyektlərinin tikilib istifadəyə verilməsini təmin etmişdir. Bütövlükdə müstəqilliyin birinci onilliyində Azərbaycan dövlətinin həyata keçirdiyi investisiya siyasəti onun iqtisadi potensialını artırmaqla yanaşı, əhalinin rifahının yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, bazar iqtisadiyyatı prinsiplərinə uyğun maliyyə bazarının formalaşmasına, daha sıx beynəlxalq iqtisadi əlaqələrin qurulmasına və Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyanın sürətlənməsinə xidmət etmişdir.

## § 4. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı

Gənc Azərbaycan dövlətinin bazar iqtisadiyyatına keçid istiqamətində apardığı islahatlar içərisində dövlət əmlakının özəlləşdirilməsi prosesi mühüm yer tutur. Bu proses Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş iqtisadiyyatın müxtəlif mülkiyyət formalarına əsaslanaraq inkişaf etdirilməsi və onun dövlət tərəfindən dəstəklənməsi prinsiplərinə uyğun olaraq həyata keçirilmişdir.

Azərbaycanda özəlləşdirmənin ilk addımları 1992-ci ilə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrə təsadüf edir. Həmin ildə Muxtar Respublikada kolxoz və sovxozların çox hissəsi ləğv edilərək onların əmlakı təsərrüfat üzvləri arasında paylanmışdır. Qısa müddət ərzində bu tədbir öz müsbət nəticəsini verərək, xüsusilə heyvandarlıqda məhsuldarlığın artmasında özünü göstərmişdir.

Özəlləşdirmənin əsas məqsədi səmərəli fəaliyyət göstərən iqtisadi sistemin formalaşmasıdır. Özəlləşdirmənin labüdlüyünü, onun aparılan islahatlarda yerini və ölkənin sosial-iqtisadi inkişafında rolunu qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin göstərdiyi kimi, islahatların əsasını mülkiyyət formasının dəyişdirilməsi təşkil edir. Bazar iqtisadiyyatına, sərbəst iqtisadiyyata keçmək üçün mülkiyyət forması dəyişməlidir, özəlləşdirmə prosesi getməlidir.

Azərbaycanda kütləvi özəlləşdirməyə 1993-cü ilin yanvarında "Dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında" Qanun qəbul edildikdən sonra start verilmişdir. Lakin o dövrdə ölkədə gedən proseslər, bir tərəfdən Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın işğalı, digər tərəfdən hakimiyyət uğrunda silahlı münaqişələr özəlləşdirməyə başlamağa imkan verməmişdi. Özəlləşdirmənin gecikməsinin digər səbəblərindən biri də müvafiq qanununun olmasına baxmayaraq, bu prosesi tənzimləyən dövlət proqramının, vacib normativ– hüquqi sənədlərin vaxtında hazırlanmaması, özəlləşdirmədə prioritet istiqamətlərin və ardıcıllığın müəyyən edilməməsi olmuşdur. Yalnız 1995-ci ilin martında ölkədə ictimai-siyasi sabitlik təmin edildikdən sonra prezident Heydər Əliyev tərəfindən imzalanan "Dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməli tədbirlər haqqında" fərman bu prosesə təkan verdi. Qısa müddət ərzində



1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramı və çoxsaylı normativ-huquqi sənədlər hazırlanıb qəbul edildi.

Azərbaycan Respublikasının bütün vətəndaşlarına özəlləşdirmənin başlanğıcında bərabər start şəraiti yaratmaq və əhalinin özəlləşdirmə prosesində iştirakını həvəsləndirmək məqsədilə onlara dörd çekdən ibarət olan 7,5 milyona yaxın özəlləşdirmə payı verilmişdir. Bununla ölkənin bütün əhalisi özəlləşdirmədə pulsuz iştirak etmək hüququ qazanmışdır.

Əsasən kiçik özəlləşdirməni əhatə edən birinci mərhələdə ticarət, xidmət, iaşə obyektləri, sənayenin müxtəlif sahələrində, tikintidə, nəqliyyatda fəaliyyət göstərən yüzlərlə kiçik müəssisə hərraclarda satılaraq öz sahibini tapmışdır. Eyni zamanda yüngül, yeyinti, taxıl məhsulları, quşçuluq, mebel, tikinti, ticarət sahələrində, sanatoriya-kurort və mehmanxana təsərrüfatında minə yaxın orta və iri müəssisə səhmdar cəmiyyətlərinə çevrilmiş və onların səhmlərinin özəlləşdirilməsinə başlanmışdır. On iri dövlət müəssisəsi ("Bakıelektroqaynaq", "Qaradağ-Sement", "Bakı Mayesiz Transformatorlar", "Bakı-Tütün", "Gəncə-Şərab-2", "Dəvəçi-Dəyirman" və s. səhmdar cəmiyyətləri) investisiya müsabiqələri vasitəsilə satılmışdır. "Azərbaycan Alüminiumu" və "Bakıelektrikşəbəkə" səhmdar cəmiyyətləri təcrübəli xarici investorlara uzunmüddətli idarəetməyə verilmişdir.

2000-ci ildə qəbul olunmuş II Dövlət Özəlləşdirmə Proqramı ilə ölkədə daha geniş miqyaslı özəlləşdirmənin başlanğıcı qoyulmuşdur. Bu Proqrama uyğun olaraq yanacaq-energetika, metallurgiya, maşınqayırma, kimya və neft-kimya sənayesində, nəqliyyat və rabitə sahəsində iri müəssisələr özəlləşdirməyə açıq elan edilmişdi. Özəlləşdirmənin ikinci mərhələsində dövlətin siyasəti özəlləşdirmənin bütün üsullarından geniş istifadə etməklə, o cümlədən iri müəssisələrin əsasən investisiya müsabiqələri və fərdi layihələr üzrə özəlləşdirilməsi yolu ilə ölkəyə daha çox sərmayə cəlb olunmasını və Azərbaycanın iqtisadi potensialının daha da güclənməsini təmin etməyə yönəlmişdir.

Beləliklə, 1995-ci ildən başlayaraq bazar iqtisadiyyatına keçid istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən kütləvi özəlləşdirmənin aparılması ölkədə sahibkarlığın inkişafında mühüm rol oynamışdır. Sahibkarlığın inkişaf etdirilməsi və onu təmin edən işgüzarlıq mühitinin və rəqabət mexanizminin formalaşması, habelə sahibkarlığa dövlət köməyinin göstərilməsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiya-

sında öz əksini tapmış, azad sahibkarlıq fəaliyyətinin və sağlam rəqabətin inkişafının hüquqi əsasını təşkil edən və bilavasitə bazar iqtisadiyyatı prinsiplərinə söykənən vacib qanunlar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş 1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı Azərbaycanda sahibkarlığın inkişafına güclü təkan verdi. Sahibkarlığın normativ-hüquqi və təşkilati bazasının yaradılması, həvəsləndirmə sisteminin formalaşması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirildi. Bu siyasəti reallaşdırmaq üçün bir sıra zəruri qurumlar, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi, sahibkarlara informasiya, maliyyə və məsləhət xidmətləri göstərən müxtəlif strukturlar yaradıldı. Belə strukturların köməyi ilə xarici ölkələrin qabaqcıl təcrübəsi öyrənilməklə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə məsləhətlər verilmiş, onlara investisiya layihələrinin hazırlanması qaydaları öyrədilmiş, hazırlanmış layihələr ekspertizadan keçirilmiş və onlardan iqtisadiyyat üçün ən əhəmiyyətliləri seçilərək maliyyələşdirilmişdir. Bu məqsədlər üçün dövlət büdcəsindən 6 milyard manat məbləğində vəsait xərclənmişdir.

Bazar iqtisadiyyatına keçid illərində Azərbaycan Respublikasında sahibkarların hüquqlarının qorunması məsələsi dövlət siyasəti səviyyəsinə yüksəldilmişdir. Onların fəaliyyətinə yersiz müdaxilənin və özəl müəssisələrdə əsassız yoxlamaların qarşısının alınmasına yönəldilmiş Azərbaycan Respublikası Prezidentinin 1996 və 1999-cu illərdə qəbul etdiyi fərmanlar sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılmasında, onların müxtəlif dövlət orqanları ilə münasibətlərinin tənzimlənməsində əvəzsiz rol oynamışdır.

Sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı nəticəsində iqtisadiyyatın bütün sahələrində özəl müəssisələrin sayı və ölkədə məhsul istehsalında onların xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmışdır. Hazırda Azərbaycanda 41 mindən yuxarı özəl müəssisə (cəmi müəssisələrin 73 faizi) fəaliyyət göstərir. Özəl müəssisələrin içərisində çoxluq təşkil edən kiçik müəssisələrin sayı 33 minə çatmışdır ki, bu da bazar iqtisadiyyatının formalaşdığı mərhələdə kiçik sahibkarlığın daha sürətlə inkişafını göstərir.

Azərbaycanda sahibkarlığın inkişafını əks etdirən əsas göstəricilərdən biri ümumi daxili məhsulda və iqtisadiyyatın ayrı-ayrı sahələrində özəl bölmənin payıdır.



Aşağıdakı cədvəl 1995-2000-ci illərdə ölkənin ümumi daxili məhsulunda özəl bölmənin artım dinamikasını aydın əks etdirir:

Azərbaycan Respublikasının iqtisadiyyatında özəl bölmənin payı
*(faizlə)*

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul | 30,3 | 38,0 | 46,0 | 59,5 | 62,0 | 68,0 |
| Sənaye | 5,5 | 7,5 | 18,3 | 26,4 | 37,3 | 43,7 |
| Tikinti | 79,0 | 79,0 | 81,0 | 80,6 | 65,9 | 63,5 |
| Kənd təsərrüfatı | 61,4 | 68,5 | 85,0 | 96,5 | 98,0 | 99,0 |
| Ticarət və restoranlar | 82,4 | 86,4 | 91,8 | 97,1 | 97,9 | 98,3 |
| Nəqliyyat və rabitə | 4,0 | 4,5 | 26,1 | 50,3 | 55,3 | 62,2 |
| Sosial və sair xidmətlər | 27,0 | 27,6 | 29,1 | 48,5 | 53,2 | 58,7 |

Cədvəldən göründüyü kimi, əgər 1995-ci ildə ümumi daxili məhsulda özəl bölmənin payı 30,3 faiz, o cümlədən iqtisadiyyatın aparıcı sahəsi olan sənayedə 5,5 faiz idisə, 2000-ci ildə bu göstərici müvafiq olaraq 68 faiz və 43,7 faiz təşkil etmişdir. Həmin illər ərzində nəqliyyatda və rabitədə özəl bölmənin payı 4 faizdən 62,2 faizədək (artım 16 dəfə), kənd təsərrüfatında – 61,4 faizdən 99 faizədək (artım 1,6 dəfə) yüksəlmişdir.

Qeyd olunan kəmiyyət göstəriciləri ilə yanaşı son illər sahibkarlığın inkişafında bir sıra keyfiyyət dəyişikliklərinə də nail olunmuşdur. Sərt rəqabət mühiti şəraitində işləmə qabiliyyətinin formalaşması, rəqabətə davamlığın artması, xarici iş adamları ilə iqtisadiyyatın müxtəlif sahələrində birgə işləmək təcrübəsinin öyrənilməsi və s. bu kimi xüsusiyyətlər Azərbaycan sahibkarlarının beynəlxalq biznes aləmində mövqeyinin möhkəmlənməsinə xidmət etmişdir.

## § 5. Aqrar və torpaq islahatları

Kənd təsərrüfatı bütün dövrlərdə Azərbaycan iqtisadiyyatının əsas sahələrindən olmaqla, ölkənin inkişafında və əhalinin ən zəruri istehlak malları ilə təminatında mühüm rol oynamışdır. Azərbaycanda bu sahənin daim yüksək xətlə inkişafı 1970-1985-ci illərə təsadüf edir. Həmin illərdə ölkədə pambıq, üzüm, taxıl, tərəvəz, çay və digər kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artmışdır.

Lakin səksəninci illərin ikinci yarısından başlayaraq o vaxtkı SSRİ rəhbərliyinin apardığı uğursuz aqrar siyasət Azərbaycanda bu sahənin geriləməsinə, əsas kənd təsərrüfatı məhsullarının istehsalının azalmasına səbəb oldu. Müstəqilliyin ilk illərində əvvəllər formalaşmış ənənəvi iqtisadi əlaqələrin qırılması, təsərrüfatların lazımi maşın və texnika, gübrə ilə təchizatının dayanması üzündən aqrar bölmədə tənəzzüül daha da dərinləşərək son həddə çatdı. Ona görə də Azərbaycan Respublikası rəhbərliyinin qarşısında digər sahələrdə olduğu kimi, kənd təsərrüfatının da yeni iqtisadi şəraitə uyğun inkişafı üçün köklü islahatların aparılması, müasir tələblərə cavab verən yeni iqtisadi münasibətlərin qurulması kimi vəzifələr dururdu.

1995-1996-cı illərdə "Aqrar islahatların əsasları", "Sovxoz və kolxozların islahatı", "Torpaq islahatı", "Torpaq bazarı" haqqında qanunların, digər vacib normativ hüquqi aktların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparmaq üçün imkanlar açdı. Belə ki, "Torpaq islahatı haqqında" qanunda Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq torpağın xüsusi mülkiyyətə verilməsi, onun alqı-satqı obyekti olması kimi amillər öz əksini tapmışdır. Bu da aparılan islahatların dərinliyindən, onların dönməzliyi ilə bağlı ölkə rəhbərliyinin əzmindən xəbər verirdi. Qısa müddət ərzində torpağın özəlləşdirilməsi, onun mülkiyyətçinin adına rəsmiləşdirilməsi mexanizminin hazırlanıb qəbul edilməsi iki milyon hektara yaxın torpağın əvəzsiz olaraq Azərbaycan Respublikası vətəndaşlarına verilməsini, 870 minə yaxın ailənin torpaq sahibi olmasını təmin etdi.

Kənd təsərrüfatında aparılan ciddi struktur islahatları nəticəsində dövlət mülkiyyətində saxlanılan az sayda damazlıq, toxumçuluq və digər bu kimi təsərrüfatlar istisna olmaqla, bütün kənd təsərrüfatı müəssisələri, o cümlədən sovxozlar və kolxozlar ləğv edilərək onların əmlakı təsərrüfat üzvləri arasında bölüşdürüldü.



Kənddə yeni mülkiyyətçilərin – kəndli-fermerlərin formalaşmasının sürətləndirilməsi kənd təsərrüfatında işlərin daha yaxşı təşkili və aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı.

Struktur dəyişiklikləri ilə yanaşı dövlət kənd təsərrüfatında çalışan adamlara daim kömək göstərir, onların rastlaşdığı çətinlikləri aradan qaldırır və problemləri həll edir. Son illər kənd təsərrüfatı istehsalçılarının, torpaq vergisi istisna olmaqla, 5 il müddətində vergilərdən azad edilməsi, onların büdcəyə olan vergi borclarının silinməsi, bu sahədə işləyənlərə yanacağın güzəştli qiymətlə satışı, bu zaman yaranan qiymət fərqinin dövlət büdcəsindən ödənilməsi və digər tədbirlər buna misaldır.

Aqrar bölmənin inkişafını təmin etmək üçün Azərbaycan Respublikasının dövlət orqanları ilə beynəlxalq maliyyə qurumları və iqtisadi təşkilatları arasında əməkdaşlıq əlaqələri xeyli genişlənmişdir. Dünya Bankının, Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun, bir sıra dövlətlərin maliyyə dəstəyi ilə həyata keçirilən tədbirlər ölkədə nümunəvi fermer təsərrüfatlarının yaradılmasında və bu təcrübənin daha geniş miqyasda yayılmasında, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü və emalı ilə məşğul olan sahibkarlara zəruri məsləhətlərin verilməsində, onların kreditlə təmin edilməsində, kənddə yeni iqtisadi şəraitə uyğun ictimai birliklərin yaradılmasında və digər məsələlərin həllində böyük rol oynadı.

Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Respublikasında ümumilikdə kənd təsərrüfatı məhsullarının istehsalı 1995-2000-ci illərdə 23 faiz artmışdır. Müstəqilliyin birinci onilliyi ərzində əsas kənd təsərrüfatı məhsulları istehsalının dinamikası aşağıdakı cədvəldə göstərilmişdir.

**1990-2000-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsulları istehsalının dinamikası**

*(min ton)*

| Məhsullar | 1990 | 1995 | 1995-ci il 1996-cı ilə nisbətən, faizlə | 2000 | 2000-ci il 1995-ci ilə nisbətən, faizlə |
|---|---|---|---|---|---|
| Taxıl | 1413,6 | 921,4 | 65,2 | 1540,2 | 167,2 |
| o cümlədən buğda | 911,9 | 625,6 | 68,6 | 1174,7 | 187,8 |
| Pambıq | 542,9 | 274,1 | 50,5 | 91,0 | 33,2 |
| Tütün | 52,9 | 11,7 | 22,1 | 17,3 | 147,9 |
| Şəkər çuğunduru | – | 28,1 | – | 46,7 | 166,2 |
| Kartof | 185,2 | 155,5 | 84,0 | 469,0 | 301,6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Tərəvəz | 856,2 | 424,1 | 49,5 | 780,8 | 184,1 |
| Bostan məhsulları | 67,5 | 41,9 | 62,1 | 261,0 | 622,9 |
| Meyvə | 367,4 | 324,4 | 88,3 | 477,0 | 147,0 |
| Üzüm | 1196,4 | 308,7 | 25,8 | 76,8 | 24,9 |
| Çay | 30,7 | 9,4 | 30,6 | 1,1 | 11,7 |
| Ət (kəsilmiş şəkildə) | 175,5 | 82,0 | 46,7 | 108,7 | 132,6 |
| Süd | 970,4 | 826,5 | 85,2 | 1031,1 | 124,8 |
| Yumurta (mln.ədəd) | 985,3 | 455,8 | 46,3 | 542,6 | 119,0 |
| İri buynuzlu mal-qara (min baş) | 1831,6 | 1681,7 | 91,8 | 2021,6 | 120,2 |
| Qoyun və keçilər (min baş) | 5418,7 | 4644,7 | 85,7 | 6086,0 | 131,0 |

Cədvəldən göründüyü kimi, əgər 90-cı illərin birinci yarısında yuxarıda göstərilən səbəblər üzündən demək olar ki, kənd təsərrüfatı məhsullarının bütün növləri üzrə istehsalın azalması müşahidə olunurdusa, 1996-cı ildən başlayaraq həyata keçirilən tədbirlər öz müsbət nəticəsini vermiş, məhsul istehsalında ciddi irəliləyiş əldə edilmişdi. 2000-ci ildə 1995-ci illə müqayisədə pambıq, üzüm və çay istisna olmaqla, qalan kənd təsərrüfatı məhsullarının istehsalında artıma nail olunmuşdur.

Aqrar bölmənin səmərəli inkişafını təmin edən istiqamətlərdən biri də ona xidmət göstərən sahələrin, xüsusilə də kənd infrastrukturunun yenidən qurulmasıdır. Bunu nəzərə alaraq 1999-cu ildə qəbul olunmuş Dövlət Proqramı aqrar islahatların dərinləşməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına dövlət köməyi sahəsində tədbirləri müəyyənləşdirmişdir. Bu tədbirlər kənd təsərrüfatının inkişafında mühüm rol oynayan sahələrin-emal və tədarük müəssisələrinin yenidən qurulmasına, infrastruktur obyektlərin, o cümlədən Bakı şəhərində və digər iri şəhərlərdə məhsul qəbul edən, çeşidləyən, qablaşdıran və əhaliyə çatdıran bazar strukturlarının yaradılmasına, toxumçuluq, damazlıq, baytarlıq və digər xidmət sahələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəlmişdir.

Qeyd olunan istiqamətlərdə görülən işlər ölkənin kənd təsərrüfatı məhsulları ilə təchizatının yaxşılaşmasında özünü göstərmiş, xüsusilə əhalinin ət və ət məhsullarına, taxıla, una və s. məhsullara olan tələbatını əsasən daxili istehsal hesabına ödənilməsini təmin etmişdir.



## § 6. Xarici iqtisadi siyasət

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində iqtisadiyyatın bütün sahələrində olduğu kimi xarici iqtisadi əlaqələrin inkişafında da bir sıra çətinliklərlə qarşılaşmışdır. SSRİ kimi nəhəng dövlətin dağılması nəticəsində mərkəzləşdirilmiş idarəetmə prinsipinə əsaslanaraq fəaliyyət göstərən müəssisələrin əvvəlki iqtisadi əlaqələrinin pozulması, onların işinin zəifləməsi və ya tamamilə dayanması, ayrı-ayrı məhsulların ixracına məhdudiyyətlərin tətbiqi, vahid qiymət siyasətinin olmaması üzündən daxili və xarici qiymətlər arasında kəskin fərqin yaranması və s. bu çətinlikləri doğuran əsas səbəblər olmuşdur. Bütün bu amillərin təsiri nəticəsində Azərbaycanın xarici ticarətinin həcmi 1992-1995-ci illərdə təxminən 2 dəfə azalmış, xarici ticarət balansı ciddi struktur dəyişikliklərinə məruz qalmışdır. Azərbaycanda uzun illər boyu müşahidə olunan ixracın idxalı üstələməsi meyli idxalın ixracı üstələməsi ilə əvəz olunmuşdu. Əgər 1992-ci ildə ixrac idxaldan 544 milyon ABŞ dolları artıq olmuşdursa, 1993-cü ildə bu fərq 96 milyon ABŞ dollarınadək azalmış və 1994-cü ildən başlayaraq 1999-cu ilədək, bütövlükdə xarici ticarətin həcminin ildən ilə artmasına baxmayaraq, idxalın həcmi ixracdan çox olmuşdur. Yalnız 2000-ci ildə əsasən xam neftin ixracının artaraq 5,5 milyon tona çatması ixrac-idxal saldosunu birincinin xeyrinə dəyişdirmişdir.

Azərbaycanda 1995-ci ildə ictimai-siyasi sabitlik bərpa olunduqdan sonra bütün ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına yönəldilmiş xarici iqtisadi siyasət formalaşmışdır. Xarici ticarətin liberallaşması, düzgün qiymət və gömrük siyasətinin yeridilməsi, xarici ticarətin artımına rəvac verən tədbirlərin həyata keçirilməsi 1996-cı ildən başlayaraq bu sahədə dönüş əldə etməyə imkan vermişdir. 2000-ci ildə 1995-ci ilə nisbətən xarici ticarətin həcmi 2,2 dəfə, o cümlədən ixrac 2,7 dəfə, idxal 1,8 dəfə artdı.

Hazırda Azərbaycanın dünyanın 120-dən çox ölkəsi ilə qarşılıqlı səmərəli əməkdaşlığa əsaslanan ticarət əlaqələri mövcuddur. Onların içərisində daha sıx ikitərəfli əlaqələr qonşu Türkiyə, Rusiya, İran, Qazaxıstan kimi ölkələrlə, habelə Amerika Birləşmiş Ştatları, Almaniya, Fransa, Böyük Britaniya, İtaliya, İsveçrə kimi inkişaf etmiş ölkələrlə aparılır.

Son illərdə Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiya prosesinin güclənməsi ölkədə istehsal olunan malların

dünya bazarlarına çıxarılması və idxal mallarının həcminin və çeşidinin genişlənməsi ilə müşahidə olunur. Bu prosesin nəticəsi kimi Azərbaycanın uzaq xarici ölkələrlə ticarət əlaqələri daha sürətlə artır. Bu, eyni zamanda, onun xarici ticarətində yaxın xarici ölkələrin (Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr) xüsusi çəkisini azaldır. 1993-cü ildə Azərbaycanın xarici ticarətində MDB ölkələrinin xüsusi çəkisi 56 faiz olduğu halda, 2000-ci ildə bu rəqəm 21 faizədək azalmışdır.

Keçən illər ərzində xarici iqtisadi əlaqələrin coğrafi strukturunda olduğu kimi, onların əmtəə strukturunda da bir sıra dəyişikliklər baş vermişdir. Belə ki, əgər 1992-1993-cü illərdə idxalın tərkibində əsasən ərzaq və digər zəruri istehlak malları üstünlük təşkil edirdisə, 1996-cı ildən başlayaraq xarici investisiyaların Azərbaycana axınının güclənməsi nəticəsində müxtəlif növ maşın və mexanizmlərin, cihaz və aparatların, avadanlıqların idxalda xüsusi çəkisi əhəmiyyətli dərəcədə artmış və 2000-ci ildə 40 faizə çatmışdır.

İxracın strukturunda həmişə olduğu kimi, Azərbaycanın xarici ticarət əlaqələrində mühüm yer tutan ənənəvi məhsullar – neft və neft məhsulları, pambıq mahlıcı, tütün üstünlük təşkil edir. Qeyd etmək lazımdır ki, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən karbohidrogen yataqlarının xarici şirkətlərlə birgə işlənməsi nəticəsində 1997-ci ildən başlayaraq hər il neft hasilatının artması və dünya bazarlarına çıxarılması ixracın strukturunda onun xüsusi çəkisini artıraraq 84 faizə çatdırmışdır.

Azərbaycanda aparılan iqtisadi islahatlar və son illərdə iqtisadiyyatın qeyri-neft sahələrinə investisiya qoyuluşunun artması artıq dünya bazarlarına daha çox həcmdə və çeşiddə yüksək keyfiyyətli metallurgiya, neft-kimya və kimya, maşınqayırma sənayesi, kənd təsərrüfatı və emal sənayesi məhsulları çıxarmaq imkanı verir.

Ticarət əlaqələri ilə yanaşı xarici şirkətlərlə iş birlikləri qurmaq və əməkdaşlıq etmək Azərbaycanın xarici iqtisadi siyasətinin öncül istiqamətlərindəndir. Qeyd etmək lazımdır ki, zəngin yeraltı və yerüstü təbii sərvətləri və iqtisadi potensialı olan Azərbaycanla iqtisadi-ticarət əlaqələrinin qurulmasında çox ölkə maraqlıdır. Bu gün Azərbaycanda ABŞ, Böyük Britaniya, Türkiyə, Almaniya, Fransa, İtaliya, Yaponiya, Rusiya, İsveçrə, Norveç, İran və onlarla digər ölkələrin yüzlərlə şirkəti fəaliyyət göstərir, neft hasilatı ilə yanaşı energetika, metallurgiya, neft-kimya və kimya sənayesi, rabitə, aqrar-sənaye kompleksi müəssisələrinin yenidən qurulmasında və məhsul istehsalında,



habelə tikinti kompleksinin işində yaxından iştirak edirlər. 1 nömrəli Bakı İstilik Mərkəzinin, "Şimal" elektrik stansiyasının, ER-300, Bakı Elektroterm, Gəncə "Gil-Torpaq", Sumqayıt Alüminium zavodlarının, mobil telefon rabitəsi sisteminin, Bakı Tütün Kombinatının, Xırdalan pivə, Koka-kola, Quba meyvə şirəsi, "Kaspian Fiş" və onlarla digər müəssisələrin işi bu əməkdaşlığın nümunələridir.

Doxsanıncı illərin ikinci yarısında Azərbaycanın xarici iqtisadi əlaqələrinin inkişafında bilavasitə onun fəal iştirakı ilə həyata keçirilməsinə başlanılmış Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi (Tarixi İpək Yolunun bərpası) layihəsi mühüm rol oynamışdır. Avropanın və Asiyanın 30-dan çox ölkəsini birləşdirən bu nəqliyyat dəhlizinin istifadəyə verilməsi, Azərbaycana bir tranzit ölkəsi kimi fayda verməklə yanaşı, onun iqtisadi inkişafına da müsbət təsir edir. Bu nəhəng layihə çərçivəsində artıq Azərbaycanda müasir tipli yolların (Bakı-Qazax avtomobil və dəmir yollarının), yol infrastrukturunun tikintisi, Bakı Ticarət Limanının yenidən qurulması işlərinə başlanmışdır.

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin qismən fəaliyyətə başlaması artıq Azərbaycandan yükdaşımalarını ildə təxminən 5 milyon tonadək artırmışdır. Onun tam işə düşməsi regional ticarət-iqtisadi əlaqələrin genişlənməsi ilə yanaşı Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiyasına güclü təkan olacaqdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olmuş və iqtisadi problemlər, bazar iqtisadiyyatına keçid barədə məsələlər üzrə bu təşkilatlarla mütəmadi olaraq məsləhətləşmələr aparır, onların maliyyə imkanlarından istifadə edir.

Azərbaycan Respublikası manatın məzənnəsini sabit saxlamaq və tədiyə balansında tarazlığı təmin etmək məqsədilə 1995-1999-cu illərdə Beynəlxalq Valyuta Fondundan 440 milyon ABŞ dolları məbləğində kredit götürmüş, ondan səmərəli istifadə etməklə özünü etibarlı partnyor kimi təsdiq etmiş və artıq bu vəsaitin bir hissəsini (100 milyon ABŞ dolları) geri qaytarmışdır.

Dövlət büdcəsinin kəsirini örtmək, bir sıra dövlət əhəmiyyətli investisiya layihələrini maliyyələşdirmək üçün 1995-2000-ci illərdə Azərbaycan Hökuməti Dünya Bankından 244 milyon ABŞ dolları məbləğində vəsait almışdır. Çox güzəştli şərtlərlə (35-40 il müddətində, illik 0,75 faizlə) alınmış bu vəsaitin hesabına Böyük Bakının su təchizatı, kənd təsərrüfatına texniki yardım, nümunəvi fermer təsərrüfatlarının yaradılması və inkişafı, erməni təcavüzü nəticəsində dağıdılmış ərazilərin bərpası və digər layihələrin həyata keçirilməsinə başlanmışdır.

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanın sıx əməkdaşlıq etdiyi beynəlxalq maliyyə-kredit təşkilatlarındandır. 1994-cü ildən başlayaraq bu bank Azərbaycanda Yenikənd və Mingəçevir su elektrik stansiyalarının tikintisi, Böyük Bakının su təchizatı, Binə Hava Limanında aeronaviqasiya sisteminin yenidən qurulması, Bakı Dəniz Limanının və Transqafqaz dəmir yolunun bərpası, özəl bölmənin inkişafına yardım kimi layihələrin maliyyələşdirilməsində (cəmi 150 milyon ABŞ dolları) yaxından iştirak etmişdir.

Azərbaycan Respublikasının İslam İnkişaf Bankı və Küveyt Fondu ilə əməkdaşlığı nəticəsində ümumi dəyəri 73 milyon ABŞ dolları olan Mil-Muğan kollektorunun, Ələt-Qazıməmməd yolunun, Xanarx kanalının, Mingəçevir su elektrik stansiyasının tikintisi kimi layihələrin həyata keçirilməsinə başlanmışdır.

Beynəlxalq qurumlarla yanaşı, ayrı-ayrı dövlətlərin maliyyə-kredit təşkilatları ilə də sıx əməkdaşlıq əlaqələri yaradılmışdır. Məsələn, 1996-2000-ci illərdə Almaniyanın KFV Bankından Binə Hava Limanının, ölkənin enerji sisteminin yenidən qurulması, kiçik və orta sahibkarlığın inkişafı, kommunal sektora yardım layihələrini maliyyələşdirmək məqsədilə 58 milyon ABŞ dolları məbləğində kredit ayrılmışdır.

"Şimal" elektrik stansiyasının və Sumqayıt ER-300 zavodunun yenidən qurulması layihələrinin maliyyələşdirilməsinə Yaponiyanın Beynəlxalq Əməkdaşlıq Bankı tərəfindən 426 milyon ABŞ dolları məbləğində vəsait ayrılmış və artıq bu obyektlərdə bir hissəsi başa çatmış işlərə 166 milyon ABŞ dolları xərclənmişdir.

Yuxarıda göstərilənlər bir daha sübut edir ki, 1995-2000-ci illərdə Azərbaycanın səmərəli xarici iqtisadi siyasəti onun iqtisadiyyatının inkişafında və əhalinin rifah halının yüksəldilməsində əvəzsiz rol oynamış və gələcəkdə də oynayacaqdır.



## § 7. Maliyyə, valyuta və pul-kredit siyasəti, bank sisteminin inkişafı

Dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində mühüm rol oynayan amillərdən biri də düzgün maliyyə-valyuta siyasətinin aparılması və etibarlı bank sisteminin yaradılmasıdır. 1991-ci ildə müstəqilliyini qazanmış Azərbaycan Respublikasında bu dövlət əhəmiyyətli məsələlərə kifayət qədər diqqətin verilməməsi ölkənin maliyyə-bank sistemini ciddi çətinliklərlə üzləşdirmişdir. Bir çox müəssisələrdə vergi borclarının ödənilməsinə etinasızlıq, büdcənin icrasına nəzarətin zəif olması, bank sistemində pərakəndəliyin və özbaşınalığın hökm sürməsi, büdcə gəlirlərinin azalması şəraitində onun xərclərinin artması, yaranan büdcə kəsirinin isə təminatsız bank krediti hesabına örtülməsi pul dövriyyəsində nəzarətsizliyə, iqtisadiyyatın inkişafına və əhalinin həyat səviyyəsinə zərbə vuran inflyasiyanın sürətlə artmasına səbəb olmuşdu.

1992-ci il avqustun 15-dən Azərbaycan Respublikasının milli valyutasının – manatın dövriyyəyə buraxılması barədə qərarın qəbul edilməsinə baxmayaraq, bu mühüm dövlət tədbirinin tam həyata keçirilməsi gecikdirilmişdi. İki pul vahidinin (keçmiş sovet manatının və yeni manatın) uzun müddət dövriyyədə paralel istifadəsi hesablaşmalarda çaşqınlıqla yanaşı neqativ hallar üçün imkanlar yaradırdı.

İqtisadiyyatın digər sahələri kimi ölkənin maliyyə-bank sistemini də yaranmış böhran vəziyyətindən çıxarmaq üçün qanunvericilikdə mövcud qüsurları aradan qaldırmaq, müəssisələrin maliyyə intizamını möhkəmləndirmək, büdcənin icrasını təmin etmək, tarazlaşdırılmış vergi-büdcə və pul-kredit siyasəti həyata keçirmək, bank işini təkmilləşdirmək və kredit təşkilatlarının fəaliyyətinə nəzarəti gücləndirmək kimi məsələlərin həlli böyük əhəmiyyət kəsb edirdi.

1994-cü ildən başlayaraq ölkənin vergi qanunvericiliyində aparılan dəyişikliklər iqtisadiyyatın dirçəlməsinə, vergi bazasının genişlənməsi ilə yanaşı müəssisə və təşkilatların, habelə fiziki şəxslərin üzərinə düşən vergi yükünün azaldılmasına xidmət etmişdir. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi 2000-ci ildə beynəlxalq standartlara cavab verən və vergitutma ilə bağlı bütün qanunvericilik aktlarını özündə cəm-

ləşdirən Azərbaycan Respublikası Vergi Məcəlləsinin qəbulu ilə yekunlaşmışdır.

İstehsalçıların vergi yükünün yüngülləşdirilməsinə yönəldilmiş siyasət müstəqilliyin birinci onilliyi ərzində əlavə dəyər vergisinin 28 faizdən 18 faizədək, mənfəətdən verginin 35 faizdən 27 faizədək, sosial sığorta ayrılmalarının 40 faizdən 30 faizədək azaldılmasını və mənfəətdən verginin bütün ödəyiciləri üçün vahid vergi dərəcəsinin tətbiqini təmin etmişdir. Bilavasitə vətəndaşların gəlirindən tutulan verginin dərəcəsi əhəmiyyətli dərəcədə aşağı salınmışdır: vergiyə cəlb olunmayan gəlirin məbləği 16,5 min manatdan 100 min manatadək (6 dəfə) qaldırılmış, verginin maksimum dərəcəsi 55 faizdən 35 faizədək azaldılmışdır.

Eyni zamanda, son illər iqtisadi baxımdan səmərəliliyini itirmiş vergi güzəştləri ləğv edilmiş, onların əvəzinə iqtisadiyyatın inkişafına təkan verən yeni vergi güzəştləri müəyyən edilmişdir. Onların içərisində investisiyaya yönəldilən mənfəətin vergidən azad edilməsi xüsusi yer tutur ki, bu da müəssisələrin müasir texnika və texnologiya əsasında yenidən qurulmasını sürətləndirir. Bundan başqa, SSRİ dövründən miras qalmış əmək haqqının məhsulun maya dəyərinə daxil edilməsinə qoyulmuş məhdudiyyətlər aradan qaldırılmış, amortizasiya ayırmalarının hesablanması qaydaları dəyişdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Vergi borclarının ödənilməsinə stimul yaratmaq və dövlət büdcəsinin icrasını yaxşılaşdırmaq məqsədilə müəssisələrin yaranmış borclarının ödənilməsinə güzəştli şərtlərin tətbiqi nəticəsində büdcəyə 350 milyard manat əlavə vəsait cəlb olunmuşdur.

Vergi qanunvericiliyi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi Azərbaycan dövlətinin vergi siyasətinin əsas istiqamətlərindən sayılır. Son beş il ərzində 20-dən artıq dövlətlə ikiqat vergitutmanın qarşısının alınması barədə dövlətlərarası müqavilələr imzalanmışdır ki, bu da Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin möhkəmlənməsinə xidmət edir.

Düzgün əsaslar üzərində formalaşan vergi və büdcə siyasəti 1997-ci ildən başlayaraq büdcə gəlirlərinin və xərclərinin yerinə yetirilməsini təmin etmişdir (dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi üzündən 1998-ci ildə dövlət büdcəsinin yerinə yetirilməməsi istisna olmaqla).



Dövlət büdcəsi gəlirlərinin və xərclərinin dinamikası

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 (proqnoz) |
|---|---|---|---|---|---|---|---|
| Gəlirlər (mlrd.manat),<br>əvvəlki ilə nisbətən, faizlə | 2078<br>– | 2013<br>97 | 2565<br>127 | 2327<br>91 | 2798<br>120 | 3577<br>128 | 4175<br>117 |
| Xərclər (mlrd.manat),<br>əvvəlki ilə nisbətən, faizlə | 2142<br>– | 2409<br>113 | 2944<br>122 | 2642<br>90 | 3257<br>123 | 3819<br>117 | 4595<br>120 |
| Gəlirlər ilə xərclər arasında fərq (büdcə kəsiri) (mlrd. manat) | -64 | -396 | -379 | -315 | -459 | -242 | -420 |
| Büdcə kəsirinin ümumi daxili məhsulda çəkisi, faizlə | 0,6 | 2,9 | 2,4 | 1,8 | 2,4 | 1,0 | 2,0 |

1995-2000-ci illərdə dövlət büdcəsinin gəlirləri 1,7 dəfə, xərcləri isə 1,8 dəfə artmışdır. Büdcə xərclərində sosial yönümlülük büdcə siyasətinin öncül istiqamətini təşkil etmişdir. Əhalinin maddi vəziyyətinin yaxşılaşdırılması və aztəminatlı ailələrin sosial müdafiəsi məsələlərinə büdcə xərclərində üstünlük verilmişdir.

Ölkədə maliyyə sabitliyinin təmin edilməsinə yönəldilmiş tədbirlər içərisində Azərbaycan Respublikası Pezidentinin "Azərbaycan Respublikası milli valyutasının respublika ərazisində yeganə ödəniş vəsitəsi elan olunması haqqında" 11 dekabr 1993-cü il və "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 15 iyun 1994-cü il tarixli fərmanları mühüm rol oynamışdır.

Birinci fərmanla 1994-cü ilin əvvəlindən keçmiş sovet manatının dövriyyəsi dayandırılmış və Azərbaycan Respublikasının milli valyutası – manat ölkədə yeganə ödəniş vasitəsi kimi istifadə olunmağa başlanmışdır. İkinci fərmanla ölkədə baş alıb gedən inflyasiyanın qarşısını almaq və maliyyə sabitliyini yaratmaq məqsədilə antiinflyasiya proqramının həyata keçirilməsi, o cümlədən dövriyyədə pul kütləsinə nəzarətin gücləndirilməsi, kredit siyasətinin sərtləşdirilməsi, bank sisteminin möhkəmləndirilməsi, manatın xarici valyutalara nisbətən məzənnəsinin sabit saxlanılması, xarici ticarətin və valyuta bazarının liberallaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Bu tədbirlərin nəticəsi olaraq artıq 1995-ci ildə əvvəlki illə müqayisədə inflyasiyanın səviyyəsi 3 dəfə aşağı düşmüş (1994-cü ildə 1764 faizdən 1995-ci ildə 512 faizədək), 1996-cı

ildə isə yenə də 4 dəfə azalaraq cəmi 20 faiz olmuşdur. 1998-ci ildən başlayaraq Azərbaycanda inflyasiyanın səviyyəsi beynəlxalq təcrübədə qəbul olunmuş normalara uyğunlaşdırılmışdır. Əgər manatın ABŞ dollarına nisbətən məzənnəsi 1992-ci ilin avqustundan 1994-cü ilin sonunadək 193 dəfə ucuzlaşmışdırsa, 1995-ci ildə bu göstərici cəmisi 4 faiz təşkil etmiş və sonrakı illərdə isə ciddi dəyişikliyə uğramamışdır.

Həyata keçirilən pul-kredit və valyuta siyasəti ölkənin ödəmə qabiliyyətini möhkəmləndirmiş, Azərbaycanın valyuta ehtiyatlarını artırmışdır. 1994-cü ilin əvvəlinə ölkənin valyuta ehtiyatları cəmi 2 milyon ABŞ dollarına bərabər olduğu halda, 2001-ci ildə bu rəqəm 1 milyard ABŞ dollarından çox olmuşdur.

Xarici şirkətlərlə birgə hasil olunan neftin dünya bazarlarında satışı valyuta ehtiyatlarının artırılmasında mühüm rol oynamışdır. Neft və qaz ehtiyatlarının birgə işlənməsindən Azərbaycan Respublikasının payına düşən gəlirin ölkə vətəndaşlarının, o cümlədən gələcək nəsillərin mənafeyi naminə səmərəli istifadə olunmasını təmin etmək məqsədilə Dövlət Neft Fondu yaradılmış və bu Fonda artıq 400 milyon ABŞ dollarınadək vəsait toplanmışdır.

Səmərəli maliyyə və valyuta siyasətinin aparılması, inflyasiyanın minimuma endirilməsi və manatın məzənnəsinin sabit saxlanılması iqtisadiyyata kredit qoyuluşunu artırmağa imkan vermişdir. Qısa müddət ərzində mərkəzləşdirilmiş kredit ehtiyatları üzrə bank faizinin 250 faizdən 10 faizədək (25 dəfə) azaldılması və digər tədbirlər nəticəsində iqtisadiyyatın inkişafına yönəldilmiş kreditlərin həcmi 1,6 dəfə artmışdır.

Bank sistemində aparılan islahatlar müstəqilliyin ilk illərində banklara yaranmış inamsızlığı aradan qaldırmaqda mühüm rol oynamışdır. Ölkədə müasir bank quruculuğu işlərinə başlanılmış, ikipilləli bank sisteminin formalaşması, bankların möhkəmlənməsi, onların nizamnamə kapitalının artması istiqamətində işlər aparılmışdır. Sərbəst bazar iqtisadiyyatı şəraitində öz işini qura bilməyən və rəqabətə davam gətirməyən zəif banklar tədricən sıradan çıxmışdır. 1995-2000-ci illər ərzində ölkədə fəaliyyət göstərən bankların sayı 4 dəfəyə yaxın (220-dən 60-dək) azalmaqla yanaşı, bank sisteminin kapital bazası 5 dəfə artmışdır.



## § 8. Əhalinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsi

Azərbaycan Respublikasında 1996-cı ildən başlayaraq davam edən dayanıqlı iqtisadi inkişaf və maliyyə sabitliyi əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaratmış, dövlətin sosial yönümlü siyasət aparmaq imkanlarını genişləndirmişdir. Ardıcıl həyata keçirilən islahatlar iqtisadi artımla yanaşı əhalinin gəlirlərinin artmasına da kömək etmişdir. 1991-1993-cü illərdə baş verən bir sıra zəruri istehlak mallarının qıtlığının və ərzaq məhsullarının qiymətlərinin yüksəlməsi meyllərinin qarşısı alınmışdır. Eyni zamanda 1995-ci ildən qiymət indeksinin aşağı salınması istiqamətində görülən işlər əmtəə və xidmət bazarında əhalinin alıcılıq qabiliyyətinin tədricən yüksəlməsini təmin etmişdir.

Son illərdə dövlət büdcəsi gəlirlərinin artması sosial problemlərin həlli üçün daha çox vəsait ayrılmasına imkan vermişdir. Məsələn, əgər 1995-ci ildə dövlət büdcəsindən sosial yönümlü xərclərə 930 milyard manat və ya büdcə xərclərinin 43 faizi məbləğində vəsait istifadə edilmişdisə, 2000-ci ildə bu məqsədlər üçün artıq 2,2 dəfə çox, yəni 2 trilyon manat (büdcə xərclərinin 53 faizi) xərclənmişdir. 2001-ci ilin dövlət büdcəsində sosial yönümlü xərclərin xüsusi çəkisi 61 faizə çatdırılmaqla, 2000-ci illə müqayisədə 40 faiz artırılması nəzərdə tutulmuşdur.

Dövlət büdcəsinin sosial yönümlü xərcləri içərisində təhsil xərcləri əsas yer tutur. 1995-ci ildə bu məqsədlər üçün 376 milyard manat (büdcə xərclərinin 17,5 faizi qədər) xərclənmişdisə, 2000-ci ildə bu rəqəm 2,4 dəfə artaraq 906 milyard manata (büdcə xərclərinin 24 faizi) çatmışdır. Həmin illər ərzində dövlət büdcəsindən digər sosial məqsədlər üçün ayırmalar (pensiyalar, müavinətlər, uşaqlara və digər aztəminatlılara sosial ödənişlər, elm, səhiyyə, idman, mədəniyyət və sair sahələrin inkişafına yönəldilmiş xərclər) daim artmışdır.

Əhalinin rifahının yaxşılaşmasını səciyyələndirən əsas göstəricilərdən biri onların pul gəlirlərinin dinamikasıdır. 1995-2000-ci illərdə ölkə üzrə əhalinin pul gəlirləri 2,6 dəfə artaraq 17,6 trilyon manata çatmışdır. 2000-ci ildə adambaşına düşən pul gəlirlərinin illik məbləği 2215 min manat təşkil etmişdir.

Doxsanıncı illərin birinci yarısında inflyasiyanın artımı əhalinin pul gəlirlərinin artım sürətini 3 dəfə üstələdiyi halda, son 5 ildə isə əks proses baş vermişdir, yəni əhalinin pul gəlirlərinin

artımı inflyasiyanın səviyyəsini 2,3 dəfədən də çox qabaqlamışdır. Bu, eyni zamanda əhalinin alıcılıq qabiliyyətinin bir o qədər də yüksəldiyini göstərir.

Əhalinin pul gəlirlərinin artımı, ilk növbədə, əmək haqlarının artımı sahəsində dövlətin gördüyü işlərin nəticəsi kimi qiymətləndirilməlidir. Orta aylıq əmək haqqının 1995-2001-ci illərdə 4 dəfədən də çox artaraq 260 min manata çatması adamların həyat səviyyəsinin yaxşılaşması istiqamətində ardıcıl dövlət siyasətinin həyata keçirilməsindən xəbər verir. Əmək haqqı sahəsində aparılan islahatlar və həyata keçirilən tədbirlər nəticəsində 1994-2001-ci illərdə səhiyyə, mədəniyyət, incəsənət, kütləvi informasiya vasitələri, idman və sosial təminat sahələrində maaşlar orta hesabla 6,2 dəfə, pedaqoji işçilərin əmək haqları 8,1 dəfə, elmi işçilərin aylıq maaşları 6,6 dəfə çoxalmışdır. 2001-ci ilin altı ayının nəticələrinə görə Azərbaycan Respublikasında orta aylıq əmək haqqı 55 ABŞ dollarına bərabər olmuşdur ki, bu da Qırğızıstan, Gürcüstan, Moldova, Ukrayna, Tacikistan və Ermənistan kimi ölkələrlə müqayisədə kifayət qədər yüksəkdir.

Həyata keçirilən əmək haqqı islahatları və sosial müdafiə tədbirləri aztəminatlı əhalinin rifahının yaxşılaşmasında xüsusilə böyük rol oynamışdır. Məsələn, gəlirlərin vergi tutulmayan məbləğinin 6 dəfədən də çox artırılaraq 100 min manata çatdırılması bu kateqoriyadan olan adamların gəlirlərini əhəmiyyətli dərəcədə artırmışdır.

Əhalinin pensiya təminatı sahəsində ciddi tədbirlər həyata keçirilmişdir. Sosial pensiyaların minimum məbləğinin 50 min manata çatdırılması, beş il ərzində orta aylıq pensiyanın 4,2 dəfə artırılması 1,2 milyon pensiyaçının həyat səviyyəsinin yaxşılaşmasına xidmət etmişdir. Eyni zamanda Azərbaycan Respublikası vətəndaşlarının layiqli sosial müdafiəsini və yaşayış tərzini təmin etmək məqsədilə ölkədə geniş miqyaslı pensiya islahatına başlanmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş islahat konsepsiyasına görə yaxın illər ərzində ölkədə pensiya ödənişlərinin etibarlı maliyyə təminatı yaradılması və onun idarəolunmasının yenidən qurulması başa çatmalı, əhalinin rifah halının yaxşılaşdırılmasında pensiyaların rolu əhəmiyyətli dərəcədə artmalıdır. Dörd mərhələdə həyata keçiriləcək islahatların əsas nəticəsi pensiyaların minimum məbləğini vətəndaşların ən zəruri mallara və xidmətlərə olan tələbatını təmin edəcək səviyyəyə çatdırmaq və onların vaxtında ödənilməsinə nail olmaqdır.



Aztəminatlı əhaliyə dövlət qayğısını əks etdirən göstəricilər içərisində ayrı-ayrı qrup vətəndaşlara müxtəlif güzəştlərin və imtiyazların verilməsi xüsusi qeyd edilməlidir. Məsələn, 20 mindən artıq şəhid ailəsinə, 6 mindən çox Çernobıl əlilinə, 27 min II Dünya Müharibəsi əlilinə, minlərlə həmin müharibə zamanı arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif olunmuş insanlara, müharibə veteranlarına, yüz minlərlə məcburi köçkünlərə və digər kateqoriyadan olan vətəndaşlara bir sıra vergilərdən, istifadə olunan elektrik və istilik enerjisinin, suyun, qazın haqqının ödənilməsinə, mənzil-kommunal xidmətlərinin göstərilməsinə, telefon çəkilişinə və s. görə azadolmalar və güzəştlər tətbiq olunur.

Əhalinin və şəhid ailələrinin böyük bir qrupu dövlət vəsaiti hesabına mənzillərlə və minik maşınları ilə təmin olunmuş, minlərlə əlilə hər il pulsuz dərman preparatlarının verilməsi, sanatoriya-kurort müalicəsi göstərilməsi və birdəfəlik maliyyə yardımı edilməsi həyata keçirilir.

Qeyd etmək lazımdır ki, müstəqillik illərində əhalinin rifah halının yuksəldilməsinə yönəldilmiş çoxsaylı tədbirlərin həyata keçirilməsinə baxmayaraq, torpaqların erməni qəsbkarları tərəfindən işğalı, bir milyona yaxın Azərbaycan Respublikası vətəndaşının ev-eşiyindən didərgin düşərək qaçqın həyatı yaşaması zəbt olunmuş torpaqları iqtisadi dövriyyədən çıxarmış, işsizlərin sayını artırmaqla bu problemin həllinə maneçilik törədir, əhalinin maddi vəziyyətini ağırlaşdırır. Xalqımızın bu taleyüklü problemini Azərbaycan Respublikasının Prezidenti şərh edərək demişdir: "Əhalinin bir hissəsinin maddi sıxıntılar içərisində, ağır vəziyyətdə yaşaması hamımızı narahat edir, incidir. Onu bilməliyik ki, bütün bu problemlər, sıxıntılar, çətinliklər yalnız müvəqqəti xarakter daşıyır. Xalqımız əmin olmalıdır ki, respublika rəhbərliyi bu sahədə yaranmış vəziyyətin ağırlığını dərk edir və onun aradan qaldırılması üçün bütün mövcud imkanlardan lazımınca istifadə edir və bundan sonra da edəcəkdir. Son illərdə ölkə həyatının müxtəlif sahələrində əldə edilmiş nailiyyətlərimiz onu qətiyyətlə deməyə əsas verir ki, qarşıdakı yaxın illərdə bizi narahat edən problemlərin həlli yolunda mühüm addımlar atılacaq, xalqımızın üzləşdiyi bir çox sosial-iqtisadi çətinliklər aradan qaldırılacaq, vətəndaşlarımızın rifah halı yaxşılaşacaq və onlar layiq olduqları firavan həyata qovuşacaqlar".

Bu gün xüsusi qayğıya ehtiyacı olan qaçqınların və məcburi köçkünlərin yaşayışı daim dövlətin diqqət mərkəzindədir. Onların minimum həyat səviyyəsini təmin etmək və ehtiyaclarını ödəmək üçün

dövlət lazımi maliyyə vəsaiti ayırır və köməklik göstərir. Onların problemlərini sistemli şəkildə həll etmək və sosial müdafiəsini gücləndirmək məqsədilə xüsusi Dövlət Proqramı (1998-ci il, 17 sentyabr) qəbul olunmuşdur. Dövlət Proqramına uyğun olaraq 1998-2001-ci illərdə bir sıra rayonlarda (Füzuli, Bərdə, Ağdam, Tərtər və s.) yaşayış məntəqələrinin salınması, infrastrukturun yenidən qurulması, kommunikasiya xətlərinin, məktəblərin, tibb məntəqələrinin bərpası, təsərrüfatla məşğul olmaq üçün əkin sahələrinin ayrılması, yeni iş yerlərinin yaradılması istiqamətində çoxlu iş görülmüşdür.

Qaçqınların və məcburi köçkünlərin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq və məşğulluğunu artırmaq məqsədilə Azərbaycan Respublikasında Dünya Bankının, digər beynəlxalq və qeyri-hökumət və kredit təşkilatlarının maliyyə dəstəyi əsasında Sosial İnkişaf Fondu (1999-cu il, 6 dekabr) yaradılmışdır. Bu fondun vəsaiti hesabına artıq məcburi köçkünlər məskunlaşmış kəndlərin sosial infrastrukturun bərpasına yönəldilmiş bir sıra mikrolayihələr həyata keçirilmişdir.

Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların, Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin bir qisminin məskunlaşdırılması məsələləri ilə əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin 22 avqust və 7 sentyabr 2001-ci il tarixli fərmanları respublikanın əlaqədar təşkilatları qarşısında qaçqın və köçkünlərin problemlərinin həlli ilə bağlı təxirəsalınmaz mühüm vəzifələr qoyur.

Bütün dünyada həlli vacib sayılan, o cümlədən Azərbaycanda böyük əhəmiyyət kəsb edən problemlərdən biri də yoxsulluğun aradan qaldırılmasıdır. Azərbaycan Respublikasının hökuməti bu istiqamətdə də beynəlxalq maliyyə institutları ilə sıx əməkdaşlıq edərək Yoxsulluğun Azaldılması Dövlət Proqramını hazırlamış və onun mərhələlərlə həllinə başlamışdır. Çox geniş sahələri əhatə edən bu Dövlət Proqramında ölkədə təhsil sisteminin təkmilləşdirilməsi, əhaliyə səhiyyə, mənzil-kommunal xidmətləri göstərilməsi, onun su, qaz, elektrik və istilik enerjisi ilə təchizatının yaxşılaşdırılması, sosial müdafiəsinin müasir beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində mühüm tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Yuxarıda sadalanan və artıq həyata keçirilmiş sosial yönümlü tədbirlərin müsbət nəticələri belə bir inamın yaranmasına tam əsas verir ki, qarşıdakı beş il ərzində bu və digər istiqamətlərdə görülməsi nəzərdə tutulan işlər Azərbaycan xalqının rifahını daha da yaxşılaşdıracaq, aztəminatlı vətəndaşlarımızın etibarlı sosial müdafiəsini təmin etməyə imkan verəcəkdir.



# III FƏSİL

# AZƏRBAYCANDA VƏTƏNDAŞ CƏMİYYƏTİNİN QURULMASI

## § 1. İctimai-siyasi sabitliyin möhkəmləndirilməsi və vətəndaş cəmiyyəti quruculuğu prosesinin başlanması

1991-ci ildə totalitar sovet rejiminin buxovlarından azad olan Azərbaycan Respublikası müstəqil dövlət quruculuğu yoluna qədəm qoydu. Öz tarixinin yeni səhifəsini açan respublikamız kommunist ideologiyasından və siyasi-iqtisadi sistemindən qətiyyətlə imtina edərək, milli və ümumbəşəri dəyərlərə söykənən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq arzularını reallaşdırmaq istiqamətində addımlar atmağa başladı.

Qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan həyatına, azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsini özünün əsas məqsədlərindən biri kimi bəyan edən Azərbaycan xalqı 1995-ci ildə qəbul etdiyi Konstitusiyada həmin prinsipləri qanunvericilik yolu ilə təsbit etdi.

İnsanların ictimai-siyasi şüur və özünüdərkinin yetkinləşməsi sayəsində cəmiyyətdəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin tənzimlənməsində vətəndaşların müxtəlif təbəqələrini və kateqoriyalarını təmsil edən ictimai qurumların fəal rol oynaması dövlətin və insanlar toplumunun daha yüksək inkişaf səviyyəsini təşkil edən vətəndaş cəmiyyətini səciyyələndirən əsas amillərdəndir. Cəmiyyətin problemlərinin həlli sahəsində ictimai qurumların tədricən daha çox funksiyanı mənimsəməsi ilə dövlət orqanlarının fəaliyyətində daha çox siyasətin müəyyənləşdirilməsi və nəzarət funksiyaları üstün yer tutur.

Yalnız yetkin cəmiyyət və güclü dövlət öz vətəndaşlarının hüquqlarının gerçəkləşməsinə, insanların rifah halının yüksəlməsinə, hüquq və azadlıqlarının qorunmasına təminat verə bilər. Azərbaycanın siyasi müstəqillik əldə etməsi və demokratik dövlət quruculuğu yoluna qədəm qoyması bu istiqamətdə əməli addımlar atmaq üçün geniş perspektivlər açdı. Azərbay-

can Respublikası öz Konstitusiyasında irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyinə təminat vermişdir. Bu isə ölkəmizdə demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin bərqərar olması ilə üzvi surətdə bağlıdır.

Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu prosesi müstəqilliyin ilk günlərindən müxtəlif problemlərin və maneələrin aradan qaldırılması ilə müşayiət olunub. Respublikamız bu yolda totalitar sovet rejimindən miras qalmış ictimai-siyasi problemlərin ağır nəticələrini, erməni separatizmi və Ermənistanın Azərbaycana hərbi təcavüzünün vurduğu yaraları, kəskin daxili-siyasi qarşıdurma və vətəndaş müharibəsi təhlükəsini, dövlət çevrilişi cəhdlərini və digər ağır siyasi, sosial-iqtisadi problemləri və onların doğurduğu nəticələri aradan qaldırmaq məcburiyyətində qaldı.

Müstəqillik əldə etdikdən sonra ilk illərdə Azərbaycanın zəngin iqtisadi və mənəvi-intellektual potensialından istifadə etməklə, onun siyasi-iqtisadi və strateji mənafelərinə uyğun olan müstəqil dövlətçiliyinin möhkəmləndirilməsi üçün geniş perspektivlər açılsa da, ölkənin hakimiyyət strukturlarının və müxalif siyasi qüvvələrinin yaranmış vəziyyəti düzgün qiymətləndirməməsi, əlverişli imkanlardan səmərəli istifadə etməməsi, ümummilli mənafelərin ayrı-ayrı qrupların cılız iddialarına qurban verilməsi daxili ictimai-siyasi vəziyyəti gərginləşdirdi, ölkənin beynəlxalq mövqelərini zəiflətdi və beləliklə də gənc suveren dövlətin inkişafına ciddi zərbə vurdu.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün getdikcə daha mütəşəkkil xarakter aldığı dövrdə respublikamızda müxtəlif siyasi qruplaşmalara məxsus qanunsuz silahlı dəstələrin yaradılması, hakimiyyət çəkişmələrinin vüsət alması ölkəni qeyri-sabit ictimai-siyasi duruma, anarxiya girdabına sürükləyərək, siyasi və iqtisadi böhranın dərinləşməsinə, torpaqlarımızın bir-birinin ardınca erməni qəsbkarları tərəfindən işğal olunmasına rəvac verdi. 1991-1992-ci illərdə hökm sürən hərc-mərclik, respublika rəhbərliyinin səbatsız siyasəti və şəxsi iddialarını gerçəkləşdirməyə səy göstərən siyasi qüvvələrin pozuculuq fəaliyyəti sayəsində bir-birini əvəz edən hakimiyyət dəyişiklikləri müstəqillik yolunda kövrək addımlarını atan gənc dövlətin



siyasi və iqtisadi dayaqlarını sarsıdaraq, ölkədə gərgin sosial-psixoloji vəziyyət yaratdı.

1992-ci ilin mayında hakimiyyətə gəlmiş AXC-Müsavat nümayəndələri Azərbaycanda yaranmış böhranlı vəziyyətin nəinki qarşısını almadılar, hətta həyata keçirdikləri səriştəsiz siyasət nəticəsində ölkə iqtisadiyyatının, uzun onilliklər ərzində yaranmış intellektual və mədəni sərvətlərin, idarəçilik potensialının talan edilməsinə, milli və vətəndaş qarşıdurmasının güclənməsinə rəvac verdilər. Həmin dövrdə respublikamızın hərbi-siyasi və iqtisadi vəziyyətinin ağırlaşması, siyasi hakimiyyət strukturlarının tamamilə nüfuzdan düşməsi ölkəni bürümüş ictimai-siyasi və iqtisadi böhranın son həddə çatmasına səbəb oldu.

1993-cü ilin yayında Azərbaycan vətəndaş müharibəsi həddinə çataraq, parçalanma və məhvolma təhlükəsi ilə üz-üzə qaldı. AXC-Müsavat hakimiyyəti özünün bir illik idarəçiliyi müddətində Azərbaycanın müstəqil dövlətçiliyinə ağır zərbələr vurdu, ölkəni dövlət böhranı vəziyyətinə gətirdi və həlledici məsuliyyət məqamında taleyin hökmünə buraxaraq, onun mövcudluğunu şübhə altında qoydu.

Beləliklə, 1991-1993-cü illər Azərbaycanın müstəqil inkişafı tarixində ictimai-siyasi durumun daha da kəskinləşməsi, müstəqil dövlətçiliyi süquta sürükləyən neqativ təzahürlərin meydana çıxması və təhlükəli xarakter alması dövrü kimi səciyyələndirilə bilər.

1993-cü ilin iyun ayında respublikamızda yaranmış böhranlı vəziyyətin dəf olunması yolunu xalqın geniş təbəqələri dövrün görkəmli siyasi xadimi, zəngin dövlətçilik təcrübəsinə malik parlaq şəxsiyyət Heydər Əliyevin respublikanın siyasi rəhbərliyinə qaytarılmasında görürdü. Xalqın bütün təbəqələrinin, xüsusən qabaqcıl ziyalıların təkidli tələbi ilə Heydər Əliyev Azərbaycanın dövlət rəhbərliyinə qayıtmağa razılıq verdi. Böyük səylər nəticəsində qısa bir zamanda ölkədə hakimiyyət boşluğu aradan götürüldü, Azərbaycanın dövlətçiliyinə, ərazi bütövlüyünə qəsd edən separatçı qüvvələr, cinayətkar ünsürlər zərərsizləşdirildi, dövlət aparatı ilə xalqın birliyi təmin olundu.

Gəncədəki gərginlik ocağının iyul ayında söndürülməsi ilə ölkədəki ictimai-siyasi böhranın aradan qaldırılması yolunda mühüm addım atıldı. Əlikram Hümbətovun respublikanın cənub bölgəsində vəziyyətin gərginləşməsinə səbəb olmuş cinayətkar hərəkətlərinin qarşısını almaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirildi. Avqustun 23-də Heydər Əliyevin Azərbaycan televiziyası ilə xalqa müraciəti ictimaiyyətin səfərbər olunmasında

mühüm rol oynadı. Separatçı qüvvələr xalqın təzyiqi altında qaçıb dağılmağa məcbur oldular.

Beləliklə, xalqın geniş təbəqələrinin arzularını ifadə edən və onların qətiyyətli dəstəyinə söykənən Heydər Əliyevin ardıcıl səyləri pozucu qüvvələrin Azərbaycanın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa imkan verdi. Respublikamız onun başı üzərini almış qanlı vətəndaş qarşıdurmasından və parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu.

Ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, mənəvi-psixoloji vəziyyətin sağlamlaşdırılması yolunda həyata keçirilən tədbirlər sırasında Prezident Heydər Əliyevin 1993-cü il noyabrın 17-də respublikamızda fəaliyyət göstərən siyasi partiya və ictimai təşkilatların rəhbərləri ilə keçirdiyi görüş mühüm yer turur. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları, cəbhə bölgəsində yaranmış vəziyyət ətraflı müzakirə edildi. Bu görüş Heydər Əliyev hakimiyyətinin Azərbaycanın ümummilli problemlərinin həlli yolunda ölkənin bütün siyasi qüvvələri ilə səmərəli dialoqun aparılmasına və vətəndaş həmrəyliyinin əldə olunmasına hazırlığını nümayiş etdirən siyasi iradənin təzahürü idi.

Bu dövrdə Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri ölkənin ərazi bütövlüyünə və müstəqilliyinə ağır zərbə vuran, daxili ictimai-siyasi vəziyyəti gərginləşdirən bir faktor kimi Ermənistanın təcavüzünün dəf edilməsi və onun vurduğu ağır sosial-iqtisadi və mənəvi yaraları aradan qaldırmaqdan ibarət idi. Azərbaycan ordusunun qurulması sahəsində həyata keçirilən geniş və qətiyyətli tədbirlər onun döyüş qabiliyyətinin yüksəlməsinə və düşmənə layiqli cavab verməsinə imkan yaratdı. 1993-cü ilin sonu – 1994-cü ilin əvvəlində Milli Ordumuzun uğurlu əməliyyatları düşmənin niyyətlərini puça çıxardı. Ermənistan atəşin dayandırılması barədə danışıqlara başlamağa məcbur oldu və 1994-cü il mayın 12-də atəşkəs haqqında razılaşma imzalandı.

Hərbi əməliyyatların dayandırılması ilə müharibənin gətirdiyi psixoloji gərginliyin aradan qaldırılması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi, ölkənin iqtisadi potensialının gücləndirilməsi, sosial problemlərin həlli və münaqişənin dinc yolla tənzimlənməsi üçün zəruri olan ilkin şərait yarandı.

1994-cü ilin sentyabrında dünyanın nüfuzlu neft şirkətlərinin daxil olduğu konsorsiumla imzalanmış "Əsrin müqaviləsi" Azərbaycana irihəcmli kapital qoyuluşuna və respublikamızın digər



qlobal beynəlxalq iqtisadi layihələrdə iştirakına yol açdı. Lakin ictimai-siyasi sabitliyin təmin olunması və dövlət quruculuğu yolunda atılan uğurlu addımlar eyni zamanda öz cılız siyasi iddialarından əl çəkməyən müəyyən daxili səbatsız qüvvələri və onların xarici havadarlarını da hərəkətə gətirdi.

Azərbaycanın milli mənafelərinə düşmən kəsilmiş həmin qüvvələr müstəqil dövlətçiliyimizə qarşı açıq çıxış etməkdən çəkinməyərək 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında qanunsuz silahlı dəstələrin iştirakı ilə dövlət çevrilişinə cəhdlər etdilər. Onların bu cəhdləri özlərini müxalifət adlandıran və hakimiyyəti yenidən ələ keçirmək üçün məqam gözləyən siyasi partiyalar və qruplar tərəfindən müdafiə edildi. Nəticədə hərbi-siyasi müxalifətin geniş koalisiyası yarandı. Lakin Heydər Əliyevin qətiyyəti və Azərbaycan dövlət orqanlarının qanuni tədbirləri sayəsində bu cəhdlərin qarşısı qətiyyətlə alındı. Çevriliş cəhdlərinin iflasa uğraması göstərdi ki, Azərbaycan dövləti artıq davamlı olaraq xalqın böyük əksəriyyətinin dəstəyinə arxalanır. Bununla da 90-cı illərin əvvəllərindən formalaşmış və ölkəmizin imicinə güclü ziyan vurmuş praktikaya – silahlı qüvvələrdən istifadə edərək, zor tətbiqi yolu ilə hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu. Azərbaycan dövləti öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Dövlətin dayaqlarının möhkəmlənməsi və ictimai-siyasi sabitliyin bərqərar edilməsi dövlət quruculuğu işlərinin, əsaslı sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsinə imkan yaratdı. Məhz bu dövrdən etibarən, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsi istiqamətində köklü siyasi, sosial-iqtisadi və hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsi başlandı.

Qanunçuluğun möhkəmlənməsi, sosial-psixoloji gərginliyin tədricən aradan qalxması, cəmiyyətdə baş verən proseslərin gerçək demokratik müstəviyə keçirilməsi müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi sahəsində ciddi və cəsarətli tədbirlər görülməsi ilə müşayiət olunurdu. Xalqın yüksək siyasi mütəşəkkilliyi şəraitində, 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasında ilk parlament seçkiləri keçirildi. Elə həmin gün referendum yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Konstitusiya Azərbaycanda demokratik dövlət və vətəndaş cəmiyyəti qurulmasının əsas istiqamətlərini və hüquqi prinsiplərini müəyyən etdi.

Çoxpartiyalılıq əsasında seçilmiş ilk demokratik parlament həmin prinsiplərin gerçəkləşməsi yolunda atılan mühüm addım oldu. Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizdə həyata keçirilən demokratik islahatların qanunvericilik bazasının yaradılması sahəsində məhsuldar işləməklə ictimai-siyasi sabitliyin möhkəmlənməsinə, yeni siyasi-iqtisadi sistemin qurulmasına öz töhfəsini verdi.

Azərbaycan dövləti on illik müstəqil inkişaf tarixində vətəndaş cəmiyyətinin qurulması istiqamətində müxtəlif çətinliklərlə üzləşərək mürəkkəb yol keçmişdir. Yeni ictimai-siyasi sistemin təşəkkülü prosesini yaşayan Azərbaycan Ermənistanın hələ də davam etməkdə olan hərbi təcavüzünə və onun ağır nəticələrinə baxmayaraq, bütün potensialını səfərbər edərək demokratik inkişaf yolunda böyük uğurlar əldə etmişdir.

Vətəndaş cəmiyyətinin qurulmasında hakimiyyət orqanları ilə cəmiyyət, konkret fərdlər arasında qarşılıqlı əlaqənin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Ötən on il ərzində bu mühüm vəzifəni yerinə yetirmək üçün cəmiyyət tərəfindən hakimiyyət orqanlarının fəaliyyəti üzərində ictimai nəzarət mexanizminin təkmilləşdirilməsi sahəsində ciddi tədbirlər görülüb. Vətəndaş cəmiyyətinin təməl daşını təşkil edən seçki qanunvericiliyi demokratikləşdirilib və beynəlxalq standartlara uyğunlaşdırılıb. Xalq hakimiyyətinin əsasında duran konstitusiya prinsiplərinin reallaşması, məhz seçki qanunvericiliyindən asılıdır. Ona görə də Azərbaycan dövləti onun demokratik prinsiplər əsasında daha da təkmilləşməsinə xüsusi diqqət yetirib. 1998-ci ildə prezident seçkiləri haqqında, 1999-cu ildə bələdiyyə orqanlarına, 2000-ci ildə isə Milli Məclisə seçkilər haqqında qanunlar parlamentdə geniş müzakirə olunmuş, ictimai-siyasi qurumların, o cümlədən, müxalifət partiyalarının təklif və qeydləri nəzərə alınmış, nəticədə həmin sənədlər nüfuzlu beynəlxalq təşkilatların ekspertizası zamanı müsbət rəy alaraq həyata vəsiqə qazanmışdır.

Bələdiyyələrə 1999-cu ildə, Milli Məclisə isə 2000-ci ildə keçirilmiş seçkilərdə namizədlərin hamısına bərabər şəraitin yaradılması, siyasi partiyaların seçkilərdə iştirakına mane olan bütün sədlərin aradan qaldırılması, seçicilərin öz iradəsini azad, demokratik və obyektiv ifadə etməsi üçün zəruri tədbirlərin görülməsi respublikamızın demokratiya və vətəndaş cəmiyyəti yolunda ardıcıl surətdə irəliləməsinin real təzahürü oldu.

Vətəndaş cəmiyyəti quruculuğunda siyasi plüralizmin, çoxpartiyalı sistemin daha da inkişafı xüsusi rol oynayır. Azərbaycanın



müstəqil inkişaf tarixi siyasi plüralizmin getdikcə daha geniş təşəkkül tapması, yeni-yeni siyasi partiyaların tarix səhnəsinə qədəm qoyması və ölkəmizin ictimai-siyasi həyatında daha fəal rol oynamağa səy göstərməsi ilə səciyyələnir. Bu isə Azərbaycan dövlətinin bütün siyasi partiyaların fəaliyyəti üçün zəruri şərait yaratması nəticəsində mümkün olmuşdur. Ötən dövr ərzində respublikamızda vətəndaş cəmiyyətinin prinsiplərini praktikada reallaşdıran yüzlərlə ictimai təşkilat yaranıb. Ölkənin inkişafında tədricən daha fəal iştirak etməyə başlayan ictimai qurumlar əhalinin müxtəlif təbəqələrinin maraqlarını ifadə edərək, dövlət-cəmiyyət-vətəndaş münasibətlərində ahəngdar əlaqələrin təmin edilməsində mühüm yer tutur. Müəyyən obyektiv səbəblərə görə dövlətin tez bir zamanda həll edə bilmədiyi bir sıra həyati problemlərin həllinə kömək missiyasını öz üzərinə götürən, insanları daha fəal, müstəqil və sərbəst fəaliyyətə alışdıran ictimai qurumları vətəndaş cəmiyyətinin təşəkkül tapmasında və inkişafında mühüm vasitə və demokratiyanın atributları kimi qiymətləndirən Azərbaycan dövləti onların azad fəaliyyəti üçün hərtərəfli şərait yaratmışdır.

Vətəndaş cəmiyyətinin formalaşmasında əsas və ən mürəkkəb vəzifələrdən biri vətəndaşların demokratik düşüncə tərzinin və hüquqi təfəkkürünün, söz və vicdan azadlığının bərqərar olmasıdır. Totalitar kommunist rejiminin və ideologiyasının davamlı təsirindən xilas olmuş və demokratik dövlət quruculuğu yoluna çıxmış cəmiyyətdə insanların milli və ümumbəşəri dəyərləri azad, obyektiv və hüquqi müstəvidən çıxış edərək qiymətləndirməsi üçün yeni düşüncə tərzinin formalaşmasına və ona təsir edən zəruri şəraitin yaradılmasına müəyyən zaman tələb olunur. Azərbaycanda görülmüş işlər artıq bu sahədə mühüm dəyişikliklərin baş verdiyini təsdiq edir.

Təhsil sistemini əhatə edən hüquqi tədris proqramları və dərslikləri hazırlanıb, əhalinin hüquqi məsləhət almasına geniş imkan verən digər şəbəkələr daha da inkişaf etdirilir. Dövlət vətəndaşların hüquqi cəhətdən maariflənməsi üçün istifadə olunan müxtəlif formaları, o cümlədən hüquqi məsələlərə həsr olunmuş radio və televiziya verilişlərinin təşkil edilməsini, xüsusi nəşrlərin dərc olunmasını və hüquqi biliklərin yayılmasının digər formalarını fəal şəkildə dəstəkləyir.

Bu sahədə fəaliyyət göstərən ayrı-ayrı vətəndaşların və ictimai qurumların təşəbbüsləri daim dövlət tərəfindən diqqət mərkəzində saxlanılıb və müvafiq qanunvericilik aktlarının qəbul edilməsi ilə zəruri hüquqi bazanın yaradılmasına xüsusi əhəmiyyət verilib.

Ölkəmizdə müxtəlif yönümlü siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyəti, *senzuranın* aradan qaldırılması, yüzlərlə mətbuat orqanının azad nəşr olunması, özəl radio və televiziya kanallarının yayımlanması siyasi plüralizmin, azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafının əyani təzahürüdür. Bu isə demokratik cəmiyyətin formalaşması üçün zəruri olan təsisatların və hüquqi bazanın yaradılması sahəsində Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasətin sayəsində əldə edilmişdir.



## § 2. Vətəndaş cəmiyyətinin strukturu: siyasi partiyalar, qeyri-hökumət təşkilatları və digər vətəndaş təsisatları

İctimai-siyasi sabitliyin yaradılması, demokratik prinsiplərin bərqərar olması sahəsində ardıcıl addımların atılması Azərbaycan cəmiyyətinin və ictimai-siyasi qüvvələrinin anarxiyadan demokratiyaya və qanunçuluğa keçidi yolunda ciddi dönüş yaratdı. Qanunun aliliyi prinsipinin gerçəkləşdirilməsi, dövlət orqanlarının nüfuzunun bərpa olunması, azad düşüncənin təzahürü olan sərbəst siyasi fəaliyyəti məhdudlaşdıran bütün maneələrin aradan qaldırılması demokratiyanın təşəkkül tapıb möhkəmlənməsi üçün geniş perspektivlər açdı.

Demokratik dəyərlərə söykənən vətəndaş cəmiyyəti quruculuğu yolu insanların azad siyasi və ictimai fəaliyyəti üzərində *qurulan demokratik təsisatların, o cümlədən çoxpartiyalı sistemin* və ictimai birliklər şəbəkəsinin bərqərar olmasından keçir. Azərbaycan Konstitusiyası *hər kəsin istənilən birlik*, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai qurumlar yaratmaq və ya mövcud təşkilata daxil olmaq hüququnu təsbit edərək, bütün birliklərin sərbəst fəaliyyətinə təminat verir.

Müstəqil inkişaf yolunda demokratik dəyərlərdən faydalanmaqla hüquqi dövlət quruculuğu vəzifələrini həll edən Azərbaycanda mütərəqqi dünya təcrübəsinə əsaslanaraq, düşüncə azadlığı və sərbəst siyasi fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Demokratik sistemin təşəkkülü prosesi çoxsaylı siyasi partiyaların və ictimai təşkilatların intensiv surətdə yaranması ilə müşayiət olunmuşdur. Hazırda respublikamızda fəaliyyət göstərən onlarca siyasi partiya və yüzlərlə ictimai qurum ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmək üçün geniş *imkanlara malikdir.* Onların fəaliyyəti "Mülki məcəllə", "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında", "Qrant haqqında" qanunlarla, Nazirlər Kabinetinin qərarları ilə tənzimlənir. Həmin təşkilatlar ölkə Konstitusiyası, "Siyasi partiyalar haqqında", "İctimai birliklər haqqında", "Həmkarlar ittifaqları haqqında" qanunlara əsasən yaradılır və fəaliyyət göstərirlər.

İnsan və vətəndaş hüquqları və azadlıqlarını qanunvericilik yolu ilə təsbit edən və siyasi plüralizmin gerçəkləşməsi üçün hüquqi əsaslar yaradan Konstitusiyanın ümumxalq səsverməsi yolu ilə qəbul olunması, çoxpartiyalılıq əsasında Prezident, parlament və bələdiyyə seçkilərinin keçirilməsi ölkəmizdə düşüncə

azadlığı və azad siyasi fəaliyyətin bərqərar olması sahəsində ardıcıl xəttin həyata keçirildiyini təsdiqləyir. Avropa Şurası Parlament Assambleyasının Azərbaycana dair məruzələrində də respublikada çoxpartiyalı sistemin faktiki olaraq formalaşması və gerçək surətdə fəaliyyət göstərməsi fikri öz əksini tapmışdır.

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandığı ərəfədə ölkə qarşısında olduqca ciddi və ağır problemlər dururdu. Respublika rəhbərliyinin apardığı bacarıqsız və milli maraqlara söykənməyən siyasi xətt nəticəsində dövlət müstəqilliyi real məzmuna malik deyildi. Azərbaycan öz prioritetlərini qətiləşdirməmişdi, digər dövlətlərin ölkənin daxili həyatına müdaxiləsi açıq təsir bağışlayırdı, cəmiyyət ümumi dəyərlər ətrafında birləşməmişdi. Azərbaycan torpaqları keçmiş sovet ordusunun köməyi ilə Ermənistan hərbi qüvvələri tərəfindən bir-birinin ardınca işğal edilirdi.

Bundan başqa, əvvəllər Ayaz Mütəllibov, sonra isə AXC-Müsavat hakimiyyəti nüfuzlu və xalq tərəfindən dəstəklənən siyasətçilərin, ilk növbədə respublikanın keçmiş rəhbəri Heydər Əliyevin siyasi həyatda iştirakına maneələr törədirdi. Bu isə demokratik hüquq və azadlıqların məhdudlaşdırılmasına və vətəndaş cəmiyyəti təsisatlarının formalaşmasının ləngiməsinə gətirib çıxarırdı. Adı çəkilən hər iki iqtidar bu məqsədlə ancaq özlərinə sərf edən siyasi partiya və ictimai təşkilatların yaradılmasına və fəaliyyətinə rəvac verirdi. Həmçinin Mütəllibov və AXC-Müsavat hakimiyyətini təmsil edənlərin dövlətçilik və vətəndaş cəmiyyəti haqqında bəsit təsəvvürləri bir sıra vətəndaş təsisatlarının yaranmasına maneçilik törədir, yaxud qanunsuz təşkilatlar yaradılırdı.

Bu məsələdə yeganə istisnanı siyasi partiyaların təşəkkülü təşkil edirdi. Bu istisna isə onların siyasi hakimiyyəti əldə etmək və saxlamaq üçün bir vasitə olduğunu dərk etdiklərindən irəli gəlirdi. Həmçinin ciddi siyasi qüvvələrin ictimai-siyasi proseslərdən güc üsulları ilə uzaqlaşdırılması mütəllibovçuların və cəbhəçilərin siyasi partiyalar vasitəsi ilə strukturlaşmasını sürətləndirirdi. Ümumi xətt olmasına baxmayaraq, partiyalaşma prosesində onların taktikası ciddi fərqlənirdi.

Dövlət müstəqilliyi ərəfəsində A.Mütəllibov rəhbərlik etdiyi kommunist partiyasını buraxdırdı və bütün diqqətini öz şəxsi hakimiyyətinin möhkəmləndirilməsinə yönəltdi. Siyasi partiya faktorunu keçmiş birinci katib konkret siyasi strategiyası olmaması səbəbindən nəzərə almırdı. Ancaq ondan fərqli olaraq, kommunist partiyası buraxıldıqdan sonra ictimai-siyasi həyatda



monopoliya yaratmış Xalq Cəbhəsi rəhbərliyi bu faktora çox ciddi fikir verirdi.

Həmin dövrdə siyasi proseslər formal strukturları olmasa da, Mütəllibovun "hakimiyyət partiyası" ilə yeganə mütəşəkkil müxalifət təşkilatı olan AXC arasında münasibətlər müstəvisində cərəyan edirdi. Mütəllibovun siyasi iflasından sonra gedən hadisələr AXC-nin də radikal populizm səviyyəsindən normal, demokratik, sivil partiya səviyyəsinə qalxa bilmədiyini nümayiş etdirirdi. Sov.İKP monopoliyasından yenicə qurtulmuş cəmiyyətə AXC-nin yarımçıq dövlət quruculuğu və milli ideoloji baxışlarının, saxta millətçi frazeologiyasının zorla qəbul etdirilməsi bir çox problemlər yaradırdı.

Azərbaycan Respublikasında cəmiyyətə çoxpartiyalılıq tendensiyası dövlət müstəqilliyimizdən əvvəl meydana gəlib. Müstəqilliyə qədər siyasi partiyalar qeyri-formal səviyyədə sosial təbəqələrin maraq və mənafeləri əsasında deyil, ərazi bütövlüyünün qorunması məsələsində iqtidarla xalq kütləsinin ciddi fikir ayrılığı üzərində formalaşmışdı. Bu məsələnin həlli Azərbaycanda xalq hərəkatının ixtiyarına keçdikdən sonra isə siyasi qüvvələr arasında mübarizə cəmiyyətin strateji inkişaf xətti ətrafında getməyə başladı.

Azərbaycan Kommunist Partiyasının vəziyyətə nəzarət etdiyi 1988-ci ilə qədər heç bir siyasi təşkilat meydana gəlməmişdi. Ancaq hakimiyyətin siyasi nüfuzu azaldıqca, cəmiyyətdə gedən ictimai-siyasi proseslər mürəkkəbləşdikcə siyasi partiyaların sayı kəskin surətdə artırdı. Bunu öz vəzifələrini yerinə yetirə bilməyən iqtidarın fəaliyyətinə cəmiyyətin etirazı kimi başa düşmək olardı. Mütəllibov iqtidarı dövründə 12 siyasi partiya meydana gəlmişdisə, təcrübəsiz və dəqiq proqramı olmayan Əbülfəz Elçibəyin 13 aylıq iqtidarı dövründə artıq 16 siyasi partiya özünün mövcudluğunu elan etmişdi.

Vurğulanan prinsipin düzgünlüyü Heydər Əliyevin siyasi rəhbərliyi dövründə özünü daha bariz şəkildə göstərdi. Güclü və nüfuzlu icra hakimiyyətinin yaradılması, qanunçuluğun möhkəmləndirilməsi, siyasi mübarizənin sivil qaydalar məcrasına yönəldilməsi, dövlətçilik normalarının ardıcıl tətbiqi partiyalaşma prosesinə də öz güclü təsirini göstərdi. Əgər 1993-cü ilin birinci yarısında 6 siyasi partiya təsis olunmuşdusa, ikinci yarım ildə onların sayı cəmi 2 oldu. Cəmiyyətdə demokratik prinsiplər dərin kök saldıqca yeni partiyaların yaranması sabit xarakter aldı.

Sov.İKP-nin süqutu müvafiq olaraq sovet quruluşunun dağılmasına və müttəfiq respublikaların müstəqillik qazanmasına sə-

bəb oldu. Bu səbəbdən respublikamızda partiyalaşma prosesi keyfiyyətcə yeni mərhələyə daxil oldu. Onsuz da daxilində ciddi problemlər olan AXC-də bölünmə meylləri gücləndi. Cəbhə AXC və Müsavat partiyaları qanadlarına bölündü. Meydan hərəkatının radikal qanadının Azərbaycan Milli İstiqlal Partiyasını yaratması partiyalaşmanın klassik model dövrünə daxil olduğunu xəbər verdi.

Dövrün ən görkəmli siyasi hadisəsi isə təcrübəli siyasətçi Heydər Əliyevin rəhbərliyi ilə güclü mərkəzçi Yeni Azərbaycan Partiyasının yaranması oldu. Ağır siyasi, iqtisadi və sosial problemlərin mövcud olduğu bir vaxtda Azərbaycanda ölkəni çətinlikdən çıxara biləcək yeni bir siyasi qüvvə axtarışı güclənirdi. Mövcud siyasi partiyaların və siyasətçilərin heç biri bu ağır problemləri həll etmək iqtidarında deyildi. Hamı üçün çoxdan aydın idi ki, Dağlıq Qarabağ məsələsi və respublika ilə bağlı bütün problemlər məhz Heydər Əliyevin 1987-ci ilin sonunda siyasi həyatdan uzaqlaşdırılmasından sonra baş vermişdi. Heydər Əliyevin xalq arasında böyük nüfuzuna, milli təəssübkeşliyinə və zəngin dövlətçilik təcrübəsinə kəskin ehtiyac duyulurdu.

Heydər Əliyev isə 1987-ci ildə ona qarşı İttifaq rəhbərliyinin, sonra isə respublika rəhbərliyinin sistemli şəkildə həyata keçirdiyi ədalətsiz, məkrli münasibətdən sonra bir daha siyasət aləminə qayıtmaq və dövlət işləri ilə məşğul olmaq istəmirdi. Çox maraqlı idi ki, sovet rəhbərləri tərəfindən ona göstərilən mənfi münasibət sonradan müstəqil Azərbaycanın özünü "demokrat" adlandıran rəhbərləri tərəfindən də davam etdirilirdi.

1992-ci ilin payızında ölkədə ictimai-siyasi və sosial-iqtisadi vəziyyətin getdikcə gərginləşdiyini görən 91 nəfər görkəmli ziyalı həmin ilin oktyabrın 16-da "Səs" qəzetində Heydər Əliyevə geniş və təkidli bir müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "Azərbaycan... siyasi, mənəvi böhran keçirir, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir. Siyasi partiyaların sayı gün-gündən çoxalsa da, siyasi vakuum mövcuddur. Çünki bu siyasi partiyaların rəhbərləri arasında xalq kütləsinin etimadını qazanmış beynəlxalq nüfuzlu güclü lider yoxdur".

Demokratiyanın təntənəsini arzulayan ziyalılar xarizmatik liderin idarə edəcəyi avtoritar rejimin yaradılması fikrindən uzaq idilər. Onlar Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda geniş xalq kütlələrini əhatə edəcək nüfuzlu və işlək bir partiyanın yaradılmasını təklif edirdilər. Müraciətə geniş cavab verən



Heydər Əliyev Azərbaycan ziyalılarının narahatlığını təqdir edərək dövlət müstəqilliyimizin əldə edilməsini tarixi hadisə kimi qiymətləndirdi. Ancaq bir sıra siyasi liderlərdən fərqli olaraq o, müstəqilliyi ayrı-ayrı şəxslərin xidməti deyil, keçmiş SSRİ məkanında gedən tarixi proseslərin zəruri nəticəsi hesab edirdi. O, müstəqilliyi bütün Azərbaycan xalqının milli sərvəti sayaraq, onun ayrı-ayrı siyasi partiyaların, qurumların, şəxslərin monopoliyasına çevrilməsinə qəti etirazını bildirirdi.

Öz cavabında siyasi partiya anlayışını genişləndirən Heydər Əliyev partiyaların fəaliyyəti üçün Azərbaycan dövlətinin gələcək həyatında demokratiya və siyasi plüralizm şəraitinin mövcudluğunu əsas şərt kimi vurğuladı.

1992-ci il noyabr ayının 21-də Naxçıvanda Heydər Əliyevin sədr seçildiyi Yeni Azərbaycan Partiyasının YAP yaradılması ölkədə geniş əks-səda doğurdu və ictimai-siyasi proseslərə böyük təkan verdi. Bu isə hadisələrin sonrakı inkişafının göstərdiyi kimi, Azərbaycan üçün kifayət qədər əhəmiyyətli və yeni mərhələnin başlanması idi. Güclü sosial bazası, praqmatik proqramı, təşkilati strukturu və nüfuzlu lideri olan Yeni Azərbaycan Partiyasının meydana gəlməsi ilə 1992-ci ilin sonunda Azərbaycan Respublikasında çoxpartiyalı siyasi sistem əsasən formalaşmış oldu.

1993-cü ilin iyun ayının 15-də Heydər Əliyevin ali hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqil dövlətçiliyin əsaslarının formalaşması və vətəndaş cəmiyyətinin qurulması prosesi başlandı. Bu, partiyalaşma prosesinə də öz ciddi təsirini göstərdi. Partiyanın sədri Heydər Əliyevin uğurlu siyasi xətti YAP-ı əsaslı surətdə ön plana çıxartdı. Bu müvəffəqiyyət siyasi həyatda yeni hadisənin – Heydər Əliyev siyasi fəlsəfəsinə əsaslanan yeni tipli partiyaların meydana gəlməsinə və cəmiyyətdə öz yerlərini tutmasına səbəb oldu.

Ölkədə demokratikləşmənin dərinləşməsi, hüquqi dövlətin formalaşması və müstəqil dövlətçilik bünövrəsinin möhkəmlənməsi siyasi partiyaların cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi çıxış etməsinə yeni imkanlar yaradır. İndiyə qədər respublikada qeydiyyatdan keçmiş 38 siyasi partiya fəaliyyət göstərir. Yeni partiyaların yaranması intensivliyi kəskin surətdə azalmaqdadır. Bu isə sosial qrupların maraqlarını ifadə edən siyasi təşkilatların artıq əsasən formalaşması ilə əlaqədardır. Siyasi partiyaların sayının çox olmasına baxmayaraq, ötən dövrün ictimai-siyasi prosesləri ölkənin aparıcı və əsas siyasi partiyalarını müəyyənləşdirməyə imkan verdi. Bu, müstəqillik qazanılandan

sonra keçirilən üç prezident, iki parlament və bir bələdiyyə seçkilərinin nəticəsində qətiləşdi.

Siyasi partiyaların fəaliyyətinin öyrənilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycanda bir partiyanın – Yeni Azərbaycan Partiyasının aparıcı qüvvə olduğu çoxpartiyalı sistem formalaşıb. Milli Məclis deputatlarının, bələdiyyə üzvlərinin böyük əksəriyyəti YAP üzvləridir. Partiyanın cəmiyyətin bütün təbəqələrini və coğrafi ərazisini əhatə edən 200 mindən çox üzvü vardır. Həm təşkilati göstəricilərə, həm də ictimai nüfuzuna görə bu gün respublikada Yeni Azərbaycan Partiyasının alternativi yoxdur.

YAP-ın müvəffəqiyyətini ilk növbədə Prezident Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsində axtarmaq lazımdır. Partiya öz məramında və praktiki fəaliyyətində demokratik prinsiplərə, ümumbəşəri dəyərlərlə milli xüsusiyyətlərin vəhdətinə, hüquqi dövlət, vətəndaş cəmiyyəti, sərbəst iqtisadiyyat yaradılmasına üstünlük verir və eyni zamanda güclü sosial müdafiə proqramı ilə fəaliyyət göstərir.

Sosial bazasının genişliyinə görə ölkədəki siyasi partiyaların heç biri YAP ilə rəqabətə girə bilmir. Bu, ilk növbədə müxtəlif istiqamətli və ideologiyalı müxalifət partiyalarına aiddir. Onlar siyasi fəaliyyətinə və mövqeyinə görə bir neçə xarakterik qütbə bölünürlər. Ümumi cinah əlamətlərinə baxmayaraq, müxalifət siyasi partiyaları münasibətlərini müttəfiqlik öhdəliyi ilə bağlamaqdan çəkinir və bu münasibətləri siyasi maraqlar üzərində qurmağa çalışırlar.

Müxalifət partiyaları mövcud iqtidara qarşı ümumi halda mübarizə aparsalar da, strategiya və taktikaya görə çox kəskin fərqlənirlər. Bu gün məhdud sosial bazaya söykənən müxalifətin bir neçə aparıcı siyasi partiyasının mövcudluğu qəbul edilir.

Müxalifət siyasi cəbhəsini şərti olaraq mühafizəkar, millətçi, liberal-demokrat və sol cinaha bölmək olar. Son parlament seçkiləri liberal-demokrat yönümlü müxalifət partiyalarının daha çox dəstək qazandığını üzə çıxartdı. Bunlara Azərbaycan Xalq Cəbhəsi və Vətəndaş Həmrəyliyi Partiyalarını aid etmək olar. 1998-ci il prezident seçkilərinə qədər bu siyasi xətdə olan Milli İstiqlal Partiyasının sonradan radikallığa meyl etməsi ona 2000-ci il parlament seçkilərində ciddi uğursuzluq gətirdi.

Müxalifətin barışmaz, destruktiv hissəsini təşkil edən siyasi bloka Müsavat və Demokrat partiyaları daxildir. Bu partiyalar bütün narazıları, cəmiyyətə inteqrasiya olunmayan dağıdıcı



ünsürləri öz ətrafında birləşdirməyə çalışır. Ölkədə siyasi və iqtisadi sabitliyin möhkəmlənməsi, Dağlıq Qarabağ probleminin həllində real şansların artması, hüquqi dövlət quruculuğu, iqtisadi islahatlar və neft strategiyasının reallaşdırılması istiqamətində nailiyyətlər Heydər Əliyev siyasi xəttinin kəskin tənqidçilərinin sosial bazasının hiss ediləcək şəkildə zəifləməsinə və bu bloka daxil olan siyasi partiyalarda ziddiyyətlərin güclənməsinə səbəb olur.

Müxalifətin mövcud cinahlarının biri də ənənəvi sol partiyalardan ibarətdir. Aparıcı qüvvələrini Kommunist və Sosial-demokrat partiyalarının təşkil etdiyi bu blok əhalinin aztəminatlı hissəsinin maraqlarını müdafiə və ifadə etmək iddiasındadır. Ancaq inflyasiyanın dayanması, iqtidarın sosial proqramları ardıcıl surətdə həyata keçirməsi "solların" şansını aşağı salır.

Azərbaycanın siyasi palitrasında bütün mümkün ideoloji istiqamətlərə mənsub partiyalar təmsil olunmuşdur: liberal, mühafizəkar, millətçi və s. Bu partiyaların əksəriyyəti hakimiyyətə münasibətinə görə özlərini müxalifət partiyaları elan etmişlər.

Normal fəaliyyət göstərmək üçün siyasi partiyaların əksər hissəsinin geniş imkanları vardır. Bunlar bir qayda olaraq, qərargahla, texniki avadanlıqla təmin olunmuşlar, mətbu orqanlara malikdirlər, müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, sərbəst surətdə kütləvi tədbirlər təşkil edirlər. Seçki prosesləri zamanı bütün partiyaların bərabər imkanlardan istifadə etməklə geniş təbliğat və təşviqat işləri qurmasına şərait yaradılır.

Azərbaycanda siyasi partiyaları saciyyələndirən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, bunların heç də hamısı sosial ehtiyacdan, dövrün tələbindən yaranmamışdır. Onların bir çoxu ayrı-ayrı şəxslərin, maraq qruplarının hakimiyyət ambisiyalarının təmin olunmasına xidmət edir. Təsadüfi deyil ki, əksər partiyaların proqram və nizamnamələri bir birini xeyli təkrarlayır, cəmiyyətə yeni ideyalar təklif edə bilmir.

Aydındır ki, zaman keçdikcə ciddi sosial bazası, cəlbedici ideoloji müddəaları, real proqramları olmayan partiyalar cəmiyyət tərəfindən qəbul olunmayacaq və siyasət səhnəsindən silinib getməyə məcbur olacaqlar.

Eyni zamanda Azərbaycan cəmiyyətində Prezident Heydər Əliyevin siyasi xəttini müdafiə edən və ya ona loyal yanaşan, demokratiya və dövlətçilik prinsiplərini əsas götürən, konstruktiv mövqeli siyasi partiyalar da fəaliyyət göstərirlər. Onların mövcudluğu cəmiyyətin müxtəlif təbəqələrdən olan nümayəndələrinin siyasətdə müstəqil iştirakına şərait yaradır, sabitliyin

və vətəndaş cəmiyyətinin əsaslarını möhkəmləndirir. Bu partiyalar sırasında Sosial Rifah, Ana Vətən, Demokratik Maarifçilik partiyalarının və s. adlarını çəkmək olar.

İqtidaryönlü partiyalar özlərinin daxili stabilliyi və müttəfiqlik münasibətləri ilə fərqlənirlər. Son illərdə Azərbaycanda iqtidaryönlü siyasi partiyaların yaranması prosesi dayanmışdır. Bunu da ilk növbədə ölkədə ictimai-siyasi sabitlik və partiyalaşma prosesinin əsasən başa çatması ilə izah etmək olar. Hakimiyyətə yaxın olan siyasi partiyalar və ictimai təşkilatlar öz fəaliyyətlərini Məşvərət Məclisi və Demokratik Alyans kimi qurumlarla əlaqələndirməyə cəhd göstərirlər. Bu qurumlar respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir, dövlət siyasətinin aktual məsələlərinə dair mövqe bildirir, ictimai təşəbbüslərlə çıxış edirlər. Ölkədə demokratik proseslərin sivil, konstitusion normalar çərçivəsində getməsinin, müstəqil dövlət quruculuğunun mühüm şərti hakimiyyət – müxalifət dialoqu, ümummilli məsələlər ətrafında siyasi qüvvələrin konsensusa gəlməsidir. Heydər Əliyev və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası 1992-93-cü illərdə əvvəlcə sağlam, konstruktiv, milli-vətənpərvər müxalifət olduğunu, sonra isə milli-siyasi potensialdan tam istifadə etməyə, normal iqtidar-müxalifət münasibətləri qurmağa çalışan iqtidar partiyası olduğunu sübut etmişdir.

Azərbaycan prezidenti dəfələrlə yüksək kürsülərdən müxalifət partiyalarına müraciət edərək, onları dialoqa, ümummilli problemləri birgə həll etməyə, əməkdaşlığa çağırmışdır. Azərbaycan prezidenti sonuncu dəfə müxalifətə belə bir çağırışla 2001-ci il mayın 26-da Respublika gününə həsr olunmuş təntənəli mərasimdəki nitqində müraciət edərək Əliyev xüsusi vurğulamışdır ki, müstəqilliyimizin bundan sonra da möhkəmlənməsi, yaşaması, Azərbaycanın inkişaf etməsi ölkəmizdə vətəndaş birliyinin, həmrəyliyinin əsasında olmalıdır.

Avropa Şurası Parlament Assambleyasında hakimiyyəti və müxalifəti təmsil edən Prezident arzu etmişdir ki, bu kiçik çərçivədə olan əməkdaşlıq Azərbaycanda bütün qüvvələr arasında Azərbaycanın milli mənafelərini təmin etmək üçün səmimi, geniş əməkdaşlığa çevrilsin. Bununla Heydər Əliyev artıq neçənci dəfə idi ki, yüksək kürsüdən xalqımızı, millətimizi, vətəndaşlarımızı, Azərbaycanda mövcud olan müxtəlif siyasi, ictimai qüvvələri Azərbaycanın bu günü və gələcəyi naminə birliyə, həmrəyliyə dəvət edirdi.

Təbii ki, bu gün Azərbaycan cəmiyyətinin sivil, konstruktiv qaydada Konstitusiya və qanunlar çərçivəsində fəaliyyət göstərən müxalifətə ehtiyacı vardır. Elə bir müxalifətə ki, prinsipial tənqid və obyektivlik mövqelərində dayansın, milli, demokratik, vətənpərvər düşüncə və davranış nümayiş etdirsin. İnkişaf etmiş demokratik dövlətlərdə olduğu kimi Azərbaycanda da sivil, normal, vətənpərvər müxalifət tədricən formalaşmaqdadır və ümid etmək olar ki, yaxın gələcəkdə cəmiyyətin inkişafının güclü faktoruna çevrilə bilər.



Son on ildə demokratik cəmiyyətin mühüm atributlarından biri olan qeyri-hökumət təşkilatlarının inkişafında, bunların ictimai-siyasi həyatda rolunun güclənməsində mühüm irəliləyişlər baş vermişdir. Bu gün ölkədə dövlət qeydiyyatından keçmiş 1400-dən çox qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bu qəbildən olan yeni qurumların sayı durmadan artır. Bu sahədə vətəndaşların fəallığının güclənməsi qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün zəruri hüquqi aktların mövcudluğu və real şəraitin yaradılması ilə şərtlənir. Bu təşkilatları nizamnamə məqsədlərinə və fəaliyyətlərinə görə bir neçə qrupa bölmək olar: həmkarlar ittifaqları, qadın, gənclər, uşaq, insan hüquqları müdafiəsi, beynəlxalq, xeyriyyə, idman, ekoloji, mədəni, təhsil, elmi-texniki cəmiyyətlər, peşə assosiasiyaları və s. Həmin təşkilatların səmərəli fəaliyyəti, kütləvi informasiya vasitələrində sərbəst çıxışları, müxtəlif layihələri həyata keçirmələri üçün geniş imkanlar yaradılmışdır. İctimai birliklər bir çox hallarda dövlət orqanlarının və beynəlxalq təşkilatların etibarlı tərəfdaşları kimi çıxış edirlər.

Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən 30-dan çox ictimai birlik vardır. Bu qeyri-hökumət təşkilatlarının bir hissəsinin dövlət qeydiyyatından keçməməsinə baxmayaraq, onların sərbəst fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur.

Bu təşkilatlar sırasında Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi, Avropa İnsan Hüquqları Mərkəzi, Vətəndaş Hüquqlarının müdafiəsi Fondu, Demokratiya və İnsan Hüquqları Komitəsi, Azad İstehlakçılar Birliyini və digərlərini qeyd etmək olar. Hüquq-müdafiə təşkilatlarından danışarkən onların fəaliyyətində çox zaman diqqət yetirilməyən bir cəhəti ayrıca qeyd etmək lazımdır. Bu təşkilatlar, bir qayda olaraq, ifrat dərəcədə siyasiləşmişlər, daha çox siyasi partiyaların nəzdində fəaliyyət göstərirlər, vətəndaşların siyasi hüquqlarını (özlərinin başa düşdükləri mənada) müdafiə etdiklərini bəyan edirlər. Müxtəlif siyasi qüvvələrə və maddi maraqlara xidmət edən hüquq-müdafiə təşkilatları tərəfindən heç bir beynəlxalq

praktikaya söykənməyən və bir-birindən kəskin fərqlənən "siyasi məhbus" siyahıları tərtib edilir, onların ətrafında təbliğat şousu da yaradılır. Bu zaman nədənsə unudulur ki, siyasi hüquqlar bütövlükdə insan hüquqlarının yalnız bir hissəsidir, vətəndaşların mülki, sosial, əmək, mədəni və s. hüquqları da vardır. Yalnız siyasətlə məşğul olanların deyil, həm də bütün sıravi vətəndaşların, o cümlədən qaçqın və məcburi köçkün düşmüş 1 milyondan çox vətəndaşın hüquqlarını qorumaq, onların problemlərini və dərdlərini beynəlxalq təşkilatlara, dünya ictimaiyyətinə çatdırmaq lazımdır. Sıravi vətəndaşların təhsil, əmək, səhiyyə, mədəni, əmək, ekoloji və s. hüquqlarının qorunmasına və bu sahədə ictimai təşkilatların imkanlarından istifadə olunmasına isə real ehtiyac vardır.

Respublikada vətəndaşların hüquqlarının qorunması və sosial problemlərin həlli sahəsində mühüm rol oynayan həmkarlar ittifaqı təşkilatlarının fəaliyyəti ayrıca qeyd edilməlidir. Ölkədə həmkarlar ittifaqı hərəkatının inkişafı üçün bütün şərait yaradılmışdır. Mülkiyyət formasından asılı olmayaraq, bütün müəssisə, təşkilat və idarə işçiləri öz həmkarlar ittifaqlarında birləşmək və fəaliyyət göstərmək hüququna malikdirlər. Respublika həyatının müxtəlif sahələrini əhatə edən 30 sahə həmkarlar ittifaqı birləşərək, vahid Həmkarlar İttifaqları Konfederasiyası yaratmışlar. Bu bloka daxil olmadan müstəqil fəaliyyət göstərən həmkarlar ittifaqları şəbəkəsinin genişlənməsi prosesi davam edir.

Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğunda mühüm amil kimi diqqəti cəlb edən qüvvələrdən biri də qadın hərəkatıdır. Azərbaycan Konstitusiyasının təsbit etdiyi bütün demokratik hüquq və azadlıqlardan geniş istifadə edən qadınlar demokratik dövlət quruculuğuna öz dəyərli töhfələrini verirlər. Ölkədə 20-dən çox müstəqil qadın təşkilatı fəaliyyət göstərir. Bu qurumların fəaliyyəti sülhün tezliklə əldə edilməsinə, qadın hüquqlarının müdafiəsinə, onların iqtisadi quruculuğa geniş cəlb olunmasına, ailə və uşaqların qorunmasına, qadınlar üçün yeni iş yerlərinin açılmasına, ictimai-siyasi həyatda qadınların fəal iştirakına, ailənin hifz edilməsinə, Qarabağ müharibəsindən əziyyət çəkmiş qadın və uşaqlara lazımi köməklik göstərilməsinə yönəldilmişdir.

Bu gün ölkənin ictimai-siyasi həyatında fəal rol oynayan "Sevil" Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf" Mərkəzi, D. Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti və digərləri ilə yanaşı, yeni qadın təşkilatları da yaranmaqda və öz fəaliyyət dairələrini genişləndirməkdədir.



Keçid dövrü problemlərinin həll edilməsində və vətəndaş cəmiyyətinin formalaşmasında qeyri-hökumət təşkilatlarını mühüm amil kimi qiymətləndirən Azərbaycan dövləti onların potensialının artırılması və fəaliyyətinin gücləndirilməsi üçün geniş imkanlar yaradır, onların əsaslandırılmış təkliflərini və təşəbbüslərini müdafiə edir. Bu məqsədlə 1997-ci ildə Azərbaycan hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış razılaşmaya əsasən Azərbaycanda Qeyri-hökumət təşkilatlarının Resurs və Təlim Mərkəzi yaradılmışdır. Qeyri-hökumət təşkilatlarının inkişafı sahəsində ikiillik fəaliyyəti səmərəli qiymətləndirilən proqram yenidən həmin müddətə uzadılmışdır. Bu proqramın həyata keçirilməsi respublikamızda Qeyri-hökumət təşkilatları şəbəkəsinin genişlənməsinə, onların potensialının yüksəlməsinə, beynəlxalq əlaqələrinin güclənməsinə və ölkə daxilində Bakının hüdudlarını aşaraq digər bölgələrə yayılmasına imkan yaratmışdır. Bununla da Azərbaycan cəmiyyətinin müxtəlif zümrələrini təmsil edən insanlar Qeyri-hökumət təşkilatları şəbəkəsi ilə öz qabiliyyətlərini gerçəkləşdirir və dövlət quruculuğunun müxtəlif sahələrində bu və ya digər şəkildə iştirak edirlər.

## § 3. Söz və vicdan azadlığının bərqərar olması

Demokratik quruluşun, vətəndaş cəmiyyətinin formalaşması prosesinin ayrılmaz tərkib hissələrindən biri söz və vicdan azadlığının təmin olunmasından ibarətdir.

Azərbaycan Respublikasının Konstitusiyasında fikir, söz və məlumat azadlığına geniş təminat verilmişdir. Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir.

Azad və müstəqil kütləvi informasiya vasitələri müasir dövrdə cəmiyyətdə aşkarlığın və demokratik prinsiplərin bərqərar olmasında mühüm rol oynamaqla yanaşı, həm də demokratiyanı səciyyələndirən əsas göstəricilərdən biridir.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra həyatın bütün sahələrində olduğu kimi, söz və mətbuat azadlığı sahəsində da yeni perspektivlər açıldı. Lakin söz və mətbuat azadlığının formalaşması yolu rəvan olmamışdır. Azərbaycanın on il ərzində keçdiyi mürəkkəb və ziddiyyətli yolun sarsıntıları söz və mətbuat azadlığında, kütləvi informasiya vasitələrinin inkişafında öz dərin əksini tapıbdır. Müstəqilliyin ilk illərində cəmiyyətin tədricən ideoloji buxovlardan azad olması ilə yaranan və yeni cəmiyyət quruculuğu arzularını gerçəkləşdirməyə çalışan insanların mənəvi-psixoloji azadlığından doğan müsbət meyllərin müxtəlif səbəblərə görə ölkənin ictimai və siyasi dairələri tərəfindən adekvat qiymətləndirilməməsi və yeni şəraitin üstünlüklərindən jurnalistikanın tam dolğunluğu ilə bəhrələnə bilməməsi ilə bağlı meydana çıxan ziddiyyətlər söz və mətbuat azadlığının inkişafına da öz təsirini göstərdi.

1991-1993-cü illərdə ölkədə hökm sürən qeyri-sabit ictimai-siyasi vəziyyət, silahlı dəstələrə arxalanan müxtəlif siyasi qrupların öz iddialarını gerçəkləşdirmək üçün qeyri-qanuni cəhdlər göstərməsi, Ermənistanın hərbi təcavüzünün doğurduğu ağır sosial-iqtisadi və psixoloji durum söz və məlumat azadlığının təmin edilməsinə, bu sahədə dövlət və vətəndaşların mənafelərinin qorunmasına maneələr yaradırdı.

1992-ci il aprelin 16-da Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Yaqub Məmmədovun hərbi senzuranın yaradılması haqqında fərmanı ilə mətbuat üzərində sovetlər dövründən mövcud olan nəzarət daha da gücləndirildi.



Bir il sonra isə Azərbaycan Prezidenti Ə.Elçibəyin 15 aprel 1993-cü il tarixli sərəncamı ilə senzuranın tətbiqi miqyası genişləndirilərək, bütün informasiya yayımını əhatə etdi. Bu tədbirlər söz və mətbuat azadlığını, jurnalistlərin sərbəst məlumat əldə etmək və yaymaqla bağlı peşə fəaliyyətini ciddi şəkildə məhdudlaşdırırdı. Söz, fikir və məlumat azadlığının təmin olunmasına mane olan amillər sırasında həm də kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının zəifliyi, jurnalistlərin peşə hazırlığı səviyyəsinin və məsuliyyət hissinin dövrün tələblərindən geri qalması kimi cəhətləri də qeyd etmək olar.

1993-cü ildən sonra ölkənin ictimai-siyasi həyatında sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizliyinin və qanunçuluğun təmin edilməsi, sosial-iqtisadi problemlərin həlli sahəsində ciddi addımların atılması kütləvi informasiya vasitələrinin fəaliyyəti, söz, fikir və məlumat azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratdı.

Həmin dövrdən etibarən Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı mövcud olan əksər beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi və azad fəaliyyəti üçün ölkəmizdə zəruri qanunvericilik bazası yaradılmışdır. Bu hüquqi baza kütləvi informasiyanın azadlığına təminat verən, mətbuat da daxil olmaqla bütün kütləvi informasiya vasitələrində dövlət senzurasının aradan götürülməsi prinsipini təsbit edən Azərbaycan Respublikasının Konstitusiyasına söykənir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Prezidentin bu fərmanı ilə Nazirlər Kabineti yanında Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edilmiş, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində

nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edilmişdir.

Fərman həm də kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılmasını, onlara dövlət qayğısının artırılmasını nəzərdə tutan, söz, fikir və məlumat azadlığının qorunmasını, siyasi plüralizm prinsiplərinin dönmədən həyata keçirilməsini təmin edən tədbirlər proqramının layihəsini hazırlamağı Nazirlər Kabinetinə həvalə etdi. Bununla yanaşı, Prezidentin İcra Aparatı və Nazirlər Kabineti qarşısında söz, fikir və məlumat azadlığının qorunması, kütləvi informasiya vasitələrində dövlət sirlərinin mühafizəsi, hüquqi və etik normaların gözlənməsi ilə bağlı beynəlxalq standartlara və Azərbaycan Respublikasının qanunlarına uyğun mexanizm yaradılması haqqında ciddi vəzifələr qoyulmuşdur.

Fərman eləcə də kütləvi informasiya vasitələri əməkdaşlarının beynəlxalq mərkəzlərin tədqiqat və təhsil proqramlarında, beynəlxalq konfrans, seminar və digər tədbirlərində iştirakı üçün şərait yaradılmasını təmin edən tədbirlərin görülməsini nəzərdə tutur.

Beləliklə, Prezidentin imzaladığı bu fərman demokratik dəyərlərin bərqərar olduğu yeni tarixi şəraitdə, vətəndaş cəmiyyəti quruculuğu dövründə söz və mətbuat azadlığının təmin olunması, kütləvi informasiya vasitələrinin inkişafı, cəmiyyətin həyatında onların səmərəli rolunun artırılması sahəsində geniş dövlət proqramının əsas istiqamətlərini müəyyən etdi.

Fərmanda nəzərdə tutulan tədbirlər dövlət orqanları tərəfindən ardıcıl surətdə həyata keçirilir. Kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bütün mətbuat və informasiya vasitələri 1998-ci ilin sonundan əlavə dəyər vergisindən azad olunmuşdur.

Yalnız əlavə dəyər vergisi üzrə kütləvi informasiya vasitələrinə verilən illik güzəştin məbləği 7 milyard manat təşkil edir. KİV-lərə şamil olunan illik güzəştlərin məbləği onların ödədikləri vergilərin məbləğindən iki dəfədən də artıqdır. Milli Məclis tərəfindən qəbul olunmuş yeni Vergi Məcəlləsində kütləvi informasiya vasitələrinin fəaliyyətini stimullaşdırmaq, onların maliyyə vəziyyətini yaxşılaşdırmaq, maddi-texniki bazasını möhkəmləndirmək üçün daha əlverişli şərait yaradılması nəzərdə tutulmuşdur.

Kütləvi informasiya vasitələrinin təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. 1999-cu ilin sonunda "Kütləvi informasiya vasitələri haqqında"



yeni Qanun qəbul edilmişdir. Bu, müasir Azərbaycan reallıqlarını daha dolğun əks etdirən, kütləvi informasiya vasitələri istehsalı və yayımının bütün məsələlərini demokratik şəkildə tənzimləyən, beynəlxalq standartlara cavab verən hüquqi sənəddir. Qanunda dövlətlə KİV-in qarşılıqlı münasibətləri daha dəqiq müəyyənləşdirilir, KİV-in fəaliyyətinin iqtisadi əsasları, vergi, gömrük güzəştləri göstərilir. Qanuna həm də teleradio şirkətləri, o cümlədən özəl teleradio şirkətlərinin fəaliyyəti haqqında ayrıca fəsil daxil edilmişdir.

2000-ci il martın 6-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olunmuşdur. Proqramda jurnalist kadrları hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə bağlı problemlərin həlli məqsədilə Əlaqələndirmə Şurasının yaradılması, KİV subyektləri tərəfindən dövlət mülkiyyətində olan qeyri-yaşayış sahələrinin icarəsi və telefon rabitəsi üzrə müəyyən olunmuş tariflərin minimum məbləğdə ödənilməsi nəzərdə tutulmuşdur.

Milli Məclisin 2001-ci il martın 13-də "Gömrük tarifi haqqında" Qanuna etdiyi dəyişikliyə əsasən kütləvi informasiya vasitələri məhsullarının ixracına, habelə fəaliyyətinin təşkili üçün idxal etdikləri avadanlıq, zəruri xammal və digər vasitələrə görə gömrük rüsumundan azad edilmişdir.

Respublikamızın ictimai-siyasi və sosial-iqtisadi həyatında demokratik dəyərlərin daha geniş surətdə bərqərar olması, müstəqil dövlətçiliyin siyasi, iqtisadi və hüquqi dayaqlarının möhkəmlənməsi prosesi dərinləşdikcə dövlət söz və mətbuat azadlığının qanunvericilik bazasının daha da təkmilləşdirilməsi və demokratikləşdirilməsi istiqamətində yeni addımlar atır. Artıq "Kütləvi informasiya vasitələri haqqında Qanuna əlavə və dəyişikliklər edilməsi barədə" və "Radio və televiziya yayımları haqqında" qanun layihələri hazırlanıb. Avropa Şurası ekspertlərinin rəyi alındıqdan sonra bu qanun layihələri Milli Məclisin müzakirəsinə çıxarılacaq.

Hazırda Azərbaycanda qabaqcıl dünya standartlarına cavab verən, azad, plüralist kütləvi informasiya vasitələri formalaşmaqdadır. Demokratik prinsiplərə söykənən dövlət siyasəti sayəsində mətbuatın, azad sözün inkişafına əngəl törədən süni maneələr aradan qaldırılmışdır. Qanun və etik normalar çərçivəsində jurnalist təhqiqatlarının aparılması, fikir və faktla-

rın açıqlanması, dövlət sirri olmayan məlumatların ictimaiyyətə çatdırılması üçün qeyri-məhdud imkanlar yaradılmışdır. Təsadüfi deyil ki, bu gün respublikamızda 650-yə yaxın müxtəlif kütləvi informasiya vasitəsi – qəzet, jurnal, informasiya agentliyi, teleradio şirkəti fəaliyyət göstərir. Onlardan 520-i (372 qəzet, 113 jurnal, 25 informasiya agentliyi, 10 teleradio şirkəti) Mətbuat və İnformasiya Nazirliyində və Ədliyyə Nazirliyində müvafiq qeydiyyatdan keçmişdir. Kütləvi informasiya vasitələrinin böyük əksəriyyəti müxtəlif ictimai və siyasi təşkilatlar, özəl qurumlar və fiziki şəxslər tərəfindən təsis olunmuşdur. Dövlətin təsis etdiyi kütləvi informasiya vasitələri bunların içərisində Mətbuat yayımı ilə isə artıq özəlləşdirilməyə çıxarılmış iki dövlət qurumu ("Qasid" və "Azərbmətbuatyayımı") və müxtəlif özəl firmalar ("Çapar", "Dalğa", "Qaya", "Babək" və s.) məşğul olur.

Kütləvi informasiya vasitələri sahəsində dövlət siyasətinin mahiyyəti ondan ibarətdir ki, bunlar xalqın maariflənməsində ümumbəşəri ideyaların təbliğində, vətəndaş cəmiyyəti quruluculuğunda qüdrətli vasitəyə çevrilsin, demokratiya, aşkarlıq və ədalətin təntənəsinə xidmət etsin. Kütləvi informasiya vasitələri həm də təmsil etdiyi dövlətin və xalqın mənafeyini hər şeydən üstün tutmalı, dövlətçilik mövqeyini ön plana çəkməlidir. Kütləvi informasiya orqanları nöqsanları tənqid etməli, ictimai fikrin ifadəçisi və hakimiyyət orqanlarının fəaliyyəti üzərində ümumxalq nəzarətinin səmərəli mexanizmi kimi çıxış etməlidir. Eyni zamanda Azərbaycanın mütərəqqi mətbuat ənənələrinin davam etdirilməsi və müasir beynəlxalq təcrübə imkanlarından ölkəmizdə hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması və inkişafı, demokratik islahatların həyata keçirilməsində səmərəli istifadə edilməsi dövlət siyasətinin əsas məqsədini təşkil edir.

İdarəçilik sisteminin islahatı çərçivəsində Mətbuat və İnformasiya Nazirliyi ləğv edilmişdir. Beynəlxalq təcrübəyə əsaslanaraq, kütləvi informasiya vasitələrinin yaranması və fəaliyyətinin hüquqi təşkilatı əsaslarının möhkəmləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 20 iyul 2001-ci il tarixli fərmanı ilə Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradılmış və onun Əsasnaməsi təsdiq edilmişdir. Şuranın yaradılmasından məqsəd kütləvi informasiya vasitələri haqqında qanunvericiliyinin tələblərinə əməl olunmasında ictimai nəzarətin təmin edilməsi, elektron və internet KİV-in istehsalı və yayımının tənzimlənməsi, dövlət orqanları ilə KİV arasında əlaqənin və etimadın möhkəmləndirilməsi, söz, fikir və məlumat



azadlığı üçün daha geniş imkanlar yaradılmasından ibarətdir. Eyni zamanda Azərbaycan Prezidentinin digər fərmanı ilə Nazirlər Kabinetinə tapşırılmışdır ki, KİV məhsullarının illik satışından redaksiyaların əldə etdiyi mənfəətdən ödədikləri verginin (reklam gəlirləri istisna olmaqla) miqdarını müəyyənləşdirsin və üç il ərzində bu vəsaitin hər il dövlət büdcəsindən redaksiyalara ödənilməsini təmin etsin, gətirilən qəzet kağızına tətbiq olunan gömrük idxal rüsumunun azaldılması barədə qərar qəbul etsin. Jurnalistlərin, kütləvi informasiya vasitələri ilə bağlı bütün sahələrin mütəxəssislərinin beynəlxalq standartlara uyğun hazırlanmasının və ixtisas artırmasının təmin edilməsi məqsədi ilə özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərən Mətbuat İnstitutunun yaradılması qərara alınmışdır.

Göründüyü kimi, Azərbaycanda söz və məlumat azadlığının bərqərar olması prosesi cəmiyyətin özünün inkişaf xüsusiyyətlərinə uyğun olaraq mürəkkəb təkamül yolu keçmişdir. Azərbaycan dövləti özünün konstitusiya prinsiplərinə sadiq qalaraq, vətəndaş cəmiyyətinin əsas tərkib hissəsi kimi qiymətləndirdiyi söz və məlumat azadlığının təmin olunması sahəsində müəyyən etdiyi siyasi xətti ardıcıl həyata keçirmişdir. Bu sahədə yaradılmış möhkəm hüquqi baza və demokratik dəyərlərin bərqərar olması vətəndaş hüquq və azadlıqlarının gerçək təminatına çevrilmişdir.

Vətəndaş cəmiyyətinin əsas elementlərindən hesab edilən vicdan azadlığının qorunması da Azərbaycanda həyata keçirilən demokratik dövlət quruculuğunun tərkib hissəsi kimi diqqət mərkəzində olub. Sovet rejimi dövründə uzun illər sərt qadağalara, təzyiq və təqiblərə baxmayaraq, xalqımız öz dini etiqadını qoruyub saxlamışdır. Sovet sisteminin yeritdiyi ateizm siyasəti Azərbaycan xalqının milli özünəməxsusluğunu yaşadan əsas amillərdən biri kimi islami dəyərlərə sədaqətini sarsıda bilməmişdir.

1992-ci il avqustun 30-da qəbul olunmuş "Dini etiqad azadlığı haqqında" Qanun vətəndaşların dinə münasibətini sərbəst müəyyənləşdirmək, hər hansı dinə ibadət etmək, öz əqidəsini ifadə etmək və yaymaq hüququna malik olduğunu əks etdirir. Bu qanunda hər bir insanın dinə münasibətinin ifadə edilməsinin, dini etiqadının, ibadətlərdə və dini mərasimlərdə iştirakının hüquqi mexanizmləri öz əksini tapmışdır. 1996-cı ildə bu qanuna Azərbaycan cəmiyyətinin keçid dövrünə uyğun reallıqlarını əks etdirən bə'zi dəyişikliklər edilmişdir, Müsəlman və pravoslav dini icmaları müvafiq mərkəzlərə tabe edilmiş, xarici vətəndaşların dini təbliğat aparmaları qadağan edilmişdir.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə vicdan azadlığına dövlət təminatının geniş hüquqi bazasını yaratdı. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçmiş respublikamızda müxtəlif dinlərin azad yaşaması, dinin dövlətdən ayrı olması, dini təsisatların yaradılması Konstitusiyada təsbit olundu. Etiqad məsələsinin hər bir vətəndaşın şəxsi, vicdan və mənəvi-dini işi olduğunun təsdiqi, bütün dinlərə eyni qanunlarla yanaşılması və onların inkişafı üçün bərabər şəraitin yaradılması respublikamızda demokratik cəmiyyət quruculuğunun aşkar faktıdır.

Hazırda Azərbaycanda islamı, rus pravoslav kilsəsini, gürcü pravoslav kilsəsini, xristian molokanları, adventist-protestantları, sinaqoqları, alman lüteran kilsəsini, Krişna beynəlxalq cəmiyyətini və s. təmsil edən qeydiyyata alınmış 500-dən çox dini qurum fəaliyyət göstərir. Eyni zamanda 1500-ə yaxın dini qurum dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməkdədir.

Respublikada yeni məscidlər, kilsələr və digər dini obyektlər inşa edilir, müxtəlif dinə etiqad edən dindarlar öz mərasimlərini, dini bayramlarını maneəsiz keçirir, dini təhsil alırlar.

Azərbaycan Prezidenti Heydər Əliyevin respublikada fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, o cümlədən dindarlarla müntəzəm görüşləri, müqəddəs dini ocaqları, ibadət yerlərini ziyarət etməsi, ölkədəki konfessiyaların bütün dini bayram və mərasimlərini mütəmadi olaraq xüsusi təbrik etməsi, yüzlərlə zəvvarın müqəddəs Məkkə ziyarətinə göndərilməsi, dini ocaq və məscidlərin bərpası üçün maliyyə vəsaitinin ayrılması, bütün dinlərin azad və sərbəst fəaliyyəti, dini etiqad və vicdan azadlığının bərqərar edilməsi sahəsində dövlət siyasətinin ardıcıl həyata keçirilməsinin təzahürüdür. Dövlət-din münasibətlərinin sivilizasiyalı qaydalarla, mütərəqqi prinsiplərlə tənzimlənməsi cəmiyyətin mənəvi təkamülündə mühüm rol oynayan və milli-mənəvi birliyə xidmət edən amilə çevrilmişdir.

Bununla belə, dini təbliğat azadlığından və cəmiyyətimizin bəzi çətinliklərindən sui-istifadə edən xarici missioner təşkilatları Konstitusiyamıza və mövcud qanunlara zidd fəaliyyətlərini müxtəlif vasitələrlə pərdələyərək, insanları çaşdırmağa və etiqadını dəyişdirməyə çalışırlar. Keçid dövrünün problemlərini həll edərək, sabit sosial-psixoloji və milli-mənəvi durumun qorunub möhkəmləndirilməsinə səy göstərən ölkəmizdə xarici missionerlərin müdaxiləsi cəmiyyətin əxlaqi-mənəvi birliyinin deformasiyasına rəvac verir, əhalinin psixoloji ovqatına mənfi təsir göstərir.



Azərbaycan dövləti xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, dünyəvi dövlət quruculuğu mənafelərinə uyğun dini etiqad azadlığına təminat verən siyasət yeridir. Ölkəmizdə dini etiqad və vicdan azadlığının maneəsiz həyata keçirilməsi, dövlət-din münasibətlərinin respublikanın mövcud qanunvericiliyinə və beynəlxalq hüquqi prinsiplərə uyğun tənzimlənməsinə şərait yaradan hüquqi-siyasi mexanizmin yaradılması istiqamətində yeni tədbirlər görülür.

Azərbaycan Respublikası Prezidentinin 21 iyun 2001-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı haqqındakı 48-ci maddəsinin həyata keçirilməsini təmin etmək məqsədi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır. Komitənin əsas vəzifəsi vicdan azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsindən və dini qurumların dövlət qeydiyyatına alınmasından ibarətdir.

Göründüyü kimi, Azərbaycan dövləti on il ərzində keçdiyi müstəqil inkişaf yolunda vicdan azadlığının təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində ardıcıl olaraq milli-mənəvi dəyərlərə, demokratik prinsiplərə, beynəlxalq standartlara uyğun hüquqi bazaya söykənən siyasət həyata keçirir. Azərbaycanda mövcud olan bütün dini konfessiyaların bərabərhüquqlu fəaliyyəti üçün normal şərait yaradılması vətəndaş cəmiyyətinin formalaşması prosesində mühüm amil kimi özünü təsdiq etmişdir.

## IV FƏSİL

## AZƏRBAYCANDA MİLLİ TƏHLÜKƏSİZLİK VƏ XARİCİ SİYASƏT PROBLEMLƏRİ

### § 1. Milli təhlükəsizliyin təmin edilməsi

Azərbaycanın son on illik tarixi ölkə daxilində və onun ətrafında keyfiyyətcə yeni reallıqlar və maraqlar zəminində cərəyan edən proseslərlə bilavasitə bağlıdır.

Müstəqil Azərbaycan Respublikasının digər dövlət qurumlarından fərqli olaraq, milli təhlükəsizlik orqanları Sovet imperiyasının ən sadiq və ən mühafizəkar qüvvələrindən biri olan SSRİ dövlət təhlükəsizlik orqanlarının xarabalıqları üzərində yaradılmışdır. Bu o orqanlar idi ki, onlar Azərbaycanın müstəqilliyinin bərpa edilməsindən bir il öncə Qanlı Yanvar faciəsini törətmişdilər. Ümumiyyətlə, Azərbaycan xalqının faciələrinin baisi erməni lobbisi tərəfindən hakimiyyətə gətirilmiş Qorbaçov idisə, onun aqanbekyanlar, şahnazarovlar, brutenslər tərəfindən mayalanan məkrli niyyətlərinin təşkilatçı və icraçıları Moskvada Kryuçkov, Bobkov və Pirojkovun, Bakıda İvan Qorelovski, Vaqif Hüseynov və İlhüseyn Hüseynovun simasında dövlət təhlükəsizliyi orqanları idi. Məhz onların fəaliyyəti dövründə həm Dağlıq Qarabağ, həm də bütövlükdə Azərbaycanda gedən ictimai-siyasi proseslər barədə Azərbaycan SSR DTK-dan Mərkəzə göndərilən məlumatların məzmunu xalqımızın başına açılmış bəlalara sanksiyalar üçün Moskvaya "hüquqi əsas" verirdi. Dağlıq Qarabağ və 20 Yanvar faciələrinin ssenariləri məhz bu məlumatlar nəzərə alınaraq hazırlandı və həyata keçirildi.

Vaqif Hüseynov 1990-cı il yanvar ayının 3-də Bakıda Əbdürrəhman Vəzirova, Moskvaya Kryuçkova göndərdiyi məlumatda yazırdı: "Əvvəlki kimi keçmiş rəhbərliyin, xüsusilə Heydər Əliyevin mövqeləri güclüdür. Əhalidə indiyədək AXC liderləri tərəfindən "güclü şəxsiyyətin, Azərbaycan xalqının maraqlarının himayəçisinin" təbliği məqsədilə təsviri müxtəlif simvollarda, atributlarda ciddi-cəhdlə istifadə edilən Heydər Əliyevin adı ehtiramla çəkilir. Azərbaycan SSR DTK-sında olan məlumatlara görə, qeyri-formallar Heydər Əliyevin Azərbaycan SSR Ali



Sovetinə Ordubad rayonundan deputatlığa namizədliyini irəli sürməyi, əlverişli şərait yarandığı halda isə, onu Ali Sovetin Rəyasət Heyətinin Sədri vəzifəsinə seçməyi planlaşdırırlar".

1989-cu il oktyabr ayının 7-də respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri V.Hüseynovun məxfi əmri ilə Komitənin on iki zabitindən ibarət "Böhran qrupu" deyilən xüsusi dəstə yaradılmışdı. Rəsmi olaraq qrupun yaradılmasının məqsədi "düşmənin hərəkətini aşkarlamaq və dəf etmək üçün" məqsədyönlü agentura-əməliyyat tədbirlərinin keçirilməsi, operativ materialları ümumiləşdirərək SSRİ DTK-na və digər müvafiq orqanlara məlumatların verilməsi olmuşdur.

Əslində isə qrupun bir sıra üzvlərinin fəaliyyət dairəsi Bakı şəhərində vətəndaş qarşıdurması, gərginlik yaratmaq məqsədi ilə sifarişli qətllər, partlayışlar, mənzillərin yandırılması, təxribat xarakterli digər hərəkətlərdən ibarət olmuşdur. Məhz "Böhran qrupu"nun üzvü DTK zabiti Nikolay Starçenkov "Qanlı Yanvar" hadisələri zamanı Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin enerji blokunun partladılmasında iştirak etmişdi.

Qrupun üzvləri 1990-cı ilin iyun-iyul aylarında Bakı şəhərində çoxsaylı cinayətlər törətmiş "təhlükəli" saydıqları ayrı-ayrı vətəndaşların həyatlarına sui-qəsd etmiş, oktyabr ayının 17-də isə Elmlər Akademiyasının müxbir üzvü Telman Qurbanovu qətlə yetirdilər.

V.Hüseynov "Böhran qrupunun" vasitəsi ilə "Azərnəşr"in direktoru Əjdər Xanbabayevin Moskvada yaşayan Heydər Əliyevlə əlaqə saxladığını bilib tanışı Seyfəl Babayevə onun qətlə yetirilməsini tapşırmışdı; 1990-cı ilin may ayının 30-da qətl haqqında sifariş yerinə yetirilmişdi.

V.Hüseynov "Böhran qrupu" vasitəsi ilə Naxçıvan şəhərində yaşayan Heydər Əliyevlə əlaqə saxlayan şəxslər ətrafında əməliyyat-texniki tədbirlər keçirmiş, "Asiman" Assosiasiyasının prezidenti Eldar Quliyevin və baş direktoru Mahmud Məmmədovun Heydər Əliyev haqqında sənədli film çəkilməsini planlaşdırdıqlarını və bu məqsədlə 1990-cı ilin iyul ayında Naxçıvana operator göndərdiklərini bilib qrupun gizli əlaqədə olduğu şəxslər vasitəsi ilə M.Məmmədovun həyatına sui-qəsd təşkil etmişdi.

1990-cı ilin yanvarında Vaqif Hüseynovun imzası ilə Moskvaya göndərilən şifrəli teleqramlardan belə çıxırdı ki, respublika xaos içindədir, qiyam ərəfəsindədir, qətiyyətli tədbirlər görülməsə, Azərbaycan itaətdən tam çıxacaqdır. O zaman Moskvaya da məhz elə bu lazım idi. Hadisələrin sonrakı axarı bütün

dünyaya məlumdur – 20 Yanvar gecəsinin qanlı izləri yaddaşımıza əbədi həkk olunmuşdur.

Sovet dövrü təhlükəsizlik orqanlarının səciyyəvi xüsusiyyətlərindən biri də bu idi ki, Mərkəz müttəfiq respublikaların təhlükəsizlik orqanlarının milli heyətinə tam inanmırdı. Azərbaycanda 1988-ci il hadisələri zamanı belə bir durum bütün çılpaqlığı ilə bir daha özünü əyani şəkildə göstərdi. Həmin il fevral ayının ortalarında SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini çoxsaylı əməkdaşları ilə Bakıya gəlmişdi. Moskvadan ezam olunmuş işçilər elə ilk gündən respublika Dövlət Təhlükəsizliyi Komitəsinin bütün aparıcı şöbələrinə təhkim edilmişdilər. Komitənin milli kadrlarının əksəriyyəti faktiki olaraq əməliyyat prosesinə nəzarətdən təcrid olunduğundan, yerlərdən gələn məlumatlar əsasən ruslar və digər millətlərin nümayəndələri vasitəsilə toplanıb ümumiləşdirilir və Mərkəzə çatdırılırdı. Dövlət Təhlükəsizlik Komitəsi tərəfindən ölkədə qanunçuluğun və ictimai qaydanın bərpası adı ilə həyata keçirilən bu tədbirlər əslində Azərbaycan xalqına qarşı xəyanət və cinayətdən başqa bir şey deyildi.

Belə bir şəraitdə Azərbaycan DTK-nın maddi-texniki və kadr bazası əsasında 1991-ci il noyabr ayının 1-də Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi təsis olundu. Çox qısa bir müddət ərzində kənar yerlərdən göndərilmiş digər millətlərin nümayəndələri nazirliyi və respublikanı tərk etdilər, orqanın ancaq milli kadrlardan komplektləşdirilməsi dövrü başlandı. Lakin dəyişən təkcə təhlükəsizlik orqanının adı və şəxsi heyəti deyildi, – birinci növbədə onların qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti dəyişdi. Əgər o vaxtadək respublika Dövlət Təhlükəsizlik Komitəsinin bütün imkanları və potensialı ümumilikdə Sovet dövlətinin mövcudluğunun və strateji maraqlarının təminatına yönəlmişdisə, müstəqillik şəraitində milli təhlükəsizlik orqanlarının qarşısında duran başlıca vəzifə Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə və elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdi.

Təhlükəsizlik orqanlarının qarşısında, həmçinin, dövlət sirri təşkil edən məlumatların qorunması, Azərbaycan Respublikasının dövlət sərhədlərinin, kontinental şelfinin və müstəqil iqtisadi zonasının mühafizəsi, eyni zamanda korrupsiya ilə, terro-



rizmlə, qaçaqmalçılıqla, narkotik vasitələrin, psixotrop və radioaktiv maddələrin, odlu silah və döyüş sursatının beynəlxalq qanunsuz dövriyyəsi, mütəşəkkil transmilli cinayətkarlığın daha təhlükəli növləri ilə mübarizə kimi son dərəcə məsul vəzifələr durur. Totalitar rejimdən fərqli olaraq demokratik dövlətdə milli təhlükəsizlik orqanlarının fəaliyyətinin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir, bu fəaliyyət insan və vətəndaş hüquqları və azadlıqlarına riayət olunması, humanizm, dövlət və cəmiyyət qarşısında cavabdehlik prinsiplərinə əsaslanır.

On il ərzində respublikada milli təhlükəsizliyin təmin edilməsi fəaliyyətini şərti olaraq üç mərhələyə ayırmaq olar. Birinci mərhələ müstəqilliyin bərpasından, Milli Təhlükəsizlik Nazirliyinin milli bir orqan kimi təşkilindən 1995-ci ilə qədərki müddəti əhatə edir. Bu mərhələdə başlıca diqqət tarixi nailiyyət olan müstəqilliyin saxlanılması uğrunda xarici və daxili pozucu qüvvələrə, dövlət çevrilişləri, sui-qəsdlər, terror-təxribat hərəkətlərinə qarşı mübarizə, müxtəlif ünvanlardan idarə edilən silahlı dəstələrin ləğvi, ölkədə vətəndaş müharibəsinin baş verməməsi, Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınması üçün ardıcıl iş aparılmasına yönəldilmişdi.

1996-1998-ci illəri əhatə edən ikinci mərhələ ölkədə əldə olunmuş daxili sabitliyin qorunub saxlanılması, iqtisadi cinayətkarlıqla mübarizə, bu sahədə yeni fəaliyyət istiqamətlərinin, xarici xüsusi xidmət və təhlükəsizlik orqanları ilə əlaqələrin yaranması, beynəlxalq aləmdə Azərbaycanın demokratik, hüquqi dövlət kimi imicinin formalaşdırılmasında iqtidarın yeritdiyi ardıcıl siyasi xəttin uğur qazanmasına daxildə və xaricdə zəmin hazırlanmasında iştirak, siyasi rəhbərliyin informasiya-məlumat təminatının keyfiyyətcə yeni səviyyəyə qaldırılmasında ilk addımlar atılması ilə əlamətdar olmuşdur.

1998-ci ilin sonlarından başlanan və bu gün də davam edən üçüncü mərhələni milli təhlükəsizlik orqanlarının demokratik cəmiyyətdə yeri və rolunun müəyyənləşdirilməsi, ictimai sabitliyin və demokratik təsisatların qorunması, milli mənafelərin təmin edilməsi üçün normativ-hüquqi bazanın işkişafı, respublikada telekommunikasiya və informasiya texnologiyaları sahəsində layihələrin işlənib həyata keçirilməsi, mövcud kadr potensialının təkmilləşdirilməsi və müasir tələblər səviyyəsinə qaldırılması ilə struktur dəyişiklikləri aparılması, informasiya-təhlil

işinin prioritetliyi, qloballaşma şəraitində xüsusi xidmət və təhlükəsizlik orqanlarının perspektiv inkişaf meyllərinin proqnozlaşdırılması və sair məsələlər təşkil edir.

Müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik etmiş şəxslərin səbatsızlığı üzündən milli təhlükəsizlik orqanlarının fəaliyyəti nəzarətdən kənarda qalmışdı, onlar dürüst istiqamətləndirilmirdi, peşəkarlıq tələblərinə görə yox, qrup və partiya maraqlarına görə formalaşdırılırdı. Odur ki, bu orqanlar ölkənin başı üstünü almış çox ciddi fəlakətlər barədə qabaqlayıcı məlumatlar əldə edib, onların qarşısını almaq üçün tədbirlər görmək əvəzinə, əksər hallarda artıq törədilmiş cinayətlərin və milli maraqlara vurulmuş ağır zərbələrin qeydiyyatçısına çevrilmişdilər.

Ölkədə hərc-mərclik, dərəbəylik hökm sürür, xarici dövlətlərin xüsusi xidmət orqanları Azərbaycanda istədikləri sahələrə nüfuz edir, respublikanı parçalamağa cəhd göstərirdilər. Müstəqil dövlət kimi öz xarici siyasətini, iqtisadiyyatını qurmaqda bir sıra problemlərlə qarşılaşmış Azərbaycan Respublikası xüsusilə 1991-ci ilin sonları, 1992-ci ilin birinci yarısınadək hələ də Moskvanın ətəyindən əlini tamamilə çəkməmiş rəhbərlərinin acizliyi və ölkədə yaranmış xaosu, idarəetmədəki boşluğu aradan qaldıra bilməməsi ucbatından bir-birini əvəzləyən bəlalarla üzləşdi. Milli təhlükəsizlik orqanların rəhbərləri də öz fəaliyyətlərini həmin uğursuz siyasətə uyğunlaşdırmış, millət, Vətən qarşısındakı borclarını sanki unutmuşdular.

Bir illik hakimiyyətləri dövründə xalqın heç bir köklü problemini həll edə bilməyən AXC-Müsavat iqtidarı əslində dövləti idarə edə bilmirdi. İqtisadiyyatı dağılmaq həddinə çatan, milli pul vahidi sürətlə inflyasiyaya uğrayan Azərbaycan Respublikasında kriminogen vəziyyət son dərəcə gərginləşmiş, əhalinin ölkədə daxili sabitliyin bərqərar ediləcəyinə ümidi qalmamışdı. Bütün bunlar və ölkədə cəzasızlıq, hakimiyyətsizlik şəraitinin mövcudluğu 1993-cü ilin 4 iyun Gəncə hadisələrinə, ermənilər tərəfindən ərazilərimizin işğalına, xarici qüvvələrin dəstəyilə separatizm meyllərinin güclənməsi – qondarma Talış Muğan Respublikasının reallaşması ehtimalına gətirib çıxarmışdı. Ölkənin vətəndaş qarşıdurması həddinə çatdırıldığı bir vəziyyətdə Milli Təhlükəsizlik Nazirliyi də səriştəsiz, sosial dayaqdan məhrum rəhbərlərin təhriki ilə siyasi oyunlara cəlb edilmişdi. Çətin məqamda milli mənafelərin müdafiəçisi kimi üzərinə düşən vəzifələri yerinə yetirmək, xalqın parçalanmasına yönəlmiş təxribatların, pozuculuq fəaliyyətlərinin qarşısını almaq əvəzinə milli təhlükəsizlik orqanları da digər hakimiyyət strukturları



kimi seyrçi mövqe tutmaqla Azərbaycanı dəhşətli tənəzzül girdabına yuvarlayanların əməllərinə rəvac verirdi.

Doğrudur, bu dövrdə də təhlükəsizlik orqanlarında xidməti vəzifə borcunu peşəkarlıqla, xalqına, Vətəninə sədaqətlə yerinə yetirən onlarca insanlar var idi. Lakin bütövlükdə təhlükəsizlik orqanları milli mənafelərin qorunması vəzifələrini yerinə yetirə bilmirdi.

Yalnız Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı milli təhlükəsizlik orqanlarının işinin yenidən qurulmasına və nizamlanmasına, kadrların saflaşdırılmasına, bu orqanların fəaliyyətinin yeni demokratik prinsiplər əsasında təşkilinə şərait yaratdı. Ali Baş komandanın gündəlik rəhbərliyi və tələbkarlığı sayəsində milli təhlükəsizlik orqanları ölkənin digər hüquq-mühafizə orqanları ilə birlikdə ötən illər ərzində Azərbaycanın dövlət müstəqilliyinə qarşı yönəlmiş, ölkədə siyasi sabitliyi pozmaq və hakimiyyəti zorakılıqla ələ keçirmək cəhdlərinə qarşı aparılan mübarizənin ön sıralarında olmuşdur. Dövlət çevrilişi cəhdlərinin, onlarla terror və təxribat aktlarının qarşısının alınmasında, xüsusilə təhlükəli dövləti cinayətlər törətmiş şəxslərin zərərsizləşdirilməsində milli təhlükəsizlik orqanlarının əməkdaşları peşəkarlıq və Vətənə sədaqət kimi xidmət nümunələri göstərmişlər.

Coğrafi-strateji mövqelərinə və zəngin təbii sərvətlərinə görə dünyanın bütün aparıcı dövlətlərinin maraqları mərkəzində olan ölkəmiz ötən on ildə həmin dövlətlərin və bütün qonşularımızın xüsusi xidmət orqanlarının aramsız mübarizə meydanına çevrilmişdir, mahiyyət etibarilə suveren Azərbaycanın milli mənafelərinə qarşı yönəlmiş bu fəaliyyət bir an da səngiməmişdir.

1992-ci ildən ötən dövr ərzində keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Ermənistanın xüsusi xidmət orqanlarının törətdiyi 4 terror-təxribat aktının üstü açılmışdır, məxfi əməkdaşlığa cəlb edilmiş 93 nəfər müəyyənləşdirilmiş, Vətənə xəyanət və digər ağır cinayətlər törətmiş 28 şəxsin qanunsuz əməlləri tam sübuta yetirilərək, cinayətkarlar müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişlər.

1994-cü il mart ayının 19-da metronun "20 Yanvar" stansiyasında çoxsaylı insan tələfatı ilə respublika ictimaiyyətini sarsıtmış partlayışla əlaqədar həyata keçirilmiş kompleks tədbirlər nəticəsində təxribatın Ermənistan xüsusi xidmət orqanlarının rəhbərliyi ilə "Sadval" təşkilatının üzvləri tərəfindən törədilməsinə dair təkzibolunmaz məlumatlar əldə edilmiş, həmçinin müəyyənləşdirilmişdir ki, respublikanın şimal-şərqində milli

zəmində münaqişə ocağı yaradılması və separatçılıq meyllərinin gücləndirilməsi məqsədilə 1992-ci ildən etibarən Ermənistandan "Sadval" yaraqlıları üçün vertolyotlarla külli miqdarda silah, döyüş sursatı, partlayıcı maddələr gətirilmiş, Ermənistanın və Dağıstanın təlim bazalarında sadvalçıların xüsusi hazırlıq keçmələri təşkil edilmişdir. Milli təhlükəsizlik orqanları tərəfindən həmin cinayət əməllərinin 43 nəfər təşkilatçı və icraçısı müəyyən olunmuş, 28 nəfəri cinayət məsuliyyətinə cəlb edilmiş, xarici ölkələrdə gizlənən digər cinayətkarlar barədə əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Həmin il iyul ayının 3-də metronun "28 may" stansiyasındakı partlayış da Ermənistanın xüsusi xidmət orqanları tərəfindən təşkil edilmişdi. Terrorçu kimi ad çıxarmış erməni millətçilərinin ən alçaq üsul və metodlardan çəkinməyəcəyini yəqin bilən respublikanın xüsusi xidmət orqanlarının əməkdaşları müstəqillik illərində hərbi əsirlikdə olmuş və girov saxlanılmış vətəndaşlarımızdan Vətənə xəyanət yoluna düşüb ağır cinayətlər törətmiş 13 nəfəri ardıcıl əks-kəşfiyyat işi sayəsində ifşa edərək həbsə almışlar.

Ermənistanın xüsusi xidmət orqanları milli ordumuzun müdafiə potensialının zəifledilməsi məqsədi ilə Azərbaycan Respublikasının Silahlı Qü vvələrinə qarşı təxribat-pozuculuq fəaliyyətini həyata keçirmək üçün müxtəlif üsullardan istifadə etməyə can atırlar. Belə ki, N saylı hərbi hissənin bir zabiti ətrafında keçirilmiş əməliyyat tədbirləri nəticəsində müəyyən olunmuşdur ki, milliyyətcə erməni olan bu şəxs xarici ölkənin xüsusi xidmət orqanlarının köməyi ilə sənədlərində ləzgi olduğunu göstərməklə, 1993-cü ildə ölkəmizdə mövcud olan hərc-mərclik dövründə Azərbaycan Silahlı Qüvvələrinə xidmətə qəbul edilməsinə nail olmuş, hava hücumundan müdafiə sistemi haqqında məlumatlar toplamaqla və müdafiə qurğularından qiymətli metalları oğurlamaqla məşğul olmuşdur. Hərbi əks-kəşfiyyat tərəfindən keçirilmiş əməliyyat tədbirləri nəticəsində ifşa olunaraq və cinayət məsuliyyətinə cəlb edilmişdir.

Azərbaycanın Milli Ordusuna qarşı xarici ölkələrin xüsusi xidmət orqanlarının təxribat-pozuculuq fəaliyyətinin qarşısının alınması üçün zəruri əks-kəşfiyyat tədbirləri daim həyata keçirilir.

Bəzi qonşu dövlətlərin xüsusi xidmət orqanlarının kəşfiyyat-təxribat fəaliyyəti müstəqilliyin bütün illərində diqqət mərkəzində olmuşdur. Həmin dövlətlər, habelə bəzi beynəlxalq təşkilatlar, xeyriyyə cəmiyyətləri tərəfindən müxtəlif yollarla, o cümlədən din pərdəsi altında aparılan təxribat-pozuculuq fəaliyyəti



zəruri əməliyyat tədbirləri sayəsində vaxtında aşkar edilərək zərərsizləşdirilmişdir.

Ümumiyyətlə, ötən 5 il ərzində ayrı-ayrı beynəlxalq xeyriyyə cəmiyyətləri və dini təşkilatları pərdəsi altında Azərbaycanda fəaliyyət göstərən bir sıra tanınmış terrorçu qurumların nümayəndələrinin təxribat-pozuculuq əməllərinə son qoyulmuşdur.

1992-ci ilin may ayında A.Mütəlibovun yenidən hakimiyyətə qaytarılması cəhdi zamanı, habelə 1993-cü ilin iyununda Gəncədə baş vermiş hadisələr, 1994-ci il oktyabr və 1995-ci il mart çevrilişi cəhdləri dövründə Rusiyanın müəyyən dairələrinə, o cümlədən xüsusi xidmətlərinə aparan izlər həm əməliyyat, həm də istintaq materiallarında öz əksini tapmışdır.

Belə ki, 1995-ci ilin ortalarında alınmış əməliyyat məlumatları göstərirdi ki, Surət Hüseynov artıq bir neçə aydır respublikada dövlət çevrilişi hazırlayır. Köhnə ssenarilərdə olduğu kimi, yenə də respublika Prezidentinə qarşı terror aktı keçirilməli, sabitliyin pozulması və əhalidə vahimə yaradılması üçün kütləvi insan tələfatı ilə nəticələnəcək partlayışlar törədilməli, bir neçə rayonda eyni zamanda silahlı çıxışlar olmalı idi.

Rusiya sərhəd qoşunlarının Dağıstan ərazisindəki təlim bazalarından birində xüsusi təyinatlı polisin Qazax dəstəsinin sabiq komandiri Elçin Əmiraslanovun başçılığı altında cəmlənmiş və tam silahlandırılmış böyük bir dəstə get-gedə fəallaşırdı. Bu quldur dəstəsi artıq tez-tez respublikanın şimal bölgələrinə reydlər edir, cinayətlər törədirdi. 1996-cı ilin oktyabr ayında quldurların növbəti reydi zamanı nazirliyin Qazax rayon bölməsinin rəisi podpolkovnik Sevlan Qasımov, Qazax rayon Polis Şöbəsi rəisinin müavini Firdovsi Qasımov və polisinin iki əməkdaşı qətlə yetirildi.

Noyabr ayının ortalarında bütün əlamətlər göstərirdi ki, dövlət çevrilişi cəhdinin təşkilatçıları artıq hərəkətə gəlmək niyyətindədirlər. Gecikmək təhlükəli idi. Ona görə də qətiyyətli tədbirlər nəticəsində çox qısa bir vaxt ərzində Bakıda və ayrı-ayrı rayonlarda dövlət çevrilişi hazırlığı ilə əlaqəsi olanların böyük əksəriyyəti həbs edildi. Daxili İşlər Nazirliyinin uğurlu əməliyyatı Prezident iqamətgahına qəfil basqın etmək niyyətilə Bakıya gəlmiş dəstənin gizləndiyi yerdə həbs olunaraq zərərsizləşdirilməsi ilə nəticələndi. Beləliklə, respublikada dövlət çevrilişinə yönəldilmiş müdhiş bir cinayətin qarşısı qan tökülmədən alındı.

Mühüm əhəmiyyət kəsb edən işlərdən biri SSRİ dövründə Azərbaycan Respublikası DTK-dan xəbərsiz Baş Kəşfiyyat İdarəsi tərəfindən xarici dövlətlərə qarşı istifadə edilmək üçün cəlb

olunan agentlərdən Rusiya hərbi kəşfiyyatının indiki dövrdə Azərbaycana qarşı istifadə etmək cəhdlərinin aşkar edilməsi ilə bağlı milli təhlükəsizlik orqanları tərəfindən fəal tədbirlər keçirilməsi, keçmiş SSRİ Baş Kəşfiyyat İdarəsinin 400-dən çox agentinin aşkarlanması olmuşdur. Həmin şəxslərlə profilaktik iş aparılmış və onların ölkəmizə qarşı kəşfiyyat fəaliyyətində istifadə olunmasının qarşısı alınmışdır.

Ölkədə daxili sabitliyin bərpa olunduğu 1995-98-ci illərdə iqtisadi təhlükəsizliyin təmin edilməsi sahəsində mübarizə xeyli genişləndirilmiş, qaçaqmalçılıq, dövlət əmlakının mənimsənilməsi, rüşvətxorluq halları müəyyən edilərək cinayət işləri başlanmış, günahkar şəxslər cinayət məsuliyyətinə cəlb olunmuş, iqtisadiyyatımıza vurula biləcək milyardlarla manatlıq ziyanın qarşısı alınmış, 7 milyard. manat dəyərində maddi vəsait və nəqd pul müsadirə olunaraq dövlət büdcəsinə keçirilmişdir.

Belə ki, bu dövrdə respublika ərazisindəki qızıl yataqlarının yerləşməsini əks etdirən, açıqlanması qadağan olunmuş xəritələrin əcnəbilərə satılmasının, Azərbaycanın Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasından 82 nadir ədəbiyyatın, 32 müxtəlif tarixi xəritələrin oğurlanması və qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmasının qarşısı alınmışdır.

Qaçaqmalçılıq yolu ilə strateji əhəmiyyət kəsb edən yüklərin və əşyaların ölkədən çıxarılması hallarının qarşısının alınması istiqamətində əməliyyat tədbirləri nəticəsində külli miqdarda yanacaq, əlvan metal, tarixi əhəmiyyət kəsb edən incəsənət əsərləri, xarici valyuta, qızıl, brilyant qaş, qara kürü və digər qiymətli əşyalar aşkarlanıb müsadirə olunmuşdur.

Son 5 ildə milli təhlükəsizlik, daxili işlər və gömrük orqanlarının narkotik maddələrin qeyri-qanuni dövriyyəsinin qarşısının alınması üzrə birgə keçirdiyi əməliyyatlar nəticəsində 24 kq heroin, 400 kq-dan artıq tiryək, 300 kq marixuana və sair narkotik vasitələr aşkarlanıb müsadirə olunmuşdur. Bu cinayətləri törədənlər, həmçinin xarici ölkələrin, xüsusilə İran İslam Respublikasının yüzlərlə vətəndaşı həbs edilmiş və cinayət məsuliyyətinə cəlb olunaraq məhkəmələr tərəfindən azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuşlar.

Beynəlxalq terrorçuluğa qarşı əsaslı əməliyyat tədbirləri həyata keçirilmiş Azərbaycan ərazisində terror aktlarının törədilməsində iştirak etmiş 14 terrorçu Türkiyə Respublikasına verilmişdir. Belə aktların törədilməsinə görə PKK-nın 13 fəalı müxtəlif müddətlərə azadlıqdan məhrum edilmiş, bir neçəsi isə respublikanın hüdudlarından kənara çıxarılmışdır.



Respublika ərazisindən saxta sənədlərlə tranzit yolla Avropa ölkələrinə keçməyə cəhd göstərən 130 nəfər xarici ölkə vətəndaşı aşkar edilib deportasiya olunmuş, faktlar üzrə cinayət işləri qaldırılmış, qeyri-leqal miqrasiya kanalında cinayətkar fəaliyyətlə məşğul olan qruplar müəyyənləşdirilmişdir.

Dövlətçiliyin mühüm atributlarından sayılan dövlət sərhədi və onun qorunması dövlətin müstəqilliyinin əsas amillərindən biridir.

Müstəqilliyimizə yenidən qovuşduqdan sonra milli dövlət quruculuğu sahəsində itirdiklərimizin bərpasına, milli dövlətçiliyin dayağı olan ordunun yaradılmasına, sərhəd qoşunlarının formalaşdırılmasına cəhd edildi. 1991-ci il dekabrın 16-da Azərbaycan Respublikasının Dövlət Sərhədlərinin Mühafizəsi Komitəsi yaradılsa da, ölkədə baş alıb gedən özbaşınalıq, hakimiyyət böhranı Azərbaycandan çıxmaq məcburiyyətində qalan sovet sərhədçilərinin törətdikləri təxribatlar, milli sərhədçi kadrların çatışmaması sərhədlərimizi tez bir zamanda nəzarət altına almağa imkan vermirdi. Keçmiş SSRİ sərhədçiləri respublikamızı tərk edərkən texniki vasitələri özləri ilə aparmış, apara bilmədiklərini isə yararsız hala salmışdılar. Yalnız Naxçıvan Muxtar Respublikasında yerləşən sərhəd dəstəsi hərbi texnika və digər vasitələri bütünlüklə öz sərəncamında saxlamaq baxımından istisna təşkil etdi. Çünki hələ SSRİ dağılma ərəfəsində ikən Naxçıvan Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə qəbul etdiyi qərarında Naxçıvan ərazisində yerləşən sərhəd dəstəsinin Ali Məclisə tabe olub hesabat verməsi tələb olunmuşdu. Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan sərhədlərini tərk edən SSRİ sərhədçiləri həmin sərhəd dəstəsindən özləri ilə heç nə apara bilmədilər.

1992-1993-cü illərdə dövlət sərhədinin mühafizəsi də yarıtmaz təşkil olunmuşdu. Səriştəsizlik, xarici qüvvələrin dağıdıcı fəaliyyəti, tikanlı məftillərin sökülməsi, strateji malların kənara daşınmasına şərait yaradılması, respublika iqtisadiyyatını sarsıtmaqla yanaşı, həm də Azərbaycanın öz sərhədlərini qorumağa qadir olmaması barədə rəyin formalaşmasına xidmət edirdi.

Sərhəd qoşunlarının təşkili və formalaşmasında əsaslı keyfiyyət dəyişiklikləri, məhz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun diqqəti, qayğısı və tələbkarlığı sayəsində mümkün olmuşdur. Sərhəd qoşunları Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə təşəkkül tapmış, ölkə sərhədlərinin mühafizəsi xeyli möhkəmlənmiş, bu qoşunlar respublikanın nüfuzlu hərbi qurumlarından birinə çevrilmişdir.

Ötən on ildə sərhəd qoşunlarının maddi-texniki bazası möhkəmləndirilmiş, maliyyə-təsərrüfat fəaliyyəti nizamlanmış, yeni yaradılmış sərhəd dəstələrində və sərhəd zastavalarında müasir tələblərə uyğun xidməti və yaşayış binaları tikilib istifadəyə verilmişdir. Sərhəd zastavalarında və komendantlıqlarda, xüsusilə cəbhə xəttində yerləşən sərhəd zastavalarında möhkəm müdafiə və istehkam qurğuları tikilmişdir, zastava ilə naryadlar arasında radiorabitə əlaqəsi yaradılmışdır. Respublikanın dəniz sərhədlərinin qorunması üçün müvafiq gəmilər təmir olunmuş, Amerika Birləşmiş Ştatlarından 2 müasir qayıq alınıb sərhədçilərin istifadəsinə verilmişdir.

Bu illərdə Xudat, Zaqatala və Şəmkir sərhəd dəstələri yaradılmış, 35 sərhəd zastavası və 4 sərhəd komendantlığı qurulmuşdur. Hazırda respublikada giriş-çıxış yollarını əhatə edən 18 buraxılış məntəqəsi fəaliyyət göstərir. Keçmiş SSRİ dövründə İran ilə sərhəddə qurulmuş və 1989-1990-cı illərdə Azərbaycanda mövcud olan hərc-mərclik şəraitində avantürist adamlar tərəfindən dağıdılmış çox etibarlı mühəndis-texniki qurğular 300 km sahədə bərpa edilmişdir.

Azərbaycanın ərazi bütövlüyü və dövlətçiliyinin qorunmasında 1200 nəfərdən çox sərhədçi zabit, gizir və əsgər iştirak etmiş, onlardan 4 nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüş, 14 nəfəri respublikanın orden və medalları ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 20 may 2000-ci il tarixli "Sərhəd nəzarəti buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə komissiya haqqında" sərəncamı – sərhəd nəzarəti xidmətinin qarşısında xidmətin effektivliyini artıraraq, gediş-gəliş prosedurалarının beynəlxalq standartlara uyğunlaşdırılması, qeyri-qanuni miqrasiyanın qarşısının alınması kimi mühüm vəzifələr qoymuşdur. Bu vəzifələrin yerinə yetirilməsi üçün zəruri tədbirlər görülür. Bu sahədə görülən işlər, həyata keçirilən tədbirlər bu gün belə deməyə əsas verir ki, Azərbaycan Respublikasının sərhəd qoşunları dövlət sərhədlərinin etibarlı mühafizəsini təmin edir.

Müstəqillik illərində milli təhlükəsizlik orqanları üçün kadrların seçilib yerləşdirilməsi istiqamətində ardıcıl iş aparılmışdır. 1992-ci ildən başlayaraq kadrların hazırlanması və təkmilləşdirilməsi kurslarında yüzlərlə əməkdaşlar xüsusi təhsil almış, peşə hazırlıqlarını artırmışlar. 1998-ci ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis olunmuşdur.



Ölkənin milli təhlükəsizliyinin təmin edilməsi digər ölkələrin xüsusi xidmət orqanları ilə əlaqələrin yaradılmasını və inkişafını tələb edir. Hazırda milli təhlükəsizlik orqanları dünyanın 16 ölkəsinin xüsusi xidmət orqanları ilə terrorizmə, narkobiznesə, mütəşəkkil cinayətkarlığın digər formalarına qarşı mübarizə sahəsində birgə əməkdaşlıq haqqında razılıq əldə etmişdir. Eyni zamanda MDB dövlətlərinin xüsusi xidmət və təhlükəsizlik orqanları rəhbərləri Şurasının və türkdilli dövlətlərin xüsusi xidmət orqanları rəhbərləri Konfransının işində iştirak edilir. Bu fəaliyyət artıq öz bəhrəsini verir. Belə ki, bütün MDB dövlətləri xüsusi xidmət və təhlükəsizlik orqanları rəhbərlərinin separatizmi pisləyən və ona qarşı birgə mübarizə aparmağı gərəkli sayan sənədə imza atması, NATO-nun sənədlərində separatizmlə bağlı müddəaların əks olunması ilə ölkə prezidentinin göstərilən istiqamətdə siyasi fəaliyyətinə dəstək verilmişdir.

Qafqaz regionunun, xüsusilə Azərbaycanın kapital qoyuluşu üçün cəzbedici məkan kimi əhəmiyyəti getdikcə artır və ona görə də bu regionda sülhün bərqərar olması beynəlxalq birliyi narahat edən vacib məsələlərdən biridir. Bu amilin müsbət cəhətləri ilə yanaşı, ölkəmizə mənfi təsirləri də mümkündür. Bu, bir tərəfdən xarici sərmayənin respublikaya axması üçün münasib şərait yaradırsa, digər tərəfdən kriminal qurum və ünsürlərin də Azərbaycana marağını artırır.

Göstərilən amillə bağlı mümkün təhlükələrin (dünya dövlətləri üçün strateji əhəmiyyət kəsb edən bu regionda ayrı-ayrı ölkələrin xüsusi xidmət orqanlarının respublika ərazisində daha da fəallaşması, kütləvi qırğın silahları komponentlərinin tranzit yolla keçirilməsi, Azərbaycanın radioaktiv maddələrin "qəbristanlığına" çevrilməsi, "çirkli pulların yuyulması", qanunsuz miqrasiyanın cədhləri və digər transmilli cinayətlər) vaxtında dəf edilməsi müasir dövrdə ölkəmizin milli təhlükəsizliyinin təmin olunması baxımından ən vacib vəzifələrdən biridir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları ölkəmizə qarşı yönəldilən kəşfiyyat, əks-kəşfiyyat, terrorçuluq və digər ekstremist fəaliyyətlə mübarizə, sərhədlərin toxunulmazlığının təmin edilməsi istiqamətlərində işin daha səmərəli həyata keçirilməsi üçün kifayət qədər yüksək peşəkar, Vətəninə sadiq kadr potensialına malikdir və xalqın mənafelərinin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi üçün hər bir belə fəaliyyətin qarşısını almaq iqtidarındadır.

## § 2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması və inkişafı

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ordumuzun yaradılması prosesi əslində ölkəmizin müstəqilliyinin tarixidir.

Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan ordusunun ənənələrini müasir dövrdə qoruyub saxlayan və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdur. Son illərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələr quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan vermiş, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratmışdır.

Lakin hələ yaxın keçmişdə Azərbaycan ordusu yaradılmasına başlanıldığı vaxtdan müxtəlif təzyiqlərə məruz qaldı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi.

Azərbaycan Respublikası 10 il əvvəl öz dövlət müstəqilliyini bərpa edərkən artıq Ermənistan Respublikası ilə müharibə vəziyyətində idi. Tarix boyu Azərbaycana qarşı ərazi iddiasında olan ermənilər onlara havadarlıq edən və ölkəmizi parçalamaq, onun müstəqilliyinə mane olmaq istəyən digər qüvvələrlə birlikdə torpaqlarımızın bir hissəsini işğal etmişdilər. O zaman Azərbaycana rəhbərlik edən şəxslər qətiyyətsizlik və iradəsizlik nümayiş etdirərək Silahlı Qüvvələri yarada bilmədilər.

1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərarın və həmin ilin oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı qüvvələr yaradılması haqqında qanunun qəbul edilməsinə baxmayaraq, Respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi.

SSRİ-nin tərkibində qalmağa, ittifaq orqanlarının himayəsi altında yaşamağa və onun vahid ordusunun saxlanmasına meylli olan A. Mütəllibov Azərbaycanın müstəqil ordusunun formalaşmasında heç də maraqlı deyildi. Ona görə də orduya dövlət səviyyəsində lazımi diqqət yetirilmir, onun təşkilatlanması



üçün zəruri tədbirlər görülmürdü. Nisbətən qısa dövrdə dörd müdafiə nazirinin dəyişdirilməsi ordu quruculuğuna mənfi təsir göstərməklə yanaşı, ona olan münasibəti təzahür etdirirdi.

AXC-Müsavat hakimiyyəti dövründə də ölkəmizin ərazi bütövlüyünün qorunması üçün lazımi tədbirlər həyata keçirilmirdi. O vaxtkı iqtidar səriştəsizliyi üzündən düşünülmüş hərbi siyasət yeritmək qabiliyyətində olmadığına görə ölkəni və əhalini hər cür silah və hərbi texnika ilə təchiz edilmiş düşmənin ordusundan qoruya bilmir, onun qarşısında aciz qalırdı.

Belə vəziyyətin yaranmasında günahkar olan o zamankı dövlət rəhbərləri sonralar bu halı etiraf etmək məcburiyyətində qalmışdılar.

Silahlı Qüvvələrə rəhbərlik edən şəxslər ərazi və ya siyasi partiya mənsubiyyəti prinsipləri əsasında formalaşdırılmış hərbi hissələri Azərbaycanın ərazi bütövlüyünün qorunmasında deyil, öz şəxsi iddialarının həyata keçirilməsində, bu və ya digər siyasi qüvvələrin hakimiyyətə gətirilməsində istifadə edirdilər.

Hərbi iş üzrə heç bir biliyi və səriştəsi olmayan Fəhmin Hacıyevin və bu baxımdan ondan fərqlənməyən Tahir Əliyevin, Rəhim Qazıyevin,Surət Hüseynovun Silahlı Qüvvələrdə yüksək vəzifələrə təyin edilməsi ordunun mənafelərinə ciddi ziyan vurmuşdur. Bu şəxslər peşəkar zabit kadrlarına inamsızlıq göstərir, onları ordudan uzaqlaşdırır, ordu quruculuğunda səriştəsi olmayan öz yaxın adamlarını şəxsi sədaqət əsasında yüksək vəzifələrə təyin edirdilər.

Rəhim Qazıyev hələ 1992-ci il fevralın 18-dən Şuşa fövqəladə vəziyyət rayonunun komendantı vəzifəsində işləyərkən Şuşa və Laçın rayonlarının erməni hərbi birləşmələri tərəfindən işğalına şərait yaratmış, respublikada mövcud siyasi vəziyyətdən istifadə edib daha yüksək vəzifə tutmaq niyyəti ilə A.Mütəllibovu qeyri-qanuni yolla hakimiyyətə gətirməyə cəhd göstərmiş, döyüş şəraitində digər şəxsi marağı üzündən hakimiyyətdən sui-istifadə edərək Azərbaycan Respublikasına ağır nəticələrə səbəb olan ciddi ziyan vurmuşdur. Belə ki, o, müharibə gedən ərazidə şəxsi marağı naminə Laçın rayonunun işğalını reallaşdırmış, Şuşa rayonunu müdafiəsiz qoyaraq onun işğal edilməsinə şərait yaratmışdır. Bu xəyanət 186 insanın həlak olmasına, 210 nəfərin yaralanmasına, xeyli adamın itkin və məcburi köçkün düşməsinə, Şuşa və Laçın rayonlarının ərazilərini, orada olan dövlət, ictimai, şəxsi tikililərin və qurğuların, mal-qaranın, digər daşınar və daşınmaz əmlakın düşmənin əlinə keçməsinə səbəb olmuşdur.

Rəhim Qazıyev müdafiə naziri olduğu zaman silah alınması adı ilə Nazirliyin xəzinəsindən 25 mln. rubl və Azərbaycan Respublikası Beynəlxalq Bankındakı hesabdan 500 min ABŞ dolları məbləğində vəsaiti də mənimsəmişdir.

Rəhim Qazıyev və digər belə şəxslərin fəaliyyəti nəticəsində iflic olmuş hərbi hissələr respublikanın qərbində bir sıra rayonların işğal təhlükəsi yarandığı vaxtda da siyasi hakimiyyət uğrunda mübarizə aparırdılar.

Qarabağ bölgəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda qanlı döyüşlərin getdiyi zaman Müdafiə Nazirliyində hökm sürən özbaşınalıqdan və hakimiyyətsizlikdən istifadə edən Əlikram Hümbətov əvvəllər komandiri olduğu 704 saylı hərbi hissənin tərkibindən ayrı-ayrı mülki şəxslərdən ibarət cinayətkar silahlı qrup yaradaraq və siyasi təxribatlarla məşğul olurdu.

Həmin dövrdə mövcud olan Səhra cəbhə komandanlığının döyüşən ordu hissələri arasındakı vəziyyəti əks etdirən arayış-məlumatında bildirilirdi ki, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarının işğalı siyasi məqsədlər naminə şayiələr yayan, təxribata çağıran, partiyalararası didişməyə qoşulan qüvvələrin ordu hissələrinə göstərdiyi mənfi təsirin də nəticəsində mümkün olmuşdur.

Ordu quruculuğunda düzgün siyasətin yeridilməməsi nəticəsində xalqın orduya etdiyi yardımlara, ayrı-ayrı döyüşlərdə xalqımızın vətənpərvər və igid oğullarının düşmənə layiqli müqavimət göstərmələrinə baxmayaraq, Silahlı Qüvvələr bütövlükdə uğursuzluğa düçar oldu.

Cəmiyyətin bütün qatlarını sarsıdan daxili qeyri-sabitlik, siyasi çəkişmələrin geniş vüsət alması, cinayətkar mafioz dəstələrin fitnələri, xarici xüsusi xidmət orqanlarının qarşısı alınmayan kəşfiyyat-təxribat fəaliyyətinin ordu quruculuğu prosesinə göstərdiyi dağıdıcı təsiri 1993-cü ilin ortalarında artıq ordunu məhv olmaq təhlükəsi qarşısında qoydu.

Bütün bunların nəticəsində erməni silahlı qüvvələri Azərbaycan torpaqlarının 20 faizini zəbt etmiş, 1 milyondan artıq vətəndaşımızı öz yurdlarından didərgin salmış, on minlərlə insanı məhv etmişdi.

Ölkə daxilində hakimiyyətsizlik, qarışıqlıq və xaos, siyasi çəkişmələr, ordunun iflic vəziyyətində olması, ərazilərin işğalı, ölkənin parçalanması və müstəqilliyin itirilməsi təhlükəsi əhalidə ruh düşkünlüyü, vahimə və qorxu, dövlətə və orduya, sabahkı günə inamsızlıq hissləri yaratmışdı.



Məhz belə bir ağır böhranlı şəraitdə Azərbaycan xalqı öz müstəqil dövlətinin məhv edilməsi təhlükəsi qarşısında üzünü Naxçıvana, xalqın layiqli oğlu Heydər Əliyevə tutaraq onu hakimiyyətə gətirdi.

Yalnız Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəlməsi və Azərbaycan Respublikasının Prezidenti seçilməsi vəziyyəti kökündən dəyişdi, respublikamızda ordu quruculuğu sahəsində mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı.

Qısa müddət ərzində ordu daxilində hökm sürən hərc-mərcliyin və özbaşınalığın, kütləvi fərariliyin qarşısı alındı, geniş miqyaslı səfərbərlik tədbirləri həyata keçirilərək hərbi dəstələr təşkil edildi və cəbhəyə göndərildi, ordunun idarə olunması təkmilləşdirildi, cəbhə və döyüşən hissələrlə birbaşa əlaqələr yaradılaraq ortaya çıxan çətinliklərin həllində çeviklik əldə edildi. Bu istiqamətdə ən başlıca nailiyyətlərdən biri isə Silahlı Qüvvələrin dövlətin tam nəzarəti altına alınması oldu.

Görülmüş tədbirlər nəticəsində qısa zaman kəsiyində Füzuli və Ağdamın bir sıra yaşayış məntəqələri işğaldan azad edildi və cəbhədə təşəbbüs Azərbaycan ordusunun əlinə keçdi.

Bu uğurların müvəqqəti olduğunu güman edən düşmən öz havadarlarının köməyindən və silah-sursatından istifadə edərək 1994-cü ilin ilk aylarında bütün cəbhə boyu irimiqyaslı hücumlara keçdi. Lakin Azərbaycan ordusu hissələrinin Füzuli, Beyləqan, Ağdam və Tərtər istiqamətlərindəki müqaviməti ilə rastlaşan və Azərbaycan əsgərinin qəhrəmanlıq nümunələrinin şahidi olan düşmən cəbhədə atəşkəsə razılıq verməli oldu.

Heydər Əliyevin hakimiyyətə qayıtması və cəbhədə atəşkəsə nail olması dövlət quruculuğunun bütün sahələrində olduğu kimi Silahlı Qüvvələrdə də əsaslı islahatların aparılmasına imkan yaratdı. Silahlı Qüvvələrdə həyata keçirilən quruculuq işləri, struktur dəyişiklikləri, döyüş əməliyyatlarının vahid rəhbərlik altında planlaşdırılması, hissələrin hərb elminin tələblərinə uyğun idarə edilməsi, kadrların saflaşdırılması, qoşun hissələrinin təxribatçı və siyasi ünsürlərdən təmizlənməsi Azərbaycan ordusunu keyfiyyətcə yeniləşdirdi.

Silahlı qüvvələrin çevikliyini və döyüş hazırlığını təmin etmək üçün çox qısa vaxt ərzində ordu strukturu və idarəetmə orqanları təkmilləşdirildi, təkrarçılığa yol verən strukturlar ləğv olundu, yeni təşkilat-ştat strukturu tətbiq edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olundu, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı. Silahlı Qüvvələrin tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin Azərbaycan Respublikasının sənaye müəssisələrində yerləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına da təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi-vətənpərvərlik işi gücləndirildi.

Son illər ərzində Silahlı Qüvvələrə və başqa silahlı birləşmələrə qarşı xarici ölkələrin xüsusi xidmət orqanları, ayrı-ayrı təşkilatlar, qurumlar və şəxslər tərəfindən yönəldilmiş kəşfiyyat və təxribat fəaliyyətin aşkar edilməsi və qarşısının alınması üçün ordu hissələrində dövlət, o cümlədən hərbi sirlərin mühafizəsi, döyüş hazırlığının və döyüş qabiliyyətinin zəiflədilməsinə yönəlmiş hər hansı bir fəaliyyətin qarşısının alınması, cinayət hallarının aşkar edilməsi və ümumiyyətlə, Silahlı Qüvvələrdə dövlət təhlükəsizliyinin təmin edilməsi üçün Hərbi Əks-kəşfiyyat Xidməti tərəfindən müntəzəm olaraq zəruri əməliyyat tədbirləri həyata keçirilir. Respublikamızın Silahlı Qüvvələrinə, onun müdafiə potensialına, başqa silahlı birləşmələrə qarşı xarici ölkələrin, xüsusilə Ermənistanın xüsusi xidmət orqanlarının həyata keçirdikləri kəşfiyyat-təxribat fəaliyyətinin aşkar edilib qarşısının alınması istiqamətində təsirli tədbirlər görülür.

1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı zabit və əsgərlərin Vətən qarşısında öz borclarını şərəflə yerinə yetirməsi bir daha sübut etdi ki, şəxsi heyət arasında müstəqillik amalı və hərbi anda sədaqət hissi, yeni mənəvi-psixoloji iqlim formalaşmış, ordu hissələri artıq müxtəlif siyasi və cinayətkar mafioz dəstələrə xidmət edən təxribatçılardan, casuslardan xeyli təmizlənmişdir.

Bu sahədə əldə edilmiş uğurlara baxmayaraq, son illərdə hərbi hissələrdə nizam-intizamın möhkəmləndirilməsi, təlim və tərbiyənin düzgün qurulması istiqamətində iş səngiməmiş, onun müasir səviyyədə aparılması üçün müvafiq nizamnamələr, təlimatlar hazırlanmış və tətbiq edilmişdir. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri olan qanunlar qəbul edilmiş və artıq Azərbaycan ordusunun mükəmməl qanunvericilik bazası yaradılmışdır.



Ordu quruculuğunun indiki mərhələsində Silahlı Qüvvələrdə aparılan islahatların əsas məqsədlərindən biri qoşunların Vətənə, Azərbaycan xalqına və dövlətinə sadiq, yüksək hərbi hazırlığa malik zabit, gizir və miçmanlarla tam komplektləşdirilməsinə nail olmaqdır. Silahlı Qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi Ali Baş Komandanın göstərişlərinə və Azərbaycan Respublikasının hərbi qanunvericilik aktlarının tələblərinə uyğun, vahid plan əsasında aparılır və ardıcıl xarakter daşıyır.

Keçmiş illərdən fərqli olaraq hazırda əsas komanda-qərargah vəzifələrinə peşəkar, ali hərbi təhsilli, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi olan zabitlər təyin edilir.

Qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün Silahlı Qüvvələrin bütün növlərində,hərbi birləşmələrdə, vaxtaşırı olaraq komanda-qərargah oyunları, real döyüş şəraitinə yaxınlaşdırılmış təlimlər və toplanışlar keçirilir. Qoşunlarda həyata keçirilən təlimlər Silahlı Qüvvələrə mövcud çatışmazlıqların aradan qaldırılmasına, ordunun döyüş hazırlığının möhkəmlənməsinə imkan vermişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sayəsində ölkəmizdə milli hərbi kadrların yetişdirilməsi üçün müasir tələblərə cavab verən hərbi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir.

Hələ 1971-ci ildə Heydər Əliyev uzaqgörənlik nümayiş etdirərək şəxsi təşəbbüsü ilə, keçmiş SSRİ rəhbərliyinin müqavimətinə baxmayaraq, Sovetlər İttifaqının heç bir respublikasında analoqu olmayan Cəmşid Naxçıvanski adına Hərbi Litseyin yaradılmasına, azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəbləri və ölkənin digər hərbi məktəblərinə güzəştli qəbul olunmasına nail olmuşdu. Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Litseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədi ilə 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında fərman imzalamışdır.

Azərbaycan Respublikası Prezidentinin 20 avqust 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kadr hazırlığının təkmilləşdirilməsi məqsədi ilə Azərbay-

can Respublikasının Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən məktəblər müvafiq olaraq Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi və Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi adlandırılmışdır.

2001-ci ilin avqust ayında Azərbaycan Respublikası Ali Hərbi Məktəbində NATO standartlarına uyğun təhsil almış zabitlərin ilk buraxılışı olmuşdur. Bu tədbirin ordu quruculuğu prosesində əhəmiyyəti ilə əlaqədar təntənəli buraxılış mərasimində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi ordu generalı Hüseyn Qıvrıqoğlu iştirak etmişdir.

1997-2001-ci illərdə Zabit Heyətini Təkmilləşdirmə Kurslarının, Gizir Hazırlığı Məktəbinin, Cəmşid Naxçıvanski adına Hərbi Litseyin Naxçıvan filialının, Ehtiyat Zabitlərinin hazırlığı kursunun və Azərbaycan Tibb Universitetində Hərbi Tibb fakültəsinin yaradılması Silahlı Qüvvələrin peşəkar, bilikli, Vətəninə sadiq hərbçilərlə təmin edilməsində böyük əhəmiyyət kəsb edir. Hərbi təhsil müəssisələrinin təsis edilməsi Silahlı qüvvələrin Ali Baş Komandanı Heydər Əliyevin Azərbaycan ordusuna və onun şəxsi heyətinə göstərdiyi qayğının təzahürüdür.

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin zabitləri həmçinin Türkiyənin, Ukraynanın, Rusiyanın, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın, Macarıstanın Hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Zabitlərimizin Amerika Birləşmiş Ştatlarında təhsil alması haqqında artıq razılıq əldə edilmişdir.

Orduda milli peşəkar hərbi kadrların çoxalması bütünlükdə qoşun hissələrinin təlim və tərbiyəsinin ümumi səviyyəsinə müsbət təsir göstərmiş və mühüm vəzifələrin ali hərbi təhsili, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, müəyyən döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsinə imkan yaratmışdır.

Azərbaycan Silahlı Qüvvələrində həqiqi hərbi xidmət keçən zabitlərin tam əksəriyyəti ali və orta ixtisaslı hərbi təhsillidir, yüzlərlə hərbi qulluqçu isə Hərbi Akademiyanın məzunudur.

Son illərdə Silahlı Qüvvələrə çağırış işi də xeyli yaxşılaşdırılmış, orduya xidməti özünün ən böyük vətəndaşlıq borcu hesab edən, fiziki cəhətdən hazırlıqlı Azərbaycan övladları qəbul edilir. Xidmətə çağırılan gənclər ilkin hərbi vərdişlərə yiyələnmək üçün yaradılmış təlim hissələri və mərkəzlərində qoşunların sıravi heyəti kimi müvafiq proqramla xüsusi hazırlıq keçdikdən sonra hərbi hissələrə göndərilir.



Gənclərimiz arasında hərbi peşəni təbliğ etmək məqsədi ilə son zamanlar Azərbaycanın hərb tarixinin öyrənilməsi ilə əlaqədar bir sıra maraqlı tədqiqat işləri aparılmış, müxtəlif hərbi ədəbiyyat, hərbi nizamnamələr, dərsliklər və dərs vəsaitləri, habelə xalqımızın qəhrəmanlıq tarixinə dair elmi tədqiqat əsərləri nəşr edilmişdir.

Silahlı Qüvvələrin şəxsi heyətinin sosial müdafiəsinin təmin edilməsi məqsədi ilə 1993-cü ildən başlayaraq hərbi qulluqçuların, Müdafiə Nazirliyi sistemində işləyən fəhlə və qulluqçuların əmək haqqı artırılmış, şəxsi heyətin tibbi, ərzaq və əşya-əmlak təminatının yaxşılaşdırılması istiqamətində iş aparılmışdır. Hərbi hissələrin maddi-texniki bazaları, əsgər yataqxanaları müasir tələblərə uyğun təmir edilmiş, şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkili üçün texniki-təbliğat vasitələrinin təminatına diqqət artırılmışdır.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri genişlənməkdədir. Keçən illər ərzində NATO, Müstəqil Dövlətlər Birliyi, GUÖAM çərçivəsində, bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur. Azərbaycan Respublikası Şimali Atlantika İttifaqı ilə geniş əməkdaşlıq edir və 1994-cü ilin may ayında NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulmuşdur.

Bu proqramın həyata keçirilməsini, silahlı qüvvələrimizin gələcək zabit kadrlarının müasir standartlara uyğun təhsil almasını və perspektivdə onların beynəlxalq hərbi tədbirlərdə daha da fəal iştirakını təmin etmək məqsədi ilə Azərbaycan Ali Hərbi Məktəbində "Sülh naminə tərəfdaşlıq" kafedrası yaradılmışdır.

Silahlı qüvvələrimizdə əvvəl sülhməramlı bölük, sonra isə tabor yaradılmışdır və 1999-cu ilin sentyabr ayından bu hərbi bölmənin bir taqımı Türkiyə Respublikasının taborunun tərkibində Kosovoda beynəlxalq sülhyaratma missiyasını yerinə yetirir.

Hazırda Azərbaycan Respublikasının NATO ilə tərəfdaşlıq proqramı xeyli genişlənmiş və bu ilin noyabr ayında Azərbaycanda "Kooperativ determineyşn – 2001" çoxmillətli komanda-qərargah təlimlərinin, 2003-cü ildə isə "Kooperativ Efford" çoxmillətli sülhyaratma təlimlərinin keçirilməsi planlaşdırılır.

Ordu quruculuğu sahəsində xarici ölkələr və beynəlxalq hərbi təşkilatlarla əməkdaşlıq Azərbaycan ordusunun hərbi təcrübəsinin artırılmasına imkan yaradır.

Azərbaycan Silahlı Qüvvələrinin hərc-mərclik illərindəki siyasi oyunlardan və siyasi qüvvələrdən uzaqlaşdırılması, onla-

rın intizamlı, mənəvi cəhətdən saf, yüksək peşəkarlığı ilə seçilən kadrlarla təmin olunması, təchizatının yaxşılaşdırılması, quruculuq işlərinin elmi əsaslarla aparılması, ordunun güclənməsi, Vətənimizin suverenliyinin və müstəqilliyinin möhkəm təminatçısına çevrilməsi respublika Prezidenti Heydər Əliyevin rəhbərliyi altında aparılan işlərin, onun tələbkarlığının məntiqi nəticəsidir.

Ölkəmizdə aparılan sosial-iqtisadi, hüquqi islahatlar, xalqımızın fərəhi və şərəf rəmzi olan milli ordumuzun formalaşması və güclənməsi istiqamətində həyata keçirilən tədbirlər, bu sahədə əldə edilmiş nailiyyətlər hər bir Azərbaycan vətəndaşının qəlbində dövlətimizin qüdrətinə inamını artırır.

Azərbacan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf və təkmilləşmə dövrünü yaşayır. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir və sülhü insan həyatında ən ülvi məqsəd hesab edir.

Bununla yanaşı Vətənin müdafiəsi hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Əsgər və zabitlərimiz Silahlı qüvvələrin qarşısında duran bu müqəddəs borcu – torpaqlarımızın erməni işğalçılarından azad edilməli olduğunu bir an belə unutmur, bunun üçün döyüş hazırlığını daim artırır və yüksək vətənpərvərlik əhval-ruhiyyəsi nümayiş etdirərək qələbə əldə etmək əzmindədirlər.



## § 3. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamət, məqsəd, vəzifə və prioritetlərinin müəyyən olunması

XX əsrin son on ilində dünyada baş verən qlobal proseslər, SSRİ-nin dağılması və Varşava Müqaviləsi Təşkilatının buraxılması planetimizin siyasi mənzərəsinin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin birbaşa beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni düzümünün formalaşmasına gətirib çıxardı. Bu, bir tərəfdən, beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnir, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdusa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qızışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə gətirib çıxarırdı.

Bu proseslər içərisində müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasının xarici siyasət tarixini nəzərdən keçirsək görərik ki, 1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinin xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə Rusiyaya meyllilik strategiyası təşkil edirdi. A.Mütəllibov hökuməti SSRİ-nin dağılması ərəfəsində dünyada və SSRİ-də gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf meyllərinə zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə imperiyanı qoruyub saxlamağa çalışanlarla bir sırada dayanır və Azərbaycanın bu qurumun tərkibindən ayrılmasına yol verməməyə səy göstərirdi.

SSRİ dağıldıqdan sonra belə Mütəllibov hökuməti xarici siyasətdə yalnız Rusiyaya birtərəfli üstün meyllilik və beynəlxalq münasibətlərdə Moskvanın mövqeyinə uyğun yanaşma xətti götürdü. Bu da sözsüz ki, həmin dövr üçün Azərbaycanın iqtisadi, siyasi maraqlarını təmin edə bilmədi, onun müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün, suveren dövlət hüquqlarının qorunmasına və beynəlxalq təminatına imkan yaratmadı. Buna görə də həmin mərhələdə yeridilən siyasət Azərbaycanın dövlət mənafelərini bütövlükdə dövlətlərarası, beynəlxalq və

regional münasibətlərin əsas inkişaf tendensiyası ilə uzlaşdırmağa imkan vermədi və verə də bilməzdi. Birtərəfli, rusiyapərəst mövqe üzərində qurulan xarici siyasəti müstəqil dövlətin xarici siyasət xətti kimi qəbul etmək, şübhəsiz ki, olduqca çətindir. Bu illərdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhətlərdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət kursunun olmaması idi.

Ə.Elçibəy hökumətinin xarici siyasət kursu və beynəlxalq münasibətlər sahəsində həyata keçirdiyi tədbirlər bütövlükdə vahid bir konsepsiya və sistem əsasında deyil, ayrı-ayrı məsul vəzifə sahiblərinin təsadüfi bəyanatları, çox vaxt bir-birini təkzib edən, ziddiyyətli və emosional çıxışları üzərində qurulmuşdu. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.

Cənubi və Şimali Azərbaycanın təcili birləşdirilməsinə dair çağırışlar, Ermənistanı atom bombası ilə dağıtmaq, Rusiya və keçmiş sovet respublikaları ilə haqq-hesab çəkməyə hazırlıq haqqında məsuliyyətsiz bəyanatlar, bütün türkdilli dövlətləri dərhal "birləşdirməyə", "Çinə türk bayrağı sancmağa" dair yüksək səviyyələrdə səslənən çağırışlar Azərbaycan Respublikasının xarici siyasətinin ali məqsədi və vəzifələri, əsas prioritet və istiqamətləri haqqında beynəlxalq aləmdə yanlış rəy yaradır, respublikamızın beynəlxalq imicinə zərbə vururdu. Bütövlükdə təsadüfi bəyanatlar, məsuliyyətsiz və ziddiyyətli çıxışlar üzərində qurulmuş xarici siyasət bir ilin içərisində Azərbaycanın regionda və beynəlxalq aləmdə tam təklənməsinə və respublika ətrafında antiazərbaycan koalisiyasının yaranmasına səbəb oldu.

Bütün bunlar nəticə etibarı ilə Azərbaycanı çox pis və ağır vəziyyətə saldı. Bir tərəfdən region dövlətləri ilə münasibətlər kəskinləşdi, digər tərəfdən isə beynəlxalq himayəyə olan inam itdi və bu himayəni təmin edə biləcək dövlətlərlə münasibətlər sərinləşdi. Azərbaycan beynəlxalq birlik tərəfindən dəstəklənmədi, ona qarşı "907-ci düzəliş" tətbiq edildi.

1993-cü ilin yayında Azərbaycanda baş verən hakimiyyət dəyişikliyi onun xarici siyasət fəaliyyətinin də yeniləşməsinə və ölkənin strateji maraqları əsasında yenidən qurulmasına şərait yaratdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ilk növbədə keçmiş sələflərinin xarici siyasət sahəsində buraxdığı səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış son dərəcə gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq, ölkənin strateji maraqlarını əks etdirən yetkin xarici siyasət konsepsiyası hazırlamaq zərurəti ilə üzləşdi. Bunun üçün isə Azərbaycan dövlətinin strateji maraqlarını beynəlxalq güc mərkəzlərinin, region dövlətlərinin və Qafqazda xüsusi təsiri olan ayrı-ayrı dövlətlərin maraqları ilə uzlaşdırmağa xidmət edən silsilə tədbirlər düşünülüb həyata keçirilməli, respublikamızın mənafelərini qorumaq istiqamətində hərtərəfli ölçülüb biçilmiş addımlar atılmalı idi. Bu işin ən çətin tərəfi müxtəlif dövlətlərin bütövlükdə Qafqaz regionu və bilavasitə Azərbaycan Respublikası üzərində köklənmiş imperiya ambisiyaları, ərazi iddiaları, iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsinin reallıqlarını, onların kəsişən və toqquşan maraqlarını dəqiq müəyyənləşdirmək, çevik manevrlər və xüsusi taktiki gedişlərlə Azərbaycanın dövlətçilik mənafelərinin maksimum dərəcədə nəzərə alınması idi.

Yenicə müstəqillik əldə etmiş xalqımızın, respublikamızın mövcudluğu 1993-cü ilin iyun ayı ərəfəsində son dərəcə ciddi təhlükə qarşısında qalmışdı. Bir tərəfdən daxildə separatçılıq cəhdləri, hakimiyyət uğrunda aramsız mübarizələr, qanunsuz hərbi birləşmələrin törətdikləri cinayətlər və nəhayət, vətəndaş müharibəsinin alovlanması təhlükəsi, digər tərəfdən erməni təcavüzü son dərəcə ağır vəziyyət yaratmışdı. Məhz belə bir anda Heydər Əliyev Azərbaycanın siyasi səmasında bir dan ulduzu kimi parladı, xalqın taleyi baxımından həyati əhəmiyyət kəsb edən məsuliyyətli bir işi öz üzərinə götürdü və o zamandan bəri demokratik, hüquqi, dünyəvi Azərbaycan dövlətinin qurucusu olaraq bu ağır və çətin vəzifəni, tarixi missiyanı şərəflə yerinə yetirdi. Həmin işin mühüm sahələrindən birini də ölkə prezidentinin xarici siyasət fəaliyyəti təşkil etdi.

Yenicə müstəqillik əldə etmiş bir ölkə üçün indiki qarışıq dünyada, həm də düşdüyümüz belə ağır şəraitdə düzgün xarici siyasət xətti müəyyən etmək və uğurla həyata keçirmək son dərəcə çətin bir iş idi. Elə bir xarici siyasət xətti müəyyən etmək lazım idi ki, o, hər şeydən əvvəl milli mənafeyə, əldə olunmuş kövrək müstəqilliyimizin möhkəmlənməsinə xidmət etsin, əvvəlki rəhbərliklər dövründə düyünə salınmış problemlərimizin həllinə kömək etmiş olsun və müstəqil dövlətimizin beynəlxalq mövqelərini tədricən möhkəmləndirərək Azərbaycanın dünya birliyində öz layiqli yerini tuta bilməsinə imkan yaratsın.

Xalqımızın müstəqil yaşamaq arzu və istəyinə, dövlətçilik sahəsindəki tarixi ənənələrinə söykənən Heydər Əliyev dühası,

onun parlaq və aydın zəkası, zəngin siyasi və dövlətçilik təcrübəsi bu taleyüklü problemin öhdəsindən müvəffəqiyyətlə gəlmək imkanı verdi. Heydər Əliyev hələ 1993-cü ilin oktyabrında keçirilən andiçmə mərasimindəki çıxışında xarici siyasətimizin başlıca vəzifələrini və istiqamətlərini xalqımızın və bütün dünyanın qarşısında bəyan edərək deyirdi: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Xarici siyasətimizin vəzifələri, onun başlıca istiqamətləri, əsas prinsipləri, milli mənafe və yerli şəraitdən irəli gələn fərqli xüsusiyyətləri, özünəməxsusluğu Heydər Əliyevin sonrakı çıxışlarında, konkret məsləhət və göstərişlərində, bilavasitə rəhbərliyi və iştirakı ilə dövlətimizin beynəlxalq aləmdə atdığı əməli addımlarda yaradıcılıqla inkişaf etdirilərək tez bir zamanda daha da təkmilləşdirildi, hərtərəfli düşünülmüş elmi-nəzəri əsaslara malik bir proqrama çevrilərək Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında qəbul olunmuş Konstitusiyasında qanunvericilik yolu ilə təsbit edildi. Azərbaycan Konstitusiyasının dövlətimizin xarici siyasi fəaliyyətindən bəhs edən 7 və 10-cu maddələrində deyilir: "Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır... Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur".

1993-cü ilin ikinci yarısından bəri hazırlanıb həyata keçirilən xarici siyasətimiz Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Məhz onun təşəbbüsü və rəhbərliyi altında bu siyasət özünün mahiyyəti və məzmunu etibarilə elmi əsasda dərindən düşünülmüş konsepsiyaya söykənərək hazırlanmaqla bərabər, həm də səliqə-sahmanla, siyasi səriştə ilə ardıcıl olaraq həyata keçirilməyə başlandı. Yeni əvvəllər məqsədi, məramı, başlanğıcı, sonu bəlli olmayan, səriştəsiz aparılan, konkret şəraiti, reallığı, qüvvələr nisbətini nəzərə almayan və xalqın, respublikanın milli mənafelərinə ziyan verərək nəticə etibarı ilə yenicə müstəqillik qazanan və ağır müharibə şəraitində olan respublikanın beynəlxalq aləmdə təklənməsinə gətirib çıxaran kortəbii xarici siyasətdən qətiyyətlə imtina edildi. Çox düzgün olaraq və həm də böyük uzaqgörənliklə həyata keçirilən bu yeni yanaşma xarici siyasətimizin sonrakı gedişləri üçün zəruri bir başlanğıc kimi müəyyən olundu. Lakin nə qədər yaxşı hazırlanmış bir konsepsiya olsa da, həyata keçirilməsinin dəqiq mexanizmi işlənilməzsə, onun həyata keçirilməsi üçün əlverişli lazımi şərait yaradılmazsa, həmin konsepsiya kağız üzərində qalar. Odur ki, hər şeydən əvvəl yeni xarici siyasət xətti üçün dinc şərait təmin edilməli idi. Bunun üçün müharibəni dayandırmaq və daxildə sabitlik yaratmaq lazım idi. Bu məqsədlə də 1994-cü ilin mayında Ermənistanla atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı. Ancaq bundan sonra, sakit bir şəraitdə dərindən düşünülmüş, hərtərəfli ölçülüb-biçilmiş yeni və fəal xarici siyasət xətti hazırlamaqla, onun yaxın dövr üçün başlıca istiqamətlərini müəyyənləşdirərək beynəlxalq aləmdə fəaliyyətə başlamaq olardı. Buraxılan səhvləri, yol verilmiş nöqsanları nəzərə alaraq, beynəlxalq aləmdə atılacaq hər bir addımda ehtiyatla hərəkət etmək, daxili məsələlərə, birinci növbədə iqtisadi islahatlar məsələlərinə diqqəti artıraraq qüvvə toplamaq lazım idi.

Məlum olduğu kimi, daxili siyasətlə xarici siyasət bir-biri ilə nəinki üzvi surətdə bağlıdır, həm də bu iki proses vəhdət təşkil edərək bir-birini tamamlayır. Hər hansı bir ölkənin daxili həyatındakı az-çox əhəmiyyətli hadisə dərhal onun beynəlxalq vəziyyətinə təsir göstərir və xarici siyasət sahəsində də buna uyğun addımlar atılmasını tələb edir. Eləcə də xarici siyasət sahəsində atılan addımlar daxili siyasətdə onların nəzərə alınmasını tələb edir. Bu dialektik vəhdəti yeni dövrün tələbləri və müstəqil dövlətimizin qarşısında duran vəzifələri nəzərə alan Prezident Heydər Əliyev Azərbaycanın çiçəklənməsini, iqtisadi yüksəlişini və beynəlxalq nüfuzunun möhkəmlənməsini təmin edən xarici siyasət konsepsiyasını hazırladı və həyata keçirdi.

Prezident Heydər Əliyev bütün amilləri nəzərə alaraq əqlin, zəkanın, zəngin təcrübənin gücünə arxalanaraq Azərbaycanın yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyən etdi. Bu yeniləşmiş xarici siyasət xətti ilk növbədə bir sıra ən mühüm və ən başlıca təxirəsalınmaz vəzifələri yerinə yetirməli idi. Həmin vəzifələrdən biri Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, Azərbaycan əleyhinə yaradılmış fikir

cəbhəsini darmadağın etmək, haqq işimizi dünya dövlətləri və dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Digər mühüm vəzifələrdən biri də bəzi dövlətlərlə münasibətlərdə əsassız yaradılmış gərginliyi aradan götürməkdən, xarici ölkələrlə münasibətdə tarazlaşdırılmış xarici siyasət xəttini təmin etməkdən, qonşu ölkələrlə münasibətlərə daha çox diqqət yetirməklə qarşılıqlı səmərəli əməkdaşlıq və mehriban qonşuluq əlaqələrinin qorunmasına nail olmaqdan ibarət idi. Qarşıda duran mühüm vəzifələrdən biri də böyük dövlətlərlə sıx əlaqələr yaratmaq və getdikcə genişləndirməkdən, həm də bütün dövlətlərlə əlaqələri beynəlxalq hüquq normalarına, beynəlxalq prinsiplərə tam uyğun tərzdə mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq əsasları üzərində qurmaqdan, dünyada mövcud olan müxtəlif beynəlxalq və regional təşkilatlara qoşulmaq və orada fəal iştirak etməkdən, beləliklə də müstəqil Azərbaycanın böyük dünya siyasətində lazımınca iştirakını, müxtəlif dünya ölkələri ilə səmərəli əməkdaşlığını təmin etməkdən ibarət idi. Nəhayət, daha bir mühüm vəzifə də ölkəmizin zorla cəlb edildiyi münaqişənin sülh yolu ilə ədalətli şəkildə həll olunması işinə böyük dövlətləri, nüfuzlu təşkilatları fəal qoşaraq onların dəstəyinə nail olmaqdan ibarət idi.

Azərbaycanın indiki qarışıq, təlatümlü dünyada və eləcə də həddindən artıq mürəkkəb Qafqaz regionunda tutduğu yerinin, rolunun, onun strateji əhəmiyyətinin düzgün müəyyən edilməsi də mühüm və vacib vəzifələrdən idi.

Bütün bu vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün müasir dünyadakı hadisələrin siyasi gedişini dərindən bilmək və mövcud şəraiti düzgün qiymətləndirmək, dövlətlərarası münasibətlərdən, regiondakı konkret siyasi vəzifələrdən, onların iqtisadi əhəmiyyətindən və bunun dünya siyasətinə təsir dairəsindən, orada toqquşan maraqlardan düzgün nəticələr çıxarmaq bacarığı tələb olunurdu. Odur ki, olduqca çevik, müxtəlif gedişli xarici siyasət yeridilməli idi.

Prezident Heydər Əliyev çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Bu, Azərbaycana da, onun sükanı arxasında bu gün inamla dayanan böyük şəxsiyyətə də beynəlxalq aləmdə nüfuz və şöhrət qazandırdı, onun müəyyən etdiyi yeni xarici siyasət xəttinə və mövqeyinə inam yaratdı. Bunun nəticəsi olaraq Azərbaycan dünyanın bütün aparıcı



ölkələrinin maraq mərkəzinə çevrildi, beynəlxalq və regional əməkdaşlıq sahəsində mühüm rol oynamağa başladı, investisiyaların axışdığı ən cəlbedici ölkələrdən birinə çevrildi.

Prezidentin çoxtərəfli gərgin fəaliyyəti sayəsində cəmiyyətin bütün sahələrində həyata keçirilən islahatların nəticəsi olaraq Azərbaycan Respublikası Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilərək ümumavropa ailəsinə qovuşdu və burada layiqli yerini tutdu. Prezident Heydər Əliyev nəinki Azərbaycan Respublikasının yeni xarici siyasət xəttini müəyyən etdi, həmçinin bu siyasətin həyata keçirilməsinin yollarını, vasitələrini, üsul və metodlarını da dəqiq və böyük məharətlə düşünüb hazırladı.

Beləliklə, müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin on illik tarixinin qısa təhlili göstərir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri, prinsipləri ilə seçilən, ardıcıl və prinsipial xarici siyasət xətti yalnız 1993-cü ilin ikinci yarısından etibarən yeridilməyə başlanmışdır. Prezident Heydər Əliyevin Azərbaycan dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün dinc və əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, fəal xarici siyasətinin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünə layiqli yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklərlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilat və qurumlarının diqqətini Azərbaycana yönəltmiş, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

## § 4. Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində fəaliyyət

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutur. Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə tarixi qayıdışından sonra münaqişənin aradan qaldırılmasına nail olmaq üçün göstərdiyi fəaliyyəti, ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli və eləcə də çoxtərəfli görüşlərdə, beynəlxalq forumlarda, ATƏT-in Zirvə görüşlərində, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, həmçinin Ermənistan Prezidenti ilə təkbətək danışıqlarda göstərdiyi ardıcıl səylər ölkə başçısının apardığı siyasətin mühüm hissəsini təşkil edir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və mahiyyəti, onun törətdiyi nəticələr dünya birliyinə yaxşı məlumdur. Bu münaqişə əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı qoparıb özünə birləşdirməyə çalışan Ermənistanın Azərbaycana ərazi iddiaları nəticəsində yaranmışdır. 1988-ci ildə münaqişə başlananda keçmiş Sovet İttifaqının rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz və qərəzli mövqeyi, problemin vaxtında qarşısını almaq istəməməsi nəticəsində münaqişə dərinləşərək müharibəyə çevrildi.

1991-1992-ci illərdə hərbi əməliyyatlar geniş vüsət almağa başladı. Erməni silahlı birləşmələri ən müasir silahlardan istifadə edərək 1992-ci ilin fevral ayında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 800 nəfərin ölümü ilə nəticələnən Xocalı soyqırımını həyata keçirdi. 1992-ci ilin mayında isə bu hücumlar Şuşanın, sonra da Laçının süqutu ilə nəticələndi. Beləliklə, erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı rayonların da işğalına başladı. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələrində erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması və qaçqınların öz doğma yerlərinə qaytarılması tələb olunsa da, bu sahədə beynəlxalq ictimaiyyətin səylərinə və çağırışlarına məhəl qoymayan erməni silahlı birləşmələri Azərbaycan rayonlarını işğal etməkdə davam etdi. 1993-cü ilin aprelindən başlayaraq bir neçə ay ərzində Kəlbəcər, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli, Zəngilan işğal olundu. Onu da qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti beynəlxalq



ictimaiyyət tərəfindən pislənsə də, Ermənistan faktiki olaraq heç bir dövlət tərəfindən təcavüzkar kimi tanınmadı. Yalnız 1993-cü ilin aprel ayında Pakistanın Kəraçi şəhərində İslam Konfransı Təşkilatının 21-ci konfransında Ermənistanın təcavüzkar dövlət olduğu bəyan edildi.

Beləliklə, Azərbaycan Respublikasına qarşı təcavüz nəticəsində ölkənin ərazisinin 20%-i, yəni 17.000 kv.km torpaq sahəsi işğal altında qaldı, 18.000 nəfər həlak, 50.000 nəfər əlil oldu. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin bağlı Dövlət komissiyası"nın 2000-ci ildə hazırladığı statistik məlumatlara əsasən, işğal olunmuş ərazilərdə 6.000-ə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102.000 yaşayış evi, 4366 sosial-mədəni obyekt, 7.000 ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdıldı. 800 km-lik dəmir yolu və avtomobil yolları, 15 min km elektrik və qaz xətləri, 2300 km-lik regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarıldı. İşğal olunmuş torpaqlarda 31 məscid, 9 tarixi saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji, geoloji abidə erməni separatçılarının əlinə keçdi. Qaçqın və məcburi köçkünlərə gəldikdə isə onların ümumi sayı bir milyondan artıq oldu. Onlardan 245 min nəfəri Ermənistandan, 50 min nəfəri Orta Asiyadan, 800 min nəfərə qədəri isə işğal olunmuş torpaqlardan didərgin düşmüş məcburi köçkünlərdən ibarətdir. Nəticə etibarilə münaqişə dövrü ərzində Azərbaycana dəyən maddi ziyanın həcmi 60 milyard ABŞ dolları təşkil etmişdir.

O zamankı Azərbaycan rəhbərliyinin səriştəsizliyindən, ölkədə baş verən hərc-mərclikdən, hakimiyyət uğrunda gedən qanlı münaqişələrdən istifadə edən Ermənistan Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağda qeyri-konstitusion hakimiyyət strukturlarını yaratmağa başladı. Nəticədə Dağlıq Qarabağ separatçıların və Ermənistan silahlı qüvvələrinin tam hərbi nəzarəti altına düşdü.

Azərbaycanda bu hadisələr başlayan zaman xalqımız bir ideya ətrafında birləşə bilmədi, rəhbərlik edən adamlar səbatsızlıq göstərdi. Həmin illər respublikada kəskin daxili çəkişmələr, ərazi bütövlüyünə qəsdlər, hakimiyyət mübarizəsi ilə səciyyələnirdi ki, nəticədə Dağlıq Qarabağ və digər Azərbaycan rayonları siyasi mübarizədə bir vasitəyə çevrildi, ən yaxşı halda

isə unuduldu. Belə bir vəziyyətdən istifadə edən ermənilər Azərbaycan torpaqlarını asanlıqla işğal etdilər.

Doqquz il bundan əvvəl, 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurası Helsinkidə çağırılmış fövqəladə iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olmaq üçün Minsk Qrupunun yaradılması haqqında qərar qəbul etdi.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyi baş verdi. Bir tərəfdən Azərbaycanın ərazi bütövlüyünün pozulması, torpaqların verilməsi, digər tərəfdən ölkənin parçalanması təhlükəsi qarşısında qaldığını görüb buna dözmək istəməyən xalqın çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə baş qaldırmış separatçı qüvvələri, Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər törədən cinayətkar qrupları zərərsizləşdirdi, ölkədaxili ictimai-siyasi sabitliyi, dövlət ilə xalqın birliyini, yekdilliyini təmin etdi.

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, ölkədə ictimai-siyasi sabitliyə nail olmaq istiqamətində təxirəsalınmaz vəzifələrindən biri davam etməkdə olan Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qəti addımlar atmaqdan ibarət idi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Milli Ordumuzun formalaşdırılması, onun döyüş qabiliyyətinin yüksəldilməsi, torpaqlarımızın müdafiə olunması üçün geniş miqyaslı tədbirlərin həyata keçirilməsi nəticəsində hərbi qarşıdurmada tarazlıq yarandı.

Cəbhə bölgələrindəki yeni vəziyyət erməni tərəfini atəşin dayandırılması barədə ciddi düşünməyə vadar etdi. Məhz Prezidentin təşəbbüsü ilə, onun qətiyyəti, əzmkarlığı və uzaqgörənliyi nəticəsində 1994-cü ilin may ayının 12-də atəşkəs haqqında razılaşma əldə olundu, beş ildən artıq bir müddət ərzində davam edən hərbi əməliyyatlar dayandırıldı, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ilkin şərait yarandı. Heydər Əliyev Dağlıq Qarabağ probleminin həlli üçün hərtərəfli düşünülmüş yetkin bir proqramla çıxış etdi: əvvəla, problemi beynəlxalq səviyyəyə qaldırmaq, onun səbəblərini, tarixi köklərini, mahiyyətini dünya ictimaiyyətinə aydınlaşdırmaq, digər tərəfdən də dövlətlərin və beynəlxalq təşkilatların timsalında ölkəmizə tərəfdaşlar tapmaq və bir sözlə, çoxtərəfli hazırlıq işləri görmək lazım idi.

Məhz atəşkəsə nail olduqdan sonra bütün bu işlər üçün geniş imkan və şərait yaranmış oldu və bu sahədəki işlərin vüsəti xeyli artdı. Azərbaycan Prezidenti məsələnin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirdi və onun gərgin fəaliyyəti nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində intensiv sülh danışıqları aparıldı.



1994-cü ilin dekabrında ATƏM-in Budapeştdə keçirilən Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi barədə qərar qəbul olundu. ATƏM dövlətlərinin başçıları nizamlamanın mərhələli xarakterini müəyyən edərək və ATƏM-in Minsk Konfransının həmsədrlərinə silahlı münaqişənin dayandırılması barədə saziş hazırlamağı tapşırdı. Saziş bütün tərəflər üçün münaqişənin əsas nəticələrinin aradan qaldırılmasını özündə əks etdirməli və Minsk Konfransının çağırılması üçün əsas olmalı idi. Münaqişə zonasında sülhün təmin edilməsi üçün ATƏM-in çoxmillətli qüvvələrinin yerləşdirilməsi barəsində də qərar qəbul olundu.

ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində bir sıra mühüm təkliflər irəli sürüldü. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə görüşü zamanı Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən qəbul edildi, tanındı və müdafiə olundu. Lissabon sammitindən sonra ATƏT-in Minsk qrupunun yeni formatda yaradılması onun fəaliyyətinə bir canlanma gətirdi.

Münaqişənin həllinin ATƏT müstəvisinə keçirildiyi 1992-ci ildən başlayaraq bu təşkilatla qarşılıqlı əməkdaşlıq Prezident Heydər Əliyevin səyləri ilə Azərbaycanın xarici siyasət kursunun əsas tərkib hissələrindən birinə çevrildi. Təkcə bir faktı xatırlamaq kifayətdir ki, 1993-2000-ci illər arasında Prezident Heydər Əliyev ATƏT rəhbərliyi və Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir. ATƏT-ə üzv olan ölkələrin liderləri ilə keçirilən görüşləri, aparılan danışıqları da buraya əlavə etsək, Dağlıq Qarabağ münaqişəsini həll etməyi öz üzərinə götürmüş bu beynəlxalq qurumla Azərbaycanın nə qədər sıx və intensiv işlədiyi, qarşılıqlı əməkdaşlıq etdiyi aydın olar.

Azərbaycan Prezidenti Heydər Əliyev 1993-cü ildən indiyədək 68 ölkənin prezidenti və dövlət başçısı ilə 485 görüş keçirmişdir. Bu görüşlərin hamısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur. Konkret rəqəmlərlə ifadə etsək, Prezident Heydər Əliyev ABŞ-ın Prezidenti, xarici işlər naziri ilə bu məsələni 18, Fransa rəhbərləri ilə 16,

Rusiya ilə 23, Türkiyə rəhbərləri ilə 78 dəfə müzakirə etmişdir. BMT-nin baş katibləri ilə onlarca görüş olmuşdur, NATO-nun, Müstəqil Dövlətlər Birliyinin Zirvə görüşlərində, İslam Konfransı Təşkilatının iki, İqtisadi Əməkdaşlıq Təşkilatının dörd Zirvə görüşündə, türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində hər dəfə Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsini gündəliyə çıxarmışdır.

Münaqişənin nizama salınmasının baza formulu məhz ATƏT-in 1996-cı ilin dekabrında keçirilən Lissabon Zirvə görüşündə müəyyən edildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çevik və dəqiq diplomatik addımları ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına nail oldu. Ermənistan Respublikası istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi. Bununla da münaqişənin sülh yolu ilə həlli üçün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənən ədalətli hüquqi bünövrə yaradıldı və vasitəçilərin vəzifələri müəyyən olundu.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Minsk qrupunun həmsədrləri dünyanın üç ən böyük dövləti – Rusiya, ABŞ, Fransa oldu. Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair indiyədək üç təklif vermişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin paket həllini, 1997-ci ilin oktyabrında verdikləri ikinci təklif isə münaqişənin mərhələli həllini nəzərdə tuturdu. 1998-ci ilin noyabrında həmsədrlər yeni, üçüncü təklif – "ümumi dövlət" təklifini verdilər.

Bu təkliflərin bəzi müddəalarının beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmasına, Azərbaycanın ərazi bütövlüyünü tam təmin etməməsinə baxmayaraq, Azərbaycan Prezidenti həmsədrlərin birinci və ikinci təkliflərinin danışıqlar prosesinin konstruktiv istiqamətində davam etdirilməsi üçün əsas kimi qəbul edilməsinə razılıq verdi. Hətta belə bir vəziyyətdə də Ermənistan bu təkliflərlə razılaşmayaraq açıq-aşkar qeyri-konstruktiv mövqe tutdu.

Həmsədrlərin "ümumi dövlət" təklifini Azərbaycan tərəfi qəbul etmədi. Çünki heç bir beynəlxalq-hüquqi bazası olmayan "ümumi dövlət" məfhumu Dağlıq Qarabağı müstəqil dövlət və ərazi qurumu kimi nəzərdə tutur, ona Azərbaycan ilə bərabərhüquqlu "ümumi dövlət" subyekti statusu verir, Azərbaycanı öz ərazisinin bir hissəsindən məhrum edir və faktiki olaraq Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalını qanuniləşdirirdi.



Təəssüf ki, yaradıldığı andan etibarən ATƏT-in Minsk Qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, ümumilikdə onun bütün sonrakı fəaliyyəti istənilən nəticəni vermədi. ATƏT-in Minsk qrupunun həmsədrləri beynəlxalq hüquq prinsiplərini rəhbər tutaraq danışıqlar prosesinə daha səmərəli təsir göstərmək, münaqişənin tezliklə tənzimlənməsinə nail olmaq, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını təmin etmək, qaçqınların daimi yaşayış yerlərinə qaytarılmasına səy göstərmək sahəsində qətiyyət göstərməmiş, onlara olan ümidlər hələlik istənilən nəticəni verməmişdir. Həmsədrlər əsasən vasitəçilik fəaliyyəti ilə məşğul olaraq bu günədək danışıqlar prosesinə beynəlxalq hüquq normaları çərçivəsində lazımi təsir göstərə bilməmişlər.

Nəhayət, 1999-cu ilin aprelindən başlayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində yeni bir format yaranıb və o, öz fəaliyyəti ilə əslində ATƏT-in Minsk qrupunun işini tamamlayır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqudur. İndiyə qədər prezidentlər 20-yə yaxın görüş keçirmişlər və Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistan Prezidenti Robert Koçaryan ilə Cenevrədə, Moskvada, İstanbulda, Parisdə, Minskdə, Davosda, Yaltada, Soçidə, habelə Respublikamızın sərhədində çoxsaylı görüşlər keçirmişdir.

Ermənistan Prezidenti ilə danışıqlar zamanı Azərbaycan Prezidenti əsasən münaqişənin tezliklə sülh yolu ilə tənzimlənməsi və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli möhkəm sülh yaradılması üçün qarşılıqlı surətdə məqbul kompromislərin axtarışı ilə məşğul olmuşdur. Qeyd etmək lazımdır ki, 1999-cu ilin axırlarında prezidentlər kompromis əldə edilməsinə yaxın idilər. Lakin Ermənistan əldə olunmuş razılaşmalardan tezliklə geri çəkildi.

Son dərəcə çətin və ağır olan bu dialoq davam etdirilməkdədir. Heç şübhəsiz ki, prezidentlərin təkbətək danışıqları münaqişənin bütün incəliklərini kifayət qədər dərindən bilən münaqişə tərəflərinin özlərinin birbaşa prosesə müdaxiləsi baxımından faydalı və perspektivlidir.

Danışıqlar ağır və çətin gedir. Üstəlik, Azərbaycan tərəfinin öz haqlı mövqeyini müdafiə etməsi bir sıra ciddi çətinliklərlə bağlıdır. Ermənistan tərəfinin əlində təzyiq vasitəsi kimi işğal

olunmuş torpaqlar var. O, Azərbaycanın ərazisinin bir hissəsini qoparmağa, özünə birləşdirməyə və ya Dağlıq Qarabağ üçün müstəqillik statusuna nail olmağa çalışır. Digər tərəfdən isə, beynəlxalq birliyin bitərəf mövqe tutmasını, BMT və ATƏT kimi mötəbər qurumların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsini, dünyanın onlarla ölkəsinə yayılmış erməni diasporunun məqsədyönlü lobbiçilik fəaliyyətini də Azərbaycanın öz haqq işinin müdafiəsinə mane olan və danışıqlar prosesində Azərbaycan Prezidentinin vəziyyətini çətinləşdirən amillər sırasına əlavə etmək lazımdır.

Lakin bütün bunlara baxmayaraq, danışıqlar davam edir və Azərbaycan xalqı Prezident Heydər Əliyevin bütün çətinliklərə sinə gərərək, bu son dərəcə mürəkkəb və taleyüklü missiyanın öhdəsindən uğurla gələcəyinə, Azərbaycanın milli və dövlətçilik maraqlarını əzmlə qoruyacağına tam inanır və müstəqil Azərbaycanın dövlətçiliyinin möhkəm zəmin üzərində formalaşması, onun müstəqilliyinin əbədiləşməsinin və xoşbəxt gələcəyinin təminatını yalnız Prezident Heydər Əliyevlə bağlayır.

Beynəlxalq hüququn prinsip və normalarına, BMT-nin Nizamnaməsinə uyğun olaraq, BMT-yə daxil olan hər bir müstəqil dövlətin ərazi bütövlüyünə, onun sərhədlərinin pozulmazlığına hamı tərəfindən və xüsusən bu münaqişənin həllinə görə məsuliyyəti öz üzərinə götürmüş ATƏT tərəfindən əməl olunmalıdır. ATƏT və onun Minsk qrupu bu prinsipə möhkəm əməl etməli, onun ciddi şəkildə yerinə yetirilməsinə hər cür kömək göstərməlidir.

Bu gün danışıqlar prosesində yaranmış vəziyyət isə beynəlxalq münasibətlərdə təhlükəli presedent yaradır. Beynəlxalq birlik beynəlxalq hüququn norma və prinsiplərinə ciddi əməl olunmasını, bunların möhkəmləndirilməsini təmin etmək əvəzinə, qətiyyətsizlik nümayiş etdirir. Ərazi bütövlüyünün toxunulmazlığı, sərhədlərin pozulmazlığı kimi beynəlxalq hüququn fundamental norma və prinsipləri sual altına qoyulur və bununla da Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda yaşayan 100 min erməniyə görə beynəlxalq praktikanın, beynəlxalq hüququn on illər boyu formalaşmış dayaqları sarsıdılır. Hərbi təcavüzün tanınması nəticəsində əldə edilmiş sülh, sabitlik və təhlükəsizlik isə möhkəm və əbədi ola bilməz.

Azərbaycan Prezidenti indiyə kimi keçirilən bütün danışıqlarda konstruktiv mövqe tutaraq problemin digər yollarla deyil, ancaq sülh yolu ilə həll olunmasına tərəfdar çıxmaqla yanaşı Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində qarşılıqlı güzəştlərlə Dağlıq Qarabağ ermənilərinə dünyada mövcud olan və təcrübədən keçmiş ən yüksək status verilməsinə razı olduğunu bildirib.



Bu gün Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyulmuş və yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradılmışdır.

On il, tarixi baxımdan, böyük müddət deyildir. Azərbaycanda bu qısa müddət ərzində demokratik, hüquqi, dünyəvi dövlət qurulmuş, onun təsisatları yaradılmışdır. Azərbaycan iqtisadi islahatlar apararaq bazar iqtisadiyyatını inkişaf etdirir. Ölkəmiz artıq intensiv inkişaf dövrünü yaşayır. Məhz Prezident Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, gərgin və yorulmaz əməyi, zəngin dövlətçilik təcrübəsi, elmi-nəzəri cəhətdən hərtərəfli düşünülmüş və əsaslandırılmış konsepsiyası, Azərbaycan xalqına sədaqəti və məhəbbəti, onun taleyi ilə bağlı üzərinə götürdüyü məsuliyyəti sayəsində Azərbaycan demokratik inkişaf yolu ilə inamla irəliləyir və bütün maneələrə baxmayaraq, beynəlxalq arenada özünəlayiq yeri tutur.

Azərbaycan dövlətçiliyinin gələcəyi və sabitliyinin, millətimizin rifahı və tərəqqisinin, cəmiyyətimizin dünyəvilik və demokratiklik əmsalının yüksəlməsinin, nəhayət, Azərbaycan Respublikasının müstəqilliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə nə dərəcədə sıx bağlı olduğunu Prezident Heydər Əliyev hamıdan yaxşı bilir. Elə buna görə də Azərbaycan xalqı bu mürəkkəb və düyünlü münaqişənin Azərbaycanın dövlətçilik və milli maraqları çərçivəsində həllini yalnız və yalnız Heydər Əliyevlə bağlayır, onun bu münaqişəni həll edə biləcəyinə inandığı üçün öz Prezidentini bütünlüklə dəstəkləyir.

## § 5. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası: ikitərəfli və çoxtərəfli əlaqələr, beynəlxalq təşkilatlarla əməkdaşlıq

Müstəqillik əldə etdikdən sonra demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş gənc Azərbaycan Respublikasının üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətli həlli onun beynəlxalq aləmdəki mövqeyi, ayrı-ayrı ölkələrlə milli dövlət mənafelərinə cavab verən qarşılıqlı faydalı əlaqələrin və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq əlaqələr sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərinin tənzimlənməsi və inkişaf etdirilməsi böyük əhəmiyyət kəsb edir.

Məhz buna görə də dünya birliyinə tamhüquqlu üzv kimi daxil olmağa çalışan, müstəqilliyinin ilk kövrək addımlarını atan və Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiyası, ikitərəfli və çoxtərəfli münasibətlərin, beynəlxalq və məhəlli təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Prezident Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil edir.

Heydər Əliyevin gərgin əməyi sayəsində Azərbaycan özünün geosiyasi mövqeyini, ictimai-siyasi və mənəvi-psixoloji inkişaf xüsusiyyətlərini nəzərə alaraq mövcud inkişaf modellərindən heç birinə birmənalı şəkildə üstünlük vermədən Qərb və Şərqin yaratdığı dəyərlərdən yaradıcılıqla və səmərəli şəkildə bəhrələnməyə, tarazlaşdırılmış çoxşaxəli xarici siyasət yeritməyə nail oldu.

1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycanın geosiyasi vəziyyətinin və beynəlxalq siyasətə təsiretmə imkanlarının dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. İlk növbədə müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, türkdilli dövlətlər və Türkiyə ilə, müsəlman dünyası və İranla, Asiya, Afrika və Cənubi Amerika ilə əlaqələrinin yaxın dövr üçün prioritetləri, istiqamətləri, aparıcı strategiyası müəyyənləşdirildi,



hər qrupa daxil olan ölkələrlə ayrı-ayrılıqda və birgə münasibətlərin düşünülmüş, bütün amilləri nəzərə alan durumu yaradıldı.

Heydər Əliyev məhz bu reallıqları nəzərə alaraq ilk səfərini Rusiyaya etdi. Bu səfər Azərbaycanın MDB-yə daxil olması ilə paralel hazırlandı. Çünki həm Rusiya ilə münasibətlər üçün, həm də MDB-yə daxil olan ölkələrlə Azərbaycanın münasibətləri, əlaqə və əməkdaşlığı üçün bu iş haqlı olaraq əhəmiyyətli sayıldı. Heydər Əliyev qeyd edirdi: "Biz bu birliyin tamhüquqlu üzvü olaraq iqtisadi əməkdaşlıq və kollektiv təhlükəsizlik haqqında müqavilələrin təmin etdiyi üstünlüklərdən faydalanmaq istəyirik... Biz MDB çərçivəsindən kənarda olduğumuz vaxtdakı vəziyyətimizi araşdırdıq və belə bir qənaətə gəldik ki, MDB çərçivəsindən kənarda qalmaq ölkənin qarşısında duran problemlərin həllinə kömək etmir". Odur ki, bu iki məsələyə, ümumiyyətlə, Azərbaycanın xarici siyasətində Rusiyanın mühüm yeri kontekstində baxıldı. Bu addım Azərbaycan-Rusiya münasibətlərindəki gərginliyi yümşaltmaq üçün də zəruri idi.

Prezident Heydər Əliyevin Rusiya Federasiyasının paytaxtı Moskvaya səfərləri, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfəri ölkələrimiz arasındakı gərginliyi xeyli zəiflətdi, iki ölkə arasındakı münasibətlərə yeni keyfiyyət gətirdi. Müxtəlif səviyyələrdəki qarşılıqlı səfərlər, dövlətlərarası münasibətlərin müxtəlif sahələrinə dair imzalanan sənədlər iki ölkə arasında bir çox məsələləri aydınlaşdırdı və müstəqil dövlət quruculuğu prosesində Rusiya Federasiyası ilə əlaqələrdən bəhrələnmək, bəzi imperiyapərəst qüvvələri neytrallaşdırmaq səyləri Azərbaycanın xarici siyasət kursunda müstəqil bir istiqamət kimi həyata keçirilməyə başlandı. Eyni zamanda həm Rusiya, həm də MBD-yə üzv olan başqa dövlətlərlə əlaqələrin köklü şəkildə yenidən qurulması üçün yeni forma və vasitələrdən istifadə edildi. Bu səylərin nəticəsidir ki, indi Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlər normal səviyyədə inkişaf etməkdədir.

Azərbaycan dövlətinin xarici siyasətinin çox vacib və əhəmiyyətli istiqamətlərindən biri də müasir dünyanın yeganə fövqəldövləti olan Amerika Birləşmiş Ştatları ilə münasibətləridir. Müstəqil Azərbaycanla bu ölkə arasında diplomatik münasibətlər 1992-ci il martın 18-də yaradılmışdır. Lakin bu, hələ ancaq ilk addım idi. Bu yolla irəliləmək bir sıra məsələlərə aydınlıq gətirmək, əlaqələri genişləndirmək, etimad, etibar qazanmaq, Azərbaycanı layiqincə təqdim etmək üçün çox iş görmək, böyük diplomatik fəallıq göstərmək tələb olunurdu. Bu, vacib və

olduqca zəruri idi. Çünki dünyəvi dövlət qurmaq istəyən və çətin problemlərlə qarşılaşmış gənc, müstəqil bir ölkənin taleyində dünya siyasətində həlledici rolu olan bu ölkə mühüm rol oynaya bilərdi. Buna nail olmaq, mövcud imkanları reallığa çevirmək üçün ardıcıl, məqsədyönlü səy göstərmək, daima müxtəlif yollar axtarmaq, vasitələr tapmaq lazım gəlirdi. Nəhayət, 1994-cü ilin sentyabrında məşhur "Əsrin müqaviləsi"nin imzalanması bu yolda ən mühüm və ən başlıca amil, Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni və həm də dönüş nöqtəsi oldu. Belə ki, Azərbaycana, onunla iqtisadi əməkdaşlığa, onun problemlərinə, geosiyasi əhəmiyyətinə maraq yarandı. Bu maraq ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, münaqişəli problemin dinc yolla həllinə tərəfdar olduğunu bəyan etməklə nəticələndi. Bu, çox əhəmiyyətli bəyanat idi. İndi irəli getmək ölkəmizi, işlərimizi, məqsəd və məramımızı, düçar olduğumuz müsibətlərimizi Amerika ictimaiyyətinə çatdırmaq, əlaqələri daha da genişləndirmək üçün yeni səylər göstərmək tələb olunurdu. Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-a səfərləri və onların uğurlu nəticələri bu böyük səylərin davamı kimi çox əhəmiyyətli oldu. Bu, Heydər Əliyev diplomatiyasının, Azərbaycanın düşünülmüş, əsaslandırılmış və sistemləşdirilmiş yeni xarici siyasət xəttinin növbəti uğuru idi.

Azərbaycanın yeni xarici siyasət kursunda bütövlükdə Avropanın böyük dövlətləri ilə münasibətlər məsələsi mühüm bir istiqamət təşkil edir. Hər bir ölkənin özünəməxsus xüsusiyyətlərini bütün incəliklərinə qədər nəzərə alan bu yeni xətt qısa bir müddətdə çevik taktiki gedişlərlə həyata keçirildi. Qısa müddət ərzində Azərbaycanın özünə Böyük Britaniya, Almaniya, Fransa, İtaliya kimi çox nüfuzlu həmfikirlər əldə etməsi Heydər Əliyev xarici siyasətinin Avropa istiqamətinin çox mühüm bir uğuru oldu.

Özünün uzaq tarixi köklərə malik demokratik dövlətçilik ənənələri ilə seçilən böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı beynəlxalq münasibətlərə təsiretmə gücünə görə dünya siyasətinin yönümünü müəyyən edən və beynəlxalq aləmin ən ümdə problemlərinin həllində xüsusi çəkisi olan ölkələr sırasına daxil olduğundan Azərbaycan ilə bu ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri qurmaq çox əhəmiyyətli idi.

Enerji ehtiyatları ilə zəngin olan Xəzərin Azərbaycan sektorunun ölkəmizin taleyüklü məsələlərinin həllində həyati əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, İngiltərə dövləti ilə bu sahədə səmərəli iqtisadi əməkdaşlığın da Azərbaycan üçün çox böyük siyasi



və iqtisadi dəstək rolu oynayacağı şübhə doğurmamalıdır. Xüsusən Xəzərin statusu ətrafında son zamanlar ayrı-ayrı dövlətlərin əsassız iddiaları və münaqişə törətmək cəhdlərinin aradan qaldırılmasında, Xəzərin ədalətli sektor bölgüsünün bütün dünyada dəstəklənməsində Böyük Britaniyanın rolu əvəzolunmazdır.

Böyük Britaniya dövlətini Azərbaycanla dostluğa və əməkdaşlığa sövq edən bir sıra siyasi, iqtisadi və digər amillər Azərbaycan-Böyük Britaniya əlaqələrinin dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətləri üzərində qurulmasını şərtləndirmiş və zəruri etmişdir. Bu zərurəti dərk edən və qarşılıqlı əlaqələrin hər iki dövlət üçün verdiyi və verə biləcəyi faydanı yüksək qiymətləndirən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın hökumət rəhbərləri iki ölkə arasındakı əlaqələrin yüksələn xətlə inkişaf etməsi üçün bütün imkanlardan istifadə etmişlər. Məhz elə bunun nəticəsidir ki, bu gün iki ölkə arasındakı münasibətlər strateji tərəfdaşlıq istiqamətində inkişaf edir.

Yalnız Prezident Heydər Əliyevin respublika rəhbərliyinə yenidən qayıtmasından sonra Azərbaycanın xarici siyasətində, o cümlədən dünyanın böyük və nüfuzlu dövlətlərindən sayılan Fransa ilə münasibətlərdə də dönüş baş verdi. Təcrübəli siyasi xadim və incə diplomat Heydər Əliyev keçmiş iqtidar başçılarından fərqli olaraq Fransa dövlətinin dünyada və Avropada oynadığı rolu, malik olduğu gücü, nüfuzu və təsir dairəsini yaxşı bildiyindən, ilk növbədə o vaxta kimi Azərbaycanda yalnız "düşmən" kimi təqdim olunmuş Fransa ilə əlaqələri sahmana salmağı qərarlaşdırdı. Məhz bu məqsədlə də onun ilk rəsmi xarici səfəri Fransadan başladı. Möhkəm təməl üzərində qurulmuş Azərbaycan-Fransa münasibətləri gələcəkdə hər iki ölkənin mənafeyinə cavab verən sıx əməkdaşlığı inkişaf etdirmək üçün geniş perspektivlər açır. Təsadüfi deyil ki, 1997-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin Fransaya rəsmi səfəri zamanı aparılan müzakirələr və iki ölkə arasında iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafına yeni təkan verən sənədlərin imzalanması müstəqil Azərbaycan Respublikasının ötən illərdə gərgin diplomatik səyləri nəticəsində yaradılmış mövcud bazaya əsaslanırdı.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasət konsepsiyasında dünya siyasətində xüsusi təsir gücünə malik və nüfuzlu dövlətlərdən biri olan Almaniya Federativ Respublikası ilə münasibətlər geniş yer tutur. 1993-cü ilin ikinci yarısından başlayaraq Avropa dövlətləri ilə, xüsusən AFR kimi böyük, inkişaf

etmiş və nüfuzlu ölkə ilə yeni əlaqələr və münasibətlər sisteminin yaradılması sahəsində aparılan məqsədyönlü işlər müstəqil Azərbaycan diplomatiyasının fəaliyyətində mühüm bir istiqamət kimi diqqəti cəlb edir. Planetin qlobal problemlərinin həllində mühüm rol oynayan, beynəlxalq və regional məsələlərdə rəyi və mövqeyi hər zaman nəzərə alınan Almaniya Federativ Respublikası ikinci dünya müharibəsindən sonra, qısa bir zaman ərzində iqtisadi, siyasi, sosial və mədəni inkişaf sahəsində dünyanın ən qabaqcıl ölkələri səviyyəsinə yüksələ bilmişdir. Belə bir dövlətlə dostluq və əməkdaşlıq etmək üçün yollar aramaq, onunla qarşılıqlı faydalı münasibətlər yaratmaq müstəqillik yolu tutan gənc Azərbaycan Respublikası üçün həyati zərurətdən doğan bir tələbat idi. Məhz bu zərurəti dərk edən respublika rəhbərliyi bu ölkə ilə regional və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əməkdaşlığa xüsusi yer ayırmaq qərarına gəlmişdir. Ölkələrimiz arasında daha sıx münasibətlər yaratmaq məqsədilə atılan addımlar, Almaniyaya rəsmi səfər, burada keçirilən görüşlər, aparılan danışıqlar, fəal diplomatik gedişlər bunu bir daha sübut edir. Həyata keçirilən tədbirlər dostluq münasibətlərinin yaranmasına öz müsbət təsirini göstərmiş, əlaqələrin genişlənməsinə və dərinləşməsinə əlverişli şərait yaratmışdır.

Müstəqillik illərində Azərbaycan dövlətinin xarici siyasətinin yeni istiqamətlərindən biri də İtaliya olmuşdur. Azərbaycan Prezidentinin İtaliyaya 1997-ci il sentyabrın 25-28-də olmuş səfəri ölkələrimiz arasındakı əlaqələrin vüsət götürməsi üçün əhəmiyyətli başlanğıc oldu. İtaliyada aparılmış danışıqların başlıca mövzusu Xəzərin energetika ehtiyatı olmuşdur. Səfər zamanı İtaliyanın "Acip" kompaniyası ilə neft müqaviləsinin bağlanılması bu sahədəki əməkdaşlıq üçün geniş imkan yaratmışdır. İki ölkə arasında elm, texnika, turizm, hava nəqliyyatı ilə yükdaşınmasına dair bir sıra müqavilələr imzalandı. Səfər zamanı iki ölkə arasında dövlətlərarası münasibətlərin və iqtisadi əməkdaşlığın əsasları haqqında imzalanmış birgə bəyanat xüsusilə böyük əhəmiyyət kəsb edir.

Səfərin mühüm müsbət nəticələrindən biri də ölkələrimizin bir-birinə siyasi cəhətdən yaxınlaşması oldu. Bunun üçün əsas verən amillərdən biri Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri məhz İtaliyanın olması idisə, digəri də İtaliya prezidentinin və ölkəsinin Azərbaycanın işğal olunmuş rayonlarından erməni hərbi birləşmələrinin çıxarılması və qaçqınların öz doğma yurdlarına qayıtmaları barədəki ədalətli tələbini dəstəklədiyini bəyan etməsi idi. İtaliya prezidenti bildirmişdi ki,



onun ölkəsi həmişə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və dövlət suverenliyinin möhkəmləndirilməsinə tərəfdar olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin məqsədyönlü xarici siyasəti nəticəsində Avropanın siyasi və iqtisadi həyatında mühüm rol oynayan Belçika Krallığı, Hollandiya, Norveç və digər ölkələrlə qarşılıqlı əlaqələrin genişləndirilməsi Azərbaycanın Avropa ilə inteqrasiyasına yeni yollar açır, beynəlxalq aləmdə nüfuzunun artmasına və mövqelərinin möhkəmlənməsinə kömək edir.

Dövlət başçımız Avropanın mühüm siyasi və iqtisadi mərkəzlərindən biri olan Belçika Krallığı ilə siyasi, iqtisadi, mədəni və beynəlxalq münasibətlər sahəsində ikitərəfli əlaqələrin geniş müzakirəsini keçirmiş, iki dövlətin qarşılıqlı mənafelərinin ortaq nöqtəsini müəyyən etmiş və bununla da Azərbaycan-Belçika əlaqələrinin hüquqi əsasını qoymuşdur.

Sosializm düşərgəsinin süquta uğraması beynəlxalq aləmdə, o cümlədən Avropada siyasi mənzərənin kəskin şəkildə dəyişməsinə səbəb oldu. Yeni siyasi-iqtisadi durumun müəyyənləşməsində Şərqi Avropa ölkələrinin mövqeyi və fəal xarici siyasəti əsas amillərdən biri kimi ön plana çıxdı. Azərbaycan hələ SSRİ tərkibində olarkən Avropa qitəsinin başqa ölkələrindən fərqli olaraq, sosializm düşərgəsinə daxil olan bu dövlətlərlə müəyyən iqtisadi və mədəni əlaqələrə malik idi. XX əsrin sonunda SSRİ-nin dağılması və onun tərkibinə daxil olan respublikaların müstəqillik qazanması, eyni zamanda Şərqi Avropa dövlətlərinin sosializm düşərgəsini tərk edərək Qərbə üz tutması bu əlaqələri daha da aktuallaşdırmış və müstəqil dövlət quruculuğu yolu tutmuş Azərbaycan üçün həyati zərurətə çevirmişdir. Bu gün Şərqi Avropanın Polşa, Macarıstan, Çexiya, Slovakiya, Bolqarıstan, Rumıniya kimi dövlətlərinin iqtisadi, siyasi və sosial-mədəni həyatının bütün sahələrində dünyanın inkişaf etmiş ölkələrinin əldə etdiyi qabaqcıl təcrübənin uğurla tətbiqi nəticəsində əhəmiyyətli dəyişikliklər baş verməkdədir. Bu dövlətlər regional, dövlətlərarası və beynəlxalq münasibətlər sahəsində özlərinin xarici siyasət prioritetlərini müəyyən edərək, planetin sivilizasiyalı birgəyaşayış müstəvisində özünəməxsus layiqli yerlərini tuturlar.

Avropa dövlətləri ilə tarazlaşdırılmış yeni münasibətlərin möhkəm təməlinin qoyulması bu istiqamətdə uzun bir dövr üçün gediləcək yolun və xarici siyasət xətti ilə görüləcək işlərin başlıca məqsəd və vəzifələrini müəyyənləşdirdi. Avropanın

Azərbaycana marağı artdı və xeyirxah, obyektiv münasibətlərin ilk təməli qoyuldu ki, bu da sonrakı işlərdə, Lissabon sammitinin uğurlu nəticələri üçün çox faydalı oldu.

Prezident Heydər Əliyevin ölçülüb biçilmiş yeni xarici siyasət kursunda Azərbaycanla qonşu olan ölkələrlə, müsəlman ölkələri ilə münasibətlərə də xüsusi diqqət yetirilir. Belə ki, bu ölkələrlə münasibətlərdə süni yaradılmış xeyli kəskin problemlər mövcud idi. Yaxın qonşumuz olan İranla hətta siyasi-ideoloji qarşıdurma, Türkiyə barəsində isə real şərait nəzərə alınmadan, ağına-bozuna baxmadan tam etnik birlik, türk birliyi zəminində aparılan emosional siyasət hər iki dost ölkə ilə münasibətlərə xələl gətirir, Azərbaycanın beynəlxalq mövqeyinə ziyan vururdu. Məhz buna görə də Heydər Əliyev çox təcrübəli siyasətçi kimi bu ölkələrlə münasibətlərdə tezliklə dönüş yaratmaq, onlarla qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə, beynəlxalq hüquq normalarına əsaslanan sivilizasiyalı münasibətlər qurmaq üçün böyük əmək sərf etməli oldu.

Həmin xarici siyasət xəttinin mühüm istiqamətlərindən birini də bu iki və digər qonşu ölkələrlə, islam dünyası ilə münasibətlər təşkil edirdi.

Bu baxımdan dövlət başçısı Heydər Əliyevin İrana, Türkiyəyə, Səudiyyə Ərəbistanı və Pakistana səfərləri və apardığı danışıqlar çox əhəmiyyətli oldu. Belə ki, İran və Türkiyə ilə münasibətlərdə xeyli və əhəmiyyətli dəyişikliklər edildi. İranla münasibətlərin yenidən qurulması, gərginliyin aradan qaldırılması, əməkdaşlığın genişləndirilməsi qısa bir zaman ərzində bu yeni xarici siyasət xəttinin düzgün və faydalı olduğunu göstərdisə, Türkiyə ilə münasibətlərdəki dərin düşünülmüş çox ağıllı dəyişikliklər isə ölkəmiz üçün, həm də ümumiyyətlə, ümumtürk birliyinin inkişaf edərək möhkəmlənməsi üçün çox əhəmiyyətli oldu. Bu işdə Prezident Heydər Əliyevin Türkiyəyə səfərləri mühüm rol oynadı. Nəzərə alındı ki, Türkiyənin əsası Atatürk tərəfindən qoyulmuş ənənəvi xarici siyasəti birinci növbədə ölkənin, millətin mənafeyinə uyğun olan elə xətti əsas götürür ki, bu, təbii sərvətlərlə zəngin olmayan ölkənin iqtisadi inkişafına kömək olsun. Bu da Xəzər neftinin daşınmasında dörd dənizlə əlaqəsi olan Türkiyənin tranzit əhəmiyyətini, Xəzər neftinin də Türkiyə üçün önəmini artırır. Odur ki, iki ölkə arasında strateji partnyorluq haqqında imzalanmış sənəd başqa amillərlə yanaşı həmin cəhəti əsas götürərək münasibətləri və dostluğu yeni, yüksək əməli əməkdaşlıq səviyyəsinə qaldırmaqla bu sahədə böyük imkan və perspektivlər açdı.



Xarici siyasət fəaliyyətinin daha bir mühüm istiqaməti kimi ÇXR, Yaponiya, Pakistan, Hindistan və Asiyanın digər ölkələri ilə əlaqələrə böyük əhəmiyyət verildi. Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin möhkəmlənməsində, taleyüklü maraqlarının dəstəklənməsində bu ölkələrlə qurduğu mehriban dostluq, qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri xüsusi əhəmiyyət kəsb etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu ölkələrə səfərləri, həmin ölkələrin nümayəndə heyətlərinin Azərbaycana səfəri ikitərəfli münasibətlərin və əməkdaşlığın möhkəm hüquqi bazasını yaratdı və gələcək üçün geniş perspektivlər açdı.

Orta Asiya dövlətləri və Qazaxıstanla münasibətlərdə də xarici siyasət xəttində bu istiqamətdə mühüm dəyişikliklər edildi. Azərbaycanın bu çox vacib regionda zəifləmiş mövqeyini möhkəmləndirmək və milli mənafeyimiz üçün zərərli olan vəziyyəti aradan qaldırmaq məqsədilə çevik diplomatik gedişlərlə yeni münasibətlər qurulmasını təmin edəcək forma və vasitələr düşünülüb tapıldı.

Az müddət içərisində normal vəziyyətə gətirilən münasibətlər ölkə başçılarının bir qədər sonra həyata keçirilmiş qarşılıqlı rəsmi səfərlərinin nəticələri ilə möhkəmləndirildi. Bu işdə Prezident Heydər Əliyevin Qazaxıstan və Özbəkistan respublikalarına olan rəsmi səfərləri çox mühüm rol oynadı.

Qazaxıstan Respublikasına səfər zamanı strateji partnyorluğa dair böyük proqram hazırlandı, həmçinin çoxsaylı sənədlər paketi imzalandı ki, bunların da arasında dövlətlərarası münasibətlərin əsasları haqqında müqavilə başlıca yer tutur. Ölkələrimiz arasında iqtisadi və siyasi əməkdaşlığın daha da möhkəmlənməsində çox əhəmiyyətli olan həmin səfər zamanı MDB daxilindəki proseslər, Xəzər dənizinin hüquqi statusu və qarşılıqlı maraq doğuran bir çox beynəlxalq problemlər barəsində də geniş fikir mübadiləsi edilmişdir.

İkitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə yaradılan yeni əlaqələr də çox əhəmiyyətli olmuşdur. Heydər Əliyevin xarici siyasət xəttində bu ölkələrlə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi, sözün əsl mənasında yüksək səviyyəyə qaldırılması Azərbaycan Respublikasının xarici siyasətinin yeni mühüm uğuru idi. Ukrayna bizim üçün hər cəhətdən inkişaf etmiş böyük və zəngin ölkə olmaqla iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üçün əlverişli bir tərəfdaş kimi əhəmiyyətlidirsə, Gürcüstan da ən yaxın bir qonşu, Avropaya çıxışımız, orada yarım milyona yaxın soy-

daşlamızın yaşaması, Qafqazın bu günkü dolaşıq düyünlərinin açılması və bu qaynar regionda sülhün və sabitliyin təmin edilməsi baxımından əhəmiyyətlidir. Odur ki, Azərbaycanın dövlət başçısı Qafqaz bölgəsinin bütün dövlətləri ilə, birinci növbədə Gürcüstanla əlaqələrin genişləndirilməsi və inkişafına xarici qüvvələr tərəfindən süni olaraq milli münaqişələrin qaynar nöqtəsinə çevrilmiş bu regionda sülhün və əməkdaşlığın təmin olunması məsələlərinə böyük diqqət yetirir. Onun "Qafqazda sülh və əməkdaşlıq" məsələlərinə dair irəli sürdüyü kompleks təkliflər proqramı Ermənistan istisna olmaqla bütün region dövlətləri, birinci növbədə Gürcüstan tərəfindən rəğbətlə qarşılanmışdır. Bu iki ölkə başçılarının Qafqazda sülh, sabitlik və əməkdaşlığa dair xüsusi sənəd imzalamaları bunu aydın göstərir. Ölkələrimiz arasındakı dostluğun ən bariz təcəssümü Gürcüstan Respublikasının Prezidenti E.Şevardnadzenin Azərbaycana səfərləri, aparılan danışıqlar və respublikalarımızın strateji partnyorluğu barədə imzaladıqları çox əhəmiyyətli sənədlər oldu. Belə bir partnyorluq xalqlarımızın, respublikalarımızın mövqeyini nəinki təkcə Qafqaz regionunda, həmçinin keçmiş sovetlər məkanında, bütün Avropada və dünyada möhkəmləndirir. Hər iki ölkənin rəhbərləri çox yaxşı başa düşürlər ki, bu problemlərin həlli yollarından ən başlıcası belə çətin və məsuliyyətli günlərdə məhz xalqlarımızın tarixi dostluğunun daha da möhkəmləndirilməsidir. İllər, on illər keçəcək, yeni nəsillər gələcək, bu çətin günlərin tarixini öyrənib yazarkən xalqlarımızın dostluğunu möhkəmləndirmək sahəsində bu gün görülən işləri çox yüksək qiymətləndirəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin xarici siyasət xətti dərin elmi nəzəri və zəngin təcrübə üzərində qurulmuş bir xarici siyasət konsepsiyası oldu. Bu fəaliyyətdə hər bir amil, faktor, şərait və xüsusiyyət nəzərə alındı. Məhz bu siyasi kursun nəticəsidir ki, Azərbaycan bu gün dünyanın demək olar ki, bütün ölkələri ilə diplomatik münasibətlər qurmuş və əməkdaşlıq edir. Azərbaycan bu gün planetin beynəlxalq əməkdaşlıq regionlarından birinə, bəlkə də ən mühümünə çevrilibdir. Məhz bunun nəticəsidir ki, yalnız adı çəkilən ölkələr yox, Cənubi Amerikanın, Afrikanın bir sıra ölkələrinin, Kanadanın və s. Azərbaycana marağı günbəgün artmaqdadır.

Azərbaycan Prezidentinin yeni xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə də böyük diqqət yetirilir. Hazırda dünyada təxminən 4 mindən çox beynəlxalq və məhəlli təşkilat mövcuddur ki, bunlardan 300-



dən çoxu hökumətlərarası təşkilatlardır. Beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycanın həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə edilməsi zəruridir. Məhz buna görə də hazırda Azərbaycan Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), Avropa Şurası (AŞ), Müstəqil Dövlətlər Birliyi, GUÖAM, İslam Konfransı Təşkilatı (İKT), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT), Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa Birliyi, NATO, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Azərbaycan yeni-yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulur.

Bu gün Azərbaycan özünün coğrafi mövqeyindən, dünya miqyaslı coğrafi-strateji əhəmiyyətə malik olan təbii ehtiyatlarından və potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin inkişafı, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması layihələrini səmərəli surətdə həyata keçirir.

Azərbaycan Avropa Birliyi ilə, Avropanın iqtisadi strukturları ilə fəal əməkdaşlıq edir. Hazırda bu təşkilatların köməyi sayəsində yüz iyirmidən artıq milli və transregional layihə həyata keçirilir.

Azərbaycan Prezidentinin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi xarici siyasət kursunun ən mühüm uğurlarından biri də 2001-ci ilin əvvəlində tarixi əhəmiyyət daşıyan hadisə – Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə qovuşması oldu. Beləliklə də, müstəqilliyin ilk on ili ərzində Azərbaycan xalqı Prezident Heydər Əliyevin rəhbərliyi altında ən mürəkkəb və sərt maneələri dəf etdi, Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşmasında qətiyyətli addım atıldı. Azərbaycan özünün gələcəyini Avropaya tam inteqrasiya ilə bağladı. Onu da qeyd etmək lazımdır ki, bu mühüm nailiyyət Azərbaycana başqa dövlətlərlə müqayisədə ikiqat, üçqat, bəlkə də daha ağır zəhmət və şərtlər bahasına başa gəldi. Azərbaycanın Avropa Şurasına tam hüquqlu üzv qəbul edilməsi həm ölkəmiz üçün, həm də bu təşkilat üçün xüsusi əhəmiyyət kəsb edir.

## V FƏSİL

## MİLLİ-MƏNƏVİ İNKİŞAF

### § 1. Elm və təhsil siyasəti

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 30 ildən artıq davam edən ictimai-siyasi fəaliyyətində elmə, təhsilə göstərilən qayğı daim mühüm yer tutmuşdur. Heç də təsadüfi deyildir ki, XX əsrin son 30 ilində Azərbaycan intibahını şərtləndirən amillər sırasında elmin və təhsilin yüksəlişi xüsusilə diqqəti cəlb edir. Məhz bu illərdə Azərbaycanda xalqın təhsillənməsi, ali təhsil ocaqlarının yaranması, xalqın təhsilə, ali təhsilə cəlb olunması, elmi-tədqiqat institutlarının yaradılması, elmi-tədqiqat işlərinin genişlənməsi, Elmlər Akademiyasının gərgin axtarışlarla zəngin fəaliyyəti – bütün bunlar XX əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda elmin və təhsilin sürətli inkişafını nümayiş etdirən təkzibedilməz faktlardır. "...XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir" (Heydər Əliyev). Təkcə 1969-1982-ci illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, respublikada ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 mindən 100 min nəfərə çatdırılmışdır. Yenə də həmin illərdə Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu ən dəyərli ənənələr sırasında respublikada gərəkli ixtisaslara yiyələnmələri üçün azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi praktikası xüsusi yer tutur.

Əgər 1969-cu il üçün Azərbaycandan kənarda təhsil almağa cəmi 47 nəfərin göndərilməsi planlaşdırılırdısa və bunların əksəriyyəti qeyri-azərbaycanlı olurdusa, artıq 80-ci illərin əvvəllərindən hər il 1000-1400 nəfər respublikadan kənarda təhsil almağa göndərilirdi ki, onların da böyük əksəriyyətini azərbaycanlı gənclər təşkil edirdi. Eyni siyasət azərbaycanlı hərbi kadrların yetişdirilməsi sahəsində də həyata keçirilirdi. Təkcə 1982-ci ildə SSRİ-nin ali hərbi məktəblərinə qəbul olunan 1000 nəfərdən 550 nəfəri milliyyətcə azərbaycanlı olmuşdu.



Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra elm və təhsilə göstərilən diqqət və qayğı elə ilk günlərdən bir daha özünü göstərmişdi. Heydər Əliyev hələ Azərbaycan Prezidenti seçilməzdən əvvəl ziyalılarla ilk görüşlərindən birini 1993-cü il sentyabrın 21-də Azərbaycan Respublikası Elmlər Akademiyasında keçirmişdi ki, bunu da yalnız ölkə rəhbərinin alimlərimizə bəslədiyi böyük ehtiram, Azərbaycan elminin gələcəyinə göstərilən hədsiz qayğı və diqqətlə izah etmək olardı. Bu, həm də ölkəni 1993-cü ilin iyununadək idarə etmiş səriştəsiz insanların respublikada elm adamlarına münasibətdə yol verdikləri ədalətsizliklərdən irəli gələn narahatlıqlarla bağlı idi. Elə həmin görüşdə Heydər Əliyev belə narahatlıqların tamamilə əsassız olduğunu və yalnız naqis adamların təxəyyülünün məhsulu olduğunu cəsarətlə ifşa edərək demişdi: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Nəyin bahasına olursa-olsun, son qoyacağıq. Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir.

Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan alimlər çox böyük şücaət göstərmişlər. Ötən dövrdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycanın elmi inkişaf etməlidir. Universitetlər, ali məktəblər də inkişaf etməlidir".

Səkkiz il əvvəl deyilmiş bu sözlər elm və təhsilə verilmiş ən yüksək qiymət olmaqla yanaşı, həm də onların perspektivinin çox uğurlu olacağını göstərdi və o çətin şəraitdə bəlkə də heç kəsin ağlına gəlməyən elm və təhsil islahatlarının başlanğıcını qoydu. Beləliklə, həyatımızın digər sahələrində olduğu kimi, burada da islahatların məhz 1993-cü ilin ikinci yarısından sonra başlandığını söyləyənlər, heç şübhəsiz, tamamilə haqlıdırlar. Lakin onu da unutmaq olmaz ki, bu gün həmin islahatları hazırlayanlar və həyata keçirənlərin çoxu 1969-1982-ci illərdə elmi və kadr potensialının yüksəldilməsini təmin etmək üçün həyata keçirilmiş tədbirlər nəticəsində yetişmiş yüksək ixtisaslı elm və təhsil nümayəndələridir.

İndi isə 1993-2001-ci illərdə elm və təhsil siyasəti ilə bağlı həyata keçirilmiş tədbirlərə müxtəsər nəzər salaq.

Ən əvvəl, onu qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akade-

miyası (AMEA) adı verilmiş və bununla da akademiyanın elmimizin inkişafında əldə etdiyi nailiyyətlər, Azərbaycan xalqının mədəni və mənəvi təşəkkülündə oynadığı rol, respublika ictimaiyyətində olan nüfuzu və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu fikri bir daha təsdiqlənmişdir. AMEA-nın çoxminli kollektivinin əməyinə verilən bu yüksək qiymət onun təzahürüdür ki, müstəqillik dövründə – 1991-2001-ci illərdə bütün çətinliklərə baxmayaraq, akademiyanın fəaliyyəti bir an olsun belə dayanmamış, riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etmişdir; keçmiş ideologiyanın buxovlarından azad olunmuş tarix, ədəbiyyat, dil, iqtisadiyyat, fəlsəfə və hüquq elmləri yeni demokratik, hüquqi dövlətin möhkəmlənməsinə, Azərbaycan xalqının mədəniyyətinin və incəsənətinin inkişafına öz layiqli töhfələrini vermişdir.

Fundamental tədqiqatlar, əsasən respublikamızın sosial-iqtisadi inkişaf məqsədi və elmin özünün məntiqi inkişaf tələblərinə cavab verən istiqamətlərdə aparılmışdır. İlk növbədə yeni fundamental elmi biliklər əldə etmək zəminində respublikamızın yanacaq-enerji kompleksinin yenidən qurulması, neft-kimya, metallurgiya, maşınqayırma komplekslərinin inkişafı, radikal aqrar və torpaq islahatlarının səmərəliliyinin və sürətinin artırılması ilə bağlı problemlərin həlli əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

İctimai elmlər sahəsində müstəqillik illərində xeyli nailiyyətlərimiz olmuşdur. Arxeoloqlarımız tərəfindən ilk dəfə olaraq Azərbaycanın Arxeoloji Abidələr Bankı yaradılmış, qədim tariximiz üçün maraq doğuran bir sıra qiymətli tədqiqat əsərləri, o cümlədən "Azərbaycanın qədim dövr müdafiə tikililəri" (12 ç.v.), "İkinci Kültəpə" monoqrafiyası, "Azərbaycanın izahlı toponimik lüğəti" (35 ç.v.) kitabları çapa hazırlanmışdır.

Şərqşünaslarımız "XIX əsr türk ədəbiyyatı oçerkləri" (18 ç.v.), "Ümumi türk tarixinə giriş. Tərcümə və şərhlər" (20 ç.v.), "Cənubi Azərbaycan tarixinin qısa oçerkləri (1828-1920-ci illər)" və s. mövzularda maraqlı əsərlər yazmış və çap etdirmişdir.

Filosoflarımız "Orta əsr türk qaynaqlarında fəlsəfi fikir" (70 ç.v.), "Postsovet Azərbaycanda əxlaqi şüurun strukturunun və tiplərinin tədqiqi", "Azərbaycanda estetik fikir tarixi" və s. mövzularda tədqiqatlarını başa çatdırmışlar.

İqtisadçı alimlərimiz müasir şəraitdə respublika iqtisadiyyatının inkişafı, onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi və əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmiş



ən mühüm sosial-iqtisadi problemlərin, o cümlədən bazar iqtisadiyyatına keçidlə bağlı yeni iqtisadi münasibətlərin formalaşması və inkişafı; demokratik inkişafın və məşğulluğun sosial-iqtisadi problemləri; Azərbaycan sənayesində struktur-investisiya problemləri; Azərbaycanda elmi potensialdan səmərəli istifadə edilməsi; sahibkarlığın formalaşması və inkişafı problemləri; aqrar münasibətlərin bazar iqtisadiyyatı tələblərinə uyğun tənzimlənməsi və s. aktual mövzularda tədqiqat işləri aparmış və mühüm elmi nəticələr əldə etmişdir.

Milli münasibətlər üzrə ixtisaslaşmış alimlərimiz "Ermənistan azərbaycanlılarının genosidi və deportasiyası", "Millətlərarası münasibətlər sistemində Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin formalaşması (90-cı illər)", "Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyəti və məişətinin yenidən qurulması problemləri", "Milli özünüdərk və millətlərarası münasibətlərin dialektikası", "Azərbaycan diasporunun təşəkkül tarixi və fəaliyyəti" və s. aktual mövzularda maraqlı tədqiqat işlərini başa çatdırmış və çoxsaylı kitablar çap etdirmişlər.

İctimai-siyasi problemləri araşdıran alimlərimiz də "1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində Azərbaycanda ictimai-siyasi hərəkat", "Azərbaycan: dəyişməkdə olan cəmiyyətdə gedən etnik-siyasi proseslər", "Dağlıq Qarabağ hadisələri: kökləri, inkişafı, dərsləri (tarixi-siyasi təhlil)", "Azərbaycanda dövlət və hüquq tarixi", "Azərbaycanda parlamentarizmin yaradılması və inkişafı (Məclisi-məbusandan Milli Məclisə qədər)", "Azərbaycan Respublikası Konstitusiyasında hakimiyyətin bölünməsi prinsipinin həyata keçirilməsi problemləri" və s. mövzularda tədqiqatlar aparmışlar.

İnsan hüquqları sahəsində fəaliyyət göstərən alimlərimiz qiymətli tədqiqatlar aparmaqla yanaşı BMT, Avropa Şurası, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu kimi beynəlxalq qurumlarla, bir sıra xarici ölkələrin müvafiq elmi-tədqiqat müəssisələri, dövlət və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirlər.

Muzey işçiləri xalqımızın mənəvi sərvətlərini qorumaq və dünyaya tanıtmaq kimi bilavasitə vəzifələrini yerinə yetirməklə yanaşı, respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edərək, xalqımızın taleyüklü problemlərinə dair sərgilər təşkil etmiş, həm də maraqlı tədqiqat işləri aparmışlar. Azərbaycan Tarixi Muzeyinin çap etdirdiyi "Azərbaycanda dövlətçilik və onun rəmzləri" kitab-albomu (12 ç.v.) bu baxımdan olduqca qiymətlidir.

Ədəbiyyat, dil və incəsənət sahəsində çalışan alimlərimiz də müstəqillik illərində çoxlu tədqiqatlar üzərində işləmiş, qiymətli əsərlər çap etdirmişlər. Bu əsərlər təkcə Azərbaycan dili, ədəbiyyatı və incəsənəti üçün deyil, həm də bütün türk dünyası üçün, onun zəngin ədəbiyyatı, folkloru, bir-birinə yaxın dilləri, incəsənəti üçün qiymətli tədqiqat işləri sayıla bilər.

1997-ci il yanvarın 31-də Azərbaycan Prezidenti Heydər Əliyev Azərbaycan Elmlər Akademiyası rəhbərliyini və aparıcı alimlərin bir qrupunu qəbul edərək elm sahəsində islahatların aparılmasının vacibliyini təsdiqləmiş, Azərbaycanda elmi inkişaf strategiyasının əsas müddəalarını qəti olaraq müəyyənləşdirmişdi. Bu görüş Azərbaycan elminin və Elmlər Akademiyasının tarixində böyük əhəmiyyət kəsb etməklə elmimizin nüfuzunu yenidən artırdı, onun cəmiyyətdəki rolu və mövqeyini möhkəmləndirdi.

Bu tarixi hadisədən başlayaraq AMEA-nın Rəyasət Heyəti Prezidentimizin tövsiyələrini rəhbər tutaraq Elmlər Akademiyasında islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması, elmi idarə və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə bir sıra qərarlar qəbul etdi və tədbirlər həyata keçirdi; "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.

Yeni istiqamətlərə uyğun olaraq Milli Münasibətlər İnstitutunun adı dəyişdirilərək Beynəlxalq Münasibətlər, Bəhmənyar adına Fəlsəfə və Hüquq İnstitutunun adı isə Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu adlandırıldı. Fəlsəfə kafedrası Fəlsəfə və Hüquq İnstitutundan ayrılaraq AMEA Rəyasət Heyətinin tərkibinə qaytarıldı. İnstitutlarda suveren Azərbaycan dövlətinin tərəqqisi naminə müasir aktual elmi istiqamətlərə uyğun struktur dəyişiklikləri edildi və ştat cədvəli dəqiqləşdirildi. Görülən işlər – elmi potensialdan düzgün və səmərəli istifadə etməyə, paralelizm və təkrardan azad olmağa, ən başlıcası isə Azərbaycan elminin inkişafında alimlərimizin səyləri dünya elmindəki vacib ictimai-siyasi, sosial-iqtisadi və mədəni problemlərin həllinə xidmət edən tədqiqatların aparılmasına yönəldildi.

Demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycan dövləti üçün insan hüquqları və azadlıqları probleminə dair elmi-tədqiqat işlərinin aparılması, elmi, hüquqi tövsiyələrin hazırlanması və bu sahədə biliklərin dərinləşdirilməsi mühüm məsələlərdən biri kimi qarşıda dururdu. Bu



məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1999-cu ilin sentyabrında AMEA İctimai Elmlər Bölməsi nəzdində İnsan hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradıldı.

"Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Azərbaycan Prezidentinin 12 fevral 1999-cu il tarixli sərəncamı müvafiq olaraq AMEA-nın Rəyasət Heyətinin 4 mart və 8 sentyabr 1999-cu il tarixli qərarları ilə Rəyasət Heyəti nəzdində "Naxçıvan Ensiklopediyası"nın 7 nəfərdən ibarət redaksiya heyəti və Tarix İnstitutu nəzdində 5 nəfərdən ibarət Naxçıvan tarixini və mədəniyyətini tədqiq edən elmi qurum yaradıldı.

Ensiklopediyanın 2500-dən çox termini əhatə edən sözlüyü hazırlanıb nəşr edilmiş, onun əsasında məqalələrin 90-95 faizi yazılıb redaktə edilmiş, yapışdırma şəkillər, xəritələr, illüstrasiyalar müəyyənləşdirilmiş, toplanmış, sifariş edilmişdir. Naxçıvan tarixini və mədəniyyətini tədqiq edən elmi qurum təsdiq edilmiş plan əsasında fəaliyyət göstərir.

Dünya ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporunun problemlərini, tarixini dərindən və hərtərəfli tədqiq etmək məqsədilə "Azərbaycan diasporuna kömək haqqında" qərar qəbul edilmiş, Azərbaycanın tarixi, iqtisadiyyatı, ədəbiyyatı, mədəniyyəti, beynəlxalq əlaqələrinə dair elmi-populyar kitablar Azərbaycan, rus və ingilis dillərində nəşr edib xaricdə yaşayan azərbaycanlılara, onların müvafiq cəmiyyətlərinə, təşkilatlarına və səfirliklərə göndərmək nəzərdə tutulmuşdur. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il və "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanlarından irəli gələn tədbirlərin icrasının ardıcıl və mütəşəkkil surətdə həyata keçirilməsi üçün Bakıda Dünya Azərbaycanlılarının Mədəniyyət Mərkəzi yaradılmış, tədqiqatlar konkretləşdirilmiş, soyqırımı xəritələrinin hazırlanması işinə başlanmışdır.

Son illərdə atom energetikasının, radiasiya texnologiyasının inkişafı, müxtəlif praktiki sahələrdə ionlaşdırıcı şüaların geniş tətbiqi ilə əlaqədar radioekoloji nəzarətin təşkili və bu sahədə elmi tədqiqatları genişləndirmək məqsədilə respublikada Radioekoloji Mərkəz yaradılmışdır.

1993-cü ildən AMEA Kiyev şəhərində təsis edilmiş Elmlər Akademiyasının Beynəlxalq Assosiasiyasının üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Fü-

zuli ensiklopediyası" hazırlanması və nəşr edilməsi haqqında verdiyi sərəncamın, 1997-ci il mayın 15-də isə Azərbaycan xalqının qədim tarix və mədəniyyət qaynaqlarından olan "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi haqqında fərmanının icrası ilə əlaqədar tədbirlərə AMEA yüksək səviyyədə, hərtərəfli hazırlıq görülməsini təmin etmişdir.

2001-ci ildə dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin anadan olmasının 800 illik yubileyinin təntənə ilə qeyd olunması münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci il tarixli fərman vermişdir. AMEA-nın Rəyasət Heyəti Nəsirəddin Tusinin 800 illik yubileyinin hazırlanması və keçirilməsi məqsədilə Komissiya yaratmışdır.

2001-ci il iyunun 29-da Akademiyada seçkilər keçirilmişdir. Seçkilər nəticəsində özlərinin hərtərəfli bilikləri və elmə verdikləri töhfələri ilə seçilən alimlər dəstəsi Akademiyanın tərkibinə qəbul edilmişdir. AMEA-nın Nizamnaməsinə uyğun olaraq Akademiyanın yeni prezidenti və Rəyasət Heyəti seçilmişdir. Akademiyanın prezidenti vəzifəsinə yekdilliklə akademik Mahmud Kərim oğlu Kərimov seçilmişdir.

Son 10 ildə AMEA-nın müəssisələrində 1644 mühüm nəticə alınmış, 20000-ə yaxın məqalə (3000-i xaricdə) çap olunmuşdur. 200-ə yaxın doktorluq, 650-ə yaxın namizədlik dissertasiyası müdafiə edilmişdir, 504 iş istehsalata tətbiq olunmuşdur.

AMEA-da birləşən alimlərimiz dövlət başçısı Heydər Əliyevin müstəqil Azərbaycanın hərtərəfli tərəqqisinə xidmət edən islahatlar siyasətini ürəkdən dəstəkləyir və onun həyata keçirilməsində fəal iştirak edirlər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin onuncu ildönümü haqqında" fərmanda ölkəmizin milli dövlətçilik kontekstində irəli sürülən konseptual müddəalar işığında müstəqil dövlətimizin aparıcı təsisatlarından, təməl sahələrindən olan milli təhsil sisteminin də ötən dövrdəki nailiyyətlərindən, nöqsanlarından, problemlərindən, təhsil quruculuğu və islahatın gedişindən, YUNESKO tərəfindən "Təhsil əsri – intellekt əsri" elan edilmiş XXI əsrdə təhsilimizin üstün istiqamətlərindən, perspektivlərindən ətraflı bəhs edilmişdir.

Məlumdur ki, Azərbaycanda təhsilin, pedaqoji fikrin, təlim-tərbiyə ocaqlarının tarixi qədimlərlə, köhnə çağlarla səsləşsə də, müasir, yeni, Avropa tipli məktəblərin əsası, çağdaş milli təhsilimizin təməli XIX əsrin sonlarından qoyulmuş, XX əsrin



əvvəllərində genişlənmiş, "Birinci Respublika" – Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhsil quruculuğu dövlət siyasətinə çevrilmiş, "İkinci Respublika" – Azərbaycan SSR dövründə milli dəyərlərin kifayət qədər nəzərə alınmaması ilə bağlı müəyyən nöqsanlarına baxmayaraq, güclü təhsil sistemi formalaşmış, Azərbaycanın zəngin intellektual potensialı yaranmış, xalqımız kütləvi surətdə maariflənmiş, savadsızlıq ləğv edilmişdir. Bu mərhələdə, xüsusən 70-ci illər – 80-ci illərin birinci yarısında sözün əsl mənasında ölkəmizdə Azərbaycan məktəbi yaranmışdır. Doğma Azərbaycan dilində gənclərə mükəmməl təhsil verən orta və ali məktəb, güclü intellektual potensial formalaşmışdır. Bu, XX əsrdə milli müstəqilliyə aparan yolda xalqımızın əldə etdiyi ən böyük tarixi nailiyyətlərdən biridir.

Bu gün iftixarla demək olar ki, xalqımızı müstəqil inkişaf yoluna hazırlayan bütün sahələrdə olduğu kimi, milli təhsil sahəsində qazanılmış böyük nailiyyətlərdə də Azərbaycanın rəhbəri missiyasını, aradakı kiçik fasilə istisna edilməklə, XX əsrin 30 ildən artıq bir dövrünü öz qüdrətli çiyinlərində uğurla üçüncü minilliyə daşımış böyük şəxsiyyət Prezident Heydər Əliyevin müstəsna xidmətləri vardır.

1991-ci il oktyabrın 18-də 80 il əvvəl itirilmiş dövlət müstəqilliyimizin bərpası ilə Azərbaycan tarixinin yeni bir dövrü, müstəqil inkişaf mərhələsi olan "Üçüncü Respublika" – müstəqil Azərbaycan Respublikası dövrü başlandı. Lakin təəssüflə qeyd olunmalıdır ki, Azərbaycan təhsilinin böyük himayəçisi Heydər Əliyevin yüksək dövlət vəzifələrindən uzaqlaşdırılması ilə onun başladığı və on ildən artıq bir müddətdə uğurla həyata keçirdiyi quruculuq işləri 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində dayandırılmışdı.

1985-ci ildən başlayaraq "yenidənqurma" adı altında keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda gedən ictimai-siyasi proseslər, sonra isə Qarabağ müharibəsinin başlanması təhsilin inkişafında geriləməyə, böhrana geniş yol açdı. Bu proseslər müstəqilliyin ilk illərində, xüsusən 1991-1993-cü illərdə daha da dərinləşdi. Azərbaycan təhsilində müstəqilliyin ilk illərindəki böhranlı vəziyyətin yaranmasının əsas səbəblərindən biri də 1992-ci ilin sonunda qəbul edilmiş "Təhsil Qanunu" olmuşdu. Təhsil quruculuğunda səriştəsizliyin, yalançı pafosun ən bariz nümunəsi olan həmin qanun təhsilimizə vurulan ağır zərbə idi. Prezident Heydər Əliyev bu barədə danışarkən demişdir: "Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş "Təhsil Qanunu" ilə böyük zərbə vurulmuş-

dur". Əslində, 1991-1993-cü illər milli müstəqilliyimizin qorunması yolunda, digər sahələrdə olduğu kimi, təhsil sferasında da itirilmiş illər sayılır.

Yalnız millətin xilaskarı, böyük maarifpərvər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdışı ilə təhsil sistemində də tənəzzülə son qoyuldu.

Heydər Əliyevin tarixi qayıdışından sonra ölkədə hazırlanan və həyata keçirilən strateji xətt təhsil müəssisələrini normal fəaliyyət halına gətirməklə, təhsilin milli tərəqqimizin həqiqi, güclü amilinə çevrilməsi üçün bu sahədə geniş islahatlar proqramının işlənib hazırlanması və həyata keçirilməsi vəzifəsini irəli sürdü. Təhsil sahəsində islahatlar aparılmasının dövlət təminatı gücləndirildi. Bu məqsədlə ölkə prezidenti 1998-ci ilin martında "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası yaradılması haqqında" sərəncam imzaladı. Dövlət Komissiyası tərəfindən çox qısa müddətdə "Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı" hazırlandı, hərtərəfli müzakirələrdən sonra təkmilləşdirilmiş variantda 1999-cu ilin iyununda dövlət başçımız tərəfindən imzalandı və qüvvəyə mindi. Həmin proqram Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını vacib saysa da, eyni zamanda milli təhsil ənənələrimizə sədaqətin və varisliyin də parlaq təzahürünə çevrildi, respublikamızda heç bir başqa ölkənin təhsil sisteminin olduğu kimi tətbiq edilməsinin yol verilməzliyini göstərdi.

İslahat Proqramının üç mərhələdə (1999-cu il; 2000-2003-cü illər; 2004-cü ildən sonrakı dövr) həyata keçirilməsi və bu mərhələlərdə 130-a qədər konkret tədbirin reallaşdırılması nəzərdə tutulmuşdur.

İslahatın aparılmasının hüquqi-normativ bazasını yaratmaq məqsədilə indiyədək hazırlanmış 142 normativ-hüquqi sənəddən artıq 100-ü təsdiq edilib istifadəyə verilmişdir.

Hazırda "Təhsil Qanunu"nun yeni layihəsi geniş müzakirələrdən sonra Milli Məclisin təsdiqinə verilmişdir. Yeni qanun islahat prosesinin hüquqi-normativ bazasının tam formalaşmasını təmin edəcəkdir.

Prezidentin "İnsan, təhsilinin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb... xüsusi yer tutmalıdır", – konseptual göstərişi əsas tutularaq ümumi orta təhsilin ahəngdar inkişafı dövlət təhsil siyasətində aparıcı, həlledici yer tutur. Azərbaycan Respublikasının Konstitusiyasında (maddə 42) deyilir ki, dövlət bütün vətəndaşlara pulsuz icbari ümumi



orta təhsil almaq hüququnu təmin edir. Ölkə əhalisinin təxminən 20 faizini təşkil edən ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə dövlət təminatına mərhələlərlə (hələlik 1-4-cü siniflərdə) keçilməsi haqqında qərar 1994-cü ildə məhz Prezidentimizin təşəbbüsü ilə qəbul edilmişdir.

Azərbaycan təhsil tarixində ilk dəfə ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1999-cu ildə hazırlanıb təsdiq edilib. Şagirdlərin yaş və fizioloji xüsusiyyətləri nəzərə alınmaqla hazırlanan bazis tədris planı çoxvariantlı işçi tədris planlarının tətbiqinə, şagirdlərin meyl və maraqlarının nəzərə alınmasına imkan vermişdir.

Ümumtəhsil məktəblərinin yeni milli dərsliklərinin yaradılması istiqamətində ciddi addımlar atılmışdır. Hazırda ümumtəhsil məktəblərinin 1-4-cü sinifləri üzrə dərsliklərin 90 faizi, 5-11-ci siniflər üzrə 75 faizindən çoxu məzmunca yeniləşdirilmişdir. Ümumiyyətlə, 1993-2001-ci illər ərzində ümumi təhsilin müxtəlif pillələri və müxtəlif tipli məktəblər üzrə 200-ə yaxın adda 12 milyon nüsxədən artıq orta məktəb dərsliyi latın qrafikası ilə nəşr edilərək istifadəyə verilmişdir. Hazırda Təhsil Nazirliyində "Dərsliklərin hazırlanması, nəşri və təminatı sahəsində Dövlət Proqramı"na uyğun olaraq dərslik islahatı uğurla davam etdirilir.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri müstəqilliyimizin yaşıdı olan yeni əlifbaya keçilməsi – latın qrafikalı əlifbanın tətbiqinin reallığa çevrilməsidir. Böyük fəxrlə qeyd etmək olar ki, Prezidentin "Bizim bu günümüz, gələcəyimiz məhz latın əlifbası ilə bağlıdır" tarixi çağırışı hələlik yalnız təhsil sistemində özünün tam həllini tapmışdır.

Son 10 ildə təmayüllü siniflərə, yeni tipli tədris müəssisələrinə diqqət xeyli güclənmişdir. Hazırda ölkədə istedadlı şagirdlərin təhsil aldığı 41 litsey və gimnaziya fəaliyyət göstərir ki, onlarda 17558 şagird təhsil alır. İstedadlı uşaqlara dövlət qayğısının artması üçün hüquqi bazanın möhkəmləndirilməsində ölkə prezidentinin imzaladığı "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərmanı böyük rol oynamışdır. Həmin fərmanla Azərbaycanın gənc istedadlarının "Qızıl Kitab"ının və Prezidentin xüsusi təqaüdünün təsis olunması bu sahədə aparılan işlərə güclü təkan vermişdir.

Müstəqillik illərində ümumi orta təhsil müəssisələrinin şəbəkəsi də yüksələn xətlə inkişaf edərək, hətta ölkədə daxili siyasi sabitliyin tam bərqərar olduğu 1995/96-cı dərs ili ilə müqayisədə belə xeyli artmışdır. Belə ki, əgər 1995/96-cı dərs ilində respublikada 4494 ümumtəhsil müəssisəsi (erməni təcavüzü

nəticəsində dağıdılmış 616 ümumtəhsil məktəbi istisna edilməklə) fəaliyyət göstərirdisə, 2000/2001-ci dərs ilində onların sayı 4561-ə çatmışdır.

Əldə olunmuş böyük uğurlardan biri milli təhsilimizin mühüm sahəsi olan texniki peşə məktəblərinin qorunub saxlanmasıdır. Azərbaycan Prezidentinin tapşırığı ilə 1996-cı ildə respublika hökuməti "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi tədbirləri haqqında" qərar qəbul etdi; peşə məktəbləri və peşə litseyləri yaradıldı. Hazırda ölkədə 108 ibtidai peşə təhsili müəssisəsi, o cümlədən 47 peşə litseyi, 61 peşə məktəbi fəaliyyət göstərir ki, bunlarda 115 peşə üzrə 25 minə yaxın şagird təhsil alır.

Müstəqillik illərində ali təhsil pilləsi də həm məzmun, həm struktur, həm də kəmiyyət baxımından inkişaf yolu keçib. Azərbaycan ali təhsili tarixində ilk dəfə olaraq 1993/94-cü dərs ilindən etibarən iki pilləli ali təhsilə – 4 illik bakalavriat və 2 illik magistraturaya keçilmişdir. Dövlət ali məktəblərinin sayı 17-dən 2001-ci ildə 30-a çatmışdır. Ali məktəblərimiz həm də sanballı elm mərkəzlərinə çevrilmişdir. Son 10 ildə rəsmi dövlət qeydiyyatından keçmiş 18 qeyri-dövlət ali təhsil müəssisəsi də fəaliyyət göstərir.

Ali təhsil sahəsində yeniliklərdən biri də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə ölkənin 4 aparıcı ali məktəbinə – Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi; bir neçə ali məktəbə isə "Universitet" statusu verilmişdir. Həmin fərmanla təhsil sistemində indiyədək ölkəmizdə analoqu olmayan ali tədris müəssisəsi – Azərbaycan Müəllimlər İnstitutunun və onun 12 bölgədə regional filiallarının yaradılması islahat istiqamətində atılan uğurlu addımlardandır.

Hazırda respublika təhsil sistemində 1814 məktəbəqədər tərbiyə müəssisəsi, 4561 ümumtəhsil məktəbi, 393 məktəbəqədər tərbiyə müəssisəsi, 108 peşə litseyi və peşə məktəbi, 72 orta ixtisas təhsili (4-ü qeyri-dövlət), 48 ali təhsil müəssisəsi (18-i qeyri-dövlət, 6-sı xüsusi təyinatlı) fəaliyyət göstərir. Bu gün Azərbaycanın məktəbəqədər tərbiyə müəssisələrində 112280 uşaq tərbiyə, ümumtəhsil məktəblərində 1 689 682 şagird, texniki peşə müəssisələrində 24454 şagird, orta ixtisas məktəblərində 42598 tələbə, ali təhsil müəssisələrində isə 123329 tələbə təhsil alır.



Müstəqillik illərində təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Bu gün dünyanın inkişaf etmiş 40-a yaxın ölkəsində 160-a yaxın ixtisas üzrə 3000-dən artıq azərbaycanlı gənc təhsil alır, təqribən 50 xarici ölkədən isə Azərbaycanın müxtəlif ali məktəblərində 2000-dən çox tələbə, magistr, aspirant təhsil almaqdadır. Bu gün xarici əlaqələr sahəsində əsas strateji məqsəd hər bir ali təhsil müəssisəsinin beynəlxalq fəaliyyət subyektinə çevrilməsinə imkan yaratmaqdan, Avropa İqtisadi Birliyinin, YUNESKO-nun və digər beynəlxalq təşkilatların müxtəlif təhsil proqramları və layihələrində iştirak etməkdən ibarətdir.

XXI əsrin əvvəlində Azərbaycan Respublikası dünyanın 30-dan çox ölkəsi ilə ali təhsil sahəsində geniş miqyaslı əməkdaşlıq edir.

Müstəqillik illərində təhsilin inkişafına ayrılan büdcə vəsaitinin ardıcıl olaraq artması (1995-ci ildə ümumi dövlət büdcəsinin 17 faizini, 2001-ci ildə isə 23 faizini təşkil etmişdir) 1993-2001-ci illərdə təhsil işçilərinin əmək haqqını 9 dəfə artırmağa imkan vermişdir.

Müstəqil Azərbaycanda təhsil islahatının aparılmasında mühüm uğurlardan biri Dünya Bankının maliyyə dəstəyi sayıla bilər. Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyasından alınan Öyrənmə və İnnovasiya krediti ilə 1999-cu ilin sentyabrından Azərbaycanda Təhsil İslahat Proqramının həyata keçirilməsinə başlanmışdır. Kredit müqaviləsini Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti bağlamışdır. Layihəni 2002-ci ilədək başa çatdırmaq nəzərdə tutulub. Bu sahədə Təhsil Nazirliyi Dünya Bankı ilə əlaqələri genişləndirmək istiqamətində danışıqlar aparmış, 2002-2011-ci illərdə Azərbaycanda təhsilin inkişafı üzrə strateji istiqamətləri müəyyənləşdirmişdir.

Deyilənlər göstərir ki, hazırda dünya təcrübəsi də öyrənilməklə Azərbaycanda təhsil sisteminin inkişafı üçün məqsədyönlü işlər görülür.

Əminik ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq milli təhsil quruculuğu sahəsində başladığı lazımi islahatları uğurla başa çatdıracaq, təhsil islahatının memarı və qurucusu Heydər Əliyevin müdrik tövsiyələrini əzmlə həyata keçirəcəkdir.

## § 2. Mədəniyyətin inkişafı

XX əsr Azərbaycan xalqının həyatında silinməz izlər qoymuşdur. Əslində yüzilliklərin, minilliklərin qovuşuğunda yeni bir Azərbaycan təşəkkül tapmışdır. Xalqımızın tarixi taleyi elə imkan yaratmışdır ki, son yüzillikdə Azərbaycan köhnə dünyadan sürətlə qopmuş, elm, mədəniyyət, səhiyyə, təhsil, ictimai-siyasi intibah yolunu tutmuşdur.

Bu gün böyük bir millətin üzvü kimi hər bir azərbaycanlı fəxr edə bilər ki, ata-babalarımız olduqca qısa bir zaman ərzində kütləvi savadsızlığa son qoymuş, vətənimiz bütün insanları oxuyub-yazmağı bacaran savadlılar diyarına çevrilmişdir. Vətənpərvər və təəssübkeş ziyalılarımızın vətəndaş fəallığı sayəsində Şərqdə ilk teatr, ilk opera, ilk kino və sair Azərbaycanda meydana gəlmişdir. Kütləvi surətdə savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq Azərbaycan xalqının mənəviyyatını da, həyat tərzini də, xarici görünüşünü də dəyişmiş, onu inkişaf edən dünyaya qovuşdurmuşdur.

Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi olmuşdur. Bu gün Azərbaycanın təhsili, mədəniyyəti, ümumiyyətlə, iqtisadi, sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələri dünya sivilizasiyasına tam cavab verən bir səviyyədədir.

Əsrin əvvəlində əldə etdiyimiz müstəqilliyin 70 illik ayrılıqdan sonra yenidən özümüzə qayıtdığı son 10 ildə minilliklərdən süzülüb gələn mədəniyyətimizin doğma qaynaqlara söykənməklə ümumbəşəri dəyərlərə qovuşması üçün əsl mənada münbit zəmin təmin edilmişdir. Soykökə qayıdış, millətimizin özünü dərk etməsi, xalqımızın və dövlətimizin sivil bəşəriyyətin birgəyaşayış qaydalarını mənimsəmək prosesi gücləndikcə Azərbaycan xalqının malik olduğu ümumbəşəri mədəniyyətin təntənəsi daha aydın nəzərə çarpır. Müstəqilliyimizin on ili ərzində mədəniyyət işçilərimizin qazandığı uğurlar, bütövlükdə mədəni həyatımız belə deməyə əsas verir ki, XX əsr həqiqətən tarixə mədəniyyətimizin təntənəsi ilə daxil olmuşdur.

XX əsrdə yaşayıb-yaradan sənətkarlarımızın, mədəniyyət və incəsənət xadimlərimizin layiqli həyat yolu bir daha sübut etdi ki, Qobustanın qaya təsvirlərindən, Azıx mağarasından başlayaraq mənəvi dəyərlərimiz "Kitabi – Dədə Qorqud"la, Xaqani Şirvani və Nizami Gəncəvi ilə, Qazi Bürhanəddin və Nəsimi ilə, Şah İsmayıl Xətayi və Məhəmməd Füzuli ilə, "Şah İsmayıl", "Koroğlu", "Aşıq Qərib", "Abbas və Gülgəz" dastanları ilə necə qiymətlidirsə, ötən əsrin mənəvi sərvətləri ilə də bir o qədər uca və şöhrətlidir. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Mikayıl Müşfiq, Cəfər Cabbarlı, Səməd Vurğun və Rəsul Rza, İlyas Əfəndiyev və Bəxtiyar Vahabzadə, Üzeyir Hacıbəyov və Müslüm Maqomayev, Bülbül, Şövkət Məmmədova və Niyazi, Qara Qarayev və Fikrət Əmirov, Rauf Hacıyev və Tofiq Quliyev, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və Rza Təhmasib, Sidqi Ruhulla, Ədil İsgəndərov, Mehdi Məmmədov və Ələsgər Ələkbərov, Mərziyə Davudova, Hökumə Qurbanova və Leyla Bədirbəyli, Səttar Bəhlulzadə, Mikayıl Abdullayev və Tahir Salahov... Adları gələcək minilliklərə ərməğan olacaq sənətkarların bu nəsli artıq XX əsrin mədəniyyət tarixində qızıl sətirlərə dönmüşdür.

Azərbaycan mədəniyyəti bu gün həmin qaynaqlardan qidalanaraq özünün böyük hamisi Prezident Heydər Əliyevin qayğı və diqqəti sayəsində daha möhtəşəm bir dövrünü yaşayır. Müstəqillik dövründə tarixi şəxsiyyətlərimizin, milli mədəniyyətimizin görkəmli nümayəndələrinin, habelə ayrı-ayrı milli bayramların və tarixi günlərin qeyd edilməsi ilə bağlı tədbirlər dövlət başçımızın imzaladığı fərman və sərəncamlarla keçirilir. Bu sənədlərə əsasən görkəmli şəxsiyyətlərimizin adı ilə, tarixi hadisələrlə bağlı yeni küçələr, meydanlar salınır, muzeylər açılır, müxtəlif nəşrlər çap olunur, sənət ustalarımız ölkəmizin ali mükafatları ilə təltif edilir, onların istedadı, mədəniyyətimizin inkişafında xüsusi yeri və rolu bir daha təsdiq olunur.

Ən sevindirici olanı budur ki, Azərbaycan artıq öz mədəniyyəti, ədəbiyyatı və incəsənəti, şəxsiyyətləri ilə dünya meridianlarına çıxır. Prezidentimizin müvafiq fərmanları ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinin Fransada, Türkiyədə, İraqda, İranda və Rusiyada, dünya şöhrətli Bülbülün 100 illik yubileyinin Moskvada, Tbilisidə və Ankarada, məşhur bəstəkar Qara Qarayevin 80 illik yubileyinin Moskvada və Parisdə, görkəmli müğənni Rəşid Behbudovun 80 illik yubileyinin Moskvada, türk xalqlarının Ana kitabı olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin Parisdə – YUNESKO-nun iqamətgahında yüksək səviyyədə qeyd olunması müstəqil Azərbaycanı yenidən dünyaya tanıtmışdır.

Hazırda Azərbaycanda 27 professional teatr, 50-dək xalq teatrı və özəl teatr, 13 konsert təşkilatı fəaliyyət göstərir. Mədəniyyət Nazirliyi sistemində 2 böyük simfonik orkestr, xalq çalğı alətləri orkestri, bir neçə kamera və estrada kollektivi var. Ölkə-

miz üçün ən çətin məqamlarda Prezidentimizin köməyi ilə Opera və Balet Teatrının, balet truppasının, Azərbaycan Dövlət Simfonik Orkestrinin, Dövlət Xor Kapellasının, Dövlət Rəqs Ansamblının qorunub saxlanması, üstəlik də yeni Xalq Çalğı Alətləri Orkestrinin yaradılması həqiqətən əsl incəsənətə vurğunluq, bu yolda fədakarlıq nümunələri sayıla bilər.

Bu gün Mədəniyyət Nazirliyi sistemində 3275 klub müəssisəsi, 4313 kitabxana, 61 mədəniyyət və istirahət parkı fəaliyyət göstərir. Xalqımızın mənəvi sərvətlərinin qoruyucusu, tədqiqatçısı və təbliğatçısı olan 137 muzey, 27 dövlət şəkil qalereyası və 2 bədii sərgi salonunda əsrin nailiyyətləri öz əksini tapır. Bakı Musiqi Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti, Bakı Xoreoqrafiya Məktəbi, musiqi, rəssamlıq texnikumları, 300-ə yaxın uşaq musiqi, rəssamlıq və incəsənət məktəbləri Azərbaycan mədəniyyətinin gələcəyini yaşadacaq kadrlar hazırlayır.

Yaxın və uzaq xariclə mədəni əlaqələr əsrin son illərində geniş vüsət almışdır. Hər il Azərbaycan mədəniyyəti və incəsənəti dünyanın bir çox ölkələrində geniş nümayiş etdirilir və özünə hər dəfə çoxlu təzə pərəstişkarlar tapır.

Ölkə daxilində keçirilən yubiley tədbirləri dövlət başçımızın mədəniyyətimizin tərəqqisinə göstərdiyi daimi qayğını əks etdirir. Təkcə 2000-ci ildə keçirilmiş yubileylər və dövlət əhəmiyyətli tədbirlər sadalanarsa, uzun bir siyahı alınar. Bu siyahıya Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Səməd Vurğunun anadan olduğu tarixi günlər, Əbdürrəhim bəy Haqverdiyevin 125 illiyi, tarzən Qurban Pirimovun 120 illiyi, xalq artistləri Möhsün Sənani və Məmmədəli Vəlixanlının 100 illiyi, Leyla Bədirbəylinin 80 illiyi, görkəmli rejissor və pedaqoq Tofiq Kazımovun 75 illiyi, pianoçu Vaqif Mustafazadənin 60 illiyi və öz həyatlarını milli mədəniyyətimizin inkişafına həsr etmiş adlarını çəkə bilmədiyimiz onlarca digər sənətkarımızın yubileyləri daxildir.

Belə bir faktı da qeyd etmək yerinə düşər ki, təkcə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi münasibətilə Nəbi Xəzrinin Akademik Milli Dram Teatrında tamaşaya qoyulan "Burla xatun" pyesi, Əzəl Dəmirçizadənin Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında hazırlanan "Qaraca çoban" pyesi, "Yuğ" Dövlət Teatrında səhnələşdirilən "Dürlü xəbər", Şəki Dövlət Dram Teatrında "Dirsə xan oğlu Buğac" tamaşaları teatrsevərlərə milli soykökümüzün zənginliyini bir daha aşıladı. "Respublika" Sarayında xalq yazıçısı Anarın ssenarisi əsasında səhnələşdirilən təntənəli gecədə Azərbaycanın görkəmli incəsənət



ustaları, Bülbül prospektindəki Fəvvarələr Meydanında keçirilən şənliklərdə isə folklor kollektivləri, sirk ustaları çıxış edərək tədbirin möhtəşəmliyini artırmışdılar. Dünyanın müxtəlif ölkələrindən gələn qonaqlar bu tədbirlərin fonunda Azərbaycan adlı ulu məmləkəti yenidən tanıdılar.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 3 ildən bir keçirilən Bülbül adına Vokalçıların Beynəlxalq Müsabiqəsi artıq dünya musiqiçilərinin nüfuzlu yarışına çevrilmişdir. 2000-ci ildə keçirilən ikinci müsabiqədə 11 ölkədən (Rusiya, Ukrayna, Gürcüstan, Türkiyə, Moldova, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Çin, Koreya Respublikası və Azərbaycan) 78 vokalçı iştirak etmişdir. Müsabiqədə Qran-Pri mükafatına həmyerlimiz Eldar Əliyev, üçüncü mükafata Fəridə Məmmədova, "Artistlik məharətinə görə" mükafatına Seymur Kərimov, "Ümid" prizinə Timur Abdigeyev layiq görülmüşlər.

Xalqımızın əsrlərlə qoruyub saxlaya bildiyi mədəni dəyərlər sırasında qüdrətli teatr sənəti öz qabaqcıl mövqeyini müstəqillik illərində daha da inkişaf etdirmişdir. Hər il teatr müəssisələrində 100-110 yeni tamaşa hazırlanır. Yeni dramaturqlar, teatrlar üçün işləyən yeni bəstəkarlar, rəssamlar yetişir. Teatr kollektivlərinin xarici dövlətlərdə, o cümlədən Moskvada, Sankt-Peterburqda, Ufada, Tiflisdə, Rustavidə, Ankarada, İstanbulda, İzmirdə, Bayburtda, Tehranda, Dehlidə, Havanada, Praqada, Sofiyada keçirilən beynəlxalq festivallarda uğurlu iştirakı, xarici ölkələrə uzun müddətli qastrol səfərləri sübut edir ki, milli teatrımız inkişaf və tərəqqi yolundadır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının yaradıcılığı, son illərdəki bədii axtarışları respublika ictimaiyyətinin daim diqqət mərkəzindədir. Teatrın hazırladığı bir çox tamaşalar müasir tələblərə cavab verən səhnə tərtibatı, habelə, rejissor, xoreoqraf, dirijor və rəssamın işbirliyindən yaranan yüksək sənət əsərləri kimi tamaşaçılar və musiqi ictimaiyyətimiz tərəfindən rəğbətlə qarşılanır.

Ötən on il ərzində respublikamıza, onun incəsənət dünyasına maraq daha da artmış, planetin ən müxtəlif ölkələrinin tanınmış kollektivləri və ifaçıları qastrol proqramları ilə Azərbaycana gəlmiş, milli səhnəmizin ustad sənətkarları ilə birlikdə çıxış etmişlər. Onların arasında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviç, belçikalı dirijor Jan Beyli, Amerika pianoçusu Nikolay Suk, dünya balet ustası Maya Plisetskaya, İqor Moiseyevin rəhbərlik etdiyi Rusiya Dövlət Rəqs Ansamblı, Fransa və Türkiyənin teatr sənəti ustaları, Çin Xalq Respublikasının rəqs

kollektivi və bir çox başqa sənət adamlarının və kollektivlərinin adlarına rast gəlmək olar.

Bu gün dünyada milli ifaçılarımızın yaradıcılığına da maraq çox artmışdır. Alim Qasımov, Səkinə İsmayılova, Brilyant Dadaşova, Aygün Kazımova, Zülfiyyə Xanbabayeva, Nazpəri Dostəliyeva və Almaz Ələsgərovanın, "Aşıqlar" qrupunun "Respublika" Sarayında dünya standartları səviyyəsində solo konsertləri bir daha sübut etdi ki, ifaçılıq sənətimizin taleyi etibarlı əllərdədir.

Bənzərsiz xanəndə Alim Qasımov muğam sənətinin inkişafındakı xidmətlərinə görə 1999-cu ildə YUNESKO Milli Şurasının ali mükafatına və "Pikasso-miro" qızıl medalına layiq görülmüşdür. Bu mükafatın vaxtilə Dmitri Şostakoviçə, Leonard Bernstayna, Ravi Şankara təqdim edildiyi nəzərə alınarsa, o zaman görkəmli xanəndəmizin necə yüksək mükafata layiq görüldüyünü təsəvvür etmək çətin deyildir. Bu isə ilk növbədə Azərbaycan milli mədəniyyətinin böyük uğuru sayıla bilər. Bunu da qeyd etməyə dəyər ki, Alimin uğuru tək deyildir. Bu gün Azərbaycanın incəsənət ustalarının sorağı dünyanın ən müxtəlif ölkələrindən eşidilir.

Fransada böyük bəstəkar Gektor Berliozun vətəni La Kont Sent-Andre şəhərində 7-ci Beynəlxalq Musiqi Festivalında Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik orkestrinin böyük qələbəsi ölkəmizdə böyük iftixar hissi ilə qarşılandı. Festivalda orkestrin ifasında digər sənət korifeyləri ilə yanaşı Üzeyir Hacıbəyovun, Fikrət Əmirovun, Qara Qarayevin də əsərləri səslənmişdi. Tamaşaçılar onların musiqisinə heyran qaldıqlarını bildirmiş, bu böyük sənət korifeylərimizi dünyanın musiqi dühaları ilə müqayisə etmişdilər. O günlərin unudulmaz hadisələrindən biri də xalq artistimiz Fərhad Bədəlbəylinin Fransanın yüksək "Şevalye" Ədəbiyyat və İncəsənət ordeni ilə təltif edilməsi olmuşdu. Yeri gəlmişkən, möhtərəm Prezidentimizin şəxsi göstərişi ilə Azərbaycan nümayəndə heyəti üçün xüsusi təyyarə ayrılmışdı ki, Fransanın kütləvi informasiya vasitələrində bu hadisə Heydər Əliyevin mədəniyyətə böyük qayğısı kimi qiymətləndirilmişdi.

Azərbaycan incəsənət ustalarının "Ekspo-2000" Ümumdünya sərgisində bənzərsiz çıxışları müstəqil dövlətimizin mədəniyyət sahəsində əldə etdiyi uğurlardan sayıla bilər. Almaniyanın Hannover şəhərində Azərbaycan Dövlət Kamera Orkestrinin, Dövlət Rəqs Ansamblının, Dövlət Mahnı Teatrının, Azərbaycanın tanınmış sənətkarları xalq artistləri Qərinə Kərimovanın, Təranə



Muradovanın, əməkdar artistlər Əli Əsgərovun, Bilal Əliyevin, Gülyaz və Gülyanaq Məmmədovaların çıxışları mədəniyyətimizə yeni şöhrət gətirdi. Planetin 174 ölkəsinin və 34 beynəlxalq təşkilatının təmsil olunduğu sərginin Baş Komissarlığı Azərbaycan Respublikasının mədəniyyət proqramını ayrıca qeyd edərək, dünya ölkələri arasında ən güclü bədii proqramlar sırasına daxil etdi. Sərginin Təşkilat Komitəsi mədəniyyət xadimlərimizin istedadını xüsusi sertifikatla qiymətləndirdi.

Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar Sarayı və Qız Qalası daxil olmaqla İçəri Şəhər Dövlət Tarix Memarlıq Kompleksi YUNESKO-nun "Dünya mədəni irs siyahısı"na daxil edilmişdir. Bu, respublika rəhbərliyinin qayğısı ilə əhatə olunan Azərbaycan elminin və mədəniyyətinin böyük uğuru və qələbəsi sayıla bilər.

Son illərdə mədəniyyətimizi təbliğ etmək məqsədilə Respublika Mədəniyyət Nazirliyi xətti ilə Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı şirkətlərlə müştərək layihələr də yaradılır və həyata keçirilir. Bakıda yerləşən "ASIR" şirkəti ilə birgə fəaliyyət nəticəsində 2000-ci ildə Azərbaycan musiqisi incilərindən ibarət "Küləklər və Odlar musiqisi" adlı nəfis tərtibatlı kompakt-disk buraxılmışdır. Musiqinin müxtəlif janrlarını əhatə edən bu diskdə ilk dəfə olaraq milli mədəniyyətimizin görkəmli nümayəndələri – Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Rauf Hacıyev, Tofiq Quliyev, Bülbül, Rəşid Behbudov, Şövkət Ələkbərova, Rafiq Babayev, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, Fidan Qasımova, Xuraman Qasımova, Alim Qasımov və başqa sənətkarların yaradıcılığı bir yerdə sənətsevərlərə təqdim olunur.

Türkiyənin "Kaspian Trans KO İNK" firması ilə Mədəniyyət Nazirliyi üç ildir ki, "Xalq yaradıcılığı – milli sərvətdir" devizi ilə xalq sənətkarlarının əl işlərinə Respublika baxış müsabiqəsini keçirir. Məqsəd ənənəvi el sənətlərini yaşatmaq, əhalini bu sahəyə cəlb etmək, istedadlı xalq sənətkarlarını aşkara çıxarmaqdır. Artıq bu sahədə müəyyən işlər görülmüşdür. 2000-ci ildə keçirilən üçüncü müsabiqənin yekun turunda respublikamızın 52 şəhər və rayonundan 569 nəfər el sənətkarı iştirak etmişdir.

Bütün deyilənlər bir daha təsdiq edir ki, qədim tarixi və mədəniyyəti olan Azərbaycan xalqı yenidən müstəqillik qazandıqdan sonra dünya birliyində öz layiqli yerini tutmaq üçün digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı sahəsində də çox uğurlu addımlar atmışdır və XXI əsrin ilk onilliklərində dünyanın ən mədəni millətlərindən birinə çevrilmək əzmindədir.

Prezidentimizin bəstəkar, yazıçı, şair, aktyor, müğənni, rəssam əməyinə verdiyi yüksək qiymət sayəsində ölkəmizin yüzlərlə sənətçisi xalq şairi, xalq yazıçısı, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi kimi müxtəlif fəxri adlara layiq görülmüşdür. Heydər Əliyev sənətkarların qayğılarına hər zaman diqqətlə yanaşır, onlara maddi və mənəvi dayaq olur. Prezidentimiz ölkənin maliyyə çətinlikləri ilə üz-üzə durduğu bir vaxtda da sənət adamlarından öz qayğısını əsirgəmədi. Həyatını milli mədəniyyətimizin və elmimizin inkişafına, istedadını və və ömrünü xalqına həsr edən 60 nəfərə yaxın görkəmli mədəniyyət və incəsənət xadimi adamı Prezidentimiz tərəfindən təsis edilmiş xüsusi təqaüdə layiq görüldü.

Təkcə XX əsrin son 4 ili ərzində Prezident fərmanı ilə Dövlət Simfonik Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının əmək haqlarının dörd dəfə, balet artistlərinin əmək haqlarının isə beş dəfə artırılması bu sahədə çalışanlara əsl dövlət qayğısı olmuşdur. Prezidentimizin bu kollektivlərin malik olduğu imici saxlamaq, onların milli sərvət kimi nüfuzunu artırmaq, qorumaq, təbliğ və inkişaf etdirmək sahəsindəki qayğısı bu fərmanlarla bir daha təsdiq edilmişdir.

Son illərdə ölkədə keçirilən müxtəlif müsabiqələr, mahnı bayramları xalq yaradıcılığına əsl baxış olmuşdur. Bu müsabiqələrdə uğur qazanan gənc istedadlara sonsuz qayğı və diqqət Azərbaycan mədəniyyətinin inamlı sabahı deməkdir. Prezidentimiz tərəfindən təsis edilmiş "Qızıl Kitab"a adları düşən və hər biri xüsusi təqaüdə layiq görülmüş gənc sənətçilərə milli mədəniyyətimizi XXI əsrdə inkişaf etdirmək nəsib olacaqdır.

Azərbaycanda muzey işinin inkişafında da ölkə başçısı Heydər Əliyevin böyük əməyi vardır. Onun muzey işinə qayğısı nəticəsində muzeylərimizdə həmişə yeni ekspozisiyalar yaradılır və mövcud ekspozisiyalar zənginləşdirilir.

Görkəmli şəxsiyyətlərin xatirə muzeylərinin yaradılması Prezidentimizin fəaliyyətində mühüm yer tutur. Məhz Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Bakı şəhərində Azərbaycan mədəniyyəti, ədəbiyyatı və incəsənətinin çox görkəmli nümayəndələri – dahi bəstəkar Üzeyir Hacıbəyovun, xalq şairi Səməd Vurğunun, böyük dramaturq Cəfər Cabbarlının, yazıçı və ictimai xadim Nəriman Nərimanovun, Azərbaycanda professional vokal sənətinin banisi Bülbülün, böyük yazıçı, "Molla Nəsrəddin" jurnalının naşiri Cəlil Məmmədquluzadənin, böyük bəstəkar və dirijor Niyazinin, Naxçıvanda böyük ədib və dramaturq



Hüseyn Cavidin xatirə muzeyləri açılmış, Tbilisidə M.F.Axundovun ev-muzeyi yaradılmışdır.

Heydər Əliyev M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının fəaliyyəti və problemləri ilə daim maraqlanmış, son illərdə bir neçə dəfə burada olmuş, öz şəxsi kitabxanasından 300-dən artıq qiymətli ədəbiyyatı kitabxanaya bağışlamışdır.

Əlbəttə, möhtərəm Prezidentimizin mədəniyyətimizə göstərdiyi yüksək qayğıya dair belə misallar, faktlar olduqca çoxdur. Lakin elə burada sadalanan və ən qısa xülasə xarakteri daşıyan məlumatlardan da göründüyü kimi, Prezident Heydər Əliyevin şəxsi qayğısı nəticəsində ölkəmizdə mənəvi dəyərlərimizin qorunması və daha da zənginləşdirilməsinə, əhalinin bu dəyərlərə qovuşmasına daim gözəl imkan yaranmışdır.

Bütün bunlar qəti olaraq belə bir inam yaradır ki, Azərbaycan mədəniyyəti XXI əsrdə ölkə prezidentinin qayğısı sayəsində hələ çox uğurlar qazanaraq dünyanı heyrətdə qoyacaqdır.

### § 3. Milli-mənəvi dəyərlərin qorunması

Azərbaycan Respublikasının Prezidenti, dünyanın sayılıb-seçilən siyasətçi və dövlət xadimlərindən biri Heydər Əliyevin müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumundakı nitqində söylədiyi "Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün Vətəni sevməlidir, ölkəni sevməlidir, torpağı sevməlidir, xalqımızı sevməlidir, millətimizi sevməlidir, dilimizi sevməlidir, dinimizi sevməlidir, milli ənənələrimizi sevməlidir", – sözlərində milli-mənəvi dəyərlərə verilən yüksək qiymət öz parlaq ifadəsini tapmışdır, yəni bunlardan yaranan ümumi fikir tərif, yaxud ensiklopedik ədəbiyyata xas olan definisiya formasında elə dəqiq deyilmişdir ki, onu nə dəyişmək, nə də başqası ilə əvəz etmək olar. Çox güman, bu sözlər belə ardıcıllıqla ona görə seçilmişdir ki, onlardan doğan ülvi mənalar müstəqilliyimizi itirdiyimiz 200 ilə yaxın bir dövrdə (əlbəttə, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq mövcudluğu istisna edilməklə) həmişə ürəklərdə yaşamış, qövr eyləmiş, lakin heç vaxt sönməmiş və unudulmamışdır. Müstəqil yaşadığımız, millətlər içində imzamızın olduğu indiki xoşbəxt günlərimizdə o hissləri bir daha yada salaraq, onların qədrini daha çox bilmək üçün səylərimizi bir qədər də artırmalıyıq.

Heç də təsadüfi deyildir ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli-demokratik hərəkatın genişləndiyi bir zamanda çar mütləqiyyətinin müstəmləkəçilik siyasətinin qismən də olsa qarşısını almaqda, vahid mentalitet əsasında formalaşmış mənəviyyatımızın amansız təcavüzlərdən qorunmasında məhz yuxarıda sadalanan, millət kimi varlığımızı nümayiş etdirən milli-mənəvi dəyərlərimiz bir yardımçı, kömək, dayaq olmuş və bizi əriyib yox olmaqdan xilas etmişdir.

1918-ci il mayın 28-də yaranan Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu 23 ay ərzində Azərbaycanda müasir cəmiyyət qurmağa, demokratik hüquqi dövlət yaratmağa, bir sözlə Məmməd Əmin Rəsulzadənin sözləri ilə desək, "...misli Avropada təqlid olunmayan həqiqi bir Xalq Cümhuriyyəti" qurmağa və onun uğurlarından bəhrələnməyə can atmışdı.

Bu dövrdə milli mədəniyyətin inkişafına ciddi əhəmiyyət verilməsi xüsusilə tədqirəlayiq bir hal kimi qeyd olunmalıdır. Burası da maraqlıdır ki, Xalq Cümhuriyyəti hakimiyyət nümayəndələrinin, daha doğrusu bu dövlətin qurucularının çoxu həmin dövrün mədəniyyətinin yaradıcıları olmuşdular. Mədəniyyətin oyanışı bir çox sahələrdə – elmdə, təhsildə, mətbuatda, nəsrdə, poeziyada, dramaturgiyada, musiqidə və s. özünü büruzə verirdi. Azərbaycan dilinin dövlət dili elan edilməsi (1918), Bakı Dövlət Universiteti (1919), Azərbaycan Dövlət Teatrı (1919), "İstiqlal" muzeyi (1919), "Teatr Xadimləri Cəmiyyəti" (1919), "Teatr üzrə Ədəbiyyat Komissiyası", "Müsəlman Mühərrir və Ədiblər Cəmiyyəti", "Yaşıl Qələm" ədəbi birliyinin, yüzlərlə məktəblərin açılması, milli rəmzlər olan gerb, bayraq və himnin, döş və xatirə medallarının təsis edilməsi, 200-ə yaxın qəzet və jurnalın nəşr olunması, Bakının baş memarı Zivər bəy Əhmədbəyovun təşəbbüsü ilə erməni vəhşilərinin basqını nəticəsində tamamilə dağıdılmış Şamaxı şəhərinin bərpa edilməsi məqsədilə "Yeni Şirvan Cəmiyyəti"nin, həmçinin Bakının abadlaşdırılması üçün "Şəhər Bağları Cəmiyyəti"nin təsis olunması, "İslam Abidələrini Sevənlər və Qoruyanlar Cəmiyyəti"nin yaradılması, parlamentdə mətbuat haqqında qanunun qəbul edilməsi, Qori seminariyasının Azərbaycan bölməsinin Qazaxa köçürülməsi, 100 nəfər tələbənin ali təhsil almaq üçün xarici ölkələrə göndərilməsi, digər 100 nəfərin isə İstanbula göndərilmək üçün hazırlanması, teatr rəssamlığının müstəqil bir peşə kimi ayrılması, əlifba islahatı barədə konkret təkliflər irəli sürülməsi, dünya ədəbiyyatı klassiklərinin Azərbaycan dilinə tərcümə olunması – bütün bunlar Azərbaycan Xalq Cümhuriyyətinin milli-mənəvi dəyərlərin qorunmasına yönəldilmiş böyük işlərinin yalnız qısa xülasəsi sayıla bilər.

1918-1920-ci illərdə poeziya, nəsr və dramaturgiya Azərbaycan mədəniyyətinin ən sürətlə irəliləyən sahələrinə çevrilmiş, ədəbiyyat tarixi problemlərinə maraq olduqca güclənmişdi. Bu sahələrdə milli-mənəvi dəyərlərə söykənən çoxsaylı əsərlərin yaranması müstəqilliyin əldə olunması iftixarından meydana gələn çox mühüm bir prosesin – milli mədəniyyətin, ədəbiyyatın öyrənilməsinin və təbliğinin son dərəcə vacib olduğunun dərk edilməsi ilə bağlı idi.

Ümumiyyətlə, milli müstəqillik ərəfəsi və dövründə milli mədəniyyətin oyanışı istiqlal şüurunu və istiqlal hərəkatını hazırlayan, formalaşdıran və istiqamətləndirən başlıca amilə çevrilmişdi. Azərbaycançılıq ideyası mədəniyyətdə, bədii ədəbiyyatda yaranmış, sonra isə dövlət quruculuğu gedişində həyata keçirilərək gerçəkləşmişdi. Məhz o illərdə mədəniyyətin oyanışı onun sonrakı intibahının hazırlanmasında güclü təkan rolunu oynamışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə yüksək qiymət verən dövlət başçımız onun Azərbaycan tarixindəki rolundan bəhs edərkən demişdir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır..., onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdı. Ən əsası odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu".

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti elan edilməsi ilə ölkədə milli-mənəvi dəyərlərin qorunması məsələsi əsl mənada ciddi sınaqlardan çıxmalı oldu. Rusiya sovet hökumətindən asılı olan Azərbaycan Sovet Sosialist Respublikası hökuməti 1920-1922-ci illərdə formal da olsa müstəqilliyini qoruyub saxlaya bildiyindən və həmin dövrdə hökumətə Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanov başçılıq etdiyindən milli-mənəvi dəyərlərimizdən, onların qorunub saxlanmasının vacibliyindən dövlət səviyyəsində az da olsa, danışmaq mümkün olurdusa, 1922-ci ilin sonunda Azərbaycan artıq üzvü olduğu ZSFSR tərkibində SSRİ-yə daxil edildikdən sonra ümumiyyətlə, azərbaycançılıq, soykökə qayıdış, milli-mənəvi dəyərlər mövzularında hər hansı söhbət açmaq belə millətçilik kimi damğalanır və təqib olunurdu. 20-30-cu illər repressiyaları qurbanlarının əksəriyyətini təşkil edənlər elə milli ruhu və dəyərlərini qoruyub saxlamış adamlar olmuşdular. Dövlət başçımız Heydər Əliyev həmin dövrdən danışarkən demişdir: "...bu dövr çox mürəkkəb, ziddiyyətli dövr – bir tərəfdən, hakim rejimin repressiyaları, xalqımızın ənənələrinə, mənəviyyatına göstərilən təzyiqlər, məhrumiyyətlər və məhdudiyyətlər, ikinci tərəfdən isə, eyni zamanda xalqımızın böyük inkişaf yolu olmuşdur".

Əlbəttə, sovet hakimiyyəti illərində nailiyyətlərimiz də olmuşdu, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Lakin bunlar kommunist ideologiyasının rəhbər və istiqamətverici rolunu tanımaq şərtilə əldə edilmişdi. Çünki başqa cür düşünmək belə olmazdı. Milli-mənəvi dəyərlər, soykökə qayıdışla bağlı hər hansı müstəqil ideyalarla çıxış etmək sadəcə olaraq qadağan idi.

1991-ci il oktyabrın 18-də SSRİ-nin dağılması ərəfəsində Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının



elan edilməsi ilə Azərbaycan yenidən itirilmiş istiqlaliyyətini özünə qaytarsa da, istər daxili, istərsə də xarici siyasətində əsl müstəqilliyə nail ola bilmədiyi kimi, dövlət səviyyəsində milli-mənəvi dəyərlərin qorunması və yaşadılması üçün də əslində heç nə edə bilmədi. Sanki hamının başı hakimiyyət uğrunda mübarizəyə qarışmışdı. Heç kimin yadına düşmürdü ki, axı Azərbaycan Müsəlman Şərqində birinci olaraq öz müstəqil, demokratik dövlətini yaratmış, lakin onu daxili ziddiyyətlər və mürəkkəb beynəlxalq şərait üzündən cəmi 23 ay saxlaya bilmişdi. Axı 70 il keçdikdən sonra yenidən əldə etdiyimiz müstəqilliyimizin də aqibəti elə ola bilər və biz bir xalq kimi ümumiyyətlə dövlətçilikdən məhrum ola bilərik. Bəs nəticəsi necə oldu? Ölkəmizin ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olundu, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimiz çadırlarda ağır vəziyyətdə yaşamağa məcbur edildi, ölkəni separatçılıq meylləri bürüdü, hakimiyyət böhranı vətəndaş müharibəsinə gətirib çıxardı... Azərbaycanın başının üstünü yenidən öz müstəqilliyini itirmək təhlükəsi aldı.

Belə bir ağır şəraitdə xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə bütün bu neqativ hallara son qoyaraq hər cür separatçılıq meyllərini aradan qaldırdı, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, iqtisadiyyatı fəlakətli vəziyyətdən qurtarmaq üçün islahatlar proqramını işləyib hazırladı və həyata keçirməyə başladı, ölkənin təbii sərvətlərindən xalqın faydalanması üçün inkişaf etmiş dövlətlərlə çoxsaylı neft müqavilələrinin bağlanmasına, Ermənistanla müharibədə atəşkəs əldə edilməsinə nail oldu. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə Ermənistanla müharibəyə son qoymaq üçün fəal sülh siyasəti yeritmək mövqeyini bütün dünyaya bəyan etdi. Bu siyasət dünya birliyində, beynəlxalq təşkilatlarda rəğbətlə qarşılandı. Hazırda dünyanın ən aparıcı dövlətləri Azərbaycanın mövqeyini dəstəkləyir və onu müdafiə edirlər.

Digər məsələlərdə olduğu kimi, milli-mənəvi dəyərlər məsələsinə münasibətdə də Heydər Əliyevin mövqeyi aydın və qətidir: "Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır.

Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hər cür qurban verməyə hazır

olsun. Bunun üçün isə o, ilk növbədə yüksək mənəviyyata malik olmalıdır, xalqımızın milli-mənəvi dəyərləri onun şəxsiyyətinin mahiyyətini təşkil etməlidir. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir".

Müstəqillik illərində biz dövlət başçımızın bu dəyərli tövsiyələrini rəhbər tutaraq milli-mədəni irsimizi, tariximizi, milli sənəimizi ideoloji buxovlardan və qadağalardan xilas etmək yolunda çox uğurlu addımlar ata bilmişik.

Milli-mənəvi dəyərlərimizə yiyələnməkdə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsi dövlət başçımız tərəfindən əsas vəzifələrdən biri kimi irəli sürülmüşdür. Dövlət başçımız bu məsələdən bəhs edərkən belə deyir: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz". Maraqlıdır ki, Heydər Əliyev tariximizdən bəhs edərkən onu mənəviyyatımızla sıx əlaqədə görür və göstərir ki, xalqımızın tarixinin əsasını təşkil edən bütün mərhələlərdə yüksək mənəviyyat olmuşdur və keçmiş tariximizdən bizə qalan simaları bu gün dünyada məşhurlaşdıran da, bizim üçün nümunə edən də onların yüksək mənəviyyatıdır, yüksək amallarıdır.

Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində doğma dilimizin rolu olduqca böyükdür. Məlumdur ki, sovet hakimiyyəti illərində bütün milli dillər kimi Azərbaycan dilinə münasibətdə də böyük ədalətsizliklərə yol verilmiş, ayrı-ayrı vaxtlarda isə Azərbaycan dilinin qanuni hüququnun özünə qaytarılması üçün göstərilən cəhdlər Mərkəzin ciddi müqaviməti ilə qarşılaşmışdı. Azərbaycan rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci ildə Azərbaycan SSR Konstitusiyası qəbul olunarkən, orada Azərbaycan dilinin dövlət dili statusu təsbit olunmuşdu, lakin Sovetlər İttifaqının ümumi dili – rus dili hakim dil olduğundan Azərbaycan dilinin respublikada dövlət dilinə çevrilməsi yolunda çoxlu maneələr yaradılmışdı. Yalnız müstəqillik illərində biavasitə dövlət başçımızın hərtərəfli qayğısı sayəsində Azərbaycan dilinin bütün hüquqları özünə qaytarıldı, eyni zamanda doğma dilimiz barədə AXC-Müsavat hakimiyyəti dövründə yol verilmiş əllaməliklərə son qoyuldu. Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq referendumu əsasında qəbul olunmuş ilk Konstitusiyasında (maddə 21) təsbit olundu



ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Azərbaycan dilinin dövlət dili statusunda təkcə azərbaycanlılara deyil, Azərbaycan ərazisində yaşayan bütün xalqlara eyni dərəcədə sədaqətlə xidmət etməsi milli-mənəvi dəyərlərimizin qorunması və tərəqqisi baxımından yeni və mühüm bir mərhələni təşkil edir.

Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Müstəqilliyimizin sonuncu 8 ilində keçid dövrünün bütün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, Prezidentimizin dəyərli tövsiyə və göstərişlərini həyata keçirərək tarixi keçmişimizin çox qiymətli səhifələrini açıb xalqa göstərməyə çatdırmaq yolunda uğurlu addımlar ata bilmişik. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrəndikcə böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir.

Sovet hakimiyyəti illərindən qalan ən ağır, çətin problemlərdən biri bu müddət ərzində dinimizdən məhrum edilməyimiz olmuşdur. Ancaq dini heç kəs unutmamışdır, dini xalq öz qəlbində, ürəyində yaşatmışdır. Müstəqillik əldə olunan kimi müqəddəs dinimiz – islam da sürətlə inkişaf etməyə başlayıbdır.

Məlumdur ki, yaxın keçmişin uzun sürən totalitar rejimi, ateizm ideologiyası konfessiyaların, xüsusən də islam dininin sərbəst fəaliyyəti üçün ciddi qadağalar qoymuşdu. Azərbaycan SSR-də əhalinin mütləq əksəriyyəti islam dininə mənsub olduğu halda rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatı idi. Həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilatı və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi.

Xalqımız dövlət müstəqilliyi əldə etdikdən sonra ölkəmizdə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı beynəlxalq standartlara uyğun bərpa edilmişdir. Dini etiqad azadlığı Azərbaycan siyasətində demokratik hüquqi cəmiyyət quruculuğunun zəruri atributu kimi dərk edilir və bu sahədə Azərbaycan Resublikası Konstitusiyası, həmçinin "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq ardıcıl mütərəqqi tədbirlər həyata keçirilir.

İslam dininin bəşəriyyətə bəxş etdiyi mənəvi dəyərlərin əhəmiyyətindən və onların öyrənilməsinin vacibliyindən bəhs edən

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin hələ 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda söylədiyi fikirlər bu gün üçün də çox aktual səslənir: "...bizim Konstitusiyamıza görə ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbiidir, bütün dünyəvi ölkələrdə bu belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin islam dinini mənimsəməsi üçün, hesab edirəm ki, lazımi tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsini aşılamaq istəyirlər və bunlar da bizim gənclərin tərbiyəsinə zərər vurur. Ona görə də islam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə Təhsil Nazirliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımi tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək islam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin zədələnməsinə gətirib çıxarsınlar". Zənnimizcə, bu gün dini təbliğat sahəsində baş verən xoşagəlməz hallar ona görə özünə müəyyən dərəcədə də olsa yer tapa bilmişdir ki, dövlət başçımızın çox vaxtında gördüyü bu təhlükənin kifayət qədər çeviklikə qarşısının alınması üçün lazımi tədbirlər görülməmişdir.

Azərbaycan rəhbəri Heydər Əliyev milli-mənəvi dəyərlərimizə, onların öyrənilməsinə və təbliğ olunmasına böyük əhəmiyyət verməklə yanaşı, Azərbaycan mədəniyyətinin dünya sənət xəzinəsinə verdiyi töhfələrlə başqa xalqların nümayəndələrini tanış etmək məsələsini daim diqqət mərkəzində saxlayır. Məhz müstəqillik illərində dahi Azərbaycan şairi və mütəfəkkiri Füzulinin dövlət başçımızın təşəbbüsü ilə keçirilmiş 500 illik yubileyi bir tərəfdən, əsl poeziya bayramına, milli mədəniyyətimizin bayramına, digər tərəfdən isə Azərbaycan dövlətçiliyinin, Azərbaycan müstəqilliyinin bayramına çevrildi. Müxtəlif ölkələrdən, YUNESKO-dan bu yubileyə gələn insanlar Füzuli poeziyası vasitəsilə Azərbaycanı tanımış, onun xalqının milli-mənəvi dəyərlərini yüksək qiymətləndirmiş, bu xalqın həqiqətlərini dünyaya çatdırmaq üçün səylərini artırmışdılar.

Əsrlərin və minilliklərin qovuşduğu 2000-ci ildə Azərbaycan Respublikası türkdilli dövlətlər başçılarının, dünya qorqudşünaslarının, YUNESKO-nun iştirakı ilə möhtəşəm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini də qeyd etdi. Uzun müddət təqiblərə məruz qalmış bu epos, nəhayət ki, dövlət başçımızın təşəbbüsü ilə müstəqil Azərbaycan Respublikasında öz layiqli qiymətini aldı. Bu münasibətlə aprelin 9-da "Respublika" Sarayında keçirilmiş təntənəli yubiley mərasimində Prezidentimiz Heydər Əliyevin nitqində deyilmiş aşağıdakı sözlər hər bir azərbaycanlıda iftixar hissi doğurur: "Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün biz sərbəstik, azadıq, müstəqilik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik".

Milli-mənəvi dəyərlərimizin qorunması naminə bu dahi insanın diqqət və qayğısı sayəsində, şübhəsiz, gələcəkdə daha böyük işlər görüləcəkdir.

## § 4. Azərbaycançılıq və soykökə qayıdış

Hələ XIX əsrin sonu – XX əsrin əvvəllərində Rusiya imperiyasında baş verən ictimai-siyasi hadisələrin təsiri altında güclənməkdə olan azadlıq ideyaları tezliklə əsarət altında olan milli ucqarlarda, o cümlədən də Azərbaycanda geniş əks-səda doğurdu. Millətin qabaqcıl ziyalılarının milli mənlik şüurunda sanki güclü bir oyanış, təbəddülat baş verdi. Avropada və Rusiyada qabaqcıl ideyalarla tanış olan və təhsilini başa vurduqdan sonra Vətənə dönən istedadlı gənc mütəxəssislər burada həm də milli-demokratik hərəkatın yaranmasında və inkişafında böyük rol oynadılar. Onlar tədricən dərk etdilər ki, böyük ideyalara qovuşmaq üçün ilk növbədə qan yaddaşına qayıtmaq, özünü dərk etmək, mənsub olduqları millətin tarixini, mənəvi dəyərlərini öyrənmək və araşdırmaq lazımdır.

O dövrdəki milli ziyalılarımızın qabaqcıl nümayəndələrindən Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Məhəmməd Hadi, Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Əlimərdan bəy Topçubaşov, Firudin bəy Köçərli, Məmməd Əmin Rəsulzadə və başqaları mətbuatda müntəzəm çıxış etməklə xalqın şüurunun oyanmasında və millətin formalaşmasında mühüm rol oynayırdılar. Bu işdə Həsən bəy Zərdabinin və Məmməd Əmin Rəsulzadənin millətçilik və dövlətçilik, Cəlil Məmmədquluzadənin demokratizm və azərbaycançılıq ideyaları misilsiz təsir gücünə malik olmuşdur. Məsələn, əsrin əvvəllərində "Molla Nəsrəddin" jurnalında verilmiş bir karikaturada azərbaycanlını yerə yıxıb, onun "Axı mənim doğma ana dilim var" fəryadlarına məhəl qoymadan ağzına bir tərəfdən ərəb dili, o biri tərəfdən fars dili, üçüncü tərəfdən isə rus dili salmağa çalışanların ifşa edilməsi azərbaycançılıq ideyası baxımından nə qədər də ibrətamiz və düşündürücü idi.

O dövrdə formalaşan milli təfəkkürümüz türk dünyasının görkəmli nümayəndələri – İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Yusif Ağçuraoğlu, Əhməd bəy Ağayev, Ziya Göyalp və başqalarının türkçülüyə dair fikirlərindən bəhrələnirdi. Onlar obyektiv olaraq Azərbaycanın milli müstəqilliyini ümumtürk azadlığının tərkib hissəsi kimi qarşıya qoyurdular. Bu barədə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün sözləri daha ibrətamizdir: "Müstəqilliyini əlindən vermiş hər hansı



bir millət hansı həyat şəraitində yaşayırsa yaşasın, o, mədəni bəşəriyyətin gözündə yaltaq nökərdən başqa bir şey deyildir. Azadlıq şirin nemətdir. Lakin bunu heç vaxt iki əllə gətirib xalqlara vermirlər. Azadlıq qanla alınır".

Rusiyada 1905-1907-ci illər inqilabı dövründə əsarət altında yaşayan türk və müsəlman xalqlarının, o cümlədən Azərbaycan xalqının arasında milli azadlıq ideyaları geniş vüsət almışdı və 1905-1918-ci illərdə Azərbaycan milli hərəkatının nəzəriyyəçiləri və xadimləri Azərbaycan milli dövlətinin ideologiyasını "azərbaycançılıq" ("türkçülük") ideyasını işləyib hazırlamışdılar. Bu ideya ölkədə yaşayan bütün xalqların hüquq bərabərliyinin tanınmasına əsaslanırdı. Onun fəlsəfi əsasını "türkçülük, islamçılıq və müasirlik" şüarı təşkil edirdi. İndiki təbirimizcə "azərbaycançılıq, islamçılıq və müasirlik" kimi səslənən bu şüar "Müsavat" partiyasının və Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi doktrinası oldu.

Beləliklə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda artıq bir çox sahələrdə, o cümlədən mədəniyyət, maarif və milli mətbuat sahələrində olduqca mühüm nailiyyətlər əldə edilmişdi. Azərbaycanda müasir burjuaziya təbəqəsi formalaşıb ölkənin ictimai həyatında fəal rol oynamağa başlamışdı. Bu dövrdə Azərbaycan ziyalılarının müxtəlif sahələrdə göstərdiyi fəaliyyət milli dirçəliş, milli oyanış, milli ruhun aşılanması proseslərinə xidmət edirdi. Bununla da, XIX əsrdən başlanan mürəkkəb ictimai-siyasi proseslərin XX əsrin əvvəllərində uğurla davam edən gedişi Azərbaycan cəmiyyətində əsaslı dəyişikliklərə gətirib çıxartdı, yeni mühitdə formalaşan görkəmli ictimai və siyasi xadimlərimiz əsrin çağırış və tələblərinə layiqincə cavab verməyə qadir oldular.

Azərbaycançılıq və soykökə qayıdış ideyalarının xalq içərisində geniş rəğbət qazanması sayəsində milli özünüdərk şüurunun inkişafı, həmçinin Rusiyada fevral inqilabından sonra yaranmış əlverişli ictimai-siyasi şərait müstəqil dövlətçiliyimizin qurulması üçün münbit zəmin yaratdı. Beləliklə, Azərbaycan Prezidenti Heydər Əliyevin yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində deyildiyi kimi, XX əsr Azərbaycan tarixinin birinci mərhələsindən ikinci mərhələsinə – ilk dəfə dövlət müstəqilliyi əldə etməsi dövrünə qədəm qoymağa imkan verdi.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının dünyaya bəyan edilməsi Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə oldu. Dövlət başçımız

Heydər Əliyevin böyük iftixarla qeyd etdiyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük nailiyyəti, tariximizə yazılmış qızıl səhifəsi ondan ibarətdir ki, "çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyi əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir".

Azərbaycan Xalq Cümhuriyyəti olduqca çətin və mürəkkəb şəraitdə cəmi 23 ay yaşamasına baxmayaraq həmin qısa müddətdə böyük işlər görmüş və Azərbaycanın gələcəkdə də müstəqil olması üçün ciddi zəmin yaratmışdı.

Azərbaycan dövlətinin sərhədləri müəyyən olunmuş, dövlətçilik atributlarımız qəbul edilmişdi. Milli dövlət quruculuğu sahəsində mühüm işlər görülmüş, Azərbaycan dilinin tətbiq olunması, mədəniyyətimizin, təhsilin inkişafı, iqtisadiyyatın nizamlanması sahələrində irəliyə doğru ciddi əməli addımlar atılmışdı.

XIX əsrin son rübündən başlayaraq oyanmış və getdikcə güclənən ümumilli şüur inkişaf etmiş, azərbaycançılıq ümumşərq, ümummüsəlman mücərrədliyindən ayrılaraq artıq Azərbaycan Xalq Cümhuriyyəti dövründə, xalqın düşünən hissəsinin fikir və əqidəsində özünə möhkəm yer tutmuşdu. Nəticədə milli mənlik şüuru güclənmiş, onun inkişafı düzgün, yaradıcı istiqamətə yönəlmişdi.

Daxili ziddiyyətlər, başlıcası isə xarici təcavüz nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun fəaliyyəti Azərbaycan xalqının qəlbində ümid çırağı kimi yanmaqda davam etdi. Heç də təsadüfi deyildi ki, əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq bu dövlətin himnini, üçrəngli bayrağını və gerbini bərpa elədi.

XX əsr tarixinin üçüncü mərhələsi 1920-ci ilin aprelindən başlanır və Azərbaycan Sovet Sosialist Respublikası elan edilməsindən sonrakı – 71 il davam etmiş dövrü əhatə edir. Bu mərhələnin birinci iki ilində Azərbaycan qismən də olsa öz müstəqilliyini qoruyub saxlaya bilmişdisə də, 1922-ci ildə SSRİ yarandıqdan sonra onun tərkibinə daxil edilmişdi.

Əlbəttə, dünya proletar inqilabını həyata keçirməyi qarşısına məqsəd qoymuş bir dövlətin tərkibinə daxil olan yarımmüstəqil bir dövlət qurumunda milli mənlik şüurundan, azərbaycançılıqdan və soykökə qayıdışdan danışmaq belə qadağan edildiyindən milli mədəniyyətimiz, xalqımızın milli-mənəvi dəyərləri amansız təqiblərə məruz qaldı. Hələ 1920-ci ilin aprelindən başlayaraq Azərbaycanın milli ruhlu ziyalılarına münasibətdə



həyata keçirilən repressiya tədbirləri, xüsusilə 1937-1938-ci illərdə Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Bu illərdə Azərbaycanın xüsusi xidmət orqanlarında və hüquq-mühafizə orqanlarında özünə möhkəm yuva salmış, erməni millətçiləri Azərbaycan xalqının milli azadlıq ruhuna son qoymaq üçün daha çox canfəşanlıq etmək imkanı qazandılar, nəticədə 50 min nəfərdən artıq adam güllələndi, 100 mindən çox insan Sibirə və Qazaxıstana sürgün edildi. Hüseyn Cavid, Mikayıl Müşfiq, Tağı Şahbazi, Salman Mümtaz və bir çox başqaları kimi yüzlərlə görkəmli şəxsiyyətlər və milli ideya carçıları məhv edildi.

Bununla belə, 20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri yaranmış, kənd təsərrüfatı dirçəldilmişdi. Azərbaycan elliklə savadlanmış, orta ümumtəhsil məktəblərinin, xəstəxana və poliklinikaların, ali və orta ixtisas məktəblərinin, elmi-tədqiqat və mədəni-maarif müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmişdi.

İkinci dünya müharibəsində faşist Almaniyasının antihitler koalisiyası tərəfindən darmadağın edilməsində misilsiz xidmətləri olmuş Azərbaycan xalqı çox dözümlü və qəhrəman xalq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Müharibədən sonrakı illərdə də respublikamız iqtisadiyyat və mədəniyyət sahələrində mühüm nailiyyətlər qazanmaqla yanaşı, SSRİ-nin digər respublikalarının iqtisadiyyatının bərpa olunması və inkişafı işində də fəal iştirak etdi.

Azərbaycan xalqı sovet hakimiyyəti illərində mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda onun qəlbində tam müstəqillik, milli azadlıq hissləri yaşamış, yeri gəldikdə, əlverişli şərait yarandıqda bu hisslər barədə açıq danışmaqdan, mübarizə aparmaqdan çəkinməmişdir. 70 illik sosializm rejimi dövründə də bu hisslər xalqı heç vaxt tərk etməmiş, lakin sərt cəza tədbirləri və repressiyalar hər dəfə onu həmin hissləri qəlbində qoruyub saxlamaqla müəyyən müddət susmağa məcbur etmişdir. Totalitar kommunist rejimi dövründə Azərbaycana rəhbərlik etmiş şəxslər, ayrı-ayrı istisnalar nəzərə alınmazsa, demək olar ki, 70-ci illərə qədər respublikada milli mənlik şüurunun dirçəldilməsi, azərbaycançılığa və soykökə qayıdış məsələlərində Moskvanın göstərişlərinə dönmədən əməl edərək sərt maneələr yaratmış, özlərinin "proletar beynəlmiləlçiliyi" prinsiplərinə sədaqətini nümayiş etdirmək üçün nə lazımdırsa etmiş, bəzən isə bu sahədə düşünülmədən atılan uğursuz addımlar milli

ruhda tərbiyə işini daha da çətinləşdirmiş, mərkəzin yerli-yersiz hücumları üçün respublikamızı hədəf seçməsinə bir növ zəmin yaratmışdı.

Yalnız 1969-cu il iyulun 14-də Azərbaycanın böyük oğlu Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə belə uğursuzluqların qarşısı alınmış, Azərbaycan cəmiyyətinin mövcudluğunun, fəaliyyətinin, bütövlükdə həyatının ideya-konseptual prinsiplərində yeni milli-mənəvi dəyərlərin başlanğıcı qoyulmuşdur. Bu baxımdan, 14 iyul 1969-cu il Azərbaycanın ən yeni tarixinə dönüş mərhələsi kimi daxil oldu. Bu, 60-cı illərin sonlarında iqtisadi və mədəni tənəzzül, milli ideya yoxsulluğu dövrünü yaşayan Azərbaycanın tərəqqiyə dönüşü, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa dönüşünün başlanğıcı idi. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə qısa müddətdə cəmiyyət həyatının bütün sahələrinin sürətli yüksəlişi, istehsalın, elmin, mədəniyyətin, mənəviyyatın tərəqqisi əslində daha böyük nailiyyətlərin – milli ruhun inkişafına, milli özünüdərkin və milli qürurun yüksəlməsinə səbəb oldu. Beləliklə, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən əzəmətli planın tərkib hissələrini təşkil etdi.

Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəriciləri həm də respublikada azərbaycançılıq məfkurəsinin və milli ruhun həddsiz yüksəlişi, milli özünüdərkin keçmişin bütün buxovlarından azad olması, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinə, real siyasi amilə çevrilməsinə nail olunmasıdır. İndi təkcə respublikamızda deyil, həm də dünyanın qabaqcıl ölkələrində belə Azərbaycanın müasir intibahı dövrü kimi dəyərləndirilən 70-ci illər – 80-ci illərin əvvəllərinin böyük inkişaf epoxası xalqımızın qəlbində, düşüncələrində illərlə yığılıb qalmış milli ideyanın – azadlıq, müstəqillik, suveren Azərbaycan dövləti ideyalarının canlanmasına, gələcəkdə qüdrətli milli azadlıq hərəkatının ideya-mənəvi əsası və hərəkətverici özəyi dərəcəsinə yüksəlməsinə zəmin yaratdı.

80-ci illərin sonu – 90-cı illərin əvvəllərində müstəqillik hərəkatının genişlənməsinə aparan çətin, ziddiyyətlərlə dolu tarixi yolun mühüm, bəlkə də başlıca mərhələlərindən biri, şübhəsiz, 70-ci illərin ümumi milli yüksəlişi və onun sayəsində xalqın daha da qabarıq mübarizlik ruhunun formalaşması olmuşdur.

Bu illərdə Azərbaycanda milli özünüdərk prosesi xüsusilə qüvvətlənmişdi. Həmin proses Heydər Əliyev tərəfindən çox



böyük həssaslıq və uzaqgörənliklə idarə olunur və tənzimlənirdi. Sovet rejiminin ağır təzyiqinə baxmayaraq, Azərbaycanın strateji maraqları naminə ciddi addımlar atılır, SSRİ-nin ayrı-ayrı respublikalarında totalitar rejimin əleyhinə çıxan elm və mədəniyyət xadimləri, ziyalılar təqiblərə məruz qaldıqları halda, Azərbaycanda yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti hökm sürürdü.

Məlumdur ki, millətin siyasi müstəqilliyinin bazisini iqtisadi müstəqillik, iqtisadi qüdrət şərtləndirir. Bu baxımdan Azərbaycanın 70-80-ci illərdə iqtisadi sahədə əldə etdiyi nailiyyətlər siyasi müstəqilliyə aparan yolda mühüm vasitə idi. İqtisadiyyatda baş verən sürətli yüksəliş sosial sahədə əvvəlki onillər ərzində yığılmış çoxsaylı problemlərin həlli üçün zəmin yaratdı. Sosial sahənin inkişafı isə öz növbəsində adamların həyat səviyyəsində və yaşayış tərzində nəzərəçarpan dəyişikliklər etdi. Azərbaycanda bu illərdə baş verən böyük quruculuq, yaradıcılıq və inkişafın nəticəsi idi ki, SSRİ məkanında yalnız iki respublika – Rusiya Federasiyası və Azərbaycan İttifaq büdcəsindən heç bir dotasiya almadan fəaliyyət göstərirdi.

1969-1982-ci illərdə Azərbaycan intibahını şərtləndirən amillər sırasında təhsilin, elmin, mədəniyyətin yüksəlişi xüsusilə diqqəti cəlb edir. Bu amil Azərbaycanın 70-ci illərdən başlayan mənəvi yüksəliş tarixinin inkaredilməz reallığı sayılmalıdır. Həmin illərdə Azərbaycanın şəhər, kənd və qəsəbələrində 700-ə qədər məktəb binası istifadəyə verilmiş, ali təhsil müəssisələrinin şəbəkəsi genişlənmişdi. Nəticədə 1980-ci illərin əvvəllərində respublikada ali məktəblərin sayı 12-dən 17-yə, bunlarda təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdı.

Bu illərdə Heydər Əliyevin uzaqgörənliklə istiqamətləndirdiyi ən dəyərli təhsil ənənələri sırasında azərbaycanlı gənclərin respublikamız üçün gərəkli ixtisaslara yiyələnməkdən ötrü keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə göndərilməsi praktikası idi. Bu yolla Azərbaycanın elmi və kadr potensialının yüksəldilməsi ilə yanaşı, ən qabiliyyətli gənclərimizin vasitəsilə xalqımızın mədəniyyətinin, mənəvi-əxlaqi dəyərlərinin təbliği kimi çox vacib bir vəzifə də yerinə yetirilirdi. Bu mühüm işə göstərilən böyük diqqət və qayğının nəticəsi idi ki, əgər 1969-cu ildə respublikadan kənarda təhsil almağa göndərilən və əksəriyyəti qeyri-azərbaycanlı olan tələbələrin sayı cəmisi 47 nəfər idisə, 80-ci illərin əvvəllərində bu rəqəm hər il 1000-1400 nəfərə çatırdı ki, onların da böyük əksəriyyəti azərbaycanlı gənclərdən ibarət olurdu.

Xalqın müstəqil gələcəyini aydın görən Heydər Əliyev milli hərbçi kadrlar hazırlamağın əhəmiyyətini yüksək qiymətləndirərək bu sahədə də təxirəsalınmaz tədbirlər həyata keçirirdi. Əgər 1972-ci ildən başlayaraq Azərbaycandan hər il 300-400 gənc hərbi təhsil almaq üçün SSRİ-nin müxtəlif ali məktəblərinə qəbul olunurdusa, 80-ci illərin əvvəllərində bu rəqəm 800-1000 nəfərə çatmışdı. Həm də xüsusi diqqət yetirilirdi ki, hərbi məktəbə oxumağa göndərilənlərin əksəriyyəti azərbaycanlı olsun.

1969-1982-ci illərdə Azərbaycanın şöhrətinin artırılması, onun bütün dünyada tanıdılması xalqımızın elm və mədəniyyətinin, tarixi adət və ənənələrinin təbliği istiqamətində həyata keçirilən tədbirlər də azərbaycançılıq və soykökə qayıdış ideyalarının dirçəldilməsində mühüm yer tuturdu. Azərbaycanın tarixi şəxsiyyətlərinin adlarının əbədiləşdirilməsi, görkəmli mədəniyyət xadimlərinin SSRİ-nin yüksək fəxri adlarına layiq görülməsi, SSRİ respublikalarında və bir sıra sosialist ölkələrində Azərbaycan mədəniyyəti və incəsənəti günlərinin keçirilməsi respublikamızın qədim və böyük mədəniyyət diyarı olduğunu bütün dünyaya bəyan edirdi.

Heydər Əliyevin uzaqgörən siyasətinin mühüm cəhətlərindən biri də həmin illərdə Azərbaycanı müstəqil xarici siyasət yeritməyə kiçik miqyasda olsa belə hazırlamaq məqsədilə, onun beynəlxalq birlikdə tanıdılmasına nail olmaq idi. Məlumdur ki, keçmiş SSRİ-nin xarici siyasətində müttəfiq respublikalar birbaşa iştirak edə bilmirdilər. Lakin bütün maneə və sədlərə baxmayaraq, Azərbaycanın xarici aləmlə elmi-texniki, iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsinə, xarici ölkələrdə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinə maksimum səylər göstərilir, Bakıda beynəlxalq tədbirlər təşkil olunur, xarici ölkələrdə məskunlaşmış azərbaycanlılarla əlaqələrin qurulması istiqamətində müəyyən addımlar atılırdı. Azərbaycanın paytaxtı Bakı şəhəri həmin dövrdə dünya miqyasında tanınan mədəniyyət və elm mərkəzinə çevrilmiş, azərbaycanlılar özünəməxsus tarixi, mədəniyyəti, ənənələri olan bir millət kimi tanınmış, Cənubi Qafqaz respublikaları içərisində Azərbaycan ön mövqeyə çıxmışdı.

Azərbaycan dili ilk dəfə Heydər Əliyevin respublikada rəhbərliyi dövründə tədricən həqiqi dövlət dili statusu aldı və bu tarixi akt Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında təsbit olundu. Yenə də Heydər Əliyevin hakimiyyəti dövründə biz ilk dəfə Cənubi Azərbaycanın adını ucadan çəkə bildik, cənubda yaşayan milyonlarla həmvətənimizin dərdləri, qayğıları ilə



yaxından tanış ola bildik. Məhz bu böyük şəxsiyyətin təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda Cənubi Azərbaycan ədəbiyyatı, Tarix İnstitutunda Cənubi Azərbaycan tarixi şöbələri yaradıldı, Azərbaycan Yazıçılar İttifaqında Cənubi Azərbaycan ədəbiyyatı üzrə katiblik təsis olundu.

Yuxarıda deyilənlər, dövlət başçımızın Azərbaycan rəhbəri olduğu 1969-1982-ci illərdə azərbaycançılıq və soykökə qayıdış ideyalarının dirçəldilməsinə, həyata keçirilməsinə yönəldilmiş çoxcəhətli fəaliyyətinin yalnız ayrı-ayrı epizodlarıdır. Lakin elə bu epizodların özləri də belə bir nəticəyə gəlmək üçün kifayətdir ki, Heydər Əliyev imperiya siyasətinin tüğyan etdiyi mürəkkəb şəraitdə yalnız böyük dövlət xadimlərinə və mahir siyasətçilərə xas olan uzaqgörənliklə Azərbaycan xalqının milli mənlik şüurunun yüksəldilməsi, azərbaycançılığın və söykökə qayıdışın sürətləndirilməsi üçün əlindən gələni etmiş, ölkənin gələcək müstəqilliyinin bünövrəsi olacaq qüdrətli iqtisadi zəmin yaratmış, bütün xalqı güclü və müstəqil Azərbaycan uğrunda gələcək mübarizəyə hazırlamışdı.

Dövlət başçımızın 1982-1987-ci illərdə SSRİ siyasi rəhbərliyində ali vəzifələrdən birini tutması da onun fəaliyyətinin milli məzmununa heç bir xələl gətirməmiş, əksinə, doğma xalqın müqəddəratı onu daim düşündürmüş, Vətənini azad etmək, müstəqil dövlətə çevirmək arzusu bu qüdrətli dövlət xadimini heç vaxt tərk etməmişdi.

Xalqın sədaqətli oğlu Azərbaycan müstəqillik mücadiləsinə qalxdığı günlərdə də səsini onun haqq səsinə qatmış, 1990-cı il yanvarın 20-də Bakıda sovet qoşunlarının törətdiyi qanlı cinayətə etiraz edərək ertəsi günü Moskvada yürüşə çıxan on minlərlə həmvətənlərimizin ön sırasında getmiş, bəyanatla çıxış edərək, xalqımızın haqq səsini dünyaya çatdırmışdı.

Xalq hərəkatının təzyiqi altında 1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edilməsilə XX əsr tariximizin dördüncü mərhələsi başlasa da, o zamankı Azərbaycan rəhbərliyi onu əsl müstəqilliyə çevirmək uğrunda heç bir əməli iş görə bilmədi. Heydər Əliyevin Moskvadan Vətənə qayıtdıqdan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi Azərbaycanın istiqlalı yolunda xüsusi mərhələ oldu, başqa sözlə, azərbaycançılıq və soykökə qayıdış istiqamətində görülən işləri dövlət səviyyəsində həyata keçirməyə imkan yaratdı. Nəticədə Naxçıvan Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolunu öz üzərinə götürdü. SSRİ-ni saxlamaq üçün qurul-

muş qondarma referendum burada baykot edildi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi ilk dəfə qəbul olundu, rus-sovet qoşun hissələri muxtar respublikadan çıxarıldı, 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Bir sözlə, o zaman Heydər Əliyevin başçılığı altında Naxçıvan bütün Azərbaycan üçün milli azadlıq və milli dövlət quruculuğu nümunəsi göstərdi, xaos və təhlükələr, ictimai narazılıqlar və qarşıdurmalar, dövlət çevrilişləri dövrünü yaşayan ölkəmiz üçün ümid yerinə çevrildi.

1993-cü ilin may-iyununda Azərbaycanda dövlət böhranının, hakimiyyətsizliyin, xaosun, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq təkidlə Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və bu, ümummilli hərəkata çevrildi. Müdrik siyasətçi, təcrübəli və iradəli dövlət xadiminin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı günü – 15 iyun 1993-cü il tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Bu gün, həmçinin azərbaycançılıq və soykökə qayıdışın qələbəsi günü oldu.

Hər şeydən əvvəl, əmin-amanlıq, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması istiqamətində uğurlu addımlar atıldı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə həmişəlik son qoyuldu. Ölkədə möhkəm, davamlı sabitlik təmin edildi.

Xalqın iradəsi, istəyi və məhəbbəti ilə siyasi hakimiyyətə qayıtmış Heydər Əliyev Azərbaycan dövlətçiliyinin hüquqi prinsiplərini özündə əks etdirən yeni ideologiyanı – Əliyevçilik ideologiyasını işləyib hazırladı. Bu ideologiyanın əsas qayəsini – müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalətlilik, demokratiya, dünyəvilik, milli tərəqqi, soykökə qayıdış, bəşərilik və s. prinsiplər təşkil edir.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi və tövsiyələri əsasında işlənib hazırlanmış müstəqil respublikamızın demokratik Konstitusiyası qəbul olunduqdan və Milli Məclisə seçkilər keçirildikdən sonra dövlət quruculuğunun ən məhsuldar dövrü başlandı. Bu andan başlayaraq Azərbaycanda müstəqil dövlətin təsisatlarının yaranması prosesi böyük vüsət aldı.

Konstitusiyamızın "Xalq hakimiyyəti" adlanan ilk fəslində azərbaycançılıq və soykökə qayıdış prinsipləri ilk dəfə olaraq



beynəlxalq hüquqla müəyyənləşdirilmiş normalarla öz parlaq ifadəsini tapdı: "Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır... Azərbaycan xalqı vahiddir... Azərbaycan xalqının vahidliyi Azərbaycan dövlətini təməlini təşkil edir" (1-ci və 5-ci maddələr). Bununla da öz müstəqilliyini bərpa edən Azərbaycan xalqının yaratdığı demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməli qoyuldu. Bu prinsiplər yaşadığımız günlərdə də dövlət başçımızın əzmlə həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin əsas qayəsini təşkil etməkdədir.

## § 5. Gənclər siyasəti

Azərbaycan gənclərinin təşkilatlanması və ümummilli problemlərin həlli uğrunda mübarizəyə başlaması XIX əsrin sonu – XX əsrin əvvəllərinə təsadüf edir. Hələ 1902-ci ildə "Müsəlman gənclik təşkilatı" ətrafında birləşən Azərbaycan gəncliyi sonralar böyük inkişaf yolu keçərək 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələnmiş milli azadlıq hərəkatının aparıcı qüvvələrindən olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yetmiş ilə yaxın bir müddətdə ümumittifaq komsomol təşkilatının tərkib hissəsi olan Azərbaycan gənclər təşkilatı cəmiyyətin həyatında fəal rol oynamaqla yanaşı, həm də böyük təşkilatlanma yolu keçərək gənclərin mütəşəkkil ictimai-siyasi qüvvəyə çevrilməsində fəal iştirak etmişdir.

Azərbaycanın öz dövlət müstəqilliyini yenidən bərpa etməsində gənclərimizin müstəsna xidməti xüsusi qeyd olunmağa layiqdir. 1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başladığı hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və düşmənə fəal müqavimət göstərilməsində də gənclərimizin xidmətləri böyükdür. 1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər rayon və şəhərlərində törətdikləri qanlı cinayətlərin də ilk şəhidləri gənclər olmuşdur.

Təəssüf ki, SSRİ-nin süqutu ərəfəsində və Azərbaycanın yenidən müstəqillik qazandığı ilk dövrdə – 1991-1993-cü illərdə yaranan gənclər təşkilatları respublikada baş alıb gedən hərc-mərclik şəraitində dövlətin vahid gənclər siyasətinin işlənib hazırlanması istiqamətində heç bir əməli təşəbbüs göstərə bilmədilər.

1993-cü ilin iyununda gənclərin də fəal surətdə cəlb olunduğu qardaş qarşıdurması şəraitində müdrik dövlət xadimi və uzaqgörən siyasətçi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışı respublikamızın başının üstünü almış dəhşətli fəlakəti aradan qaldırmağa, gənclərin qarşısında duran problemlərə və onların həlli yollarına münasibəti kökündən dəyişməyə imkan yaratdı. Gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət istiqamətlərindən birinə çevrildi. Azərbaycan gənclərinin yenidən təşkilatlanması zərurəti tam ciddiliyi ilə irəli sürüldü.

1994-cü il iyulun 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyi



yaradıldı. Bu dövrdən başlayaraq dövlət gənclər siyasətinin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində bir sıra əməli işlər görüldü.

1996-cı il fevralın 2-də Müstəqil Azərbaycan Gənclərinin I forumu keçirildi. Forumda ölkə başçısı cənab Heydər Əliyevin dərin məzmunlu və proqram xarakterli nitqində deyilirdi: "Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında da düşünməlidir, ailəsi haqqında da düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Bu fikirlər müstəqil respublikamızda gənclər siyasətinin həyata keçirilməsi istiqamətində əlaqədar dövlət orqanlarının vəzifələrinin müəyyənləşdirilməsində başlıca rol oynadı. Forumdan sonra gənclərin problemlərinin həlli, hüquqlarının müdafiəsi, mənəvi-əxlaqi və vətənpərvərlik tərbiyəsi, beynəlxalq gənclər təşkilatları ilə əlaqələrin qurulması, çoxsaylı gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində işlər xeyli genişləndi.

1999-cu il martın 2-3-də keçirilən ƏƏII forum görülmüş işləri müsbət qiymətləndirdi və dövlət gənclər siyasətinin keyfiyyətcə yeni mərhələsinin başlanğıcını qoydu. Forumdakı nitqində dövlət başçımızın respublika gənclərinə müraciətlə söylədiyi aşağıdakı fikir forum iştirakçıları və bütün gənclərimiz tərəfindən böyük razılıqla qarşılandı və hər bir azərbaycanlı gənci üçün həyat amalına çevrildi: "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz, müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!". Məhz II forumun nəticəsi olaraq ölkə prezidentinin imzaladığı 29 iyul 1999-cu il tarixli "Dövlət gənclər siyasəti haqqında" fərmanı gənclərə göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirilə bilər. Bu fərman respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclik problemlərinin həllinə yönəldilməsi baxımından olduqca qiymətli sənəddir və bu gün də Azərbaycan gənclər təşkilatlarının fəaliyyət proqramı kimi ardıcıllıqla həyata keçirilir. Görülən işlərin nəticəsidir ki, müxtəlif

yönümlü gənclər təşkilatlarını özündə birləşdirən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası sınaq müddəti keçmədən Avropa Gənclər Forumunun üzvlüyünə əvvəlcə namizəd, sonra isə üzv qəbul edilmişdir.

Gənclər, İdman və Turizm Nazirliyinin əsas fəaliyyət sahələrindən biri də gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulması və genişləndirilməsi olmuşdur. Azərbaycan bu məqsədlə BMT, o cümlədən YUNESKO, Avropa Şurası, Avropa Birliyi və s. beynəlxalq təşkilatların gənclər proqramına qoşulmuş, MDB və digər ölkələrin gənclər qurumları ilə əməkdaşlıq əlaqələri yaratmış, Gürcüstan, Özbəkistan, Türkiyə və Moldova ilə qarşılıqlı əməkdaşlıq müqavilələri imzalamışdır.

Çin Xalq Respublikası Ümumçin Gənclər İttifaqının dəvəti ilə Azərbaycan gənclərinin nümayəndə heyəti 1999-cu il noyabrın 12-25-də Çində rəsmi səfərdə olmuş və bir sıra faydalı görüşlər keçirmiş, 2000-ci ilin aprelində isə Çin gənclərinin nümayəndə heyəti bir həftə ərzində respublikamızda olmuş və səfərin yekunu olaraq hər iki ölkənin gənclər təşkilatları arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanmışdır.

1999-cu il oktyabrın 20-30-da ABŞ-ın Honolulu şəhərində keçirilmiş dünya gənclərinin minillik konqresində Azərbaycan gənclərinin 30 nəfərlik nümayəndə heyəti də iştirak etmişdir.

1995-ci ildən başlayaraq yeniyetmə və gənclər arasında narkomaniyanın yayılmasının qarşısını almaq üçün istər nazirlik, istərsə də Gənclər Təşkilatları Milli Şurasının xətti ilə mühüm tədbirlər görülmüş, Azərbaycanın bir sıra şəhər və rayonlarında zona müşavirələri, seminar müşavirələr keçirilmişdir. Bu tədbirlərdə beynəlxalq təşkilatların da nümayəndələri fəal iştirak etmişlər.

Göstərilən müddətdə yaradıcı gənclərin aşkar edilməsi, onlara diqqət və qayğının artırılması istiqamətində görülmüş işlər də diqqəti cəlb edir. 1999-cu ilin sentyabrında Gənclər, İdman və Turizm Nazirliyinin kollegiyasında "Yaradıcı gənclər üçün mükafatların təsis edilməsi haqqında" məsələ müzakirə edilmiş və qəbul edilmiş qərara uyğun olaraq müxtəlif sahələr üzrə layiq görülmüş 21 istedadlı gəncə 2 fevral – Azərbaycan Gəncləri Günündə mükafatlar təqdim edilmişdir.

1999-cu ilin mayında gənc rəssamların əsərlərindən ibarət "Land art"mövzusunda rəsm sərgisi, sentyabrda gənc rəssamların, oktyabrda gənc bəstəkarların yaradıcılıq simpoziumları, respublika Xarici İşlər Nazirliyi və YUNESKO ilə birlikdə məktəblilər arasında "Azərbaycan uşaqları da rəsm çəkir" mövzusunda rəsm müsabiqəsi keçirilmişdir.



Gənc ifaçıların iki ildən bir keçirilməsi nəzərdə tutulan respublika estrada-mahnı müsabiqəsinin qalibləri 1997-ci ildən başlayaraq "2 fevral – Azərbaycan Gəncləri Günündə "Respublika" Sarayında keçirilən Qala konsertdə mükafatlandırılır.

Gənc yazıçı və şairlərin qarşılaşdığı problemlərin qismən də olsa aradan qaldırılması məqsədilə onların bir qrupunu Azərbaycan Prezidenti Heydər Əliyev şəxsən qəbul edərək onlarla səmimi söhbət etmiş, müvafiq nazirlik və təşkilatlara lazımi göstərişlər vermişdir.

Yeniyetmə və gənclərlə vətənpərvərlik tərbiyəsi işinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu məqsədlə Gənclər və İdman, Təhsil və Müdafiə nazirlikləri birgə 1998-ci il martın 4-də "Gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yaxşılaşdırılması yolları" mövzusunda respublika elmi-praktiki konfransı keçirilmişdir.

Əsrin sonuna doğru uşaqlarla iş sahəsində dövlət siyasətini müəyyənləşdirən Milli Konsepsiyanın hazırlanması, 1996-cı ildə Respublika Uşaq Təşkilatının yaradılması bu sahədə işi xeyli yaxşılaşdırmağa imkan vermişdir. 2000-ci il iyunun 1-də Uşaq hüquqlarının müdafiəsi günü münasibəti ilə valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün "Günəş" festivalı, iyunun 13-də "Heydər Əliyev milli dövlətçilik ideologiyasının banisidir" və s. mövzularda konfrans, uşaqların yay istirahəti və asudə vaxtının təşkili ilə bağlı çoxsaylı tədbirlər keçirilmişdir.

Gənclərin Prezident, Milli Məclis və bələdiyyə seçkilərində fəal iştirakının təmin olunmasında 1998-ci il fevralın 24-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin Øl Ümumrespublika toplantısında respublika Prezidenti Heydər Əliyevin nitqindən irəli gələn vəzifələrin öyrənilməsi və təbliği gənclər təşkilatlarının fəaliyyətində mühüm yer tutmuşdur. Bu məqsədlə "Heydər Əliyev siyasi məktəbini öyrənirik" mövzusunda Bakı şəhəri üzrə gənc təbliğatçıların müntəzəm məşğələləri keçirilmişdir.

Əlbəttə, yuxarıda deyilənlər gənclərlə iş sahəsində həyata keçirilmiş tədbirlərin yalnız müəyyən hissəsini təşkil edir. Bu tədbirlər gənclərimizin Heydər Əliyev tərəfindən göstərilən qayğı və diqqətlə əhatə olunmalarının parlaq təzahürü formasında Azərbaycan gəncliyinin müstəqil dövlət quruculuğunda fəal iştirakının artmasında mühüm rol oynamışdır.

1994-2000-ci illərdə respublikada gənclər arasında bədən tərbiyəsi və idmanın inkişafı sahəsində də mühüm nailiyyətlər qazanılmışdır ki, bunlarda Gənclər, İdman və Turizm Nazirliyi ilə yanaşı gənclər təşkilatlarının da böyük əməyi olmuşdur.

Hələ 1994-cü ildə bir neçə beynəlxalq yarışda iştirak edən Azərbaycan idmançıları ölkəyə 2 qızıl, 15 gümüş və 22 bürünc medalların gətirilməsinə nail oldular.

1995-ci il martın 5-də Bakıda Respublika Əl Oyunları Sarayında Azərbaycan milli yığma komandalarının XXVI Yay Olimpiya Oyunlarına (Atlanta şəhəri, 1996) hazırlığını nümayiş etdirmək məqsədilə keçirilən idman baxışında iştirak edən dövlət başçısı Heydər Əliyev yüksək nailiyyətlər əldə etmiş idman xadimlərinin, idmançıların və məşqçilərin işinə yüksək qiymət verərək respublikada bədən tərbiyəsi və idmanın bütün qayğılarını öz üzərinə götürdüyünü bəyan etdi. Bundan ruhlanan idman ictimaiyyəti, idmançılar və məşqçilər respublikada bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi uğrunda əsl mənada fəal mübarizəyə qoşuldular. Elə həmin il istər respublikada, istərsə də beynəlxalq yarışlarda müstəqil respublikamızın idmançıları ölkəyə 23 qızıl, 3 gümüş, 22 bürünc medal gətirdilər.

Bu nailiyyətlərə prezident Heydər Əliyev yüksək qiymət verdi. O, 1995-ci il dekabrın 30-da beynəlxalq yarışlarda böyük nailiyyətlər qazanmış idmançıları və məşqçiləri qəbul edərək onlara xoş arzularını bildirmiş və mükafatlar təqdim etmişdi. Heydər Əliyev idmançıların əməyini yüksək qiymətləndirərək hətta obrazlı bir müqayisə aparır və bildirir ki, yalnız Azərbaycanın dövlət başçısı *hər hansı bir ölkəyə gələrkən* və bir də ki, idmançılarımız beynəlxalq yarışlarda çempion adı qazanarkən Azərbaycan himni səslənir, Azərbaycanın dövlət bayrağı qaldırılır.

XXVI Yay Olimpiya Oyunlarına hazırlığın yekun mərhələsi 1996-cı il iyunun 29-da "Gənclik" beynəlxalq turizm mərkəzində Prezident Heydər Əliyevin idmançıların yolasalma mərasimi ilə başa çatmışdır.

Ümumiyyətlə, idmançılarımız 1996-cı ildə ayrı-ayrı idman növləri üzrə 80-dən çox respublika yarışında, 70-dən çox beynəlxalq turnirdə iştirak etmiş, Avropa və dünya birinciliyi, kubok yarışlarında 68 medal, o cümlədən 22 qızıl, 17 gümüş, 29 bürünc medal qazanmışlar.

1997-ci il idmançılarımız üçün xüsusilə fərəhli oldu. Həmin il idmançılarımız müxtəlif səviyyəli beynəlxalq yarışlarda 49 qızıl, 46 gümüş, 37 bürünc medal əldə etdilər.

1998-ci ildə respublika Milli Olimpiya Komitəsinin (MOK) konfransının keçirilməsi, İlham Əliyev prezident olmaqla MOK-un yeni rəhbərliyinin seçilməsi ölkəmizdə idmanın inkişafına güclü təkan verdi.



MOK-un prezidenti İlham Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin Avropa Olimpiya Komitəsinin məclisində iştirakı, orada Beynəlxalq və Avropa olimpiya komitələrinin rəhbərləri ilə görüşlər Azərbaycanın Dünya Olimpiya hərəkatında fəal iştirak etmək arzusunda olduğunu beynəlxalq idman ictimaiyyəti qarşısında bir daha nümayiş etdirdi.

*MOK ilə Gənclər və İdman Nazirliyinin birgə fəaliyyəti nəticəsində* Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında idmançılarımızın iştirakı təmin edildi.

1998-ci ilin ən mühüm idman hadisələrindən biri də Sidneydə 2000-ci ildə keçiriləcək XXVII Yay Olimpiya Oyunlarına hazırlığın başlanması və bu məqsədlə hazırlıq proqramının qəbul edilməsi oldu.

Həmin ildə Azərbaycan Prezidentinin imzaladığı və Milli Məclisin qəbul etdiyi "Bədən tərbiyəsi və idman haqqında" Qanunun qüvvəyə minməsi idmanın hüquqi bazasının təminatını gücləndirdi.

1998-ci ildə idmançılarımız dünya, Avropa Kuboku yarışlarında və çempionatlarında uğurla çıxış edərək respublikamıza 168 medal, o cümlədən 60 qızıl, 45 gümüş, 63 bürünc medal gətirdilər.

1999-cu il idmançılarımızın əldə etdiyi nailiyyətlərin artması baxımından daha əlamətdar oldu. Həmin il dünyanın müxtəlif ölkələrində keçirilmiş 179 beynəlxalq yarışda Azərbaycanın 1200 nəfər idmançısı iştirak edərək 166 medala, o cümlədən Olimpiya idman növləri üzrə 15 qızıl, 14 gümüş və 21 bürünc medala sahib olmuş, Olimpiya oyunlarına 12 lisenziya almışlar.

2000-ci ildə respublikamızın bütün bölgələrini əhatə edən Yeniyetmələrin II İdman Oyunları keçirilmiş, 62 şəhər və rayondan gəlmiş 50 minə yaxın yeniyetmə yarışlarda iştiraka cəlb edilmişdi.

2000-ci il avqustun 26-da "Gənclik" istirahət bazasında olimpiyaçılarla keçirilmiş görüş yəqin ki, uzun illər xatirələrdə yaşayacaqdır. Həmin gün dövlət başçımız Avstraliyanın Sidney şəhərində keçiriləcək XXVII Yay Olimpiya Oyunlarında iştirak etmək hüququ qazanmış 31 nəfər idmançımızı öz xeyir-duası ilə yola saldı.

Fərəhlə qed etmək olar ki, olimpiyaçılarımız Heydər Əliyevə verdikləri sözə layiqincə əməl etdilər. Onlardan iki nəfəri (Zemfira Meftahəddinova, Namiq Abdullayev) qızıl, bir nəfəri (Vüqar Ələkbərov) bürünc medala layiq görüldülər. Olimpiya komandası tərkibinə daxil olan digər idmançılarımız da yüksək nailiy-

yətlər əldə edərək ümumi komanda hesabında 199 ölkə arasında 34-cü yeri tutaraq ölkəmizin şərəfini ucaltdılar.

Göstərilmiş nəticələrə yüksək qiymət verən Azərbaycan Prezidenti Heydər Əliyev oktyabrın 18-də Prezident sarayında olimpiyaçılarla görüşərək bir neçə idmançımızı orden və medallarla təltif etdi, onlara orden və medallarını, pul mükafatlarını şəxsən özü təqdim etdi. Görüşdə böyük nitq söyləyən Heydər Əliyev Azərbaycan idmanının yüksəliş yolunda olduğunu bir daha qeyd edərək, idmançıları yüksək nailiyyətlər əldə etmələri münasibətilə ürəkdən təbrik etdi.

Görüşdə Azərbaycan MOK-un prezidenti İlham Əliyev, boks üzrə bürünc mükafatçı Vüqar Ələkbərov, qızıl mükafatçılar Zemfira Meftahətdinova, Namiq Abdullayev, stend atıcılığı üzrə Azərbaycan yığma olimpiya komandasının baş məşqçisi Hafiz Cəfərov, MOK-un baş katibi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Ağacan Əbiyev çıxış edərək Azərbaycan idmanının inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün idmançılar adından dövlət başçısı Heydər Əliyevə öz minnətdarlıqlarını bildirdilər.

Qeyd olunmalıdır ki, 2001-ci ilin əvvəlindən başlayaraq idmançılarımız bir çox beynəlxalq yarışlarda iştirak edərək yüksək nəticələr göstərmişlər. Bu isə Azərbaycan gəncliyinin, o cümlədən onların ən sağlam, gümrah və güclü hissəsini təşkil edən idmançılarımızın yeni əsrdə və minillikdə daha böyük uğurlar qazanacağından, ərazi bütövlüyümüzə nail olacağından, öz torpaqlarının qanuni sahibləri kimi daim onun keşiyində duracağından xəbər verməklə yanaşı, həm də xalqımızın yeni gözəl nəsil tərbiyə etdiyini və yetişdirdiyini bir daha bütün dünyaya nümayiş etdirir. Bu uğurlar ilk növbədə dövlətimizin gənclər siyasətinin parlaq nəticəsi kimi qiymətləndirilə bilər.



# VI FƏSİL

# SAĞLAMLIQ VƏ ƏTRAF MÜHİTİN QORUNMASI

## § 1. Səhiyyə islahatları

Respublikamızda səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində son on ildə əldə edilən nailiyyətlər möhtərəm Prezident Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ölkə başçımızın yeritdiyi böyük siyasətin nəticəsində səhiyyə sahəsində də həyata keçirilən islahatlar xalqın sağlamlığına dövlət səviyyəsində göstərilən müstəsna qayğı və diqqətin əsl mənada parlaq nümunələri sayıla bilər.

İndi Azərbaycan səhiyyəsinin uğurları təkcə respublikamızda, keçmiş postsovet məkanında deyil, həm də inkişaf etmiş ölkələrdə, o cümlədən, ABŞ, İngiltərə, Fransa, Almaniya, Kanada, İtaliya və s. tərəfindən təsdiq edilir və qəbul olunur. Əlbəttə, qısa müddətdə belə yüksək səviyyənin əldə edilməsi həm də onunla izah edilir ki, hələ 1969-1982-ci illərdə respublikamıza rəhbərlik edərkən, eləcə də 1982-1987-ci illərdə SSRİ rəhbərlərindən biri olarkən Heydər Əliyev respublika həyatının bütün sahələri kimi, səhiyyəmizin də yüksəlişini təmin etmiş, onun hərtərəfli inkişafı üçün bütün mümkün tədbirləri həyata keçirmişdir. Həmin dövrdə yüzlərlə müasir səhiyyə obyektləri inşa edilmiş, mövcud tibb müəssisələrinin yarıdan çoxu yenidən qurulmuş, Bakıda və respublikanın digər şəhərlərində ittifaq əhəmiyyətli ixtisaslaşdırılmış mərkəzlər açılmış və bunlar saysız-hesabsız miqdarda ən yeni cihaz və avadanlıqlarla, tibbi ləvazimatlarla təmin olunmuş, ittifaqda və xarici ölkələrdə çoxsaylı yüksək ixtisaslı elmi-tibbi kadrlar hazırlanmışdır.

Beləliklə, səhiyyəmiz indiki mövcud ağır iqtisadi şəraitdə, ilk növbədə həmin möhkəm təməlin əsasında inamla yaşamış, uğurla tərəqqi etmiş və xalqımızın sağlamlığının keşiyində dayanmışdır.

Son illərdə ölkə başçısının bilavasitə rəhbərliyi, diqqəti və dəstəyi ilə Səhiyyə Nazirliyi sistemində ardıcıl və məqsədyönlü iş görülmüş, islahatlar aparılmışdır. Bu işdə ilk əvvəl səhiyyənin hüquqi-normativ bazasının təkmilləşdirilməsi və dünya standart-

ları səviyyəsinə qaldırılması daim diqqət mərkəzində olmuşdur. Həmin məqsədlə bir sıra qanunlar ("Əczaçılıq fəaliyyəti haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında" və s.) işlənib hazırlanmış və Milli Məclis tərəfindən təsdiq edilmişdir.

Azərbaycan Respublikası ərazisində AİDS-in yayılmasının qarşısının alınması üzrə və vərəm əleyhinə proqramlar fəaliyyət göstərir.

Səhiyyə Nazirliyinin islahatlar proqramı hazırlanmış və onun icrasına başlanmışdır. Azərbaycan Prezidentinin respublikada "Səhiyyə sahəsində İslahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" 13 mart 1998-ci il tarixli sərəncamı səhiyyənin bütün sahələrini əhatə edən islahatların daha geniş miqyasda və sürətlə aparılması üçün şərait yaratmışdır.

Səhiyyə orqanlarının idarəetmə aparatlarında bir-birini təkrarlayan struktur bölmələrin ixtisar edilməsi; müalicə-profilaktika müəssisələri tərəfindən əhaliyə göstərilən pullu xidmətlərin genişləndirilməsi; özəl, qismən və tam təsərrüfat hesabı ilə işləyən tibb müəssisələri yaradılması yolu ilə əhaliyə göstərilən tibbi xidmətin keyfiyyət və səmərəsinin artırılmsı və s. həmin islahatların əsasını təşkil edir.

Hazırda Səhiyyə Nazirliyi sistemi strukturu ümumi çarpayı fondu 74600 olan 783 xəstəxanadan, 1646 ambulator poliklinika müəssisəsi, 743 həkim ambulatoriyası, 12 elmi-tədqiqat institutu, Azərbaycan Tibb Universiteti, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu və 9 orta tibbi təhsil məktəbindən ibarətdir. Respublikanın tibb müəssisələrində 29 min həkim və 67 min orta tibb işçisi çalışır.

Ölkə Prezidentinin tövsiyəsinə uyğun olaraq, səhiyyə sistemində islahatlar yuxarıdan, yəni Səhiyyə Nazirliyinin aparatından başlanılmışdır. Nəticədə Səhiyyə Nazirliyi və Bakı Baş Səhiyyə İdarəsinin aparatında struktur dəyişikliyi aparılaraq bir-birini təkrar edən paralel vəzifələr və idarələr ləğv edilmiş, struktur bölmələrinin sayı azaldılmışdır; respublikanın şəhər və rayon səhiyyə orqan və müəssisələrində də analoji struktur dəyişiklikləri aparılmışdır; respublika rayonlarının demoqrafik, coğrafi-iqlim xüsusiyyətlərini, müalicə-profilaktika müəssisələrinin iş yükünü nəzərə alaraq, onların strukturunun və ştat vahidlərinin sanitar-texniki normativlərə və əhalinin tələbatına uyğunlaşdırılması istiqamətində geniş iş aparılmış, artıq struktur və vəzifələr ixtisar edilmişdir.

Keçid dövründə səhiyyədə mütərəqqi dəyişikliklərin aparılması və yeni səhiyyə sistemini qurmaq məqsədilə 1994-cü ilin



dekabrında Azərbaycan Respublikası Prezidenti ilə BMT-nin YUNİSEF təşkilatının rəhbərliyi "əməkdaşlıq proqramı" imzalamışlar. Proqrama uyğun olaraq, islahatlara digər bölgələrə nisbətən uşaq ölümünün yüksək, sağlamlıq və səhiyyə göstəricilərinin aşağı səviyyədə olduğu Quba rayonunda başlamaq qərara alındı və bu məqsədlə "Quba layihəsi" hazırlandı. Səhiyyə Nazirliyinin 27 dekabr 1995-ci il tarixli əmri ilə Quba rayonunda başlanan və bu gün də davam edən islahatlar nəticəsində hələ 1996-cı ildə rayonun 27 tibb müəssisəsi yenidən təşkil edilərək 20 tibb müəssisəsində cəmləşdirildi və bu zaman 465 çarpayı, 519 ştat vahidi məqsədyönlü şəkildə ixtisar edildi ki, nəticədə 333 milyon manat dövlət vəsaitinə qənaət etmək mümkün oldu. Əməkdaşlıq proqramına uyğun olaraq YUNİSEF təşkilatı Quba rayonunda səhiyyə islahatlarının aparılması üçün baza yaratmaq məqsədilə əvəzsiz olaraq ümumi dəyəri 200 min ABŞ dollarından artıq olan dərman preparatları, ləvazimat və avadanlıq verdi. Tibb müəssisələrində ödənişli tibbi xidmətin və dərman satışının həyata keçirilməsi 1996-1997-ci illərdə dövlət büdcəsi ilə yanaşı, daha 310 milyon manat vəsait toplamağa imkan verdi ki, bu da həm tibb müəssisələrinin maddi-texniki bazasını möhkəmləndirməyə, həm də tibb işçilərinin məvacibini artırmağa şərait yaratdı; imtiyazlı şəxslərə və güzəştlilərə dövlət büdcəsindən əlavə 84 milyon manat məbləğində dərman buraxıldı.

Aparılmış islahatlar rayonun əhalisinin tibbi xidmətə olan ehtiyacının 60 faizinin, dərmanlara olan ehtiyacının isə 40 faizinin pulsuz ödənilməsinə imkan verdi.

Bir qədər sonra Masallı, Lənkəran, Cəlilabad və Səlyan rayonlarında da bu proqramın icrasında uğurlar əldə edildi.

İslahatlara başlarkən səhiyyədə ən çox narahatlıq doğuran problemlərdən biri onun maliyyələşdirilməsi idi.

Məlum olduğu kimi, 1988-ci ildən başlayaraq, respublika səhiyyə sisteminin yeganə maliyyələşmə mənbəyi olan dövlət büdcəsindən ayrılan vəsait ildən-ilə azalaraq artıq 1994-cü ilədək böhranlı vəziyyət yaratmışdı və yalnız möhtərəm Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı bu fəlakətli hala son qoymaq üçün addımlar atılmasına yol açdı. Qətiyyətlə demək olar ki, manatın nominal dəyərinə toxunmadan 1994-cü ildən başlayaraq, hər il dövlət büdcəsindən səhiyyə sisteminə ayrılan vəsaitin dinamikası yalnız yüksələn xətli olmuşdur.

Səhiyyəyə ayrılan dövlət büdcəsi ilə yanaşı, Azərbaycan Prezidenti Heydər Əliyevin hələ 24 oktyabr 1994-cü il tarixli fərmanı ilə səhiyyə sistemində özünümaliyyələşdirməyə keçidin

genişləndirilməsi nəzərdə tutulurdu və bu tədbiri həyata keçirmək üçün həmin ilin noyabrında Səhiyyə Nazirliyi strukturunda Büdcədənkənar Tibbi Xidmət İdarəsi yaradılmışdı.

Səhiyyə sistemində özünümaliyyələşdirmənin genişləndirilməsi sonralar Azərbaycan Prezidentinin 7 aprel 1996-cı il tarixli sərəncamına və Milli Məclisin 6 mart 1996-cı il tarixli qərarına əsasən daha da inkişaf etdirildi. Bu məqsədlə həyata keçirilmiş tədbirlər proqramı nəticəsində Səhiyyə Nazirliyi sistemində əgər 1994-cü ildə cəmisi 536,2 milyon manat büdcədənkənar vəsait əldə edilmişdisə, həmin rəqəm sonrakı illərdə sabit şəkildə artaraq 2000-ci ildə 64 milyard manata çatdı.

Hazırda Səhiyyə Nazirliyi sistemində fəaliyyət göstərən 4310 səhiyyə idarə və müəssisəsinin 414-ü əhaliyə pullu tibbi xidmət göstərir.

Səhiyyə sistemində özünümaliyyələşdirməyə keçidlə bağlı aparılan idarəetmə və struktur dəyişiklikləri nəzərəçarpacaq keyfiyyət dəyişikliyinə səbəb olmuşdur. Mühüm nəticələrdən biri budur ki, pullu tibbi xidmət göstərən səhiyyə idarə və müəssisələrində tibbi işçilərin əmək haqqı bir neçə dəfə artırılmış, yeni mükafat sistemi yaradılmışdır. Hazırda pullu xidmət göstərən tibb işçisinin əmək haqqının miqdarında məhdudiyyət yoxdur və bu, tamamilə görülən işin kəmiyyət və keyfiyyətindən asılıdır. Beləliklə, özünümaliyyələşdirməyə keçməklə, bir tərəfdən, 10000-ə qədər ştatın büdcədən çıxarılması hesabına büdcəyə 10 milyard manata qədər vəsait qənaət edilmişdir, digər tərəfdən, əhalinin imtiyazlı və güzəştli qrupuna pulsuz ixtisaslaşdırılmış tibbi xidmət göstərilməsi mümkün olmuşdur: təhlil göstərir ki, büdcədənkənar vəsaitlərin hesabına hər il yüz minlərlə vətəndaşa tam pulsuz ixtisaslaşdırılmış xidmət göstərilmişdir.

Əlbəttə, bura tibb və təhsil işçilərinin dövri tibbi müayinəsinin tam pulsuz, özəl sektorun hesabına aparılması, diabet xəstələrinin və şəhid ailə üzvlərinin pulsuz müayinə və müalicəsi, 9 milyard manatadək vəsaitin sosial müdafiə fonduna keçirilməsi, son illər 200-dən çox tibb idarəsində cari və əsaslı təmir işlərinin aparılması, yeni müasir tibb texnikası və avadanlıqlar alınması da əlavə edilərsə, o zaman özünümaliyyələşdirmə sisteminin üstünlükləri tamamilə aydın olar.

Səhiyyədə aparılan islahatlar çərçivəsində əsas nailiyyətlərdən biri də – özəl səhiyyə sisteminin tətbiq edilməsidir. Bu istiqamətdə hüquqi-normativ baza yaradılmış, "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Hazırda respublikamızda stasionar tipli "Əfsanə"



müalicə-diaqnostika mərkəzi, "Nord Star" doğum evi, "Ekzimer-lazer mərkəzi", "Medikalsentr" Türk-Amerika müəssisəsi, "Med-servis" özəl tibb mərkəzi, "Medi-klub" kimi özəl tibb müəssisələri fəaliyyət göstərir. Özəl tibbi xidmətin tətbiqi nəticəsində 10000 nəfərədək işçi, o cümlədən, 2500 həkim və 4000 orta tibb işçisi işlə təmin edilmiş, əhaliyə göstərilən tibbi xidmətin qiyməti 2 dəfəyədək aşağı salınmışdır. Özəl səhiyyə sisteminin tətbiqi nəticəsində təkcə 2000-ci ildə dövlət büdcəsinə 5 milyard manata qədər vəsait daxil olmuşdur. Özəl səhiyyə sahəsində islahatlar davam etməkdədir.

Səhiyyə islahatları çərçivəsində əsas istiqamətlərdən biri də sığorta təbabət sisteminin tətbiqidir. 1999-cu ildə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Hazırda 10-dək könüllü tibbi sığorta kompaniyaları yaradılmış və fəaliyyət göstərir.

Ermənistanın Azərbaycana təcavüzü nəticəsində işğal olunmuş ərazilərdən öz doğma yurdunu tərk etməyə məcbur olmuş bir milyondan artıq qaçqın və məcburi köçkünün tibbi təminatı ilə bağlı problemlərin həlli daim Səhiyyə Nazirliyinin diqqət mərkəzində olmuşdur.

1994-cü ilin dekabr ayında Səhiyyə Nazirliyi Kollegiyasının İmişli rayonunda keçirilmiş ilk səyyar geniş iclasında qaçqınlara göstərilən tibbi xidmətin strategiyası müəyyənləşdirilmiş, respublikamızda erməni təcavüzü nəticəsində dağıdılmış 300-dən artıq səhiyyə obyektinin bərpası proqramının 1 milyard dollar vəsait tələb edən layihəsi Nazirlər Kabinetinə təqdim olunmuşdur. Nazirliyin baş mütəxəssisləri, klinik xəstəxana və elmi-tədqiqat institutlarının əməkdaşlarından ibarət ixtisasalaşdırılmış briqadalar qaçqınların kütləvi məskunlaşdığı yerlərə göndərilmiş, onların arasında xəstəliklərin aşkar edilməsi məqsədilə müayinələr aparılmış, xəstələrə mütəmadi olaraq tibbi yardım göstərilmişdir. Bu iş bu gün də davam edir və görünür, torpaqlarımız erməni işğalından azad edildikdən və qaçqınlar öz doğma yurdlarına qayıtdıqdan sonra hələ xeyli müddət davam edəcəkdir.

Qaçqınlara göstərilən tibbi xidmətin vəziyyəti daim araşdırılır və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komissiyası ilə birgə rayon icra hakimiyyəti rəhbərlərinin, respublikada fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların nümayəndələrinin iştirakı ilə Nazirliyin Kollegiyasının səyyar iclaslarında müzakirə edilir.

Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olmuşların ailələri də daim tibb ictimaiyyətinin diqqət mərkəzindədir. Möhtə-

rəm Prezidentimiz Heydər Əliyevin 1994-cü ildə qaçqınlarla görüşü zamanı verdiyi tövsiyələrə uyğun olaraq Səhiyyə Nazirliyinin təşəbbüsü ilə həmin ildən başlayaraq şəhid ailələri respublikanın bütün bölgələrində tibb müəssisələrinin himayəsinə götürülmüş, hər ailədən bir nəfərə 18 yaşına çatana qədər hər ay orta aylıq əmək haqqı məbləğində müavinət verilir.

İslahatlar nəticəsində son illər respublikada bir sıra yoluxucu xəstəliklərə qarşı mübarizə işi müvəfəqiyyətlə təşkil edilmişdir. Məsələn, 1994-cü ilin ikinci yarısından difteriya xəstəliyinin kəskin şəkildə artması (841 hadisə qeydə alınmışdı) 1995-ci ildə ən yüksək səviyyəyə (883 hadisə) çatmışdı. Xəstələrin 50 faizini 14 yaşa qədər uşaqların təşkil etməsi vəziyyəti daha da təhlükəli edirdi. Ümumdünya Səhiyyə Təşkilatının və YUNİSEF-in xətti ilə respublikamıza humanitar yardım kimi vaksin preparatlarının vaxtında çatdırılması ilk növbədə uşaqların kütləvi peyvəndə cəlb olunmasına imkan verdi. Artıq 1994-cü ilin dekabr və 1995-ci ilin may aylarında bütün məktəblilərin 97-98 faizi, 1995-ci ilin noyabr-dekabr aylarında Milli İmmunlaşdırma Aylığında respublika əhalisinin 55 yaşa qədər 5 milyon 905 min nəfəri (94,2 faizi), 1996-cı ildə isə 40 yaşa qədər əhalinin 95,9 faizi difteriyaya qarşı peyvəndə cəlb edildi. Nəticədə 1996-cı ildə 1995-ci illə müqayisədə xəstəlik 6 dəfə azaldı, sonrakı illərdə isə ən minimum səviyyəyə endirildi (1999-2000-ci illərdə cəmisi 24 hadisə).

1996-cı ildə həmçinin 1990-1995-ci illərdə respublikada geniş yayılmış poliomielit xəstəliyinin (Avropa üzrə xəstələnmənin 50 faizi) aradan qaldırılması sahəsində uğurlu nəticələr əldə edildi.

Azərbaycan Prezidenti cənab Heydər Əliyevin peyvənd tədbirində və Ümumdünya Sağlamlıq Günündə şəxsən iştirakı poliomielitə qarşı mübarizə probleminin dövlət səviyyəsində keçirildiyini bir daha təsdiq etdi.

Əsas nailiyyətlərdən biri də qızılca ilə xəstələnmənin kəskin surətdə azalmasıdır. 1994-cü illə müqayisədə xəstəlik 30 dəfə azalmışdır.

Son illər respublikada malyariya xəstəliyinə görə də epidemioloji vəziyyətin xeyli gərginləşməsi müşahidə edilmişdi. Bu səbəbdən 1997-ci il iyulun 19-da Prezident sarayında keçirilən respublika müşavirəsində Prezident Heydər Əliyev yoluxucu xəstəliklərlə, o cümlədən, malyariya ilə mübarizəni ümumdövlət siyasəti səviyyəsinə qaldıraraq bu genişmiqyaslı işin əlaqələndirilməsini və yüksək səviyyədə təşkilini mühüm vəzifə kimi irəli sürdü.



1997-ci il iyulun 26-da Səhiyyə Nazirliyində keçirilən Əlaqələndirmə Müşavirəsində həmin problem səhiyyənin ən vacib vəzifəsi adlandırıldı və bütün tibb ictimaiyyəti xəstəliyin vaxtında aşkar edilib müalicə olunması üçün səfərbər edildi.

Eyni zamanda malyariya xəstəliyinə qarşı tədbirlərin həyata keçirilməsi üçün dövlət səviyyəsində beynəlxalq və qeyri-dövlət təşkilatlara müraciət edildi. "Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Federasiyası", Hollandiyanın və Belçikanın "Sərhədsiz həkimlər" təşkilatı, YUNİSEF təşkilatı, ACİP neft şirkəti, Küveytin "Xəstələrə Yardım Cəmiyyəti" və b. bu işə böyük yardım göstərdilər.

Malyariya xəstəliyinə qarşı irihəcmli təşkilati, müalicə-profilaktik və əksepidemik tədbirlərin aparılması tez bir zamanda öz müsbət nəticəsini verdi. Belə ki, son 5 ildə xəstəlik halları 10 dəfə azalmışdır. Hazırda söhbət malyariyanın bir xəstəlik kimi tamamilə ləğvindən gedir. Qeyd edək ki, bu sahədə əldə olunmuş təcrübəni bölüşdürmək və onu daha yüksək səviyyəyə qaldırmaq məqsədilə 2001-ci ilin noyabrında Bakıda malyariya üzrə beynəlxalq konfrans keçiriləcəkdir.

Vərəmlə mübarizə problemi Səhiyyə Nazirliyi tərəfindən əsas prioritet sahə kimi irəli çəkilmiş və 2000-ci il vərəmə qarşı mübarizə ili elan olunmuş, həyata keçirilmiş bir sıra mühüm tədbirlər beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir.

Bütün xəstələrin (4 min nəfərdən artıq qeydiyyata alınmışdır) müalicəsi, lazım olan dərman, ərzaq və nəqliyyat xərcləri səhiyyə islahatları çərçivəsində əldə edilmiş büdcədənkənar vəsait hesabına həyata keçirilmişdir.

1999–2000-ci illərdə Bakı şəhərində yoluxucu xəstəliklərə həsr edilmiş bir neçə beynəlxalq konfrans, seminar və digər toplantılar, həmçinin 49 ümumrespublika və rayonlararası seminar-müşavirə keçirilmişdir. Seminar-müşavirələrin səkkizi Ümumdünya Səhiyyə Təşkilatının mütəxəssisləri tərəfindən aparılmışdır.

Səhiyyənin prioritet sahələrindən biri olan ana və uşaqların sağlamlığının mühafizəsi sahəsində də xeyli işlər görülmüşdür.

1996-cı ildə Səhiyyə Nazirliyi tərəfindən BMT-nin Əhali fondunun təşəbbüsü və birbaşa maliyyə dəstəyi ilə "Azərbaycanda reproduktiv sağlamlıq və ailə planlanması sahəsində xidmətlərin keyfiyyətinin planlaşdırılması və yaxşılaşdırılması üzrə" Milli Proqram işlənib hazırlanmışdır. Ana və uşaq ölümünün, abortların sayının azaldılmasına yönəldilmiş proqram çərçivəsində

Bakı, Gəncə, Naxçıvan, Masallı, Şəki və Qusarda yaxşı maddi-texniki bazası olan 6 regional mərkəz təşkil edilmişdir. İki mərhələdə həyata keçirilən proqramın birinci mərhələsi 1996-1999-cu illəri əhatə etmişdir. BMT-nin Əhali Fondu tərəfindən ayrılmış vəsait hesabına həyata keçirilən proqramın 2000-2004-cü illəri əhatə edəcək ikinci mərhələsinə 2000-ci ilin noyabr ayında başlanmışdır.

Proqram Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Reproduktiv Sağlamlıq üzrə Milli Ofis tərəfindən icra edilir. Milli Ofis artıq Reproduktiv Sağlamlıq Milli Siyasət Sənədini hazırlamış, bu mövzuya dair seminar-müşavirə və Ümumdünya Səhiyyə Təşkilatı nümayəndəsinin iştirakı ilə konfrans keçirmişdir. Hazırda yeni yaradılacaq 15 regional mərkəzin müəyyən edilməsi üçün iş aparılır.

Əsrin "bəlası" sayılan narkomaniya ilə mübarizə probleminə Azərbaycan Prezidenti Heydər Əliyevin dövlət səviyyəsində verdiyi əhəmiyyət səhiyyə işçiləri qarşısında mühüm vəzifələr qoyur. Bu məqsədlə "Azərbaycan Respublikasında 2000-ci ilədək narkomanlığa, narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə üzrə" ümummilli proqramın tələblərinə uyğun olaraq narkomaniya və xronik alkoqolizmlə mübarizədə bir sıra konkret tədbirlər həyata keçirilmişdir.

Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutlarının fəaliyyətində, elmi tədqiqatların aparılması və tibbi kadrların hazırlanması sahəsində geniş islahatlar aparılmışdır. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Rusiya Federasiyası Səhiyyə Nazirliyi arasında əldə olunmuş razılaşmaya uyğun olaraq respublikanın 13-dən çox elmi-tədqiqat institutları və mərkəzləri elmi-praktik və xəstə mübadiləsi üzrə Rusiyanın müvafiq elmi mərkəzləri ilə müqavilələr bağlamışlar. Analoji müqavilələr MDB dövlətləri və bir sıra xarici dövlətlərlə də imzalanmışdır. Bu müqavilələr elmi-tədqiqat işlərinin yerinə yetirilməsi müddətlərinin qısaldılmasına və elmi işlərin praktik tələblərə daha çox cavab verməsinə şərait yaratmışdır.

Səhiyyə islahatları çərçivəsində Tibb Universitetində mühüm işlər görülmüşdür. Universitetin 10 kafedra, kitabxana və informasiya mərkəzi yerləşən yeni tədris binası və akt zalı istifadəyə verilmiş, aspirantlar və klinik ordinatorlar üçün nəzərdə tutulan ailəvi yataqxana istismara hazır vəziyyətdədir; bütün kafedralar kompüterləşdirilmiş, onların maddi-texniki bazaları möhkəmləndirilmişdir. Müstəqil dövlətimizin hərbi həkimlərə olan ehtiyacını nəzərə alaraq Hərbi-tibbi fakültə açılmışdır.



İslahatların gedişində səhiyyə obyektlərinin genişləndirilməsi və yenidən qurulması istiqamətində xeyli işlər görülmüşdür. Bir sıra səhiyyə obyektlərinin açılışında dövlət başçısı Heydər Əliyev şəxsən iştirak etmişdir. Azərbaycan Prezidentinin iştirakı ilə ilk özəl tibb xidməti şirkəti – "Medi Klub", "Respublika Artroloji Mərkəzi", "Ailə Sağlamlıq Mərkəzi", Azərbaycan Tibb Universitetinin tədris korpusu və akt zalı açılaraq istifadəyə verilmiş, Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitutunun binası müasir səviyyədə təmir edilərək yenidən qurulmuş, ən müasir cihaz və avadanlıqlarla təchiz olunaraq əhalinin xidmətinə verilmişdir; Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev binanın açılması mərasimindəki nitqində səhiyyə işçilərini bu münasibətlə təbrik edərək, onları səhiyyə sistemindəki islahatları daha da sürətləndirməyə çağırmışdır.

Azərbaycanda səhiyyə müəssisələrinin yenidən qurularaq müasir avadanlıqlarla təchiz edilməsində Yaponiya, Fransa kimi dövlətlər fəal iştirak etmişlər.

2000-ci ilin dekabr ayında Səhiyyə Nazirliyinin dünya standartlarına cavab verən Mərkəzi Klinik Xəstəxanasının açılışı, açılış mərasimində möhtərəm prezidentimizin iştirakı əsrin sonunda Azərbaycan səhiyyəsi tarixində əlamətdar hadisə oldu.

Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü və bilavasitə köməkliyi ilə, hələ SSRİ dövründə regional əhəmiyyət kəsb edən obyektlər kimi tikintisinə başlanmış Respublika Milli Onkologiya Mərkəzinin və Elmi-tədqiqat Oftalmologiya İnstitutunun tikintisinin başa çatdırılması ilə əlaqədar xarici ölkə şirkətləri ilə aparılan danışıqlar nəticəsində hər iki obyektin tikintisi respublika investisiya proqramına daxil edilmişdir.

Səhiyyənin statistik və məlumat xidməti bazasının təkmilləşdirilməsi sahəsində də müəyyən işlər görülmüş və Azərbaycan Respublikası əhalisinin sağlamlığının Milli monitorinq sistemi konsepsiyası hazırlanmış və hazırda uğurla həyata keçirilir.

Bu gün Azərbaycan səhiyyəsi dünya səhiyyəsində özünün layiqli yerini tutan və qiymətini alan bir strukturdur. 1998-ci il mayın 11-dən 16-dək keçirilən Ümumdünya Səhiyyə Təşkilatının ali orqanının sessiyasında ölkəmizdə aparılan səhiyyə islahatları yüksək qiymətləndirilərək Azərbaycana göstərilən yardımın 1999-cu ildən etibarən üç dəfə artırılması qərara alınmış, Azərbaycan Respublikasının səhiyyə naziri Əli İnsanov Ümumdünya Səhiyyə Təşkilatının Baş Assambleyasının vitse-prezidenti seçilmişdir. MDB dövlətlərinin səhiyyə sistemində əmək-

daşlıq üzrə şurasında isə Azərbaycan Respublikasında səhiyyə islahatları çərçivəsində əldə edilmiş müvəffəqiyyətlərə görə Səhiyyə Nazirliyinin rəhbərliyi "Qızıl Medal"a layiq görülmüşdür.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatının bir sıra layihələrinə cəlb edilmiş və hazırda bir çox proqramların fəal iştirakçısıdır. Digər beynəlxalq təşkilatlar və xarici ölkələrlə səhiyyə sahəsində əməkdaşlıq sahəsində xeyli iş görülmüşdür.

1997-ci ildə Bakıda keçirilən Pediatrların IV Beynəlxalq Konqresi pediatriya elmi sahəsində, eləcə də respublikamızın səhiyyə tarixində mühüm hadisəyə çevrildi. Dünya şöhrətli alim İhsan Doğramacının sədrlik etdiyi həmin konqresdə Azərbaycan Prezidenti Heydər Əliyevin şəxsən iştirak etməsi, səhiyyəmiz üçün yeni proqram sənədə çevrilən tarixi nitqi səhiyyə işçilərinin fədakar əməyinə verilən yüksək qiymətin parlaq təzahürü oldu və onları islahatlar yolunda daha cəsarətli addımlar atmağa səslədi.

Respublika həyatının bütün sahələrində olduğu kimi səhiyyə sahəsində də yeni iqtisadi sistemə uyğun olaraq həyata keçirilən islahatlar, inkişaf və tərəqqi dövlət başçımızın bilavasitə rəhbərliyi altında XXI əsrin əvvəlindən yeni vüsət almaqdadır.



## § 2. Sağlamlıq və ətraf mühitin mühafizəsi

İnsan dünyaya göz açandan təbiətin qoynunda yaşamış, onunla həmsöhbət olmuş, onun bəşər övladına bəxş etdiyi əvəzsiz nemətlərdən bəhrələnmişdir. Təbiət insan üçün tükənməz həyat mənbəyidir. Günəş, bulud, külək, yağış, çay, göl, dəniz, ot, çiçək, meşə, çəmənlik, təmiz hava – bunlar hamısı təbiətdir. Təbiət torpağımızdır, təbiət vətənimizdir. təbiət bizik, xalqımızın bu günü, sabahıdır. Təbiət bizdən heç nəyi əsirgəməmişdir. Öz övladlarına münasibətdə ana qoynu kimi qayğıkeş, mehriban, səxavətli olmuşdur. Təbiət zəngindir. Bu zənginlik, həyatın mövcudluğunun rəhni olub təbiətin özünün və onun bənzərsiz "sakinləri" olan bütün yaranmışların, bütün canlıların bir-birinə olan ehtiyacını yaratmışdır. Ona görə də həyatın qorunması üçün cəmiyyət və təbiət arasındakı müvafiq vəhdətin mühafizəsi çox vacib, ümumbəşəri vəzifə kimi qarşıda durur.

Elmi-texniki tərəqqinin son dərəcə inkişaf etdiyi, insanın təbiətə təsir göstərmək imkanlarının çoxaldığı indiki şəraitdə təbiət və cəmiyyət arasındakı vəhdətin təmin edilməsi ilk növbədə ümumiyyətlə planetimizdə, o cümlədən ayrılıqda götürülmüş hər birölkədə əlaqələndirilmiş qaydada fauna və floranın qorunmasından, torpağın, suyun, havanın ekoloji cəhətdən təmizliyinin saxlanılması, təbii sərvətlərdən səmərəli istifadə edilməsi, yeni salınmış yaşayış massivlərində bütün kommunal-məişət problemlərinin həll olunması, kənd və şəhərlərdə yaşıllıqlar salınması və sağlamlıq zonaları yaradılmasından çox asılıdır.

Məlumdur ki, insanın həyat və fəaliyyətində yaşıllıqların rolu əvəzsizdir. Yaşıllıqlar öz bioloji təsiri ilə atmosferdə oksigen balansını tənzimləyir və karbon qazının çoxalmasının qarşısını alır.

Araşdırmalar göstərir ki, Azərbaycanda bu sahədə fəal işlərə XX əsrin 70-ci illərindən başlanılmışdır. 1969-cu il iyulun 14-də Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev özünəməxsus tükənməz enerji ilə sənaye və kənd təsərrüfatının dirçəldilməsi, elm və mədəniyyətin inkişaf etdirilməsi sahəsində böyük işlər görməklə yanaşı, ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həll olunması, yaşayış məskənlərinin abadlaşdırılması və yaşıllaşdırılması məsələlərinə daim diqqətlə yanaşmışdı. Azərbaycan rəhbəri Azərbaycan partiya təşkilatının hələ 1969-cu ilin avqust plenumundakı proqram məruzəsində qarşıda duran digər

mühüm vəzifələrlə yanaşı iri sənaye şəhəri olan Bakıda əhalinin sağlamlığının qorunması üçün vacib olan yaşıllıqlar salınması, Dənizkənarı bulvarda isə Milli Park yaradılması ideyasını irəli sürmüşdü. Heydər Əliyevin təşəbbüsü və gərgin əməyi nəticəsində artıq 1970-ci ildən Bakının və Abşeronun yaşıllaşdırılmasına başlanmış, 1971-ci ildən isə bu iş geniş vüsət almışdı. Ölkə rəhbəri 1971-ci ilin fevralında yaşıllaşdırmanı ümumxalq işi elan etmiş, bütün ictimaiyyətin bu işə qoşulması təşəbbüsü ilə çıxış edərək birbaşa xalqa müraciətlə demişdi: "Əgər şəhərin hər bir sakini bir neçə il ərzində ikicə ağac əksə, Bakının ətrafında neçə-neçə park və meşə salınar". Müraciətdən az sonra yenə də ölkə başçısının təşəbbüsü ilə 1971-ci il fevralın 20-də "Bakını yaşıllaşdırmaq ümumxalq işidir!" şüarı altında iməcilik keçirilmişdi. Təkcə bir gündə 40 min adamın iştirak etdiyi iməcilikdə mindən çox ağac və kol əkilmiş, küçə və meydanlar məişət tullantılarından təmizlənmişdi. Fevralın 27-də isə iməcilik təkcə Bakıda deyil, həm də Sumqayıtda və respublikanın digər şəhərlərində keçirilmişdi. Mart və aprel aylarında da davam etdirilmiş, və bütün respublika əhalisinin iştirak etdiyi yaşıllaşdırma iməciliklərində on minlərlə ağac, bəzək və kol ağacları basdırılmış, böyük təmizlik və abadlıq işləri görülmüşdü. Bu təşəbbüslər 1971-ci il sentyabrın 7-də "Bakı şəhərini və Abşeron yarımadasını daha da yaşıllaşdırmaq tədbirləri haqqında" yüksək səviyyəli partiya və hökumət qərarının qəbul edilməsi ilə nəticələnmişdi.

İndi isə gəlin 10 il keçdikdən sonra, yəni 1981-ci il yanvarın 7-də bu sahədə görülmüş işlərin miqyası haqqında Heydər Əliyevin özünün söylədiklərinə müraciət edək: "Son on il ərzində Bakıda yaşıllıqların sahəsi 3,4 dəfə genişləndirilərək 9,6 min hektara çatdırılmışdır... Biz Bakıda ictimai istifadədə olan yaşıllıqların sahəsini 2000-ci ildə adambaşına 23 kv.m-ə çatdırmağı nəzərdə tutan mütəxəssislərin proqnozlarını öz işimizlə alt-üst etmişik. Elə bu gün şəhərimizdə adambaşına 20 kv.m. yaşıllıq düşür. Halbuki 1970-ci ildə həmin göstərici 6,5 kv.m təşkil edirdi. Beləliklə, 2000-ci ilədək yeni hesablamalar aparmaq lazımdır".

Maraqlıdır ki, həmin dövrdə respublikamızda yaşıllaşdırma sahəsində əldə edilən böyük nailiyyətlər bütün ittifaqda böyük əks-səda doğurmuşdu. Elə bunun nəticəsi idi ki, keçmiş SSRİ-də yaşıllaşdırmaya həsr olunan ilk Ümumittifaq elmi-praktik konfransı məhz Bakıda keçirilmişdi. İttifaqın 60-dan artıq şəhərindən konfransa gəlmiş nümayəndələr və qonaqlar Azərbaycanda həmin sahədə görülmüş işlərə yüksək qiymət vermiş və əldə olunmuş zəngin təcrübənin yayılmasını qərara almışdılar.



Lakin çox təəssüf ki, Heydər Əliyev respublikada hakimiyyətdə olmadığı və SSRİ rəhbərliyindəki yüksək vəzifələrdən uzaqlaşdırıldığı dövrdə gərgin əmək sayəsində salınmış yaşıllıqlar, xüsusən meşələr amansızlıqla qırılmışdı ki, bu da respublikanın ekologiyasına ciddi ziyan vurmuşdu.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə gələn Heydər Əliyev bu barədə belə demişdir: "...Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz ağacların kəsildiyini görərkən elə bildim ki, məni yaralayıblar".

Məhz 1993-cü ilin ikinci yarısından Bakı və Abşeronun yaşıllaşdırılmasına, pozulmuş ekoloji tarazlığın bərpasına, təbiətə vurulmuş yaraların sağalmasına yenidən, bu dəfə müstəqillik şəraitində, daha böyük əzmkarlıqla başlamaq mümkün oldu və bu iş indi də davam etməkdədir. 1993-cü ildən başlayaraq elə bir il olmamışdır ki, xalq möhtərəm Prezidentimizin anadan olmasının ildönümü münasibətilə iməciliklər keçirib yeni bağlar və parklar salmasın. Bakının Sabunçu, Nizami, Xətai və digər rayonlarında salınmış Heydər Əliyev bağ və parkları bu gün zəhmətkeşlərin əsl istirahət ocaqlarına çevrilmişdir. Bu parkların bəzisinin açılışında dövlətimizin başçısı şəxsən iştirak edərək öz çıxışlarında zəhmət adamlarının bu böyük təşəbbüsünü alqışlamış, doğma Bakımızın daha da gözəlləşdirilməsi üçün onları yeni-yeni fədakarlıqlara çağırmışdır.

Son illərdə Azərbycanın digər şəhərlərində, o cümlədən Gəncədə, Sumqayıtda, Naxçıvanda, habelə rayon mərkəzləri, iri kənd və qəsəbələrdə yaşıllaşdırma və abadlaşdırma sahəsində nəhəng miqyaslı işlər görülmüşdür ki, bunlarla yalnız fəxr etmək olar.

Dövlət başçımızın qayğısı sayəsində bu sahədə hüquqi tədbirlər də həyata keçirildi. Bu tədbirlər arasında Bakı şəhər İcra Hakimiyyəti nəzdində öz strukturuna görə 6 idarəni – "Yaşıllaşdırma müəssisələrinin Baş İstehsalat İdarəsi", "Bakı Şəhər İşıq İdarəsi", "Bağlar Təsərrüfatı İdarəsi", "Təbii Su Hövzələrinin və Çimərliklərin Qorunub Saxlanılması İdarəsi", "Torpaqların Rekultivasiya İdarəsi" və "Park-Bağ təsərrüfatı İdarəsi"ni özündə birləşdirən "Abadlaşdırma və Park-Bağ Təsərrüfatının İnkişafı Departamenti"nin yaradılması mühüm yer tutur.

Departamentin qarşısında duran əsas vəzifələr şəhərin abadlaşdırılması, park-bağ təsərrüfatının idarə olunması, yaşıllıqların və meşə zolaqlarının qorunması, yeni bağlar salınması,

şəhər ətrafında əmələ gəlmiş süni göllərin qurudulması, çirkabların təmizlənməsi, şəhər ərazisində olan torpaqlardan səmərəli istifadə etmək üçün torpaqların rekultivasiyasını həyata keçirmək, əhalinin sağlamlığı və ətraf mühitin mühafizəsi qayğısına qalmaqdır. Artıq departamentin fəaliyyətində ilk irəliləyişlər görünməkdədir və inamla demək olar ki, dövlət başçısının dəyərli tövsiyələri rəhbər tutulmaqla bu ilk addımlar yaxın illərdə Bakı şəhərinin və bütövlükdə Abşeronun abadlaşdırılması və yaşıllaşdırılması işində mühüm nailiyyətlərə gətirib çıxaracaqdır.

XX əsrin son rübündə ətraf mühitin mühafizəsi ümumbəşəri səviyyədə narahatlıq doğurduğu üçün bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların əlaqələrinin genişləndirilməsi və əlaqələndirilməsi xüsusilə mühüm əhəmiyyət kəsb etmişdir. Müstəqillik yoluna 10 il bundan əvvəl qədəm qoymuş Azərbaycan Respublikası üçün isə həmin təşkilatlarla əlaqələri qurmaq və gücləndirmək ən vacib fəaliyyət sahəsinə çevrilmişdir. Azərbaycan Respublikası 1997-2000-ci illərdə Türkiyə, Norveç, Gürcüstan, Qazaxıstan, Moldova, Rusiya Federasiyasının Dağıstan Respublikası ilə ətraf mühitin mühafizəsi sahəsində hökumətlərarası birgə əməkdaşlıq sazişləri imzalamış, bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. Həmin illərdə Tükənməkdə olan vəhşi heyvan və bitki növlərinin beynəlxalq ticarəti üzrə, Səhralaşmaya qarşı mübarizə üzrə, Dəniz gəmiləri vasitəsilə çirklənmənin qarşısının alınması üzrə, Atmosferin ozon qatının mühafizəsi üzrə, Ətraf mühitə təsirin transqranik kontekstdə qiymətləndirilməsi üzrə və Ətraf mühitlə bağlı informasiya əldə etmək üzrə konvensiyalar Azərbaycanın Milli Məclisi tərəfindən təsdiq edilmişdir.

Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin hazırladığı ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı 1998-ci ildə Azərbaycan Respublikası hökuməti tərəfindən qəbul edilmişdir. Bu sənəd Azərbaycan Respublikası Baş nazirinin müavini Ə.Ş.Həsənovun rəhbərliyi ilə Dünya Bankının və Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin ekspertlərinin, Milli Elmlər Akademiyası alimlərinin, ictimai ekoloji təşkilatların nümayəndələrinin birgə fəaliyyətinin nəticəsi kimi yaranmışdır. Milli Fəaliyyət Proqramında Dünya Bankının ekspertləri ilə birgə 9 fəaliyyət istiqaməti müəyyənləşdirilmişdir:

- ətraf mühit üzrə siyasət, qanunvericilik və sosial problemlər;
- Xəzər dənizinin ekoloji problemləri;
- sənaye, energetika, nəqliyyat və tullantılar;
- su ehtiyatları və atmosfer havası;



- Abşeron yarımadasının ekoloji problemləri;
- biomüxtəliflik;
- meşə və kənd təsərrüfatı;
- ekoloji sağlamlıq;
- irsi mədəniyyət.

Milli Fəaliyyət Proqramına daxil edilmiş 44 layihədən dördünün Dünya Bankı tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Bunlar aşağıdakılardır:

1. Abşeronun neftlə çirklənmiş torpaqlarının təmizlənməsi;
2. Təhlükəli civəli tullantıların daşınıb basdırılması (Sumqayıt Səthi Aktiv Maddələr Zavodu);
3. Nərə cinsli balıqların artırılması məqsədilə zavodun tikilməsi (Neftçala balıqartırma zavodu);
4. Ətraf mühiti idarəetmə sisteminin təkmilləşməsi.

Bunlardan əlavə beynəlxalq maliyyə təşkilatlarının vəsaiti hesabına bir sıra layihələr də işlənib hazırlanmışdır. Məsələn, "Bakı buxtasının təmizlənməsi" layihəsi Hollandiyanın "İvanko" firması tərəfindən həyata keçiriləcəkdir.

Son illərdə Xəzər dənizinin doğurduğu problemlər bütün Xəzəryanı dövlətləri narahat etməyə başlamışdır. Bununla əlaqədar 1999-cu ilin əvvəllərindən Xəzər dənizi üzrə beynəlxalq ekoloji proqramı həyata keçirmək üçün Bakı şəhərində "Xəzər Ekoloji Mərkəzi" yaradılmış və fəaliyyətə başlamışdır.

Beynəlxalq təşkilatların yardımı ilə həyata keçirilən digər layihələr də vardır. Məsələn, Ümumdünya Vəhşi Təbiət Fondunun Gürcüstan Ofisi tərəfindən "Qafqazın biomüxtəlifliyinin müasir vəziyyətinin təhlili və təxirəsalınmaz tədbirlərin hazırlanması" proqramı çərçivəsində müəyyən işlər görülür. Respublikanın biomüxtəlifliyinin qorunması ilə əlaqədar "Şahdağ" və "Talış" milli parklarının, Naxçıvanda "Ordubad" və "Şahbuz" Dövlət qoruqlarının yaradılması, Zaqatala Dövlət Qoruğunun qonşu respublikaların (Gürcüstan, Dağıstan) xüsusi mühafizə olunan əraziləri ilə əlaqələndirilməsi təklifləri Şimali Avrasiya Ümumdünya Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri Komissiyasının fəaliyyət planına daxil edilmişdir.

Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi respublikamızda "Təmiz istehsalat" proqramının tətbiqinə xüsusi əhəmiyyət verilməsini daim diqqət mərkəzində saxlayır. Bakı və Sumqayıtın ətraf mühiti çirkləndirən müəssisələrində – Dövlət Neft Şirkətində, "Azərkimya" İstehsalat Birliyində, "Azərenerji" Səhmdar Cəmiyyətində Rusiya-Norveç Mərkəzi bu proqramdan irəli gələn tədbirləri həyata keçirir.

Son illərdə respublikada ekoloji tarazlığın bərpa edilməsi sahəsində görülən işlər arasında çirklənmiş və yararsız hala düşərək dövriyyədən çıxmış və texnogen landşafta çevrilmiş torpaqların rekultivasiyası da mühüm yer tutur. Belə çirklənmələr Bakı-Sumqayıt sənaye qovşağında, Gəncə, Mingəçevir və Əli-Bayramlı şəhərlərində, Daşkəsəndə dəmir filizi və alunit filizinin hasilatı ilə əlaqədar, Naxçıvanda duz mədənlərində, Paraqaçayda isə mis-molibden filizlərinin hasilatı ilə bağlı pozulmuş texnogen landşaftlar yaratmışdır.

Yuxarıda qeyd edildiyi kimi, Dünya Bankının maliyyə yardımı ilə Abşeron yarımadasında neftlə çirklənmiş torpaqların rekultivasiyasına başlanmışdır. Lakin iqtisadi problemlərin mövcudluğu, maliyyə çatışmazlığı bu işləri hələlik lazımi səviyyədə aparmağa imkan vermir. Daşkəsən dəmir filizi yataqlarında pozulmuş landşaft sahəsində də bu istiqamətdə ilk mərhələ sayılan tədqiqat işlərinə başlanmışdır. Lakin bütövlükdə bu işin vəziyyəti qənaətləndirici sayıla bilməz və onu sürətləndirmək üçün əlavə maliyyə mənbələri tapmaq axtarışları xeyli gücləndirmelidir.

Azərbaycan iqtisadiyyatı və mədəniyyətinin sürətlə inkişaf etdiyi 1969-1982-ci illərdə Bakının görməli, bakılıların isə əsas istirahət və gəzinti yerlərindən biri olan Dənizkənarı bulvarda da güclü yaşıllaşdırma və abadlıq işləri aparılmış, onun uzunluğu 3,7 kilometrə çatdırılmışdı. Şəhərin ümumi ansamblına xüsusi gözəllik verən bu füsunkar mənzərəli mədəniyyət və istirahət yeri son illərdə baxımsızlıq üzündən öz əvvəlki görkəmini xeyli dəyişmiş və az qala bərbad vəziyyətə salınaraq müxtəlif ticarət təşkilatlarının sərəncamına verilmişdi. Bu isə ilk növbədə şəhərin ekologiyasına, on minlərlə adamın sağlamlığına ağır zərbə idi. Əlbəttə, Bakını yaşıllıqlar diyarına, dənizkənarı bulvarı isə şəhərin ən görməli yerinə çevirmiş, hələ 1969-cu ilin avqustunda burada Milli Park yaradılması ideyasını irəli sürmüş dövlət başçımız bu acınacaqlı vəziyyətin uzun müddət davam etməsinə yol verə bilməzdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 29 il əvvəl irəli sürdüyü ideyanı 1998-ci il dekabrın 29-da həyata keçirdi və imzaladığı fərmanla Dənizkənarı bulvara Milli Park statusu verdi. Təəssüf ki, o zamankı şəhər rəhbərliyi bu fərmanın da icrasını bir ildən artıq müddətdə yubatdı. Yalnız 2001-ci ilin əvvəlində Prezidentin qərarı ilə şəhər rəhbərliyində edilmiş dəyişiklikdən sonra hər şey öz axarına düşdü. Parkda yerləşən bütün qanunsuz obyektlərin hamısı oradan götürüldü. Parkda qayda-qanun bərpa olundu. Hazırda 80 hektara yaxın sahəsi olan Milli Parkda əsl mənada səliqə-sahman işləri həyata keçirilir, deyilərsə, yəqin ki, burada heç bir mübaliğəyə yol verilməz. Xalqın dəyişilməz və toxunulmaz əmlakı kimi yenidən özünə qaytarılan Milli Park dünya standartlarına cavab verən, sivil ölkələr səviyyəsində istirahət zonasına çevrilməkdədir və Prezidentin qayğısı sayəsində bu işin də tez bir zamanda başa çatdırılacağına şübhə yoxdur. Bu, həm də Prezidentimizin şəhər sakinlərinin sağlamlığına, Bakının ekologiyasının mühafizəsinə növbəti töhfəsidir.

2000-ci ildə, yəni XX əsrin son ilində sağlamlıq və ətraf mühitin mühafizəsi baxımından hüquqi-normativ aktların hazırlanması və qəbul edilməsi sahəsində daha çox iş görüldü və dalbadal iki Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Bu qanunlar belə adlanır: "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunu və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanunu. Hər iki qanun Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmışdır və onların hər ikisinin bütün fəsilləri, maddələri, hətta ayrılıqda götürülən cümlə və sözləri Azərbaycan təbiətinə vurğunluqla yoğrulmuşdur. Qanunlarda əhalinin sağlamlığı və ətraf mühitin mühafizəsi sahəsində elə bir sual yoxdur ki, ona müfəssəl, hüquqi-normativ dildə cavab tapmaq mümkün olmasın. Bu isə hər bir Azərbaycan vətəndaşında belə bir inam yaradır ki, onların sağlamlığı və füsunkar Azərbaycan təbiətinin mühafizəsi etibarlı əllərdədir. Bunun ilk nümayişini biz artıq Milli Parkın timsalında görməyə başlamışıq.

## § 3. Analıq və qadın hüquqları

Bəşəriyyətin yarısından çox hissəsini təşkil edən qadınların həyatı, taleyi, hüquqları, cəmiyyətdə iqtisadi, ictimai-siyasi və mədəni sahələrdə kişilərlə bərabər hüquq və azadlıq əldə etmələri problemləri daim mütərəqqi insanları, qabaqcıl fikirli dühaları düşündürən mühüm məsələlərdən biri olmuşdur. Odur ki, qadın əməyi, qadın hüququ, qadın təhsili, qadın hərəkatı və s., onların həlli ilə bağlı məsələlər bir növ hər hansı bir ölkə üçün demokratiyanın, hüquqi, vətəndaş cəmiyyətinin, ümumi rifahın inkişaf səviyyəsinin əsas meyarları sayılmışdır. Bütün bu deyilənlər isə öz növbəsində qadın hərəkatının ayrı-ayrı mərhələlərində onun gedişini müəyyən edən əsas tələblər kimi meydana çıxmış və tədricən həllini tapmışdır.

Qeyd edək ki, bəşər cəmiyyəti inkişafının bütün mərhələlərində əsas rol oynamalarına baxmayaraq kişilərlə qadınların hüquq bərabərliyi məsələsi bir çox obyektiv və subyektiv səbəblər üzündən uzun əsrlər boyu öz həllini tapa bilməmiş, hətta bu bərabərsizliyə nəzəri cəhətdən haqq qazandırmaq istəyənlər də olmuşdur. Təkcə belə bir faktı göstərmək kifayətdir ki, mütəşəkkil qadın hərəkatı ilk dəfə yalnız XVIII əsrdə Şimali Amerikada istiqlaliyyət uğrunda mübarizə və Böyük Fransa inqilabı dövrlərində meydana çıxıb sonradan feminizm (qadınlara kişilərlə bərabər hüquqlar verilməsini tələb edən ictimai hərəkat) və sufrajist (qadınlara seçki hüququ verilməsi uğrunda mübarizə aparan qadın hərəkatının iştirakçısı) təşkilatları formasında fəaliyyət göstərsələr də, ilk beynəlxalq qadın təşkilatı – Beynəlxalq Qadın Şurası yalnız 1888-ci ildə ABŞ-da yaranmış, sonra isə 50-yədək ölkədə qadınların milli şuraları təsis edilmişdir.

Maraqlıdır ki, Şərq ölkələrində, o cümlədən Azərbaycanda da qadın hərəkatının başlanması təxminən elə həmin dövrdə – XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edir. Ərəb şərqində ilk feminist qadın Vərdə əl-Yazıçi olmuşdur. Bu dövrdə Misirdə "əl-Fətət" ("Qız"), "Fətət üş-Şərqi" ("Şərq qızı"), Suriyada "əl-Hüsnət" ("Gözəl") və s. jurnallar nəşr edilirdi. Türkiyədə qadın hərəkatının iştirakçıları "Taleyi-nisvan cəmiyyəti" yaratmış, əlahiddə qadın jurnalı nəşr etmişdilər. Göstərilən dövrdə Azərbaycan qadınının sonralar ictimai-siyasi həyatda önəmli rol oynamasında əhəmiyyət kəsb etmiş qadın təhsili sahəsində ciddi uğurlar qazanılmışdı. Belə ki, Rusiyada yaranan təhsil ocaqlarının (xeyriyyə cəmiyyətlərinin məktəbləri, dövlət məktəbləri, gimnaziyalar – bir və iki sinifli məktəblər, şəxsi və milli məktəblər) bütün tipləri Azərbaycanda da olmuşdur. Azərbaycanda ilk dünyəvi qız məktəbləri 1848-ci ildə Şamaxıda (1859-cu ildə Bakıya köçürülmüşdü) və 1885-ci ildə Gəncədə açılmış "Müqəddəs Nina" məktəbləridir. XIX əsrin ikinci yarısında Azərbaycanın maarifpərvər ziyalıları və təhsil görmüş qadınları öz hesablarına Şamaxıda, Bakıda, Gəncədə, Nehrəmdə, Şəkidə, Naxçıvanda xüsusi qız məktəbləri açmışdılar. 1915-ci ildə Azərbaycanda 11 qız gimnaziyası, 2 progimnaziya var idi ki, bunlarda da xeyli sayda azərbaycanlı qızları təhsilə cəlb edilmişdi.

Qadın təhsili sahəsində görülmüş işlər, həmçinin dünyəvi teatrın, demokratik mətbuatın yaradılması Azərbaycan qadınlarının inkişafı üçün geniş üfüqlər açdı. Dövrün qabaqcıl ictimai-siyasi xadimləri və ziyalıları qadın azadlığı, kişilərlə qadınların hüquq bərabərliyi mövzusuna daha tez-tez müraciət etməyə başladılar, xalqın siyasi və mədəni həyatında mühüm rol oynamış taleyüklü toplantılarda bu məsələnin müsbət həlli barədə müvafiq qərar layihələri işlənib hazırlandı, irəli sürüldü və qəbul edildi.

Rusiyanın ictimai-siyasi həyatında əsl mənada inqilabi dəyişikliklərin başlanğıcını qoymuş 1917-ci il fevral inqilabından sonra yaranmış əlverişli şəraitdə belə mütərəqqi ruhlu səslər və tələblər daha inamla səslənməyə başladı. Maraqlıdır ki, 1917-ci il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında digər mühüm aktual məsələlərlə yanaşı, Qafqazda qadınların vəziyyəti haqqında məsələ də geniş müzakirə edilmişdi. Qurultayda həmin məsələ barədə öz çıxışında M.Ə.Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirmiş və demişdi: "Bütün dünya xalqlarının qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır." Bu məsələ ətrafında qurultayın siyasi komissiyasının qətnaməsində müsəlman qadının siyasi və iqtisadi hüquqlarının kişilərlə bərabərləşdirilməsinin zəruriliyi müəyyən edilmişdi. Yeri gəlmişkən, bu qətnamə Rusiyada, ölkənin ictimai həyatında kişilərlə qadınların hüquqlarını bərabərləşdirməyə çağıran ilk siyasi sənəd olmuşdu.

1918-ci il mayın 28-də Müsəlman Şərqində ilk respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan

qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar yaratdı və qadın azadlığı hərəkatı daha mütəşəkkil xarakter aldı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin uzun müzakirələrdən sonra 1919-cu il iyulun 21-də qəbul etdiyi Azərbaycanın Müəssislər Məclisinə seçkilər haqqında Əsasnaməyə görə qadınlara da seçki hüququ verildi. Azərbaycanın ziyalı qadınları dövlətin qadınlara verdiyi hüquqlardan istifadə edərək ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başladılar. 1918-1920-ci illərdə maarifpərvər qadınlar milli məktəblərin yaradılmasında daha böyük fəallıq göstərmişdilər. Məsələn, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından biri olmuş və Fətəli xan Xoyskidən sonra hökumətə başçılıq etmiş Nəsibbəy Usubbəyovun xanımı Eynülhəyat ilk milli qız gimnaziyasında dərs demiş, Maarif Nazirliyində inspektor işləmişdir; Sankt-Peterburqda təhsil almış ilk azərbaycanlı qızı Səlimə xanım Yaqubova Bakıda I Ünas Milli Gimnaziyasının müdiri təyin edilmiş, Azərbaycanın milli dirçəlişinin fəal qadın qurucularından biri olmuşdur; 1918-ci ildə Qazax qəzası xalq məktəblərinin inspektoru təyin olunmuş görkəmli maarif xadimi Mədinə xanım Qiyasbəyli bir il sonra Bakıda öz mənzilində pedoqoji kurs açmış, Azərbaycanın ilk maarifpərvər qadınları – Şəfiqə xanım Əfəndizadəni, Xədicə xanım Ağayevanı bu nəcib işə cəlb etmişdi.

Azərbaycan maarifpərvəri, həm də 1881-1917-ci illərdə Zaqafqaziyanın müftisi olmuş Hüseyn Əfəndi Qayıbovun qızı Gövhər xanımın Bakıda öz mənzilində təşkil etdiyi 80 nəfərlik pedoqoji kursda o dövrün tanınmış tanınmış pedaqoqları – Hüseyn Cavid, Abdulla Şaiq, Camo Cəbrayılbəyli, Xudaverdi Kələntərli, Səriyyə xanım Əhmədova, Nəimə xanım Qazıyeva dərs demişdilər.

İlk azərbaycanlı pianoçu qadınlardan biri, 1901-1911-ci illərdə Tiflisdə "Müqəddəs Nina" məktəbində təhsil almış, sonra isə fortepiano üzrə xüsusi kurs keçmiş Xədicə Osman qızı Qayıbova 1919-cu ildə Bakıya köçərək Azərbaycanda musiqi təhsili sisteminin yaradılmasında iştirak etmiş, onun təşəbbüsü və rəhbərliyi ilə 1920-ci ildə Bakıda "Qısa müddətli Şərq musiqisi kursları" açılmışdı.

Gəncədə ziyalı qadınlar xeyriyyə cəmiyyəti yaradaraq şəhərin mədəni həyatında fəal iştirak edirdilər. Bu işdə Xədicə xanım Ağayeva, Cavahir xanım Rəfibəyova, Həcər xanım Şeyxzamanova və başqaları böyük səy göstərir, istedadlı qızların təhsil almasına kömək edir, qadınlar üçün teatr tamaşaları verir,



daşnak fitnəkarlarının törətdikləri qırğınlar nəticəsində kimsəsiz, yetim qalmış uşaqları himayəyə götürürdülər.

Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya, Məsmə xanım Talışinskaya, Səltənət xanım Əhmədova, Nabat xanım Aşurbəyli-Rzayeva və bir çox başqa qeyrətli qadınlarımızın yaratdıqları qadın xeyriyyə cəmiyyətləri də deyilən sahədə çox böyük işlər görmüş və beləliklə öz adlarını Azərbaycanın xeyriyyəçilik hərəkatı tarixinə qızıl hərflərlə əbədi həkk etdirmişdilər.

1918-1920-ci illərdə Azərbaycanın tərəqqipərvər qadın ziyalıları – Məryəm xanım Bayraməlibəyova Lənkəranda, Gövhər Şövqiyyə Şamaxıda, Bülbül Kazımova Gədəbəydə, Firuzə Ağayeva, Yaqut Ağayeva, Fərəmuş Paşayeva Gəncədə, Səidə Şeyxzadə, Rəhilə Hacıbabayeva, Sara Vəzirova, Hənifə xanım Məlikova, Zərri Şahtaxtinskaya və başqaları Bakıda xalq maarifinin inkişafına böyük kömək göstərmişdilər.

RSFSR-in XI ordusunun təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra elan edilmiş sovet hakimiyyəti illərində də milli siyasətimizdə baş vermiş ziyanlı dəyişikliklərə, çox vaxt isə proletar beynəlmiləlçiliyinin tələblərindən irəli gələn amansız məhrumiyyətlərə və əyintilərə baxmayaraq, Azərbaycan qadını mürəkkəb və şərəfli inkişaf yolunu davam etdirmişdi. Ədalət naminə qeyd etmək lazımdır ki, sovet hökumətinin bütövlükdə qadın əməyinə, hüququna, təhsilinə, bir sözlə qadının cəmiyyətdə layiq olduğu yeri tutmasına verdiyi böyük əhəmiyyət də bu işdə az rol oynamamışdı. Beləliklə, Sovet hakimiyyəti illərində Azərbaycanda qadın hərəkatı nəinki yerində donub qalmadı, bəlkə də əksinə, əhatə dairəsinə görə xeyli genişləndi. Qısa bir müddətdə qadınlar arasında savadsızlığın ləğvi, qadınların ən müxtəlif peşələrə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarığını gerçəkləşdirə bilməsi sovet dövrünün başlıca nailiyyətləri sayıla bilər.

1921-ci il fevralın 8-11-də Bakıda Azərbaycan qadınlarının I qurultayının keçirilməsi yeni şəraitdə respublikada qadın hərəkatının mühüm göstəricisi sayıla bilər. Qurultayda Azərbaycan İnqilab Komitəsinin və hökumətinin sədri Nəriman Nərimanovun əsas məruzə ilə çıxış etməsi, digər partiya və hökumət rəhbərləri – R.Axundov, S.Ağamalıoğlu, M.B.Qasımov, D.Bünyadzadə və başqalarının qurultayın işində fəal iştirakı və çıxışları yeni ictimai quruluşun formalaşdırılmasında qadınların roluna verilən böyük əhəmiyyətdən xəbər verirdi və bütün bunlar qurultayda qəbul olunan qərarların əsas ruhunu təşkil etmişdi.

Qurultaydan sonra Azərbaycanda qadın hərəkatının mütəşəkkilliyi xeyli artdı. Elə həmin ildə qızlar üçün təşkil olunmuş məktəbəqədər tərbiyə institutu bir il sonra – 1922-ci ildə ali qadın pedoqoji institutuna çevrildi, ilk qadın klubu yaradıldı. 1923-cü ilin noyabrında təkcə Azərbaycanda deyil, eləcə də Şərqdə qadın azadlığı uğrunda mübarizə aparan ilk jurnalın – "Şərq qadını"nın (1938-ci ilin fevralından "Azərbaycan qadını") nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu.

30-cu illərdə ölkədə aparılan quruculuq işləri, 1941-1945-ci illərdə isə SSRİ-nin cəlb edildiyi İkinci dünya müharibəsi Azərbaycan qadınının əməyə daha geniş cəlb edilməsinə təkan verdi. Dinc quruculuq işlərində kişilərlə çiyin-çiyinə çalışan qadınlarımız müharibə dövründə də bir çox istehsalat sahələrində cəbhəyə gedən kişiləri layiqincə əvəz etdilər. Onlar həmçinin müharibə meydanlarında misilsiz qəhrəmanlıq nümunələri və rəşadət göstərdilər. Müharibə Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva kimi cəsur təyyarəçilər, Şövkət Səlimova kimi qadın gəmi kapitanı yetişdirdi.

Sovet hakimiyyəti illərində Azərbaycan qadınlarının Bakıda daha üç – II, III və IV qurultayları (28-29 mart 1957-ci il; 20-22 oktyabr 1967-ci il; 15-16 iyun 1972-ci il) keçirilmişdi. Bu qurultaylar Azərbaycan qadın hərəkatının inkişafında və daha mütəşəkkil forma almasında mühüm rol oynamışdı. Qadınların içərisindən partiya, dövlət, komsomol, təsərrüfat işində fəal çalışan bir çox qadınlarla yanaşı, respublikanın ictimai və mədəni həyatında fəal iştirak edən minlərlə qadın yetişdi. Qadınlarımızın sırasında çox sayda görkəmli həkim, müəllim, mühəndis, ictimai xadim, deputat, əmək qəhrəmanı, alim, müğənni, şair, artist və s. var idi ki, onlar doğma respublikanı təkcə keçmiş SSRİ məkanında deyil, həm də bütün dünyada ləyaqətlə təmsil edirdilər.

Bununla belə, sovet dövründə qadın hərəkatında əldə edilmiş şəksiz nailiyyətləri inkar etmədən qeyd olunmalıdır ki, bu dövrdə formalaşan stereotiplər milli və ənənəvi xüsusiyyətləri, sırf Azərbaycan qadınına məxsus cəhətləri bəzən nəzərə almır, məşğulluğun forması, göstəricilər daha çox qabardılır, qadının daxili tələbatı ilə bu əməyin uyğunluğu isə çox vaxt unudulurdu.

Azərbaycan qadınları müstəqillik uğrunda başlanmış ümumxalq hərəkatının da ön sıralarında olmuş, 1988-ci ildən etibarən SSRİ rəhbərliyinin razılığı və himayəsi ilə Ermənistanın respublikamızın suveren hüquqlarını və ərazi bütövlüyünü pozan təcavüzkar niyyətlərinə qarşı mübarizədə fəal iştirak etmişlər.



1990-cı il yanvarın 19-20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı faciələrin qurbanları arasında qadınlarımız da var idi. Azərbaycanın milli qəhrəmanları – Qarabağ cəbhəsində həlak olmuş jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova ölkəmizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizənin fədakarlıq rəmzinə çevrildilər. Erməni təcavüzkarların Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində doğma yerlərindən didərgin düşmüş bir milyondan artıq Azərbaycan vətəndaşının arasında qadınların da sayı olduqca çoxdur.

1991-ci il oktyabrın 18-də "Azərbaycanın dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsi ilə respublikamızda qadın hərəkatının yeni mərhələsinin başlanğıcı qoyuldu. Lakin 1991-1993-cü illərdə ölkədə hakimiyyət uğrunda gedən mübarizə müstəqillik şəraitində digər sahələrdə olduğu kimi, qadın hərəkatının da inkişaf etdirilməsində real addımlar atmağa imkan vermədi. Yalnız 1993-cü il iyunun 15-də, indi "Milli Qurtuluş Günü" bayramı kimi qeyd etdiyimiz gündə dövrümüzün görkəmli siyasətçisi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ölkədə siyasi sabitlik yaratdı, həqiqətən müstəqil, hüquqi, demokratik dövlət quruculuğunu genişləndirmək yolunda uğurlu addımlar atılması üçün əlverişli şəraiti təmin etdi. Qadın hərəkatına dövlət qayğısı gücləndi.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı. Konstitusiyanın "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan ikinci bölməsinin üçüncü fəslində ("Əsas insan və vətəndaş hüquqları və azadlıqları") 25-ci maddədə oxuyuruq: "Kişi ilə qadının eyni hüquq və azadlıqları vardır".

Azərbaycan qadınları Konstitusiyamız və digər qanunvericilik aktları ilə müəyyən olunmuş geniş hüquqlardan, cəmiyyətimizdə gedən demokratikləşmə proseslərindən istifadə edərək qısa bir müddətdə sayı 41-ə çatan qadın təşkilatları yaratdılar. Bu təşkilatlar arasında "Sevil" Qadınlar Məclisi, Neftçi Qadınlar Cəmiyyəti, Bakı Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf" Mərkəzi, D. Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti, "Əsgər anaları", "Şəhid anaları" cəmiyyətləri və başqaları öz fəaliyyətlərini genişləndirərək Azərbaycanda qadının vəziyyətinin yaxşılaşdırılması, onun sosial-iqtisadi problemlərinin həlli, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və digər məsələ-

ləri nizama salmaq sahəsində dövlətin fəaliyyətini gücləndirmək üçün yollar arayıb axtardılar. Ölkəmizdə qadın hərəkatı müstəqillik şəraitində öz inkişafının yeni mərhələsinə qədəm qoydu, onun beynəlxalq əlaqələri genişləndi.

1995-ci ilin iyulunda Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransına istər hazırlıq dövründə, istərsə də onun işində Azərbaycan qadın təşkilatlarının fəaliyyəti bu baxımdan xüsusilə əlamətdar oldu. Konfransda iştirak edən Azərbaycan qadınlarının nümayəndə heyəti ümummilli məruzə hazırlayaraq respublikamızdakı demokratik proseslər, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində yaranmış ağır vəziyyət, ərazimizin 20 faizinin erməni qəsbkarları tərəfindən işğal edilməsi, bir milyon nəfərdən çox vətəndaşımızın, o cümlədən qadınların, uşaqların, qocaların çadırlarda qaçqın və köçkün vəziyyətində yaşaması və sair barədə həqiqətləri dünya qadınlarının nümayəndələrinə layiqincə çatdıra bildilər. Konfransdan sonra qadın təşkilatlarında aparılan geniş müzakirə respublikamızda qadın hərəkatının ümummilli fəaliyyət platformasının işlənib hazırlanmasında mühüm rol oynadı.

1995-ci ildə Azərbaycanda qadın hərəkatının mütəşəkkilliyinin artmasında Birləşmiş Millətlər Təşkilatının "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" 30 iyun 1995-ci il tarixli Konvensiyasına Azərbaycan Respublikasının qoşulmasının və bununla əlaqədar öz üzərinə müvafiq öhdəliklər götürməsinin də mühüm rolu oldu.

Azərbaycan Prezidenti Heydər Əliyevin respublikada qadın hərəkatına daim diqqət və qayğı göstərməsi bu hərəkata dair dövlət siyasətinin işlənib hazırlanması üçün əsaslı zəmin yaratdı. Bunun uğurlu nəticəsi isə 1998-ci ilin lap əvvəlində özünü göstərdi, yəni qadın hərəkatına dair məsələ dövlət səviyyəsində həllini tapdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı və ona böyük səlahiyyətlər verildi. Bu fərmanla həmçinin respublika Nazirlər Kabinetinə tapşırıldı ki, ölkənin siyasi, sosial, iqtisadi-mədəni həyatında qadınların rolunu artırmaq məqsədi ilə müvafiq tədbirlər planı işləyib hazırlasın.

Fərmanın yerinə yetirilməsi ilə əlaqədar əldə edilmiş statistik material göstərdi ki, qadınların dövlət idarəçiliyi sistemində təmsil olunması ilə bağlı vəziyyəti heç də qənaətbəxş deyildir. Məsələn, aydın oldu ki, respublikanın 80-dən çox şəhər və rayon icra başçısından yalnız 5-i qadındır; hətta əksər işçiləri



qadınlardan ibarət olan dövlət qurumlarında və müxtəlif peşə sahələrində qadınlar rəhbər mövqelərdə zəif təmsil olunurlar. Şəhər və rayonlarda işçilərin böyük əksəriyyətini qadınların təşkil etdiyi təhsil şöbələrinin yalnız 5-nə, səhiyyə şöbələrinin isə 8-nə qadınlar rəhbərlik edir. Belə vəziyyət bir qədər sonra bələdiyyə seçkilərində də özünü göstərmişdi. 1999-cu il bələdiyyə seçkilərindən sonra aydın oldu ki, seçilmiş 20454 nəfər bələdiyyə üzvündən yalnız 416 nəfəri qadındır.

Göründüyü kimi, qadın hərəkatına dövlət tərəfindən himayədarlığın xeyli artdığını əks etdirən bu fərmanın özü də hələ respublikada müxtəlif səviyyələrdə qəbul olunan qanunvericilik aktlarının, qərar və qətnamələrin heç də həmişə Cender siyasətinin (qadın və kişilərin cəmiyyətin bütün sahələrində geniş və əhatəli iştirakını, onların arasındakı bərabərsizlik stereotiplərinin ləğv edilməsini nəzərdə tutan siyasət) tələblərinə cavab vermədiyini göstərirdi. Halbuki Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonrakı dövr qadınlarımızın qarşısında tamamilə yeni vəzifələr qoyurdu. Belə ki, bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizin müxtəlif sahələrində aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəaliyyətinin artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunu artırmağı tələb edirdi və bu problemlər demokratik cəmiyyətdə tez bir zamanda öz həllini gözləyirdi.

Azərbaycan qadınları bu kimi problemlərin həll edilməsi üçün yollar arayıb axtarmaq məqsədilə 1998-ci il sentyabrın 25-də müstəqillik şəraitində özlərinin ilk qurultaylarını keçirdilər. Qurultay göstərdi ki, cəmiyyətdə gedən demokratikləşmə prosesində yaranmış qadın təşkilatlarının bir qismi respublika miqyasında fəaliyyət göstərir, digər qismi xeyriyyə cəmiyyəti olduğundan yardımlar edir, daha bir qismi isə müəyyən peşənin nümayəndəsi olan qadınların sosial müdafiəsini özünün əsas məqsədləri kimi irəli sürür. Buna baxmayaraq ümummilli bütün məsələlərdə Azərbaycan qadınları daim milli dövlətçilik mövqeyindən çıxış edirlər ki, bunu qurultayın gedişi bir daha nümayiş etdirdi. Qurultayın qərarlarında qeyd olundu ki, cəmiyyətdə qadınların rolunun artırılması yolunda hələ çox iş görülməlidir.

Qurultayın qərarları respublikada qadın hərəkatına dövlət qayğısını daha da artırmaq zərurətinin yarandığını, dövlət qadın siyasətinin həyata keçirilməsi vaxtının yetişdiyini göstərdi.

Azərbaycan həyatının bütün sahələrində gedən prosesləri daim diqqətlə izləyən ölkə başçısı Heydər Əliyev bu dəfə də məsələyə həssaslıq, diqqət və qayğı ilə yanaşdı. 2000-ci il

martın 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı elan edildi. Əsrin son ili və qadınlar bayramı günü ərəfəsində elan olunmuş bu fərman respublika qadınlarına göstərilən böyük qayğının təzahürü oldu. Fərmanda son 100 ildə Azərbaycanda qadın hərəkatının keçmiş olduğu böyük və mənalı yola bir daha nəzər salınır, onun uğurları da, nöqsanları da ətraflı şərh edilir, yaşadığımız günlərdə bu hərəkatın qarşısında duran vəzifələrin konkret şərhi və icrası məsələləri daha qətiyyətlə irəli sürülürdü. Burada oxuyuruq: "Qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması təmin edilsin.

2. Dövlət Statistika Komitəsi Qadın Problemləri üzrə Qadın Komitəsi ilə birlikdə respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumat hazırlasın.

3. Nazirlər Kabinetinə tapşırılsın ki,

– Ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə Gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkan yaradılmasını təmin etsin;

– Qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə onların münasib işlə təmin edilməsi proqramı hazırlayıb həyata keçirsin;

– Qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə mövcud qanunvericiliyi təhlil edib təkliflər versin;

– Hər il martın 1-nə qədər bu fərmanın yerinə yetirilməsinin gedişi haqqında Azərbaycan Respublikasının prezidentinə məruzə təqdim etsin;

– Bu fərmandan irəli gələn digər məsələləri həll etsin"

Göründüyü kimi, fərmanda Azərbaycanda qadın hərəkatının bütün sahələrinə konkret toxunulmuş, hər bir ayrıca sahədən çıxış yolları göstərilmişdir. Şübhə yoxdur ki, fərmanın həyata keçirilməsi yaxın illərdə respublikada dövlət qadın siyasətinin həyata keçirilməsində köklü dəyişikliklərə gətirib çıxaracaq və Azərbaycan əhalisinin 51 faizinin ümdə mənafelərinin təmin olunmasında əsaslı nəticələrə səbəb olacaqdır.

İndi isə 2001-ci il martın 7-də Beynəlxalq Qadınlar Günü münasibətilə "Respublika" sarayında keçirilmiş təntənəli məra-



simdə fərmandan keçən 10 ay ərzində, yeni 2000-ci ilin sonuna aid bəzi statistik məlumatlara nəzər salaq. Qadın Problemləri üzrə Qadın Komitəsi sədrinin birinci müavini Dilrubə Camalovanın məruzəsində oxuyuruq: "...Bu gün ölkəmizdə iqtisadiyyat sahəsində çalışan qadınların sayı 1 milyon 767 min nəfərdir. Bu, iqtisadiyyatda çalışan bütün insanların təqribən yarısı deməkdir... Dövlət gündüz ümumtəhsil məktəblərində bütün müəllimlərin 69 faizini, orta ixtisas məktəblərində 64 faizini, ali məktəblərdə isə 40 faizini qadınlar təşkil edir. Ölkənin ali məktəblərində təhsil alanların 42 faizi qızlardır. Səhiyyə sahəsində çalışanların yarıdan çoxu qadınlardır. Mədəniyyət, incəsənət sahəsində qadınların mövqeyi, onların oynadığı rol hər kəsə məlumdur. Ötən il mədəniyyət sahəsində çalışan 60-dan çox qadın yüksək fəxri adlara, ordenlərə, prezident tərəfindən verilən fəxri təqaüdə layiq görülmüşdür".

Ümid edirik ki, bu göstəricilər yeni əsrin ilk illərindən daha da yaxşılaşacaq və qadınlarımızın istehsalatın, elm və mədəniyyətin bütün sahələrində layiq olaraq tutduğu daha tutarlı rəqəmlərə çevriləcəkdir, həm də bu rəqəmlər ölkə başçısının fərmanında tələb olunduğu kimi, real faktlara əsaslanacaqdır.

## § 4. Uşaqlara dövlət qayğısı

Uşaqların hüquqlarının qorunması daim bəşəriyyəti düşündürən mühüm məsələlərdən biri olmuşdur və bu günün özündə – XXI əsrin əvvəlində də öz aktuallığını saxlamaqdadır. Demokratik inkişaf yolunu tutmuş bütün dövlətlərdə uşaqlara dövlət qayğısına xüsusi əhəmiyyət verilməsi məhz bununla əlaqədardır və görünür, bu mühüm məsələyə diqqət gələcəkdə daha da artacaqdır. Çünki hələ də bəşəriyyətin həyatından tamamilə silinməmiş müharibələrdən də, bir çox təbii fəlakətlərdən də ən çox zərər görən gücsüz, zəif, valideyn himayəsinə möhtac olan körpələr, azyaşlı uşaqlar və yeniyetmələrdir.

Uşaqlar gələcək bəşər sivilizasiyasını əks etdirir, hər bir xalqın, dövlətin, bütövlükdə beynəlxalq birliyin xoşbəxt gələcəyi məhz uşaqların tərbiyəsi, onların sağlam böyüməsi, öz ölkələrinin layiqli vətəndaşları kimi yetişmələridir. Azərbaycan Respublikası Konstitusiyasında uşaqların sağlam və xoşbəxt böyüməsində ailə və dövlət münasibətlərinin qarşılıqlı əlaqələndirilməsinə ciddi əhəmiyyət verilir. Konstitusiyanın 17-ci maddəsində oxuyuruq:

"1.Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

2. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir."

Uşaqlara qayğı göstərilməsinin vacibliyi Konstitusiyanın 34-cü maddəsində bir daha qeyd edilmişdir.

Beləliklə, uşaqları hər cür xoşagəlməz hallardan, fiziki və mənəvi zərbələrdən qorumaq, yeni nəslin zorakılıq nəticəsində bədən toxumalarının zədələnməsi və əsəb sarsıntılarına məruz qalmasının qarşısını almaq bilavasitə valideynlik borcu, konstitusion öhdəlik kimi irəli sürülür.

Qeyd edək ki, beynəlxalq səviyyədə uşaq hüquqlarının qorunmasına diqqətin artması İkinci dünya müharibəsi (1939-1945-ci illər) başa çatdıqdan sonra xüsusilə güclənmişdir. Uşaqları müharibə təhlükəsindən qorumaq, onların sağlamlığı, demokratik əsaslarla tərbiyəsi və təhsili qayğısına qalmaq məqsədilə Beynəlxalq Demokratik Qadınlar Federasiyası Şurasının 1949-cu il Moskva sessiyasının qərarına əsasən hər il iyunun 1-nin uşaqları beynəlxalq müdafiə günü kimi qeyd edilməsi həmin



diqqət və qayğının vacibliyini bir daha nəzərə çarpdırdı. Beynəlxalq birliyin iradəsini əks etdirən bir sıra mühüm hüquqi sənədlər, o cümlədən İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi hüquqlar haqqında beynəlxalq paktın 24-cü maddəsi, "Pekin qaydaları", Uşaq Hüquqları Konvensiyası bu məsələyə şəxsiyyətin azadlığı və hüquqları baxımından qiymət verdilər.Uşaq Hüquqları Konvensiyasının 32, 34 və 35-ci maddələrində uşaq hüquqlarının qorunması sahəsində beynəlxalq əməkdaşlığın çoxtərəfli tədbirləri nəzərdən keçirildi. Təəssüf ki, beynəlxalq səviyyəli belə humanist qərarlar və onların icrasına yönəldilmiş tədbirlər də uşaqları lokal müharibələrin, tez-tez baş verən millətlərarası münaqişələrin qurbanları, aclığın, cinsi istismarın, zorakılığın və porno sənayesinin qulu olmaqdan xilas edə bilməmişdir. Belə qeyri-normal şərait isə öz növbəsində uşaqlara qarşı cinayətlərin sayını azaltmaq əvəzinə artırdı. Getdikcə daha aydın dərk olunurdu ki, uşaq hüquqlarının qorunması və uşaqlara qarşı törədilən cinayətlərlə mübarizə aparmaq üçün həqiqətən də beynəlxalq əməkdaşlığa ciddi ehtiyac vardır.

Şübhəsiz ki, dünya miqyasında uşaqlara münasibətdə baş verən bu proseslər yenicə müstəqillik qazanmış və beynəlxalq birlik üçün qapıları açılmış Azərbaycan Respublikasından da yan ötmədi. Xüsusən müstəqilliyimizin ilk illəri – 1991-1993-cü illər bütün Azərbaycan xalqı kimi, onun uşaqları üçün də çox fəlakətli oldu. Hələ 1988-ci ildən ərazi iddiaları ilə Azərbaycana təcavüz edən Ermənistan məhz həmin illərdə respublikamızda hakimiyyətsizlik, satqınlıq və özbaşınalıq şəraitindən istifadə edərək Azərbaycan torpaqlarının 20%-ni işğal edə bildi. Sayı bir milyon nəfərə çatan qaçqınlarımızın bir çoxu erməni silahlı qüvvələrinin soyqırımı siyasətinin qurbanı oldu ki, onların da arasında yaşlılar və qadınlarla yanaşı, uşaqların sayı da az deyildi. İşğal olunmuş ərazidə 300 min nəfərədək uşaq öz doğma evlərini, məktəblərini, uşaq bağçalarını tərk etməli oldular ki, onlardan da 79 min nəfəri 5 yaşdan aşağı olan uşaqlar idi. Təsəvvür edin ki, həmin azyaşlı uşaqlar çadırlarda, günün, yağışın altında özlərinə müvəqqəti sığınacaq tapdılar, onlardan bir çoxu öz valideynlərini itirərək yetim və kimsəsizlərə çevrildilər.

1993-cü il iyunun 15-də xalqımızın böyük oğlu və müdrik siyasətçi Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin digər taleyüklü məsələlərində olduğu kimi, uşaqların hüquqlarının qorunması sahəsində də ciddi addımlar atmaq mümkün oldu. Hələ 1994-cü ildə Prezidentin qaçqınlarla görüşü zamanı verdiyi tövsiyələrə uyğun olaraq, qaçqın düşərgələrindən 200-dən

artıq xəstə və kimsəsiz uşaq respublika Səhiyyə Nazirliyi tərəfindən Bakıya gətirilərək nazirliyin Buzovna və Mərdəkandakı uşaq sanatoriyalarında yerləşdirildi, onların yaxşı yaşamaları və təhsil almaları üçün hər cür şərait yaradıldı. Ölkədə siyasi sabitliyin yaranması, Ermənistan–Azərbaycan münaqişəsində atəşkəsə nail olunması, dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan neft sazişlərinin imzalanması, respublikamızın beynəlxalq birliyin bərabər hüquqlu üzvü kimi tanınması, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğunda əldə olunmuş nailiyyətlər bir çox aparıcı dövlətlərin və beynəlxalq təşkilatların Azərbaycana münasibətini köklü surətdə dəyişdi. Belə bir faktı qeyd etmək yerinə düşər ki, Azərbaycan Prezidenti Heydər Əliyev hələ 1994-cü il sentyabrın sonunda BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorkda olarkən sentyabrın 27-də beynəlxalq uşaq təşkilatı YUNİSEF-də uşaqların həyatı, müdafiəsi və inkişafına dair BMT bəyannaməsini də imzalamış və bununla YUNİSEF təşkilatının Azərbaycanda fəaliyyətinin başlanğıcı qoyulmuşdu. Bu münasibətlə keçirilmiş mərasimdə Heydər Əliyev demişdi: "Uşaqların həyatına diqqət dünyanın gələcəyi ilə məşğul olmaq deməkdir. Belə fəaliyyət Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Çünki Azərbaycan müharibə vəziyyətindədir, onun ərazisinin 20 faizindən çoxu Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bir milyondan artıq adam qaçqındır ki, onların da xeyli hissəsi uşaqlardır. Onlar indi çadırlarda çətin vəziyyətdə yaşayırlar. Azərbaycanda ailələr çoxuşaqlıdır. Orta hesabla hər ailənin 4-5 uşağı var. Bu isə milyon qaçqından nə qədərinin uşaq olduğunu göstərir". Çıxışdan görünür ki, bundan bir qədər əvvəl də YUNİSEF xətti ilə Azərbaycanda müəyyən işlər görülmüşdür. Bu barədə təşəkkür edən ölkə başçısı ümidvar olduğunu bildirir ki, imzalanma mərasimindən sonra təşkilatın Azərbaycanda fəaliyyəti daha da genişlənəcəkdir. Sonradan görəcəyimiz kimi, bu ümidlər özünü tamamilə doğrultdu.

1998-ci il mayın 19-da Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclis Azərbaycanda uşaq hüquqlarının müdafiəsi haqqında qanun qəbul etdi.

Uşaqlara dövlət qayğısı baxımından bu məsələdə dövlətin planlı qaydada iş aparması da diqqəti cəlb edir. Məsələn, respublikamızda Gənclər və İdman Nazirliyində Uşaqlarla iş üzrə Respublika Əlaqələndirmə Şurası fəaliyyət göstərir. Şuranın tərkibinə daxil olan dövlət qurumlarından biri də Qadın Problemləri üzrə Dövlət Komitəsidir. Komitə, digər struktur orqanları



ilə yanaşı uşaq hüquqlarının qorunmasında beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Belə hesab etmək düzgündür ki, beynəlxalq əməkdaşlığın birgə tədbirləri vasitəsilə uşaqları hərbi cinayətlərin dəhşətindən xilas etmək mümkün olacaqdır.

Müəyyən olunmuşdur ki, Ermənistan-Azərbaycan müharibəsi dövründə erməni tərəfi Uşaq hüquqları Konvensiyasının 38-ci maddəsini pozaraq uşaqları da əsir götürmüşdür. Beynəlxalq Qızıl Xaç Təşkilatının məlumatına görə, erməni tərəfi azərbaycanlı uşaqları əsir saxlayır, lakin Ermənistanda olan əsirlərin əsl sayı təşkilatdan gizlədilir. Belə bir rəqəm də dəqiqdir ki, hərbi əməliyyatlar getdiyi dövrdə 73 azərbaycanlı uşaq xəbərsiz yoxa çıxmışdır. Ermənilərin qadın və uşaqlara işgəncə verdikləri barədə də məlumatlar var. Məsələn, özünə və iki yaşlı qızı Nurlanəyə edilən işgəncələrə dözməyən Kərimova Səmayə üçüncü cəhddə intihar etdikdən sonra onun işgəncələrdən kor olmuş qızını Qızıl Xaç təşkilatına təhvil vermişlər. Kiçik yaşlı Ağayev Yaşar Murad oğlu əsirlikdə atasının gözləri qarşısında qətlə yetirilmişdir. Azərbaycanlı uşaqların kütləvi şəkildə qətlinə dair də faktlar vardır. Məsələn, Xocalının işğalı zamanı yüzlərlə azyaşlı uşaq qəddarlıqla öldürülmüşdür.

Azərbaycanda uşaq hüquqlarının qorunması ilə birbaşa əlaqəsi olan ən böyük beynəlxalq təşkilat artıq haqqında söhbət açdığımız YUNİSEF-dir. Bu nüfuzlu beynəlxalq uşaq təşkilatı Azərbaycanda uşaqların vəziyyəti haqqında dəfələrlə monitorinqlər və müxtəlif layihələr həyata keçirmişdir. Məsələn, 2000-ci ildə həyata keçirilən "Erkən uşaqlıq dövründə qayğı və inkişaf" adlanan layihəyə görə, həmçinin seminar və qiymətləndirmələr də keçirilmişdir. Bu layihədə işçi qrupunun tərkibinə Gənclər və İdman Nazirliyi, Respublika Qadın Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri də daxil olmuşlar. İşçi qrupunun əlbir səyi ilə Erkən Uşaqlıq Dövründə Qayğı və İnkişaf Konsepsiyası işlənib hazırlanmışdır. YUNİSEF-in Azərbaycanda uşaqların sağlamlığı, qidalanması və sair sahələrdə də layihələri həyata keçirilmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi artıq cinayət, cinayət-prosessual, mülki, inzibati, ailə, əmək və digər sahələrə aid qanunvericilik aktları qəbul etmişdir ki, bu qanunlar fəaliyyət göstərməkdədir. Həmin sənədlərdə uşaqlara qarşı hər hansı cinayət üçün məsuliyyət nəzərdə tutulmuşdur. Məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin xüsusi hissəsində "Cinsi toxunulmazlığa qarşı cinayətlər və şəxsiyyətin cinsi azadlığı", "Yeniyetmə yaşına çatmamış şəxslərə və ailə müna-

sibətlərinə qarşı cinayətlər" bölmələri verilmişdir ki, burada 16 yaşına çatmamış şəxslər üzərində ticarət, onların cinayətə cəlb olunması, narkotikdən istifadə edilməsi, alkoqollu içkilərdən istifadəyə cəlb olunması, onların AİDS və digər venerik xəstəliklərlə yoluxmasına görə cinayətkarların müxtəlif müddətə azadlıqdan məhrum edilməsi nəzərdə tutulur.

Son illərdə uşaqların oğurlanması və transmilli cinayət qrupları tərəfindən xaricə aparılmasına dair də artıq nümunələr vardır ki, bunların qarşısının vaxtında alınmaması daha faciəli nəticələrə gətirib çıxara bilər.

Gənc müstəqil və demokratik dövlətimizin, qaçqınlar və digər zəif təmin olunan təbəqələrin maddi və maliyyə çətinliklərindən istifadə edərək bir sıra xarici təşkilatların emissarları xeyriyyəçilik və uşaqların mənəvi tərbiyəsi bəhanəsi altında mərkəzlər yaradırlar. Onların məqsədi xalqımızın arasında ifrat xristianlıq və islam təbliğatı aparmaq, xüsusilə uşaqları dini təriqətlərə cəlb etməkdir.

Belə hallara yol verilməsi, yaxud hər hansı şəkildə nəzarətsizlik uşaq hüquqlarının kobud şəkildə pozulmasına səbəb olan ağır nəticələrə gətirib çıxarır ki, artıq ləngimədən bunların qarşısını qanun yolu ilə almaq vaxtı çoxdan çatmışdır. Məsələn, humanitar yardım adı altında bir sıra yetim qızların çadra örtməyə məcbur edilərək dini məktəblərə və xeyriyyə cəmiyyətlərinə cəlb olunması, evlilik yaşı çatdıqdan sonra isə xaricə ötürülərək orada yerli vətəndaşlara ərə verilməsi, əslində isə satılmasına dair misallar vardır və bunların da qarşısı vaxtında alınmalıdır.

Lakin bütün bu deyilənlər heç də xarici təşkilatların hamısının Azərbaycana qara niyyətlə gəldiyinə dəlalət etmir. Belə ki, uşaq hüquqlarının qorunması, yetim və kimsəsiz uşaqlara yardım əli uzatmaq üçün Azərbaycana gələn və dövlətin dəstəyi ilə qarşılanan təşkilatlar da sayca az deyildir. Belə təşkilatlardan biri də Avstriyanın "SOS Kinderdorf İnterneşnl" təşkilatıdır.

1949-cu ildə Avstriyanın İmst şəhərində ilk dəfə "SOS uşaq kəndi"nin salınması ilə görkəmli humanist pedaqoq Herman Qmayner tərəfindən əsası qoyulmuş "SOS Kinderdorf İnterneşnl" təşkilatı sonralar dünyanın 130-dan çox ölkəsində uşaq kəndləri yaratmış, on minlərlə uşaq və yüzlərlə qadın bunlarda rahatlıq tapmışdır. Bu təşkilatın Azərbaycana gəlişi ölkə başçısı Heydər Əliyevin beynəlxalq aləmdə artan nüfuzu və respublikamızda yaranmış ictimai-siyasi sabitlik sayəsində mümkün olmuşdur. 1997-ci ildə "SOS Kinderdorf İnterneşnl" təşkilatı ilə



Azərbaycan Respublikası hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən ilk layihə olan "Bakı SOS Uşaq Kəndi"nin tikintisi üçün Bakının Xətai rayonu ərazisində 4,5 hektar sahə ayrılmış və əlaqələndirmə işləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılmışdı. 1999-cu il iyulun 16-da "SOS uşaq kəndləri – Azərbaycan assosiasiyası" yaradıldı. "Sevil" Azərbaycan Qadınları Məclisinin sədri Sevil xanım Əliyeva onun prezidenti seçildi.

Türkiyənin "Enka" şirkəti "Bakı SOS uşaq kəndi"nin tikintisinə başlamış və qısa müddətdə – bir il ərzində işi başa çatdırmışdır. Kəndin ərazisində Avropa standartlarına uyğun 12 ailə evi, uşaq bağçası və 6 digər yardımçı bina tikilmiş, onlar müasir mebel və avadanlıqla təchiz edilmişdir. Ailə evlərinin hər birində 8-10, ümumilikdə isə uşaq kəndində 100-dən artıq yetim, kimsəsiz uşağın yaşaması və tərbiyə olunması nəzərdə tutulmuşdur. 2000-ci il noyabrın 2-də "Bakı SOS uşaq kəndi"nin istifadəyə verilməsinə həsr olunmuş mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyev iştirak və çıxış etmişdir. Ölkə başçısı uşaq kəndinin yaranması tarixindən və əhəmiyyətindən ətraflı bəhs edərək öz çıxışını təntənəli mərasimə toplaşanlara müraciətlə aşağıdakı sözlərlə bitirmişdi: "Arzu edirəm ki, hər birinizin övladı müstəqil Azərbaycanda yaxşı təhsil almaq, böyümək imkanı əldə etsin. Arzu edirəm ki, hamı birlikdə uşaqlara, xüsusən kimsəsiz uşaqlara qayğını artırsın".

Ölkə başçısının bu ülvi arzusu heç şübhə yoxdur ki, yaxın gələcəkdə uşaqlara dövlət qayğısını əks etdirən yeni qanunvericilik aktlarında və onların sürətlə həyata keçirilməsini təmin edən tədbirlərdə öz təzahürünü tapacaq və respublikanın bütün imkanlı vətəndaşlarının xeyriyyəçilik fəaliyyətini artırmağa çağıran proqram kimi səslənəcəkdir. Hələlik isə onu demək olar ki, 2001-ci ilin iyununda "SOS Kinderdorf İnterneşnl" təşkilatı ilə əldə olunmuş yeni razılığa əsasən, Azərbaycanda yaxın vaxtlarda ikinci "SOS–Uşaq kəndi" salınması barədə layihənin hazırlanmasına başlanmışdır.

## SON SÖZ

1991-ci ilin 18 oktyabr günü Azərbaycan milli tarixinin dönüş nöqtəsi olub xalqımızın yenidən öz dövlətinə, öz taleyinə, öz ölkəsinə sahib çıxdığı gündür. Buna görə də həmin gün ən yeni tariximizə qızıl hərflərlə yazılmış gün kimi daxil olmuşdur.

Dünyanın siyasi-ictimai mənzərəsində baş verən dəyişikliklər, eləcə də xalqların istiqlal duyğularının boğulması üzərində qurulmuş SSRİ adlı nəhəng imperiyanın dayaqlarının sarsılması nəticəsində Azərbaycan bu əsrdə ikinci dəfə idi ki, özünün milli müstəqillik duyğularından, milli istiqlal məfkurəsindən doğan müstəqil dövlət yaradırdı. Ürəklərə enmiş üçrəngli, "ulduzu Aya sığınan" bayraq illər ötdükdən sonra bir 18 oktyabr günü yenidən yüksələrək ən yeni tariximizi bəzədi.

On il bundan əvvəl Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsi ilə başlanan bu yol 20 yanvar faciəsindən keçib gələn bir yol idi. Heç bir günü rahat, hamar və asan keçilməyən bu yolda Xocalı dəhşəti kimi bir dəhşət də yaşanacaqdı.

Öz müstəqilliyini əldə edən zaman Azərbaycan olduqca ağır bir vəziyyətdə idi. Davakar separatizmin və terrorçuluğun bütün dəhşətləri ilə üzləşdiyimiz Qarabağ faciəsi özünü büruzə verdi. Ermənistanın bizə qarşı ərazi iddiaları nəticəsində torpaqlarımız düşmən tapdağı altına düşdü. Qaçqınlıq tariximizin birbirindən dəhşətli səhifələri yazıldı. Ana torpaq parça-parça olmaq təhlükəsiylə qarşı-qarşıya qalmışdı. Bir millət, xalq olaraq varlığımızın "olum, ya ölüm" günü idi...

Bu gün – yeni minilliyin və yeni yüzilliyin qovuşuğunda, əsrin və minilliyin ilk ilində müstəqilliyimizin on yaşı tamam olmaqdadır. Lakin Azərbaycan Respublikası indiki halı ilə əsrin onda birini yaşamış olan hələ gənc və təcrübəsiz bir dövlətdən daha çox zəngin dövlətçilik ənənəsinə malik bir dövlət təsiri bağışlayır və bu, həqiqətən də belədir. Milli istiqlalına qovuşmaqla məhz müstəqilliyi sayəsində bütün gələcək irəliləyişlərinin əsasını qoyan Azərbaycan xalqı onu yüksəlişdən qoyan imperiya əsarətindən, uçurumdan birdəfəlik qurtulmuşdur.

Əsl həqiqətdə də Azərbaycan dövləti və dövlətçiliyi son on ildə sanki əsrə bərabər bir ömür yaşamışdır. Üstəlik, 1991-ci ildən 2001-ci ilədək ötən zaman ərzində, yeni keçən on ildə yaşadıqları da bir dövlət kimi onu və vətəndaşını daha yetkin etmişdir. Belə bir yetkinlik isə eyni zamanda "ulu əcdadların ən qiymətli mirası olan istiqlaliyyət eşqinin" minillərlə ölçülən tarixindən, bir sözlə, bu günkü dövlətçiliyimizin qan yaddaşına hopan zəngin tarixi təcrübədən gəlir.

Azərbaycanın XX əsr tarixinə nəzər yetirək: tarix boyu öz milli azadlığı və müstəqil dövlətini yaratmaq uğrunda mübarizə aparan xalq 1918-ci ilin 28 may günündə öz ideallarına uyğun bir cümhuriyyət qurmuşdu. Cəmi 23 ay yaşamasına baxmayaraq, hələ Azərbaycan Xalq Cümhuriyyəti sübuta yetirmişdi ki, heç bir qüvvə bu xalqın azadlıq ideallarını və müstəqil dövlətçilik ənənələrini məhv etməyə qadir deyildir. Əsrin sonlarında tarix bir daha şahid oldu ki, azərbaycanlılar bir xalq olaraq min illərin dövlətçilik təcrübəsini varlığında yaşada-yaşada gəlir. Həmin minillərin təcrübəsidir ki, tarix üçün bir göz qırpımı qədər qısa sayılacaq zamanda – onca ildə Azərbaycan dövlətçiliyi bu qədər dərdlərin, ağrıların içində belə möhkəmlənə-möhkəmlənə bu günlərə gəldi və qəddini birdəfəlik düzəldərək inamlı addımlarla indi də yeni minilliyin yeni sabahlarına doğru irəliləməkdədir.

Tam müstəqil milli dövlət olmasa belə, Azərbaycan Sovet Sosialist Respublikası dövründə də milli dövlətçilik idealları yaşandı. Bu dövrdə, çəkilən bütün məhrumiyyətlərə, ayrı-ayrı illərdə xalqın milli-mənəvi dəyərlərinə sağalmaz yaralar vurulmasına baxmayaraq, xüsusilə 1969-1982-ci illərdə müdrik siyasi rəhbərlik sayəsində həyatın bütün sahələrində nəhəng potensial əldə olundu ki, məhz həmin potensial da illər sonra – XX əsrin sonunda yenidən qovuşduğumuz müstəqillik şəraitində respublikamız üçün çox gərəkli oldu. Çox təəssüf ki, sonralar "idrakı sönük başçıların qəfləti"ndən bu potensiala ağır zərbələr vuruldu və guya sovet mirası olduğundan "neobolşevik" əhvalı ilə onun dağıdılması üçün güclü səylər də göstərildi. Lakin xoşbəxtlikdən bütün bunlara anarxiyadan sabitliyə keçid dövründə son qoyuldu.

Kommunist ideologiyası və siyasi sistemindən qətiyyətlə imtina etmiş xalqımız totalitar sovet rejiminin buxovlarından azad olaraq müstəqil dövlət quruculuğu yollarında, milli əməl və milli iradə sahəsində tam birlik nümayiş etdirərək artıq öz tarixinin ən yeni səhifəsini açmış, milli və ümumbəşəri dəyərlərə söykənən demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq arzularını reallaşdırmaq istiqamətində addımlar atmağa başlamışdı.

Bu gün müstəqil Azərbaycan dövlətinin on illik tarixinin qısa təhlili göstərir ki, məhz suverenliyin həyata keçirildiyi ictimai-

siyasi mühitdə millətin taleyüklü problemləri ilə bağlı Azərbaycan dövləti bütün hallarda milli mənafelərdən çıxış etmişdir.

Doğrudur, bu on ilin ilk illəri bizə nə qədər ağrı-acılar yaşatdı, lakin bütün ağrı-acıları ilə bu, bizim müstəqillik tariximizin ayrılmaz parçasıdır. Müdriklər deyirlər ki, tarix bütün ibrət dərslərindən ən böyüyüdür. İbrət alınmadıqda isə tarix təkrar yaşanır. Bir daha yaşanmasın deyə keçmişdə yaşanılanların heç biri unudulmamalıdır.

Azərbaycanda demokratik və hüquqi dövlət quruculuğu prosesi müstəqilliyin ilk günlərindən müxtəlif problemlərin və maneələrin aradan qaldırılması ilə müşayiət olunurdu. Respublikamız bu yolda totalitar sovet rejimindən miras qalmış ictimai-siyasi problemlərin ağır nəticələrini, erməni separatizminin və Ermənistanın Azərbaycana hərbi təcavüzünün vurduğu yaraları, kəskin daxili-siyasi qarşıdurma və vətəndaş müharibəsi təhlükəsini, dövlət çevrilişi cəhdlərini və digər ağır siyasi, sosial-iqtisadi problemləri və onların doğurduğu nəticələri aradan qaldırmaq məcburiyyətində qalmışdı.

Müstəqillik əldə etdikdən sonra, Azərbaycanın zəngin iqtisadi və mənəvi-intellektual potensialından istifadə etməklə, onun siyasi-iqtisadi və strateji mənafelərinə uyğun olan müstəqil dövlətçiliyinin möhkəmləndirilməsi üçün geniş perspektivlər açılsa da, ölkənin hakimiyyət strukturlarının və müxalif siyasi qüvvələrinin yaranmış vəziyyəti düzgün qiymətləndirməməsi, əlverişli imkanlardan səmərəli istifadə etməməsi, ümummilli mənafelərin ayrı-ayrı qrupların cılız iddialarına qurban verilməsi daxili ictimai-siyasi vəziyyəti gərginləşdirir, ölkənin beynəlxalq mövqelərini zəiflədir və bununla da gənc suveren dövlətin inkişafına ciddi zərbə vurulurdu.

1991-1993-cü illər Azərbaycanın müstəqil inkişafı tarixində ictimai-siyasi durumun daha da kəskinləşməsi, müstəqil dövlətçiliyi süquta sürükləyən neqativ təzahürlərin meydana çıxması və təhlükəli xarakter alması dövrü kimi səciyyələndirilə bilər.

Xalqın geniş təbəqələrinin arzularını ifadə edən və onların qətiyyətli dəstəyinə söykənən Heydər Əliyevin ardıcıl səyləri ölkə daxilində və ölkə xaricindəki pozucu qüvvələrin Azərbaycanın ərazi bütövlüyünə və dövlət müstəqilliyinə qarşı yönəlmiş fəaliyyətinin qarşısını almağa imkan verdi. Respublikamız onun başı üzərini almış qanlı vətəndaş qarşıdurmasından və parçalanıb məhv olmaq təhlükəsindən xilas oldu.

Danılmaz həqiqətdir ki, ölkənin həyati mənafelərinə xidmət edən, dövlətin strateji maraqları üzərində qurulmuş, hərtərəfli işlənib hazırlanmış, özünün aydın, konkret vəzifə və istiqamətləri,



prinsipləri ilə seçilən, ardıcıl və prinsipial siyasi xətt yalnız 1993-cü ilin ikinci yarısından etibarən yürüdülməyə başlanmışdır.

Ötən dövrdə Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələrdən biri ölkənin ərazi bütövlüyünə və müstəqilliyinə ağır zərbə vuran, daxili ictimai-siyasi vəziyyəti gərginləşdirən bir faktor kimi Ermənistanın təcavüzünün dəf edilməsi və onun vurduğu ağır sosial-iqtisadi və mənəvi yaraları aradan qaldırmaqdan ibarət idi. Azərbaycan ordusunun qurulması sahəsində həyata keçirilən geniş və qətiyyətli tədbirlər onun döyüş qabiliyyətinin yüksəlməsinə və düşmənə layiqli cavab verməsinə imkan yaratdı. 1993-cü ilin sonu – 1994-cü ilin əvvəlində milli ordumuzun uğurlu əməliyyatları düşmənin niyyətlərini puça çıxardı və atəşkəsin əldə olunması üçün zəmin yaratdı.

1994-cü ilin sentyabrında dünyanın nüfuzlu neft şirkətlərinin daxil olduğu konsorsiumla imzalanmış "Əsrin müqaviləsi" Azərbaycana irihəcmli kapital qoyuluşuna və respublikamızın digər qlobal beynəlxalq iqtisadi layihələrdə iştirakına yol açdı. Lakin ictimai-siyasi sabitliyin təmin olunması və dövlət quruculuğu yolunda atılan uğurlu addımlar eyni zamanda öz cılız siyasi iddialarından əl çəkməyən müəyyən daxili destruktiv qüvvələri və onların xarici havadarlarını da hərəkətə gətirdi.

Azərbaycanın milli mənafelərinə düşmən kəsilmiş həmin qüvvələr müstəqil dövlətçiliyimizə qarşı açıq çıxış etməkdən çəkinməyərək, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında qanunsuz silahlı dəstələrin iştirakı ilə dövlət çevrilişinə cəhdlər etdilər. Heydər Əliyevin qətiyyəti və dövlətçiliyin qorunması naminə həyata keçirilən tədbirlər sayəsində bu cəhdlərin qarşısı alındı. Çevriliş cəhdlərinin iflasa uğraması göstərdi ki, Azərbaycan dövləti artıq davamlı olaraq xalqın böyük əksəriyyətinin dəstəyinə arxalanır. Bununla da 90-cı illərin əvvəllərindən formalaşmış və ölkəmizin imicinə güclü ziyan vurmuş praktikaya – silahlı qüvvələrdən istifadə edərək, zor tətbiqi yolu ilə hakimiyyətə gəlmək ənənəsinə birdəfəlik son qoyuldu. Azərbaycanda real vətəndaş müharibəsinin və gənc müstəqil dövlətin süqutu təhlükəsinin qarşısı alındıqdan sonra həyata keçirilən siyasi xətt 1995-ci ildə ölkənin ictimai-siyasi həyatında sabitliyin təmin olunmasına, siyasi, iqtisadi, hüquqi islahatların həyata keçirilməsinə başlamaqla, demokratik dəyərlərə söykənərək bilavasitə vətəndaş cəmiyyəti quruculuğu vəzifələrinin yerinə yetirilməsi ilə məşğul olmağa şərait yaratdı.

Azərbaycan dövləti öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Dövlətin dayaqlarının möhkəmlənməsi və ictimai-siyasi sabitliyin bərqərar edilməsi dövlət quruculuğu

işlərinin, əsaslı sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsinə imkan yaratdı. Məhz bu dövrdən etibarən, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsi istiqamətində köklü siyasi, sosial-iqtisadi və hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsi işinə başlanıldı.

Respublikamızın daxilində gedən demokratik proseslər və iqtisadi dəyişikliklər də əlavə olunmaqla, uğurlu xarici siyasət dünyanın ən qüdrətli dövlətlərinin, nüfuzlu təşkilatların və qurumların diqqətini Azərbaycana yönəltdi, beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratdı.

Azərbaycan xalqının əsas məqsədlərindən biri kimi qanunun aliliyinə və cəmiyyətin bütün üzvlərinin firavan həyatına, azad və sərbəst fəaliyyətinə təminat verən vətəndaş cəmiyyətinin bərqərar edilməsinin başlıca prinsipləri yeni mərhələnin başlanğıcını qoyan Konstitusiyada qanunvericilik yolu ilə təsbit edildi; xalqın yüksək siyasi mütəşəkkilliyi şəraitində 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasında ilk parlament seçkiləri keçirildi. Elə həmin gün referendum yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi. Konstitusiya Azərbaycanda demokratik dövlət və vətəndaş cəmiyyəti qurulmasının əsas istiqamətlərini və hüquqi prinsiplərini müəyyən etdi.

Qanunçuluğun möhkəmlənməsi, sosial-psixoloji gərginliyin tədricən aradan qalxması, cəmiyyətdə baş verən proseslərin gerçək demokratik müstəviyə keçirilməsi müstəqil dövlətin siyasi və hüquqi əsaslarının möhkəmləndirilməsi sahəsində ciddi və cəsarətli tədbirlər görülməsi ilə müşayiət olunurdu.

1995-ci ildə seçilmiş demokratik parlament ölkəmizdə həyata keçirilən demokratik islahatların qanunvericilik bazasının yaradılması sayəsində ictimai-siyasi sabitliyin möhkəmlənməsinə, yeni siyasi-iqtisadi sistemin qurulmasına öz töhfəsini verdi.

Azərbaycanın tarixi keçmişi ilə, "millətimizin adət-ənənələri ilə, xalqımızın bu günü və gələcəyi ilə bağlı milli ideologiya"nın təşəkkülü üçün real zəmin də məhz həmin vaxtlarda yarandı.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidentliyinə, 1999-cu ildə Bələdiyyələrə, 2000-ci ildə Milli Məclisə keçirilmiş seçkilərdə namizədlərin hamısına bərabər şəraitin yaradılması, seçicilərin öz iradəsini azad, demokratik və obyektiv ifadə etməsi üçün zəruri tədbirlərin görülməsi respublikamızın demokratiya və vətəndaş cəmiyyəti yolunda ardıcıl surətdə irəliləməsinin real təzahürü oldu.



2001-ci ilin əvvəlində isə Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi, Avropa ailəsinə qovuşması dövlətçiliyimiz tarixində böyük əhəmiyyət daşıyan hadisəyə çevrildi.

Azərbaycanın dövlət müstəqilliyini qorumaq, möhkəmlətmək və ölkəmizin dünya birliyinə inteqrasiya olunması üçün əlverişli beynəlxalq şəraitin təmin edilməsinə yönəlmiş çoxşaxəli, ardıcıl siyasətin nəticəsidir ki, respublikamız planetin siyasi xəritəsində özünəlayiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır. Məhz bu siyasətin nəticəsidir ki, indi "imzalar içində öz xətti olan" Azərbaycan dövləti hazırda bölgədə və dünyada baş verən əsas iqtisadi, siyasi, mədəni hadisə və proseslərdə layiqincə təmsil olunur, baş verənlərə öz münasibətini bildirir və milli mənafeləri əzmlə qoruyur.

İnsanların ictimai-siyasi şüur və özünüdərkinin yetkinliyi, əlbəttə, vətəndaş cəmiyyətini səciyyələndirən əsas amillərdəndir. Bu mənada yalnız yetkin cəmiyyət və güclü dövlət öz vətəndaşlarının hüquqlarının gerçəkləşməsinə, insanların rifah halının yüksəlməsinə, hüquq və azadlıqlarının qorunmasına təminat verə bilər. Azərbaycanın siyasi müstəqillik əldə etməsi və demokratik dövlət quruculuğu yoluna qədəm qoyması bu istiqamətdə əməli addımlar atmaq üçün geniş imkanlar açmışdır.

Beləliklə də, az bir zamanda çox böyük işlər görülmüşdür. Bu işlərdən ən böyüyü, əlbəttə, demokratik sistemli Azərbaycan Respublikasının yaradılmasıdır. Azərbaycan xalqının öz sərvəti olan Azərbaycan dövlətçiliyi onillik müstəqil inkişaf tarixində ən müxtəlif çətinliklərlə üzləşərək mürəkkəb yol keçmişdir. Yeni ictimai-siyasi sistemin təşəkkülü prosesini yaşayan Azərbaycan ona qarşı hələ də davam etməkdə olan hərbi təcavüzə və onun ağır nəticələrinə baxmayaraq, bütün potensialını səfərbər edərək demokratik inkişaf yolunda böyük uğurlar əldə etməkdədir. Müstəqilliyin ilk on ili ərzində gerçəkləşən milli ideyaların gücü ilə Azərbaycan mürəkkəb və sərt maneələri dəf edərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyəti formalaşması istiqamətində mühüm və qətiyyətli addımlarını atmaqda davam edir.

İnanırıq ki, "Azərbaycan Respublikası 1991-2001" kitabı gələcəyə daha inamla baxa bilmək üçün keçmişə nəzər salmağın gərəkli olduğunu dərk edən oxucuya onu aydın sabahlara aparan bir yolda müstəqillik tariximizin bu mühüm dövründən "külü deyil, odu götürməsində" yaxından köməklik göstərəcəkdir.

## MÜNDƏRİCAT

ÖN SÖZ ....................................................................11

I HİSSƏ

AZƏRBAYCANIN DÖVLƏTÇİLİK TARİXİNDƏN

**I FƏSİL**. Azərbaycan dövlətçiliyi ən qədim zamanlardan ilk demokratik respublikanın yaranmasınadək.......................17

**II FƏSİL**. Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk parlamentli respublika (*1918-ci il may – 1920-ci il aprel*).......31

**III FƏSİL**. Azərbaycan Sovet hakimiyyəti illərində............45

II HİSSƏ

AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ QORUNUB SAXLANMASI UĞRUNDA MÜBARİZƏ

**I FƏSİL**. SSRİ-nin dağılması və Azərbaycanın müstəqilliyinin bərpası

§ 1. SSRİ-nin dağılması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.....................................................................53
§ 2. Dağlıq Qarabağ münaqişəsi və ictimai-siyasi böhranın dərinləşməsi Qanlı Yanvar ..........................................60
§ 3. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması.......................77

**II FƏSİL**. Müstəqilliyin ilk illərində daxili siyasi vəziyyət və hakimiyyət böhranı (1991 – iyun 1993)

§ 1. Ermənistan-Azərbaycan müharibəsi. Siyasi hərc-mərclik və hakimiyyət uğrunda mübarizə ..............................95



§ 2. Vətəndaş müharibəsi vəziyyəti. Qurtuluş hərəkatının başlanması .....................................................................106

**III FƏSİL**. Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə (iyun 1993 – 1995)

Müharibədə vəziyyət. Ordu quruculuğu. Düşmən hücumunun qarşısının alınması ..........................................111

III HİSSƏ

MÜSTƏQİL DÖVLƏT QURUCULUĞUNUN ƏSAS İSTİQAMƏTLƏRİ

**I FƏSİL**. Hüquqi dövlət quruculuğu

§ 1. Qanunçuluğun bərpası ...............................................116
§ 2. Konstitusiyanın qəbul olunması...................................125
§ 3. *Demokratik təsisatlar, insan hüquqları və azadlıqları* .....................................................................131
§ 4. Hüquq islahatları.......................................................138
§ 5. Müstəqil məhkəmə hakimiyyətinin formalaşması .....151

**II FƏSİL**. İqtisadi və sosial inkişaf

§ 1. *Yeni iqtisadi sistemə keçid: iqtisadi siyasətin* formalaşması və makroiqtisadi tarazlığın əldə edilməsi.......159
§ 2. Müstəqil Azərbaycanın neft strategiyası ....................164
§ 3. İnvestisiya siyasəti ......................................................175
§ 4. Dövlət əmlakının özəlləşdirilməsi və sahibkarlığın inkişafı .............................................................................180
§ 5. Aqrar və torpaq islahatları ...........................................184
§ 6. Xarici iqtisadi siyasət...................................................187
§ 7. Maliyyə, valyuta və pul-kredit siyasəti, bank sisteminin inkişafı ..........................................................191
§ 8. Əhalinin rifahının yaxşılaşdırılması və sosial müdafiəsi ..........................................................................195

**III FƏSİL**. Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması

§ 1. İctimai-siyasi sabitliyin möhkəmləndirilməsi və vətəndaş cəmiyyəti quruculuğu prosesinin başlanması .......199

§ 2. *Vətəndaş cəmiyyətinin strukturu: siyasi partiyalar,* qeyri-hökumət təşkilatları və digər vətəndaş təsisatları........207
§ 3. Söz və vicdan azadlığının bərqərar olması ..............218

**IV FƏSİL**. Azərbaycanda milli təhlükəsizlik və xarici siyasət problemləri

§ 1. Milli təhlükəsizliyin təmin edilməsi..........................226
§ 2. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması və inkişafı ..........................................................238
§ 3. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamət, məqsəd, vəzifə və prioritetlərinin müəyyən olunması ..........................................................247
§ 4. Dağlıq Qarabağ problemi və Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində fəaliyyət......254
§ 5. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası: ikitərəfli və çoxtərəfli əlaqələr, beynəlxalq təşkilatlarla əməkdaşlıq ..........................................................262

**V FƏSİL**. Milli-mənəvi inkişaf

§ 1. Elm və təhsil siyasəti..................................................272
§ 2. Mədəniyyətin inkişafı..................................................284
§ 3. Milli-mənəvi dəyərlərin qorunması ..........................292
§ 4. Azərbaycançılıq və soykökə qayıdış ........................300
§ 5. Gənclər siyasəti ..........................................................310

**VI FƏSİL**. Sağlamlıq və ətraf mühitin qorunması

§ 1. Səhiyyə islahatları ......................................................317
§ 2. Sağlamlıq və ətraf mühitin mühafizəsi......................327
§ 3. Analıq və qadın hüquqları..........................................334
§ 4. Uşaqlara dövlət qayğısı ..............................................344

**SON SÖZ**..........................................................................350



**Azərbaycan Respublikası 1991-2001**

Redaktor T.Həsənov
Texniki redaktor Ə.Güləliyev
Kompüter tərtibatı A.Tağızadə, E.Məcidov

Çapa imzalanıb 10.10.2001. Formatı 60x90 $^1/_{16}$.
Ofset kağızı. Ofset çapı. Fiziki çap vərəqi 22,5. Tirajı 2000.

Sifariş № 300

"QIZIL ŞƏRQ" MƏTBƏƏSİ

XXI–Yeni Nəşrlər Evi